AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M.FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 2

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2013

Jurnalın təsisçiləri: Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu, «Elm və təhsil» nəşriyyatı

REDAKSİYA HEYƏTİ: akademik Ağamusa Axundov, akademik Vasim Məmmədəliyev, akademik İsa Həbibbəyli, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Tofiq Hacıyev, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Nizami Cəfərov, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Teymur Kərimli, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Əbülfəz Quliyev, f.e.d., prof. Fəxrəddin Veysəlov, f.e.d., prof. Vilayət Əliyev, f.e.d., prof. Qəzənfər Kazımov, f.e.d., prof. Rüfət Rüstəmov, f.e.d., prof. Məsud Mahmudov, f.e.d., prof. Mübariz Yusifov, f.e.d., prof. Qəzənfər Paşayev, f.e.d., prof. Əbülfəz Rəcəbli, f.e.d., prof. Nizami Xudiyev, f.e.d., prof. Cəlil Nağıyev, f.e.d., prof. Nadir Məmmədli, f.e.d. Kamilə Vəliyeva, f.e.d. prof. Azadə Musayeva, f.e.d. Möhsün Nağısoylu, fil.ü.f.d. Paşa Kərimov, fil.ü.f.d. Nəzakət Məmmədli, fil.ü.f.d. Elxan Yusifov

Buraxılışa məsul: fil.ü.f.d. Paşa Kərimov
Rəyçi: f.e.d., prof. Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2013, №2.

ISSN 2224-9257

© "Elm və təhsil" nəşriyyatı, 2013

www.filologiyameseleleri.com

DİLÇİLİK

SEVİNDİK VƏLİYEV
Filologiya üzrə elmlər doktoru, professor
Naxçıvan Dövlət Universiteti
sevindikveliyev@rambler.ru

BİR DAHA SADƏ CÜMLƏNİN SEMANTİK STRUKTURU HAQQINDA

Açar sözlər: sadə cümlə, semantik struktur, predikatdan, subyekt, obyekt, konkretləşdirici, atribut.
Ключевые слова: простое предложения, семантическая структуре, предикат, субъект, объект, конкретизатор, атрибут.
Key words: simple sentence, semantic structure, subject, object, attribute.

Cümlə ifadə və məzmun planı olan mürəkkəb predikativ dil işarəsidir. Cümlənin məzmunu müşahidə olunmayan məzmundur, təfəkkürdə mövcuddur, duyğu üzvləri ilə hiss olunmazdır. Çünki duyğu üzvləri yalnız eksponenti, dilin maddi hissəsini «qavraya» bilir.

Tədqiqatçıların qeyd etdiyi kimi, bu müşahidə olunmaz obyekt mürəkkəb quruluşa malikdir. Bu fikri yeni dilçilikdə əmələ gəlmiş terminlər də əyani şəkildə göstərir. Həmin terminlərə aşağıdakıları nümunə göstərə bilərik: dərin struktur, semantik struktur, əsasda duran struktur, predikat ifadə və s.

Semantik təhlilin əsas funksiyası sadə cümlənin semantik quruluşunun araşdırılmasıdır. Lakin bir sıra obyektiv səbəblərə görə həmin prosesi həyata keçirmək çətindir. Məntiqi təhlil yolu ilə tədqiq olunan obyektin tərkib hissələrinə ayrılması metodu maraqlı nəticələr əldə olunmasına imkan yaradır. Həmin metodun köməyi ilə sadə cümlə tərkib elementlərinə (semantik komponentlərinə), sonra isə hər bir semantik komponentdə, öz növbəsində, üzvlənən həmin hissələrinə (semantik strukturlara) ayrılır. Məntiqi təhlil prosesində ayrılmış bir hissələr sonralar məntiqi sintez üsulu ilə yenidən birləşdirilir. Obyektin hissələrini bilmək – hələ tam obyekti bilmək deyil, bu sadə cümlənin semantik strukturunun, onun ayrı-ayrı hissələrinin sadəcə cəmlənməsi kimi başa düşülməlidir. Biz sintez prosesində tamla hissələrin qarşılıqlı əlaqəsini öyrənmiş oluruq. Bəlkə də bunu nəzərə alaraq cümlənin semantik strukturunu təşkil edən elementləri iki hissəyə bölürlər: 1) semantik vahidlər və semantik münasibətlər (156, s.131).

L.Yelmslev sadə cümlənin strukturuna «daxili asanlılıqları olan avtonom mahiyyət» kimi baxır (203, s.122).

Sadə cümlənin semantik strukturunun formalaşmasında semantik komponentlər mürəkkəb qarşılıqlı münasibətdə olur. Semantik struktur iyerarxik quruluşla səciyyələnir. Ənənəvi sintaksisdə cümlənin baş və ikinci dərəcəli üzvlərə ayrılması da bu prinsipə əsaslanır. Lakin istər ənənəvi dilçilikdə, istərsə də yeni dilçilikdə cümlə komponentinin cümlənin quruluşunda oynadığı rolun müəyyənləşdirilməsi mübahisəli olaraq qalır.

Digər tərəfdən də cümlə modellərinin struktur semantik cəhətdən təsnifi üçün bu amilin aparıcı əhəmiyyəti vardır.

Sintaktik tədqiqatların əksəriyyətində mübtəda və xəbər sadə cümlənin baş üzvləri kimi izah olunur. İkinci dərəcəli üzvlər isə baş üzvlərin formalaşmasının izahına xidmət edir. Bu prosesdə tamamlıq və zərflik xəbərə, təyin mübtədaya, tamamlığa və ad nitq hissələri ilə ifadə olunan xəbərə, xəbər isə mübtədaya tabe olur. Beləliklə, belə hesab olunur ki, mübtəda müstəqil, asılı olmayan üzvüdür. G.M.Musayev belə hesab edir ki, mübtəda bütün cümlə üzvlərini özünə tabe edir, bəzilərini vasitəsiz, bəzilərini isə vasitəli (233, s.27). Lakin bu mübtəda bütün dilçilər tərəfindən qəbul edilmir. Bəzi dilçilərin nöqteyi-nəzərincə isə, cümlənin ən əsas baş üzvü xəbərdir, bütün digər üzvlər, o cümlədən, mübtəda xəbərə tabedir, onunla idarə olunur (334).

N.A.Baskakov göstərir ki, qaraqalpaq dilində bütün digər cümlə üzvləri xəbər ətrafında birləşmiş olur, təkcə mindi sözündə bütöv bir fikir ifadə olunmuşdur: «O, nəyə isə oturdu» (112, s.61).

N.Z.Hacıyeva bu məsələ ilə bağlı qeyd edir ki, xəbərin qrammatik ifadəsi cümlənin tipini müəyyənləşdirir –ad və ya fel, türk dillərində cümlənin genezisi problemi, xəbərin təbiəti ilə üzvi şəkildə bağlıdır (143, s.155).

Qeyd etmək lazımdır ki, təkcə türkoloqlar deyil, digər dilçi alimlər də sadə cümlə strukturunda xəbərin müstəsna rolunu qeyd etmişlər. Məsələn, O.Yespersen bu məsələ ilə əlaqədar öz fikrini belə şəhr edir: Fel cümləyə həyat verir və ona görə də cümlənin qurulması üçün çox əhəmiyyətlidir (204, s.95).

V.Q. Admoni də xəbəri struktur baxımdan cümlənin ən zəruri üzvü hesab edir (80, s.24).

A.Maye belə bir müddəanı əsaslandırır ki, fel cümlənin yeganə, mühüm və sabit elementidir (218, s.360).

Beləliklə, yuxarıda göstərilən fikirləri yekunlaşdıraraq belə bir nəticəyə gəlmək olar ki, sadə cümlənin iyerarxik quruluşu məsələsi tədqiqatçılar tərəfindən müxtəlif cür izah olunur: bəziləri cümlə üzvləri arasında qrammatik əlaqə tipini, bəziləri cümlənin təşkilində cümlə üzvlərinin rolunu, başqaları isə bu və ya digər əlamətləri əsas götürürlər. Nəticədə də bir-biri ilə ziddiyyət təşkil edən fikirlər meydana çıxır ki, onları da aşağıdakı kimi qruplaşdırmaq olar:

1) İyerarxiyanın zirvəsini mübtəda və xəbər təşkil edir; 2) cümlənin baş üzvü (nüvəsi) yalnız xəbərdir; 3) iyerarxik münasibətlərin zirvəsini mübtəda təşkil edir.

Ənənəvi dilçilikdən fərqli olaraq yeni sintaksisdə ikinci fikrə üstünlük verilir. Cümlənin semantik sintaksisi ilə məşğul olan dilçilərin bir çoxu bu fikirdədirlər ki, sadə cümlənin mənası – ümumiləşmiş mənasına görə predikatın səciyyəsindən, predikata məna münasibətlərinə görə arqumentlərin səciyyəsindən yaranır (167, s.78; 222, s.83).

Bununla əlaqədar semantik subyekt kateqoriyası da meydana çıxmışdır. Bu ideyanın mahiyyətini aşağıdakı kimi izah etmək olar: sadə cümlənin semantik quruluşunun formalaşması üçün hadisə iştirakçılarından biri məlumat daşıyıcı funksiyasını yerinə yetirir, predikat əlamət daşıyaraq ayrılır və çıxış mövqeyi təşkil edir. Bütün digər elementlər (üzvlər, əgər onlar varsa) predikatı yaymaq (genişləndirmək) funksiyasında olur. Predikat, «müəyyənləşdirici», «yaradıcı» komponent kimi subyektin hərəkətini, hal-vəziyyətini və digər əlamətləri

ifadə edir (286, s.208). Onun mənası çox vaxt subyektə istiqamətlənmiş olur, cümlədə leksik və morfoloji vasitələrlə, bəzən isə hər ikisi ilə eyni zamanda ifadə olunur.

N.Z.Hacıyeva göstərir ki, türk dillərinin cümlə quruluşunda bu vasitələrdən biri (leksik və ya morfoloji) buraxıla bilər. Müqayisə et: Men jazşçuma – mən yazıçıyam. Men jazşçu – Mən yazıçı. Jazşçuma – Yazıçıyam (143, s.156).

Türk dillərinin sadə cümlələrində bu komponentlərin ikisi də buraxıla bilməz, çünki bu zaman cümlə strukturu dağılmış olar. Bu o deməkdir ki, predikat və subyekt nisbi anlayışlardır.

Oğuz qrupu türk dillərində sadə cümlənin sintaktik-semantik tərkibi son nəticədə daha çox predikatın mövqe və təşkiledicilik əlamətindən asılı olur. Buna görə də, cümlənin təşkili prosesində çıxış məntəqəsi rolunu predikat oynayır. Aşağıdakı cümlələrə diqqət yetirək: O, oradan səninlə piyada gəlir; O, səndən yaşca böyükdür; O, onu səndən aldı; Bu, onundur. Ol, düelə daklişir gitdi; Ol Aşırdan dövletli (T-m); Ol, senden iyi (T). Bu sadə cümlələrdə subyekt bir sözlə ifadə olunmuşdur. Buna baxmayaraq, ifadə və məzmun planına görə bu sadə cümlələr fərqlidirlər. Bu, onların predikatlarının müxtəlif səviyyələrə malik olması ilə şərtlənir. Predikat cümlədə subyektin olub-olmamasını müəyyənləşdirir. Beləliklə, sadə cümlə komponentlərinin kəmiyyət və keyfiyyəti predikatla şərtlənir. Bu, komponentlərin təşkili də predikatdan asılı olur.

Sadə cümlənin strukturunda əhəmiyyətinə görə ikinci mühüm komponent subyekt, üçüncü subyekt, dördüncü konkretləşdirici, beşinci atributdur. Semantik cümlələrin əksəriyyətində subyekt iştirak edir. Məlumat tamlığının təmini baxımından obyektin mühümlüyü bir sıra tədqiqatçılar tərəfindən qeyd edilmişdir. Obyekt semantik kateqoriyasının xarakterik xüsusiyyəti ondan ibarətdir ki, obyekt-istiqamət məzmunu daşıyan predikatlı cümlələr bu kateqoriya olmadan məlumat bütövlüyü əldə edə bilmir. Məsələn, Tural aldı – Tural məktub aldı (A), Zöxrə qordi – Zöxrə Qovxeri qordi (T-m). Məhz bu əlamətinə görə dilçilik ədəbiyyatlarında tamamlığın da cümlənin baş üzvləri kateqoriyasına daxil edilməsi fikrinə rast gəlinir (82).

Məlum olduğu kimi, sadə cümlənin digər semantik komponentlərindən fərqli olaraq atribut birbaşa predikatla əlaqəli olur. Atribut obyekt, subyekt və ya digər atributla əlaqələnir. Buna görə də atributu sadə cümlənin semantik komponenti hesab etmirlər. Bəzən atributu sadə cümlənin deyil, atribut söz birləşmələrinin tərkib hissəsi sayırlar. Bununla belə atribut bəzən sadə cümlənin məna elementi funksiyasında da çıxış edə bilir. Aşağıdakı cümlələrə diqqət yetirək: Mənim qələmim səndədir – Qələmim səndədir. Birinci cümlədə atribut həm leksik, həm də morfoloji, ikincidə isə yalnız morfoloji cəhətdən ifadə olunmuşdur. Atributun ifadəsində leksik vasitəsinin buraxılması cümlənin sintaktik strukturunun dəyişməsinə gətirib çıxarır. Cümlənin semantik strukturu isə bu prosesdə dəyişməz qalır. Atributun morfoloji ifadə vasitələrinin buraxılması qeyri-mümkündür. Buna görə də «Kitabım səndədir» sadə cümlə konstruksiyası tərkibində atribut müstəqil semantik tip kimi nəzərdən keçirilir.

Yuxarıda deyilənlərə əsasən belə bir fikrə gəlmək olar ki, cümlənin semantik strukturunda şərti olaraq predikat və subyekti baş, obyekt və konkretləşdiricini ikinci dərəcəli, atributu isə üçüncü dərəcəli komponent hesab etmək olar.

Sadə cümlənin semantik komponentləri arasında aşağıdakı əsas semantik

münasibətlər tipi də müəyyənləşdirilmişdir: predikasiya, tamamlıq, konkretləşmə, atributsiya (275, s.174-179).

Cümlənin məna strukturunun komponentlərinin mahiyyəti bu münasibətlərdə aydınlaşır. Dilçilikdə sadə cümlənin semantik strukturu bəzən semantik komponentlərin yığımı və ya elementar mənaların məcmuyu kimi şərh olunur. Lakin bu şərhi tamamlanmış hesab etmək olmaz. Məsələ burasındadır ki, semantik strukturun xüsusiyyəti təkcə semantik komponentlərin yığımı ildə deyil, həm də bu komponentlər arasında olan münasibət, qarşılıqlı əlaqə əsasında müəyyənləşir. Buna görə də sadə cümlənin semantik strukturunun təyini üçün onun komponentlərinin semantik xüsusiyyətlərinin araşdırılması kifayət deyildir. Ayrı-ayrı komponentlər arasında məna əlaqələrinin səciyyələndirilməsi də bu problemin həlli üçün olduqca zəruridir.

Sadə cümlənin struktur-semantik təsnifi məsələlərinə toxunaraq Q.A.-Zolotoya yazır: «İstənilən sintaktik quruluş yalnız elementlər arasında əlaqənin varlığı ilə deyil, həmçinin bu əlaqələrin xarakteri ilə səciyyələnir (201, s.14).

Sadə cümlədəki semantik komponentlər arasındakı münasibət obyektiv həqiqətin faktları arasında olan münasibəti əks etdirən sintaktik və məna əlaqələri ilə müəyyənləşdirilir (307, s.8-9).

«Mən oxumayacağam» (A); Ben okumayacağam (T), «Mənim oxumağa heç nəyim yoxdur» sadə cümlələri eyni maddi qabığı malikdir. Lakin onların müxtəlif sintaktik və semantik strukturları vardır. Sadə cümlədə semantik komponentlər arasında münasibətlərin qeydə alınması bu qəbildən olan omonim konstruksiyaların təhlili üçün də çox əhəmiyyətlidir.

Sadə cümlənin semantik strukturunda məna üzvlərə ayrılmış şəkildə verilir. Məsələn, Mən onu görürəm» (A) – Ben onu görüyorum (T) cümləsinin semantik strukturu hiss edən, duyan subyektdən, duyulan, hiss olunan obyektlərdən və predikat qavrayışından ibarətdir. «O, xəstədir» (A); Ol, satqın (T-m); Ol, xasta (T) sadə cümlələri isə hal-vəziyyət subyektindən və hal-vəziyyət predikatından əmələ gəlmişdir.

Əgər cümlənin mənası, onun semantik strukturunda üzvlərə ayrılmış şəkildə verilərsə, cümlənin ümumi semantikasında o, bütöv tam kimi əks olunur. Məsələn, «Orada soyuqdur» (A), Köydə davadır (T) sadə cümlələrinin ümumi semantikası müəyyən vokal boşluqda subyektsiz situasiyanın əlaməti kimi müəyyən hal, vəziyyətin mövcudluğunu göstərir. Deməli, cümlənin ümumi semantikası komponentlər üzrə, məna əlaqələri əsasında qurulur və cümlənin ümumiləşdirilmiş məlumat mahiyyətini göstərir. Onun dialektik səciyyəsi cümlənin semantik strukturunda komponentlər arasında qarşılıqlı əlaqənin əksi ilə səciyyələnir. Sadə cümlənin ümumi semantikası göstərir ki, onun mənası komponentlər mənasının cəmi deyil, komponentlərin qarşılıqlı əlaqələrindən doğan keyfiyyətcə yeni mənadır. Məsələn, «Mənim kitabım vardır», «Qövxerin çaqaları var (T-m) və «Mən sağlamam», «Men saqam» (T-m), «Men qulluqçı» (T-m) – cadə cümlələri ifadə formalarına görə identik cümlələrdir, lakin məzmun planına görə çox fərqlidir. Cümlələrin semantik strukturu: sahiblik subyekti, predmet varlığı, predikat varlığıdır. Onun ümumi semantikası: şəxs subyektində müəyyən bir əşyanın varlığıdır. Digər cümlələrin semantik strukturu hal-vəziyyət strukturu, hal-vəziyyət predikatıdır. Onların ümumi semantikası: şəxs subyektinin hal və vəziyyətinin ifadəsidir. Bu sadə cümlələr səthi səviyyədə dig-

ər formalarla da ifadə ola bilər.

Beləliklə, araşdırmalar belə bir nəticəyə gəlməyə imkan verir ki, cümlə çox aspektli sintaktik vahiddir. Müasir dilçiliyin əsas vəzifələrindən biri də sadə cümlənin struktur-semantik aspektlərini öyrənməkdir.

Ədəbiyyat

1. Адмони В.Г. Исторический синтаксис немецкого языка. Москва, «Наука», 1963
2. Адмони В.Г. Типология предложения. Б кн.: «Исследования по общей теории грамматики». Москва, 1968
3. Баскаков А.Н. Предложение и словосочетание в тюркских языках. В кн.: «Исследование по современной грамматике тюркских языков, ч.III (Синтаксис), Изд. АН СССР, 1961
4. Гаджиева Н.З. Основные пути развития синтаксические структуры тюркских языков. Москва, «Наука», 1973
5. Городецкий Б.Ю. К проблеме семантической типологии. Изд. МГУ, 1969
6. Долинина И.Б. Системный анализ предложения (на материале английского языка), Москва, «Высшая школа», 1977
7. Золотова Г.А. Очерк функционального синтаксиса русского языка. Москва, «Наука», 1973
8. Ельмслев Л. Можно ли считать, что значения слова образуют структуру. «Новое в лингвистике», вып.2, М., 1962
9. Есперсен О. Философия грамматики. Москва, 1958
10. Мейе А. Введение в сравнительное изучение индоевропейских языков. Москва, 1938
11. Москальская О.И. Проблемы системного описания синтаксиса. Москва, 1974
12. Мурадов А. Неполные предложения в современном туркменском языке. АКД, Ашхабад, 1977
13. Мусаев К.М. Строй караимского языка. АДД, Баку, 1968
14. Смирницкий А.И. Синтаксис английского языка. Москва, 1957
15. Тенишев Е.Р. Строй саларского языка. Москва, «Наука», 1976
16. Чеснокова Л.Д. О синтаксических единицах и синтаксических отношениях. В.сб.: «Вопросы синтаксиса русского языка», Тамбов, 1973
17. Alparov Q. Salanma xazmetlar. Kazan, 1945

Севиндик Велиев

Еще раз к вопросу о семантической структуре простого предложения

Резюме

В статье говорится о семантической структуре простого предложения в языкознании, в частности в тюркологическом и азербайджанском языкознании, о семантических отношениях между его компонентами. В ней также рассматриваются участие и роль предиката, субъекта, объекта, конкретизатора и атрибута в простом предложении.

Sevindik Veliyev

On the semantic structure of simple sentence once more

Summary

In the article it has been dealt with the semantic structure of simple sentence, the semantic relations among its components in linguistic, including turkology and Azerbaijani and taking part an important role and place of predicate, subject, object and attribute in the structure of simple sentence.

Rəyçi: Nadir Məmmədli
filologiya elmləri doktoru, professor

***Dos.*Ə.M.RÜSTƏMOV**
Sumqayıt Dövlət Universiteti

ZƏNGƏZUR BÖLGƏSİNİN QUBADLI RAYONUNUN BƏZİ TOPONİMLƏRİ

Açar sözlə*r:* *toponim, etnonim, etnotoponim, oykonim.*
Key words: *toponym, etnoym, etnotoponym, oyconym.*
The linqvistic analysis of some toponyms of Qubadli region.
Ключевые слова*:* *топоним, етноним, етнотопоним, оуконим.*

Qazlıq – Qazyan toponimi. Zəngəzur ərazisinin toponimiyasında türk mənşəli toponimlər sərasında oğuzlarla bağlı coğrafi adlar üstünlük edir. Bu adlar sırasında xalqımızın ən möhtəşəm abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanları ilə bağlı çoxsaylı toponimlərə rast gəlirik. Oğuz tayfaları ilə "Kitabi-Dədə Qorqud"la bağlı olan onomastik vahidlərdən biri Zəngəzurun Qubadlı rayonu ərazisində olan *Qazliq* adlı toponimidir. Bu coğrafi ad həmin rayonun Xocahan sovetliyinin tərkibində mövcud olan və sonralar passiv fonda daxil olan coğrafi adlardandır. Əslində bu cür *"lal""* boylarından toponimlər aşkarlanmalı, üzə çıxarılmalı, kimliyi müəyyənləşdirilməlidir. 1933-cü ildə bərpa olunmuş Qubadlı rayonunda qeydə alınan coğrafi adlardan biri *Qazlıq* oykonimidir. Çox zaman ya səslənməsi xoşa gəlməyən, mənası aydın görünməyən coğrafi adlar ya dəyişdirilir, ya da unudularaq yaddan çıxır. Şübhə etmir ki, *Qazlıq* etnonimidir. Ən azı "Kitabi-Dədə Qorqud" personajlarından birinin adıdır. Qeyd edək ki, "Kitabi-Dədə Qorqudbirinin adı "Qazlıq qoca oğlu Yegnəyin boyu" adlanır. Bu boyda əsas qəhrəman Qazlıq qocadır. Bu obraz Dədəm Qorqud qəhrəmanları içərisində mötəbər, titullu qəhrəmanlardan biri olduğu üçün bu boy birbaşa onun adı ilə bağlıdır. Boyda deyilir: "...Qazlıq Qoca deyilən bir kişi vardır. Bayandır xanın vəziri idi" (4, səh.94). Demək, Qazlıq Qoca İç Oğuz bəylərindəndir. Oğuzlar içərisində nüfuzu vardır.

Zonanın toponimiyasını tədqiq etdikdə aydın görürük ki, burada "Dədə Qorqud" personajları, ümumiyyətlə, "Dədə Qorqud" onomastikası ilə əlaqədar çoxsaylı etnotoponimlərə rast gəlirik. Deyə bilərik ki, "Kitabi-Dədə Qorqud" qəhrəmanları (*Dondarlı* adlı toponim vardır. Yenə orada: "İyirmi dörd sancaq bəyləri gəlsin. Birincisi, Dəmir Qapı Dərbənd bəyi, qarğı personajları) ilə bağlı hər bir coğrafi ad etnotoponimdir. Dastanın bir neçə boyunda, o cümlədən "Qazlıq Qoca oğlu Yeynəyin boyu"nda adı çəkilən *Dəli Dondar* personajının adı ilə bağlı Qubadlı rayonu ərazisində süngü ucunda ər böyüdən, döyüşə girəndə kimsən deyə soruşmayan Qıyan Səlçik oğlu Dəli Dondar səninlə birlikdə gəlsin" (4, səh.95). Bu haqda qeyd etmişik.

Yenə həmin boyda alban//alpan etnoniminə rast gəlirik. Dastanda: "...Ağ-boz atlar çapdıran alpanlar gördüm" (4, səh.95).

Albanlar//alpanlar o kəslərdir ki, onların başında Qazan xan dayanırdı. Bunu da qeyd edək ki, Qərbi Azərbaycan ərazisində Gorus rayonunda Ağvanlı//Alpanlı kəndi də mövcuddur (Bu haqda da məlumat vermişik). Çox qəribədir ki, Qubadlı

rayonunun Xocahan sovetliyinin "Kitabi-Dədə Qorqud" ilə bağlı olan toponimlərindən biri Qazan xanın atası olan *Ulaş* adı ilə bağlı *Ulaşlı* etnotoponimidir (Bu haqda da məlumat vermişik).

Ana kitabımız "Kitabi-Dədə Qorqud"da *Qazlıq* sözü oronim kimi çıxış etmişdir. Dastanın I boyunda Qazlıq dağının adı çəkilir.

"...Birər ayıda otlarına qarğamagil,
Qazlıq tağının suçu yoqdır.
Arslanla qaplanına qarğamagil,
Qazlıq tağının suçu yoqdır" (4, səh.39).

Dastanda adı çəkilən Qazlıq türklərin müqəddəs bildiyi, tapındığı, uca bildiyi, ucalıq rəmzi olan dağdır.

Biz burada oğuz//quz//ğuz adı ilə bağlı bir toponimin – etnotoponimin adını çəkmək istəyirik. Bu, Zəngəzur ərazisinin Laçın rayonu bölgəsində, Cicimli sovetliyində yerləşən *Qaz dərə* toponimidir. Bu toponimi birinci hissəsi olan *Qaz(ı)* sözü oğuz sözünün nüvəsində dayanan komponentdir. Yəni Oğuza//quva//qava mənsub olan dərədir.

Bəzi tədqiqatçılar *Qazlıq dağını* Qafqaz dağı kimi təqdim edirlər. Mərhum prof.Ə.Dəmirçizadə Qafqaz sözünün açımını verərkən belə qənaətə gəlir: "...Qafqaz sözü dağ mənasında olan *"qaf"* sözü ilə tayfa adı *qav//qas* sözlərinin *"qaslar//qavlar dağı"* mənasını verən birləşməsindən başqa bir şey deyildir. Məhz buna görə də "KDQ"-də adı çəkilən *Qazlıq dağı* Qafqaz dağından başqa bir şey deyildir" (3, səh.35).

tərzi: bu, Qazan xanın evini yağmalatdırdığı XII boyda daha qabarıq görünür) hücumları Qazan xanla bağlı idi.

Qazlıq dağı//tağı birləşməsində də yenə biz *qaz//qas* elementini yüksəklik, ucalıq mənasına aid olduğunu və *"yüksəklik dağı"*, *"ucalıq dağı"* bildirdiyini aydın görürük, *Qazlıq atı* birləşməsində biz atın güclü, bərk qaçan at, uca at, ən yaxşı at, güclü at mənasına uyğun gəlir.

Qaz//qaz//quz//ğuz tərkibindən yaranmış qədim qala adlarına XI əsrin müəllifi, türkologiyanın babası M.Kaşqarinin "Divani-lüğət-it türk" əsərində rast gəlirik. M.Kaşqarlı məşhur əsərində *"Kaz"* adını – Əfrasiyabin qızının adı kimi, Kaz oynu –Kazın (Əfrasiyabın qızının) qurduğu indiki Qəzvin şəhərini, Qaz suyu//suv dedikdə İla çayına axan iri bir çayı nəzərdə tuturdu (1, s.733).

Mahmud Kaşğariyə görə, Qəzvin//Kazvin şəhərini Əfrasiyabın qızı tikmişdir. Kazvin sözünün əsli "Əfrasiyabın qızı orada yaşayır, orada oynayırmış. Ona görə də bəzi türklər Qəzvini türk şəhəri sayırdılar (1, Kaz oynu"dur. Kazın oynadığı yer, sahədir. Çünki s.151-152). Burada da qaz yüksəklik mənasında işlədilmişdir. Hakim təbəqələr həmişə özlərini qaza – yüksəkliyə, ucalığa, dağa oxşatmağa çalışmışlar.

Gətirilən tarixi toponimlərdən *Qazlıq, Qazyan, Qazı dərə, Qazançı, Qazan dağı, Qazan gölü, Qazangöl dağı, Qazangöl keçidi, Qız qalası (Qır qalası),* etnoqrafik ki, bu coğrafi obyektlərin adları təkcə Zəngəzur bölgəsinə aiddir. Yalnız bir bölgənin materiallardan aydınlaşır ki, qaz//qas//qız//quz tərkibi ya müstəqil, ya şəkilçi qəbul edilərək, ya da başqa bir sözlə birləşərək erkən orta əsrlərdən onomastik vahidlərin tərkibində işlənmişdir. Maraqlıdır ərazisində 10-a qədər tərkibində qaz//qas//oğuz elementi olan coğrafi adlar var ki, bunların da digər bölgələrdə areallığı tədqiq olunsa, bunlar sayı qeyd olunanlardan qat-qat artıq olar.

Bu sadalanan toponimlərin türk, o cümlədən Azərbaycan dilində işlənməsi göstərir ki, burada azərbaycanlılar-türkdillilər lap qədim vaxtlardan yaşamış və öz dağlarına, çaylarına, qalalarına, dərələrinə, yerlərinə öz dillərində öz dünyagörüşləri ilə bağlı adlar qoymuşlar.

Zəngəzur bölgəsində Oğuz//quz//qaz//az komponentli xeyli miqdarda etnotoponimlər var. Yenə də Qubadlı rayonu ərazisində *Qazlıq, Ulaşlı, Dondarlı* kəndlərinə yaxın ərazidə Hal sovetliyi tərkibində *Qazyan* oykonimi də var. Şübhə etmirik ki, Qazlıq-Qazyan-Qazançı toponimlərinin nüvəsində əsas komponent kimi Qaz//quz-ğuz dayanır. Dastanda onomastik vahid olan *Qazlıq* sözü üç məqamda işlənmişdir. Qazlıq (qoca) – dastanda antroponim kimi işlənir. Boyun birinin adı onun adı ilə bağlıdır. Qazlıq leksik vahid kimi zoonim kimi dəfələrlə işlənmişdir. Dördüncü boyda: "...Paralanıb *Qazlıq atmayan*

Yenimlə alsa qanım silməyincə,
Qol-put olub yer yerinə düşməyincə,
Yalnız oğul xəbərin almayınca,
Kafər yollarından dönməyin -dedi" (4, səh.73).

Bütün bu deyilənlər bu ərazinin əhalisinin Oğuzların aborigen olduğunu, gəlmə olmadığı fikrini bir daha təsdiqləyir. Bizcə, həqiqəti görmək istəməyənlərin fikirlərinə bu faktlar tutarlı cavabıdır.

"Kitabi-Dədə Qorqud" dastanı ilə bağlı onomastik vahidlərin digər qismini də əlavə etsək, hidroniminə, Qorqud qəhrəmanı *Əkərək//Aqaraq* adı ilə bağlı *Qazlıq dağı, Qazlıq Qoca, Qavlıq atı* birləşmələrində işlənən *Qaz* sözü Oğuz//qas//güz etnosunun birbaşa adı ilə bağlıdır. –lıq şəkilçisi, çoxluq, ucalıq, məkan ifadəsini bildirən bu istiqamətdə çox böyük elmi qənaətlərə gəlmək olar. Dədə Qorqud boyları obrazlarının əsas qəhrəmanlarının toponimiyada (Zəngəzurun toponimiyasında) nə dərəcədə əks olunmasını nəzərdən keçirək. *Qazan xanın* adı ilə bağlı Qazançı kəndi, Qazangöl dağı, Qazan göl keçidi *Bayandır* obrazının adı ilə başlı Gorus rayonu ərazisində *II Bayandur* adlı oykonim (Bayandır dastanda xanlar xanı, Oğuz elinin başçısı idi. Demək, I Bayandur kəndində olmuşdur), *Oxçu* personajının adı ilə bağlı Oxçu kəndi və Oxçu çayı coğrafi obyektinə, *Dondar* adlı personajın adıyla bağlı Dondarlı kəndinə, *Qazlıq Qoca* obrazının adı ilə Qazlıq kəndinə, Qazan xanın atası *Ulaş* obrazının adı ilə bağlı (Ulaş oğlu Qazan xan) Ulaşlı kəndinə, *Basat* personajının adı ilə Basatsay ünsürdür. Diqqət etsək, hər üç birləşməsində ucalıq, yüksəklik, yüksək, uca anlamındadır. Qazan xan – Qazlıq Qoca antroponim kimi işləndikdə uca, böyük, baş, birinci olan mənasındadır. Doğrudan da, *Qazan xan* və *qazlıq Qoca Oğuz//qav//quv* elinin mötəbər, uca, nüfuzlu adamları idi. Qazan iç oğuzun sərkərdəsi, Qazlıq Qoca isə iç Oğuzun vəziri idi. Sözün lüğəvi mənası ilə personajların cəmiyyətdə (eldə) mövqeyi tam uyğun gəlir. Qazan xan ucalığın yüksəkliyin xanı idi. Oğuz elinin bütün ağır işləri, iç Oğuzun qorunması, iqtisadiyyatı (elin yaşam Həyərək, Akara (q) toponiminə, Qaragünə oğlu *Qarabudağın* adıyla bağlı budaqdərə toponiminə o rast gəlirik. O cümlədən, oğuz//quz etnosunun adı ilə bağlı Qız qalası və Qazı dərəsi coğrafi obyektlərinin adlarını da qeyd edə bilərik. Bu obrazların hər biri tarixi şəxsiyyət olsalar da, onların adları ilə bağlı toponimlərə antroponim deyil, etnotoponim demək daha doğrudur. Çünki Qorqud qəhrəmanlarının demək olar ki, hamısı əski zamanlarla

səsləşir, onların kökünü V-VII və bir qədər sonrakı dövrlərin tarixində araşdırmaq gərəkdir.

Bu ərazinin ən qədim toponimik layını məhz oğuz mənşəli coğrafi adlar təşkil edir.

Ədəbiyyat

1. M.Kaşğari. "Divani lüğat-it-türk". Xəzər, 2006.
2. Топонимия Азербайджана В. Элм, 1986.
3. Ə.Dəmirçizadə. 50 söz. B. 1968.
4. "Kitabi-Dədə Qorqud" dastanı. B. 1988.
5. A.Qurbanov "Azərbaycan onomastikası". B. 1988.

доc.A.M.Рустамов

Некотрые топонимы Губадлинского района

Резюме

Лингвистический анализ некоторых топонимов Губадлинского района

dos.A.M.Rustamov

Soe toponyms of Qubadli region

Summary

Qubadli toponyms and associated with the etymology of Dada Qorgud are analized in this article.Bayandur, Dondarli, Ulasli, Qazilig,Qazyan are uch toponyms. This kind of research is extremely important in the science. Such names show that Zangazur is an ancient land of Turks.

Rəyçi: professor İ.Bayramov

FİRƏNGİZ EYVAZOVA
bilqeiz_khalilova@hotmail.com

READING SKILLS A WRITING APPROACH TO – READING COMPREHENSION – SCHEMA THEORY IN ACTION

Açar sözlər: vərdish, mərhələ, təcrubə, oxucu, muəllim, struktur
Key words: Skill-navik, Stage-etap, Experience-opit, Reader-chitatel, Teacher-uchitel, Structure-struktura.

The art of reading is mainly a matter of concentrating on the import of the written words, and not on the words themselves. Words are merely the medium whereby the massage of the writer is conveyed to the reader.

A pupil is said to have acquired correct reading habits when he can focus his attention on the massage and not on the form; when he treats the text as a familiar form of discourse and not as a task in a deciphering. He is reader in the true sense when he ‘ sees through a window to the view outside without consciousness of the glass.

It was difficult to arrive at this stage under the old translation method which concentrated on the single word and made the pupil conscious of its association with the corresponding word in the mother-tongue. Reading by word-concentration is a pernicious method corresponding to typing with one finger; it can by practice lead to a certain proficiency, but not to the required skills.

Training technique. There appear to be two schools of opinion on the technique to be adopted for the training of the pupil. One favours silent reading from the outset, the other oral reading.

Silent reading. The case for silent reading as both an end and a means might be stated as follows:

1. This is modern reaction from the traditional form of language lesson in which oral reading predominated.
2. Oral reading on traditional lines virtually converted a collective lesson into a series of short individual lessons.
3. Silent reading is claimed to be eye- as opposed to lip-reading. The eye movements are rapid and can skip across the written pages by concentrating on key words.
4. Silent reading keeps the whole class active and enables the teacher to assist the weaker pupils.
5. It enables the pupils to work at their respective paces and thus solves the difficulties of extreme types.
6. The practice of silent reading in class prepares the pupils for library on their own.
7. In introduces the pupils to the art of skimming.
8. Oral reading is a specific skill which it is not essential for all the pupils to acquire.

Oral reading. The arguments in favour of oral reading are:

1. Reading aloud is a form of speech prompted by written symbols; it is an aid to speech fluency, correct pronunciation and intonation.
2. If correct silent reading implies the application of a particular technique (eye movements over word-groups) the children must first be shown how achieve it by example.
3. The words on the printed page are inert symbols which come to life when read out by a good reader. The teacher's rending of a text is too valuable to be dispensed with.
4. As vocabulary is an important consideration, it ought to be presented to the ear as well as to the eye.
5. Concert reading (in the early stage) is an alternative means of achieving general activity.
6. Silent reading may be carried on at home, but the classroom is the only place for controlled oral reading.
7. Oral reading provides a means of testing comprehension and checks superficial study resulting from attention to content and not to details.
8. Intensive reading is more important than extensive reading in the early stages and for the greater part of the course, indeed. 'Skimming' is not a desirable habit, particularly for school-children.

Progressive stages. As reading is a skill for which the pupil must be trained, it is advisable to proceed in series of progressive stages with each serving as preparation for the next. The ultimate aim is free reading by pupil unaided by the teacher but with the occasional aid of the dictionary. The end, however, need not also be the means; the early stages may have objectives of their own differing from that of the ultimate aim.

There is a tendency to regard writing as synonymous with written composition, and proficiency in this skills as ability to discuss any topic in writing.

In the foreign-language course, however, the writing skill must be interpreted more broadly as the ability to represent words by means of written symbols.

Translating children's everyday uses of print into classroom practice. In the early 1970s, a generally accepted definition of reading seemed to be that it was the meaningful interpretation of written or printed symbols. At that time, researchers in reading moved away from curriculum research which compared methods in the teaching of reading to theory-based research which focused upon the process of reading (Gibson and Levin 1975). The emphasis in the field was upon the discovery of the underlying cognitive process of reading behavior as researchers struggled for recognition of their work as a legitimate scientific endeavor. Reading had become a complicated psycholinguistic process, a solitary effort which took place somewhere between the reader and text. In turn, learning to read in schools became a series of diagnostic events as the finding of theory-based research were linked with the criterion referenced testing movement of the 1970s and decade's strong desire for accountability.

In the elementary schools, many lessons designed to develop children's reading skills have their origins in basal-reader materials. In addition, some lessons have their beginnings in firsthand experiences. Working from a common experience, children dictate sentences that the teacher records; later they read what they have composed.

The almost exclusive reliance on basal readers and experience charts for teaching reading skills has an unfortunate outcome. Because stories and poems predominate in basal reading books and because expository pieces, when included in these texts, often lack the main and subheads that characterize conceptual and relational content, young readers have little opportunity to develop an understanding of how expository prose is structured. Expressed in more technical terms, they have little opportunity to refine the schemata they hold in their minds as to how, conceptual and relational content is organized on paper and thus to build the skills necessary to comprehend lengthy or complex passages.

Even when children draft story charts together and they use these to build reading skills, the content young writers compose is typically stories, poems, and paragraph that describe personal experiences. This is equally true when elementary youngsters write independently; stress is on drafting stories, poems, and descriptions of firsthand experiences. Only infrequently do children compose on relational topics from science and social studies. As a result, students have little opportunity to develop their ability to organize expository content on paper. Yet this learning basic, for it relates to reading as well as to writing. In learning to organize informational content for writing, students gain insight into how authors handle complex ideas on paper; in so doing, they are refining their schemata for comprehending this kind of content.

This lack of attention to building schemata for interpreting and composing informational content seems to occur even though study in science and social studies is part of elementary programs and children read from content area texts as early as first grade. An analysis of teacher's guides to science and social studies text hints at the reason for this lack. Few series suggest ways to encourage young learners to perceive the structure within which ideas are organized in a chapter, to gather data systematically based on their comprehension of that structure, and to organize points gleaned into an original structure for writing.

A basic strategy for introducing students to the structures through which informational content is expressed in written form is factstorming. Factstorming is the process in which students randomly call out phrases that come mind on a topic while scribes record these on chart paper or the chalkboard in the order given. To be productive, of course, factstorming must be based on a data-gathering activity. For example, students may view a film or filmstrip or listen to an informational passage shared orally by their teacher. They may read in several references on the topic. or they may collect data through a combination of approaches that are part of unit study. In any event, students must have informational background to bring to the factstroming.

The next category in the instructional sequence is categorization, or the systematic organization of facts "stromed". This can be achieved in several ways, depending on the sophistication and previous experience of students with the process. One way is for the teacher to select an item of information laid out on the board and ask students to locate a second item that is in some way like first. Students tell how the two items are related, circle them. and locate other items that share the same relationship, circling them in the same manner. Having developed one cohesive category of facts in this way, students proceed to organize the remaining facts into other categories according to shared relationships, indicating related items by circling them with different colored markers.

Dittoed lists of terms and points "stromed" are helpful when students have had little experience categorizing. Youngsters factstorm one day, perhaps listening on a chart points recalled from an informational film viewed or from a series of paragraphs read. These points are reproduced on a ditto, so that each youngsters the next day has a copy and can circle related points on it with different colored crayond.

Once students grouped related points into labeled categories, they can take the next step - drafting shorts paragraphs based on each of the categories. Again there are several ways of proceeding. With youngsters who have had little experience drafting informational paragraphs based on one main idea, a good introductory strategy is teacher-guided group writing. Guiding either the total class or a small writing team, the teacher focuses attention on one category on information previously charted and encourages children to compose sentences on this topic. The teacher or a student scribe records sentences suggested and then guides the students is revising what they have drafted. The teacher may also ask students for a general statement to use as a summary at the beginning or the end of the paragraphs – a topic sentence, so to speak. He or she may ask students to reorder the sentences drafted so that they flow more logically, to combine two sentences into one, to substitute a more expressive word for one used, to write another sentence that supplied added information. In short, children and teacher together mark over, cross out, insert, reorder, and finally title their paragraph.

Now in small writing teams, students work in the same way with other categories of information they have charted. If each group drafts a paragraph on a different subtopic, the result is several titled paragraphs, each on a main idea that relates to a broader area.

With sophisticated students who have had considerable experience composing informational paragraphs based on categorized lists or data charts, of course the teacher can offer the option of individual writing. Each youngsters composes a titled paragraph on one category information. Later those who have drafted paragraphs on the same category can pair off to talk about how they organized the given points into paragraphs and to help with the editing of each other's papers.

Having drafted and edited paragraphs, students can share them by recording copies on a chart or the chalkboard. Now the task is to decide on the order in which the individual paragraphs can be combined into a composite

report. Students reach a consensus by talking about possible orders and the advantages and disadvantages of each.

After students have sequenced their collaborative report, they can talk out the content of an introductory paragraph, cooperatively frame a beginning sentence, and dictate several supporting sentences that can be part of the introduction to their report. Again, this work can be handled as a teacher-guided group writing activity; the teacher asks questions that encourage students to think of a good beginning sentence and to identify key content that is to follow in the body of the report. In the same way students can formulate either a summary paragraph or one that proposes generalizations based on the content included in the report.

F. Eyvazova

Oxu psixolingvistik proses kimi

Xülasə

Məqalə oxu növlərini və üsullarını təsvir edir: ucadan oxu, səssiz oxu, diqqət bütöv ifadənin mənasında fokuslamnış oxu, diqqət yalnız bir sözə istiqamətlənmiş oxu.

Müxtəlif növlərlə oxumağın üstünlükləri və bu növlərin öyrənilmə texnikasının aydinlaşdırılması qeyd olunur.

Oxumağın psixolinqvik proses kimi rolu vurğulanır.

Ф. Ейвазова

Читание как психологивистический процес

Резюме

Статья описывает способы и виды чтения: чтение вслух, чтение про себя, чтение, при которо ировано на смысле всей фразы; чтение, при котором м внимание с фокус внимание направленно только на одно слово.

Выделяется преимущество того или иного вида чтения, разъясняется техника обучения этим видам.

Отмечается роль чтения как психолингвического процесса.

Rəyçi: Rəhimə Məmmədova
filologiya elmləri namizədi

.

BÖYÜKXANIM EMİNLİ
Sumqayıt Dövlət Universiteti
b.eminli@hotmail.com

XİTABLARIN SEMANTİKASI

Açar sözlər: *xitab, çağırış, müraciət, təkrar xitablar, həmcins xitablar*
Key words*: addresses, call, repeated addresses, similar addresses*
Ключевые слова: *обращение, вызов, повторные обращение, однородные обращения*

Hər bir şəxs duyduğu, hiss etdiyi haqqında fikirləşmək,düşündüyünü başqasına çatdırmaq və ya fikir mübadiləsi etmek istəyir və bunun üçün şübhəsiz,müəyyən vasitədən istifadə etməli olur;bu ünsiyyət vasitəsi adlanır.İnsanların dünyagörüşü,həyat tərzi həmişə müxtəlif və rəngarəng olmuşdur.Cəmiyyət tarixində ünsiyyət üçün,qarşılıqlı anlaşma üçün ir çox vasitələrə müraciət edilmişdir.Buna görə də dil yeganə ünsiyyət vasitəsi deyil,lakin başlıcasıdır.

İnsanlar tarixən öz istək və niyyətlərini,hiss və həyəcanını başqalarına çatdırmaq üçün mməhz müraciət formalarından istifadə etmişlər.müraciət formaları cəmiyyətdə müəyyən ictimai birliklərin,insanların qarşılıqlı əlaqəsini əks etdirən linqvistik vasitələrdir.İnsanlar arasında mövcud münasibətlərdən asılı olaraq müxtəlif müraciət formaları yaranmışdır.

Nitq mədəniyyəti davranış etiketinə xidmət edir və ünsiyyətin geniş streotiplər sahəsini təşkil edir.

Nitq mədəniyyəti dar mənada nitq davranışının milli spesifik qaydalarıdır ki,bunlar da həmsöhbətlərin əlaqəyə girmə və ünsiyyət şəraitinə uyğun olaraq seçilmiş formada ünsiyyətə qoşulma situasiyalarında tətbiq olunur.

Məzmunlu məlumat mübadiləsinə daxil olmazdan əvvəl,yəni ünsiyyətdən əvvəl. İnsan hər hansı bir vasitə ilə ünsiyyətə daxil olmalı,həmsöhbətin diqqətini cəlb etməli, ona müraciət etməlidir. Nitq mədəniyyəti başlıca olaraq,məhz bu əlaqəyaradıcı funksiyanı yerinə yetirir, başqa sözlə desək,həmsöhbətə münasibətdə öz mövqeyini müəyyən etməyə imkan verir.nitq etiketlərinin vahidlərinin tələb edən kontakt yaratma situasiyaları arasında başlıca yeri həmsöhbətə müraciət,onun nitqinə cəlb etmə tutur. Uzun tarixi inkişaf dövrü ərzində müxtəlif müraciət üsullarının formalaşması,onların paralel işləkliyi, pərakəndə şəkildə yayılması bu formaların elmi və sistemli şəkildə araşdırılmasını tələb edir. Gündəlik məişətimizdə, rəsmi ünsiyyətdə zəruri, müvafiq müraciət formasının seçilməsi müraciət edən şəxs üçün çox zaman çətinlik yaradır.buna görə də, "Azərbaycan danışıq dilində müraciət formaları" mövzusuna müraciət edilməsi çox aktual və məqsədəuyğun hesab oluna bilər.Bu mövzunun araşdırılması müraciət formalarının konkret şəraitə,münasibətlərə uyğun olaraq seçilməsindəki çətinlikləri aradan qaldıra bilər.

Nitq dilin qanunları əsasında yaradılır,danışanın,yazanın həmin dilə nə dərəcədə yiyələnmə bacarığını əks etdirir.Nitq mədəniyyətinə maraq son zamanlar ünsiyyət problemlərinə diqqətin artması ilə əlaqədardır

Azərbaycan ədəbi dili Azərbaycan ümumxalq dili əsasında və kifayət qədər mürəkkəb etnolinqvistik proseslərin nəticəsi kimi təşəkkül tapmışdır.Dildə (eyni zamanda ədəbi dildə) baş verən proseslər müxtəlif istiqamətli olsa da,ictimai mahiyyəti etibarilə birbaşa etnik proseslərə sıx bağlıdır.Bu isə o deməkdir ki,böyük türk etnosunun dil (eyni zamanda ədəbi dil) yaradıcılığı müxtəlif regionlarda baş versə də, eyni tipologiyaya malikdir.

Nitqin uğurlu alınması üçün ikinci əsas şərt dinləyicidir.Çünki natiqin sənətini, məharətini düzgün qiymətləndirən məhz dinləyici auditoriyasıdır.Nitqin müvəffəqiyyətini təmin başlıca amillərindən biri də natiq priyomlarıdır.Bütün bunlar kompleks təşkil edəndə dinləyicilərə xoş təsir bağışlayır və "estetik qida" verir." İnsan eşitdiyi sözün natiqinə baxıb həmən sözü qəbul edər"(M.S.Ordubadi) Natiqlik priyomlarının bəziləri nitqin bütöv kompoziyası ilə,bir qismi isə yalnız giriş və ya finalla bağlıdır.Girişlə bağlı olan priyomlar dinləyicilərin diqqətini ələ almaq,əsas məsələyə yönəltmək və sakitlik yaratmaq məqsədi daşıyır.

Nitq dinləyicilərə mühacirətlə başlanır."Necə başlamalı?" sualı ən təcrübəli natiqləri belə düşündürür. Çünki bir sıra hallarda natiqin əvvəlcədən düşündüyü "giriş" auditoriyanın real vəziyyətinə uyğun gəlmir.

Dinləyicinin diqqətini cəlb etmək də nitq söyləyəni düşündürən məsələlərdəndir. Təbii ki,natiqin əvvəlində edilən müraciətdən və onun formalarından çox şey asılıdır. Müraciət formaları istənilən şifahi və yazılı nitqdə dinləyicinin diqqətini cəlb etmək üçün bir vasitə,sonrakı mətnə keçid üçün,mükaliməyə başlamaq üçün bir açar rolunu oynayır.Bu zaman əsas postulatlardan biri odur ki,kim müraciət edir və kimə müraciət edilir?

Xitablar qrammatik quruluşun bir xüsusiyyəti kimi, çox qədim zamanlardan yaranmış və bu günə qədər davam etmişdir. Nəsiminin, Xətainin, Füzulinin dilində xitabın gözəl nümunələri vardır. Təbiidir ki,gözəl nitq,rəvan danışıq auditoriya üçün maraqlı mövzunun seçilməsindən,nitqdə işlədilən sözlərin ahəngdarlığından,nitq söyləyənin şəxsiyyətindən,hətta zahiri görünüşdən və s.asılıdır.Gözəl nitq qabiliyyətinə, nitq mədəniyyətinə malik olmaq üçün kifayət qədər söz ehtiyatına,geniş dünyagörüşünə, yaradıcılıq axtarışına,istedada,ciddi səyə malik olmaq lazımdır. Gözəl nitq dinləyicinin qəlbi fəth edir,onu düşündürür,nəticə çıxarmağa vadar edir.

Dinləyicilərə münasibətə görə nitq söyləyənin qarşısında 3 vəzifə qoyulur: a) dinləyicinin diqqətini özünə cəlb etmək; b)diqqəti nitqdə irəli sürülən məsələlərə cəlb etmək dinləyiciyə psixoloji təsir göstərmək üçün zəmin yaratmaq; c) dinləyicini həyəcanlandırmaq,onu düşünməyə sövq etmək.

Nitqin növlərindən istifadə etmək də dinləyicilərin səviyyəsindən asılıdır. Gözəl danışıq, necə deyərlər, məqamına düşməlidir. Natiq dinləyicilərin hətta yaşını, vəzifəsini, cəmiyyətdəki mövqeyini,vaxtının çoxluğunu, yaxud azlığını da nəzərə almalıdır. Dinləyicilər "müharibə və ya dinc quruculuq dövründə yaşayırlar?" sualı da natiq üçün maraqlı olmalıdır.

Qədim dilimizdə işlənmiş xitab nümunələri göstərir ki, xitabın ümumxalq dilində işlənməsi çox qədimdir. Müasir Azərbaycan dilində ən çox çağırış xarakterli xitabların deyilişi nəzərə çarpır. Çağırış xarakterli xitablar əksər hallarda cümlənin başqa hissələrinə nisbətən yüksək tonla deyilir və davamlı olur. Xitabın intonasiyası müraciət edilənin uzaq və yaxında olmasından da çox asılıdır. Məsələn: Ay ev yiyəsi! .Əşi, ağlına gələn nömrəni çək! Ay balam, bir keçin bəri də.

Eyni intonasiyaya malik xitablar bəzən cümlənin ortasında da işlənir. Bu halda xitab çağırış mənasında işlənmir, lakin yenə də deyiliş etibarilə cümlənin başqa hissələrindən ayrılır və yüksək tonla ifadə edilir. Bu intonasiya əsasən cümlənin əvvəlində və sonunda olan xitablara aiddir.

Qeyd etdik ki, bir cümlədə bir neçə xitab yanaşı işlədilə bilər. Eyni xitabın təkrarı, eyni şəxs və əşyaya aid müxtəlif xitablar və eləcə də müxtəlif şəxs və əşyalara aid xitablar da çağırış intonasiyasına malik ola bilir. Yanaşı işlədilən belə xitabların hər biri çağırış intonasiyası ilə ifadə edilə bilir, lakin onların hamısında eyni səs tonu özünü göstərmir. Burada çağırışın tonu aşağıdan yuxarıya doğru, alçaqdan hündürə doğru dəyişilir, axırıncı xitab əvvəlkilərə nisbətən daha yüksək intonasiya ilə deyilir. Məsələn: Ə, bəlkə qorxursan, ay karsız?! Kiminləsən, adə? Ey, saxla, saxla, görüm ey! Taksi! və s.

Müraciət bu və ya başqa halda nitq mühiti ilə əlaqədardır. Müraciətin nitq mühiti (konteksti) mətni təşkil edən bir və ya bir neçə cümlədən ibarət ola bilər ki, onların hər biri ilə müraciət bu və ya başqa əlaqəyə girə bilər. Bu əlaqənin qrammatik əlaqə olmasının nə dərəcədə qanunauyğun olduğu barədə mübahisə etmək olar, amma onun mövcudluğuna şübhə ola bilməz. O, uzun bir inkişaf yolu keçmiş, dilin qrammatik quruluşunun başqa sahələri ilə əlaqəli şəkildə inkişaf etmiş və nəticədə onun bugünkü zəngin və mürəkkəb formaları əmələ gəlmişdir. Klassiklərimiz və müasir yazıçılarımız xitabın yeni nümunələrinin yaradılmasında böyük rol oynamışlar.

Qeyd edək ki, adi danışıqda, məruzə və mühazirələrdə xitablar çox az işlənir. Şifahi nitqdə - ən çox izdihamlı mitinqlərdə, xalqa müraciətlərdə, müəyyən hədəfə qarşı məhəbbət və ya kin, qəzəb, nifrət və s. ifadə edərkən xitablar çox işlədilir.

Xitabın mənası yalnız müraciət bildirməklə məhdudlaşmır. Xitab həm də danışanın müraciət etdiyi şəxs və əşyaya münasibətini də bildirir. Bu münasibət əzizləmək, məsləhət vermək, yalvarmaq, qarşısındakına kin bəsləmək, hirslənmək, əmr etmək və s. şəkildə ola bilər. Xitab vasitəsilə müraciət edilənin xüsusiyyətləri də müəyyənləşə bilir.

Xitab diqqəti cəlb etmək, çağırış məqsədi ilə işlədilərsə, daha çox cümlənin əvvəlində sabitləşir. Xitabın nitqin əvvəlində gəlməsinə ən çox danışıqda, ümumiyyətlə, çağırışda, şüarlarda, müraciətlərdə, əmrlərdə, çıxış və məruzələrdə, məktublarda və s. rast gəlmək olur. Məsələn: Yoldaşlar, sonra mən bu qədər adamı haradan yığacağam .Yoldaşlar, sizin hamınıza məlumdur ki, biz öz teatrımızda istəyirik böyük-böyük dəyişiklik düzəldək.

Şifahi nitqdə xitabların deyilişi də müxtəlif olur. Xitabların deyiliş xüsusiyyəti onların cümlədəki yerindən və mənasından, müraciətin məqsədindən asılı olur. Bəzən xitablarla cümlə və onun üzvləri arasında az, bəzən də çox fasilə edilir. Bəzən xitabın deyilişi cümlənin deyiliş tonundan çox yüksək, bəzən isə onunla eyni tonlu olur.

A.Q.Rudnev bu əlaqəni nisbi adlandırmışdır.

Müraciət (xitab) və cümlənin nisbi əlaqəsinin mahiyyətinin açıqlanması ilk növbədə ona gətirib çıxarır ki, bu vahidlər arasında hal, şəxs, kəmiyyət əlamətlərinə görə mümkün olan bütün qarşılıqlı əlaqə növləri maksimum dolğunluğu ilə nəzərə alınsın. Çox zaman elə müraciət və söyləmin formal-qrammatik nisbəti tədqiq olu-

nurdu ki, şəxs eyni zamanda həm nitqi söyləyən, həm də nitqin ünvanlandığı predmet olurdu.

Məsələn, Ay oğlan, bu bileti sən itirmisən? tipli cümlələrdə müraciətlə söyləm arasındakı qarşılıqlı münasibəti təhlil edərkən mövcud momentlər kimi qeyd edirlər ki, cümləyə daxil olan sözlərin kateqorial-morfoloci əlamətləri (sən - əvəzliyinin, şəxs və kəmiyyəti və itirmisən - felinin şəxsi kəmiyyəti) oğlan sözü - müraciətinin müvafiq kateqoriyalarını təkrar edir.

Müraciət vəzifəsində işlənən xüsusi isimlərin semantikası olduqca müxtəlifdir. Şəxsin mənası onlarda müxtəlif dərəcələrdə və istiqamətləri konkretləşir. Bununla belə, konkretləşdirmə elementləri az və ya çox dərəcədə məhduddur.

Məsələn: Bura bax, Səmayə, o axşam sən hansı rəqəmi dedin? [1, 75]. Görürsən, Xədicə bacı, bütün günü belədir [2, 66]. Əmi, can, - dedi, iki yarım var [3, 62] və s. Ə, Nəcməddin, o yanındakı kim idi? [2, 84] və s.

Başqa canlılara müraciət məqsədilə işlədilən xitablar əsasən bədii dilə məxsusdur. Başqa varlıqlara müraciət edildikdə həmin varlıqlar şəxsləndirilmiş olur, ona görə də başlıca olaraq bədii ədəbiyyatda işlədilən bu cür xitablarda emosionallıq artıq olur. Məsələn:

Yerdən ayağını quş kimi üzüb,
Yay kimi dartılıb ox kimi süzüb,
Yenə öz sürünü nizamla düzüb,
Baş alıb gedirsən hayana, ceyran? [4, 26]

Təbii ki, burada əsas məqsəd ifadənin təsirini artırmaqdır. Ona görə də insana aid olan xitablar ümumxalq dilində geniş dairədə işlədilir, biz hər bir danışıqda, hər bir təsadüfdə görürük ki, belə xitablar və eləcə də insanlara aid xitabların bir qismi bədii xitablardır. Bədii söz ustaları öz dillərini daha təsirli, emosional etmək və əsərin bədiiliyini artırmaq üçün belə bədii xitablardan çox istifadə etmiş və silsilə xitab nümunələri yaratmışlar. Onu da qeyd etmək lazımdır ki, cansız əşyalara xitab edilərkən həmin əşyalar müəyyən mənada canlandırılır (insan kimi təsəvvür olunur). Məsələn: Eh, dünya, dünya! - dedi [1, 21]. Bakı, xahiş edirəm, sən öz sifarişini saxla [2, 52]. Gəncə, xoşbəxtlikdən elə mənim abonentim də eyni nömrəni istəyirmiş, - dedi [2, 62]. Uy, allah, itinəm, pişiyinəm! [2, 78] Bu Bakı küləyi, səhərə kimi sındır pəncərəmi, döy pəncərəmi!... [5, 61] Hayqırdı birdən o: - Ax səni, dövran! Mən varam hər zaman sənin lə, - dedi [5, 48]. Eh Dünya! Dünya - deyə yenidən köhnə yerindən qayıtdı [3, 64]. Allah, sən saxla, bircə diplomatik əngəllər çatmırdı [1, 41]. İlahi, gör nəyi yadında saxlayıb [1, 38].

Bəzən cümlədə eyni bir şəxsə müxtəlif vasitələrlə müraciət edilir. Yəni bir cümlədə eyni şəxs və ya əşyaya yönəldilmiş, eyni mənalı, lakin formaca müxtəlif olan xitablar da iştirak edə bilər. Bu cür vasitələr, əslində, eyni obyekti nəzərdə tutduğundan sinonimlik keyfiyyətinə malik olur. Məsələn: Ay qız, Yaqut, nə oldu, qız kəsmiş! [6, 28]. Adə, ay Xosməmməd… çıxış üçün material lazımdır [6, 31]. Adə, Yaşar, mən istəyirəm axı sən Tanya üçün elçiliyə göndərim [6, 31]. Gözəlim, incə bellim, öldürməyə mən səni qıyaramıydım [6, 48]. Ağız, a balam, di bəs axır, belə olmaz! [7, 71]. Ey gülməşəkər, ey «işıldaquş»! bəsdir odla oynadın! [2, 126]. Nərgiz, qızım, quzum, gəl sən bura [1, 74]. Yapışdım yaxasından, adə, qırışmal, məni tanımırsan sən? [1, 143]

Eyni cümlədə müxtəlif şəxs və əşyalara da müraciət etmək mümkündür. Belə halda xitablar, yuxarıdakından fərqli olaraq, həm məzmunca, həm də formaca müxtəlif olur. Bu xitablara həmcins xitablar da demək olar. A qız, a gəlin, o gül mürəbbəsindən bir nəlbəkiyə qoy gətir [2, 44]. Qardaşlar, bacılar, bu azadlıq bayrağı altında yeni azad həyata doğru! [7, 71]. Vətən yurdu, doğma ocaq, bəxtiyar insan! Sənin qartal qanadınla mən uçacağam [8, 31].

Bəzən xitab olan sözün ilk leksik mənası zəifləyir və müəyyən münasibətlə xitab kimi işlənir. Bu da hissi halla əlaqədar olur. Məsələn: Əzizim, axı oyun gedir, nə bağırırsan [6, 81]. Yox, a qardaş, səyyahlar, yadlar, qonaqlar üçün hər yerdə böyük yurdlar, hər şey vardır [6, 74].

Müasir Azərbaycan dilində xitablar bəzən nidalarla işlədilir. Belə halda xitablar nidalarla yanaşı müəyyən hissi halları da ifadə edir. Nida xitaba xüsusi intonasiya verir. Məsələn: Ay camaat, adam bir şeyi başa düşər, sonra danışar [6, 48]. A kişi, mən sana nə dedim! [2, 38]. Ay qız, ay qız, raykom arvadısan, bir adam tapmırsan suyunu versin? [2, 114]. Ay bala, üstümü unlu görüb adımı dəyirmançı çağırma görüm [2, 148]. Get, a bala, get… məndən də çoxlu-çoxlu salam de [1, 126]. Oy, Oqtay, əgər bilsəydin dünyada necə mehmanxanalar var [1, 144] və s.

Çox zaman ifadəni qüvvətləndirmək, nitqin təsir qüvvəsini artırmaq üçün xitablar müxtəlif şəkildə təkrar olunur. Bu təkrarlanma həm müxtəsər, həm də geniş xitablara aid ola bilər. Məsələn: Ana, ana, can ana! Gözəl mehriban ana! Və yaxud Cəmiş, ay Cəmiş! və s. Xitabların məna cəhətdən də bir sıra xüsusiyyətləri vardır. Xitablar müraciət məqsədilə işlədilir, müraciət isə ilk növbədə insana aiddir. Ona görə də xitablar əksərən xüsusi adlardan, familiya, qohumluq, ictimai və şəxsi münasibət bildirən sözlərdən ibarət olur. Xitab müxtəlif əşya və varlıqların adlarını da bildirə bilər. Bu cəhətdən xitabların 3 növünü göstərmək olar:

1. İnsana müraciət.
2. Başqa canlılara müraciət.
3. Cansız əşyalara və mücərrəd varlıqlara müraciət.

İnsana müraciət xitabların əsas ifadə formasıdır. İnsana müraciət edərkən əsas məqsəd onu, dinləyicini oyatmaq, çağırmaq, onun diqqətini nitqə daha artıq cəlb etməkdir. Bu cür xitablar həm canlı danışıq dilində, həm də bədii əsərlərdə təbii müraciət vasitəsi kimi işlədilir. İnsan adları bildirən xitabların özləri də müxtəlif olur. Bunlar insanın xüsusi adını, şəxsin qohumluğa görə adını (ana, ata, qardaş, bacı, dayı…), cinsə görə əlamətlərini və s. bildirə bilər.

Çağırış mənasında işlədilən belə xitablar təkrarlanarkən onlar arasında bir çox hallarda «ay» nidası işlədilir. Prof. Y.Seyidovun fikrincə, «burada «ay» hissəciyi nidadan daha çox əlaqələndirici, bağlayıcı bir ünsür kimi çıxış edir.» Təbii ki, bu hala daha çox ümumxalq danışıq dilində rast gəlmək mümkündür. Məsələn:

- Ay bala, ay bala, geri qayıt.; - Oğlum, ay oğlum, sənə qurban, bu zənbilə kömək et.; - Ay bala, ay bala, mənə dağ çəkirsən sən!

Belə söz birləşmələri şəklində olan mürəkkəb xitabların təkrarlanması da müxtəlif olur. Bəzən yuxarıdakı misallarda olduğu kimi, söz birləşməsi bütövlüklə, dəyişmədən təkrarlanır. Bəzən isə söz birləşməsinin II tərəfi olduğu kimi qalır və heç bir dəyişikliyə məruz qalmadan təkrarlanır, birinci tərəf isə dəyişilir. Məsələn: Ah, əziz ana! O gündən bəridir həsrətəm sana! [4, 126]

Məzmunca ona görə fərqlənir ki, bunlar müxtəlif şəxs və ya müxtəlif əşyalara yönəldilmişdir və ona görə də bir-birindən fərqli məlumatlar ifadə edir; formaca ona görə fərqlənir ki, bunların ikinci tərəfləri müxtəlif sözlərdən ibarətdir. Burada yalnız eyni əlamətə malik olmaq yanaşı duran iki xitabı yaxınlaşdırır. Deməli, burada təkrar olunan söz xitabın adi təkrarlanması olmayıb, bəlkə, xitabların həmcinsləşməsidir. Məsələn:

Ey müqəddəs həyat! Müqəddəs insan!
Sənə ilham verən yalnız ürəkdir. [8, 74]

Bəzən necə gözəlsən, ölüm, sən ey səadət!
Ey fikrim, xəyalım, rakettək şığı. [5, 41]

Həmcins xitablar hər tərəfdən müxtəlif olan söz birləşmələrindən və ayrı-ayrı sözlərdən də ibarət olur. Məsələn:

Ah, düşünən başlar, yaradan əllər!
Qanad verirsiniz düşüncələrə ... [4, 67]

Qayıt, gözüm nuru, könlüm atəşi,
Qayıt sahmana sal bu kainatı! [5, 56]

Eyni şəxs və əşyalara yönəldilmiş müxtəlif xitabların işlədilməsi və eləcə də xitabın təkrarlanması cümlənin xəbərinin həmcins olması və ya təkrarlanması ilə də əlaqədar olur. Məsələn: Yaşa - dedi - ey qəhrəman! Yaşa - dedi - ey Vətən! [8, 46]

Bəzən müraciət edilən şəxs və əşyanın bir sıra əlamətləri sadalanır. Belə halda həmin əlamətləri ifadə edən sözlər xitabın həmcins təyinləri kimi çıxış edir. Əlbəttə ki, buradakı birləşmələri müəyyən mənada həmcins xitablar kimi də qəbul etmək olar. Lakin bunlar formaca bir qədər fərqlənsə də, eyni məfhumun müxtəlif əlamətlərlə təkrarından başqa bir şey deyildir. Daha dəqiq desək, burada xitab olan sözlər eynidir. Lakin hər bir birləşmədə müxtəlif əlamətləri bildirən sözlərlə ifadə olunmuşdur.

Söz birləşməsindən ibarət olan xitablar bəzən də başqa cür təkrarlanır. Xitab kimi çıxış edən söz birləşmələrinin ikinci tərəfləri müxtəlif olur, birinci tərəfləri təkrarlanır. Belə söz birləşmələri həm məzmun, həm də forma etibarilə bir-birlərindən tamamilə fərqlənir. Həmcins təyinlər həm ayrı-ayrı sözlər, həm də söz birləşmələri şəklində ola bilər. Məsələn:

Ağ saqqallı, dünya görmüş, Bəxtiyar kişi!
Bolluqmudur yurdumuzun bu ilki yazı? [9, 67]

Bir xitabın bir neçə həmcins təyini olduğu kimi, bir neçə həmcins xitabın da bir təyini ola bilər. Belə halda eyni əlamətli müxtəlif şəxs və ya əşyalara müraciət edilmiş olur.

Elmi yeniliyi: Məqalədə müraciət məqsədilə işlənən xitabların məna əlamətləri, nitqdə işlənmə xüsusiyyətləri geniş şəkildə şərh edilmişdir.

Praktiki əhəmiyyəti: Nitqin daha gözəl və düzgün ifadəsi, dinləyici və ya oxucunun diqqətini cəlb etmək üçün xitabların məna xüsusiyyətlərinin böyük əhəmiyyəti var.

Ədəbiyyat

1. Anar. Seçilmiş əsərləri. Bakı, «Lider», 2004, 416 s.
2. Əhmədov S. Seçilmiş əsərləri. 2 cilddə, I c. Azərnəşr, 1990.
3. Azərbaycan dili leksikasının məsələləri (Elmi əsərlərin mövzu məcmuəsi). Azərbaycan Universiteti nəşriyyatı, Bakı, 1989, 101 s.
4. Vurğun S. Seçilmiş əsərləri. 5 cilddə, I cild. Bakı, «Şərq-Qərb», 264 s.
5. Kərim Ə. Seçilmiş əsərləri. Bakı, «Lider», 2004, 336 s.
6. Cabbarlı C. Seçilmiş əsərləri. 4 cilddə, II cild, Bakı, Yazıçı, 1983.
7. Cabbarlı C. Seçilmiş əsərləri. 4 cilddə, III cild, Bakı, Yazıçı, 1984.
8. Vurğun S. Seçilmiş əsərləri. 5 cilddə, II cild. Bakı, «Şərq-Qərb», 248 s.
9. Vurğun S. Seçilmiş əsərləri. 5 cilddə, III cild. Bakı, «Şərq-Qərb», 424 s.

Б.И.Эминли

Смысловые особенности обращений

Резюме

В статье указаны смысловые особенности, признаки обращений в речи. Обращение употребляется с целью привлечь внимания. В зависимости от места употребления, повторения и однородности обращения, зарождаются смысловые различия.

B.I.Eminli

Sence peculiarities of addresses

Summary

In this article are showed sence peculiarities, signs of addresses in speech. Addresses are used to pay attention to somebody. Depends of using place, repeat and similarity of addresses forms sence diffence.

Elmi rəhbər*:* Y.Seyidov
filologiya elmləri doktoru, professor

O.B.CƏLİLBƏYLİ
BDU
ogtay_jalilbeyli@yahoo.com

YAPON DİLİNDƏ BAŞ ÜZVLƏRİN CÜMLƏDƏ ROLU HAQQINDA

Açar sözlər: Cümlə üzvləri, Baş üzvlər, Mübtəda, Xəbər, Tema, Rema.
Ключевые слова: Члены предложения, Главные члены предложения, Подлежащее, Сказуемое, Тема, Рема.
Key words: members of a sentence; main parts of speech; subject, predicate, theme, rema.

İstər yapon və istərsə də Azərbaycan dillərində cümlə bir-birindən fərqli məna və vəzifəyə malik müxtəliq mövqeli sözlərdən düzəlir ki, bunlara cümlə üzvləri deyilir. Cümlə üzvlərindən bəziləri cümləni quruluş cəhətdən yaratmaqda və bitmiş bir fikri ifadə etməkdə ən zəruri və həlledici önəmə malikdirsə, digərləri bunları izah etməyə, aydınlaşdırmağa, mənalarını tamamlamağa xidmət edir.

Cümlənin baş üzvləri məna və qrammatik cəhətdən cümlənin əsasını təşkil edir və xəbər mübtədaya predikativ əlavə vasitəsilə bağlanır.

Cümlə üzvlərini müəyyən edərkən qrammatik sual da müəyyən mənada onların müəyyənləşdirilməsində rol oynayır.

Müasir yapon dilçiliyində cümlənin baş üzvləri məsələsi hələ də həllini tapmamış məsələlərdəndir. Bəzi dilçilik ədəbiyyatında baş üzvlərin sayı məsələsi belə mübahisəlidir. Sadə, müxtəsər cümlələrin "tematik mübtədası", "tematik tamamlığı" olduğunu yazanlar, beləliklə, cümlənin baş üzvlərinin sayını üçə çıxaranlar da vardır.

Digər tərəfdən də cümlədə xəbərin rolu həddindən çox şişirdilir ki, bu özözlüyündə mübtədanın cümlədə mövqeyini azaldır. Bu fikrin tərəfdarları hətta cümlənin yalnız xəbərdən ibarət olduğunu qeyd edirlər (bu haqda bax: B.P.Lavrentyev "Praktiçeskaya qrammatika yaponskoqo yazıka", M.2005, s.269).

Özündən əvvəl fikir söyləmiş alimlərin düşüncələrini ifadə etmiş, müəllifin özünə gəldikdə, o cümlənin iki baş üzvünün olduğunu qeyd etmişdir: mübtəda və xəbər.

Bu kitabda mübtəda və tema, rema münasibətləri qarışıq şəkildə izah olunur. Odur ki, mübtədanın iki tipi (が/***qa*** göstəricisi ilə düzəlmiş mübtəda) yalnız rema ilə bağlı olanlar kimi izah olunur. Birinci qrupa yeni informasiyanı ifadə edən mübtəda kimi baxır. Məsələn:

彼が社長だ。***Kare-qa shachou-da***. *O - müdirdir.*

İkinci qrup isə üzvlərinə bölünməyən (cümlə-rema) cümlələrdir. Bu tip cümlələr "nə baş vermişdir?" sualına cavab verir. Bu cümlələrdə mübtəda ilə xəbərin yeri ixtiyaridir. Belə cümlələrin ruscaya tərcüməsi daha düzgün alınır. Məsələn:

雨がやんだ。***Ame-qa yanda***. *Yağış kəsdi.* (ruscaya tərcümədə: *прекратился дождь* kimi də *дождь прекратился* kimi də vermək olur). Eləcə də:

風が吹いている。***Kaze-qa fuiteiru***. *Külək əsir.*

Bütün bunlar göstərir ki, yapon dilində mübtəda ilə xəbərin cümlədə yeri məsələsində alimlər arasında ciddi fikir ziddiyətləri vardır. Adını yuxarıda qeyd etdiyimiz əsərdə mübtədaya geniş yer verildiyi, onun tema və rema ilə münasibətləri izah edildiyi halda "xəbər" bölməsində yalnız xəbərin struktur tərəfləri işiqlandırılır, deməli xəbərə az önəm verilir. Quruluşu etibarilə xəbər sadə və tərkibi olmaq etibarilə iki yerə bölünür. Yapon dilində xəbəri feil olan müxtəsər cümlələrdən ayrıca bəhs olunur. Tema və remada xəbərin rolu haqqında heç nə deyilmir. Mübtəda cümlənin əsas üzvü kimi izah olunur. Bununla bərabər xəbərin mövcudluğu da inkar olunmur.

Quruluşu etibarilə həqiqətən xəbər sadə və tərkibli olur. Məsələn:

本を読んだ。***Hon-o yonda***. *Kitabı oxudu.* (sadə feili xəbər).

本を読むだろう。***Hon-o yomudarou***. *Görünür kitabı oxuyacaq*. (xəbəri tərkibi feil olan).

これは本である。***Kore-va hondearu***. *Bu kitabdır.* (xəbəri addan ibarət olan cümlə).

Fikrimizcə, cümlədə mübtədanın rolunu şişirdənlər xəbərdə bir sıra qrammatik göstəricilərin formalaşmamasını əsas tuturlar.

Türk yaponşünası Ayşe Nur bu fikirdədir ki, yapon dilində xəbər cümlənin sonunda gəlməklə önəmli qrammatik yük daşıyır. Digər cümlə üzvlərinin ondan əvvəl gələrək onu bu və ya digər şəkildə izah etməsi onu göstərir k, həmin cümlə üzvləri əhəmiyyətinə görə xəbərdən sonra gəlir. Yeri gəlmişkən xəbərin yeri məsələsindən bəhs edərkən İ.İ.Bass da onun yerinin cümlənin sonunda olmasını qəbul edir. Hətta o yazır ki: "Xəbərin mövqeyi ciddi şəkildə cümlənin sonunda təsbit edilmişdir." (1, 285).

Ayşe Nur xəbərin rolundan bəhs edərkən görünür, yapon dilində cümlədə söz sırasının, türk dilində cümlədə sözlərin sırası ilə demək olar ki, eyni olmasından çıxış edərək xəbəri cümlənin başlıca üzvü kimi qeyd edir.

Müasir türk dilində xəbər "yüklem" istilahı ilə ifadə edilir. "Yüklem" sözünün kökü "yük" sözündəndir. "Yüklem" olan xəbərin, xüsusilə feili xəbərin təsdiq-inkar, növ, zaman, şəxs kimi qrammatik kateqoriyaları özündə cəmləşdirməklə cümlə üzvlərinin sıralanmasını da müəyyən edir. Cüttərkibli üzvlü cümlələrdə doğrudan da yapon dilindəki söz sırası türk və Azərbaycan dillərində olduğu kimidir. Məsələn: 1) 花が咲いています。***Hana-qa saiteimasu***. *Gül açır*; 2) 雨が降っています。***Ame-qa futteimasu***. *Yağış yağır*; 3) 海が見えます。***Umi-qa miemasu.*** *Dəniz görünür*.

Beləliklə, istər Ayşe Nur və istərsə də yapon dili ilə məşğul olan alimlərin fikirlərini analiz edərkən belə qənaətə gəlmək olar ki, cümlə üzvləri məsələsinə kompleks şəkildə baxılmadığından cümlə üzvlərinin yeri məsələsi indiyə qədər həll edilməmiş qalır.

1986-cı ildə çapdan çıxmış «Грамматика современного японского языка» adlı kitabında İ.V.Qolovnin yazır ki: "Cüt tərkibli kommunikatemlərin analizi göstərir ki, yapon dilində sintaksemlərin bu funksional siniflərini – cümlə üzvlərini ayırd etmək olar. Mübtəda və xəbər ilkin komponent olaraq (başlıca komponent kimi) cümlənin sırasını təşkil edən üzvlər kimi tam şəkildə elementar kommunikatemin olması üçün hər ikisinin də təşkiledici mərkəzi mübtəda və xəbərdir (yaxud da

tərkibi mübtəda və tərkibi xəbərdir)" (2,60). Müəllifin fikrincə mübtəda və xəbər: 1. Cümlənin nüvəsini təşkil edir; 2. Birbirilə bağlı olan başlıca komponentdir.

Beləliklə, İ.İ.Qolovnin cümlənin baş üzvlərinin cümlədə rolunu eyniləşdirmiş olur.

Bu doğrudur, mübtəda və xəbər fikrin ifadəsində önəmli cümlə üzvləri olub biri digərini tamamlayır. Lakin yenə də məsələ qrammatik asılılıq baxımından açıq qalır. Məsələn yapon dilində 私はあなたが好きです。***Vataşi-va anata-qa suki-desu.*** «Mən səni çox istəyirəm» cümləsinin "*mən*" mübtədası ilə "*istəmək*" xəbəri arasında qrammatik əlaqədən çox məna əlaqəsi mövcuddur. Məlumdur ki, burada qrammatik əlaqə dediyimiz zaman mübtəda ilə xəbər arasında uzlaşma əlaqəsini nəzərdə tuturuq. Lakin 母は入院されました。*Haha-va nyuuin saremaşita*. Anam xəstəxanaya qaldırıldı cümləsinin xəbərini feili məchul növdə olduğundan işin kimin tərəfindən icrası müəyyən deyildir. Cümlənin mübtədası olan "*anam*" obyekt vəzifəsini daşıyır.

Azərbaycan dilində baş üzvlərin cümlədə rolu məsələsi yapon dilində olduğu qədər mübahisə doğurmur. Mübtəda cüt tərkibli cümlənin elə bir baş üzvüdür ki, qrammatik cəhətdən cümlənin digər üzvlərindən asılı deyildir. Beləliklə, Azərbaycan dilində mübtəda müstəqil bir üzv kimi qəbul edilmişdir.

Türk dillərində feillərin şəxsi olmasına görə bütün feillər həmçinin xəbərlik kateqoriyasının varlığı üzündən bütün adlar xəbər olarkən daşıdıqları qrammatik əlamət vasitəsilə şəxs təsəvvürünü yaratdıqlarından bəzən mübtədaya ehtiyac duyulmur. Bu xüsusiyyətinə görə Azərbaycan dilində cümlənin baş üzvləri ciddi şəkildə yapon dilindən fərqlənir.

Azərbaycan, eləcə də türk dillərindən fərqli olaraq feili xəbərdə qrammatik şəxs kateqoriyası yapon dilində inkişaf etmədiyindən məs: 申し込みましたか。***Moshikomimashitaka*** cümləsini "*Müraciət etdinmi*", "*Müraciət etdimi*", "*Müraciət etdilərmi*?" sual cümləsi kimi işlətmək olar. Bu sual cümləsi II şəxsin təkinə də, III şəxsin təkinə və cəminə də ünvanlana bilər. Sual cümləsinin qrammatik göstəricisi intonasiya deyil, か/***ka*** sual hissəciyidir.

Azərbaycan dilində mübtədası yazıda ifadə edilməyən bu cümlələrin sonundakı şəkilçilərdən birincinin 2-ci şəxsin təkinə, 2-cinin III şəxsin təkinə və 3-cünün III şəxsin cəminə aid olduğunu görmək mümkündür. Bunun üçün qrammatik şəxs şəkilçiləri mövcuddur.

Bunlardan belə bir nəticəyə gəlmək olar ki, cümlənin mübtədasının olması, yəni işin kim tərəfindən icrası bəlli olmaq üçün subyektin mübtəda şəklində ifadəsi yapon dilində vacibdir.

Qrammatik şəxsin xəbərdə ifadə olunmasının mümkün olmadığını nəzərə alan "Yaponca Dilbilgisi" kitabının müəllifləri Ayşe Nur Tekmen və AkikoTakano türk oxucusuna təqdim etdikləri dərslikdə şəxsi şərti olaraq 3-cü şəxsin təki olaraq qəbul etmişlər.Odur ki, yapon dili cümləsini

来年兄が日本へ行きます。***Rainen ani-ğa nihon-e ikimasu.***

"Gələn il böyük qardaşım Yaponiyaya gedəcək" (3,43) birləşmələrdə mübtəda əsasdır, önəmlidir.

Verilmiş cümlədə eləcə də yapon dili ilə Azərbaycan dilinin söz sırası üst-üstə düşür.Həmin cümlənin sırasının quruluşu cümlə üzvlərinə görə belədir:

zaman zərfliyi+mübtəda +yer zərfliyi+xəbər

Cümlə misalı və cümlə üzvlərinin sırasını göstərən sxem "Yaponca Dilbilgisindən" götürülmüşdür. Odur ki, cümlə misalına aid verilmiş sxemdə təyinin qeyd olunmaması onunla əlaqədardır ki, türk dilçiliyində təyin təyin etdiyi sözlə bir yerdə götürülür və müstəqil cümlə üzvü kimi qəbul olunmur.

Bu tip cümlələrdə şəxsə və kəmiyyətə görə uzlaşma olmur.Bunu mübtədanın ifadə etdiyi leksik şəxs və kəmiyyət müəyyən edir.

Konrad üç tip yapon cümləsi ayırd etmiş, bunları o, cümlənin xəbərinə görə müəyyənləşdirmişdir.Müəllif yazır: "Təbiidir ki, əgər predmetin özəlliyi predmeti ifadə edən sözlə, yəni isimlə, keyfiyyət bildirən sifətlə, o zaman hərəkətin özəlliyi feillə ifadə edilir" (4,70).Daha sonra müəllif davam edərək yazır: "Beləliklə bütün bu üç əsas tip cümlələr qrammatik cəhətdən bir-birindən xəbərlə fərqlənir" (4,70). Alim daha sonra xəbərdə şəxs kateqoriyasının inkişaf etməməsini bu dilin spesifikliyi kimi qəbul edir.

Yapon dilinin görkəmli tədqiqatçılarından A.A. Xolodoviç yapon dilinin bu spesifikliyini görərək belə bir cəhəti vurğulamışdır ki, "bütün konkret dillər eyni məna və vəzifələri görürlər, amma eyni vəzifə müxtəlif dillərdə hətta eyni bir dildə müxtəlif üsul və vasitələrlə yerinə yetirilə bilər." (5,6)

Dilçilikdə uzun zaman mübtəda- xəbər münasibətləri alimlər tərəfindən mübahisələrə səbəb olmuşdur.Bir nöqteyi- nəzərə görə A.A.Xolodiviçin dediyi kimi "между подлежащим и сказуемым нет отношения хозяина и слуга т.е. отношения детерминации" (həmin əsər.s.294).

Bununla əlaqədar olaraq E.Kuriloviçin fikirləri maraq doğurur. O yazır ki, "xəbər bir qayda olaraq mübtəda ilə uzlaşır, nəinki əksinə. Beləliklə mübtəda xəbərə uzlaşmanı diktə edir nəinki xəbər mübtədaya".

Kuriloviçinin sözlərindən bu nəticəyə gəlmək olar ki, uzlaşma əlamətinə görə predikativ birləşmələrdə mübtəda əsasdır, önəmlidir (хозяин- подлежащее.s.297).

Bir qayda olaraq xəbər mübtəda ilə uzlaşır, nəinki mübtəda xəbərlə, beləliklə, mübtəda uzlaşma formasını xəbərə diktə edir nəinki xəbər mübtədaya (s.294). E.Kuriloviçin bu fikri Azərbaycan dilçiliyində də geniş tərəfdar toplamışdır. Lakin bu ümumi müddəa yapon dili üçün məqbul sayıla bilməz və belə bir müddəa daha doğrudur ki, yapon dilində mübtədanınmı, xəbərinmi dominant olduğunu müəyyən etmək qeyri- mümkündür.

Yapon dilində predikativ şəxs kateqoriyasının inkişaf etməməsi üzündən şəxsə görə uzlaşmadan söhbət gedə bilməz.Burada qrammatik mübtədamı, xəbərmi dominantdır demək, doğru deyildir və bunu müəyyən etməyə ehtiyac yoxdur.

Azərbaycan dilində mübtədanın xüsusi əlaməti olmadığı halda həm ismi xəbərin, həm də feili xəbərin xəbərlik əlamətləri vardır. Yapon dilində mübtədanın da, xəbərin də göstəriciləri kimi əlavə hissəciklər mövcuddur (が/***ga***, は/***va*** və です/***desu***, ます/***masu***). Digər tərəfdən də müasir yapon dilində -ます/- ***masu*** suffiksi xəbərin formalaşmasında önəmli rol oynayır. Deməli bütün feillər xəbər funksiyasını yerinə yetirmək üçün feilin sonuna -ます/-***masu*** suffiksi əlavə edilməlidir. Ümumi götürdükdə bu cəhətilə Azərbaycan dilindəki xəbər, yapon dilindəki xəbərə oxşayır. Hər iki dildə xəbər göstəricisi vardır (şəxs ifadə etmək üçün). Bu suffiks 1- ci təsrif feillərinin 2- ci əsasına artırılır:

読む/***yomu*** oxumaq　　読みます/***yomimasu***

2- ci təsrif feillərindən

見る/ ***miru*** görmək 見ます/***mimasu***
来る /***kuru*** gəlmək 来ます/***kimasu***
する/***suru*** etmək します/***shimasu***

Bütün bunlar onu göstərir ki, feillərin xəbər kimi çıxış etməsində başlıca olaraq -ます/***-masu*** şəkilçisinin, yəni morfoloji əlamətin rolu vardır. Halbuki, məs. Azərbaycan dilində (見ます/***mimasu*** "baxıram") kimi cümlələrin

1-ci baxıram baxırıq
2-ci baxırsan baxırsınız
3-cü baxır baxırlar

kimi təsrif olunan feilin hər şəxsə görə morfoloji göstəricisi vardır. Bu xüsusiyyət yapon dilindən fərqli olaraq Azərbaycan dilində imkan verir ki, zərurət olmadıqda şəxsi qrammatik göstəricilərlə ifadə edək.

Lakin Ayşə Nur dönə-dönə qeyd edir ki, "Yapon dilində cümlədə ən vacib cümlə üzvü xəbərdir" (s.45). Müəllif hətta əlavə edir ki, "Müstəgil şəkildə cümlə düzəltmək üçün xəbər kifayət edir" (yenə orada). Kitabda:

行きますか。***Ikimasuka*** - Gidermisin (misiniz)?Gedirsən (siniz) mi?
うん、行く。***Un, iku***-Evet, giderim (s.45). Bəli, gedəcəyəm misalları da verilmişdir ki, belə misallar xəbərin dominant olduğuna sübut kimi kifayət deyildir.

Ayşe Nur tamamilə xəbərə üstünlük verərək yuxarıda qeyd etdiyimiz kimi onu cümlədə domimant olaraq qeyd edir. Yazır ki, "Yükleme özne, nesne, tümleç gibi öğeler eklenir" (s.45). Müəllifin fikrindən belə çıxır ki, mübtəda vasitəsiz tamamlıq (vasitəli tamamlıq) və xəbərdən asılıdır. Misallar:

Müstəqil cümlə üzvü kimi xəbərdən ibarət cümlə quruluşu:

読んでいます/***yondeimasu*** - oxuyur, oxuyurlar, oxuyuram
oxuyuruq, oxuyursan, oxuyursunuz

Misaldan göründüyü kimi yapon dilində feil -ます/***-masu*** suffiksinin köməyi ilə müstəqil xəbər ola bilər, lakin qrammatik şəxs olmadığından Azərbaycan dilindəki uyqun tərcüməsi ilə müqayisə etsək burada qrammatik yarımçıqlıq vardır. Yəni konkret xəbər deyildir. Çünki şəxsi müəyyən etmək olmur.

Yapon dilində, Azərbaycan dilində olduğu kimi, təsirlilik, təsirsizlik kateqoriyası vardır. Xəbəri təsirli feildən ibarət olan xəbər qrammatik obyekt tələb edərək, obyekti ifadə edən vasitəsiz tamamlığın ona yaxın yerləşməsini şərtləndirir. Tamamlıqlar hərəkətin təsirinə məruz qalan, hərəkətin icrası nəticəsində yaranan, hərəkətin çıxdığı, yönəldiyi obyekti, əlamətin (geniş mənada) müqayisə obyektini və sairəni ifadə edir.

３人の兄弟は両親に古い家を残して出て行きました。***San-nin-no kyoudai-va ryouşin-ni furui ie-o nokoşite, dete ikimaşita***. Üç qardaş valideynlərinə köhnə evi qoyub getdilər. Bu cümlədə "*evi*" tamamlığı, "*qoyub*" feili bağlamasının təsirilə təsirli hal şəkilçisi qəbul edib daxili tamamlıq kimi çıxış etmişdir. Yaxud: 私は娘に人形を買いました。***Vataşi-va musume-ni ningyou-o kaimaşita***. Mən qızıma gəlincik aldım cümləsindəki "aldım" xəbərinin (təsirli feildir) təsiri ilə gəlincik (obyekt bildirən söz) sözü vasitəsiz tamamlıq olmuşdur. Xəbərin cümlədə roluna üstünlük verənlər onun başlıca cümlə üzvləri kimi bu xüsusiyyətini də nəzərə almışlar, yəni feili xəbərin idarə əlaqəsi nəticəsində tələb etdiyi tamamlıqları.

Ayşe Nur ona görə xəbərə üstünlük verir ki, feil (xəbər) tamamliq+ xəbər, vasitəsiz tamamlıq+ xəbər və həm də mübtəda+ vasitəli tamamlıq+ vasitəsiz tamamlıq+ xəbər şəklində də işlədilə bilər.

1. 母が読んでいます/ ***haha – ga yondeimasu*** mübtəda+ xəbər
2. 妹と読んでいます ***imouto – to yondeimasu*** vasitəli tamamlıq+ xəbər
3. 本を読んでいます ***hon – o yondeimasu*** vasitəsiz tamamlıq+ xəbər
4. 母が妹と本を読んでいます ***haha – ga imouto-to hon – o yondeimasu*** mübtəda+ vasitəli tamamlıq+ vasitəsiz tamamlıq+ xəbər.

Şəxs kateqoriyası ilə əlaqədar olaraq önəmli cəhət, eyni zamanda yapon dilini digər dillərdən həmçinin Azərbaycan dilindən fərqləndirən cəhət bu dildə nəzakət anlayışının dildə ifadə (qrammatik) vasitəsinin olmasıdır. Odur ki, feil də danışıq situasiyasından və danışanlardan da xeyli dərəcədə asılıdır.

Yapon dilində xəbərin mühüm xüsusiyyətlərindən biri onun Azərbaycan dilində olduğu kimi cümlənin sonunda gəlməsidir.

B.P.Lavrentiyevin "Samouçitel yaponskoqo yazıka" (Moskva, 1982) adlı kitabında bu cəhət xüsusilə vurğulanır.Onun kitabının 17- ci səhifəsində "Tri osnovnıx pravil yaponskoqo sintaksisa" başlığında yazır ki, "Podlejaşee predşestvuyet skazuemomu, kotoroye zanimayet mesto v konçe predlojeniya" Müəllif sintaksisin 3-cü qaydası olaraq yazır: "Dopolneniye i obstoyatelstvo predşestvuyet skazuemomu" (s. 17).

Bu fikrin doğru olduğunu sübut edən yetəri qədər cümlə misalları vardır. Məsələn: 1. *Mən qızıma gəlincik aldım* (mübtəda+vasitəli tamamlıq + vasitəsiz tamamlıq + xəbər). 2. *Yanımda olan qız köhnə kitabı oxuya-oxuya sakitcə yatdı.*

Qeyd edək ki, bu iki xüsusiyyətin ikisi də eynilə Azərbaycan dilində olduğu kimidir.

Yapon dilində cümlənin baş üzvlərilə bağlı elmi mülahizələrə yekun vuraraq qeyd etmək lazımdır ki, yaponşünaslar bu məsələdə ya sintaktik cəhəti, ya morfoloji xüsusiyyətləri, ya da informativ faktora əsaslanmışlar. Fikrimizcə, cümlə üzvlərinin dominantlığı məsələsini həll edərkən yuxarıda qeyd etdiyimiz faktorların hamısını kompleks şəklində nəzərə almaq lazımdır. Çünki cümlə sintaktik sistem olub üzvləri arasında qarşılıqlı əlaqələrə malikdir.

Müasir yapon dilində cümlə üzvlərinin xüsusilə cümlənin baş üzvlərinin tədqiqi göstərir ki;

1. Bu məsələ yapon dilçiliyində öz həllini tapmamışdır. Halbu ki, bunun hazırda yapon dilinin tədrisi məsələsinə ciddi təsiri vardır.
2. Cümlədə mübtəda kimi çıxış edən söz onun qrammatik göstəriciləri olan は/***va***, が/***qa*** kimi şəkilçilərini qəbul edir. Azərbaycan dilində mübtədanın xüsusi qrammatik göstəricisi yoxdur.
3. Həm yapon və həm də Azərbaycan dillərində xəbərin qrammatik göstəriciləri vardır. Lakin Azərbaycan dilində bu göstəricilər ismi cümlələrdə başqa, feili cümlələrdə isə bir başqadır.
4. Yapon dilində feili cümlələrdə feil şəxsə və kəmiyyətə görə dəyişmir. Buna görə də mübtədası açıq şəkildə ifadə edilməyən cümlələrdə bunu müəyyən etmək çətin olur. Belə hallarda mətni situasiya müəyyən mənada köməklik göstərə bilir.

5. Yapon dilində şəxsə və kəmiyyətə görə dəyişmələr baş vermədiyinə görə baş üzvlərdən hansının dominant olduğunu alimlər bu günə qədər müəyyən edə bilməmişlər.

6. Azərbaycan dilçiliyində bir qayda olaraq xəbər mübtədaya görə formalaşdığından mübtədanın daha müstəqil bir cümlə üzvü olması fikri qəbul edilmişdir.

7. Yapon dilində cümlədə xəbərə üstünlük verənlər onun türk dillərində olduğu kimi cümlənin sonunda gəlib digər sözləri ətrafına toplaması ilə izah edirlər ki, bunu da məqbul saymaq olmaz.

İstifadə olunmuş ədəbiyyat

1) И.И.Басс. Проблемы современного японского языкознания, Санкт-Петербург, 2004,371 с.
2) И.В.Головнин. Грамматика современного японского языка,
3) Ayşe Nur Tekmen, Akiko Takano. Yaponca Dilbilgisi, Ankara, 2007, 378 s.
4) N.İ.Konrad. Синтаксис японского национального литературного языка. М. 1973, 373с.
5) А.А.Холодович. Проблемы грамматической теории, Ленинград, 1979, 302 с.
6) Э. Курилович. Очерки по лингвистике. М. 1962,
7) В.П.Лаврентьев. Самоучитель японского языка, М. 1982, 350 с.
8) Ə.Abdullayev. Müasir Azərbaycan dili, Bakı 1972, 475 s.

О.Б.Джалилбейли

О роли главных членов предложения в японском языке

Резюме

В современном японском языкознании до сих пор не решён вопрос о роли членов предложений в японском языке.

В статье анализируются мнения ученых по этому вопросу и определяется место главных членов предложения в японском предложении, даются особенности подлежащего и сказуемого в предложениях японского языка и отличительные черты этих членов предложения, описываются синтаксические связи подлежащего и сказуемого, а также говорится об отношениях подлежащего, сказуемого, темы и ремы.

O.B.Jalilbayli

About the role of the main parts of speech in Japanese language

Summary

In contemporary Japanese language the problem of the role of members of a sentence has not been solved yet.

In the presented article the main parts of speech in a sentence: disputable ideas of a subject and predicate and their role in a sentence have been analysed and the role of the main parts of speech has been determined.

Different features of a subject and predicate in comparison with other languages in Japanese language have also been explained in the presented article. Syntactic connection between them has also been spoken about. Subject, predicate, theme and rema attitudes have also been dealt with.

Rəyçi: N.Məmmədov
filologiya elmləri doktoru, professor

GÜNEL PAŞAYEVA
Sumqayıt Dövlət Universitetinin doktorantı
e-mail: p.gunel@hotmail.com

DİLİN LÜĞƏT TƏRKİBİNİN ZƏNGİNLƏŞMƏSİNDƏ TERMİNLƏRİN ROLU
(Azərbaycan dilinin materialları əsasında)

Açar sözlər: dilçilik, Azərbaycan dilçiliyi,terminologiya,termin,alınma terminlər
Ключевые слова: языкознание, азербайджанское языкознание, терминология, термин, заимствованные термины
Key words: linguistics, Azerbaijani linguistics, terminology, the term, loan terms

Hər bir dil üçün mənsub olan sözlərin necə yarandığı, ilk dəfə hansı mənada işləndiyi, yaranma və inkişaf tarixi maraqlı, öyrənilməsi mühüm olan məsələdir. Hər bir dilin leksikası keçdiyi inkişaf prosesini bütünlüklə özündə əks etdirir. Elə buna görə də yeni yaranan hər bir əşya, hadisə və abstrakt məfhumlar öz əksini sözlər, terminlər şəklində tapır.

Sözlərin özü də onun cəmiyyətə necə xidmət etməyindən, insanların istəklərini nə dərəcədə düzgün ifadə etməsindən asılı olaraq bir ömür yaşayır. Bəzən o, öz məzmununu dəyişərək inkişaf edir, öz aktuallığını qoruyub saxlayır.

Amma unutmaq olmaz ki, yeniliyin və inkişafın geniş vüsət aldığı bir dövrdə yeni-yeni sözlərə mütləq və mütləq ehtiyac duyulur. Bu sözlər bəzən dilin daxili imkanları əsasında, bəzən isə başqa dillərdən alınır.

Dil və onun daxili inkişaf qanunlarına cəmiyyətdə baş verən siyasi, ictimai dəyişiklik, elmi texniki tərəqqi, iqtisadi mədəni həyatda baş verən yeniləşmələr ciddi təsir göstərir. Bu yeniləşmələr dünyada o cümlədən dilimizin lüğət tərkibində müxtəlif istiqamətlərdə də dəyişikliklər yaradır. Bu təsir özünü daha çox terminologiya sahəsində göstərməkdədir. Belə ki, Qərbə inteqrasiya, elmi texniki inkişaf, baş verən yeniliklər bir çox alınmaların yaranmasına səbəb olur. Dilin lüğət tərkibinin zənginləşməsində alınmaların rolu danılmazdır. Dillərarası əlaqələrin kökünü araşdırsaq görərik ki, bu tarix çox qədimdir. Belə ki, məntiqi təfəkkürün formalaşdığı, xalqlar arasında yaranan iqtisadi və hərbi əlaqələrin meydana gəldiyi dövrdən dillər arasında da müəyyən münasibətlər yaranmağa başlamışdır.

Dilimizin müstəqilliyini şərtləndirən cəhətlərdən biri də leksik tərkibin başlıca hissəsini xalis Azərbaycan sözlərinin təşkil etməsidir. Lakin dünyada elə bir dil yoxdur ki, lüğət tərkibi tamamilə öz sözlərindən ibarət olsun. Müxtəlif elm sahələri üzrə kəşflər, ixtiralar, yeniliklər yeni söz yaranmasını və mübadiləsini zəruriləşdirir. Bu zəruriliyin hesabınadır ki, dilimizin leksik tərkibi artır, zənginləşir.

Müasir ədəbi dilimizin leksik tərkibi də çox zəngindir. Burada Azərbaycan sözləri ilə bərabər mənşəcə müxtəlif terminlər də var. Bütün sahələrdə olan sürətli inkişaf yeni sözlərin, terminlərin yaranmasına və alınmasına zəmin yaradır.

Başqa sözlə desək, yeni yaranmış əşya və ya məvhumun adlandırılması üçün xüsusi sözlərin yaranması vacib hal alır. Bu hadisə bir çox ərazilərdə özünü göstərdiyindən beynəlxalq xarakter daşıyır. Yer kürəsinin hansı hissəsində meydana gəlməsinə baxmayaraq hər bir yeni yaranan söz dilin leksik vahidi ilə adlandırıl-

malıdır ki, bu da ancaq terminoloji vasitələrlə reallaşır. Çünki termin elmin, texnikanın, incəsənətin anlayışlarını, təbiət və cəmiyyətdə baş verən hadisələri, istehsal proseslərini bir-birindən fərqləndirmək üçün onlara verilən səciyyəvi addır [1.s.268].

S.A.Sadıqovanın qeyd etdiyi kimi,termin ancaq bir anlayışı, obyekti ifadə edir. Söz kimi terminin özü də leksik kateqoriyadır. O, nominativ xarakterə malik olub əşyaları, hadisələri və müəyyən məfhumları ifadə edir. Bununla yanaşı terminlər müvafiq anlayışı təyin etmək funksiyası (definitiv funksiya) ilə də fərqlənir və dilin lüğət tərkibində xüsusi yer tutur.

Məhz terminlərin sayəsində elmi məlumatlar daha dəqiq və yığcam çatdırılır. Buna görə də həmin anlayışların mənalarını ixtisasçılar daha asan başa düşür. S.A.Sadıqova yazır: "Terminlə anlayış arasında hadisə və mahiyyət, forma və məzmun əlaqəsi mövcuddur. Termin anlayışı adi söz kimi adlandırmır, anlayış terminə təhkim olunur,yəni terminin mənası onun təyinatıdır.Əgər təyinat məlum deyilsə, termin də məlum deyildir" [2. s.17]. Deməli, dildə heç bir ehtiyac olmadan öz-özünə yersiz terminlərin yaranması halı mümkün ola bilməz. Əgər belə bir hal mövcud olsa belə, o söz və ya terminin çox qısa bir ömür yaşayacağı danılmazdır.

Terminləri digər söz qruplarından fərqləndirən əsas xüsusiyyət də, onların elmi konsepsiya ilə bağlı olmasıdır.

Terminlərə münasibətlərdə məntiqşünaslar, filosoflar, sosioloqlar, müxtəlif peşə sahibləri və dilçilərin yanaşma üsulları fərqlidir. Onların hər biri termini öz başa düşdüyü kimi izah edib fərqləndirir. Buna görə də bəzən terminlər ümumişlək sözlərlə, peşə sənət leksikası ilə qarışıq salınır. Yəni istənilən təyinetməyə malik olan sözə uyğun gələn anlayışlara termin kimi baxılır.

Termin özü də söz olduğu üçün onun mahiyyətini başa düşmək üçün ilk növbədə ümumi anlayışı olan sözə müraciət etmək vacibdir. Söz və terminlər hər ikisi leksik kateqoriyadır. Lakin terminlər xüsusi sözlər deyil, xüsusi funksiya daşıyan sözlərdir. Ona görə də ümumi qaydaya görə terminin leksik mənasından deyil, funksiyasından, məzmunundan bəhs edilir.

Termin özü müstəqil məna daşıyan sözlər sırasına daxil olduğundan bəzən ümumişlək sözlərlə qarışdırılır. Bunları fərqləndirmək istərkən terminlərin öz spesifikası dəqiqləşdirilməlidir. V. Adilova görə terminlər və ümumişlək sözlər arasında fərqlər bir neçə istiqamətdə araşdırıla bilər: "işlənmə dairəsinə görə, semantik cəhətə görə, funksional cəhətə görə, yayılma dərəcəsinə görə və s." [3, 10].

Azərbaycan dilinin daxili imkanları, lüğət tərkibi əsasında bir çox termin yaradılmışdır. Bunlara misal olaraq tut sözündən "tutqac", çox sözündən "çoxluq", çıx sözündən "çıxılan", "topla" sözündən "toplanan" sözlərini misal gətirmək olar.

Fikir versək, görərik ki, dilin daxili resursları kimi bir çox hallarda dialekt və şivələrdəki sözlərin yaranmış eytiyac qarşılığında termin kimi yeni bir funksiya daşıması hallarının dəfələrlə şahidi ola bilərik. M.Şirəliyev bu haqda belə yazır: "Canlı xalq dilində, onun lüğət tərkibində həyat və məişət, adət və ənənə, təsərrüfatla bağlı istənilən qədər sözlər yaşamaqdadır. Ədəbi dildə isə bunların əvəzinə alınma sözlər işlənir" [4, 54]. Məncə biz öz dilimizin daxili imkanları sayəsində termin yaratsaq, daha məqsədəuyğun olar. Bundan ötrü xalq dilinin daha dərindən öyrənilməsi zərurəti meydana çıxır. Ə.Dəmirçizadə bu məsələyə zamanında bu şəkildə münasibət bildirmişdir: "Dilin öz lüğət ehtiyatından alınıb terminə çevrilmiş sözlərin

həmin dildə müxtəlif məqamlarda işlənilmə imkanı başqa dildən alınma terminlərə nisbətən daha çox olduğundan belə sözlərin məqsədəuyğunluq əsasında termin kimi, ya ümumişlək bir söz kimi işlədilməsinə ehtiyatla yanaşmaq və sözü işlədərkən bütün bu incəlikləri nəzərə almaq zəruridir" [5, 80]. Lakin bununla belə qeyd edək ki, dildə termin yaradıcılığı prosesi zamanı başqa dillərdən alınmalardan tam yan qaçmaq mümkün deyildir. Bu məqamda bir məsələyə də diqqət yetirək ki, bütün əcnəbi sözlər termin kimi qəbul edilə bilməz. Yalnız müəyyən təyinatlı sözlər bu statusa qədər yüksələ bilər.

Son onilliklərdə Azərbaycan dilinə məcburi və könüllü şəkildə bir çox alınma terminlər daxil olmuşdur. Prof. S.Sadıqova bu haqda belə yazır: "Hələ Roma imperiyasında, latın dili imperiyaya daxil olan xalqların dillərinin leksikasını yeniləşdirir, orada özünə geniş yer tutmağa başlayır. İslam dininin meydana gəlməsi və müsəlmançılığın yayılması ərəb dilinin təsirini genişləndirdi. Beləliklə, dinin və sakral ədəbiyyatın yayılması hərəkatı Qərbdə latın, Şərqdə ərəb dilinin hegemonluğunu təmin etdi. Ədəbi-mədəni dil kimi bu dillər yüzilliklər boyu milli dillərə təsir etdi; onların lüğət tərkibinin zənginləşməsində mühüm rol oynadı" (2. s.188).

Buradan belə bir nəticəyə gəlmək olar ki, müxtəlif dövrlərdə müxtəlif səbəblərdən dilimizə daxil olan sözlər dilimizin lüğət tərkibini zənginləşdirmiş, bəzi məqamlarda isə illərin süzgəcindən keçəcək, müxtəlif xırda dəyişikliklərə uğrayaraq hətta özümüzünküləşdirilmişdir. Lakin alınmaların milli sözlərimizdən fərqləndirilməsi üçün bir neçə meyar vardır ki, fikrimizcə, bunu bilmək terminləri tədqiq edən şəxs üçün çox vacibdir. Belə ki, D.S.Lotte bu haqda belə yazır: "Hər hansı sözü "özününkü" və ya yad kateqoriyalara aid etmək üçün əsas meyarlar, bizim fikrimizcə, aşağıdakılardır:

1. Həmin sözdəki səs birləşmələrinin dildə qəul olunmuş səs birləşmələrinə hansı dərəcədə uyğun gəlməsi.

2. Sözün morfoloji quruluşu və digər formal mənsubiyyət elementlərinin dildə qəbul olunmuş quruluşa uyğun gəlməsi və onunla harmoniya yaratması.

3. Həmin sözdən əmələ gələn düzəltmə sözlərin mövcudluğu, yaxud sözün dildəki söz yaradıcılığı prosesində iştirak etməsi"[6 s.10]

S.V.Qrinev isə alınmaları təyin etmək üçün təklif olunan 6 əlaməti qeyd edir: fonetik, qrafik, morfoloji, sözdüzəltmə, sintaktik semantik.

Dilçilər terminləri iki qrupa ayıraraq belə qruplaşdırmışdır.

1) Alınma sözlərdən yaranan terminlər.

2) Hazır termin kimi alınanlar.

Alınma terminlərin mənbəsini araşdırsaq görərik ki, bu terminlər üç qrupa ayrılır.

1) Ərəb və fars mənşəli alınma terminlər.

2) Rus dilindən alınma terminlər.

3) Avropa dillərindən alınma terminlər.

Lakin qeyd edilməlidir ki, Avropa dillərindən alınma terminlər mövzusu bu gün daha çox böyük aktuallıq kəsb etdiyindən bu mövzuya ayrıca toxunulmalı və ona daha geniş şəkildə münasibət bildirilməlidir. Bu baxımdan bu məqalədə biz bu təsnifatın birinci və ikinci bəndlərində qeyd edilmiş alınma terminlərə münasibət bildirməyi lazım bildik.

Ərəb və fars mənşəli alınma terminlər – fikrimcə, ərəb istilası dövründə dilimizə məcburi şəkildə keçmiş alınmalar çoxluq təşkil edir.

Məlumdur ki, milliyətcə Azərbaycanlı alim və yazıçılarımız məcburi şəkildə ərəbcə yazıb yaratmış, bir çox ərəb-fars mənşəli sözləri terminoloji qata daxil etmişlər.

Hazırda bu sözlər azacıq fonetik, semantik dəyişikliyə uğrayaraq bu gün də öz aktuallığını qoruyub saxlayır. Məsələn: mühasib, dairə və s.

Rus dilindən alınma terminlər – Azərbaycan ədəbi dili Sovet dövründə öz yeni inkişafına qədəm qoydu. Hələ XIX əsrdən başlayaraq ictimai-siyasi əlaqələr nəticəsində dilimizə rus mənşəli sözlər daxil olmağa başladı.

Artıq XX əsrdən ictimai siyasi həyatda baş verən dəyişiklər rus dilindən xeyli sözlərin dilimizə keçməsini sürətləndirdi. Bu proses 90-cı illlərə qədər davam etmiş və dilimizin lüğət tərkibinə inanılmaz sayda yeni sözlər, terminlər daxil olmuşdur. Lakin bütün bunlara baxmayaraq dilimizin dərin qatlarına kök salmış ərəb-fars mənşəli sözlər hələ də öz əsas aktuallığını qoruyub saxlamışdır.

Vaxtilə bizim üçün ikinci ana dili hesab olunan rus dilinə olan maraq, o dövr üçün səciyyəvi olan rus məktəblərinə axın dəbi bu alınmaların, yeni sahələr üzrə yaranan terminlərin qəbulunu zəruriləşdirdi.

Hətta çox acınacaqlı hal kimi hesab etdiyim, bu gün çox insanların rus dilindən alınmış və demək olar ki, artıq ümumişlək söz kimi dilimizə daxil olmuş bir çox sözlərin Azərbaycan dilində qarşılığını bilməməyidir.

Rus dilindən keçən terminlərin elmi dildə işlənməsi haqda prof. S.Sadıqova yazır: "Bu terminlərin elmi dildə işlənməsi üç formada öz əksini tapır:

1) Həm Azərbaycan, həm vasitəçi olan rus dilində, həm də mənbə dildə eyni formada işlənən terminlər: aorta, anomaliya, plazma.

2) Həm Azərbaycan, həm də rus dilində olduğu kimi işlənən terminlər: anatomiya, dizel, folekul.

3) Azərbaycan dilində dəyişməyə məruz qalaraq işlənən terminlər: фистула – fistel.

Bir şeyi unutmaq olmaz ki, rus dilindən alınan belə terminlər Azərbaycan ədəbi dilinin qanunauyğunluqlarına tabe olması təbii prosesdir.

Avropa dilindən alınma terminlər – Azərbaycan dilçiliyində Avropa dillərindən alınmalar tədqiqatçılar tərəfindən tədqiq olunmuşdur. Maraqlıdır ki, tədqiqatçılar bu alınmalara fərqli tərəfdən yanaşmışlar.

Sovet dövründə məlumdur ki, Avropa ölkələri ilə geniş şəkildə əlaqə qurulmadığından dilimizə vasitəli şəkildə keçən terminlər üstünlük təşkil edir. Lakin XX əsrin sonlarından ölkə müstəqilliyini əldə etdikdən sonra Avropa ölkələri ilə əlaqələr genişlənmişdir.

Təbii olaraq, əvvəlki dövrlərdə termin almada rus dili əvəzinə Avropa dillərinin əsas rol oynaması diqqəti cəlb edir.

Avropa mənşəli terminlər, əsasən, latın, fransa, alman, yunan dillərinə məxsusdur" (2. s.226).

Məlumdur ki, bu gün elmin, texnikanın, inkişafında Qərb dövlətləri bizi ötür.

Bununla əlaqədə qeyd edilməlidir ki, dilimizdə günü-gündən qərb dillərindən alınan terminlərin sayı çoxalır. Avropa ölkələrindən qəbul etdiyimiz bir çox əşya və məvhumların adlandırılmasında çətinlik çəkdiymizdən məcburən həmin terminləri olduğu kimi qəbul edirik. Çünki dil öz daxili resusrsları, imkanları hesabına yeni əş-

ya və ya məvhumu adlandırmaq iqtidarında olmadıqda alınmalara müraciət etmiş olur.

Bəzən bu sözlər dilimizin fonetik və qrammatik xüsusiyyətlərinə uyğunlaşsa da bir qisim sözlər var ki, mənbə dildəki formasını qoruyub saxlayır. Məsələn: spam – qəbul edən üçün mənasız, göndərən üçün isə əsasən reklam anlamı daşıyan informasiya (e-mail) Update – apdeyt, yəni ən son versiyaya qaldırmaq, yeniləmək, mükəmməlləşdirmək.

Alınma sözlər sırasına bu gün bir çox terminləri nümunə göstərmək olar. Məsələn: disk, e-mail, facebook, kompüter, fotoşop və s. S.Sadıqova yazır:"Elm və texnikanın inkişafı ilə əlaqədar müvafiq terminlər yaranır.lakin həmin terminlərin mənası dəqiq,dürüst müəyyənləşdikcə onları yaradan elm və texnika sahəsinin özü də irəliləyir.Elm inkişaf etdikcə isə hər hansı bir proseslə bağlı təsəvvür yaranır təsəvvürün inkişafı məfhumu əmələ gətirir.Məfhum isə anlayıyışın əmələ gəlməsinə təkan verir."(7.s.4)

"Azərbaycan dili zəngin imkanlara malik olan bir dildir. Buna görə də elmin, texnikanın, incəsənətin, istehsalatın, ictimai fəaliyyətin bütün sahələrinə aid müstəqillik illərində irihəcmli lüğətlər nəşr olunmuşdur" (2. 337). Fikrimcə, lüğətlərin tərtibi zamanı bütün yeniliklər diqqətdə saxlanmalı, yeni yaranmış terminlər araşdırılmalı və düzgün şəkildə ictimaiyyətə çatdırılmalıdır. Mümkün olduğu halda isə dilimizin fonetik və qrammatik quruluşuna tabe olmayan sözləri öz sözlərimizlə əvəz etməli, dilimizi yad ünsürlərdən qorumaqla, yadda saxlanması çətin olan sözlərdən imtina etməliyik. Bu heç də o anlama gəlməməlidir ki, biz alınmaları qəbul etməməli və onların hamısını yersiz söz və ifadələrlə əvəz etməliyik. Təbii ki, elə beynəlxalq statuslu, mövqeli terminlər vardır ki, onların işlədilməsi nitqə və dilə ayrı bir rəng və yeni bir məzmun qatır.

Bu araşdırmada ərəb-fars və rus dilindən alınmaların ümumi xüsusiyyətləri bu mövzuya həsr olunan çoxsaylı tədqiqatlara baxmayaraq bir daha nəzərdən keçirilərək onlara müasir zamanın tələbinə uyğun münasibət bildirilməsi baxımından daha sonrakı tədqiqatlar üçün əhəmiyyət kəsb edə bilər. Belə ki, bu məqalədə təqdim edilən materiallar, fikir və mülahizələr dilin tarixi mənzərəsini canlandırmaqda faydalı material kimi istifadə oluna bilər.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. İzahlı dilçilik terminləri. Bakı, Maarif, 1989

2. Sadıqova S. Azərbaycan dilinin terminologiyası. Bakı, Elm, 2011.

3. Adilov V. Termin və ümumişlək söz. Terminologiya məsələləri. Bakı, Elm, 1990.

4.Şirəliyev M.Ş.Azərbaycandilinin dialektologiyasinin əsaslari.Bakı,Şərq Qərb,2008

5. Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı, 1962.

6. Лотте Д. С. Вопросы заимствования и упорядочение иноязычных терминов и терминоелементов. Москва, Наука, 1983

7. Sadıqova S.A. Azərbaycan dili terminologiyasının nəzəri problemləri Bakı,Elm, 2002

Гюнел Пашайева

Роль терминов в обогащении лексического состава языка
(на материале азербайджанского языка)
Резюме

Это статья посвящена роли терминам в лексическом обогащении нашего языка. Так как, термины используются для разграничения понятий науки, техники и искусства. Они создаются различными способами и заимствоваются из других языков либо вынужденым образом, либо добровольно. Понятия и термины перешедшие в наш язык из других языков обогащают его лексический состав, повышают словарный запас.

Gunel Pashayeva

The role of terms in lexical enrichment of language structure
(on the basic of the Azeri language)
summary

This article is dedicated to the role of terms in the lexical enrichment of our language.

Term in the meaning of limit is the typical name given to science, techniques, art for to differ them from one another. Terms are formed in some ways and come to our language forced or voluntarily from other languages enrich lexical composition of language and increase fund of words.

Elmi rəhbər: S.A.Sadıqova
filologiya elmləri doktoru

НАИЛЯ ГАДЖИЕВА
Азербайджанский медицинский университет
E-mail naila.abasova@mail.ru

РАЗВИТИЕ РЕЧИ СТУДЕНТОВ НА ОСНОВЕ СВЯЗНОГО ТЕКСТА

Açar sözlər: əlaqəli nitqin inkişafı, mətnin komponentlərinin əlaqəsi, cümlənin aktual üzvlənməsi, statik və dinamik təsvir, söyləmin tema və rema funksiyaları.

Ключевые слова: развитие связной речи, связь компонентов текста, актуальное членение предложения., статическое и динамическое описание, функции темы и ремы высказывания.

Key words: coherent speech development, text component parts connection, sentence actual segmentation, static and dynamic description, theme functions and theorem statements.

Всякая работа по развитию речи студентов-азербайджанцев должна быть главным образом работой над связным текстом. Ведь не секрет, что многие студенты-азербайджанцы, правильно составляя отдельные предложения для подкрепления грамматических правил русского языка, нередко затрудняются в употреблении подобных же конструкций в связной речи. Объясняется это тем, что для овладения навыком связной речи недостаточно усвоить построение предложения; надо уметь еще сочетать предложения друг с другом, располагать их в известной последовательности, используя для этого определенный порядок слов, интонацию и прочие грамматические средства. Иначе говоря, соединение самостоятельных предложений в целом тексте имеет свои специфические особенности, несводимые к особенностям синтаксической связи слов в составе простых или сложных предложений (1, с. 27).

Несмотря на разногласие в определении понятия «текст», всеми лингвистами признается, что текст не мыслим вне связности. Связность речи – «… это функционально-семантическая категория, выражающая информационно-лексическую последовательность высказываний посредством использования системы единиц всех уровней языка и определенных способов употребления этих единиц, выступающих в функции средств выражения этой категории» (2, с. 52).

В данной статье рассматривается роль актуального членения в организации связности текста. Опираясь на представление о тексте как линейно строящейся речи (его процессуальность), и одновременно как высшем коммуникативном целом (его результативность) мы рассматриваем связность в двух аспектах: 1) связность как отражаемое, передаваемое или создаваемое речью наличие общего в двух или более фактах, явлениях и т.д; 2) связность как отражаемое, передаваемое или создаваемое речью объединение фактов, явлений и т.д. в одно замкнутое в смысловом отношении целое.

В связи с этим следует отметить, что именно актуальное членение выступает организатором связности в указанных двух аспектах. С помощью

Məqalədə portfolionun xüsusi məqsədlər üçün xarici dil kursunu bir hissəsi kimi istifadə olunması araşdırılıb. Müəllif portfolionun müəyyənləşdirilməsini və təhsil prosesində portfolionun müxtəlif formalarının analizini verir. "Mühəndislik məqsədləri üçün elektron portfolio" misal olaraq göstərilir və onun ətraflı təsviri verilir.

E. Valiyeva

Portfolio as a means of efficiency enhancement of professional foreign communicative competence formation

Summary

The paper looks upon the problem of portfolio technology usage as the part of the course "English for special purposes". The author gives analysis of the definitions and kinds of portfolio in respect to educative process. As an illustration of this technology realization "Electronic Engineering Portfolio" is drawn, its detailed description is offered.

Portfolio, foreign language for special purposes, professional foreign communicative competence, technical institute of higher education are mentioned in this paper.

Rəyçi: dosent R. V. Məmmədova

MƏTANƏT QULİYEVA
Naxçıvan Dövlət Universiteti

TRANSFORMASİYANIN TƏYİN OLUNMASI VƏ TRANSFORMASİYA HADİSƏSİNİN CÜMLƏ KOMPLEKSLƏRİ İLƏ BAĞLILIĞI HAQQINDA

Açar sözlər: transformasiya, transformasiyalı kompleks, cümlənin kompleksi, müəyyən olunmuş transformasiya..

Ключевые слова: трансформация, трансформационный комплекс, комплексы предложение, определенные трансформации.

Key words: transformation, transformation complex, sentence complexes, determination of transformation.

Linqvistikada ən əsas məsələlərdən biri transformasiyaların təyin olunmasıdır. Təyinolunma prosesində müəyyən şərtlər nəzərə alınmalıdır. P.A.Soboleva transformasiyanın təyin edilməsinin aşağıdakı şərtlərini göstərir:

1. Transformasiya A və B kompleksləri arasında variant əlaqə yaranması deməkdir, burada B A kompleksinin törəməsi hesab olunur (kompleks A – operand, kompleks B – transformdur) buna görə aşağıdakı şərtlər yerinə yetirilir.

2. X sinfinə aid olan A kompleksində B kompleksində olan X sinfi qarşı qoyula bilər və ya əksinə.

3. Əgər A kompleksində X və S sinifləri X-S dominasiyasına uyğun sıralanırsa, o zaman X və S gərək öz aralarında X-S və ya X=S münasibətləri ilə düzənlənsin (2, 42-43).

Qeyd edək ki, transformasiyanın təyin olunma üsulları və prinsipləri haqqında bir sıra elmi ədəbiyyatlarda müəyyən informasiyaya rast gəlmək olur: (6, 19; 5; 4, 536-537; 3, 192; 1, 145).

Göstərilən bu və ya digər əsərlərdə transformasiyanın təyin olunmasının səviyyələri iki səviyyə üzrə - applikativ model və mücərrəd qrammatik səviyyəyə uyğun müəyyənləşdirilmişdir. Sonralar transformasiyanın təyin olunmasının leksik səviyyələri də yeni şərtə müvafiq dəqiqləşdirilmişdir. Leksik səviyyədə transformasiya olunmuş konstruksiyaların biri leksik artıma görə fərqlənir. Məsələn: Gülün ətri xoş təsir bağışlayır = Bənövşə gülünün ətri xoş təsir bağışlayır. Əvvəla transformasiya proseslərində mətn konkretləşir. Konkretliyi «leksik artım» («bənövşə» - sinonimi) yaradır.

İndi linqvistikada transformasiyanın təyin olunmasının nisbi səviyyəsindən də söhbət gedir. Transformasiyanının nisbi təyini bir sıra simvolların işirakı ilə olur. Bu simvollar aşağıdakılardır:

N-isim
V- fel ⟶ N ⟶ A ⟶ D ⟶ V
A-sifət Əsgər əyri səmtə buruldu.
D-zərf

Siniflər haqqında məlumatı aşağıdakı kimi simvollaşdırmaq olar:
R 1- fel

R 2-isim ⟶ ***R1*** ⟶***R2***⟶***R3***⟶***R4***

R 3-sifət Buruldu əsgər əyri səmtə.

R 4- zərf

Operandın görünüşü: R 2 N R 1 V (Uşaq oxuyur). Bu tranformasiya sırası aşağıdakı ardıcıllıqladır:

1. Uşaq mahnı oxuyur.
2. Mahnı uşaq tərəfindən oxunur.
3. Mahnı oxuyan uşaq.

Biz görürük ki, hər bir sinif operant tərəfindən müəyyən tərkibə malik transformalardır. Hər bir sinif müəyyən bir sahəni və quruluşu əks etdirir.

Operandın görünüşü: R 2 N R 2 N R 1 V (Qazaxstan taxıl tədarük edir).

Transforma sırası:

1. R 2 N R 1 V R 2 N (Taxıl tədarük edən Qazaxstan)
2. R 2 N R 2 N R2 N R 1 V (Taxıl Qazaxstan tərəfindən tədarük olunur)

Transformasiya hadisəsi cümlə kompleksləri ilə yaxından bağlıdır. Burada nüvə cümlədən bir sıra düzəltmə komplekslər formalaşır, bu komplekslərin hər birinə məxsus sinif var və çıxış sahəsini əks etdirir.

Transformasiya prosesində iki kompleks diqqəti cəlb edir: 1) çıxış, başlanğıc kompleksi. Bu, əsas kompleksdir. 2) düzəltmə kompleks. Bu, sıradan yaranan kompleksdir. Bu komplekslər simvollar vasitəsilə işarə olunur.

Kompleks anlayışı - bir tam, bütöv təşkil edən şeylərin və hadisələrin məcmusudur. Komplekslərin meydana gəlməsi üçün əməliyyat qurumu lazımdır. Cümlələrin də hər hansı kompleksləri mövcuddur. Bu komplekslərin hər biri bir sinif təşkil edir.

Transformasiya hadisəsi kompleks formaların ümumiləşdirilməsi, eyniləşdirilməsi, birləşdirilməsi və genişləndirilməsi məsələləri ilə birbaşa əlaqədardır.

Azərbaycan dilində komplekslər müxtəlif cümlə tipləri əsasında modelləşir. Bunları iki qrupa ayırmaq olar: a) təktərkibli cümlələr əsasında modelləşən komplekslər; b) cüttərkibli cümlələr əsasında modelləşən komplekslər.

a) təktərkib: Əvvəlki forma. Və bir-birini itələyə-itələyə irəli atıldılar. Nizələri irəli uzadıb çığıra-çığıra, söyə-söyə gəlirdilər. Sonra aralandılar (Ə.Nicat). Bu kompleks təktərkibli (qeyri-müəyyən şəxsli) cümlə şəklindədir.

Sonrakı forma. İrəli atıldılar və bir-birini itələyə-itələyə nizələrini irəli uzadaraq, çığıra-çığıra, söyə-söyə gəlirdilər. Sonra bir-birindən aralandılar. Əvvəlki formanı dağıdan vasitələr, elementlər: söz sırası, parselyasiya və leksik artımdır.

b) cüttərkibli: Əvvəlki forma. Kahin ayağa qalxdı. Əlini mağaranın dörd divarına sürtdü, ən hamar tərəfini nəzərdən keçirib yoxladı. Sonra qarşı divara yaxınlaşdı, ilanbaşlı əsasını üç dəfə qayaya çırpıb həyəcanla, ehtirasla Zərdüşün anlamadığı sözlər pıçıldamağa başladı və birdən divardan od qopdu. Əvvəlcə qarmaqarışıq cisimlər, rənglər, forma və axıntılar, qəribə mənzərələr əkk olundu, sonra hər şey sanki yavaş-yavaş duruldu, getdikcə aydınlaşdı, insan fiqurları görünməyə başladı (Ə.Nicat). Bu cüttərkibli cümlələr şəklində olan mətndir. Bunların hər birinin transformasiya olunma imkanları mövcuddur.

Sonrakı forma. Kahin qalxdı ayağa. Mağaranın dörd divarına əlini sürtdü. Ən hamar tərəfini nəzərdən keçirərək yoxladı. Sonra yandakı divara yaxınlaşdı, ilanbaşlı əsasını üç dəfə qayaya çırparaq hərəcan və ehtirasla Zərdüşün başa düşmədiyi sözləri pıçıldamağa başladı.

Təktərkibli və cüitərkibli cümlə əsasında modelləşən komplekslər dəyişən xüsusiyyətlərə malikdir. Onları kökündən dəyişdirmək, başqa şəklə salmaq, yenidən təşkil etmək mümkündür. Dəyişdirici elementlər kompleksləri dağıdır və yenisi ilə əvəz edir. Məhz komplekslərin başqa fərqli şəklə salınması- transformasiya adlanır. Yeni qaydaya və nizama salınmış komplekslər-domiantlar arasında əlaqə yaranır.

Transformasiya komplekslər arasında invariant münasibətlər nəticəsində qurulur. Burada ən azı iki kompleks iştirak edir. A- əvvəlinci, ilkin kompleks, B- düzəltmə kompleks. Düzəltmə kompleks- transform adlanır.

Transformalar bir sıra amillərlə şərtlənir: 1) bir kompleks onu əks etdirən transforma sahəsi ilə qarşılaşdırılır; 2) digər komplekslə onun dominatı arasında qaydaya salınmış münasibət mövcuddur.

Burada operand- transform cərgəsi yaranır. Bu cərgəni aşağıdakı misallarla göstərmək olar:

Uşaq oxuyur. 1) Uşaq oxuyandır (xanəndədir, müğənnidir).

2) Mahnı oxuyan uşaq.

O liberaldır: 1) O liberal olmuş; 2) O liberallaşmışdı.

Komlekslər ikielementli olur. Bunlar dörd kompleksə bölünür:

1. Birinci kompleks. Bu, mübtəda + ismi xəbər quruluşunda modelləşir. Məs.: Həyat gözəldir - gözəl həyat; Qar ağdır - ağ qar. ⟶kompleks ⟶M ⟶ ix

2. İkinci kompleks. Bu mübtəda və feli xəbər quruluşunda modelləşir. Məs.: Qız ağlayır - ağlayan qız. ⟶ kompleks ⟶ M ⟶ Fx

3. Üçüncü kompleks. O tələbədir. O şairdir. ⟶ kompleks ⟶ M ⟶ ix

4. Dördüncü kompleks. Bu zərf tipli cümlələrdir. O geridədir. O geridə qalır.⟶kompleks ⟶ M ⟶ Z

Komplekslər Azərbaycan dilində inkişaf edərək mürəkkəbləşə bilir. Bu prosesin bir neçə mərhələləri vardır. Komplekslərin mürəkkəbləşməsinin birinci mərhələsi söz birləşməsi tipindədir. Məs.: Yun pencəklər üst-üstədir. Üst-üstə olan yun pencəklər; Köhnə dostum qardaşımladır. Qardaşım – köhnə dostumladır. Komplekslərin mürəkkəbləşməsinin ikinci mərhələsi cümlə tiplidir. Məs.: Ev çox gözəl bir meşənin yanında yerləşir (çox gözəl) (Ev meşənin yanındadır) (Qədim ev meşənin yanında yerləşir). Bunlar ekvivalent formalardır.

Kompleks tipləri də müxtəlifdir. Məs.: Dəniz sakitdir (1-ci kompleks tipi)- Dəniz çox sakitdir (2-ci kompleks tipi); O, danışığa gəldi (1-ci kompleks tipi - O danışığa qardaşı ilə gəldi (2-ci kompleks tipi).

Komplekslərin linqvistik strukturu iki cürdür. Birinci komplekslərin əmələ gəlməsi; ikinci isə komplekslərin əvəzlənməsi.

Göründüyü kimi transformasiyanın təyin olunması və transformasiyanın cümlə komplektləri ilə bağlılığı məsələləri müasir linqvistikadada vacib problemlərdən biridir. Dil faktları göstərir ki, bu barədə yeni tədqiqatların aparılmasına hələ də ehtiyac vardır.

Ədəbiyyat

1. Ревзин И.И. Модели языка. М., 1962, 191 с.
2. Соболева П. А. Аппликативная модель и исчисление трансформаций в русском языке. Доклады советской делегации. Ц Международный съезд чла-вистов (София, сентябть 1963), Изд-во Академии Наук СССР, Москва, 1963, 125 с.
3. Соболева П.А.. Конференция по структурной лингвистике, посвященная проблемам трансформационного метода. Хроникальная заметка. «Известия Академии наук ССР», ОЛЯ, том ХХЫ, вып. 2. М.: 1968, с. 192.
4. Харрис З. Совместная встречаемость и трансформация в языковой структуре \\ «Новое в лингвистике, вып. II, М., 1962, с. 528-636.
5. Harris S.. Discourse analysis. «Language», vol. 28, № 1, 1952;
6. Chomsky N.. On the Notion «Rule of Grammar» (Procedinğs of Simposia of Applied Mathematich, vol. 12, Strukture of Lanğuağe and its Mathematical Aspests. Rhode Island, 1961, p. 19;

Matanat Guliyeva

Determination of transformation and the connection of transformation event with sentence complexes

Summary

The article deals with one of the important problems in linguistics determination of transformation and the connection of transformation event with sentence complexes.

Метанет Кулиева

Определение трансформации в связь трансформационного являения с комплексами предложения

Резюме

В статье говарится об одной из важных проблем – об определении трансформации и связь трансформационного являения с комплексами предложение.

Rəyçi: Sevindik Vəliyev
filologiya elmləri doktoru, professor

TELMAN QULİYEV
Gəncə Dövlət Universiteti

MÜSTƏQİLLİK İLLƏRİNDƏ AVROPA DİLLƏRİNDƏN SÖZALMA

Açar sözlər: sözalma, alınma söz, elmi-texniki tərəqqi, ümumişlək leksika
Key words: borrowed word, scientific-technical progress, colloquial lexics
Ключевые слова: заимствования, научно-технический прогресс, общеупотребительная лексика.

Dünyada hər gün yeni-yeni hadisələr baş verir, yeni-yeni kəşflər edilir. Bütün bunların nominasiyası üçün heç bir dil yalnız öz imkanları hesabına keçinə bilməz, o cümlədən də Azərbaycan dili. Bunun nəticəsidir ki, Azərbaycan dilinin lüğət tərkibi tarixi inkişaf prosesində müxtəlif dillərin təsiri ilə dəyişmiş, dillər bir-birinə söz vermiş və başqalarından söz almışdır. Bununla da alınma sözlər hesabına dünya dillərinin leksik tərkibi minilliklər boyu zənginləşmişdir. Bunlardan biri də Avropa dilləridir ki, onlardan alınmalar dünyanın regionlarında eyni kəmiyyət və keyfiyyətlə yayılmamışdır. Bu baxımdan Avropa dillərindən sözalma prosesi Azərbaycan dilinin leksikasının nisbətən sonrakı dövrlərinə aiddir. Bu əlaqələr müasir dövrdə elmi-texniki tərəqqi prosesində çağdaş dünyamızda yeni iqtisadi-siyasi, sosial-ictimai münasibətlər zəminində yaranan müxtəlif bilik sahələrində artan informasiyaların ötürülməsi zərurəti ilə meydana çıxmışdır.

Müstəqilliyə qədər Azərbaycan dilində işlənən Avropa mənşəli sözlərə aid bir sıra tədqiqatlar aparılmışdır. Avropa dillərindən olan ingilis dilinin dünyada geniş yayılması, beynəlxalq dil statusu qazanması, yeni hadisə və münasibətlərin adlarının bu dil əsasında formalaşması həmin tədqiqatların diqqət mərkəzində durur. Azərbaycanda dövlət müstəqilliyinin bərpa edilməsi bir çox Avropa ölkələri ilə siyasi, iqtisadi və mədəni əlaqələrin genişlənməsinə səbəb olmuşdur. Respublikada neft sənayesinin güclü inkişafı ölkədə xarici şirkət və firmaların çalışmasına şərait yaratmışdır. Nəticədə, kontigentlə ünsiyyət və işgüzar əlaqələr ingilis dili vasitəsilə getdiyindən özünəməxsus xüsusiyyətləri ilə seçilən Azərbaycan dilində sözalmanın yeni istiqamətləri və aspektləri yaranmağa başlamışdır.

Avropa dillərindən Azərbaycan dilinə sözalma uzun müddət vasitəçi dilin iştirakı ilə baş vermişdir. Ona görə də alınmalar vasitəçi dildə müəyyən dəyişikliyə məruz qalmış və dilə uyğunlaşma prosesini yaşamışdır.

Hazırkı müstəqillik dövründə xalqların və dillərin yaxınlaşdığı, qarşılıqlı münasibətlərin intensivləşdiyi şəraitdə ictimai-siyasi, elmi-texniki anlayışların yayılması prosesi millətlərarası əlaqələrin, ünsiyyət vasitələrinin artması nəticəsində dünyada elə bir dil tapmaq olmaz ki, o başqa dillərlə qarşılıqlı əlaqədə və ünsiyyətdə olmasın. Təbii ki, dillərin qarşılıqlı əlaqəsi və təsiri ilk növbədə özünü sözalma və ya sözvermə prosesində göstərir.

İctimai hadisə olan dillərarası əlaqələrin tarixi bəşər cəmiyyətinin tarixi qədər qədimdir. İnsan birliklərinin və xalqların bu iqtisadi-siyasi, mədəni, dini əlaqələri ünsiyyət vasitəsi olan dilin köməyi ilə müxtəlif çeşidli münasibətlərin təzahüründə gerçəkləşmişdir. Çünki dil cəmiyyətin inkişafının bütün sahələrini daha geniş və daha ətraflı əks etdirmək qabiliyyətinə malikdir. İctimai-siyasi prosesdə qo-

hum və qohum olmayan millətlər arasında müxtəlif səciyyəli əlaqələr hər bir dilin daşıyıcısı olan xalqın inkişaf tarixindən, məskunlaşma yerindən, əlaqədə olduğu başqa dillərin təsirindən asılıdır.

Avropa dillərindən sözalmanın dilxarici amillərində Qərblə əlaqələrin güclənməsinin də xüsusi yeri vardır. Müasir dövrün qabaqcıl texnologiyasının, əsasən, Qərbdə toplanması Avropa dillərindən olan ingilis dilinin millətlərarası ünsiyyət vasitəsi kimi çıxış etməsidir. Məlumdur ki, yeni əşya və anlayışlar çox vaxt öz adları ilə birgə alınır. Bunun nəticəsində də bu adlar dildə alınma söz kimi öz yerini tutur. Bununla da alınma sözlərin dilin lüğət tərkibindəki çəkisi artır.

Sözalma öz tarixinə görə qədim dil hadisəsi olduğundan onun səbəblərini aydınlaşdırarkən yalnız müasir cəmiyyətdə baş verən dilxarici və dildaxili proseslərə baxmaqla kifayətlənmək olmaz. Azərbaycan dilində alınma sözlərin həm miqdarı, həm də müxtəlif dövrlərdə geneoloji mənzərəsi fərqli olmuşdur. Müasir vəziyyətdə bu əlaqələr nəticəsində Avropa dillərindən alınan sözlərlə Azərbaycan dilinin öz sözlərinin müvazi və paralleli kimi işlənməsi (*oprozisiya-müxalifət, intervü-müsahibə, partnyor-tərəfmüqabili* və s.) hallarına da müşahidə olunur.

Elmi-texniki tərəqqi prosesi müxtəlif elmlərə məxsus yaranan yeni sözlərin dünyanın müxtəlif dillərinə keçməsinə şərait yaradır. Onların ayrı-ayrı dillərdə eyni şəkildə işlənməsini gerçəkləşdirir. Beləliklə də, dil başqa dillərdən müxtəlif linqvistik vahidləri alıb öz arsenalına daxil edir. Bu cür sözalmanın təsiri özünü dilin ən tez və çox dəyişən sahəsi onun leksik sistemində və lüğət fondunda göstərir.

Sözün bir dildən başqasına keçməsi müəyyən amillərlə şərtlənən meyarlara əsasən gerçəkləşir. Alınma sözlər alınma dövrünə görə fərqlənir. Dilin müəyyən tarixi dövründə bir dildən alınma sözlər başqa dillərdən alınma sözlərə nisbətən çox ola bilər. Konkret bir dövrdə alınmış həmin dövr üçün neologizm səciyyəli alınmaların bir qismi dildə mənimsənilir, digər qismi dildən çıxır və ya yeni sözlərlə əvəzlənir.

Azərbaycan və Avropa dillərinin əlaqələri qohum olmayan dillərin və ya müxtəlifsistemli dillərin əqalələrinə aiddir. Azərbaycanla Avropa ölkələri arasında ərazi yaxınlığı olmadığından bu dillərin əlaqələrinin tarixi lap çox da qədimlərə getmir, XIX əsrin ortalarından başlayır. Bu dillər müəyyən dərəcədə qarşılıqlı əlaqələrdə olmuşlar. Bu tipli əlaqə müstəqillik dövrü üçün daha səciyyəvidir (*bunker, buldoq, banket, biznesmen, bar, banket, skayner, printer, qol* və s.)

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra ölkənin beynəlxalq aləmə inteqrasiyası sürətlənmiş, rus dili ölkə daxilində öz mövqeyini zəiflətmişdir. Avropa dillərindən olan ingilis dilinin Azərbaycanda işlənmə tezliyi güclənmişdir. Müasir dövrdə bazar iqtisadiyyatı ilə bağlı iş adamlarının leksikonuna daxil olan sözlərin böyük əksəriyyəti ingilis mənşəlidir. Azərbaycanın beynəlxalq aləmə inteqrasiyasının, ölkənin xarici əlaqələrinin genişlənməsi nəticəsində əsrin dil əlaqələrini yaranmasının yeni dövrü başlanmışdır. Bu da dilə Avropa mənşəli yeni-yeni sözlərin keçməsinə şərait yaratmışdır.

Müasir dövrdə forması və semantikası müxtəlif Avropa dillərində (ingilis, alman, fransız, holland və s.) eyni olan sözlərin mənbə dilinin hansı olması mübahisə doğurur. Belə dillərə məxsus sözlərin əksəriyyəti sonralar ingilis dili vasitəsi ilə başqa dillərə, o cümlədən lə Azərbaycan dilinə keçdiyindən bu cür alınmalar ingilis dilindən alınan Avropa mənşəli sözlər kimi qəbul edilmişdir (*benzol, konqress, kater, telefon, büdcə, kross, menecer, super, boykot, opozisiya, partnyor, lobbi, bosman* və s.).

Azərbaycan dilində işlənən Avropa mənşəli sözlər semantik qruplarına və quruluşca növlərinə görə çox müxtəlifdir. Ona görə də müxtəlifsistemli dillərdə bir dildən digərinə sözvermə və sözalma prosesində yeni struktur tiplərinin fərqləndirilməsinə ehtiyac duyulur.

Sözün dilə gəlməsi və dilin lüğət tərkibinə girməsi çoxpilləli hadisədir. Başqa dildən dilə gətirilən alınma sözün yeni dildə işləkliyi artır. Ümumişlək leksik qatda işlənərək tam mənimsənilir, yeni dilin normalarına uyğunlaşır. Beləliklə də, yeni alınan sözlərin bir qismi dilin leksik qatına daxil olur (*supermarket, caz, neylon, slayd, investor, brifinq, kondisioner* və s.).

Avropa mənbəli alınmaların əksəriyyəti Azərbaycan dilinin orfoepik qaydalarına uyğunlaşdığına görə bu sözlərdə əsasən vurğu sözün son hecasına düşür. Lakin bəzi mürəkkəb sözlərdə alınmaya uyğun vurğu qalır. Bu mənbəli alınma sözlər Azərbaycan dilində mətinlərdə qrammatik normalara tabe olur.

Ölkənin Avropaya inteqrasiyası və demokratik inkişaf yolunu seçməsi ilə əlaqədard müasir dövrdə müstəqillik şəraitində Avropa dillərindən Azərbaycan dilinin leksik sisteminə keçən sözlərin miqdarı artır. Bu da yeni alınmalar hesabına Azərbaycan dilinin lüğət tərkibinin müəyyən qədər yeniləşməsinə səbəb olur. Bütün bunlara baxmayaraq sözyaratmada dilin daxili imkanları əsas mənbə olaraq qalır.

Ədəbiyyat

1. Abbasova B. Sözalma hadisəsinin əsasları. B., 1995.
2. Axundov A. Dil və ədəbiyyat. I c., B., 2003.
3. Cəfərov S. Müasir Azərbaycan dili. B., 1970.
4. Əfəndiyeva T. Azərbaycan dilinin leksik üslubiyyatı. B., 1980.
5. Həsənov H.Ə. Müasir Azərbaycan dilinin leksikası. B., 2001.
6. Hacıyev T. XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili. B., 1977.
7. Xəlilova S.N. İnternasional terminlər. B., 1991.
8. Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası. B., 2008.
9. Qarayev A.H. Müasir Azərbaycan dilində Avropa mənşəli leksik alınmalar. B., 1989.
10. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. I c., B., 2003.
11. Məmmədli N. Alınma terminlər. B., 1997.
12. Sadıqova S. Azərbaycan dilinin terminologiyası. B., 2004.

Telman Guliyev

Word bovrovinq from Evropean Lanquaqes Durinq the year of Lanquaqes durinq of Independecy

Summary

The article deals with the chanqinq and renevinq of vocabulary constituency of the Azerbaijani Lanquaqe on the account of borrovinqs from Evropean Lanquaqes in different periods and the years of independency. The usaqe places and forms of borrovinqs durnqs the years of independency ove qiven in the Azerbaijani Lanquage and the leadinq role of the Enqlish Lanquage in the process of borrovinq is shovn in the article.

Тельман Кулиев

Процесс заимствования слов из европейских языков
в период независимости
Резюме

В статье описывается об обогащении и обнавлении лексического состава Азербайджанского языка за счет заимствований из европейских языков в разные периоды и период независимости. Анализируются способы и формы процесса заимствований, дается умсственое их употребление . Также указывается на особую роль английского языка, как одного из ведущих европейских языков.

Rəyçi: Mübariz Yusifov
filologiya elmləri doktoru, professor

VƏFA MƏHƏRRƏMOVA
Gəncə Dövlət Universiteti

LEKSİK PARALELİZM FAKTLARININ MEYDANA GƏLMƏSİNDƏ ETİMOLOJİ DUBLETLƏRİN ROLU HAQQINDA

Açar sözlər: leksik paralelizm, etimoloji dubletlər, sistemdaxili paralellər, semantik differensiallaşma.

Key words: lexic paralelism, etymological dublets, intersystem parallels, semantic differenciation

Ключевые слова: лексический параллелизм, этимологический дублеты, внутрисистемных параллелей, семантический дифференциация

Azərbaycan dilindəki ***kino*** və ***sinema*** sözlərinin sistemdaxili semantik paralelliyi dublet vəziyyətini yaradıb. Məsələnin maraqlı tərəfi isə ondan ibarətdir ki, bu leksik vahidlərin özləri də eyni bir sözün variantlarının fərqli mərhələlərdə və fərqli mənbələrdən dilimz tərəfindən mənimsənilmiş variantlarından başqa bir şey deyil. ***Kino*** sözü Azərbaycan ədəbi dilində həm müstəqil şəkildə, həm də digər mürəkkəb sözlərin komponentikimi istifadə olunmaqdadır (məsələn: kinodramaturq, kinoatelye, kinoaktyor [3;707] və s.). Sinema sözü nisbətən yeni dövr alınmalarından hesab edili və bu səbəbdən də onun standart izahlı lüğətlərə daxil olduğunu söyləmək olmaz. Buna baxmayara, KİV-in dilində sinema sğözünün və törəmələrinin geniş şəkildə işləklik nümayiş etdirməsi "təkrar alınma"nın baş verdiyini söyləməyə əsas verir. Məsələn:

1895-ci il dekabrın 28-də Kapusin bulvarında ilk ***sinematoqraf*** *göstərildikdən sonra bu məqsədlə yeni binanın tikintisinə ehtiyac yarandı*. (23)

"***Kino*** *musiqisinə meyllik hiss olunur. Bu, müasir* ***sinematoqraf*** *üçün maraqlı material ola bilər*". (24).

Sonuncu nümunədən göründüyü kimi, dilimizdə variantlardan törəmiş bu dubletlərin müvazi işlənmə potensialı var.

Etimoloji aspektdən əhəmiyyət kəsb edən variantlılıq və dublet məslələrinə ingilis leksikologiyasının nəzəri problemləri çərçivəsində aydınlıq gətirmiş Arnold da özünün məşhur tədqiqatına münasibət bildirmişdir. Belə ki, irəlidə izləyəcəyimiz kimi, dilçi, bu kimi oxşar misalların timsalında dildaxili, sistemdaxili leksik paralellizm faktlarına aydınlıq gətirmişdir.(bax: [2, 259-260])

Bizi bu kimi dil vahidlərində maraqlandıran cəhət həmin leksemlərin və variantlarının Azərbaycan dili ilə paralelizm təşkil etməsi məqamlarıdır. Məs: N.K.İvanovanın ingilis dilinin leksikologiyasına həsr edilən ***goal u jail, channel u canal*** tədqiqatında qeyd edilən etimoloji dubletlərin [13; 21] Azərbaycan dili ilə paralelliyi diqqətdən yayına bilməz. Məsələn: *qol (futbola); kanal (1)su kanalı; 2) TV kanalı*).

Təqdim olunan nümunələrdən də göründüyü kimi, bu kimi hallarda həm sistemdaxili, həm də sistemlərarası leksik paralelizm situasiyalarını təsbit edilməsi mümükündür. Belə ki, həmin situasiyalarda konkret bir dil sistemi çərçivəsində gerçəkləşən və dilin daxili inkişaf qanunauyğunluqları ilə şərtlənən müvazilik situaisiyalarından söhbət gedir.Lakin onu qeyd etmək lazımdır ki, bu kimi faktların

meydana gəlməsində ekstralinqvistik faktorların da iştirak payının olması həmin dil faktlarını maraqlı dil innovasiyaları sırasına aid edir.

Nə üçün "təkrar alınma"? Belə ki, artıq sözylədiyimiz kimi, kino və sinema sözləri eyni mənbədən şaxələnmədir. Yunan dilində ***kineo*** *"hərəkət edirəm*" deməkdir.(18). Sinema sözü isə yunan dilindəki bu leksemin "latınlaşmış", yəni, latın dilinin fonetik sisteminə adaptasiya olunmuş variantıdır. Müqayisə üçün deyək ki, "***kinema", "kinematos***" "*hərəkət*" mənasını ifadə edir. Və L.Uspenskiy bu sözün ixtisar edilmiş şəkildə "film" mənasında istifadəsini dilin ***qənaət prinsipi*** ilə izah edir (kursiv bizimdir. – müəll).(18). Maraqlıdır ki, ədəbi dildə mövqeləri möhkəmlənmiş və ixtisar edilməmiş variantın fonetik tərkibinin təhlili burada variantla bənzərliyi ortaya qoyur: ***kinema****toqraf* – ***sinema****toqraf;* ***kinema****toqrafik* – ***sinema****toqrafik*.

Variantlılıqdan törəmiş olan bu dubletlilik bizim üçün ona görə maraqlıdır ki, həmin dublet cütündən biri ingilis dili ilə tam dublet paralelizmini, digəri isə qismən dəyişkənlik nümayiş etdirən natamam paralelizmi nümayiş etdirir. Məs:

Asian ***cinema*** *refers to the film industries and films produced in the continent of Asia , and is also sometimes known as Eastern* ***cinema*** .(22)

Onu da qeyd edək ki, Azərbaycan və ingilis dillərinin fonetik sistemlərinin ye-tərincə fərqliliyinə görə, bu dillərin leksik sistemindəki paralellizmlər çox məhdud hallarda tam şəkildə (yəni, həm fonetik, həm də semantik) adekvatlıq nümayiş etdirirlər. Yeri gəlmişkən onu da qeyd edək ki, leksik paralellizm vəziyyətlərinin təhlili çərçivəsində bu cür maksmal (mütləq) adekvatlıq hallarına da dillərarası dubletlər deyilir. Göründüyü kimi, biz, yenidən "dublet" termini ilə və yenidən terminoloji çoxmənalılıqla qarşılaşmış oluruq.

Bu kimi leksik parelelizmlər, ingilis dilinin leksikologiyası və qrammatikasını diaxronik aspektdə tədqiq etmiş mütəxəssislərin bildirdiyi kimi, bütövlükdə, ingilis dilinin leksik inventarının zənginləşməsi və qrammatik sisteminin formalaşmasında mühüm rol oynamışlar (daha ətraflı bax:[21]; [10]).İngilis dilinin dilaekt rənagarəngliyinin nəticəsi (və ya fəsadı) kimi meydana çıxan parallelizm situasiyalarının kütləviliyi ingilis ədəbi dilinin mövqelərinin möhkəmlənməsi ilə azalmağa başladığı məlumdur. Xatırladaq ki, daha əvvəl də bildirildiyi kimi, bu qrup paralleizmlər dilçilik ədəbiyyatlarında daha çox etimoloji dubletlər çərçivəsində tədqiq edilir. Konkret olaraq, ingilis dilinin leksikası sahəsindəki etimoloji araşdırmalarda qeyd edildiyi kimi, "*whole* (qədim mənasında "sağlam", yaxud "xəstəlikdən azad") və *hale* (sağlam, bərk). İkinci öz orijinal mənasında qalmaqdadır və *hale and hearty* (sağlam və gümrah) birləşməsində saxlanılır. Hər iki söz qədim ingilis dilindəki *hāl* sözündən yaranmışdır: biri qədim ingilis dilindəki *ā* hərfinin *ō* hərfinə olan normal inkişafı nəticəsində yaranmışdır. Digəri isə bu modifikasiyanın baş vermədiyi şimal dialektindən gəlmişdir. Oxşar cəhət *raid* və *road* dubletlərində var, onların əlaqəsi mənası "düşməncəsinə soxulma" *"a raid"* olan *inroad* terminində aydın şəkildə qalmışdır, *Drag və draw* felləri qədim ingilis dilində *dragan* sözündən gəlmişdir".

Azərbaycan dilindəki tarixi-etimoloji planda araşdırmaların obyektini təşkil edən etimoloji dubetlər dilimizin özünün fərqli tipoloji quruluşu səbəbiylər dərin morfem rekonstruksiyası araşdırmalarının obyektini təşkil etmişdir. Bu sahədə diliçiliyimizdə V.Aslanovun araşdırmalarının xüsusi maraq kəsb etdiyini vurğulamamaq olmaz. (bax: [1]). Dilimizdəki etimoloji dubletlərdən bəhs edərkən,

V.Aslanovun tədqiqatlarında diqqətə alınan bir çox dil faktlarının, o cümlədən, ***kiçik / küçük, cocuq / çocuq və cüyüx, cınqılı / dınqılı / cıqqılı / dıqqılı***, habelə ***dırnaq / dırmıq / cırmaq / cırnaq / caynaq,*** eləcə də ***çevri- / devri- / evir-/əvir- / dövrə / yörə,*** və bununla bərabər, ***yumru / yumruq / yumurta / tumurcuq*** və s. [1; 22,27] bu kimi paraleliklərin eyni kökün fonosemantik təkamülündən törəyən etimoloji dubletletlər olduğunu da qeyd etmək istərdik. Azərbaycan dilinin tarixi leksikologiyasına, habelə morfonologiyasına dair araşdırmalarda dilimizdəki etimoloji dublet törəmələrinin formalaşması üçün həm anlaut mövqeyindəki konsonant səslərin, eləcə də auslaut mövqyindəki samitlərin variativliyinin mühüm rol oynadığı qeyd edilir. Sonuncular bəzi hallarda ilkin köklə üzvlənməyə məruz qalmayacaq şəkildə birləşən fel köklərinin növ kateqoriya formantlı söz – formalarıdır. Belə ki, Q.Bağırovun Azərbaycan dilindəki fellərin fono-semantik inkişafına həsr edilmiş araşdırmasından bəlli olur ki, dilimizdə uzan-, uzat-, dağıt-, dağıl-, gödəl- (/ gödək)və s. bu kimi fel köklərinin auslaut konsonantı törəmə kök tərkibində "daşlaşmış" növ kateqoriyası göstəricilərindən başqa bir şey deyil. (daha ətraflı bax: [4]). Azərbaycan dilçiliyindəki bəzi araşdırmalarda həmin (sonuncu) növ etimoloji dubletlərin, əslində, fuziyon xəlitə törəmələrindən başqa bir şey olmadığı iddia edilir (bax: [6]; [7]). Azərbaycan və ümumilikdə, türk dillərində fuziallaşmış kök morfemlər problemini araşdırmış B.Məhərrəmli yazır: "Ənənəvi olaraq dilçilikdə bu proses "daşlaşma" da adlandırılır. Eyni zamanda müxtəlif dilçilik ədəbiyyatlarında həmin prosesə leksikləşmə, sıxılma da deyilir. Məhz aqqlütinativ quruluşun təkamülündən yaranan fuzial kök morfemlər türk dillərinin morfoloji inkişafının əsas göstəricilərindəndir.... Azərbaycan dilindəki ***qarış-*** felinin *qar-* kökü ilə ***-ış*** növ şəkilçisinin fuziallaşması nəticəsində yaranmasını digər türk dillərindəki faktlar təsdiq edir".[8; 101, 103] (müqayisə et: qar***sı***-, qar***sı***la və s.). Bir sözlə desək, Azərbaycan dilinin morfoloji quruluşunun özəllikləri ingilis dilinin struktur xarakteristikasından yetərincə fərqləndiyi üçün dilimzdəki etimoloji dubletlər mahiyyət etibarilə ikincidəkilərdən (ingilis diolindəkilərdən) əhəmiyyətli şəkildə fərqlənir. Maraqlıdır ki, ingilis dilindən fərqli olaraq Azərbaycan dilinin morfonoloji struktur özəyini təşkil edən komponentlər arasında sinhaerminizm faktoru mühüm rol oynayır. Və həmin faktorun nüfuz dairəsi nəinki dilimizin morfonoloji struktur spesifikasını formalaşdırır, habelə çoxsaylı araşdırmalardan məlum olduğu kimi, etimoloji dubletlərin tirajlaşdırılmasında da əhəmiyyətli dərəcədə iş əmsalı nümayiş etdirir. Belə ki, bir çox türkoloji səpkili, eləcə də altayşünaslıqla bağlı araşdırmalarda qeyd edildiyi kimi (bax: [20; 44-56]) sözügedən dil ailəsinə daxil olan dillərin aksial söz strukturunu formalaşdıran ahəng qanunu eləcə də sinharmonik oppozisiyalara istinad edən etimoloji dubletləri formalaşdırmağa qadirdir.Bu zaman isə daha öncə qeyd edilən auslaut və anlaut konsonantının variativliyi deyil, sait tərkibinin və bir çox hallarda intervokalın variativliyi həlledici rol oynayır.

Leksik paralelizm hadisəsi özlüyündə eyni bir dil sistemi çərçivəsində və ya fərqli dil sistemləri müstəvivsində nəzərdən keçirilə bilən və fonomorfoloji və semantik parametrlərə əsaslanan korrelyasiya faktlarını ehtiva edir.Bir çox leksik paralelizm faktlarının kökündə dubletlik situasiyasının durması faktı burada əlaqəli təhlili labüd edir.

İlk olaraq onu qeyd edək ki, D.E.Rozantal və M.A.Telenkovanın linqvistik terminlər lüğətində qeyd edildiyi kimi, dublet (fransızcada doublet sözü double,

yəni "ikili" sözündən törəyib) "dil vahidinin ikinövlülüyünü bildirir. Məsələn, vurğu dubletləri:Ина́че — и́наче, тво́рог — твороґ. [11]. Bəzən həmin dubletlərin fonomorfoloji xüsusiyyətlərində əsaslı dəyişikliklər baş verir və zamanla həmin dəyişikliklər öz ardınca daha yeni və daha fərqli metaforfozları labüd edir ki, bu da son nəticədə sistemdaxili paralelliklərin meydana çıxmasına rəvac verir. Təqdim edilən məqalə çərçivəsində biz, həmin keçid prosesini, yəni, etimoloji dubletlərin sistemdaxili və ya sistemlərarası leksik paralelliklərə çevrilməsi prosesini dəyərləndirəcək və konkret dil faktlarının nümunələrində həmin metamorfozları əyaniliklə izləyəcəyik.

Sistem linqvistikasının aparıcı simalarından hesab edilən G.P.Melnikov, haqlı olaraq yazır: "Dil özünü tənzimləyən dinamik sistemdir. Və bununla da olduqca mürəkkəb bir hadisəni təcəssüm etdirir" [11; 100]. Məhz, dilin özünün daxili nizam yarada bilmə potensialı onu artıq omonimik ballastdan sığortalamaq məqsədilə "variant paralellizmi"ni təklif edir. Yəni, əslində, Azərbaycan dilçiliyində bir çox hallarda fonetik sözyaradıcılığı kimi dəyərləndirilən (bax: [5]), ingilis dilin ilə bağlı araşdırmalarda isə dialekt variantlılığı törəmələri hesab edilən dil hadisələri dilin daxili resurslarından, habelə kənar faktorlardan yararlanmaqla nominasiya (adlandırma) prosesinə daha da aydınlıq, daha da konkretlik gətirilməsinə xidmət edir.

İngilis dilinin leksikologiyasını sistemli şəkildə araşdırmış V.V.Yeliseyeva bu dildəki omonimiya faktlarının mənbələri sırasında etimoloji dubletlərin xüsusi yer tutduğunu qeyd edir və bunu konkret nümunələr əsasında nəzərdən keçirir: ***basis lowest part of anything*** və eyni zamanda ***basis deep sounding (voice).*** **[**12**].** Bu kimi dil faktları eyni zamanda dublet səciyyəli (sistemdaxili) leksik paralellizmləri təşkil edirlər. Dilçilik ədəbiyyatlarında bu kimi dil faktlarına etimoloji dubletlər problemi çərçivəsində geniş şəkildə müraciət edilir, onların yaranma səbəbləri və şəraiti müxtəlif rakurslardan araşdırılır (daha ətraflı bax: [19]. Onu da qeyd edək ki, etimoloji dubletlər məsələsini leksik paralellər problemi çərçivəsində araşdırmaya cəlb edərkən, istər – istəməz leksik variantlar probleminə də toxunmalı oluruq. Belə ki, sistemdaxili paralellik situasiyalarını, habelə dubletlik vəziyyətini yaradan situasiyalarda məhz, variantlılıq öz işini görmüş olur. Konkret olaraq, "İngilis dilinin tarixindəki etimoloji dubletləri" araşdırmış M.O.Nikitina özünün eyniadlı dissertasiyasında bu dildəki etimoloji dubletlərdən bəhs edərkən onların həm dialekt rəngarəngliyi səbəbiylə, həm də fərqli zamanlı və fərqli tranzit dil vasitəçiliyi ilə mənimsənilən alınmalarla bağlı meydana çıxdığını qeyd etmişdir. Dilçi, bu qrup leksemlər və variantları sırasında ***Ancient – ensign, Guard - ward*** , ***Mainour, manner – manoeuvre*** və s. faktları qeyd etmişdir [15; 6-15]. "Müasir ingilis dilinin lüğət tərkibinin etimoloji əsasları" sahəsində fundamental araşdırma müəllifi olan N.N.Amosova da məsələyə geniş rakursdan nəzər salaraq, etimoloji dubletlik situasiyası ilə səciyyələnən paralellik hallarının yekcins təbiətli olmadığı qənaətini dilə gətirmişdir. Belə ki, dilçi, bizim xüsusi növ sistemdaxili paralellik kimi xarakterizə edə biləcəyimiz bu dil faktlarının meydana gəlməsində daxili və xarici faktorların rolunu fərqləndirmişdir. Daha dəqiq desək, biz, müəllif apardığı fərqləndirmə əsasında yanaşmanın məhz, intro- və ekstralinqvistik faktorlara söykəndiyi haqqında məntiqi nəticə hasil edə bilmişik. Konkret olaraq N.N. Amosova "ümummilli dildə təsadüf edilən dialektal dubletləri, yəni, eyni bir sözün ***fonetik variantlarını*** (***hansılar ki, çox vaxt semantik şaxələnməyə məruz qalırlar***)" fərqləndirmiş (kursiv

bizimdir. – V.M) və müvafiq nümunələri qeyd etmişdir: kent.dial. ***dent*** "*əzik*", mərkəzi-Şərq dial. ***dint*** "*zərbə*"; Şimal.dial. ***raid*** "*hücüm*"; mərkəzi – Şərq. Road "*yol*" və s. [9; 101]. İrəlidə təkrarən Amosovanın yanaşmasına qayıtmamaq üçün, məqamı yetişdiyinə görə, onun variant və dublet faktlarına yanaşması ilə bağlı məsələyə öz münasibətimizi bildirmək istərdik. Belə ki, doğrudan da, sistemdaxili paralelliklərdən bəhs edərkən, sözün variantları ilə bağlı nəzəri problemə toxunmamaq mümkün deyil. Lakin variantlılıq situasiyasının N.N.Amosovanın yanaşmasında şahidi olduğumuz kimi, demək olar ki, dubletlik hadisəsi ilə (və ya sistemdaxili paralellizm faktları) eyniləşdirilməsi bir qədər qeyri – adekvat təhlil yanaşması hesab edilə bilər. Belə ki, bu növ dubletlik özlüyündə, N.N.Amosovanın bildirdiyi kimi, çox vaxt semantik şaxələnmə ilə nəticələnən variantlılığı təcəssüm etdirmir. Dubletlik özlüyündə tələffüz fərqliliyinin sərhədlərini aşan bir hadisə olub mütləq şəkildə variantlılıq çərçivəsindən kənarlaşan müstəqil söz yaradıcılığını ehtiva edir. N.N.Amosovanın bu qeydi ilə bağlı fərqli mövqeyimizin olmasına baxmayaraq, ümumilikdə, onun ingilis dilinin sistemdaxili paralellikləri ilə bağlı fikirləri ilə bölüşürük. Belə ki, daha əvvəl də bildirdioyimiz kimi, ingilis dilinin tarixi leksikologiyasını araşdıran dilçi bu dildəki sistemdaxili paralelliklərin yaranma səbəbləri sırasında kənar dil (və ya dillər) faktorunun da mövcudluğuna, tam haqlı olaraq, diqqət çəkərək yazırdı: "İngilis dilinin lüğət tərkibində anqlo-skandinav dublet formaları da mövcuddur. Həmin dublet formalar səs forması və məna cəhətlərinə görə fərqlənsələr də, ortaq kökdən şaxələnmə faktlarını ehtiva edirlər. Məsələn: " ***shirt*** "*köynək*" (qədim ingiliscədə: ***scyrte*** "*köynək*") və **skirt** "*ətək*" (qədim skandinav dilində: ***skyrta*** "*uzun köynək*") [9;120]

Ədəbiyyat:

1. Aslanov V. Azərbaycan dilinin tarixinə dair tədqiqlər, II Cild, Bakı: Elm, 2003, 271 s.
2. Arnold I.V. "The English Word". Moscow-"Vysshaya shkola"-1986-295 p.
3. Azərbaycan dilinin izahlı lüğəti, Dörd cilddə, II Cild, Bakı: Şərq – Qərb, 2011, 792 s.
4. Bağırov Q. Azərbaycan dilində fellərin leksik-semantik inkişafı. Bakı, Maarif, 1971, 160 s.
5. Cəfərov S.Ə. Müasir Azərbaycan dili. Leksika. II hissə. Bakı:Maarif, 1982, 216 s.
6. Cəlilov F.A.Azərbaycan dilinin morfonologiyası. Bakı: Maarif, 1988, 285 s
7. Hacıyeva A.Y. Aqqlütinativ dillərdə daxili flıeksikya və fuziya, Bakı: Nurlıan, 328.
8. Məhərrəmli B. Türk dillərində fuziallaşmış kök morfemlər / Azərbaycanşünaslığın aktual problemləri, II Beynəlxalq konfrans.4-7may 2011.; 686 s. (99-107).
9. Амосова Н.Н. Этимологические основы словарного состава современного английского языка, М.: Издательство литературы на иностранном языке, 1956, 220 с.
10. Вильчинская Т. Л. Лингвистическая ситуация в Северной Англии: на лексическом материале йоркширского диалекта, дис. ...кандидата филологических

наук, Москва, 2009, 273 стр. http://www.dissercat.com/content/lingvisticheskaya-situatsiya-v-severnoi-anglii-na-leksicheskom-materiale-iorkshirskogo-diale
11. Дублеты // Словарь-справочник лингвистических терминов. Изд. 2-е. — М.: Просвещение. Розенталь Д. Э., Теленкова М. А.. 1976. http://dic.academic.ru/dic.nsf/lingvistic/397/%D0%B4%D1%83%D0%B1%D0%BB%D0%B5%D1%82%D1%8B
12. *Елисеева В.В. Лексикология английского языка http://www.classes.ru/grammar/24.leksikologiya_angliyskogo_yazyka/4.1.1.htm*
13. Иванова Н.К. Лексикология английского языка, Иваново: Ивановский Государственный Университет, 2009, http://window.edu.ru/resource/875/74875/files/ino22052009.pdf
14. Мельников Г.П. Системная лингвистика и ее отношение к структурной // Проблемы языкознании: Докл. и сообщ. советских ученых на X Международном конгрессе лингвистов. — М.: Наука, 1967, с. 98–102. http://philologos.narod.ru/melnikov/syststr.htm
15. Никитина М.О. Этимологические дублеты в истории английского языка (к проблеме тождества слова), Дис. ... канд. филол. наук,Москва: , 1985, 203 с, http://www.dissercat.com/content/etimologicheskie-dublety-v-istorii-angliiskogo-yazyka-k-probleme-tozhdestva-slova#ixzz2Ft3HbCHa
16. Словарь-справочник лингвистических терминов. Изд. 2-е. — М.: Просвещение. Розенталь Д. Э., Теленкова М. А.. 1976. http://dic.academic.ru/dic.nsf/lingvistic/397/%D0%B4%D1%83%D0%B1%D0%BB%D0%B5%D1%82%D1%8B
17. Современный энциклопедический словарь http://pslovari.narod.ru/f4/p48332.html
18. Успенский Л. Почему не иначе? Этимологический словарь школьника. http://www.pochemyneinache.com/alfavit/10/str147.html
19. Фадеев В. И. Этимологические дублеты общего происхождения в английском и русском языках**,** Киев, 1970, дис. ... кандидата филологических наук, 397 стр. http://www.dissercat.com/content/etimologicheskie-dublety-obshchego-proiskhozhdeniya-v-angliiskom-i-russkom-yazykakh
20. Черкасский М.А. Тюркский вокализм и сингармонизм. М: Наука; Глав. ред. восточной лит-ры, 1965, 141с.
21. Ярцева В. Н. Историческая морфология английского языка / АН СССР. Ин-т языкознания. - М. Ленинград, 1960. - 194 с.

Mənbələr

22. Cinema of Asia http://en.wikipedia.org/wiki/Cinema_of_Asia
23. http://www.milli.az/news/culture/103390.html
24. http://news.lent.az/news/68572

V. Maharramova

About the Role of Etymological Doublets in the Formation of the Facts of the Lexic Parallels

Summary

In this article the facts of the etymological doublets, played an important role in the formation of the intersystem lexic parallels are studied. Etymological doublets pass the process of their formation on the base of phonetic, phonomorphological variations the same word which appears in the semantic differentiated parallels later. At an early stage of the given sort the etymological doublets identify themselves special group of intersystem parallels. Then, at times they can pass in a rank of the intersystem parallels.

В.Махаррамова

О роли этимологических дублетов в возникновении фактов лексических параллелей

Резюме

В статье исследуются факты этимологических дублетов, сыгравших немаловажную роль в возникновении внутрисистемных лексических параллелей. Этимологические дублеты проходят процесс своего становления на почве фонетических, фономорфологических вариаций одного и того же слово, которые позже переливаются в семантически дифференцированных параллелей. На раннем этапе данного рода этимологические дублеты отождествляют собой особую группу внутрисистемных параллелей. Затем, по пришествию времени они могут переходить в ранг межсистемных параллелей.

Rəyçi: Sayalı Sadıqova
filologiya elmləri doktoru, professor

AFAQ ARIXOVA
ADNA
yunsurova gmail.com

THE IMPORTANCE OF TEACHING VOCABULARY

Key words: vocabulary, teaching, importance , pronounciation, speaking
Açar sözlər: lüğət, öyrənmə, vaciblik, tələffüz, danışıq.

To know a language means to master its structure and words. Thus, vocabulary is one of the aspects of the language to be taught. The problem is what words and idioms students should retain. It is evident that the number of words should be limited because students have only 2-4 periods a week; the size of the group is not small enough to provide each student with practice in speaking; schools are not yet equipped with special laboratories for individual language learning. The number of words students should acquire depends wholly on the syllabus requirements. The latter are determined by the conditions and method used. For example, experiments have proved that the use of programmed instruction for vocabulary learning allows us to increase the number of words to be learned since students are able to assimilate them while working independently with the program.

The vocabulary, therefore, must be carefully selected in accordance with the principles of selecting linguistic material, the conditions of teaching and learning a foreign language.

Scientific principles of selecting vocabulary have been worked out. The words selected should be:

(1) frequently used in the language (the frequency of the word may be determined mathematically by means of statistic data);
(2) easily combined (nice room, nice girl, nice weather);
(3) unlimited from the point of view of style (oral, written);
(4) included in the topics the syllabus sets;
(5) valuable from the point of view of word-building (use, useful, useless, usefully, user, usage).

The first principle, word frequency, is an example of a purely linguistic approach to word selection. It is claimed to be the soundest criterion because it is completely objective. It is derived by counting the number of occurrences of words appearing in representative printed material comprising novels, essays, plays, poems, newspapers, textbooks, and magazines.

Modern tendency is to apply this principle depending on the language activities to be developed. For developing reading skills students need “reading vocabulary”, thus various printed texts are analyzed from the point of view of word frequency. For developing speaking skills students need “speaking vocabulary”. In this case the material for analysis is the spoken language recorded. The occurrences of words are counted in it and the words more frequently used in speaking are selected.

The other principles are of didactic value, they serve teaching aims.

The words selected may be grouped under the following two classes:

1.Words that we talk with or form (structural) words which make up the form (structure) of the language.
2.Words that we talk about or content words.

In teaching vocabulary for practical needs both structural words and content words are of great importance. That is why they are included in the vocabulary minimum.

The selection of the vocabulary although important is not the teacher's chief concern. It is only the "what" of teaching and is usually prescribed for him by text-books and study-guides he uses. The teacher's concern is "how" to get his students to assimilate the vocabulary prescribed. This is a difficult problem and it is still in the process of being solved.

It is generally known that school leaver's vocabulary is poor. They have trouble with hearing, speaking, reading, and writing. One of the reasons is poor teaching of vocabulary.

The teacher should bear in mind that a word is considered to be learned when:

(1) it is spontaneously recognized while auding and reading;

(2) it is correctly used in speech, i.e., the right word in the right place.

Learning the words of a foreign language is not an easy business since every word has its form, meaning and usage and each of these aspects of the word may have its difficulties. Indeed, some words are difficult in form (daughter, busy, bury, woman) and easy in usage; other words are easy in form (enter, get, happen) and difficult in usage. Consequently, words may be classified according to the difficulties students find in assimilation. In methodology some attempts have been made to approach the problem.

The analyses of the words within the foreign language allow us to distinguish the following groups of words: *concrete, abstract and structural*.

Words denoting concrete things (book, street, sky), actions (walk, dance, read) and qualities (long, big, good) are easier to learn than words denoting abstract notions (world, home, believe, promise, honest). Structural words are the most difficult for Azerbaijani speaking students.

In teaching students a foreign language the teacher should bear this in mind when preparing for the vocabulary work during the lesson.

Words are elements of the language used in the act of communication. They are single units, and as such cannot provide the act of communication by themselves; they can provide it only when they are combined in a certain way. Sometimes separate words may be used in the act of communication, however.

The process of learning a word means to the student:

(1) identification of concepts, i.e., learning what the word means;

(2) student's activity for the purpose of retaining the word;

(3) student's activity in using this word in the process of communication in different situations.

Accordingly, the teacher's role in this process is:

(1) to furnish explanation, i.e., to present the word, to get his students to identify the concept correctly;

(2) to get them to recall or recognize the word by means of different exercises;

(3) to stimulate students to use the words in speech.

The true art of teaching is not the application of the 'best' system, but the ability to stimulate students to worth while activity.

Hence there are two stages in teaching vocabulary: presentation or explanation, retention or consolidation which are based on certain psycholinguistic factors.

Presentation of new words. Since every word has its form, meaning and usage to present a word means to introduce to students its form, meaning and usage to present a word means to introduce to students its forms (phonetic, graphic, structural and grammatical) and to explain its meaning and usage.

The techniques of teaching students the pronunciation and spelling of a word are as follows:

(1) pure or conscious imitation; (2) analogy;

(3) transcription; (4) rules of reading

Since a word consists of sounds if heard or spoken and letters if read or written the teacher shows the students how to pronounce, to read and write it. However the approach may vary depending on the task set. If the teacher wants his students to learn the word orally first, he instructs them to recognize it when hearing and to articulate the word as an isolated element and in a sentence pattern or sentence patterns alongside with other words.

As far as the form is concerned the students have but two difficulties to overcome: to learn how to pronounce the word both separately and in speech; and to recognize it in sentence patterns pronounced by the teacher.

If the teacher wants his students to learn during the same lesson not only for hearing and speaking but for reading and writing as well, he shows them how to write and read if after they perform oral exercises and can recognize and pronounce the word.

A command of English as is envisaged by the syllabus cannot be ensured without study of grammar. Students need grammar to be able to aud, speak, read and write in the target language.

Literature

1. Brooks N. Language and language learning. London.
2. Gurrey P. Teaching English as a foreign language. London. Longmans.
3. Fries Ch. C. The structure of English. London. Longmans.

Afaq Arıxova

Lüğət dilin vacib aspektlərindən biridir

Xülasə

Dilin lüğət tərkibini öyrənmək vacib amillərdən biridir. Buna görə də lüğət linqvistik materialın seçilməsinə, müəllimin şərtlərinə və xarici dilin öyrənilməsinə uyğun olaraq diqqətlə seçilməlidir. Danışıq bacarıqlarını inkişaf etdirmək üçün tələbələrə "danışıq lüğəti" lazımdır. Yazılmış məqalə lüğətin öyrənilməsinin vacibliyindən bəhs edir. Məqalə ingilis dilinin lüğət tərkibinin öyrənilməsi baxımından böyük əhəmiyyətə malikdir.

Afaq Arıxova

Vocabulary Is one of the ımportant aspects of the language

Summary

В начале статьи мы обратились к эмпирическим данным, которые свидетельствуют о специфической организации межполушарного взаимодействия при осуществлении речевой деятельности. Анализ этих данных позволяет заключить, что психофизиологической основой коммуникативной деятельности является совместная работа обоих полушарий головного мозга, каждое из которых вносит свой специфический вклад в процессе общения. В плане обсуждаемой в статье проблемы интерес представляет выделение таких компонентов языковой способности и когнитивной структуры, которые связаны с реализацией в коммуникативном акте единиц, обеспечивающих, с одной стороны, целостность содержательной структуры текста, а с другой – аналитическую расчлененность стоящей за данным текстом экзистенциальной реальности. Оба эти компонента в конкретных актах коммуникации действуют в неразрывной связи, что и обеспечивает нормальное протекание общения, использующего в качестве своего средства речевую деятельность.

Коммуникативным средством реализации целостности содержательной стороны когнитивной структуры является текст, понимаемый как единица речевой деятельности. В этом плане текст по своей семантике равнозначен семантике однословного высказывания, «голофразе» детской речи. Он содержит в себе как бы всю «картину» ситуации общения в ее единстве и нерасчлененности. Когнитивным механизмом, лежащим в основе порождения текста, является актуально-семантический аспект речевого поведения. Когнитивной единицей процесса общения является образ или эталон, который при порождении текста в коммуникативном акте расчленяется на составляющие элементы с помощью имеющихся в распоряжении коммуникантов языковых средств, а при восприятии текста реконструируется. Это делает понятным источник семантической неоднозначности текста как средства общения.

Литература

1. Горелов И.Н. Функциональный базис речи в онтогенезе. Челябинск, 1974.
2. Симерницкая И.Г. Доминантность полушарий. М., 1978.
3. Артемьева Е.Ю. Психология субъективной семантики. М., 1978
4. Выготский Л.С. Проблема сознания. Выготский Л.С. Собр. соч., М., 1982, Т.1.
5. Ахутина Т.В., Наумова Т.И. Смысловой и семантический синтаксис. Детская речь и концепция Л.С. Выготского. – В кн.: Психолингвистические проблемы семантики. М., 1983.
6. Шахнарович А.М. Исследования синтаксиса детской речи и идеи Л.С.Выготского о семантическом синтаксировании //Научное творчество Л.С.Выгостского и современная психология. М., 1981.
7. Леонтьев А.Н. Восприятие и деятельность //Восприятие и деятельность. М., 1976, с.21.
8. Кликс Ф. Пробуждающееся мышление. У истоков человеческого интеллекта. М., 1983.
9. Выготский Л.С. мышление и речь// Выготский Л.С. Сбор.соч., М., 1982, т.2.
10. Гринфилд П.М. Информативность, пресуппозиция и семантический выбор в однословных высказываниях // Психолингвистика. М., 1984.
11. Конецкая В.П. Социология коммуникации. М.,1997.
12. Гавра Д.П. Основы теории коммуникации. 2011.

G. Rzayeva

Mətn nitq fəaliyyəti vahidi kimi

Xülasə

Məqalədə nitq fəaliyyətinin koqnitiv və kommunikativ aspektləri öyrənilir. İnsanın dil qabiliyyətinin adekvat təsviri problemi şərh edilir. Dil mənimsəmə psixolinqvistik mexanizminin dinamik inkişafı bütövlükdən analitik formalara keçidlə xarakterizə edilir. Psixolinqvistik mənada mətn dil qabiliyyətinin struktur komponentinin realizə edilməsidir. Mətndə dil vahidlərinin mübadiləsi baş verən kommunikativ situasiya şəraitləri təsvir edilir.

G. Rzayeva

The text as unit of speech activity

Summary

In article are studied cognitive and communicative aspects of speech activity. The problem of the adequate description of lanquaqe ability of the person reveals. Dynamic development of the psycholinguistic mechanism of masterinq of lanquaqe is characterised by transition from complete forms to analytical forms. In article the exchange of lanquaqe units occuring in the condition of communications is described.

Rəyçi: Prof. Mirzəyev S.

TAMİLLA CAVADOVA
ADNA
seid2007ferid@mail.ru

METAFORALAR VƏ ONLARIN ŞEKSPİR YARADICILIĞINDA ROLU

Açar sözlər: metafora, obrazlar, dil hadisəsi, nitq vasitəsi, bədii yaradıcılıq
Key Words Metaphor , Images, Speech event , Means of speech, Literary activities.

Metafora - sözün məna və məzmunla zənginləşdirilməsidir. Bu termin etimaloji baxımdan bir obyektin müəyyən keyfiyyət və əlamətinin digərinin üzərinə köçürülməsini ifadə edir. Gerçəklikdəki əşya və hadisələr arasında müəyyən əlaqələr mövcuddur. Bu əlaqərdən biri oxşarlıq əlaqəsidir ki, əşyaların biçimi, rəngi, funksiyasına görə özünü göstərir. Məsələn: günəşin dəyirmi formada olduğu üçün topa, sarı rəngdə olduğuna görə, qoğala, qızmar olduğuna görə kürəyə bənzətmək olar. Bu oxşarlıq xüsusiyyətləri məhz imkan verir ki, bir əşya və ya hadisənin adını digərinə köçürərək metafora alınsın. Metaforanın istifadə olunmasında məqsəd isə canlının danışıq dilində ifadəlilik, emosionallıq bədii yaradıcılıqda isə obrazlılıq yaratmaqdadır. Metafora ümumiyyətlə emosianal, ekspressiv xarakterli canlı danışıq dilinə məxsusdur. Lakin bəzi hallar olur ki, nəzəri şərhinə ehtiyac olan hadisələr çətin dərk edilir. Metafora burada fikrin çatdırılmasına böyük köməklik edir.

Poeziyanın əsasını təşkil edən, var dövləti hesab olunan metaforanın bədii üslubda daha mənalı və daha orijinal formaları mövcuddur. Bədii yaradıcılıqda metafora ən qüvvətli bədii ifadə və təsvir vasitəsi kimi istifadə olunur.

Metaforanı Aristotel semasioloji hadısə kimi qiymətləndirmişdir. O, metaforanın əmələ gəlməsini müxtəlif əşya və hadisələr arasındakı oxşarlıq əlaqələrinin mövcudluğu və adları olmayan əşyaların adlandırılması ilə əlaqələndirilir. Bədii vasitə kimi metaforanın rolunu isə qədim Roma alimi Kvintilian təyin etmişdir.

Üslubiyyatda mövcud olan üslubi priyomlardan biri kimi metafora gözlənilməzlik dərəcəsinə görə təsnif oluna bilər. Belə ki, ilk dəfə işlənən, oxucu üçün yeni və gözlənilməz olan metaforalar orijinal, yəni, əsl meforalardır. Nitqdə tez-tez istifadə olunan və lüğət tərkibində dilin ifadə vasitəsi kimi yer tutan metaforalar isə köhnəlmiş və ölü metaforalardır. Bunlar oxucu üçün təzə deyil, çoxda yüksək emosionallıq yaratmır.

Əlaqələndirilən əşya və hadisələr arasında bənzərlik nə qədər az olsa, metafora bir o qədər çox gözlənilməz, ekspressiv olur.

Metafora bütün əsas nitq hissələri ilə ifadə olunan və bütün cümlə üzvləri kimi iştirak edə bilər. Metaforada əşya və hadisələr arasındakı oxşarlıq dərəcəsi onun cümlədəki funksiyasına və ifadə olunduğu nitq hissəsinə görə fərqlənir. Beləki, metaforaya təyin, ya da xəbər rolunda olan söz və ya söz birləşməsi ilə ifadə olunanda onu aydınlaşdırmaq çox asan olur. Bəzən müəyyənləşdirmə prosesi çətin olur, əsasən zərflə ifadə olunan metaforada.

Bəzən ali metaforalar məna ilə zənginləşdirilir, yəni onların əvvəlki mənası yeni mənası ilə yanaşı bərpa olunur. Bu, metafora vasitəsilə yaranmış mərkəzi təsvirin əsas sözə aid olan əlavə sözlərlə əhatələnməsi ilə edilir. Yəni yazıçı dəqiq

təsəvvür yaratmaq məqsədilə metafora qrupu yaradılır. Bu metafora qrupu ölü metaforanı canlandıraraq ona yeni həyat verir. Belə metaforalar uzun müddətli metaforalardır.

Lakin uzun müddətli metaforalar yalnız adi metaforalar vasitəsilə yaranmır. Yəni metaforadan da bu məqsədlə isdifadə etmək mümkündür.

Yeni metaforalara əsasən poeziya və mənzum nəsrdə rast gəlmək olar. Adi metaforalar isə qəzet məqalələrində, elmi dildə va s. əsasən ifadə vasitəsi kimi istifadə olunur.

Yeni və adi metaforalar arasında dəyişməz əlaqə vardır. Yeni metaforalar tez-tez təkrar istifadə nəticəsində adiləşə, əksinə adi metaforalar isə uzun müddətli metaforalar vasitəsilə yeniləşə bilər.

Əgər metafora cansiz əşyalara canlıların, xüsusə insanın xassələrini köçürməklə yaranırsa, bu metaforalara ədəbiyyatşünaslıq üslubiyyatında təcəssüm və ya təşxis deyilir. Əgər insan xassələri təbiət qüvvə və hadisələrinin üzərinə köçürülürsə, bu antropotorfizm xaraterli metaforadır. Məsələn: "şəhərin üzü", "göyün üzü", " buludlar ağlayır ", " göylər qəzəblənib" və. s

Metaforaların yaranmasında leksik – semantik söz qrupları xüsusi iştirak edir.

Müsbət və ya mənfi obrazların təsvir edilməsindən asılı olaraq bu söz qruplarından istifadə olunur. Bu cür qruplara aşağıdakılar daxildir:

a) heyvan, quş və həşarat adları;
b) bitki, meyvə və ağac adlarının bir qismi;
c) qiymətli mineral və metal adları;
d) ilin fəsilləri;
e) sutkanın müəyyən vaxtları;
f) təbiət hadisələrini bildirən adlar;
g) göy cisimlərinin adları;
h) Aləm", "dünya", "cahan" sözləri;
i) Qiymətli parça adları;
j) Dini - əsatiri anlayış bildirən sözlər və s.

Atalar sözlərinin yaramansında heyvan, quş və bitki, meyvə adlarından metafora kimi istifadə olunur. Məsələn: "meşədə armudun yaxşısını çaqqal yeyər" və s.

Hər xalqın dilində özünəməxsus məcazlar sistemi mövcuddur. Bu məcazlar həmin xalqın yaşadığı coğrafi şərait, təbiət, iqlim, mühit, təsərrüfat fəaliyyati və s. ilə bağlıdır. Məsələn: ingilislərdə güc, qəvvət rəmzi olan at fransızlarda sağlamlıq və çalışqanlıq, almanlarda isə zəhmətkeşlik rəmzidir, lakin həşaratlara bütün xalqlarda ziyanverici, cinayətkar adamların timsalı kimi baxırlar. Arılar və qarışqalar isə mərdlik, səxavət və əxlaq rəmzi hesab olunurlar. Fransızlarda qaz axmaq, tovuz-quşu özündən razı , toyuq əxlaqsız qadın, ingilislərdə cücə qorxaq, ördək isə ərköyün adamları təmsil etmək məqsədilə istifadə olunur. Fransız və almanlarda isə ördək yalançı şaiyə yayanların rəmzi hesab olunur.

Azərbaycan qələm ustaları gözəl qadın, onun cizgi və xüsusiyyətlərini adətən qızılgülə, laləyə və başqa güllərə bənzədirlərsə, hind söz ustaları isə həmin müqayisəni lotos çiçəyi ilə verirlər.

Azərbaycan dilinə bir çox xarici əsərlər tərcümə olunmuşdur. Əgər orijinal əsəri və tərcümə variantlarını götürüb baxsaq onlarda bir birinə uyğun gəlməyən müəyyən cümlələr, sözlər və fikirlər müşahidə edərik. Bu isə təbii haldır, çünki

əsərdə elə sözlər olur ki, onları tərcümədə olduğu kimi verdikdə müəyyən uyğunsuzluqlar yaranır. Tərcümənin çətinliyi orasındadır ki, müəllifin malik olduğu sərbəstlik imkanlarına tərcüməçi malik deyil. Təbiidir ki, müəllif öz əsərini istədiyi üslubda yaza bilər. Bu səbəbdən də tərcümə əsərlərində mütərcimin orjinaldan uzaqlaşma halına yol verməsi müəyyən mənada məcburiyyətdir. Təbii ki, metaforaların tərcüməsində də müəyyən qedər çətinliklərə rast gelmək mümkündür. Bunu əsərləri təhlil edəndə daha çox ayırd etmək mümkündür. Belə çətinliklər Şekispirin əsərlrində daha çox özünü göstərir.

Məsələn: "Otello" faciəsində metaforaların təsnifatına nəzər yetirək:

1) pərdə I səhnə

Iogo/ But I will wear my heart upon my sleeve
For daws to peck at…
Səh. 9

"For daws to peck at…." bütövlükdə metaforadır; "Dolaşa" mənasını verən *"daws"* metaforasını yazıçı axmaq, sadəlöhv adamları və onların timsalında Otellonu nəzərdə tutur. Bu metaforanı tam olaraq orijinal metafora hesab etmək olar.

2) Iogo| And thought he is in a fertile climate dwell,
Plague him with flies....

"he in a fertile climate dwell" cümləsi ilə Yaqo demək istəyir ki, Otello Dezdemona ilə bir yerdədir, o, bu dəqiqə xoşbəxtdir. "Xoş, mülayim iqlim" Dezdomonanın təması, ünsiyyətidir. "*Plague him with flies" – "milçəklə zəhləsini tök"* deməklə Yaqonun dilindən yenə dramaturq metafora yaradır. Yəni "milçək kimi zəhləsini tök, xoşbəxtliyini burnundan gətir" mənasını verən bu metafora adi xarakterli metaforadır. Çünki milçək murdar, zəhlətökən adamları təmsil edən bir həşaratdır və həmişə məcaz kimi çox əsərlərdə istifadə olunur. Bu baxımdan bu, artıq işlənmiş metaforadır.

3) Iago\ Your heart is burst, you have lost half your soul,
Even now, now very now, an old black ram.
Is tupping your white ewe, Arise, arise;
Awake the shorting citizens with the bell,
Or else the devil will make a grandsire of you….
(səh.10)

"An old black ram" – "qoca qara qoç " – Otellodur. Onu qoça oxşadararaq Yaqo həm onun qara və yaşlı olduğunu, həm də qoç kimi tərs və özündən razı olduğunu bildirmək istəyir. Isimlə ifadə olunmuş bu metafora öz yeniliyi və orijinallığı ilə seçilir. Hemçinin, "white ewe" – "ağ qoyun, ağ əmlik " adlandırılan Dezdomona da bu metafora obyektinə çevrilmişdir. Yaqo onu ağ əmliyə bəzəntməklə onun ağ gözəl olduğunu, lakin qoyun kimi ağılsız olduğunu demək istəyir. Bu metaforada həmçinin öz gözlənilməzliyi ilə maraq oyadır.

"Or else the devil will make a grandsire of you " misrasındakı "*devil"* metaforası yenede Otelloya aiddir. *"Şeytan sizi baba edecek"* cümləsi ilə o, həmçinin Otello və Dezdomonanın uşaqlarınıda şeytan olacağını demək istəyir. Bu metafora artıq öz yeniliyini itirdiyi üçün adiləşmişdir.

Dilin zənginliyi imkan vermişdir ki, Şekspir öz əsərlərində bir cox dil hadisələrindən çox istifadə etsin. Şekspir yaradıcılığı məhs buna görə çox fərqli və zəngindir.

Ədəbiyyat

1. Galperin " Stylistic" Moscow – 1971
2. Müasir Azərbaycan dili. Bakı – 1978
3. Vilyam Şekspir "Pyeslər" Bakı Yazıçı – 1989

T. Джавадова

Роль метафоры в языке

Резюме

В современном английском языке широко используются метафоры. В статье говорится о метафоре и её роли в творчестве Шекспира. Метафоры в языке играют большую роль как основные средства речи. С этой точки зрения статья может иметь большое значения для лиц, изучающих английский язык и интересующихся творчеством Шекспира.

Tamilla Javadova

The role of metaphors in the language.

Summary

Metaphors are widely used in modern English. The article deals with the metaphor and its role in Shakespear's novels. Metaphor plays a great role as a main spech means in the language. In this regard, the article might be important for English learners and the ones who are interested in Shakespear's activity.

Rəyçi: dos. Xoşqədəm Əhmədova

TƏRANƏ SÜLEYMANOVA
ADNA

DİLÇİLİKDƏ LEKSİK ALINMALAR. LEKSİK ALINMALARIN GENEALOJİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: kobud, jarqon, köhnəlniş söz və ifadə, genealoji, sinxron, varvarizm
Key words: vulgar, jargon, archaism, genealogical, synchronous, barbarizm.

Dil ictimai bir hadisə olmaq etibarilə cəmiyyətə xidmət edir. Təbiidir ki, cəmiyyətə xas olan hər bir xüsusiyyət, hadisə və s. bu və ya digər dərəcədə öz əksini dildə tapır. Lakin dil müstəqil ictimai hadisə olduğundan və digər ictimai hadisələrdən fərqləndiyinə görə onun cəmiyyətlə bağlılığı və onu əks etdirmə dərəcəsi başqa ictimai hadisələrdə olduğundan fərqlənir. Müxtəlif dillərə aid leksik vahidlərin bu və ya başqa dildə aşkara çıxarılması, qruplaşdırılması dil əlaqələrinin səbəblərini, formalarını öyrənməkdə əhəmiyyətli olduğu kimi, dil əlaqələri zəminində dilin zənginləşməsi məsələlərinin araşdırılmasında da xüsusi maraq kəsb edir. Tədqiqatçıların müəyyən qismi dil əlaqələrinin səbəblərini, təzahür formalarını əsas götürərək bu və ya başqa dilə sözlərin keçməsi prosesini sinxron planda araşdırmağa üsdünlük vermişdir. Başqa qrup tədqiqatçılar isə konkret dildəki leksik alınmaları qeydə almaq, onların struktur-genealoji təsvirini verməklə kifayətlənmişlər.

Leksik alınmaların dilin zənginləşməsindəki rolunun öyrənilməsi, dil əlaqələrinin öz müxtəlifliyi və rəngarəngliyi ilə fərqləndiyi arealın dil materialları əsasında aparılması ümumi qanunauyğunluqların aşkara çıxarılmasında müstəsna əhəmiyyət kəsb edir.

Xarici aləm daim dilə təsir edir Ç.X.Bakayev göstərir ki, insan cəmiyyətinin inkişafı prosesində xalqlar və onların diləri bir-biri ilə əlaqədə olur. Dünyada başqa xalqlardan tam təcrid olunaraq yaşamış xalq təsəvvürə gətirmək çətindir. Cəmiyyət yaranandan müxtəlif tayfa, qəbilə, xalq və millətlər həmişə bir-biri ilə təmasda olmuşdur. Bütün bunların nəticəsində xalqlar, onların dilləri qaynayıb-qarışmış, birbirinə qarşılıqlı təsir və bir-birindən söz alma prosesləri baş vermişdir.

Müxtəlif xalqlar arasında dil əlaqələri iki şəkildə – şifahi və yazılı formalarda özünü göstərir.

Birinci tip əlaqələr şifahi danışıq, eləcədə müasir dövrdə radio, televiziya və dublyaj olunmamış filmlər əsasında baş verərək çox geniş yayılmış əlaqə növlərindən biri sayılır.

Dil əlaqələrinin ikinci tipi isə yazılı ədəbiyyat, bəzi hallarda isə tədris və yazışmalar əsasında yaranır. Başqa xalqların ədəbiyyatını onun dilində oxumaqla insanlar əslində istər-istəməz həmin dillə də əlaqəyə girirlər. Xalqlar arasında baş vermiş dil əlaqələri nəticəsində bir dildən başqa dilə keçən alınmaların xarakteri də dəyişir. Onlar getdikcə artır, çoxalır və dərinləşir. Bu prosesdə ilk növbədə dil əlaqədə olduğu dildən ehtiyac duyulan, özündə olmayan vahidləri alırsa, sonralar özününküləri dəyişdirmək, ağır tələffüz olunanları yüngülləri ilə variantlar, substitullar və s. atır. Deməli, leksik alınmaların tədqiqi zamanı göstərilən məsələlər diqqət mərkəzinə çəkilməli, bu və ya digər sözün alınma səbəbləri də araşdırılmalıdır.

Dilin zənginləşməsində leksik alınmaların rolunu öyrənərkən lüğət tərkibini aşağıdakı əsas qruplara ayırmağı məqsədəuyğun sayırıq:

1) Ümumişlək sözlər;
2) Xüsusi leksika;
3) Arqo və jarqon leksikası;
4) Dialekt sözləri;
5) Loru sözlər və varvarizmlər;
6) Tarixizm və arxaizmlər;
7) Realiyalar.

Dilin zənginləşməsində leksik alınmaların rolunu öyrənərkən mənşəcə ayrı-ayrı dillərdən olan sözlərin qruplaşdırılıb araşdırılması da vacibdir. Bu məsələ leksik alınmaların genealoji tədqiqini əhatə edir.

Aydındır ki, müəyyən dildə danışanlar özlərində olmayan, yəni başqa dilin daşıyıcılarının istifadə etdiklərini öz məişətlərinə daxil edərkən onu adlanldırmaq üçün növbədə ona yaxın əşyaların adlarından istifadə edirlər. Bu cür adlandırma üsulunu şərh edərkən L.Blumfild yazır: German xalqları xristianlığı qəbul edərkən bütpərəstlik terminlərini saxlamışlar. «God» – «Allah» «Heaven» - «göy», «hele» - «cəhənnəm» kimi sözlər yeni dinə bir başa daxil edilmişdir.

İkinci yol qohum dillərin daşıyıcılarının eyni mənalı sözləri ayrı-ayrı dillərdən alması ilə bağlıdır. L.Blumfild bu üsulla alınmalara misal göstərərkən yenədə bütpərəstliyə aid terminlərdən istifadə edir. Bütpərəstlik anlamında Easter «pasxa» alman və ingilis dillərində işlənir: niderland və skandinav dillərində isə qədim yəhudi-yunan latın sözü pasha-dan (danimarka paaske) istifadə edilir.

Əgər dildə alınma predmetə oxşar əşya yoxdursa və buna uyğun olaraq müvafiq söz mövcud deyilsə, onda adlandırma üçün obyekti təsvir etmək yolundan istifadə olunur. Alınmanın bu üsulu leksik alınmalardan fərqlənir. Çünki predmeti adlandırma bu halda dilin öz vasitələri hesabına baş verir.

Leksik alınmaların dilə keçməsinin səbəbini dil əlaqələri təşkil edir. Belə olduqda leksik alınmaların dilə keçməsinin iki istiqaməti müəyyənləşir: kontaktlı və kontaktsız əlaqələr xətti nəzərə almaq lazımdır ki, dil daimi tarixi inkişaf prosesi yaşayır. Müəyyən dilin daşıyıcıları tarixin ayrı-ayrı mərhələlərində müxtəlif xalqlarla əlaqədə ola bilərlər. Bəzən bu əlaqələr arealı genişlənir, bəzən isə müxtəlif səbəblərdən daralır. Məs., Azərbaycan – ərəb Azərbaycan-fars, Azərbaycan- rus dil əlaqələri heç də bütün dövrlərdə eyni olmamışdır. Nəticədə tarixin müəyyən dövründə Azərbaycan dilinin leksik fonduna ərəb, fars sözlərit daha çox keçmiş, başqa bir dövrdə isə rus dilindən leksik alınmalar üstünlük təşkil etmişdir. Dil əlaqələrinə aid tədqiqatlar göstərir ki, kontaktlı əlaqələrdə areal amil əsaslı rol oynayır. Tarix boyu Azərbaycan ərazisində müxtəlif millətlərin nümayəndələri birgə yaşamışlar. Ləzgi, avar, talış, tat, kürd və başqa dillər ilə Azərbaycan dili arasında daimi kontaktlı əlaqə mövcud olmuşdur.

Kontaktsız əlaqə xətti ilə dilə keçən sözlər mənşəcə müxtəlif dillərə aid ola bilər və bu dillərin hamısını qabaqcadan proqnozlaşdırmaq mümkün deyildir. Məsələn, Azərbaycan dilində mənşəcə holland, italyan, ispan, hind dilinə mənsub sözlərin varlığını əvvəlcədən qeyd etmək çətindir. Eyni zamanda nəzərə almaq lazımdır ki, kontaktsız dil əlaqələrində leksik alınmalar daha çox birbaşa deyil vasitəli olur. Yəni onlar əsasən başqa bir dil vasitəsilə alınır. Deyilənlərdən belə bir nə-

ticə çıxır ki, kontaktsız əlaqələr zəminində dilə keçən sözlərin genealoji dairəsi genişdir.

Qeyd edildiyi kimi, bir dilə başqa dilin və ya dillərin elementləri iki yolla keçə bilər: birbaşa (vasitəsiz) və dolayı (vasitəli) yolla. Məsələn, əgər Azərbaycan dili ilə əlaqələri daha qədim dövrə aid olan fars dilindən ziyan, güzəşt, sərmayə, pərsəng, cadu, pir, gövhər, gülab, xəncər, çeşmə, bənd, divan, əfsanə, piyalə, kürzə, xəstə, bahar və s., ərəb dilindən minarə, mömün, müsəlman, ruh, dərs, qələm, alim, kitab, məktəb, müəllim, əmanət, ərzaq, qəzəl, qəsidə, ibadət və s., XIX əsrdən əlaqədə olduğu rus dilindən borş, bulka, kisel, smetan, mayka, zastava, polk, bolt, oçerk və s. Azərbaycan dilinə (vasitəsiz) keçmişdirsə, latın mənşəli vakuum, elevator, aksiom, kredit, obyekt, semestr, korpus, klassik və s., yunan mənşəli simvol, sintez, teatr, teleqram, talant, termometr, termos, faza, fizik, xaraktekr, hektar və s., ingilis mənşəli bunker, vaqon, vağzal, voleybol, keks, lift, stend və s., alman mənşəli, sement, siqnal, fakültə, turner, futlyar, tablo, saxta, ştab, ştanq və s., fransız mənşəli briqada, buket, bülleten, vitrin, duel, ekran, jest, paket və s., italyan mənşəli balkon, balet, duet, kompas, konsert və s., ispan mənşəli ananas, kakos, gitara, merinos, sinyor, tanqo, şokolad və s. kimi sözlər Azərbaycan dilinə əsasən bilavasitə əlaqədə olduğu rus dilindən daxil olmuşdur.

Azərbaycan dilinin lüğət fonduna daxil olan leksik alınmaları mənşəcə kəmiyyət baxımından öyrəndikdə məlum olur ki, müxtəlif dillərdən alınmalar miqdarlarına görə fərqlənir. Azərbaycan dilində ərəb mənşəli alınmalar xüsusi çəkiyə malikdir. Ərəb və Azərbaycan dillərinin kontaktlı əlaqəsi islam dilinin təşəkkül tapması və yayılması ilə bağlı ərəb dövlətlərinin güclənməsi bir çox ölkələri, o cümlədən Azərbaycanı işğal etməsi ilə bağlıdır. Azərbaycanda islamın qəbul olunması, Quranın yalnız ərəb dilində oxunması, nəhayət, islam dininə əsaslanaraq elm və mədəniyyətə diqqət göstərilməsi onların dilinin hegemon mövqeyə keçməsinə səbəb olmuşdur. Nəticədə ərəb və Azərbaycan dillərinin kontaktlı əlaqələri güclənmişdir. Ərəb dilinin ikinci təsir xətti fars dili vasitəsilə olmuşdur. Azərbaycan - fars kontaktlı dil əlaqələri prosesində fars dili vasitəsi ilə Azərbaycan dilinə keçən leksik alınmaların sayı sürətlə artmışdır.

Azərbaycanlılarla farsların tarixi münasibətləri, Azərbaycan və fars dillərinin qarşılıqlı əlaqələri və xüsusilə Azərbaycan dilində fars alınmaları problemlərinə toxunan tədqiqatçıların fikrincə göstərilən xalqlar və dillər arasındakı əlaqələr əsasən XIII-XIV əsrlərdən, yəni ərəb dilinin getdikcə öz nüfuzunu itirməsindən, fars dilinin Qafqazda qüvvətlənməsindən sonra başlamışdır. Bu məsələyə toxunan H.Mirzəzadə yazır: «Ərəblərdən sonra hakimiyyət başında duran farslar, XIII-XIV əsrlərdə Azərbaycanda ağalıq edən monqollar və başqaları rəsmi dövlət işlərində fars dilindən istifadə etmiş, yazı dilində fars sözlərinin saxlanması ilə bərabər mövcud ərəb sözlərinin də yayılmasına şərait yaratmışdır».

Leksik alınmaların dilə gəlməsi və qərarlaşması uzunmüddətli prosesdir. Söz keçdiyi dildə dərhal qəbul olunmur. Danışıq dilində və yazılı mətndə ilk dəfə rast gəlinən sözün dildə həmişə işlənə biləcəyi haqqında hökm vermək mümkün deyildir. Bütövlükdə leksik alınmalara münasibət bu cəhətdən özünü iki cür göstərir. Birinci cəhət sözün hansı leksik laya yaxud tematik qrupa məxsusluğundan asılıdır. İkinci cəhət sözün dildə işlənmə dərəcəsini əhatə edir. Əgər leksik alınmanın dildə qarşılığı varsa, yeni söz heç bir əlavə məna yaxud məna çaları daşımırsa,

onda onun geniş istifadəsi və dildə qərarlaşması şübhə doğurur. Bu halda leksik alınmaların işlənmə tezliyi öyrənilir.

Leksik alınmaların dildə mənimsənilməsi onların dildə işlənməsinin məqbulluğunu nəzərdə tutur. Yəni mənimsənilmiş leksik alınma dilin mənşəcə öz sözləri ilə eyni səviyyədə işlənir. Məs., kitab, məktəb, çayxana, qəzet, radio, televiziya, maqnitofon, fotoaparat və s. bu kimi sözlərin Azərbaycan dilində heç bir işlənmə məhdudiyyəti yoxdur.

Leksik alınmaların dilin zənginləşməsində oynadığı rol hər şeydən əvvəl özünü dilin lüğət tərkibindəki dəyişmələrlə göstərsə də, dilin fonemlər sisteminin məruz qaldığı təsir nəticəsində yeni keyfiyyətlər kəşf etməsi müşahidə olunur.

Leksik alınmalar mənşəcə mənsub olduqları dillərin qrammatik əlamətləprini qismən özlərində daşıyır.

Bəzi alınmalar dilin inkişaf və əlaqələrinin bir mərhələsində dilə gəlirsə, digərləri başqa dövrlərdə alınır.

Sosialist, kapitalist, imperialist, marksist, kommunist, realist, humanist və s. sözlərin heç də hamısı Azərbaycan dilinə birdən keçməmişdir.

Aydındır ki, leksik alınmalar yeni sözlər kimi hər-hansı bir dilin lüğət tərkibini zənginləşdirir. Lakin bu cür zənginləşmə, yəni lüğət tərkibində sözlərin sayca artması dilin zənginləşməsini sübuta yetirmir. Hər hansı yeni leksik alınmanın qeyd olunması kəmiyyət dəyişməsini səciyyələndirir. Leksik alınmanın dildə əmələ gətirdiyi keyfiyyət dəyişmələri zənginləşmənin və təkmilləşmənin qarşılıqlı şəkildə getdiyini göstərir.

İnsanlar arasında zəruri ünsiyyət vasitəsi olan dil cəmiyyət və həyatın özü kimi daimi inkişaf prosesi keçir. Bu prosesdə dilin zənginləşməsi, təkmilləşməsi və təkamülü onun yerinə yetirdiyi funksiyalarla yanaşı, yayılma sferasından da asılıdır.

Ədəbiyyat

1. Bayramova A. Leksik alınmaların dilin zənginləşməsində rolu. Bakı, «Nurlan», 2009
2. Abbasquliyev T.Ə. İngilis dilindəki ərəb mənşəli sözlərin leksik tərkibinə dair. Metodika və dilçilik. Bakı, 1984
3. Azərbaycan tarixi. Bakı, 1994
4. Axundov A.A. Müasir Azərbaycan dilinin fonetikasından mühazirələr. Bakı, 1969.
5. Qarayev A. Müasir Azərbaycan dilində Avropa mənşəli leksik alınmalar. Bakı, 1989

T.A.Suleymanova

The role of lexical acquisitions in the language

Summary

This article in linguistics is talking about lexical acquisitions, and the role of language enrichment.

Besides, in the article, was given detailed information about the reason passing lexical acquisitions into language, directions and genealogical origin.

Т.А.Сулейманова

Роль лексических взаимствованных слов в языке

Резюме

Эта статья в лингвистике обсуждает о лексическом заимствовании, и их роле в обогащении языка. Кроме этого, в статье дается широкая информация о причине перехода лексических заимствований в язык, о направлении и генеалогическом происхождении.

Rəyçi*:* dos. Məmmədova Rəhimə

MİRVARİ QASIMOVA
ADPU

SEMASIOLOJİ SÖZ QRUPLARINDA SINONIMLƏRIN TƏYİNİ KRİTERIYALARINA DAİR

Açar sözlər: sinonimlik və sinonim, semasioloji söz qrupu, kriteriya, məna eyniliyi
(və ya oxşarlığı), qarşılıqlı əvəzlənmə, kontekst.
Key words: synonymy and synonyms, semasilogical word qroups, criteria, identity (or similarity) of meaning, interchangeability, context.
Ключевые слова: синоним**,** синонимия, семасиологические группы слов, критерий, тождество (или близость) значения, взаимозаменяемость

Sinonimlik, yəni sözlərin sinonim ola bilmə xüsusiyyəti və sinonimlər məsələsi dilçiliyin qədim, mübahisəli, çətin və eyni zamanda da maraqlı problemlərindən biridir. Dilçilik elmində formal cəhətdən fərqli olsa da, müxtəlif məna çalarlarında və üslubi səciyyələrində müəyyən təfavütlər özünü göstərsə də, sözlərin, morfemlərin, frazeoloji söz birləşmələrinin, sintaktik konstruksiyaların əsas mənalarının birbirinə uyğun gəlməsi, bəzən də semantik cəhətdən tamamilə üst-üstə düşməsi sinonimiyanın əsasını təşkil edir. Sinonimlər mənaca bir-birinə yaxın, və ya bir-birinin eyni olan, eyni bir məfhumu ifadə edən, lakin üslubi rənginə, məna çalarına görə seçilən dil vahidləridir. Leksik səviyyədə müəyyənləşən sinonim sözlər adətən eyni nitq hissəsinə aid olduğundan nəticədə biri digərinin əvəzində işlənə bilmə xüsusiyyətinə malik olur.

Klassik dilçilik mənbələrində başlıca olaraq leksik kateqoriya hesab edilən sinonimlik semasiologiya elminin keçən əsrin 50-60-ci illərindən başlayan inkisafından və nəticədə bu elmin müstəqil dilçilik bölməsi kimi öz təsdiqini tapmasından sonrakı dövrə aid dilçilikdə isə həm leksikoloji, həm də semasiloloji kateqoriya kimi qiymətləndirilir. Məsələn, II cildlik " Ümumi Dilçilik" dərsliyinin I cildində "Dilin şöbələri" başlığı ilə verilmiş VI fəsildə qeyd edilir: "Dildə söz və ifadənin mənası, mənanın dəyişməsi- mənanın genişlənməsi, daralması, sözün məcazi məna bildirməsi, **çoxmənalılıq, omonimlik, antonimlik** kimi semasioloji məsələlərin tədqiqi semasiologiya şöbəsinin mövzusunu təşkil edir."[7, 209-210]

Biz də hesab edirik ki, dilin lügət fondunu təşkil edən söz və ifadələrin leksik vahid kimi (sözün mahiyyəti, dilin leksik sistemində yeri, qrupları və s.) dilçiliyin leksikologiya şöbəsində araşdırılıb tədqiq edilməsi nə qədər qanunauyğundursa, həmin söz və ifadələrin sırf məna, məna dəyişilməsi və inkişafı baxımından semasiologiyada öyrənilməsi və bu baxımdan sinonimliyin semasioloji kateqoriya hesab edilməsi də o dərəcədə təbiidir. Söz və ifadələrin məna münasibətlərinin müxtəlifliyi əsasında fərqləndirilən kateqoriyalar olaraq nəinki sinonimlik, eləcə də antonimlik, omonim və çoxmənalılıq da semasioloji kateqoriya hesab edilməlidir.

Sinonimiya dilçilik elmin əsas mövzularından biri olmaqla yanaşı həm də dilçi alimlərin ən çox müraciət edib, tədqiqata məruz qoyduğu məsələlərdən hesab edilir. Məhz bu səbəbdəndir ki, sinonimiya problemini dərindən araşdırmış məhşur

rus dilçi alimi B.Qornunq hələ 1964 - cü ildə sözlərin məna yaxınlığının tədqiqi məsələsinin iki min dörd yüz ildən artıq bir zamanı əhatə etdiyini qeyd etmişdir. [9, 22]

Tanınmış rus dilçisi D.N.Şmelyov da çox uzun bir zamandan bəri sinonimlik və sinonim anlayışının, onun müəyyənləşdirilməsi və şərhinin dilçilikdə olduqca geniş səpkidə fərqlənən fikir müxtəlifliyinə səbəb olmasını vurğulamışdır. Müəllif yazır ki, ayrı -ayrı dilçilik mənbələrində sinonim sözlərin həm məna yaxınlığı, həm də məna eyniliyi olan, həm eyni bir anlayışı və ya eyni bir əşyanı bildirməyə xidmət edən sözlər kimi təyin edilməsini görmək; sinonimləri müəyyən edən əlamətlər sırasında isə onların həm müəyyən konkret kontekslərdə qarşılıqlı əvəz edilməsinin, həm də müxtəlif kontekslərdə paylanmasının, yəni eyni bir mətn daxilində biri-digərini əvəz edə bilməməsinin götürülməsinə rast gəlmək mümkündür.

Daha sonra dilçi sinonimlik semasioloji kateqoriyasi və sinonim söz qrupu ilə bağlı bu qədər rəngarəng fikir və münasibətlərin mövcudluğu səbəblərinə aydınlıq gətirməyə calışaraq bunu bir tərəfdən dildə özünü göstərən "semantik yaxınlaşma əlaqələrinin müxtəlif növləri" ilə, digər tərəfdən isə bu terminin fərqli dərki, tətbiqi, fərqli dil hadisələrinə şamil edilməsi ilə əlaqələndirir [23, 193-194].

Sinonimlik semasioloji kateqoriyası demək olar ki, mövcud olan bütün dünya dilləri üçün səciyyəvidir. Hər bir dil isə özünə məxsus sinonim sisteminə malik olmaqla fərdi xüsusiyyətləri ilə seçilir.

Sinonimliyi semasioloji kateqoriya kimi qiymətləndirən və bu barədə maraqlı yanaşma təqdim edən dilçilərdən biri də L.Klaudiyayadır . Sinonim söz qrupuna semasioloji aspektdən münasibət bildirən L.Klaudiya onun şərhinə dildə sistematiklik prizmasından yanaşır. Müəllif qeyd edir ki, dil hadisəsi fonetik, qrammatik, leksik və s. yarım sistemlərin məcmusu şəklində mövcud olan bir sistemdir və dili sistem kimi formalaşdıran həmin bu yarım sistemlər də öz növbəsində müvafiq mikro sistemlərdən yaranmışlar. Bu mənada sinonimlik kateqoriyasını leksik yarım sistemin mikrosistemi kimi qəbul edən müəllif sinonim cərgələri isə real aləmin oxşar hadisəsini əks etdirən digər mikrosistemlər adlandırıaraq yazır: "Sinonimik mikrosistemi açıq və dinamik xüsusiyyətə malikdir. O, dilin inkişafından, təkmilləşməsi zamanı keçdiyi mərhələlərdən, hər bir dil daşıyıcısının edə biləcəyi mümkün akkumlyativ, assimilyativ təsirlərə məruz qalmaqdan asılı olan müntəzəm çervilmə, dəyişmə prosesidir [19, 3].

Təbiidir ki, bu qədər qədim tədqiqat tarixinə malik olan məsələnin dilçilik ədəbiyyatında qoyuluşu və ona münasibət eyniyyət təşkil etməmişdir. Sözlərin sinonim ola bilmə xüsusiyyəti, sinonimlik üçün sözlərdə vacib hesab olunan, mütləq kriteriyalar, sinonim sözləri biri - birindən fərqləndirən keyfiyyət və ya keyfiyyətlər, bu keyfiyyətlərin əhəmiyyət dərəcəsi, sinonim sözlərin müxtəlif xüsusiyyətlərə əsaslanan təsnifatı və s. bu kimi məsələlər müxtəlif dövrlərdə ayrı- ayrı dilçilərin diqqət mərkəzində olmuş, fərdi və fərqli şəkildə araraşdırılaraq izah edilmişdir. Məsələn, A.A.Braqina sinonimliyi universal dil hadisəsi adlandıraraq, onun dilin demək olar ki, bütün səviyyələrini əhatə etdiyini qeyd etmişdir. Bununla yanaşı müəllif qeyd edir ki, dil kateqoriyalarının forma və məzmunundan, onların əsas və əlavə mənalarından, sərbəst və ya frazeoloji söz birləşmələri olmalarından, bu və ya digər qrammatik bölməyə məxsusluğundan, işlədildikləri mətnlərin üslubi çalarlarından, məcazlaşmış mənada işlənmələrindən və s. bu kimi şərtlərdən asılı olaraq sinonimlərin hər biri özünə xas, məxsusi xüsusiyyət qazana bilir [22, 4].

Dilçilik ədəbiyyatlarında sinonim sözlərin təyini zamanı müəlliflər müxtəlif kriteriyalara əsaslandığından bəzən tamamilə fərqli, bəzən oxşar, bəzən də eyniyyət təşkil edən fikirlərə rast gəlmək mümkündür. Burada ən çox təsadüf edilən fikirlərdən biri, bəlkə də **birincisi fonetik qəlibi fərqli, lakin yaxın və ya eyni mənanı bildirən sözlərin sinonim hesab edilməsidir.** Bu kriteriyada irəli sürülən fikir dilçilər tərəfindən müxtəlif cür ifadə edilir, məsələn, M.A.Petrov müxtəlif cür səslənib, yaxın mənanı bildirən sözləri, A.V. Kalinin isə müxtəlif cür səslənib mənaca yaxın və ya eyni olan anlayışları bildirən sözləri sinonim hesab edir. [6, 10] P.A.Budaqov, A.N.Qvozdyov, D.Layonz, D.N.Şmelyov və başqaları isə həm eyni mənalı, həm də yaxın mənalı sözləri sinonim hesab edirlər [14, 13].

Sinonim sözlərin bu cür müəyyən edilməsi fikrinə şərik olan dilçi alimlərə Azərbaycan dilçiliyində də rast gəlmək mümkündür. Bunlardan, M.Hüseynzadə "fonetik tərkibcə müxtəlif, məzmunca bir-birinə yaxın sözləri" [4, 183], N.Məmmədov " şəkilcə müxtəlif olub, mənaca ya eyni və ya bir birinə çox yaxın mənaları ifadə edən" sözləri [10,162], Ə.Dəmirçizadə " əsas mənasına görə mütləq və ya nisbi eyniyyət təşkil edən, lakin formasına və əlavə mənasına görə fərqlənən sözləri" [2, 122-123], S.Cəfərov " eyni məfhumun müxtəlif fonetik tərkibə malik, çox yaxın və nisbətən fərqli məna bildirən sözlərlə" ifadəsini [1,28], A.M.Qurbanov " formaca müxtəlif, mənaca bir-birinə çox yaxın olan" sözləri [8, 303], Z.Verdiyeva " ümumi ədəbi dildə müxtəlif cür səslənən, lakin mənaca eyni, yaxud da yaxın olan sözləri" [15, 13], H.Həsənov "bir ümumi məna ilə əlaqədar olub, bir məfhumu müxtəlif cür adlandıran, leksik-semantik variantlarına görə eyniləşən, mənaca yaxın sözləri" [3, 64] sinonim kimi təyin etmişlər.

Son dövr mənbələrində də əvvəl deyilmiş fikirlərlə ya eyni olan, ya da bənzərliyi ilə diqqəti cəlb edən fikirlər mövcuddur. Məsələn, Qızqayıt Mustafayevanın müəllifi olduğu və Ə.Dəmirçizadənin yuxarıda göstərilən əsərinin, müəllifin öz sözləri ilə desək, " olduğu kimi təkrar nəşri" olan " Azərbaycan dilinin üslubiyyatı" adlı dərs vəsaitində sinonimlərə Ə.Dəmirçizadənin vermiş olduğu tərif də heç bir dəyişiklik edilmədən verilmişdir [11,139]. Bu mənbədən fərqli olaraq B.Xəlilov isə zənnimizcə bəlkə də təkrara yol verməmək məqsədilə sinonim sözlərdən bəhs edərkən "Müasir Azərbaycan ədəbi dilində hər hansı bir məfhumu bir sözlə deyil, bir neçə sözlə ifadə etmək olur" deməklə fikayətlənmiş və fikrini bir neçə nümunə əsasında əyaniləşdirmişdir [5, 177].

İngilis dili leksikalogiyasının öyrənilməsində əməyi olan dilçilərimizdən A.Hajıyeva da sinonim sözlərdən bəhs edərkən onları yuxarıda verilən tərifə yaxın formada, lakin fərqli tərz və terminlərlə ifadə etmişdir. O " xarici aspekti fərqli, daxili aspekti isə eyni və ya oxşar" olan sözləri sinonim kimi təqdim etmiş, eyni bir nitq hissəsinə aid olub bir və ya daha çox eyni leksik mənaya sahib olma və bəzi mətnlərdə qarşılıqlı əvəz edilmə şərtlərinə cavab verməni də bu söz qrupu üçün əsas xüsusiyyətlər arasında göstərmişdir. Qeyd etmək lazımdır ki, müəllif **word formation-word building; airman-flyer, flying man; wireless-radio** nümunələri əsasında dildə həm konnotativ, həm də denotativ məna cəhətdən üst-üstə düşən sözlər məsələsinə də toxunmuş və bu qəbildən sözlərin ingilis dilində sayca az olduğunu da qeyd etmişdir [18, 175].

Başqa bir mənbədə isə sinonim sözlər " ikili təbiəti olan" dil hadisəsi kimi təqdim edilərək yazılır ki, " müəyyən mənada eyni, bununla belə açıq-aydın fərqli

olma cəhəti sinonimlərin təyin edilməsində çətinlik yaradan əsas məqamdır" [17, 184-185]. Bu ikili ziddiyyəti (xüsusuyyəti) sinonimlərin ümumiləşdirici əsas mənalarındakı eynilik və məna çalarlarındakı fərqlər olaraq təqdim edən müəllif bu cəhətin sinonimlərin ünsiyyət prosesində rolunu və yerini müəyyən etməkdə əhəmiyyət daşıdığını da vurğulamışdır. Müəllif hesab edir ki, sinonim sözlər fikrimizi daha dəqiq, ən incə məqamlara varmaqla ifadə etmək və qarşı tərəfdə arzuladığımız təsiri yaratmaq üçün olduqca böyük əhəmiyyətə malikdir.

Sinonim sözlərin təyini zamanı çox təsadüf edilən fikirlərdən biri də sinonim sözlərin müəyyən konteksdə bu və ya digər dərəcədə biri-birini əvəz etmək xüsusiyyətinə malik olmasıdır. Sinonimlərin bu kriteriya əsasında fərqləndirilməsi fikri ilə çıxış edənlərdən rus dilçiliyində B.Q.Qornunq, L.A.Bulaxovskiy kimi müəllifləri göstərmək mümkündür [6,11]. D.N.Şmelyov da sinonim sözlərin müəyyən edilməsi zəminində başqa dilçilərin irəli sürdüyü və əsas kriteriyalardan növbəti biri kimi qiymətləndirilən "məna yaxınlığı və ya eyniliyi", "qarşılıqlı əvəz oluna bilmə "-ni sinonim sözlərin təyinində mümkün kriteriyalar sırasında təbii hal kimi qiymətləndirərək bunu sözlərin çoxmənalılığı ilə bağlı izah edir. Müəllif göstərir ki, " çoxmənalı sözün müəyyən bir konteksdə (mətn daxilində) mənalarından biri ilə çıxış edə bilməsi həmin sözün verilmiş konteksdə uyğunluq yarada bildiyi sözlərlə müntəzəm əlaqəsinin nəticəsidir" [23, 194].

Başqa bir dilçi L.Antal da sinonimlərin təyin edilməsi və müəyyənləşdirilməsində əvəzləmə metodunun etibarlılığından danışaraq əmin edir ki, bu aşağıdakılardan ibarətdir : iki söz bir cümlə daxilində cümlənin mənasını dəyişmədən biri-digərini əvəz edə bilirsə, onda onlar sinonimlərdir. Əvəzlənmə sonrasında cümlənin mənasının eynilə qalmasının yeganə təminatı isə həmin sözlərin sinonim olması öngümanıdır. [16, 26].

Dilin lüğət tərkibində çox sayda mənaca "qohum olan" sözlərin varlığını və həmin bu sözlərin morfem quruluşu, fonetik forma, fikir, hiss və təsəvvürlərimizi ən incə çalarlarla ifadəsinə xidmət baxımından fərqlənməsini qəbul edən dilçi alıimlərdən biri də İ.V. Arnolddur. Alimin sinonim sözlərin təyini üçün irəli sürülmüş " eyni mənaya malik olan sözlər" və " eyni bir anlayışı ifadə edən müxtəlif formalı sözlər" kimi fikirlərə tənqidi münasibəti maraq doğurur. Bu söz qrupunun təyinində irəli sürülmüş həmin fikirlərin ifadə edilməsində bir qədər ehtiyatsızlığa yol verildiyini düşünən dilçi hesab edir ki, təbiət etibarı ilə dildə olan hər bir sözün öz tarixi, özünəxas motivasiyası və məxsusi məzmunu olduğundan yuxarıda adları çəkilən görüşlər özünü doğrultmur. Dilçi sinonim sözləri aşağıdakı şəkildə təyin etmişdir: " Eyni bir dildə eyni bir nitq hissəsinə mənsub olub bir və ya daha çox eyni, ya da təqribən eyni denotat mənaya sahib, denotat mənalarında nəzərə çarpacaq dəyişimə səbəbiyyət verməyən ən azı bəzi kontekslərdə qarşılıqlı əvəzlənə bilən, lakin morfem quruluşu, fonetik forması, məna çaları, konnotasiya, valentlik, üslubi xüsusiyyətlər və idiomatik istifadə baxımından fərqlənən iki və daha çox söz sinonimdir " [21, 194-195].

Lakin qeyd etmək lazımdır ki, sinonimlər üçün həm "məna yaxınlığı və ya eyniliyi", həm də "qarşılıqlı əvəz oluna bilmə" kriteriyası dilçilər tərəfindən birmənalı qarşılanmamışdır. İstər rus, istər azərbaycan, istərsə də ingilis dilçiliyində bu əlamətlərin müəyyən edilib adlandırılmasında daha ehtiyatlı davranan müəlliflər olmuşlar. Məsələn, "Vaqifin qoşmalarında sinonimlər" adlı yazısında M.Rzazadə

yazır : "Sinonimlər bir-birini qeyd və şərtsiz əvəz etmək üçün deyil, bir anlayışın müxtəlif məna incəliklərini vermək, ifadənin təsirini, bədii gözəlliyini artırmaq, fikri konkret, parlaq etmək və onu rəngarəng vasitələrlə ifadə etmək üçündür " [13, 41].

"Azərbaycan dilində leksik sinonimlik" əsərində isə qeyd edilir ki, iki söz məna baxımından heç vaxt tamamilə üst-üstə düşə bilməz. Sözlərin ümumiləşdirici əsas mənasındakı eyniyyətin əsas götürülməsini vurğulayan müəllif onu da qeyd edir ki, sinonim sözlərdəki həmin əsas məna ümumiliyini müəyyən etmək üçün sinonim cərgəni təşkil edən sinonimlərin mənaları arasındakı fərqləri də nəzərə almaq zəruridir [15, 7].

V.V.Vinoqradov da sinonim cərgni yaradan sinonim sözlərin biri - birini əvəz etməsi kriteryasına qarşı çıxmış dilçilərdəndir. Dilçi alim iddia edir ki, "poetik əsərdə əsərin ümumi məzmununun tələbindən asılı olaraq hər bir söz elə işlədilməlidir ki, dildə onu əvəz edə biləcək başqa bir söz tapılmasın" [12, 183].

R.S.Ginzburqa görə də müəyyən bir mətn daxilində bir-birinə sinonim ola bilən sözlər başqa, fərqli bir mətndə heç bir sinonimik əlamətə malik olmaya bilərlər və qarşılıqlı əvəzlənmə təklikdə sinonimliyin təyin edilmə kriteriyası kimi qəbul edilə bilməz. Alim sinonim sözləri " səslənmə formasına görə fərqli, lakin denotat məna və ya mənaları etibarı ilə oxşar olan və ən azı bəzi mətnlərdə əvəzlənə bilən sözlər " deyə təyin etmişdir [20, 58].

Sinonim sözlərin tamamilə eyni mənanı ifadə etməməsini, hər hansı bir sinonim cərgəyə mənsub olan sözlərin incə üslub və məna fərqləri daşıması fikrinə şərik olan dilçi alimlərimizdən bir digəri də N.Məmmədovdur. Alim hesab edir ki, sinonim sözlər nə qədər yaxın mənalar bildirsələr də, onların hamısını eyni mətn daxilində işlətmək mümkün deyil : " Əgər bir-biri ilə sinonim olan sözlər tamamilə eyni mənanı ifadə etsə idi, onda gərək həmin sözlərin hamısını eyni mətn daxilində işlətmək mümkün ola idi. Halbuki, bu həmişə mümkün olmur" deyə yazan müəllif fikrini daha aydın etmək üçün **dünya-cahan-kainat-aləm; yol - cığır** sinonim cərgələrindəki sözlərin eyni mətn daxilindəki münasibətlərini nümunə göstərir , dünya və ya cahan müharibəsi ifadəsini deyə bildiyimiz halda, kainat və ya aləm müharibəsi ifadəsini işlətməyin mümkün olmadığını; yorucu yol, şosse yolu, dəmir yolu və s.bu kimi ifadələrin düzgün səslədiyi halda, yorucu cığır, şosse cığırı, dəmir cığırı kimi ifadələrin məntiqsiz səslənməsini haqlı olaraq qeyd edir [10, 163]

Onu da qeyd edək ki, sinonim cərgəni yaradan sözlərin eyni bir nitq hissəsinə məxsus olub, eyni qrammatik formada olması şərti azərbaycan dilçilərinin bir qismi tərəfindən sözlərin sinonim qismində tanınması üçün irəli sürülmüş meyarlardan növbəti biri kimi göstərildiyi [1, 3, 4,12, 15] halda, ingilis dilçiliyindən olan ədəbiyyatlarda bu meyar bir o qədər də vurğulanmır [17, 18, 20, 21].

Müxtəlif dilçilərin sinonim semasioloji söz qrupu haqqında (istər bu dil faktının ümumi təsviri, istər onun təyini meyarları, istər funksiyası və s. cəhətdən) qeyd etdiyimiz çoxsaylı və müxtəlif fikirlərindən biz belə nəticə hasil edirik ki, hər hansı bir dilçi alimin bu problemlə bağlı tutduğu bu və ya digər mövqe onun məsələyə yanaşma prizmasından asılıdır. Bu mənada" Ərəb ədəbi dilində sinonimiya" adlı dissertasiya işinin müəllifi Mahmudova Gülnur da haqlı olaraq qeyd edir ki, " dilçi alimin leksikologiyada tutduğu bu və ya digər mövqeyi onun

söz qrupunun differensiyasında qəbul etdiyi meyarların məcmusundan asılıdır" [9, 30].

Məqalədə qaldırılmış məsələ ilə bağlı, təbii ki, onlarca bu kimi müəlliflərin fikir və münasibətlərini əlavə etməklə mövzunu davam etdirmək mümkündür. Lakin bizə elə gəlir ki, bunu məqalədən daha iri həcmli elmi araşdırma işlərinin mövzusu qismində yerinə yetirmək daha məqsədəuyğun olar. Bu səbəbdən də semasioloji söz qruplarında sinonimlərin təyini **kriteriyaları** haqqında müxtəlif qaynaqlardan topladığımız fikirlər ətrafında ümumiləşmələr apararaq onları aşağıdakı şəkildə yekunlaşdırmaq istərdik:

1. Sinonim sözlər dildə müxtəlif fonetik formada, qəlibdə olurlar.

2. Sinonim sözlər eyni bir məfhumu, ya eyni, ya da oxşar mənalar ilə ifadə edirlər.

3. Hər hansı bir sinonim cərgəni yaradan sözlər müxtəlif incəliklərlə (məna çaları, üslubu, ekspressivlik dərəcəsi, strukturu və s. baxımdan) bir-birindən fərqlənirlər.

4. Sinonim sözlər eyni bir nitq hissəsinə məxsus olub, nitq prosesində eyni qrammatik funksiyada çıxış edirlər .

5. Sinonim sözlər müəyyən kontekslərdə biri - birini əvəz edə bilirlər, başqa sözlə desək, nisbi əvəzlənmə xüsusiyyətinə malikdirlər.

İstifadə edilmiş ədəbiyyat

Azərbaycan dilində :

1. Cəfərov S.Ə. Müasir Azərbaycan dili. Leksika. Bakı: Maarif, 1982, 214s.

2. Dəmirçizadə Ə.M. Azərbaycan dilinin üslubiyyatı. Bakı: Azərtədrisnəşr, 1962, 271s. səh

3. Həsənov H.Ə. Müasir Azərbaycan dilinin leksikası. Bakı: Maarif, 1988, 306s

4. Hüseynzadə M. Müasir Azərbaycan dili. Bakı: Maarif, 1973, 388 s.

5. Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı: Nurlan, 2008, 442s.

6. Quliyeva M.M Azərbaycan dilində eyniköklü sinonimlər: ND. Bakı, 1994, 197s. səh 10)

7. Qurbanov A.M. Ümumi dilçilik 2 cilddə. I cild, Bakı: Maarif , 1989, 567 s.

8. Qurbanov A.M. Müasir Azərbaycan Ədəbi dili. Bakı: Maarif, 1985, 405s.

9. Mahmudova G. Y. Ərəb ədəbi dilində sinonimiya. ND. Bakı: BDU, 2005 , 158s.

10. Məmmədov N. N. Azərbaycan dilçiliyinin nəzəri əsasları. Bakı: Maarif, 1971, 367s.

11. Mustafayeva Q.H. Azərbaycan dilinin üslubiyyatı. Bakı: Elm, 2010, 388s.

12. Müasir Azərbaycan Dili, 3 cilddə, I cild, Bakı: Elm 1978, 322s.

13.Rzazadə M. Vaqifin qoşmalarında sinonimlər. V.İ.Lenin adına Az.Pedaqoji İnstitutunun əsərləri, Bakı, 1961, XIX cild, ...s;.

14. Şabanov R. M. Azərbaycan dili terminologiyasında sinonimlik problemi: ND. Bakı, ADDİ, 192s.

15. Verdiyeva Z.N. Azərbaycan dilində leksik sinonimlik. Bakı: APİ 1988, 60s.

İngilis dilində:

16. Antal, L., Notes on Truth, Meaning and Synonymyty, in "Linguistics", 15/1965,

17. Antrushina G.B., Afanasyeva O.V., Morozova N.N. English Lexicology. M., 2004, 288p.

18. Hajıyeva A. English Lexicology. Bakı: Elm və təhsil, 2011, 248s

19. L.Claudia, Theoretical accounts upon synonymy . University of Oradea, 25p.

20. R. S. Ginzburg , S. S. Khidekel,G. Y. Knyazeva, A. A. Sankin A course in modern English Lexicology, 2-nd edition, Moscow: Vysšaja Škola, 1979, 262p.

Rus dilində:

21. Арнольд И. В. Лексикология современного английского языка. 3-е изд., М.: Высшая школа., 1986, 295с.

22. Брагина А.А. Синонимы в литературном языке. Москва: Наука, 1986, 126с.

23. Шмелёв Д.Н. Современный русский язык. Лексика. Москва: Просвещение, 1977, 335с.

Mirvari Gasimova

The basic criteria applied to the definition of synonyms in semasiological word qroups.

Summary

The article introduces one of the most referred, investigated and not yet entirely settled problems of linguistics - the semasiological word qroups, namely, synonyms. The basic criteria such as the citerion of identity or similarity, the criterion of interchangeability, the criterion of semantic difference etc. applied to the definition of words having similiar or identical meaning in certain or different contexts forms the main point of the article and is tried to be enlightened on the basis of different Azerbaijani, English and Russian sources. At the end the author has given her conclusion over the reffered materials and investigated problem.

Мирвари Касимова

Об определении критерии синонимов в семасиологических группах слов

Резюме

В статье рассматриваются семасиологические группы слов синонимов, которые являются одним из древних, спорных, трудных и одновременно ин-

тересных проблем. Тут отмечается также, что языковеды в своих исследованиях на данную проблему всегда уделяли большое внимание, но, к сожалению, этот вопрос по сей день остается не полностью решенным, т.е. открытым. В статье затрагивается как к синонимам, также и к его критериям определения. Заключительные выводы и мысли связанные с поставленной темой обосновываются ссылками на различные источники, существующие в азербайджанском, английском и русском языках.

Rəyçi: B.Q.Hüseynov
Professor

NÜŞABƏ İSMAYILOVA
ADPU

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ MƏTNDAXİLİ CÜMLƏLƏR ARASINDA ƏVƏZLİYİN ROLU

Açar sözlər: mətn, əvəzlik, əlaqə, məlumat.
Key words: text, pronoun, connection, information.
Ключевые слова: текст, местоимение, связь, информация.

Mətn yaradan dilçilik faktorlarından biri də mətndaxili əlaqə vasitələridir. Bu vasitələr hər bir dildə çoxsaylı olduğu kimi, dünya dillərində də həm çoxsaylı, həm də çoxcəhətlidir.

Müstəqil cümlələrin özləri cümlədaxili əlaqə vasitələrinə malik olduğu kimi, mətni təşkil edən cümlələr arasında da müxtəlif əlaqə vasitələri mövcud olur. Bu əlaqə vasitələri hər bir dilin konkret qrammatik quruluşundan asılıdır.

Tipoloji cəhətdən flektiv dillər qrupuna daxil olan ingilis dilinin də özünəməxsus mətnyaradan vasitələri vardır.

Azərbaycan dilində mətnə daxil olan cümlələr arasında əlaqə yaratmaq üçün bir sıra başqa vasitələrdən də istifadə edilir. Bu vasitələr arasında əsas nitq hissələri mühüm yer tutur.

İngilis dilində əvəzliklərin mətnlərin yaranmasında rolunu aşağıdakı kimi qruplaşdırmaq olar. 1. Əvəzlik semantik kateqoriyanı təmsil edir və o, sözlər arasında deyil, cümlələr arasında əlaqələri şərtləndirir. 2. Əvəzlik məlum olanı bildirir. 3. Əvəzlik həm anaforik (əvvəlki cümləyə bağlılıq), həm də kataforik (sonrakı cümləyə bağlılıq), funksiyalarını yerinə yetirir.

4. Əvəzlik yalnız statik (donuq) deyil, həmçinin dinamik (dəyişkən) funksiyanı da yerinə yetirir.

Qeyd olunduğu kimi əvəzliklər müəyyən olanı bildirir, çünki o artıq müəyyən olanı əvəz edir. Buna görə də dinləyənin (oxucunun) işarə edilən predmet haqqında artıq müəyyən məlumatı var. Məs:. The gong sounded, and putting her white arm within his, Irene took him into the dining- room. She seated him in Soame`s usual place, round the corner on her left. [8, s95]

ölüm demək olar ki, bütün dünya dillərində işlədilən bir ifadədir.İngilis dilini zənginləşdirən frazeologizmlər arasında Şekspirin əsərlərində işlənənlər İncildən (Tövrat) sonra ikinci yerdə gedir.İngilis dilində geniş yayılmış bu frazeologizmlər şekspirizmlər adlandırılır. XVI əsrdə yazıb yaratmış V. Şekspir haqqında bugünə kimi nə qədər tədqiqat işləri yazılsa da, onun yaradıcılığı tam tədqiq olunmamış, xüsusilə də frazeologiyaya verdiyi töhfələr hələ də frazeoloji lüğətlərdə öz əksini tapmamışdır.

V.Şekspir dilinin lüğət tərkibi sosial-ictimai həyatın bütün sahələrini əhatə edir : adətlər,geyim , idman və oyunlar, musiqi,incəsənət,hərbi ifadələr,qanun, təbiət hadisələri- bütün bunlar Şekspirin dilində öz əksini tapır.Onlara misal olaraq aşağıdakı frazeologizmləri göstərmək olar.

"Macbeth" əsərindən : the sear, the yellow leaf- ahıl yaş ; full of sound and fury - mənasız hay-küylü nitq ; the milk of human kindness - gözəl qəlbin balzamı (mərhəmət) ; at one fell swoop - bir zərbə ilə, bir anda;to screw one`s courage to the sticking place - cəsarət etmək, ürəklənmək ;to cudgel one`s brains- baş sındırmaq .

"Hamlet" əsərindəki bəzi nümunələrə nəzər salaq : Stars with trains of fire – kometa; the god of day - günəş ; our sometime sister – hər vaxt bizə bacı olmayan kəs (yəni bizə ürəyi yanmayan) ; unvalued persons - adi adamlar ; to be or not to be –olum ya ölüm ; that is the question - məsələ budur ; crook the pregnant hinges of the knee - yaltaqlanmaq, varlı və vəzifəli adamların qarşısında diz çökmək ; wandering stars – planetlər ; our withers are unwrung – vecimə deyil ; something is rotten in the state of Denmark – nəsə elə deyil ; to shuffle off (this mortal cail)- fani dünyanı tərk etmək, ölmək; germane to the matter - mətləbə keçin;a towering passion - qəzəb; in the mind`s eye xəyalən; to the top of one`s bent - doyunca, ürəyin istədiyi qədər və s.

"Othello" əsərindən :knew-crooking - itaətli, əyilən ; to wear one's heart upon one's sleeve - açıq qəlbli, ürəyi açıq ; it is silliness to live when to live is torment and then have we a prescription to die when death is our physician - Həyat əzablıdırsa, yaşamaq axmaqlıqdır, belə halda ölüm bizim dərmanımızdır (həkimimizdir) ;to put one's tongue in one's heart - dili qarnında olmaq, çox danışmamaq ; her eye must be fed - gözü doymalıdır ; a closet-lock-and-key - sirr saxlaya bilən adam ; the green-eyed monster – qisqanclıq ;the seamy side - bir şeyin tərsi, görünməyən tərəf ;the seam side - xoşagəlməyən tərəf, bir şeyin iç üzü;the pity of it!- "çox heyf! " və s..

"King Henry IV" (KRAL IV HENRİ) əsərindən : to eat somebody out of house and home - bir kəsin hesabına yaşayaraq onu müflis etmək ; the wish is father to the thought - istədiklərinə inanmaq, arzudan istək yaranır ; the better part of valour is discretion - cəsarətin bəzəyinin biri təvəzökarlıqdır.

"Twelfth Night" (On İkinci Gecə) əsərindən : cakes and ale - şənlik, həyatdan zövq almaq ; as good as one's word –sözünə sadiq, sözünün ağası ; midsummer madness - tam ağılsızlıq **.**

Bundan əlavə, Şekspirin başqa əsərlərində işlənən aşağıdakı ifadələr də şekspirizmlər adlanır: to gild refined gold–boş şeyə vaxt sərf etmək (King John); how the world wags? (goes)- işlər necə gedir?; (As You Like It) ;in good set terms- qətiyyətlə; (As You Like It) ; fancy free - qəlbi boş (Midsummer Night's Dream);good men and true - düzgün, vicdanlı, dürüst insanlar (Much Ado About Nothing); a fool's paradise - xəyal dünyası (Romeo an Juilet); an inching palm -

tamahkar,pul həvəskarı olmaq (Julius Caesar); to one's heart's content - istədiyin qədər (*The Merchant of Venice, Henry VI*) ; care killed a cat - qayğı insanı qocaldir (Much Ado About Nothing) ;paint the lily - lazım olmayan iş görmək (*King John*) ;single blessedness - subaylığın sultanlığı (A Midsummer Night's Dream) ; thereby hangs a tale - uzun əhvalatdir (*As You Like It).*

Yazıçının əsərlərindəki frazeologizmlərin əksəriyyətinin tərkibində arxaizmlər və ya köhnəlmiş sözlər var. Məsələn: from whose bourne no traveler returns "o dünya" bu frazeologizmdəki "bourne" sözü arxaizmdir və mənası sərhəd deməkdir. Hal-hazırda bu sözdən müasir ingilis dilində istifadə olunmur. Bu arxaizm yalnız yuxarıda göstərdiyimiz frazeologizmin tərkibində işlənir.

Bəzi şekspirizmlər zaman keçdikcə dəyişdirilmiş və ingilis dilinin lüğət fonduna müasir formada daxil edilmişdir. Məsələn: at one fell swoop (Macbeth) "bir dəqiqədə" frazeologizmi qismən dəyişdirilmiş və bu frazeologizm müasir ingilis dilinin lüğət fonduna "at one swoop" formasında daxil edilmişdir.

To wear one's heart upon one's sleeve for day to pack it "hisslərini gizlətməmək" frazeologizmi müasir ingilis dilində "to wear one's heart upon one's sleeve" formasında istifadə olunur.

but first let me tell ye, if ye should lead her into
a fool's paradise, as they say, it were a very gross
kind of behavior, as they say: for the gentlewoman
is young; and, therefore, if you should deal double
with her, truly it were an ill thing to be offered
to any gentlewoman, and very weak dealing.

- Disasters in the Sun – günəşin tutulması

İfadə Şekspirin "Hamlet" əsərindən götürülmüşdür.

In the most high and palmy state of Rome,
A little ere the mightiest Julius fell,
The graves stood tenantless, and the sheeted dead
Did squeak and gibber in the Roman streets;
As stars with trains of fire, and dews of blood,
Disasters in the sun; and the moist star
Upon whose influence Neptune's empire stands
Was sick almost to doomsday with eclipse.

- to wear one's heart upon one's sleeve - açıq qəlbli, ürəyi açıq

Bu frazeoloji birləşmə V. Şekspirin "Otello" (1604) əsərindən götürülmüşdür. İfadə Iago obrazının dilindən verilmişdir.

IAGO:
It is as sure as you are Roderigo,
Were I the Moor, I would not be Iago:
In following him, I follow but myself;
Heaven is my judge, not I for love and duty,
But seeming so, for my peculiar end:
For when my outward action doth demonstrate
The native act and figure of my heart
In compliment extern, 'tis not long after

But I will wear my heart upon my sleeve
For daws to peck at: I am not what I am.

V. Şekspir yuxarıda göstərdiyimiz frazeologizmlərlə öz fikrini çox yığcam, aydın və obrazlı ifadə etmişdir. Şekspirizmlərin obrazların dilindən verilməsinə nümunə olaraq bu ifadələrin kontekst daxilində işlədilməsinə dair bir neçə nümunələrə nəzər salmaq məqsədəuyğundur:

A rose by any other name would smell as sweet- qızıl gülü necə adlandırsanda o həmişəki ətrini verəcək.Bu frazeoloji birləşmə Şekspirin "Romeo və Cülyetta" (1600) əsərindən götürülmüşdür.

Juliet :What's in a name? that which we call a rose.
By any other name would smell as sweet ;
So Romeo would, were he not Romeo call'd,
Retain that dear perfection which he owes …

-All that glitters is not gold – hər parlayan qızıl deyil

Bu ifadə Şekspirin "Venesiya Taciri" (1596) əsərindən götürülmüşdür. Frazeoloji birləşmə əsərdə Morocco xarakterinin dilindən verilmişdir.

MOROCCO:
O hell! what have we here?
A carrion Death, within whose empty eye
There is a written scroll! I'll read the writing.
All that glitters is not gold;
Often have you heard that told:
Many a man his life hath sold
But my outside to behold…

Salad Days – Gənclik dövrü, ömrün təcrübəsiz çağları .Bu, Şekspirin əsərlərində istifadə etdiyi ən məşhur ifadələrdən biridir. Salad Days ifadəsinə Şekspirdən sonra bir sıra bədii əsərlərdə də rast gəlinmişdir. İfadə V. Şekspirin "Antonius and Cleopatra" (1606) əsərindən götürülmüşdür.

CLEOPATRA: My salad days,
When I was green in judgement: cold in blood,
To say as I said then! But, come, away;
Get me ink and paper…

To be or not to be, that is a question- olum ya ölüm .Bu ifadə Şekspirin "Hamlet" əsərində, Hamlet obrazının dilindən verilmişdir. To be or not to be ifadəsi Şekspirin ən məhşur frazeoloji birləşmələrindən biridir və müxtəlif dillərə tərcümə olunmaqla başqa əsərlərdə istifadə olunmuşdur.

To be, or not to be: that is the question:
Whether 'tis nobler in the mind to suffer
The slings and arrows of outrageous fortune,
Or to take arms against a sea of troubles,
And by opposing end them? To die: to sleep…

All's well that ends well - Təki hər şey yaxşı qurtarsın

Bu ifadə də Şekspirin məşhur şekspirizmlərdən biridir. Lakin Şekspirdən əvvəl bu ifadə atalar sözü kimi mövcud olmuşdur. 1546-cı ildə John Heywood bu atalar sözündən istifadə etmişdir. Şekspir Heywood-un əsərləri ilə yaxından tanış idi

və 1601-ci ildə "All's Well That Ends Well" pyesini yazdı. Bu ifadə Şekspirin pyesində istifadə olunmaqla yanaşı həmdə pyesin adı kimi işlənmişdir. Əsərin daxilində ifadə Helena obrazının dilindən verilmişdir.

HELENA:
Yet, I pray you:
But with the word the time will bring on summer,
When briers shall have leaves as well as thorns,
And be as sweet as sharp. We must away;
Our wagon is prepared, and time revives us:
All's well that ends well; still the fine's the crown;
Whate'er the course, the end is the renown

İngilis dili frazeologiyasının zənginləşməsində Şekspirizmlərin rolu böyük əhəmiyyət kəsb edir. Bu frazeoloji birləşmələrə yazıçının faciə və komediyaları ilə bərabər sonetlərində də rast gəlmək olar. Tədqiqat zamanı Şekspirin əsərlərində rast gəlinən frazeoloji birləşmələrin bəzilərinin arxaik xarakter daşıdığını müşahidə etmək mümkündür. Bu ifadələrin bəzilərinə Şekspirdən əvvəl müxtəlif əsərlərdə rast gəlinmişdir. Lakin Şekspir bu frazeoloji birləşmələrin bəzilərini dəyişdirməklə, kontekstin tələblərinə uyğun şəkildə istifadə etmişdir. Şekspirin əsərləri ilə tanış olduqda görürük ki, frazeoloji birləşmələr əsasən obrazların dilindən verilmişdir. Müasir ingilis dilində də şekspirizmlərin bəziləri hələ də işlənməkdədir. Bu baxımdan Şekspirin əsərlərinin dərindən tədqiqi, bu əsərlərdəki Şekspirizmlərin araşdırılaraq mənalarının açıqlanması, eləcədə bu ifadələr əsasında yeni frazeoloji lüğətlərin hazırlanması çox mühüm əhəmiyyətə malikdir.

Ədəbiyyat

1.Кунин А. Английская фразеология М.1970
2.Кунин А. Некоторые вопросы английской фразеологии М.1956
3.Arnold I The English Word M.1966
4. Hajiyeva A. English Lexicology . Baku, 2011
4.W. Shakespeare Macbeth M.1977
5. W. Shakespeare Othello M.1936
6.W. Shakespeare Hamlet M.1939
7. W. Shakespeare Romeo and Juliet M.1972

S.Sevinc

The importance of Shakespearean phrases in enriching phraseology of the English language

Summary

The vocabulary of a language is enriched not only by words but also by phraseological units. Phraseological units are word- groups that cannot be made in the process of speech , they exist in the language as ready-made units. A lot of phraseological units in English were taken from works by W. Shakespeare. Moreover he takes the second place after the Bible in number of such phrases. These units are

widely used in modern English language because W. Shakespeare enriched this language approximately by one hundred phraseological units. The author in this article investigates phraseological units taken from Shakespeare's works and which appear in the English language. The author shows that these units play an important part in modern English language making it richer and more beautiful.

С.Севиндж

Роль шекспиризмов в обогощении фразеологического состава английского языка

Резюме

Фразеологизмы и фразеологические сочетания отражают многовековую историю английского народа, своеобразие его культуры, быта, традиции. Фразеологизмы являются фигурами речи, переосмысленными оборотами, которые используются не в обычных, а в особых переносных значениях. Автор статьи исследует роль шекспиризмов в современном английском языке и приходит к заключению , что эти выражения обогатили фразеологический состав английского языка. Шекспиризмы занимают второе место после Библии в обогащении фразеологического фонда английского языка. Многие из этих выражений стали крылатыми фразами не только в английском но и в других языках. Правильная, чёткая интерпретация их значений во многом способствует воссозданию при переводе образности,стилистических, особенностей произведений написанных великим драматургом В. Шекспиром.

Rəyçi : fil.e.n. E.Hüseynova

ИРАДА ГУЛИЕВА
Д.ф.ф.н
azru_56@mail.ru

О ПЕРЕВОДЕ ЭКЗОТИЗМОВ
(НА МАТЕРИАЛЕ ПЕРЕВОДА ИСТОРИЧЕСКОГО ЖАНРА)

Açar sözlər: tarixi roman, ekzotizm, arxaizm, janr, era**.**
Ключевые слова: исторический роман, экзотизм, архаизм, жанр, эпоха.
Key words: historical novel, exoticism, archaism, genre, era.

Сама образная основа этого слова или термина предполагает, чтобы им называли вещи, предметы, явления, относящиеся к культуре народа. В широком смысле реалия – это любое явление действительности, находящее выражение в языке. В узком смысле - это специфический предмет национальной культуры, не имеющей аналогов в иных культурах.

Связь языка и культуры имеет очень глубокую подоснову. На первый взгляд никто не обращает на этот фактор внимания, поэтому исходят из обозначения общих реалий, окружающих человека и механизмом познания человеком мира, общности и универсальности механизма метафоризации. На этом основании теоретики перевода относятся к вопросу о возможности адекватного перевода оптимистически. Только небольшая группа предметов и понятий считается экзотической, связанные с ними слова, словосочетания воспринимаются, как экзотические. На этот счет существуют разные мнения о том, что экзотические слова - это обозначения экзотических реалий, которые вполне могут передаваться на другой язык или же вовсе не поддаются передаче. На наш взгляд проблема носит неоднозначное решение. На уровне слов, словосочетаний и фразеологизмов, действительно, культурный слой информации представлен очень глубоко, в виде внутренней формы, которая прочитывается читателями, знакомыми с соответствующими культурными реалиями, более того, свободно ориентирующимися в пространстве культуры текста. Это могут быть как читатели, так и переводчики. Причем в случае переводчика даже знание языка оригинала не гарантирует от ошибок, связанных с незнанием культуры. Приведем анализ некоторых экзотизмов из романа М. С. Ордубади «Меч и перо» в переводе И.А.Печенева. Так, например, экзотические названия предметов и явлений переводчик снабжает комментариями, что нам кажется верным. Например, в оригинале: «çobanlar qəbiristanlığı-буквально значит кладбище чабанов» (6). Сравним, следующий пример. Оригинал: “Şair Kəmaləddin ilə Zəhir ona yaxınlaşdılar, görüşdülər, İlyasın əlini sıxdılar. Sonra Zəhir ona sual verdi:- Təzə nə yazırdın?- Bir şey yazmaq istəyirdim, lakin hələ bitirməmişəm. Bitməyən əsər haqqında danışmağı sevmirəm, bəlkə təzə əsər haqqında fikrim də dəyişdi”(6). В переводе: «Ты, кажется, что-то писал?-спросил Захир. - Так, одно стихотворение. Но не докончил. Не люблю обсуждать незавершенные вещи» (6). В оригинале написано: “Sən, İlyas, xalqın avamlığını, təriqət və mövhumat içərisində çürüdüyünü heç də nəzərə almırsan.Cənubi və Şimali Azərbaycanın hər

kəndində yüzlərcə təriqətlər vardır. Ərəblər və İranlılar xalqın siyasi düşüncəsini çürütmək üçün minlərcə təriqətlər, məzhəblər yaratmışlar. Bu qədər müxtəlif əqidə daşıyan və bir- birini kafir bilən bir xalqı asanlıqla barışdşrmaq mümkündürmü?" (7). Слово и понятие "**təriqət**" хорошо известно в русском языке и в русской культуре. Будучи экзотизмом лексическая единица **тарикат** особенно активизировалась в связи с движением имама Шамиля на Кавказе ещё в XIX веке. И.А.Печенев пытается использовать экзотическое слово, передавая слово «кафир» словом «гяур». Но это как раз тот случай, когда более предпочтительным было бы общее слово, а именно, слово **неверные**: «В стране, где столько различных верований, и все считают друг друга **неверными**» (6). Или, например, в переводе дается предложение: «Хаджи Мюфид хитер, как шайтан», в конце страницы переводчик счел необходимым дать сноску: «шайтан – дьявол, черт»(6). По нашему мнению, в этой сноске не было необходимости, так как слово **шайтан** давным-давно вошло в толковые словари русского языка, и на сегодняшний день это слово не может даже считаться экзотизмом. Анализ русского перевода романа «Меч и перо» выявил реальность культурно-исторических лакун по нескольким уровням лакунообразования. Первый уровень - это предметный уровень, то есть существование в оригинале предмета, с культурологической точки зрения, чуждого носителю языка перевода. В этом случае естественным восполнением лакуны является объяснение значения слова в сносках. При этом само слово – экзотизм, естественно, должно сохраняться в переводе. На первый взгляд сразу бросается в глаза обилие экзотизмов, сохранение которых в переводе, как будто должно было способствовать обеспечению историко-культурного колорита переводного текста. Это непосредственно связано с недостаточно четкой продуманностью системы сохраняемых экзотизмов, которые очень часто переводчик оставляет в переводе. Однако наряду с этим переводчик нередко переводит подлинные экзотизмы, то есть заменяет историко-культурные реалии обычными словами, порой даже не передающими основного смысла словами.

Исторический жанр, как художественное воспроизведение конкретных фактов и событий со своими характерными особенностями и свойствами, обладает богатым эстетично-познавательным колоритом. Переводы исторических жанров выполняют двойную задачу. С их помощью не только популяризируется художественная литература конкретного народа, но и иноязычный читатель знакомится с его историческим прошлым. Г.Флобер справедливо говорил: «Литература - зеркало у дороги истории» (1,86).

В этом плане исторический роман в силу своих художественных особенностей представляет исключительную сложность для перевода. В историческом романе особое место занимает, например, такой лексико-семантический пласт, как историзмы, архаизмы и прочие реалии эпохи. Поскольку историзмы, в отличие от архаизмов, являются единственными названиями исчезнувших реалий они прочно забываются в народной памяти, как и сами вещи, названиями которых они являются. В силу этого они не известны и носителям языка оригинала, свободно ориентирующимся в семантическом пространстве родного языка. Большое значение при переводе

исторического произведения приобретает национально-культурная специфика языка, наслаивающаяся на исторический фон. Переводчик здесь раскрывает два уровня содержания текста, которые связаны с историческим фоном. Цель нашего исследования заключается в констатации степени передачи или соответствия исторических экзотизмов и прочих реалий Азербайджанского исторического романа на русском языке. Современное развитие теории художественного перевода требует нового научного подхода к переводам некоторых исторических произведений, в том числе и романа М.С. Ордубади «Меч и перо». Наблюдения над текстом перевода дают основание оговориться относительно целого ряда моментов перевода этого произведения. Переводчик исторического жанра неизбежно сталкивается с проблемой передачи историзмов, архаизмов, экзотизмов и прочих национально-культурных реалий. Эти элементы, как важнейшие носители культурно-исторического колорита конкретной эпохи, сопряжены с определенными трудностями для перевода. Хотелось отметить, что в разграничении понятий экзотизма и национальных реалий существуют неоднозначные мнения. Мы склонны утверждать, что не всякий экзотизм может считаться национальной реалией, а основная масса национальных реалий иностранными читателями воспринимается как экзотическое понятие. Конечно, это предмет особой темы. Исследователь иноязычных слов русского языка Е.В.Маринова отмечает, что значительная часть экзотической лексики составляют одушевленные наименования лиц (4). Ею рассматриваются традиции и новации в освоении иноязычных слов в современном русском зыке. А нас в данном случае интересует, именно, экзотичность культуры и переводческое решение экзотизмов как слов, представляющих инокультурные реалии. Экзотичность культуры, её непохожесть, с точки зрения другой культуры и ее неповторимость не могут исчезнуть с развитием науки и техники, чему можно привести примеры. В этой области возможно только одно, а именно: знакомство с инокультурными реалиями, тогда они утрачивают свой экзотический характер. Однако должно быть ясно, что все неповторимые черты оригинальной национальной культуры не могут потерять свою исключительность для другой культуры и носителей ее языка в результате развития. Эту проблему затрагивает Л.С. Бархударов, который пишет: «Опять-таки не всегда легко решить, в каком случае то или иное слово или словосочетание можно отнести к числу безэквивалентной лексики, обозначающей реалии, - окказиональный переводческий эквивалент может перейти в устойчивое словарное соответствие. Так, в русский язык проникли слова и выражения: палата общин 3-Hous of Commons, лорд хранитель печати- Lord Privy Seal, орден Подвязки –Fhe Garter, спикер-Speaker, yukend-week-end и многие другие лексичесие единицы английского происхождения, в результате чего соответствующую английскую лексику уже нельзя считать безэквивалентной относительно русского языка» (2, 95). Совсем другое дело с таким сугубо национально-культурным понятием как «лорд хранитель печати» или орден Подвязки». Ясно, что как бы ни развивался русский язык, эти понятия и соответствующие выражения останутся для понятий русского языка экзотическими. Р.Р.Замалетдинов, представитель современной татарской лингвистической школы, отмечает, что

для языкового сознания современных носителей языка часто слова лишены внутренней формы, поскольку она забылась и стерлась(3, 5). С.И. Ожегов в «Словаре русского языка» слово **экзотизм** характеризует, как «предметы и явления, характерные для какой-нибудь местности и необычные для того, кто их воспринимает» (5, 905). Само употребление Л.С.Бархударовым термина **реалия**, в целом совпадает с определением С.И.Ожегова: «Так называемые реалии, то есть слова, обозначающие предметы, понятия и ситуации, не существующие в практическом опыте людей, говорящих на другом языке» (2, 95). Как видим здесь реалией называют и слова, обозначающие экзотические предметы и сами предметы.

М.С.Ордубади использует архаизмы, азербайджанскую лексику стилистически высокого уровня, традиционные поэтизмы, даже арго представителей знати описываемой эпохи. В итоге хотелось отметить, что, во-первых, некоторые экзотизмы давно приобрели «международный» статус (типа «гяур» - the gour), не говоря уже об обширной лексике религиозно-культового характера. И это естественно, в результате интенсивных культурно-экономических и прочих связей между народами большая часть таких слов перестала быть малопонятной. Во-вторых, перевод и толкование экзотизмов и прочих национальных реалий требует от переводчика достаточно широкой филологической подготовки. В противном случае важные историко-культурные элементы изображаемой эпохи могут подвергаться подмене и искажению. В целом, конечно же перевод романа М.С.Ордубади «Меч и перо», сделанный И.А.Печеневым большой труд, который в течение более полувека познакомил не одно поколение читателей со средневековой эпохой в истории Азербайджана. Это была эпоха, когда жил и творил великий азербайджанский поэт Низами Гянджеви, сыгравший большую роль в формировании национального самосознания азербайджанского народа и подготовивший своим творчеством плодотворную почву для будущего поколения азербайджанских писателей и поэтов.

Литературы

1. Ревизов Б.Г. Творчество Флобера. М. 1995.
2. Бархударов Л.С. Язык и перевод (вопросы общей и частной теории перевода). М.: Международные отношения, 1975.
3. Замалетдинов Р.Р. и др. Татарская лингвокультурология: концепты духовного мира человека. Казань: ИПК «Бриг», 2012, 300с.
4. Маринова Е.В. Иноязычные слова в русской речи конца XX -начала XXI века: проблемы освоения и функционирования. М: Изд-о «Элпис», 2008, 496 с
5. Ожегов С.И. Словарь русского языка. М.: Русский язык, 1990.
6. Ордубади М.С. «Меч и перо». Баку. Азернешр, 1963, 627с.
7. Ordubadi M.S. “Qılınc və qələm” Bakı. Şərq-Qərb, 2005, 344c.

İ.T.Quliyeva

Ekzotizmlərin tərcüməsi haqqında
(tarixi romanın materialı əsasında)
Xülasə

Məqalədə tarixi janrların tərcüməsi zamanı ekzotizmlərin ikinci dildə verilməsində müşahidə olunan çətinliklər araşdırılır. Təhlil üçün M.C.Ordubadinin "Qılınc və qələm" romanın rus dilinə edilmiş tərcümə mətni ilə orijinal müqaisə olunur.

I.T.Guliyeva

Of translation of egotisms in historical genre
Summery

The article is dedicated to analyzing of difficulties of translation of egotisms in historical genre. In the article the original version and its translation into the Russian language « Sword and Pen» by M.S. Ordubadi is given for analyzing.

Rəyçi: f.e.n. R.Əmrahova

РЕНА АМРАХОВА
ст. преп. кафедры перевода
БСУ
rana@mail.ru

К ПЕРЕВОДУ ФРАЗЕОЛОГИЧЕСКИХ ЕДИНИЦ

Ключевые слова: фразеологизмы, особенности, семантическое богатство, значение, перевод.
Açar sözlər: frazeoloqizmlər, xüsusiyyətlər, semantik zənginliyi, məna, tərcümə.
Key -words: idioms, features, semantic richness, meaning, translation.

Начало научной разработки русской фразеологии как самостоятельной лингвистической дисциплины было положено известными трудами академика В.В.Виноградова. Классификация, предложенная В.В.Виноградовым, предусматривает, помимо свободных сочетаний, три основных типа фразеологических единиц: фразеологические сращения, фразеологические единства и фразеологические (несвободные, т.е. устойчивые) сочетания (2).

Б.А.Ларин в основу классификации фразеологизмов положил исторический принцип трех основных этапов эволюции словосочетания: а) обычные переменные словосочетания; б) устойчивые метафорические словосочетания, отчётливо выделяющиеся «наличием стереотипности, традиционности и метафорического переосмысления, отхода от первоначального значения, иносказательным применением»; в) идиоматические «неразложимые речения», т.е. фразеологические сращения, характеризующиеся «более деформированным, сокращенным, далёким от первоначального, составом (лексическим и грамматическим) и заметным ослаблением той семантической членораздельности, какая и обусловливает метафоричность» (3, 148).

В последующие годы было написано огромное количество работ, посвященных фразеологии, а также анализу фразеологического состава произведений художественной, общественно-политической, научно-популярной, художественно-документальной, мемуарной и другой литературы. Сюда же примыкают и многочисленные исследования, относящиеся к изучению стилистических функций фразеологизмов в СМИ.

Наша задача связана с переводом фразеологических единиц. Перевод фразеологических единиц представляет собой одну из самых сложных и интересных проблем, разрабатываемых в рамках современной теории перевода. Трудности перевода фразеологических единиц объясняются сложностью их семантической структуры.

Фразеологизмы в какой-то мере можно считать своеобразными «микротекстами», которые вбирают в себя разнообразные информации о предметах и явлениях. Они не только называют предметы реальной действительности, но и передают информацию о психоэмоциональном состоянии говорящего и о его эмоциональном отношении к предмету речи.

Еще М.Т.Тагиев считал, что в азербайджанском языке очень много совершенно оригинальных единиц, передача которых на русский язык представляет непреодолимую трудность.

К ним ученым относились yeriniz məlum, sözünün arxasında əzizin dursun,

При подборе фразеологических эквивалентов сохраняется весь комплекс значений переводимой единицы. В этом случае в переводящем языке имеется образный фразеологизм, совпадающий по всем параметрам (т.е. планом выражения и планом содержания) с фразеологической единицей оригинала: «odla oynamaq – играть с огнём – to play with fire».

Таких фразеологических единиц сравнительно мало. Чаще всего они обнаруживаются у так называемых интернациональных фразеологизмов, заимствованных обоими языками из какого-нибудь третьего, главным образом, латинского или греческого: «The hill of Achilles – Ахиллесова пята – Axillesin dabanı», «The sword of Damocles – Дамоклов меч – Damokl qılıncı».

При подборе аналога форма (план выражения) меняется, но содержание или смысл сохраняется: Водить за нос – başına ip salmaq – to fool somebody. Практика показывает, что дословный перевод или калькирование встречаются в двух случаях. В первом случае, когда переводчик не находит соответствующего фразеологического эквивалента (типа «əli aşağı düşmək» или «qabağından yeməyən»).

Во втором случае переводчик воспринимает фразеологическую единицу как обычное сочетание слов «Yerinə gecələr elə bil köz dolur, sabaha kimi yata bilmirəm» - «В постели-то словно угли горячие насыпаны, до утра заснуть не могу» (Ю.В.Чеменземенли «В крови»).

В художественном переводе по сравнению с другими способами широкое применение имеет подбор аналогов. Во-первых, из-за расхождения языковых систем исходного и переводящего текстов полное совпадение форм и содержания фразеологизмов встречается не часто.

Во-вторых, такой подход способствует сохранению характерных выразительных способностей конкретного языка с одной стороны, манеры владения словом автора – с другой: «Göydəki durnadansa hindəki toyuq sərfəlidir» - «Лучше синица в руках, чем журавль в небе» - «A bird in the hands is worth in the bush».

Фразеологизмы, как функционально целостные единицы, характеризуются воспроизводимостью в готовом виде в форме сочетания слов. Фразеологические единицы заполняют лакуны в лексической системе языка, которая своеобразно может обеспечить наименование познанных человеком некоторых сторон действительности, и во многих случаях являются единственными обозначениями предметов, свойств, процессов, состояний, ситуаций и т.п.

В отличие от свободных словосочетаний, значения которых составляются из значений входящих в него компонентов, фразеологические единицы представляют собой сочетания, компоненты которых настолько семантически друг с другом связаны, что значение целого не выводится из совокупности значений, входящих в него частей. В этом состоит идиоматичность фразеологических единиц, воспроизводимых в речи как готовые образования.

Во фразеологизмах выражается душа народа, его национальное своеобразие, отличающее его от других народов. Фразеологические единицы отличают семантическое богатство, образность, лаконичность и яркость. Вместе с тем в языке они сохранили в себе реликты, отголоски древних обычаев и верований народа.

Впервые в начале XX века к систематизации фразеологизмов обратился выдающийся швейцарский лингвист Шарль Балли в своей книге «Французская стилистика».

Автор установил двоякого рода воспроизводимость закреплённых в языке сочетаний: фразеологических единиц, обладающих идиоматичностью, т.е. невыводимостью значений целого сочетания из значений, составляющих его слов и фразеологических групп, реализующих нормативно-узуальные ограничения в сочетаемости слов (1).

Б.А.Ларин, характеризуя эволюцию словосочетаний, отмечал закономерность их перехода «от частного к общему, от конкретного – единичного к типично-обобщенному…» (4, 146). Иначе говоря, переводчик должен хорошо знать пути развития фразеологических сочетаний в языке оригинала, в противном случае он может нивелировать образно – стилистические особенности этих выражений. В этой связи первым долгом надо фразеологические обороты отграничить от слов и свободных сочетаний слов.

Н.М.Шанский называет их «фразеологическими выражениями коммуникативного характера» (7, 63). Однако, наблюдения показывают, что здесь переводчик иногда может легко ошибиться.

По справедливому замечанию В.Н.Комиссарова, учёт эмоциональных и стилистических фразеологизмов требует чуткости. Например, английское «Jack on the trades» и «мастер на все руки» оба относятся к человеку, который может заниматься всякими делами.

Русская идиома не является фразеологическим аналогом английской, поскольку у них не совпадают эмоциональные значения. По-русски это, действительно, мастер, умелец в положительном смысле, а по-английски это master of none, то есть неумеха, портящий все, за что берётся. К сказанному следует добавить ещё и факты стилистической равноценности и неравноценности.

Sizdən yaxşi olmasın (5, 7). Наблюдения показывают, что при переводе фразеологических единиц перед переводчиком стоят две основные задачи:

1) строгое соблюдение норм сочетания слов в переводящем языке («мутить воду» - suyu bulandırmaq);

2) передача образности фразеологизмов («внять голосу рассудка» - «ağıllı məsləhətə qulaq asmaq»).

Но достичь этих задач не всегда удаётся, так как в процессе перевода мы сталкиваемся со многими трудностями, такими как сходство фразеологизмов со свободными сочетаниями, ассоциативная схожесть фразеологизмов и многозначностью фразеологизмов («Daş atıb başını tutur» - «сам бьёт, сам и караул кричит»). В другом случае имеет значение «Daş atıb başını tutmaq», т.е. «and-aman eləmək» - стараться всячески доказать свою непричастность.

В практике перевода для решения этих проблем встречаются следующие способы: способ подбора фразеологического эквивалента, способ выбора аналога, дословный перевод или калькирование и описательный перевод фразеологизмов. Как известно, фразеологическая картина мира является отражением особенностей восприятия каждого народа и обусловлена экстралингвистическими факторами, в числе которых на первом месте стоит история, культура, образ жизни, традиции и обычаи, стереотипы мышления разных народов. Отметим высказывание Р.Х.Хайруллиной по этому поводу: «Фразеология языка отражает опыт когнитивно - оценочной деятельности народа, систему взглядов на мир, вследствие чего основными аспектами описания фразеологической картины мира следует считать философский, логический и аксиологический аспекты» (6 , 240).

Таким образом, сопоставительная характеристика фразеологизмов в разных языках в их структурах лексико-семантических компонентов в целом имеет гораздо больше расхождений, чем сходства. Свидетельством тому является специфика каждого языка, на что переводчик должен обратить пристальное внимание. Вместе с тем, он обязан владеть всеми нюансами фразеологизмов исходного и переводящего языков.

Литература

1. Балли Ш. Французская стилистика. М., 1961.
2. Виноградов В.В. Избранные труды. Лексикология и лексикография. М., 1977.
3. Комиссаров В.Н. Теория перевода. М., 1990.
4. Ларин Б.А. История русского языка и общего языкознания. М., Просвещение, 1977.
5. Тагиев М.Т. Русско-азербайджанский фразеологический словарь, Баку, Мутарджим, 2006.
6. Хайруллина Р.Х. Фразеологическая картина мира: от мировидения к миропониманию. Уфа: Изд-о Башкир. Ун-та, 2000.
7. Шанский Н.М. Фразеология современного русского языка. М., Высшая школа, 1985.

R.F.Əmrahova

Frazeoloji vahidlərin tərcüməsi haqqında

Xülasə

Məqalədə V.V.Vinoqradovun və B.A.Larinin frazeoloji vahidlərin təsnifatlarından söhbət açılır. Həmçinin, burada frazeoloji vahidlərin tərcümə xüsusiyyətləri araşdırılır. Tərcümə prosesində tədbiq olunan üsullar və nəticədə alınan adekvatlıq növləri sadalanır.

R.F.Amrachova

About the translation of phraseologisms

Summary

The article refers to classification of phraseological units of V.V.Vinogradov and B. A. Larin's. Also, here investigated the translation features of phraseological units. There are listed the methods applied in the process of translating and types adequacy resulting.

Rəyçi: доктор фил. по филол. наукам И.Т.Гулиева

JALƏ ABDULLAYEVA
ADU
E-mail: anarium@yahoo.com

ALMAN DİLİNDƏ ALINMA SÖZLƏR

Açar sözlər: alınma sözlər, dil, assimilyasiya, mənşə, əlaqə, inkişaf
Ключевые слова: заимствованные слова, язык, ассимиляция, происхождение, связь, развитие
Key -words: received words, language, assimilation, origin, communication, progress

Məlum olduğu kimi mənşəyinə görə alman sözləri üç əsas qrupa ayrılır:

1. Hind-avropa mənşəli sözlər: Vater, Schnee, Herz, Wolf
2. German mənşəli sözlər: Luft, geben, Nadel, reif
3. Müxtəlif dillərdən keçmə sözlər yəni alınma sözlər

Bildiyimiz kimi hər bir dilin inkişaf tarixində alınma sözlərə rast gəlinir. Tarixən bütün xalqlar iqtisadi-siyasi, ictimai-mədəni əlaqələrlə bir-birinə bağlı olmuş, bu da dillərin qarşılıqlı təsirinə aparmışdır. Elə bir ölkə yoxdur ki, digər ölkələrdən ayrı, tamamilə təcrid olunmuş vəziyyətdə inkişaf etsin. Zaman-zaman alman dili xarici sözlərin axınına məruz qalmışdır. Yad elementlərin dilə daxil olması prosesi ya qalib xalqın leksikasının üstünlüyü ilə ya da məğlub xalqın və ya xalqların bir-birinə olan münasibətinin nəticəsi kimi özünü göstərirdi.

Alınmalar alman dilinə ya şifahi, ya da yazılı yolla daxil olurdular. Ən qədim yol hesab olunan şifahi yol vasitəsilə sözlər ağızdan-ağıza keçirdilər. Yazılı dilin yaranması ikinci yolun meydana gəlməsinə səbəb oldu. Adətən sözlər onları ifadə edən əşya və hadisələrlə birlikdə mənimsənilirdi.

Alman dilinin lüğət tərkibinin alınma sözlər vasitəsilə zənginləşməsi ilk növbədə tarixi faktlarla bağlı idi. Kelt elementləri alman dilinə daxil olurdu. Bu elementlərlə yanaşı digər dillərin elementlərinin də alman dilinə daxil olmasının başlıca səbəbi isə alman nəsillərinin bu günkü ərazilərinə köçənədək orada digər tayfaların məskunlaşması ilə bağlı idi. O, dövrdə irqlər həm bir-birini əvəz edir, həm də qismən bir-birinə qarışırdılar. Alman tayfaları uzun tarixi inkişaf prosesində formalaşırdı. Tarixi münasibətlər müəyyən kelt sözlərinin qədim alman dilinin dialektlərinə daxil olmasına gətirib çıxarırdı. Bu sözlərin bir qismi müasir alman dilinin lüğət tərkibində də qalmaqdadır. Buraya əsasən kənd təsərrüfatı, hərbi sahə üzrə və s. istifadə olunan sözlər daxildir. Bəzi xüsusi isimlər, həmçinin yer adları böyük ehtimalla kelt mənşəlidir.

Məsələn: Dagmar (kelt. Dagomaros), Worms və s.

B.e. I yüzilliyində almanlar artıq roma mədəniyyəti ilə tanış olurdular. Roma mədəniyyəti ilə tanışlıq ilk əvvəl xalqlar arasındakı silahlı qarşıdurmalar, toqquşmalar gedişində, sonra isə sülh münasibətləri nəticəsində yaranırdı. Alınma sözlər roma mədəniyyətinin mükəmməlliyinin özünü biruzə verdiyi müxtəlif sahələr üzrə yayılırdı. Bu üsulla qədim germanlar çoxlu yeni sözlər əldə edirdilər:

a) Kənd təsərrüfatı sahəsində: Korb, ahd. chorb, lat. Corbis
b) Hərbi sahə üzrə: Wall, ahd. wal, lat. valum
c) İnşaat sahəsi üzrə: Pforte, ahd. pforta, lat. porta

d) Ticarət sahəsi üzrə: Markt, ahd. markat, lat. mercatus

Bizim dövrün V-VII əsrlərində Almaniyada xristanlığın geniş yayılması nəticəsində latın dilindən alman dilinə dinlə, əsasən də kilsə ayinləri ilə bağlı sözlər daxil olmuşdur.

Məsələn: Messe, ahd. missa, lat. messa

Latın dili orta əsrlərdə avropada, xüsusilə də Almaniyada əhəmiyyətli rola malik idi. O, elmin, məktəbin, kilsənin, dövlət dəftərxanasının rəsmi dili olmuşdu. Qeyd etmək lazımdır ki, o dövrdə latın dili tamamilə yazılı səciyyə daşıyırdı və ümumxalq dili funksiyasını yerinə yetirmirdi. Yalnız hakimiyyətdə olan şəxslər və onların yaxınları bu dili öyrənə və istifadə edə bilərdilər. Xalq isə öz dilində, öz dialektlərində danışırdı. Dərslər məktəblərdə latın dili üzrə aparıldığı üçün alman dilinə elmin inkişafı ilə məktəblə, tibblə bağlı sözlər daxil olurdu.

Məsələn: Tafel, ahd. tavola, lat. tabulas; Fieber, ahd. fiebar, lat. febris

XVIII əsrə qədər latın dili Almaniyada rəsmi elm dili olaraq qaldı. Bunun nəticəsində alman dilinə bir çox yeni sözlər keçdi.

Məsələn: Zensur, Autor və s.

Alman dilinə yunan dilindən də keçmə sözlər mövcuddur. Bu əsasən din, təhsil, elm sahələrini əhatə edən sözlər idi.

Məsələn: Chor, Kirche və s.

Bu gün də yeni elmi-texniki anlayışların ifadəsində yunan-latın sözlərindən istifadə olunur. Bu cür sözlərə Vitamin, Telefon və s. aid etmək olar (19-20 əsrdə yaranan).

XII-XIII əsrlərdən başlayaraq almanların slavyan dilli ölkələrə müdaxiləsi nəticəsində bəzi slavyan mənşəli sözlər də alman dilinə keçib. Bu müharibələr nəticəsində yerli əhalinin zorla germanlaşdırılması prosesi baş verirdi. Müstəmləkəçilik siyasəti başlıca olaraq şəhərləri əhatə edirdi, lakin kəndlərdəki insanlar arasında ana dilində danışanlar üstünlük təşkil edirdi.

Alman dilinin lüğət tərkibinə bir çox slavyan mənşəli sözlər də daxil olub ki, bunların sırasında yer adlarını xüsusilə vurğulamaq lazımdır.

Məsələn: Kamin, Libau, Grabow

Alman dilinin leksikasında fransız mənşəli bir çox söz var. Fransız mənşəli sözlər alman dilinə üç dövr üzrə daxil olub:

İlk dövr XI-XII əsrlərə təsadüf edir. O, zaman Fransa digər ölkələrdən saray mədəniyyəti, saray ədəbiyyatı, kulinariya mədəniyyəti, modanın çiçəklənməsi ilə seçilərək, qərbi avropada orta əsrlər feodalizminin nümunəvi ölkəsinə çevrilmişdi.

Məsələn: Preis, -frz. prix, fehlen –frz. faillir və s.

İkinci dövr XVII-XVIII əsrlərə aiddir. Fransadan gələn hər bir şey dəb hesab olunurdu, həmcinin dil də. Mütləqiyyət dövrü hesab olunan bu dövrdə Fransa yenidən qərbi avropanın aparıcı ölkəsinə çevrilmişdi. Mütləqiyyət avropasının zadəgan çevrələri fransız zadəganlarının həyatlarını, onların adət-ənənələrini, dəblərini, saray mədəniyyətlərini təqlid edirdilər. Bu da öz növbəsində qərbi avropanın hakim feodal siniflərinin aparıcı dilinə çevrilmiş fransız dilinin geniş yayılmasına səbəb olurdu. O, dövrdə fransızcadan alınma sözlər alman həyatının heç də mühüm anlayışlarını əks etdirmirdi və ya dildə artıq mövcud olan alman sözləri ilə eyni əhəmiyyətə malik idi. Bu qəbildən olan sözlər alman dili üçün önəmli deyildi, məhz

bu səbəbədən onlardan bəziləri tezliklə dildən çıxırdı. Bu cür alınmalar dili təkmilləşdirmirdi.

Məsələn: repaussieren "abschlagen"

Lakin bəzi sözlər alman dilinin lüğət tərkibində qalırdı.

Məsələn: Möbel –frz. meuble, nett –frz. net

Bura həmçinin hərbi terminologiyanı da aid etmək olar.

Məsələn: Kompanie –frz. compagnie

Fransızcadan alman dilinə sözlərin keçməsinin üçüncü mərhələsi XVIII əsrin ikinci yarısına və XIX əsrin birinci yarısına təsadüf edir. Fransada siyasi həyatın çiçəklənməsi yeni anlayışların yaranmasına səbəb olurdu. Buna uyğun olaraq revolution, republique kimi sözlər meydana gəlirdi. Alman dilində isə onlar Revolution, Republik formasında istifadə olunurdu.

Alman dilinə italyan dilindən keçmə sözlər də var ki, bunlara əsasən maliyyə, hərbi, xüsusilə də incəsənət sahələrini əhatə edən sözlər daxildir:

Musiqidə: Konzert, Sopran, Oper və s.

Memarlıqda: Fassade, Galerie və s.

Maliyyə terminalogiyası üzrə : Bank –ital. Banco

Hərbi sahə üzrə: Panzer –ital. panciera, Scharmützel –ital. scaramuzzia və s.

İlk ingilis sözləri alman dilinə XIV-XVII əsrlərdə keçmişdir. Bu alınmalar ele də böyük əksəriyyət təşkil etmir və əsasən dəniz və ticarətlə əlaqəli sözləri ehtiva edirdilər.

Məsələn: Lotse –mtlengl. loads (man), Paketboot –engl. packetboot və s.

XVIII-XIX əsrlərdə İngiltərə sənaye kapitalizminin aparıcı ölkəsinə çevrilmişdir. Ona görə də ingilis dilindən alman dilinə müxtəlif sahələr üzrə əşya və hadisələri ifadə edən bir çox söz toplanmışdı:

İdman sahəsi üzrə: Fußball, Start, Match, Rekord və s.

Sənaye, ticarət, maliyyə sahələri üzrə: Tunnel, Export, City, Banknote və s.

Elm-texnika sahələri üzrə: Spektrum, experimenlat, Evolutionstheorie və s.

Moda və kulinariya sahələri üzrə: Frack, Klub, Sweater, Pudding, Whisky və s. Yuxarıda qeyd etdiyimiz dillərdən əlavə alman dilinə az miqdarda ispan, portuqal və digər dillərdən də sözlər keçmişdir. XVII-XIX əsrlərdə almanların bu ölkələrin mədəniyyəti ilə tanışlığı, ticarət əlaqələri, coğrafi kəşflər, müxtəlif ekspedisiyalar və səyahətlər bu səpkidən olan alınmaları dilə gətirirdi. Bu yolla alman dilinə aşağıdakı sözlər keçmişdir:

İspan-portuqal mənşəli (fransız dilinin vasitəçiliyi ilə): Gitarre, Marmelade, Serenade, Lakai və s.

Iran mənşəli: Kiosk, Schach, Jasmin, Paradies və s.

Ərəb mənşəli: Atlas, Sultan, Talisman, Sofa, Zucker və s.

Türk mənşəli: Tulpe, Odaliske, Derwisch və s.

Amerikan mənşəli: Jaguar, Mais, Schokolade və s.

Hind mənşəli: Reis, Banane, Radscha və s.

Malay mənşəli: Gong, Sago, Bambus və s.

Yapon mənşəli: Kimono, Harakiri və s.

Qədim yəhudi dilindən alınma sözlər. Bunların əksəriyyəti dini səciyyə daşıyır: Hosianna, Moloch, və s.

Rus dilindən alman dilinə sözlərin keçməsindən danışarkən ilk öncə Sovetlər Birliyinin yaranması ilə əlaqədar meydana gələn sovetizmlərdən bəhs etmək lazımdır.

Məsələn: Kolchos, Sowjetwirtschaft və s.

Rus dilinin əhəmiyyəti müharibədən sonrakı dövrdə daha da artdı. Alman dilinin lüğət tərkibinə rus dilinin təsiri hər şeydən əvvəl Alman Demokratik Respublikasıının yaranması ilə bağlı idi. ADR-də yeni sosial-iqtisadi, siyasi və mədəni əlaqələr vətəndaş cəmiyyəti quruluşundan sosialist cəmiyyəti quruluşuna müvafiq tarixi keçidlə yaranmışdır. Bu da dildə yeni sözlərin meydana gəlməsi ilə ifadə olunurdu. ADR-lə SSRİ arasında bütün sahələr üzrə sıx əlaqələr mövcud idi.

Rus dilindən alman dilinə keçən sözlərin əsas xüsusiyyəti onların keçmə formasındadır. Burada əsasən tərcümə yolu ilə alınan sözləri xüsusilə vurğulamaq lazımdır. Rus dilindən 1945-ci ildən sonra keçən sözlərə misal olaraq aşağıdakıları göstərmək olar:

Neurer-новатор, örtliche Industrie-местная промышленность, Wandzeitung-стенгазета

Bundan əlavə ADR-də anglo-amerikanizmlərdən də istifadə olunurdu. Onların alman dilinə keçmə yollarını qeyd edərkən radio-televiziya verilişlərini, filmləri, və s. göstərmək olar. Anglo-amerikanizmlərin bir çoxu beynəlxalq mənalı sözlərdir.

Məsələn: Hobby, fifty-fifty, Coktail və s.

AFR-ə ABŞ-ın güclü iqtisadi-siyasi, sosial, hərbi və mədəni təsiri ingilis-amerikan lüğət tərkibinin qəbuluna səbəb oldu. Bu cür alınmaları xarakterizə edən fakt onların terminoloji leksika vasitəsilə modanı, reklamı əks etdirməsində idi. Anglo-amerikanizmlərin sırasında mürəkkəb sözlər də mövcud idi.

Məsələn: Hitparade, Jobsucher və s.

Yalnız yazılışına görə alınma söz kimi xarakterizə olunan sözlər də vardır.

Məsələn: Billiard

Alman dilində çox istifadə olunan Appetit sözü tamamilə dilə uyğunlaşmışdır, bu söz tədricən almanlaşmışdır və müasir dövrümüzdə heç də digər dilin lüğət tərkibinin bir hissəsi kimi, yəni fransız sözü kimi anlaşılmır.

-ier şəkilçisi alman dilində roman (latın və fransız) mənşəli sözlər üçün xarakterikdir. O, mənşəyinə görə alman sözdüzəldici (leksik) şəkilçisi deyil. Bu şəkilçi XII-XIII əsrlər aid bir sıra sözlər vasitəsilə almancaya fransızcadan keçmişdir.

Məsələn: turnieren – auf einem Turnier auftreten. Zaman keçdikcə bu fell mənasını itirmişdir. Lakin -ier şəkilçisi bəzi alman köklərinə əlavə olunmuşdur.

Məsələn: halbieren, stolzieren və s.

Son illər ərzində texnikanın sürətli inkişafı, radionun kəşfi sayəsində alınmaların dilə daxil olması prosesi artırdı. Bu yol uzaq ölkələrdən də yeni sözlərin alınmasını mümkün edirdi.

Bir çox yunan sözü latın dili vasitəsilə alman dilinə keçmişdir: Chor, Arzt, Planet və s. Vasitəçi rolunu bəzən iki, nadir hallar da isə hətta üç, dörd dil oynayırdı.

Məsələn: Reis sözü uzun inkişaf yolu keçmişdir. Hind dilindən fars dilinə brizivrizi, italyan riso, fransızca riz.

Müxtəlif dövrlərdə eyni bir söz bəzən bir dildən digərinə iki dəfə keçə bilərdi. Müvafiq inkişaf dövründə latın sözü olan palatium alman dilinə iki dəfə keçib. VII əsrdə Pfalz və XII əsrdə Palast formasında.

Alınmalar alman dilində dəyişilir, onlar adətən assimilyasiyaya uğrayır. Bu o deməkdir ki, onlar alman dilinin sisteminə uyğunlaşır. Fonetik assimilyasiya dedikdə biz alınma sözün dilin fonetik normalarına uyğunlaşamasını başa düşürük. O ayrı-ayrı səslərin tələffüzündəki fərqlə, vurğu, həmçinin qanuni fonetik dil xüsusiyyətləri ilə şərtləşir.

Məsələn: lat. bicarium das dt. Becher

Morfoloji assimilyasiya dedikdə alınmaların dilin morfoloji sisteminə uyğunlaşmasından söhbət gedir. Alman dilində bu özünü artiklın əlavə olunmasında, isimlərin cəmlənməsində və hallanmasında, fellərdə isə feli şəkilçilərdə göstərir.

Məsələn: lat. discus dt. der Tisch, Tisches, Tische; frz danser dt. tanzen

Orfoqrafik assimilyasiya da mövcuddur. Bu zaman alman dilinə uyğun olaraq isimlər böyük hərflərlə yazılır, xarici hərflər və hərf birləşmələri alman hərf və hərf birləşmələri ilə əvəz olunur.

Məsələn: Bureau – Büro, Chef – Schef və s. şəklinə düşür.

Assimilyasiyanın müxtəlif mərhələləri vardır:

1. Alınma sözlərin tam assimilyasiyası. Bu zaman alınma söz tədricən alman dilinin fonetik və qrammatik sisteminə tam uyğunlaşır və ümumən alman dilinin lüğət tərkibindən fərqlənmir. Bu halda tələffüz, vurğu, morfoloji forma bu sözlərin xarici mənşəli olmasını biruzə vermir.
2. Natamam assimilyasiya:

a. Elə sözlər vardır ki, yalnız vurğu sözün yad mənşəli olmasından xəbər verir. Morfoloji və orfoqrafik əlamətlərə gəldikdə sözlər bu baxımdan tam assimilyasiya olunur. Məsələn: Fabrik, Doktoren və s.

b. Bir neçə xarici dil əlamətini özündə qoruyub saxlayan sözlər də mövcuddur. Bu əlamətlərə şəkilçilər, ayrı-ayrı orfoqrafik və fonetik xüsusiyyətlər daxildir.

Məsələn: Organisation –tion

Bu halda biz digər hallara nəzərən assimilyasiyanın daha zəif dərəcəsini görürük.

c. Müəyyən hallar da var ki, tam olaraq orfoqrafik və qismən fonetik forma özünü qoruyub saxlayır, lakin morfoloji assimilyasiya gedir. Sözün xarici görünüşü burada özünü daha aydın göstərir.

Məsələn: Gentleman, Genre və s.

3. Assimilyasiya olunmayan sözlər elə sözlərdir ki, alman dilində dəyişilməz xarici quruluşlarında qalırlar.

Məsələn: ca, fortissimo və s.

Alınma sözlər dilə erkən keçibsə və dildə çox istifadə olunandırsa, həmin sözlər tez və tam assimilyasiya olunur. Bunu onunla izah etmək olar ki, tam assimilyasiya olunan sözlərin çoxu qədim alınmalardır.

Məsələn: Straße, lat. strata; Fenster lat. fenestra

Bütün alınma sözləri üç qrupa ayırmaq olar: alınma sözlər, əcnəbi sözlər və beynəlmiləl sözlər.

Alınma sözlərə tam assimilyasiya olunan və buna görə də alman dilinin lüğət tərkibinə qəbul olunan sözləri aid edirlər. Bu sözlər alman dilinin lüğət tərkibinə tam qarışan sözlərdir.

Əcnəbi sözlər dedikdə biz xarici dil mənşəyini qoruyub saxlayan və digər əlamətlərinə görə beynəlmiləl sözlərə aid edilə bilməyən sözləri başa düşürük. Bu cür sözlərin çox vaxt almanca ekvivalenti olur.

Məsələn: transpirieren – schwitzen

Bunlardan əlavə beynəmiləl sözlər də vardır. Beynəlmiləl sözlər dünyanın əksər dillərinə aid olan demək olar ki, bütün dillərdə eyni cür səslənən və eyni mənanı ifadə edən sözlərdir. Onlar hər kəs tərəfindən anlaşılır və çox istifadə olunur.

Məsələn: Algebra, Politik, Musik, Arie və s.

Bu cür sözlər müxtəlif dillərdə cuzi fonetik, orfoqrafik və morfoloji xüsusiyyətlərlə fərqlənir.

Məsələn: dt. Theater, engl. theatre, russ. театр, frz. theatre

Alınmaların xüsusi bir növünü isə kalkalaşdırılmış yəni tərcümə yolu ilə alınan alınma sözlər təşkil edir. Tərcümədən alınma sözlər dedikdə biz bilavasitə sözlərin alınmasını deyil, mümkün ola biləcək dəqiq tərcüməsini, hər hansı bir xarici dildən söz və ya söz birləşməsinin kalkalaşdırılmasını başa düşürük.

Alman dilinin tarixinin erkən dövrlərindən etibarən sözlər artıq kalkalaşdırılırdı. Qədim alman ədəbi dilində biz latın dilindən tərcümə yolu ilə alınan kifayət qədər sözə rast gəlirik.

Məsələn: Sonntag, ahd. sunnuntag - lat. dies solis (der Tag der Sonne)

Bura yalnız latıncadan tərcümələr deyil, digər dillərdən olan təcümələr də daxildir.

Məsələn: Freidenker aus dem engl. freethinker

Hal-hazırda alman dilində rus dilindən keçmə bir çox belə söz vardır.

Məsələn: Volkskünstler aus народный артист

Bu yolla alman dilinə yalnız ayrı-ayrı sözlər deyil, eyni zamanda bütöv söz birləşmələri də daxil olmuşdur.

Məsələn: öffentliche Meinung - frz. opinion publique, Held der Sowjetunion - герой советского союза

Tərcümə yolu ilə alınan sözlərin bəzilərini beynəlxalq lüğət tərkibinə aid etmək olar.

Məsələn: russ. социалистическое соревнование, dt. sozialistischer Wettbewerb, engl. socialist competition, frz. emulation socialiste

Qeyd etmək lazımdır ki, alınma sözlər alman dilinin lüğət tərkibinin zənginləşməsində məhsuldar vasitə olub və bu bu gün də belədir. Bir çox alınma sözlər dilin lüğət tərkibinə o qədər dərindən hopmuşdur ki, onlar leksikanın sabit elementinə çevrilmişdir. Müasir dövrümüzdə alman dilini alınmalarsız təsəvvür etmək qeyri-mümkündür. Bəzi istisna halları nəzərə almasaq ümumən alınma sözlər dilin inkişafında və lüğət tərkibinin zənginləşməsində əvəzsiz rola malikdir.

Ədəbiyyat

1. A.Iskos, A. Lenkowa; Deutsche Lexikologie, Leningrad, 1963, S. 90-110
2. M.D.Stepanova, I.I.Cernyseva, Lexikologie der deutschen Gegenwartssprache, Moskau, Verlag Hochschule, 1975, S. 47-75
3. X.A.Lewkowskaja, Lexikologie der deutschen Gegenwartssprache, 1968, S. 230-237
4. İnternetdən götürülmüş məlumatlar

Ж.Абдуллаева

Заимствованные слова в немецком языке

Резюме

В данной статье рассматриваются заимствованные слова в немецком языке. Сегодня сложно представить какой либо язык без этих слов. Проникновение заимствованных слов в немецкий язык в первую очередь связанна с историческими фактами. Нужна, особа отметит то что, эти слова стали наиболее употребляемыми в итоге межгосударственных отношениях в сфере политике, экономики, культуры и т.д. Несмотря на то, что немецкий язык, являться одним из германских языков временами переходили слова с таких языков как персидский, индийский, малайский и т.д. Заимствованные слова сыграли большую рол в развитие немецкого языка. Не считая некоторых исключений можно с уверенностью сказать, что заимствованные слова обогатили лексику немецкого языка.

Zhala Abdullayeva

Received words in the German language

Summary

The article is about the received words in the German language. At present, it is impossible to imagine any language without received words. Received words in German language are related to historical facts. In particular it should be noted that, these words were began used after results of interstate political, economic, cultural etc. relationship. Although German is one of the German language, sometimes some words passed to German language from Persian, Indian, Malay language. Received words played a major role in the development of the German language. We can say with assurance that, received words had enlarged and enriched German language.

Rəyçi: Aytən Bayramova
filologiya elmləri üzrə fəlsəfə doktoru

GÜLRUX HÜSEYNOVA
Gəncə Dövlət Universiteti

HEYDƏR ƏLİYEVİN NİTQİNDƏ ÜSLUBİ FİQURLAR

Açar sözlər: üslubi fiqur, inversiya**,** təkrarlar, leksisk, sintaktik təkrarlar
Ключевые слова: стилистические фигуры, инверсии, повторы, лексические, синтаксические повторы
Key words: stylistic devices, inversion, repetitions, lexical, syntactical repetitions

Böyük şəxsiyyət, dünya şöhrətli siyasətçi, müstəqil Azərbaycan dövlətinin xilaskarı, Ümummilli liderimiz Heydər Əliyevin nitqi haqqında yazmaq və onun nitqini üslubi cəhətdən təhlil etmək şərəfli və məsuliyyətlidir. Tarixdə özünün yeri olan, xüsusi missiyalar yerinə yetirmək qüdrətinə malik olan dahilər əməllərinə görə bir-birinə bənzəsələr də, onların öz yaradıcılıq üslubları və xüsusi dəst-xətləri olur. Ulu Öndər Heydər Əliyevin də orijinal yaşam tərzi olmaqla yanaşı, onda böyük dövlət adamına xas olan nadir keyfiyyətlər cəmləşmişdir. Bu nadir şəxsiyyətin fəaliyyət sferası, yaradıcılığı o qədər zəngin və geniş olmuşdur ki, onun irsinin bütün tərəflərini əhatə etmək çox çətindir.

Dünyanın bugünki ictimai-siyasi durumunda xalqımızın monolit birliyinə ehtiyac həmişəkindən də güclü duyulur. Bu birliyi, bu həmrəyliyi yaratmaq yolunda Heydər Əliyev nitqinin xüsusi yeri var. Heydər Əliyev nitqi XX əsrin sonu və XXI əsrin əvvəli üçün dünya siyasi natiqliyinə daxil olan fenomenlərdəndir. Və bu nitqin gücünü şərtləndirən bir neçə amil üzərində dayanmaq olar. Heydər Əliyev nitqinin ünsiyyət keyfiyyətlərini təmin edən və onun nitq üslubunu müəyyənləşdirən bir sıra amillər və vasitələr vardır ki, natiq bunlardan özünəməxsus bir şəkildə və sistem halında istifadə edir. Belə istifadə üsulları H. Əliyev nitqinin ünsiyyət keyfiyyətlərinin, kamilliyinin əsas şərtləri kimi diqqəti cəlb edir.

Məlum olduğu kimi, Azərbaycan dilində cümlə üzvləri dilin öz daxili təbiətindən doğan, əsrlər boyu formalaşmış qanunauyğunluqlara əsaslanan müəyyən prinsiplər üzrə sıralanır. Bu sıralanmalar ədəbi dildə norma kimi təsbit olunmuşdur. Lakin bədii ədəbiyyatda, canlı xalq danışıq dilində, ayrı-ayı natiqlərin nitqində bəzən müəyyən üslubi çalar, fikrin daha qabarıq ifadəsi və məntiqi vurğunun yeri ilə əlaqədar cümlədə söz sırası pozula bilir (inversiya). Belə hallar H. Əliyevin nitqində də müşahidə olunur. Fikrimizi əsaslandırmaq üçün konkret nümunələri nəzərdən keçirək. «Ümumiyyətlə, Cənubi Qafqazda sülhün yaranması, əməkdaşlığın inkişaf etdirilməsi, o cümlədən Qafqazda sülhün yaranması bütün ətraf dövlətlər üçün lazımdır. Azərbaycan üçün də çox lazımdır. Biz göstərmişik öz xidmətlərimizi və bundan sonra da göstərəcəyik bu sahədə.», «Natiqlər düzgün qiymət verirlər bu hadisələrə.»

Göründüyü kimi, H. Əliyevin nitqindəki inversiya adlanan üslubi fiqurun olması prezidentin nitqini daha sadə, canlı, xəlqi etmişdir.

Heydər Əliyev nitqində özünü qabarıq şəkildə göstərən, ən çox işlənən və üslubi effekt kəsb edən vasitələrdən biri də təkrarlardır. Ümumiyyətlə, dildə

geniş yayılmış təkrarların zəngin üslubi imkanları vardır. Təkrar emosional vəziyyəti ifadə etmək üçün dildə olan vasitələrin tipikləşdirilmiş ümumiləşməsidir. Təkrarlar fikrin ifadəsini emosional, təsirli edir, bu və ya digər prosesi, hadisəni diqqət mərkəzinə gətirir, daha aydın nəzərə çarpdırır. H. Əliyevin nitqlərində təkrarlar da məhz bu məqsədlər üçün işlənilmişdir.

H. Əliyevin nitqlərində, çıxışlarında, müsahibələrində müşahidə etdiyimiz təkrarlar həm leksik vahidlər, həm söz birləşmələri, həm də sintaktik vahidlər şəklində işlənilmişdir. Başqa fərdi nitq üslublarından fərqli olaraq H. Əliyevin nitqində bir inandırıcılıq gücü, sübutedici bir məntiq vardır. O, hər hansı bir fikri, problemi daha qabarıq nəzərə çarpdırmaq üçün bu fikrin ifadəsindəki əsas sözü, aparıcı sözü bir neçə dəfə leksik təkrar kimi işlədir. Fikrimizi əsaslandırmaq üçün nümunələri nəzərdən keçirək: «Azərbaycanın **müstəqilliyi** və on il **müstəqil** dövlət kimi yaşaması bizim çoxəsrlik tariximizdə ən əhəmiyyətli, ən vacib, ən dəyərli bir hadisədir. Bizim üçün, **müstəqil** Azərbaycan üçün bu 10 il asan yol olmayıbdır. Biz **müstəqil** Azərbaycanda yeni həyat qurmağa başlamışıq. **Müstəqil** Azərbaycanın demokratiya yolu ilə getməsini bəyan etmişik.» Burada təkrar edilən «müstəqil» sözünün aparıcı rolu aydınca görünür. «Müstəqil» sözü aparıcı leksik vahid kimi təkrar olunur. Bu söz nitq prosesində bir neçə dəfə işlənilməklə onun siyasi mənası və mahiyyəti şərh edilir.

H. Əliyevin nitqində daha çox diqqəti cəlb edən xüsusiyyətlərdən biri onun leksik- sintaktik təkrarlardan müxtəlif üslubi məqamlarda bacarıqla istifadə etməsidir. Qeyd etmək lazımdır ki, dilimizin ilk təşəkkül dövründən başlayaraq müasir ədəbi dilimizə kimi leksik sintaktik təkrarlar bütün üslubi çalarları ilə geniş işlənmiş, dildə möhkəmlənmişdir. Nümunələri nəzərdən keçirək: «Azərbaycanda da ağıllı bir adam olmadı ki, bunlara desin, ay kişi, sən **şairsən**, get **şairliyini** elə, **jurnalistsən**, get **jurnalistliyini** elə, **artistsən,** get **artistliyini** elə, müğənnisən, get mahnını oxu».

Bu cümlədə «şairsən şairliyini», «jurnalistsən jurnalistliyini», «artistsən artistliyini» ifadələri sintaktik təkrar nümunələridir.

Sintaktik təkrarlar da, başqa təkrar növləri kimi H. Əliyevin nitqində ifadəlilik yaratmaq məqsədi ilə işlədilir. Nitqin təsirliyini, ahəngdarlığını artıran sintaktik təkrarlardan nitqin ən həyəcanlı məqam və anlarında istifadə olunur. Güclü üslubi potensiala malik olan belə sintaktik təkrarlar H. Əliyev nitqinin səciyyəvi xüsusiyyətlərindəndir. Fikrimizi əsaslandırmaq üçün nümunələri nəzərdən keçirək: «Güman edirəm ki, bizim bu ədalətli müharibəmiz nəticə verəcək, **gün o gün** olacaq ki, Azərbaycan torpaqlarının hamısı azad olacaq, hər bir vətəndaşımız, öz evinə, obasına qayıdacaqdır.» «**Gəlin bu gün** səmimi olaq, **gəlin bu gün** açıq olaq, **heç kəs heç kəsdən** çəkinməsin, **kimin ürəyində nə** sözü **var desin**, **kimin ürəyində nə var desin**, hamısını çıxaraq, ataq ortaya, danışaq.», «Mən ölkəmizin mötəbər insanlarını, elm, mədəniyyət xadimlərini, dövlət işində namusla, şərəflə çalışaraq dövlətçiliyimizi möhkəmləndirənləri **təbrik edirəm.** Mən Azərbaycanın əsgərlərini **təbrik edirəm.** Azərbaycan Ordusunu **təbrik edirəm.** İndi Azərbaycan torpaqlarının keşiyində, səngərlərdə olan övladlarımızı **təbrik edirəm.** Mən sizin hamınızı **təbrik edirəm,** Azərbaycan xalqını **təbrik edirəm.**»

Bəzən cümlə üzvlərinin biri fikrin daha qüvvətli deyilişi, təsiri üçün dəfələrlə təkrar olunur. Bu da dinləyicilərin bütün nəzər-diqqətini cəlb etməyə,

deyilmiş fikrə onlarda tam inam yaratmağa aparıb çıxarır: Məs: «Hər bir gənc Azərbaycanın müstəqil gələcəyini təmin etmək üçün Vətəni **sevməlidir,** ölkəni **sevməlidir,** torpağı **sevməlidir,** millətimizi **sevməlidir,** xalqımızı **sevməlidir,** dilimizi **sevməlidir,** dinimizi **sevməlidir,** milli ənənələrimizi **sevməlidir!»** Göründüyü kimi, nitqdə əsas məqsəd, qayə sevməkdir. Bu cümlələrdə sintaktik təkrarlar nitqin emosionallığını, təsir gücünü daha da artırmış olur. Müqayisə etsək görərik ki, sintaktik təkrarlar nitqə üslubi çalarlar vermiş, nitqin daha qətiyyətli, əzəmətli səslənməsi imkanı yaratmışdır.

Natiqin nitqində təkrarların anafora şəklində cümlələrin əvvəlində işlənməsi daha xarakterik səciyyə daşıyır. Məs: «**Hər bir xalq üçün, hər bir millət üçün** milli azadlıqdan, müstəqillikdən şirin, əziz nemət yoxdur». «XX əsrdə dünyanın bir çox xalqları öz azadlığına, müstəqilliyinə nail oldular. **Birinci dünya müharibəsi, İkinci dünya müharibəsi** dünyanın xəritəsini tamamilə dəyişdirdi. Müstəmləkə şəraitində yaşayan onlarca xalq öz müstəqilliyini əldə etdi.»

H. Əliyevin nitqində işlənmiş sinonimik təkrarların da rolu əvəzsizdir. H. Əliyevin nitqində işlənmiş sinonimlər iki cəhətdən səciyyəvidir. Birincisi, onun bütün çıxışlarını sinonim cərgələri zənginləşdirir. İkincisi, bu sinonim cərgələrin çox ustalıqla, sözə, dilə yüksək qiymət verən bir söz sərrafının bədahətən söylədiyi özünəməxsus nitqlərində inci dənələri kimi düzülməsidir. Bu cərgələri təşkil edən sözlərin bəzisi ayrılıqda sinonim, mütləq sinonim olmasa da, bunlar H. Əliyev nitqində elə seçilib işlədilir ki, üslubi baxımdan bunların sinonim olmasına heç bir şübhə qalmır. Bu sinonim cərgələr müəllifin nitqinin leksik və üslubi cəhətdən nə qədər zəngin və mükəmməl olduğunu göstərir. H. Əliyevin nitqində işlənmiş sinonimik təkrarlara aid misallara nəzər salaq. «Azərbaycan xalqı bu proseslərdən kənarda qalmamış, nəhayət, əsrlərdən bəri bəslədiyi **ümidlərinə, arzularına** çatmış, öz müstəqilliyinə nail olmuşdur.» «… Eyni zamanda, bu müharibədə Azərbaycan xalqının **gücü, qüdrəti, qəhrəmanlığı, müdrikliyi** bir daha bütün dünyaya nümayiş etdirildi.» «Gələcək yollarınız **işıqlı, nurlu** olsun!»

Göründüyü kimi, nümunələrdə işlənilmiş ümidlər, arzular; güc, qüdrət, qəhrəmanlıq, müdriklik, işıqlı, nurlu kimi sinonimik təkrarlar nitqdə xüsusi ahəngdarlıq və axıcılıq yaratmışdır.

Ayrı-ayrı leksik vahidlərin cümlənin xəbəri vəzifəsində təkrarı və vurğunun bu təkrar olunan sözlərin üstünə düşməsi də nitqə xüsusi bir effekt verir. Heydər Əliyevin nitqlərində fel nitq hissəsi, onun ayrı-ayrı kateqoriyalarının işlənməsinin bəzi xüsusyyətləri yeni linqvistik anlamda və üslubi məqamda özünü büruzə verir. Fikrimizi sübuta yetirmək üçün felin zamanlarının işlənilməsinin konkret nümunələr əsasında nəzərdən keçirək.

Məlum olduğu kimi, fellərdə zaman kateqoriyası icra olunmuş və olunacaq bir işin icrası haqqında xəbər verilən zaman arasındakı müddəti göstərir. İş və hərəkət ya keçmiş, ya indiki, ya da gələcək zamanda icra olunur.

Heydər Əliyevin nitqində bəzən müəyyən bir fkir həm keçmiş, həm də gələcək zamanda ifadə olunur. Bu da daha çox hökm, qətilik, intensivlik, təkidlilik bildirməyə xidmət edir. «Mən özümü o hisslərin səviyyəsinə heç vaxt **salmamışam** və **salmayacağam**», «Mən sadəcə bir vətəndaş kimi də heç vaxt heç kəslə ədavət aparmaq, qisas almaq, yaxud da ki, kiməsə pislik etmək **istəməmişəm** və **istəməyəcəyəm**», «Mən bütün həyatım boyu rüşvətxorluğa qarşı mübari-

zə **aparmışam** və **aparacağam**. Mən heç vaxt şəxsi mənafe dalınca **getməmişəm**, bundan sonra da **getməyəcəyəm**. Ancaq siz də belə olmalısınız, bütün xalq da belə olmalıdır».

Bəzən isə eyni xüsusiyyət fərqli şəkildə keçmiş və indiki zamanlarda ifadə olunur. Əvvəlki cümlədə fikrini bir dəfə deməklə kifayətlənməyən natiq onu ikinci dəfə felin başqa zaman şəkilçisi ilə təkrar etməklə öz hökmünü qətiləşdirir, dinləyicidə dönməz bir inam yaradır. Məs: «Öz ürəyimdən gələn fikirləri bir daha bildirmək istəyirəm ki, hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr **etmişəm,** bu gün də fəxr **edirəm** ki, mən azərbaycanlıyam.», «Mən dəfələrlə **demişəm** və **deyirəm**: respublikamız, xalqımız ağır vəziyyətdədir».

Belə nümunələrdə dilimizin üslubi imkanlarının genişliyi və bundan istifadə edən müəllifin istedad və bacarığı sözdən bəhrələnmək məharəti xüsusi ilə diqqətə layiqdir.

Göründüyü kimi, H.Əliyevin nitqi üslubi fiqurlarla zəngindir. Təkcə, təkrarlar deyil, yuxarıda da qeyd etdiyimiz bir çox üslubi fiqurlar vardır ki, onlar çox nadir hallarda nitqdə öz əksini tapır. Belə üslubi fiqurlardan biri Klimaksdır. Nitqdəki söz və ifadələrin hər birinin özündən əvvəlkinə nisbətən semantik cəhətdən daha tam və dolğun, daha təsirli olması ilə yüksələn istiqamətdə düzülüşündən ibarət bədii fiqurdur. H. Əliyevin nitqində isə bu üslubi fiqura hər bir abzasda rast gəlmək olur. Bir məsələni də vurğulamaq istərdik ki, H.Əliyevin nitqindən söhbət gedərkən ilk növbədə onun xəlqiliyi, sadə və aydınlığı, təmizlik və dürüstlüyü, yığcamlıq və bitkinliyi, ahəngdarlıq və obrzlılığı diqqəti cəlb edir. Deməli, H.Əliyevin nitqində bədiilik, obrazlılıq da vardır. Nümunələrə baxaq. «Hörmətli qonaqlar! Sizi Azərbaycanın Dövlət Müstəqilliyinin onuncu ildönümü münasibətilə səmimi qəlbdən təbrik edirəm, hər birinizə, hər bir Azərbaycan vətəndaşına **səadət, cansağlığı, uzun ömür** və bizim hamımızın gələcək işlərində uğurlar diləyirəm.» «Bu **aylar, illər** ərzində çətin və olduqca **şanlı, şərəfli** yol keçmişik. Birləşmiş Millətlər Təşkilatının bərabərhüquqlu üzvüyük. Dünyanın bütün beynəlxalq təşkilatlarının üzvüyük.» Göründüyü kimi, qara hərflərlə göstərilmiş üslubi fiqur özündən əvvəlki sözə nisbətən daha dolğun, daha təsirli ifadə olunaraq nitqi daha da zənginləşdirmşdir. Şifahi nitqdə aydın təfəkkürün, qeyri-adi yaddaşın nəticəsində bir nəfəsə deyilmiş belə nümunələrin sayı-hesabı yoxdur.

Bu nümunələrdən göründüyü kimi, H. Əliyev həm bir ədəbiyyatşünas, həm bir tarixşünas, həm də dilimizin funksional üslub qanunlarını, onun qrammatik normalarını gözəl bilən bir natiq kimi, yerli şəraiti, auditoriyanın səviyyəsini və onun hansı xalqa mənsub olduğunu həmişə nəzərə alır. Məhz bu səbəbdəndir ki, H. Əliyevin nitqini hamı başa düşür, anlayır. İstər ziyalı olsun, fəhlə olsun, istərsə də çoban. Bu da onun nitqinin gücünün xəlqiliyindən irəli gəlir. Heydər Əliyev sadə xalq dilində danışır. O, nitqini müəyyən bir auditoriya üçün yox, milyonlara həsr edir. Vətəni, xalqı, torpağı müdafiə etmək gücündə olan milyonlarla xalq kütləsi onun auditoriyasıdır. O, auditoriyanı sevir və həmin milyonların da sevgisini qazana bilir.

Ədəbiyyat

1. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. İki cilddə. Birinci cild. Bakı, Azərnəşr 1997.
2. Adilov M.İ. Azərbaycan dilində sintaktik təkrarlar. Bakı. «Elm», 1974.
3. Azərbaycan dilinin üslubiyyatı. Bakı. «Elm», 1990
4. Axundov A. Dil və üslub məsələləri. Bakı. Gənclik, 1970
5. «Azərbaycan» qəzeti, 2 noyabr 1969-cu il

Гюльрух Гусейнова

Стилистические фигуры в речи Г.Алиева

Резюме

Статья посвящена стилистическим фигурам в речи выдающейся личности, всемирно известного политика, спасителя независимого Азербайджана, Общенационального лидера Гейдара Алиева и особенностям их использования. В статье говорится о ряде факторов, обеспечивающих коммуникативные качества речи Г.Алиева и определяющих стиль его речи и о том, как оратор своеобразно и систематично использует их, а также указывается, что речь Г.Алиева богата стилистическими фигурами. Такие фигуры обладающие сильным стилистическим потенциалом, являются характерной особенностью речи Г.Алиева.

Huseynova Gulrukh Nasib

Stylistic figures in the speech of Heydar Aliyev

Summary

The article is devoted to the stylistic figures of speech outstanding personality, world famous politician, the savior of independent Azerbaijan, national leader Heydar Aliyev and characteristic features of their usage. The article describes a number of factors that provide communication and speech quality of H.Aliyev defining his style of speech, and of how he uniquely and systematically use them, but also indicates that H.Aliyev's speech is rich in stylistic figures. Such figures with a strong stylistic potential, are a characteristic feature of the speech of Heydar Aliyev.

Rəyçi: dos. Kəmalə Cəfərova

MƏHƏMMƏD VƏLİYEV
Gəncə Dövlət Universiteti,
muhammedveliyev@mail.ru

ANALİTİZM VƏ ONUN TÜRKOLOGİYADA ARAŞDIRILMASI VƏZİYYƏTİ

Açar sözlər: analitik, tipoloji bölgü, forma, komponent, qrammatik katiqoriya.
Keywords: analytical, typological division, form, component, grammatical category
Ключевые слова: аналитический, типологические распределение, форма, компонент, грамматическая категория

Dilləri tipologiyasına (və ya morfoloji quruluşuna) görə ilk dəfə Fredrix von Şlegel flektiv və affiksli (aqlütinativ) dillər olmaqla iki yerə bölmüşdür. Sonra qardaşı Avqust von Şlegel onun nəzəriyyələrini daha da genişləndirərək amorf dilləri ayırmış və flektiv dillərin analitik və sintetik tipli ola biləcəyini qeyd etmişdir. [1]

Dillərin tipoloji bölgüsünün 1809-cu ildə aparılmasına baxmayaraq, hələ orta əsr ərəb dilçiliyində Sibəveyhi (VIII əsr), eləcə də digər ərəb dili ilə məşğul olan alimlər səslərin məxrəci, nitq hissələrinin bölgüsü, ərəb dilinin leksikologiyası ilə yanaşı söz kökünün üç samitdən ibarət olması və daxili fleksiyası ilə də məşğul olmuşlar. [2; 26] Göründüyü kimi, ərəb dilçiliyində dilin quruluşu haqqında fikirlər mövcud olmuşdur. Ancaq bu nəzəriyyələr sadəcə təsviri xarakterli olub və birmənalı olaraq burada dillərin quruluşuna görə təsrifindən bəhs etmək olmaz.

Azərbaycan dili, eləcə də türk dilləri ailəsinə aid edilən hər bir dil, dillərin bu cür (tipoloji) bölgüsünə görə qeydsiz-şərtsiz aqlütinativ dil hesab edilir. Ancaq bu heç də türk dillərində analitizmin olmaması demək deyildir. Vilhelm fon Humbolta qədər tipoloji bölgünün dəqiq sərhədləri olduğu güman edilirdi, lakin XIX əsrin ikinci yarısından bu fikirdən daşınmışlar. [1; 190] Ümumiyyətlə, qeyd edək ki, türk dillərinin tarixi inkişafında keçici olsa da, analitizm mərhələsinin olması bildirilir. [3] M.İ.Yusifov qeyd edir ki, aqlütinasiyanın özü də türk dillərində birdən-birə və birbaşa yaranmamışdır. İkihecalı sözlərin (burada birinci heca kök, ikinci heca şəkilçi tərkibidir) təhlili göstərir ki, onların formalaşması analitizm və aqlütinasiya mərhələsindən keçmişdir. [3; 147]

Analitizm sözünün mənşə etibarilə latın dilinə məxsus olması aydındır. Ancaq dilçilikdə bu terminin mənası müxtəlif yöndən izah olunur. Belə ki, bir tərəfdən mənasının **oxşar** demək olduğu qeyd edilir. [3; 147] Yəni iki oxşar dil elementinin yanaşı işlədilərək yeni mənanın ifadəsinə xidmət etməsinə analitizm deyilir. Lakin müəllif analitikliyi əmələ gətirən dil elementlərinin hansı yöndən oxşar olması barədə heç bir izahat vermir.

Digər tədqiqatlarda bu söz latın dilindən tərcümədə **parçalanma, üzvlərinə ayrılma** kimi izah olunur. [7] Analitik ifadə dedikdə dildə hər hansı mənanın ifadəsi üçün sözlərin *üzvlənməsi, ayrı-ayrı sözlərin tərkib təşkil etməsi* nəzərdə tutulur. Bizcə də, terminə bu cür yanaşma üsulu daha doğrudur. Çünki bu elementlərin

ümumi şəkildə, sadəcə dilin "tikinti materialı" olması cəhətindən oxşarlığı nəzərdə tutularsa, onda aqlütinatizmlə analitizm arasında heç bir fərq olmaz.

Burada analitik formalarla ifadə edilən *yeni mənanın* lüğəvi (leksik), yaxud qrammatik məna olması dilçilikdə birmənalı qarşılanmamışdır. Bəzən yalnız qrammatik, bəzən isə qrammatik məna ilə yanaşı leksik mənanın da ifadəsi nəzərdə tutulur. Azərbaycan dilinin izahlı lüğətində də professor F.Y.Veysəlli analitik formaları həm "tam mənalı sözlə köməkçi sözün birləşməsindən ibarət birləşmə (dinləmək – qulaq asmaq)", həm də "hər hansı qrammatik mənanın verilməsində əsas sözün köməkçi sözlə birləşməsindən ibarət forma (ən gözəl)" kimi izah edir. [11, 48]

Ancaq hər halda qrammatik mənanın ifadəsi daha çox tədqiqata cəlb olunur.[12,199;7;14]

Qeyd edildiyi kimi, Azərbaycan dili aqlütinativ dil hesab edilsə belə, analitizmin izləri öz varlığını günümüzdə də davam etdirməkdədir. Ə.M.Dəmirçizadə *Sifət* məqaləsində [4] sifətin çoxaltma dərəcəsinin yaradılması üçün sözün (sifətin) birinci hecasına (daha dəqiq desək, ilk hecasındakı saitdən sonraya) **m, p, r, s** samitlərindən birinin artırılaraq prefiks kimi işlədilməsini, həmçinin **düm, nə, necə** kimi dil vahidlərinin istifadə edilməsini analitizmlə bağlayır.

M.H.Hüseynzadə də **m, p, r, s** samitləri vasitəsi ilə düzələn çoxaltma dərəcəsini sözün özündən istifadə edilməklə sifətin yaradılması yolu kimi göstərir. Eyni zamanda da **tünd, düm, zil** kimi elementlərlə sifətin çoxaltma dərəcəsinin düzəldilməsinin analitik üsulu hesab edir. [5;91]

Bizcə, sifətin çoxaltma dərəcəsinin düzəldilməsində köməkçi sözlərin (***tünd, zil, nə*** və s.) işlədilməsini ad qrupu sözlərin analitizmi kimi verilməsilə razılaşmaq olar. Ancaq sözün daxilinə göstərilən samitlərin əlavə edilməsini analitizm kimi qəbul etmək doğru deyil. Bunların sifətin dərəcə kateqoriyasının xüsusi ifadə üsulu kimi öyrənilməsi daha düzgün olardı.

Analitizmin türkologiyada öyrənilməsinin isə üç yüz ildən çox tarixi vardır.[6] Hələ XVIII əsrdə türk dillərində analitik fel konstruksiyalarının olduğunu qeyd edirdilər. Bu formalar feli sifət və **a-** köməkçi feli və feli bağlamadan ibarət olmuşdur. Hətta İ. Qiqanov "*Tatar dilinin qrammatikası"* əsərində **-edi** formalı on iki və **bol-, kel-, al-** formalı üç analitik ifadənin olduğunu qeyd etmişdir. [6] O, analitik formaları morfoloji vahidlərlə əlaqələndirmiş və onlara affiksal formalarla (şəkilçilərlə) eyni sırada baxmışdır.

Sonrakı tədqiqatlarda da analitik formalara dilçilərin münasibəti, yanaşma tərzi dəyişməmişdir: onlar (analitik formalar) şəkilçilərlə bir sırada öyrənilmiş, lakin nisbətən ətraflı araşdırılmış, xüsusilə felin şərt və lazım şəkillərinin mənaları, qrammatik xüsusiyyətləri, söz birləşməsi tipləri, fel şəkillərinin formaları ilk dəfə nisbətən geniş izah edilmişdir. [5; 6]

XIX əsrin ortalarından O. Bötlinqin tədqiqatlarından başlayaraq analitik formalara əvvəlkilərdən fərqli yanaşılır. O, analitik formalara affikislərlə bir sırada və müntəzəm (sabit) formalar kimi baxılmasına tənqidi münasibət göstərir. Bu formaları perifrastik (əlavə, kənar) yaranmalar adlandırır ki, bu formalara feli sifətlərdən, yaxud hərəkətin adlarından və köməkçi fellərdən ibarət mürəkkəb söz kimi baxır. Maraqlıdır ki, Bötlinqin digər çalışmalarında da analitik formaların morfoloji vahid kimi ifadəsinin inkar edildiyi bildirilir. [6] Başqa dilçilərin (məsələn, Mirzə Kazım bəyin) felin mürəkkəb formaları kimi göstərdikləri bütün formalardan Bötlinq yal-

nız tərkibində **ikən** və **imiş** hissəciklərinin yer aldığı feli birləşmələri tədqiq edir. Bu hissəciklərin öz mənaları ilə reallaşdığını, dəyişmədən qaldığını, yeni məna əmələ gətirmədiyini, həmçinin fellərin onlara birləşdiyini qeyd edir.

Bötlinq analitik formaları şəkilçilərdən ayırmaqla əslində aqlütinativliklə analitikliyi fərqləndirir və doğru qənaətə gəlir. Ancaq quruluşca bu formaların mövcudluğunu inkar etməsinə görə onun analitik konstruksiyaları nəzəri cəhətdən qəbul etmədiyini söyləyə bilərik.

Bəzən də qrammatikaya dair yazılmış elmi əsərlərdə analitik formalar sadəcə qeyd edilir, dilçilik nöqteyi-nəzərindən izahı verilmir. Məsələn, V. Radlof türk dillərinə aid folklor mətnlərində və yazılı abidələrdə (Orxon – Yenisey abidələri) çoxlu sayda analitik formalar olduğunu göstərir, lakin türk dillərində qrammatik mənanın ifadə üsullarından bəhs etməsinə baxmayaraq, bu mənaların ifadəsində analitik üslubu nəzərə almır. Onun digər əsərlərində analitik formalar müstəqil vahidlər kimi qeyd edilmir, köməkçi mənalı fellərin birləşmələri kimi nəzərdən keçirilir. [6]

Buna görə də Rodlofun analitik formalara münasibətdə Bötlinqdən fərqli mövqe tutmadığını deyə bilərik.

Qazax-qırğız dilinə dair yazdığı qrammatikada isə P.M.Melioranski analitik fel formalarına birmənalı yanaşmır. Belə ki, tərkibində ***edi*** köməkçi feli olan analitik formalar haqqında tənqidi-şübhəli mülahizələr yürüdür. Digər bir tərəfdən **e**-formalı bütün fellərin mürəkkəb zamanın ifadəsi üçün başqa fel tələb etməsinə görə onun köməkçi fel adlandırılmasını müdafiə edir. [6; 8]

A.V.Qaben analitik formaları iki mənalı elementdən – məntiqi əsası olan və köməkçi feldən ibarət olan *perifrastik* (perifraz – yazılma yolu ilə verilən müəyyən ehtiva, stil üsulu kimi verilən hər hansı izahedici strukturdur; bu mənada bu termin burada işarələnmiş formalar və xəbərverici, izahedici formalar kimi başa düşülür) ifadələr adlandırır. Qabenin məntiqi əsası olan fel dedikdə müstəqil leksik mənaya malik olan felləri nəzərdə tutduğu, perifrastik formanı isə çox geniş mənada başa düşdüyü bilinir: bir tərəfdən felin lazım (...ası idi) və arzu (...a idi) şəkillərinin keçmiş zaman formalarını, digər tərəfdən isə *kärgäk bol (öl(mək))* və *kärgäk arti (lazım idi)* tipli birləşmələri nəzərdə tutur. Onun perifrastik formalar hesab etdiyi birləşmələri bəzən *kompozişn ([komposition]-birləşmə)* termini ilə qeyd etdiyi, ancaq mürəkkəb fellərdən ayrıca danışdığı, fel olmayan birləşmələri isə üzvlərə ayırdığı qeyd edilir. [6; 11-12]

Bizcə, Qabenin termini daha çox "*mürəkkəbləşmə*"yə uyğun gəlir. Bu halda sırf qrammatikalizasiya ilə bağlı olan lazım və şərt şəkillərinin ifadəsinin bu ad altında öyrənilməsi doğru nəticəyə gətirib çıxara bilməz.

Ə.A.Yuldaşyev də A.V.Qabenin işlətdiyi *kärgäk bol* tipli birləşmələri qəbul edir və burada komponentlər arasında münasibətlərin mürəkkəb sözün komponentləri arasında olduğu kimi reallaşdığını bildirir. *Kärgäk arti* tipli birləşmələrin isə eyni qayda ilə öyrənilməsində onunla razılaşmır.

Doğrudan da, onun tərkiblərlə analitik formaları ayırmadığı görünməkdədir. Qabenin təhlil etdiyi birləşmələrdə vəziyyət bir qədər fərqlidir. Birinci birləşmədə (*kärgäk bol)* köməkçi fel *(bol)* öz ilkin mənasından uzaqlaşır və üzvi şəkildə həmin birləşmənin leksik quruluşuna daxil olur. Burada köməkçi felin nə qrammatik, nə də

ayrılıqda malik olduğu leksik mənasından danışmaq olmaz. Birləşmənin hərfən *qədər, tale tapdı* mənası ilə semantikası (ölmək) arasında motivləşmə vardır.

Günümüzdə Azərbaycan dilində fəal işlənmə dairəsinə malik olan bu cür ifadələr mövcuddur. İsmin müxtəlif hallarında, eləcə də mənsubiyyət şəkilçisi qəbul etmiş sözlərin fellərlə birləşməsi şəklində təzahür edən birləşmələr, daha doğrusu, tərkiblər kifayyət qədərdir: **-** (adlıq və qeyri-müəyyən təsirlik hal) + **fel** formasında: ***Baş verir*** *səndən öylə bir hərəkət; Ki bütün xalq həmən edir nifrət.* (H. Cavid) *Aldərvişlə bir də halallaşıb,* ***üz tutdu*** *Babilistana.* (Aldərviş nağılı) ***Əl tutmaq*** Əlidən qalıb. (Ata sözü) *...Küsübdür yarım məndən;* ***Dil tapıb*** *yalvarasız*. (Bayatı)**; -a**[2] (yönlük hal) + **fel** formasında: **üzə çəkmək** (üzə vurmaq) *Keçən sözü* ***üzə çəkməzlər***. (Məsəl) ..., *oradan bənzərsiz inciləri* ***üzə çıxarmaq*** *folklorşünaslarımızın şərəfli vəzifəsi olmuş və yenə də olmaqdadır*. (M.İ.Həkimov, "Xalqımızın deyimləri və duyumları")**.** *Sövdagər Adili* ***dilə tutub****, razılığını aldılar.* (Aldərviş nağılı) *"Quzğun"dan gələn qonağı mən* ***yola verərəm***. (Y.V.Çəmənzəminli) *...Göyçə qar əlindən* ***zara gəlibdir****; Muğan həsrət çəkir ay yağa qar, qar.* (A. Ələsəgr) və s; **-dan**[2] (çıxışlıq hal) + **fel** fomasında: *Yorulub* ***əldən-ayaqdan*** *düşdülər*. *...Aldərviş fürsəti* ***əldən verməyib*** *tez şüşədən yapışdı*. (Aldərviş nağılı); eləcə də, **mənsubiyyət şəkilçili söz + fel** formasında: **ürəyi getmək, gözü düşmək, dərsini vermək** və s. *Bu pəzəvəng mehtər oğlunun* ***dərsini vermək*** *vaxtı çatmışdır*. (Bolu bəy və qoç Koroğlu)

Göründüyü kimi, bu birləşmələrdə komponentlərin ilkin mənası ilə birləşmələrin ifadə etdiyi məna arasında ilk baxışda heç bir əlaqə görünmür. Birləşmələr tarixən formalaşmış və zaman keçdikcə bu birləşmələri əmələ gətirən tərəflərin ilkin mənası birləşmə daxilində "ərimişdir". Buna görə də belə birləşmələrin son dövr elmi ədəbiyyatlarda analitik formalar kimi yox, daha çox mürəkkəbləşmə elementləri kimi öyrənilməsi məqsədəuyğun hesab edilir. [8;60-62]

Qeyd edək ki, nümunələrdə göstərilən tərkiblərin analitik fellər olub-olmaması dilçilikdə birmənalı qarşılanmır. Məsələn, F.R.Zeynalov yazır: "*Biz analitik üsulla fel yaratma prosesinə bir qədər geniş baxır, bu prosesə həm mürəkkəb felləri, həm tərkibi felləri, həm də analitik formalı fel formalarını daxil edirik." [9; 8]*

Zənnimcə, burada iki nüansa fikir vermək lazımdır: birincisi, analitik forma dilin xarici cəhəti ilə, onun ifadə etdiyi məna isə daxili tərəfi ilə bağlıdır. Bu halda mürəkkəb sözlərin hər hansı mənanı ifadə etməsi üçün onu əmələ gətirən komponentlərin formal olaraq analitik üsulla birləşməsi labüddür.

İkincisi, birləşmənin idyomatik və ya qeyri-idyomatik olmasına diqqət yetirmək lazımdır. Əgər birləşmə idyomatikdirsə, onu əmələ gətirən tərəflərin hər ikisi öz ilkin mənasından uzaqlaşırsa, birləşmə sırf mürəkkəbləşmə kimi öyrənilməlidir. Yuxarıda verilən nümunələr belə birləşmələrə misal ola bilər.

Əgər birləşmənin mənası tərkibindəki sözlərdən birinin (əsas sözün) ayrılıqda malik olduğu lüğəvi məna ilə gerçəkləşirsə və digər komponent köməkçi element statusunda çıxış edirsə, belə birləşmələr analitik formalar kimi qəbul edilməlidir: *Özün* ***fikir elə,*** *Rəna, mənim qəlbimin burada qaldığını bilmirsənmi?* (M.S.-Ordubadi).

Qabenin baxdığı ikinci birləşmədə (*kärgäk arti)* köməkçi fel *(arti)* qoşulduğu sözlə birlikdə predikat kimi xarakterizə edilir. Birinci birləşmədə olduğu kimi "mürəkkəb sözə çevrilməyərək" birləşmənin ümumi leksik mənasının formalaşma-

sına təsir etmir. Birləşmənin, daha doğrusu, əsas sözün qrammatik mənasının dəqiqləşməsinə xidmət edir. Sözügedən köməkçi felin günümüzdə Azərbaycan dilində işlənən qarşılığı (idi) və buna bənzər digər köməkçi elementlər eyni funksiyanı - əsas sözün qrammatik vəzifəsinin dəqiqləşdirilməsini – yerinə yetirir. Məsələn: *Babək bir* ***nəfər idi****, gəldi də, getdi də. ... və hətta tovuz quşları da səhər nəğmələrini* ***başlayacaq idilər****. Bu bölgüdə* ***vaxt ikən*** *hazırlanmaq* ***lazım idi.*** *və s.* (M.S.Ordubadi, "Qılınc və qələm").

Başqa sözlə, mürəkkəb söz kimi təqdim edilən bu cür birləşmə(lər)də mürrəkkəb sözün təbiətinin tələb etdiyi kimi yeni leksik vahidin yaranmasına gətirib çıxaran komponentlərin leksik mənasının xüsusi realizasiyasının ifadə etdiyi münasibət yoxdur.

Bizcə, bu cür birləşmələr sırf analitizmə verilən izahata uyğun olaraq əsəs mənalı sözlə bu sözün qrammatik mənasının dəqiqləşməsinə xidmət edən köməkçi sözün birləşməsindən yaranan konstruksiyalardır. Buna görə də belə birləşmələr daha çox analitik konstuksiyalar kimi tədqiq edilməlidir.

Ə.A.Yuldaşyevin tədqiqatlarına görə, xarici türkologiyada keçən əsrin 40-50-ci illərinə qədər türk dillərində analitik formaların mövcudluğu heç də hamılıqla qəbul edilməmişdir. XX əsrin 50-ci illərində Azərbaycan dilçiliyində yazılan əsərlərdə də (M.A.Quliyeva, D.A.İbrahimov, T.Hacıyevanın əsərləri) bu gün analitik forma yaratdığı əksər dilçilər tərəfindən qəbul edilən **idi** hissəciyinin, analitik forma yaratdığı inkar edilmişdir. Bu kimi baxışların dəyişməsinə keçmiş sovet türkologiyasının (N.A.Baskakov, A.N.Kononov, A.Q.Qulamov, P.A.Əzimov) təsiri olmuşdur. Bu dilçilər O.Bötlinqin konsepsiyasının əksinə olaraq analitik formalara fəal müntəzəm (sabit) formalar sırasında baxmış və türk dillərində bu formaların davamlılıq vəziyyətini göstərmişdir. [6; 11, 14]

Göründüyü kimi, analitik formaların şərh edilən əlamətlərinin, dil strukturunun analitik forma hesab edilməsi üçün göstərilən səbəblərin (doğru və ya yanlış) genişliyi, türkoloqlar tərəfindən qeyd edilən ümumiləşmiş əlamətləri göstərməyə cəhd, bu morfoloji vahidlərin digərlərindən ayırd edilməsi üçün ümumi kriteriyaların müəyyənləşdirilməsi nəticəsiz qalmışdır. Hansı birləşmələrin analitik konstruksiya hesab edilməsi, hansılarının edilməməsi problemi açıq qalmışdır və həllini gözləyir. Bu qəbildən olan problemlərin mərkəzində isə əksər hallarda mürəkkəb söz – analitik forma "qarşıdurması", bu iki məfhumun sərhəddinin dəqiq konturlarının cızılmaması dayanır.

Dil elementinin analitik forma hesab edilməsi üçün birləşmənin qrammatik məna ifadə etməsi, birləşmə daxilindəki bir əsas mənaya malik sözün (əsasın) və bir (daha artıq da ola bilər) köməkçi sözün olması şərt hesab edilməlidir.

Ümumiyyətlə, analitizm bütün nitq hissələri sferasında özünü göstərə bilər. Ancaq fellərin analitizmi, daha doğrusu, fellərin qrammatik kateqoriyalarının analitik ifadə üsulu daha çoxdur: felin zaman kateqoriyasının mürəkkəbi **idi, imiş, isə** hissəcikləri (köməkçi sözləri) ilə düzələrək müxtəlif semantik yükə malik analitik konstruksiyalar əmələ gətirirlər: *gələcək idi*, *oxumuş idi, gələcək imiş, yazacaqmış, baxdısa, baxacaqsa və s;*

"**Gərək**" sözü ilə yaradılan analitik konstruksiyalara daha çox tarixi mənbələrdə rast gəlmək olur: *varsan gərək*, *yetə gərək və s.* M.Ş.Rəhimov qeyd edir ki,

"*sa+gərək*" analitik forması felin vacib şəklinin ifadə etdiyi mənanı və iş-hərəkətin ehtimal edilməsini bildirə bilər [10].

Eləcə də bu söz felin arzu şəklindəki əsas sözlə (fellə) işlədilərək analitik konstruksiya əmələ gətirə bilir: *gərək yazam, gərək gedəsən, gərək oxuya və s*. Qeyd edək ki, eyni məqsədlə digər arzu ədatları da işlədilə bilər: *kaş oxuya, kaş gələydin, kaş yazasan və s.*

Bundan başqa, **gərək** sözü məsdərlərlə də işlənərək analitik formalar yaradır. Belə formaların işlədilməsi daha çox abidələrin dili üçün xarakterik olsa da, bu gün bəzi nümunələrdə qalmaqdadır: *Bir evdəki sən tək gözəl olmaya; O ev viran olub* ***talanmaq gərək****. Billur buxaq, ayna qabaq gözəlin; Duraban başına* ***dolanmaq gərək*** *və s.*

"**Olmaq**" köməkçi feli felin ***xəbər, vacib*** və ***lazım*** şəkillərindəki əsas fellə birləşərək analitik formalar əmələ gətirir: *gedəsi olmaq, gəlməli olmaq, gedər olmaq, yazası olmaq, yazmalı olmaq, yazacaq olmaq və s.*

Şərti olaraq felin bacarıq şəkli kimi ifadə edə biləcəyimiz **...a bilmək** formalı analitik konstruksiyalar mövcuddur: *gedə bilmək, yaza bilmək, oxuya bilmək və s.*

...a başladı tipli analitik konstruksiyalar isə əsas sözdə ifadə olunan və qeyri-müəyyən müddətə davam edən iş-hərəkətin başlanıldığını bildirir: *oxumağa başlamaq, gəzməyə başlamaq, yazmağa başlamaq və s*;

Fellərin tərz kateqoriyasının analitik üsullarla ifadəsi də mövcuddur: *donub qalmaq, axıb getmək, uzanıb getmək, yatıb qalmaq və s*.

Felin ***lazım*** və çox vaxt da ***vacib*** şəkillərinin inkarı **deyil** köməkçi sözünün yardımı ilə düzələrək analitik konstruksiya yaradır: *gələsi deyil, baxası deyil, gəlməli deyil, baxmalı deyil və s.*

Göründüyü kimi, göstərilən analitik formaların bəzilərindən başqa dilçilik problemlərinin tədqiqi ilə bağlı bəhs edilsə də, bəzilərindən ümumiyyətlə danışılmamışdır. Bu formaların əmələgəlmə mexanizminin müxtəlifliyini, eyni zamanda bu konstruksiyaların müxtəlif qrammatik mənalar ifadə etməsini nəzərə alarq Azərbaycan dilində analitizmin ətraflı tədqiqata ehtiyacı olduğunu söyləyə bilərik.

Ədəbiyyat:

1. A.A.Axundov "Ümumi dilçilik" Şərq-Qərb nəşriyyatı, Bakı, 2006
2. N.N.Məmmədov A.A.Axundov "Dilçiliyə giriş" Maarif nəşriyyatı, Bakı, 1980
3. M.İ.Yusifov "Türkologiyaya giriş" Bakı, 2000
4. Ə.M.Dəmirçizadə "Sifət – Azərbaycan dilinə aid tədqiqlər" Bakı, 1986
5. M.H.Hüseynzadə "Müasir Azərbaycan dili" Bakı 1983.
6. Ə.A.Yuldaşev «Аналитические формы глагола в тюркских языках» Moskva, 1965
7. http://ru.wikipedia.org/wiki/Язык
8. Q.Ş.Kazımov "Müasir Azərbyacan dili – sintaksis " Şərq-Qərb nəşriyyatı, Bakı, 2010
9. F.Zeynalov "Türk dillərinin müqayisəli qrammatikası"I hissə, Bakı, 1974
10. M.Rəhimov "Azərbaycan dilində fel şəkillərinin formalaşması tarixi" Bakı, 1965

11. F.Y.Veysəlli "Dilçilik ensiklopediyası" I cild, Mütərcim nəşriyyatı, Bakı, 2006

12. Юрий Сергеевич Маслов «Введение в языкознание», Изд. «Высшя школа», Москва, 1971

13. Azərbaycan dilinin qrammatikası. I hissə, AMEA-nın nəşri, Bakı, 1960

14. F.Zeynalov "Türk dillərində mürəkkəb fel problemi (Türk dillərinin quruluşu və tarixi), Bakı, 1983

Мухаммед Велиев

Аналитизм и изучения его состаянии в тюркологии

Резюме

Тюркские языки считаются безусловно агглютинативными по своей типологической структуре. Однако не возможно ставить какой нибудь категорическую границу между языковых тип. Поэтому в тюркских языках наблюдается признаки аналитизма. Хотя аналитизм в языкознании изучается с XIX века, аналитические конструкции в тюркских языках были отмечены в XVIII веке. Аналитизм наблюдается в сфере всех частях речи и в Азербайджанском языке. Однако привлекают внимание больше глагольные конструкции.

Muhammad Valiyev

Analytizm and it`s learning in the Turkology

Summary

Turkish languages considered unconditional agglutinative language for its structure. But there is accurate border accord in to its topology amongst language types. Because of the reason the sing of analytism is observed in this language. Through analytism began to be learned from XIX century. The analytics construction began to be noted in Turkish languages from the XVIII century. Analytic construction is mostly attaining attention in verbs.

Rəyçi: dos. Sürayə Cəfərova

XUMAR HƏSƏNOVA
Təfəkkür Universiteti
xumar.hasanova@mail.ru

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ İNKARLIQ ANLAYIŞININ MORFOLOJİ YOLLA İFADƏSİ

Açar sözlər: morfoloji əlamətlər, flektiv-analitik, iltisaqi-sintetik, semantika.
Key words: morphological characteristics, inflexional-analytical, synthetic-semantical, semantics, form and content, structural- semantic.
Ключевые слова: морфологический свойства, флективно-аналитический, синтетико-семантический, семантика, форма и содержание, структурно-семантический.

Dildə inkar ilk növbədə məzmun və formanın, daha dəqiq desək, **cümlə** strukturunun və onun ifadə etdiyi fikrin qarşılıqlı münasibətləri planında **dilçiliyin** araşdırmaya ehtiyacı olan mühüm problemlərindəndir. **Ü**mumiyyətlə, inkar hələ çox qədim dövrlərdən əvvəlcə formal məntiqin sonra isə həm də **dilçiliyin** tədqiqat obyekti olmuşdur. Cəmiyyətin və elmin inkişafına baxmayaraq, bu **gün** də ümumi dilçiliyin araşdırılmağa xüsusi ehtiyacı olan mövzulardan biri məhz inkarlıq anlayışı və onun dildə maddiləşməsidir. Çünki, aparılmış tədqiqatlar özü-özlüyündə müsbət iş olsa da, onlarda hələ də inkarlığın öyrənilməyən və yaxud özünün tam linqvistik həllini tapmayan bir sıra struktur-semantik məsələlər bu gün də öz həllini gözləyən dil problemlərindəndir. Bu problemlərə inkarın məntiqi-qrammatik kateqoriya kimi mahiyyəti, inkar cümlələrin hansı meyarlarla təsdiq cümlələrdən fərqlənməsi, cümlənin strukturunda və onun ifadə etdiyi fikirdə inkarın rolu, bəzi inkar vasitələrinin leksik və sintaktik tərkibinə görə eyni olan cümlənin iki səviyyədə üzvlənməsində necə fəaliyyət göstərməsi kimi bir çox məsələlər hələ də öz qəti elmi həllini tapmamışdır. Bütün bunların nəticəsində inkarlıq haqqında tədqiqatla məşğul olan dilçilər arasında da yekdil fikrə rast gəlinmir. Bu fikir ayrılığı əsasən inkarlıq kateqoriyasının mənşəyi və mahiyyəti, gerçəklik faktlarına, real təcrübəyə uyğun gəlib-gəlməməsi, burada obyektiv və subyektiv amillərin rolu və s. ilə bağlıdır. Dilçilərdən bəziləri inkarlığa sırf semantik, bəziləri sintaktik, bəziləri isə qrammatik-leksik kateqoriya kimi yanaşırlar.

Bu məqalədə müxtəlif sistemli dillərdə, konkret olaraq Azərbaycan və ingilis dillərində, inkarlıq anlayışının morfoloji yolla ifadəsindən bəhs olunur.

İngilis dilində inkarlıq morfoloji yolla ifadəsinin izahına keçməzdən əvvəl bir məsələnin açıqlanması tələb olunur. Dillərin tipoloji təsnifindən aydındır ki, Azərbaycan dili iltisaqi–sintetik, ingilis dili isə flektiv-analitik dil olduğundan, inkar mənası yaratmaq üçün əsasən müvafiq olaraq sintetik *(-ma[2])* və analitik *(not, no və s.)* vasitələrdən istifadə edirlər. Lakin, Azərbaycan dilində analitik *(deyil, nə... nə... və s.)*, ingilis dilində isə sintetik vasitələrin *(un-, in-, dis-, de-, mis-, anti-, non-, less və s.)*, yəni prefiks və suffikslərin köməyi ilə də düzəlir. Bu morfoloji əlamətlər ingilis dilində sözyaradıcılığında iştirak etdikləri kimi, inkarlıq semantikasının da əmələ gəlməsində mühüm rol oynayırlar.

un- prefiksi əsasən sifət və feli sifət düzəldir. Bu sifət və feli sifətlər *-ed*, *-ing, -ful, -able -y, -like* suffiksləri ilə işlənir (1, s. 5). Məsələn:

unconquerable – yenilməz;
unpublished – nəşr olunmamış;
unthinking – düşünülmədən;
unwealthy – dövlətsiz;
unladylike – xanıma layiq olmayan;
ungrateful – minnətdar olmayan, nankor.

im-, in- prefiksli alınma sifətlərlə. Məsələn:

unintentional – bilmədən;
unimportant – vacib olmayan, əhəmiyyətsiz.

un- inkarlıq prefiksi özündə inkarlıq elementi olan sifətlərə qoşulur. *un-* prefiksi ilə ifadə olunan sifətlər «keyfiyyət, əlamət» və s.-nin inkarlığını bildirir. Məsələn:

safe – təhlükəsiz,
unsafe – təhlükəli,
graceful – zərif;
ungraceful – kobud,
reserved – gizli,
unreserved – açıq.

un- prefiksi ilə işlənən fellər əks məna bildirən hərəkət ifadə edir. Məsələn:

to cover – bağlama;
to uncover – açmaq;
to fasten – bağlamaq,
to unfasten – açmaq.

Müasir ingilis dilində *un-* prefiksi antonimi olmayan təsirli fellərlə işlənir.

in- prefiksinin üç fonetik variantı var: *il – l* qarşısında; *im – p, m* qarşısında; *ir - r* qarşısında. Məsələn:

illiterate – savadsız;
illogical – məntiqsiz;
immortal – ölməz, əbədi;
immoral – əxlaqsız, pozğun;
improper – lazımsız;
improbable – ağılasığmaz, mümkün olmayan.

Bu prefiks sifətlərlə işlənir.

dis- prefiksi əsasən fellərlə işlənir. Bu prefiks fellərdə əsasən semantika yaradır. Məsələn:

to please – xoşa gəlmək, məmnun etmək;
to displease – xoşa gəlməmək,məyus etmək;
to band – birləşdirmək;
to disband – ayırmaq.

de- prefiksi müasir ingilis dilində elmi-texniki və tibb terminlərin düzəldilməsində istifadə olunur. Bu prefiks həmçinin hüquqi ədəbiyyatda da işlənir. Məsələn:

defraud – aldatmaq

Ümumiişlək leksikada bu prefikslərlə düzələn sözlər azdır.

de- prefiksinə isimlərdə, sifətlərdə və fellərdə rast gəlinir (1, s. 9).

*anti-*prefiksi, əsasən, qəzet leksikasında işlənir. Bu ön şəkilçi daha çox sifətlərlə işlənir. Məsələn:

anti – socialist – antisosialist;

anti – nuclear – nüvəyə qarşı;

anti – proliferation – artmaya qarşı.

non- prefiksi publistik üslubda işlənir və ən çox müasir ingilis dilində sifətlərdən onlara az-çox rast gəlinir. Məsələn:

non – aggressive – aqressiv olmayan;

non – attendance – davamiyyətsizlik.

Yuxarıda verilmiş izahdan aydın olur ki, Azərbaycan dilində olduğu kimi ingilis dilində də inkarlıq anlayışı geniş şəkildə morfoloji yolla ifadə olunur (1, s. 11).

Lakin bununla belə bir cəhəti xüsusilə qeyd etmək lazımdır ki, qarşılaşdırılan bu dillər müxtəlif tipoloji sistemli dillər olduğu üçün, inkarlığın morfoloji ifadəsində də onlar arasında diqqəti cəlb edəcək qədər fərq vardır. Belə ki, Azərbaycan dili iltisagi dillərə xas olan sintetik ifadə formaları ilə zəngindir. Bu zənginlik özünü əyani şəkildə inkarlığın morfoloji yolla ifadəsində də göstərir. Lakin qarşılaşdırma üçün cəlb edilmiş ingilis dili flektiv dillərə daxildir və inkarlığın, o cümlədən də başqa qrammatik anlayışların formal ifadəsində daha çox analitik göstəricilər üstünlük təşkil edir. Burada mövzu ilə bağlı qarşılaşdırılmış dil faktları da bu fikri bir daha təsdiqləyir. Belə ki, inkarlığın morfoloji ifadəsi baxımından ingilis dili formal əlamətləri bu məqsədlə Azərbaycan dilində işlənən formal əlamətlərə nisbətən kəmiyyətcə bir qədər azdır (2, s. 112).

Təbii ki, inkarlığın morfoloji ifadəsi ilə bağlı alman, fransız və başqa dillərdən də misallar gətirmək olar. .

a- şəkilçisi vasitəsilə mənfi məzmun ifadə edən sifətlər əmələ gəlir. Bu ön şəkilçi rus dilində və başqa dillərdə işləndiyi kimi Azərbaycan dilində də işlənir. Əlbəttə, bu şəkilçi Azərbaycan dilində alınma şəkilçi olub, adları çəkilən dillərdən alınmışdır. Bir cəhəti də qeyd etmək lazımdır ki, *a-* şəkilçisi dilimizdə bir o qədər də işlək deyildir. Bu şəkilçi çox nadir hallarda və eyni sözlərlə işlənir. Məs.: *normal-anormal (normalolmayan) hal* və s. Misallar,

Anormal uşaq tibbi müayinədən keçirildi.

O da anormal hərəkəti ilə hamını təəccübləndirdi.

Sənin bu yaşayışın anormal yaşayışdır. Normal yaşayışdan kəskin şəkildə fərqlənir.

Anormal adamlar öz nöqsanlarını görmür və özlərini, öz hərəkətlərini həmişə haqlı sayırlar. Görəsən, sən bu anormal yaşayışdan nə vaxt əl çəkəcəksən?

Bizim işlərimiz çox anormaldı. Anti şəkilçisi də «əks, əleyh» məzmunu – inkarlıq ifadə edən sifət düzəlir (3, s. 44); məs.: *antifaşist (təşkilat), antiimperialist (hərəkat)* və s. Misallar:

Antiimperialist hərəkat get-gedə genişlənir.

Onun bütün antihümanist fikirləri zalda nifrətlə qarşılandı.

Hitlerin antibəşəri *hərəkətləri alman xalqının beynəlmiləl nüfuzuna ağır zərbə vurdu.*

Bu ön şəkilçi rus dilində və başqa dillərdə işləndiyi kimi Azərbaycan dilində də işlənir. Faktik materialın müqayisəsi göstərir ki, bəhs olunan şəkilçi-

nin işlənmə tezliyi *a-* şəkilçisinin işlənmə tezliyinə nisbətən artıqdır. Daha doğrusu, bu şəkilçi ilə nisbətən çox söz düzəltmək olar. Digər tərəfdən *anti-* şəkilçisi başqa dillərin sözlərinə artırıldığı kimi, onlara Azərbaycan sözlərində də rast gəlinir (2, s. 78). Bu şəkilçinin nisbətən çox söz yaratmasını aşağıda verilmiş misallar da sübut edir:

Antiimperialist qüvvələr get-gedə daha da güclənirlər.

Bu mərhələnin ədəbiyyatında məlum səbəblər üzündən müharibə dövrünün və qələbədən sonrakı illərin bilavasitə antifaşist mövzuda yazılmış əsərləri mühüm yer tutur.

Azərbaycan ədəbiyyatında lap qədim dövrlərdən başlamış antihumanist ideyalar həmişə tənqid olunmuşdur.

Əsrimizin ikinci yarısında ədəbiyyatımızda bir neçə antiirqi, antisinfi mövzuda olan əsərlər oxucuların ixtiyarına verilmişdir.

Antibəşəri fikirlər həmişə sülhsevər xalqlar tərəfindən nifrətlə qarşılanmış və indi də qarşılanmaqdadır.

Faşistlərin antiinsani ideyaları dünya xalqlarında həmişə dərin nifrət hissinə səbəb olmuşdur.

Aparılan tədqiqatların nəticəsində inkarlıq mövzusu fonunda Azərbaycan və ingilis dillərinin tipoloji xüsusiyyətləri, aqqlütinativlik-flektivlik, sintetiklik-analitiklik kimi linqvistik məsələlər dil faktları əsasında bir daha aydınlaşdırılır və bir aqqlütinativ dil tipinə daxil olan Azərbaycan dilində inkarlıq anlayışının morfoloji vasitələrlə ifadə olunmaq baxımından ingilis dilindən zəngin olduğu aşkarlanır. Çünki Azərbaycan dilində inkarlığa aid *sırf* bir şəkilçi olsa da, bu anlayış omonim şəkilçisi funksiyasında olan *–sız*[4]*, bi-, na-, a-, anti-* şəkilçiləri ilə də ifadə olunur. Düzdür, bu şəkilçilərin əsas və ilkin vəzifəsi sifət düzəltməkdir, lakin onların düzəltdiyi sifətlərdə çatışmamazlıq, inkarlıq, mənfilik mənası qabarıq şəkildə özünü göstərir. Bu xüsusiyyətlər də məhz inkarlıq anlayışının semantik mayasını təşkil edir. İngilis dilində inkarlığın morfoloji yolla ifadəsi Azərbaycan dilinə nisbətən zəifdir. Deyildiyi kimi, bu da ingilis dilinin analitik dil tipinə daxil olması ilə bağlıdır.

Ədəbiyyat

1. Леонтьева С.Ф. Отрицательные аффиксы в современном английском языке. М., 1974.
2. Müasir Azərbaycan dilinin morfologiyası. Bakı, 1961
3. Axundov A. Ümumi dilçilik. Bakı, 1988.
4. Abdullayev S. Müasir alman və Azərbaycan dillərində inkarlıq kateqoriyası. Bakı, 1998.
5. Aslanov A. Müasir Azərbaycan dilində inkarlıq və kəmiyyət kateqoriyaları. Bakı, 1963.
6. Mirzəzadə H. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, 1990.
7. Musayev O. İngilis dilinin qrammatikası. Bakı, 1996.
8. Arnold I.V. The English Word. M., 1986.

Х, Гасанова

Передача значения отрицания морфологическим путем в азербайджанском и английском языках

Резюме

Данная статья посвящена морфологическим путям выражения значения отрицания в Азербайджанском и Английском языках. Здесь объясняется роль отрицания при выражении идей и предоставлены примеры показывающие как средства отрицания меняются в предложениях с одинаковой лексической и синтаксической структурой. В статье отмечается, что некоторые языковеды считают отрицание семантической, некоторые синтетической и некоторые грамматической категорией. Здесь изучаются морфологические способы образования отрицания, например в Азербайджанском : синтаксическим путем (ма^2) аналитическим путем (deyil, nə ... və s.) В Английском синтаксическим путем (in, un, dis, anti…) аналитическим путем (not, no ..) Дана достаточно количество примеров по теме обоих языков и проводится их сравнение. На основе данных примеров объясняются цели применения префиксов..

K. Hasanova

Morphological way of convey of negation concept in English and Azerbaijanian

Summary

The article is dealing with the ways of morphological expressoin of negation in English and Azerbaijanian. Here is spoken about the role of negation in the expression of ideas and given examples to show how the means of negation shift in sentences with the same lexical and sintactical structure. It is stated in the article that some linguists consider the negation to be pure semantical, some consider it to be syntactical and others consider it to be a grammatical category. Here is performed brief study of morphological ways of negation. Such as in Azerbaijanian: synthetical (ma^2), analytical (deyil, nə, nə də); in English: syntactical (in, un, dis, anti) and analytical (not, no). Enough examples on the matter have been given and compared in both languages, usage reasons of prefixes are explained on presented examples. The productivity and unproductiveness of prefixes have been taken into consideration and they are compared due to formation of different parts of speech. Summerising all the date given above following conclusion can be drawn that as it is in Azerbaijanian, the negation concept is in a large scale conveyed morphologically as well.

Rəyçi: Qəribə Məmmədova

LƏMAN ƏHMƏDOVA
Təfəkkür Universiteti
baku_ aze@mail.ru

AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ PEŞƏ VƏ SƏNƏT BİLDİRƏN ŞƏKİLÇİLƏRİN İŞLƏNMƏSİNƏ QISA BİR NƏZƏR

Açar sözlər: Sözdüzəldici şəkilçilər, peşə bildirən şəkilçilər, məhsuldar və qeyri məhsuldar peşə bildirən şəkilçilər.
Ключевые слова: прооресмонотьных аффиксов, продуктивиш, непродуктивии аффиксы.
Key words: professional affixes, Productive affixes , non-productive affixes

Məlumdur ki, hər bir dil özünün fonetik sistemi, lüğət tərkibi və qrammatik quruluşu ilə bir dil kimi mövcud olur və bu üç tərkib hissələrdən bir qismi inkişaf prosesində tədricən müstəqilliyini itirərək köməkçi sözə və qoşularaq yeni sözlərin və birləşmələrin yaranmasına, lüğət tərkibinin zənginləşməsinə səbəb olmuşdur.

Dilçilikdə leksikologiyanin yeri danılmaz olduğundan uzun illər boyu dilçilər tərəfindən müzakirə obyekti olmuş və bugünkü gün də öz aktuallığım itirməmişdir. Leksikologiya zənginləşdikcə, inkişaf etdikcə sözlər və onların tərkibi dəyişir ki, bu da özü-özlüyündə yeni mübahisələrə yol açır. Mövzunun aktuallığını itirməməsinin əsas səbəblərindən biri də sözdüzəldici şəkilçilərin çox şaxəli, müzakıräli olması və bununla yanaşı texnologiyanin inkişaf etməsi, yeni terminlərin yaranması, habelə, cəmiyyətin inkişafı nəticəsində yeni incəsənət, onun növlərinin yaranmasıdır. Məsələn: "typewriter", "artist".

Sözlər arasında əlaqədə şəkilçilərin rolu böyükdür. Ona görə də dilimizdə qrammatik mənaların yaranmasına şəkilçilər xüsusi əhəmiyyətə malikdir. Söz həm leksikologiyanın, həm də morfologiyanın tədqiq obyektinə daxildir. Əgər leksikada tək-tək sözlərin fərdi xüsusiyyətləri, leksik mənası, onun başqa sözlərdən məna fərqi, mənşəyi və s. öyrənilirsə, qrammatikada morfologiyada sözlərin qanunauyğunluqları və xüsusiyyətləri öyrənilir ki, onlar tək-tək sözlərə deyil, bütöv söz qruplarına və onların dəyişmə sisteminə aid olur. Morfologiyada sözlərin hansı qrammatik formalara düşdüyü, hansı qrammatik mənaları ifadə etdiyi və necə ifadə etdiyi sözlərin hansı prinsiplər əsasında dəyişdiyi öyrənilir, sözlərin dəyişmə və təsrif sistemləri üzə çıxarılır, qrammatik kateqoriyalar onların nitq hissələrinə xidməti müəyyənləşdirilir.

Sözün fonetik quruluşu ilə morfoloji quruluşu, sözün fonetik tərkibi ilə morfoloji tərkibi eyni şey olmadığı kimi. sözün quruluşu və tərkibi anlayışlarım da eyniləşdirmək olmaz. Sözün tərkibi anlayışı quruluşundan genişdir. Sözün tərkibi anlayışına sözün tərkibindəki səslər, hecalar, vurğu, sözün kökü və şəkilçilər daxildir. Sözün tərkibinə daxil olan maddi hissələrin hamısı - səs, heca, kök və şəkilçi eyni dərəcədə mənalı vahidlər deyildir. Səslər və hecalar ayrılıqda heç bir məna ifadə etmir. Bunlar yalnız söz şəklində birləşdikdə ictimai məna kəsb edir. Söz kökləri və şəkilçilər isə mənalı vahidlərdir.

Dilçilikdə birinci qrupa sadə sözlər, ikinci qrupa düzəltmə, üçüncü qrupa mürəkkəb sözlər deyilir. Söz kökü əsas anlayışı ifadə edir, ona görə də sözün zəruri

hissəsi sayılır. Əcnəbi sözləri nəzərə almasaq kök sözün əvvəlində yerləşir və əsasən sabit olur, dəyişmir. Şəkilçilər isə əlavə anlayışları bildirir və şəkilçiyə çevrilmiş, qrammatik quruluşun ixtiyarına keçmişdir. Öz növbəsində həmin köməkçi sözlər və şəkilçilər də lüğət tərkibindəki müstəqil mənalı sözlərə söz kökündən sonra işlənir, kökə əlavə olunur. Şəkilçilərin ifadə etdiyi anlayışlar söz kökünün ifadə etdiyi məna ilə bağlı olur.

Sözün müstəqil mənaya malik olan, ayrılıqda işlənə bilən və dəyişməyən hissəsinə kök deyilir. Beləliklə, söz lüğət tərkibinin vahidi olduğu kimi, morfologiyanın da əsas vahididir. Lakin morfoloji vahid olan sözlə lüğəvi vahid olan söz mahiyyətcə tam bir-birinin eyni deyildir. Morfologiyanın sözlə - leksik mənalı morfemlə yanaşı, şəkilçilərdən və köməkçi sözlərdən ibarət lüğəti də vardır. Morfologiyada söz həmin şəkilçilərin və köməkçi sözlərin iştirakı ilə fəaliyyət göstərir. Bu fəaliyyət və əlaqə nəticəsində sözləri ünsiyyətin əsas vasitəsinə çevirir.

Söz kökünün İngilis dilində, o cümlədən Azərbaycan dilində bir sıra xüsusiyyətləri vardır:

1) kök sözün müstəqil leksik mənaya malik olan hissəsidir;
2) kök sözün əsasını təşkil edir;
3) söz kökü şəkilçilərdən ayrı işlənə bilir;
4) bir kök müxtəlif şəkilçilər qəbul edə bilir;

Azərbaycan dilində sözün kökünə şəkilçi artırdıqda əsasən kök dəyişmir və sabit olur. Lakin İngilis dilində kök dəyişə də bilər. məsələn: tərcümə-çi, misaldan göründüyü kimi söz kökündə heç bir dəyişiklik olmadı. "Translate" sözün köküdür. Baxaq görək, "translate" sözünə peşə bildirən şəkilçi artırdıqda nə kimi dəyişiklik baş verəcək. "Translater". Biz artıq misalda gördük ki, söz kökündəki "e" saiti düşdü.

Sözlərin ayrılıqda işlənməyən, müstəqil lüğəvi mənaya malik olmayan. söz kökünə artırılarkən yeni mənalı söz düzəldən və ya sözlər arasında əlaqə yaradan hissəsinə şəkilçi deyilir. Şəkilçi-morfemlər özləri də morfoloji funksiyasına görə fərqlənir və sözdüzəldici, sözdəyişairici və formadüzəldici olmaqla üç qrupa ayrılır:

a) Yeni söz düzəldən şəkilçilər; bunlar sözə artırıldıqda yeni mənalı söz yaradır; məsələn: tarix - tarixçi, göz -gözlük.

b) sözlər arasında əlaqə yaradan şəkilçilər; ismin hal,

mənsubiyyət, felin şəxs şəkilçiləri cümlədə sözlər arasında əlaqə yaradan şəkilçilərdir; məsələn: Mən dənizçilik peşəsini seçdim. Bu iki qrup şəkilçidən birincisinə sözdüzəldici, ikincisinə sözdəyişdirici şəkilçilər, eyni zamanda birincisinə leksik, ikincisinə qrammatik şəkilçilər deyilir. "Dəniz-çi-lik" sözdüzəldici, "peşə-si-ni" isə sözdəyişdiricidir.

c) şəkilçilərin bir qismi kateqorial şəkilçidir, nə yeni söz düzəldir, nə də sözlər arasında əlaqə yaradır. Bu və ya digər morfoloji kateqoriyanın yaranmasına xidmət edir. İsimdə kəmiyyət şəkilçisi, feldə inkarlıq, şəkil əlamətləri belə şəkilçilərdəndir.

Söz-formalar sözlərin paradiqma cərgəsinə daxil olur və cümlə üzvü kimi çıxış edir. Sözdəyişdiricilik prosesində kökün, əsası forması və semantikası sabit qalır. İsimlərdə mənsubiyyət və hal, fellərdə şəxs əlamətləri, feli sifət, feli bağlama, feli isim və məsdər şəkilçiləri sözdəyişdiricilik vasitələri sayılır. Sözdəyişdirici şəkilçilər sözün dəyişən hissəsi olub, cümlədə sözlər arasında əlaqə yaradır.

Sözdüzəldici şəkilçilər sözlərin kökünə və ya əsasına artırılaraq həm formaca, həm də mənaca fərqlənən yeni sözlər yaradır və həmin sözlər başqa sözlərlə yanaşı

dilin lüğət tərkibinə daxil olur. Sözdüzəldicilikdə məna dəyişikliyi semantik dəyişiklikdir, bir sözdən yeni söz yaranır. İngilis dilində, o cümlədən Azərbaycan dilində şəkilçilərin fonetik tərkibi sabit deyildir və onlar söz kökü və ya əsasının tələbi ilə dəyişir, variantlaşır və eyni zamanda yalnız sözə birləşdikdə müəyyən yaranır, daha ümumi məna ifadə edənlər dar məna ifadə edənlərdən, sözdüzəldicilər sözdəyişdiricilərdən əvvəl sözə artırılır. Şəkilçilərin sözdə möhkəm sırası vardır. Əvvəl sözdüzəldici, sonra sözdəyişdirici şəkilçilər işlənər. Söz kök və ya əsaslarında şəkilçilərin hər birinin öz pozisiyası olur. Məsələn: dəniz-çi-lik-dən.

Digər tərəfdən, bütün morfoloji kateqoriyalar da hər dildə yoxdur. Azərbaycan dilində dildə cins kateqoriyası yoxdur, lakin bunun tam əksi olaraq ingilis dilində cins kateqoriyası var. Məsələn: actor-actress, waiter- waitress.

Sözdüzəldici şəkilçilər məhsuldar və qeyri-məhsuldar olmaqla fərqlənir. Qeyri- məhsuldar şəkilçilər cəmi bir neçə söz düzəldə bildiyi halda, məhsuldar şəkilçilər daha çox söz düzəldir və lüğət tərkibinin zənginləşməsində mühüm rol oynayır.

Adlardan isimdüzəldən məhsuldar şəkilçilər aşağıdakılardır:

-çı.-çi.-çu.-çü şəkilçisi. Bu şəkilçi ən məhsuldar isimdüzəldən şəkilçidir. Əksərən isimlərdən. bəzən də sifət və saylardan şəxs anlayışı ifadə edən isimlər düzəldir; məs.: balıq-çı, trak-tor-çu, tarix-çi, güləş-çi, işğal-çı, şikayət-çi (isimlərdən), əla-çı (sifətlərdən), milyon-çu (saylardan) və s. Ək-in-çi, biç-in-çi.

Azərbaycan dilində "çı, çi, çu, çü" məhsuldar şəkilçidir, "er,or" ingilis dilində isə qarşılığıdır.Məsələn:"iş-çi", "miner". Azərbaycan dilində qeyri- məhsulda^. şəkilçilər "saz", "kar" və sairdir. Məsələn: "rəngsaz", "sənətkar".

Hər iki dildə bütün şəkilçilərin semantik mənaları var. Şəkilçilərin hər birinin fərdi xüsusiyyətləri, məna və işlənmə məqsədləri var. Təbiidir ki, hər iki dildə şəkilçilərin əsas məqsədi leksikologiyanın zənginləşməsidir.(l, s. 64)

Buna uyğun olaraq da, təbii ki, şəkilçilər öz semantik xüsusiyyətlərindən asılı olaraq sözün müvafıq hissəsinə artırılır. Bunlar da öz məna qazanmış olur. Aqlütinasiya əsasında sözlərdə şəkilçilərin düzülüş ardıcıllığı

Görkəmli ingilis alimi V.Arnold da sözyaradıcılığı haqqında bir neçə fıkir irəli sürmüşdür. "Şəkilçilər əslinə, məhsuldarlığına, semantik xüsusiyyətlərinə görə bir neçə qrupa bölünür. Buna uyğun olaraq da, təbii ki. Şəkilçilər öz semantik xüsusiyyətlərindən asılı olaraq sözün müvafiq hissəsinə artırılır. Bunlar da öz növbəsində, isim düzəldən şəkilçilər, sifət düzəldən şəkilçilər, fel düzəldən şəkilçilər və sairdir.(2, s. 93)Bu şəkilçilər də məhsuldar və qeyri-məhsuldar olmaqla iki qrupa bölünür. Məhsuldar şəkilçilər "er, or" və sairdir. Məsələn: "painter". Qeyri-məhsuldar şəkilçilər isə "joumalist", "profıteer".

Hazırkı dövrdə ayrı-ayrı dil ailələrinin başında duran protodillərin söz köklərinin müəyyənləşdirilməsi ilə protodillər arasında əlaqə və qohumluğun öyrənilməsi paralel aparılır. Təbii ki, bu sahədə Yer üzərində heç bir koordinasiya yoxdur. Hər bir mədəni xalq öz dilinin müasir vəziyyətini və tarixi inkişaf yolunu öyrənməkdədir. Lakin bir sıra görkəmli alimlər böyük ümumiləşdirmələr apararaq dil ailələrinin və ailələrarası münasibətləri müəyyənləşdirmişlər.

Qeyd etdiyimiz alimlərin yaradıcılıq təcrübəsi və tədqiqat metodları ulu dilə doğru araşdırmaların gələcəyinə böyük ümidlər doğurur. Biz dünya dillərinə məxsus saysız söz köklərində ulu dilin söz köklərini görürük. Lakin əsas mövzumu-

za aid olmadığı üçün illərdən bəri topladığımız nümunələrdən bir neçəsinin şərhi ilə kifayətlənəcəyik.

Bu cür araşdırmaların bir xeyri odur ki, tədqiqatçılar sözün dünya dillərində yayılma arealmı müəyyənləşdirə bilirlər. Təhsil, tədris prosesində yunan, latın mənşəli söz kimi izah edilən bir çox sözlərin xalis yunan və ya latnı sözü olmadığı, dünya dillərinə məxsus ulu dildən gəldiyi aydınlaşır. Və eyni zamanda aydın olur ki, o sözün kökü elə bizim dildə, türk dillərində də işlənməkdədir.

Ədəbiyyat

1. Engilish Lexicology Г.Б.Антрушина, О.В.Афанасьева, Н.Н.Морозова Аркадий Куракин, г Николаев, апр.2003
2. Лексикология английский языка И.В.Арнольд Москва «Высшая школа» 1986
3. Azərbaycan dili, Morfologiya Q.Ş. Kazımov. “Nurlan”, Bakı 2010, 400s.

Ламан Ахмедова

Статья посвящается прооресмонотьных аффиксов.

Резюме

Эта статья посвящается схематическим свойствам прооресмонотьных аффиксов.

Аффиксы являются частью мксикороим, а также изучает образование слов определенного языка. Этими аффиксами являются “er”, “or”, “eer”, “ist” которые не имеют определенного значения в отдельности, но являются осповной частьго слова.

Корен это част слова, которое содержит в себе мксическое слова, н-р: teach, teacher некоторые слова, дающие значетье професим, образовалы от глаголов: работать-рабочий, водит-водитель.

Продуктивиш аффиксы во вы периоды языка не теряют актуальност: н-р “er”, иш же непродуктивии аффиксы: н-р: “eer”, “ist” и т.д

В результате, можно сделать вывод из статьи, что появление новых териинов паралельно с развитиси общества стаит неминуемым. И это, в свою очередь будет асследоваться и изучаться со стороны ученых.

L. Ahmadova

Semantic structure of forming professional affixes

Summary

1. The article is devoted to the semantic structure of forming professional affixes
2. It is the Branch of lexicology that studies the structure of existing words and the patting on which a language builds new words.
3. There were Mentinod “er”, “or”, “eer” that these affixes don’t acun as free form but only constituents of words.
4. They possess meanings their own

5. The root is the morpheme that exprexes the lexicol meaning of the word e.g teach-teacher
6. For ex origin Native “ist” jannolist Heoming e.g. “er” the agant of the action “Woker”, “driver”
7. Productive affixes are ones which fake part inderiving new words hi this par-ticulor period of language development e.g. “er” but non-productive affixes are “er”, “ist”, “ete” of the renelt according to the article, being humanity arising of the new terms will be inevitable In its turn, these new words will be investigated and learnt.

Rəyçi: dosent Rafiq Şabanov

ELNAZ ALIYEVA
Nakhchivan State University
elnazela@gmail.com

THE STUDY OF INTERCULTURAL COMMUNICATION IS A REALITY OF EVERYDAY LIFE

Açar sözlər: mədəniyyətlərarası ünsiyyət, mədəniyyətlər arasında anlaşma, fərqli sivilizasiyalar, kommunikasiya problemləri.

Ключевые словах: межкультурная коммуникация, различные цивилизации, межкультурное взаимопонимание.

Intercultural communication is a form of global communication. It is used to describe the wide range of communication problems that naturally appear within an organization made up of individuals from different religious, social, ethnic, and educational backgrounds. Because of the inherent differences between the message sender/encode and the message receiver/decoder, the risk of misunderstanding is particularly high in intercultural situations. For example:

An African American third-grade student from an inner-city school lowers his head and casts his eyes downward when his teacher looks at him. The teacher is insulted since the young man "refuses" to look at his teacher. What nonverbal communication aspect has been overlooked?

The third-grade teacher had not recognized important cultural reasons for the student's lack of eye contact. The student learned that looking away signifies respect for authority, but the teacher's culture emphasized respect by direct eye contact.

This example demonstrates the need for intercultural communication. Because the study of intercultural communication recognizes how culture pervades what we are, how we act, how we think, and how we talk and listen.

The symbolic aspects of communication and its reliance on encoding and decoding are particularly important in intercultural communication, which encompasses both verbal and nonverbal elements.The differences between languages obviously can hamper communication, but so too can varying ways that people of different cultures use nonverbal elements of body language, gaze, touch, time and so on.

Intercultural communication is sometimes used synonymously with cross-cultural communication. In this sense it seeks to understand how people from different countries and cultures act, communicate and perceive the world around them. As a separate notion, it studies situations where people from different cultural backgrounds interact. Thus, intercultural communication is the study of communication among various culture, but cross-cultural communication is the study of a particular idea or interaction within one culture, compared with the same idea or interaction within other culture.

Aside from language, intercultural communication focuses on social attributes, thought patterns, and the cultures of different groups of people. It also involves understanding the different cultures, languages and customs of people from other countries. Intercultural communication plays a role in social sciences such as anthropology, cultural studies, linguistics, psychology and communication

studies. Intercultural communication is also referred to as the base for international businesses.

According to Samovar and Porter intercultural communication occurs whenever a message is produced by a member of one culture for consumption by a member of another culture, a message must be understood. Because of cultural differentces in these kinds of contacts, the potential for misunderstanding and disagreement is great. Therefore, to reduce this risk, it is important to know something about intercultural communication.

The study of intercultural issues is by no means a new area. People have interacted with others from different cultures throughout history in wars, religious journeys and exchange of goods. They have also been well aware of the difficulties these encounters may cause. Even though the history of intercultural contact is long, it has never before reached the magnitude of today's world. Earlier it was only people in certain professions or status that had the contact to the foreign cultures. Nowadays even the most isolated and marginal groups of people have the opportunity to interact with people all over the world. Intercultural interaction has become a reality of everyday life for almost everyone. The growth of interdependence of people and cultures in the global society of the twenty-first century has forced us to pay even more attention to intercultural issues.

Nations and people of the world are increasingly interconnected and mutually interdependent. Globally, most cities and countries are becoming more diverse internally, with citizens and residents of varying races, religious, ethnicities and national backgrounds. Meanwhile, greater the risk is associated with economic or political aloofness and social isolation. All of these forces are fostering increasingly more study of intercultural communication.

The study of intercultural communication has tried to answer the question, "How do people understand one another when they do not share a common cultural experience?" Just a few decade ago, this question was one faced mainly by diplomats, expatriates, and the occasional traveler. Today, living in multicultural societies within a global village, we all face the question every day. We now realize that issues intercultural understanding are embedded in other complex questions. What kind of communication is needed by a pluralistic society to be both culturally diverse and unified in common goals? How does communication contribute to creating a climate of respect, not just tolerance, for diversity? The new vision and innovative competencies we bring to this changing world will determine the answer to another question about the global village posed by Dean Barnland: "Will its residents be neigbours capable of respecting and utilizing their differences or clusters of strangers living in ghettos and united only in their antipathies for others?"

In the early 21st century, it is probably more likely than at any time in history that ordinary people would encounter situations involving intercultural communication. Tourism brings people in contact with people of other cultures, and it has become more and more common to go overseas on vacation. Many high school and university students go to other countries to study. Even if students do not go overseas themselves, they may encounter foreign students or foreign teachers on their own campuses. With the globalization of the economy, companies send workers overseas, where they must work and live with people of different cultures. In

fact, with the spread of the Internet, anyone who wants to communicate with people from other cultures can do so without leaving their own country or even their own home. More and more people are going to other counties to work or study, and people are more likely to encounter people from other subcultures in their countries.

There are several reasons for the development of the world into a global village. Satellite communications, computer networks and supersonic air buses have virtually turned our world into a global village. Even today, as we are resting in our bed at home, we can watch a football game being played in Italy or even a basketball game that is transmitted from America. At the Azerbaijan market, we can buy various kinds of goods and products that are made in many different parts of the world.

Developments in communication technology paralleled those in the travel technology and prompted even a quicker movement toward a global village. It is now possible for people to have instantaneous vocal, graphic, textual and even video communication with most parts of the world. Unbelievably so, with a cell phone for instance, anyone can be in instant communication with anyone else, anywhere in the world while simultaneously traveling to any place in the world. In addition, the developments with the Internet and the World Wide Web have provided a means for people everywhere in the world to interact and communicate with one another; as well as to transmit, store, and retrieve information about near1y any topic imaginable. It is truly amazing.

Also the development of transportation has increased face-to-face contact with people from different cultural backgrounds immensely. The improvements in transportation technology have helped to shrink the earth to a figurative global village by creating the means for people to travel almost anywhere in the world in less than a day's time. These developments, in turn, have affected the world economy. International business would not be possible without international communication and as a result of the activity of conducting business internationally, international businesses have become an important economic force for many countries.

Transnational companies are also classified as multinational companies. Multinational firms do not ordinarily think of themselves as having specific domestic and international divisions or subsidiaries; its strategic planning, marketing and decision making are concentrated towards international markets; and having a centralized headquarters in one particular country is almost irrelevant. Actually many transnational companies make a point of employing people of different countries.

Widespread population migrations have changed the demographics of several nations and new intercultural identities and communities have been born. Changes in mass migration patterns have also contributed to the development of the global village. The world's population has continued to increase and shift. As a result of population growth and mass migration, contacts with cultures that previously appeared unfamiliar, alien, and at times mysterious are becoming a normal part of our day-to-day routine. America is widely known as a land of immigrants, and every year thousands of new immigrants arrive in American to make a new life for themselves. American businesses have been making special efforts to adapt to this new cultural diversity. At the same time, there is also an increasing number of foreigners immigrate to Azerbaijan and would like to become Azerbaijan citizens.

In order to live and function in this multicultural environment as effectively and meaningfully as possible, people must be competent in intercultural communication. It is quite clear that knowledge of intercultural communication can aid in solving communication problems before they arise.

The fact that intercultural communication is becoming a daily occurrence and is greatly becoming increasingly important. And as we move further into the twenty first century and become even more globalized, the importance of intercultural communication as a major field of study will definitely be recognized and studied by more and more professionals.

References

1. Lustig, M. W. and Koester, J. 1996. Intercultural Competence: Interpersonal Communication Across Cultures. HarperCollins College Publishers. NY, USA.
2. Martin, J.N. & Nakayama, T.K. (2007). Intercultural communication in contexts. 4th Edition. Mountain View, CA: Mayfield.
3. Martin, J.N. & Nakayama, T.K. (2002). Readings in Intercultural Communication. Experiences and contexts. Mountain View, CA: Mayfield
4. Samovar, L.A, Porter, R. E., & Jain, N. C. (1981) Understanding Intercultural Communication. Belmont, CA, Wandsworth Inc.
5. Bennett, Milton, J. (1998) Intercultural communication: A current perspective. Yarmouth, MI: Intercultural Press
6. Fengping Gao. (2006). Language is Culture – On Intercultural Communication. Journal of Language and Linguistics. Volume 5, Number 1

Elnaz Əliyeva

Mədəniyyətlərarası ünsiyyətin öyrənilməsi gündəlik həyatın reallığıdır

Xülasə

Məqalədə bu gün çağdaş dünyanın qarşısında duran ən mühüm problemlərdən biri olan fərqli sivilizasiyalar, mədəniyyətlər arasında anlaşmanın, əməkdaşlığın optimal yollarının tapılması üçün mədəniyyətlərarası ünsiyyətin öyrənilməsinin vacibliyindən bəhs edilir.

Эльназ Алиева

Изучение межкультурной коммуникации - реалии каждодневной жизни.

Резюме

В статье сообщается об одной из вожнейших проблем сегодняшнего современного мира – о различных цивилизациях, о важности изучения межкультурной коммуникации для нахождения оптимальных путей сотрудничества, межкультурного взаимопонимания.

Rəyçi: Sevindik Vəliyev
filologiya elmləri doktoru, professor

MİRMƏHƏMMƏD AĞAYEV
LDU

AZƏRBAYCAN DİLİNDƏ MÜRƏKKƏB SÖZ PROBLEMİ

Açar sözlər: Azərbaycan dili, mürəkkəb sözlər, feli birləşmələr, mürəkkəb tərkib.
Ключевые слова: Азербайджанский язык, сложные слова, глагольные сочетания, сложный состав.
Key words Azerbaijan language Compound words verbal parts compound combination

Mənə elə gəlir ki, insan daima rahatlığı xoşlayır: Rahat oturmaq, rahat danışmaq, rahat və asta yerimək, azad nəfəs almaq, azad fikir söyləmək, azad işləmək, heç nədən çəkinməmək və sairə insani xüsusiyyətləri istəyir. Çətinlikdən uzaqlaşan, azdan çoxa doğru, asandan mürəkkəbə doğru yol gedən, inkişaf edən insan, öz ünsüyyət qurumunu da asandan başlayıb və azad nəfəs xoşlayan insan, mürəkkəbliyi xoşlamayıb. Amma zamanın tələbləri onun sadədən mürəkkəbə doğru sürünməsinə zərurət yaratmışdır.

Dil də insan qədər qədimdir. Keçən əsrlərin yazılı mənbələrini varaqladıqca, bir daha məlum olur ki, ilk insan sözləri tək səs – sözdən, cüt səs – sözlərə doğru irəliləyərək açıq və ya qapalı və ya bağlı sadə ifadələr yaratmış və zaman keçdikcə bunların da bəziləri leksik mənalarını itirərək, şəkilçi və ya konponent formasında sözyaradıcılığında iştirak etmiş, geniş inkişaf yoluna qədəm qoymuşdur. Görkəmli tədqiqatçı Ramiz Əskər haqlı olaraq yazır ki, "Qutadğu Bilgi"dəki mürəkkəb isimlər müasir qrammatik qaydalara uymur, çünki əsər yazılan dövrdə indi mürəkkəb isimlərə xas olan keyfiyyətlər daşıyan, yəni iki sözdən ibarət olub insan adı bildirən, heç bir şəkilçi qəbul etmədən birləşən və bitişik yazılan, üstəlik, bir vurğu ilə deyilən adlar silsiləsi yox idi (1,184). Çox haqlı olaraq tanınmış alim B. Əhmədov yazıb ki, "Azərbaycan dilinin şivə faktları göstərir ki, iki və daha çox söz yanaşı işlənərək tədricən sadə sözə doğru dəyişir. Bu proses çox qədim tarixə malikdir (2,126).

Maraqlı cəhət burda ondan ibarətdir ki, alimlərimiz heç bir fakta söykənmədən adətən bir sözü ortaya atır "çox qədim tarixə malikdir". Bu cür fikirlərə Ramiz Əskər doğru olaraq haray çəkib yazır ki, "Qutadğu Bilgi"-də M. Hüseynzadə tərəfindən verilən mürəkkəb isimlər təsnifatının heç bir bəndi üzrə – nə "**taxıldöyən**" və "**neftayıran**" tipli, nə "**Bakı Soveti**" və "**Rayon komitəsi**" tipli, nə "**Kürdoğlu**" , nə "**ağzıbütövlük**" və "**özbaşınalıq**" tipli, nə də "**kəsakəs**" və "**tutatut**" tipli konstruksiyalar "Qutadğu Bilgi"-də yerli – dibli yoxdur" (1,184). H.Mirzəzadə yazıb: "Mürəkkəb isimlərə keçməzdən əvvəl, qeyd etmək lazımdır ki, Azərbaycan dilinin lüğət tərkibinin genişlənməsində, yeni yaranan məfhumların sözlər şəklində sabitləşməsində istifadə olunan üsullardan biri də leksik-sintaktik üsuldur." Müəllif sonra qeyd edir ki, "Ədəbi dilimizin ayrı-ayrı dövrlərinə aid, gözdən keçirdiyimiz materiallarda belə xüsusiyyətlərə rast gəldik ki, bu üsul yalnız mürəkkəb isimlərin düzəlməsində deyil, eləcə də bütün nitq hissələrinin düzəlməsində deyil, eləcə də bütün nitq hissələrinin düzəlməsində mühüm rol

oynamışdır. Mürəkkəb sözün tərkib hissələri ayrı – ayrılıqda öz ilk mənalarını müəyyən dərəcədə zəiflətmiş, yeni mənaya üstünlük verilmişdir (3,70). M.Hüseynzadə vaxtı ilə doğru olaraq yazıb ki, "mürəkkəb köklər vasitəsi ilə ayrı – ayrı məzmunlardan yeni məzmun əmələ gətirilir"(4,47). Məsələn o, "**istiot**" sözünü misal göstərir. Məlumdur ki, bu sözün tərkibində iki müstəqil (**isti** və **ot**) vardir. Rus dilçiliyində bu cür sözlərə **slovoslojeniya** deyirlər. Yəni iki müstəqil sözlərin üst – üstə düşməsi, birləşməsi, əvvəlki ayrı – ayrı mənalar əsasında yeni məna ifadə edən mürəkkəb bir kök əmələ gətirib, yeni bir söz yaranır. F.R.Zeynalov yazıb ki, "mürəkkəb sözü təşkil edən tərəflər birləşdikdə öz müstəqilliklərini itirir, tamamilə və ya da qismən birlikdə bir anlayış, yeni bir nominativ məna yaradır" (5,32) və sonra da qeyd edir ki, "son zamanlar mürəkkəb söz probleminə tez – tez müraciət edilməsinə baxmayaraq, yenə də bu sözqrupuna daxil olacaq sözlər düzgün müəyyənləşdirilmir, bura mürəkkəb söz olmayan külli miqdarda söz birləşmələri daxil edilir (5,32).

Y.Seyidov düzgün qeyd edib ki, "Söz birləşmələrini əmələ gətirən tərəflər arasında sintaktik əlaqə aydın sezilir, qrammatik vasitələr isə dinamik səciyyədə olur, beləliklə hər iki komponentin ayrı – ayrılıqda vurğusu olur və həm də tərəflər çox mütəhərrik olur, eyni vəziyyətdə başqa sözlərlə də birləşmə əmələ gətirə bilir. Mürəkkəb sözlər isə bu xüsusiyyətlərə malik olmur (6,87). Amma professor Q.Kazımov daha çox fərqli cəhətlə bu məsələyə dair fikir söyləyir: "Mürəkkəb isimlər sintaktik yolla yaranan, əksərən iki, bəzən üç müstəqil sözün birləşməsindən ibarət olub, bir məna, bir məfhum ifadə edən isimlərdir. Mürəkkəb isimlər əksəriyyət etibarilə yanaşma əlaqəli (1-ci növ) və qarşılıqlı tabelilik əlaqəsində olan (2-ci növ) ismi birləşmə sxemi əsasında yaranmışdır. Birləşmələrin tərəfləri öz məna müstəqilliyini tədricən itirərək qaynayıb qarışmış, sintaktik əlaqələr mahiyyətini itirmiş, bir vurğu altına düşərək mürəkkəb sözə çevrilmişdirşdir (7,56).

F.R.Zeynalov tanınmış alimlərimiz Y.Seyidova, M.Adilova, M. Hüseynzadəyə və başqalarına istinadən yazıb ki, "mürəkkəb sözlər söz birləşmələrindən həm də tam formalaşma cəhətindən də fərqlənir. Mürəkkəb sözlər qrammatik, fonetik, yazılış cəhətdən adi birləşmələrdən əsaslı surətdə seçilir. Məhz bu xüsusiyyətlərə görə mürəkkəb sözləri **sintaktik** yolla söz yaratma prosesinə də aid etmək mümkündür. Məsələn, **ba, bə, ha, a, ə, lik, li** şəkilçiləri ilə yaranan mürəkkəb sözlər – **üzbəüz, vurhavur, başabaş, kəsəkəs, yehaye** və s. Bu yol türk dillərində sintaktik yolla söz əmələ gətirməkdən daha məhsuldardır (5,33). Bu ünsürləri ayrı – ayrılıqda təhlil etsək, görəcəyik ki, M. Kazımbəy dövrünə görə doğru yazıb ki, mürəkkəb sözləri türk dilləri üçün spesifik hal saymaq olmaz, bu qəbildən olan, sözlər dildə azlıq təşkil edir və onlar dilimizə fars dilindən keçmişlər. Bizim ilkin yoxlamalarımızda M. Kazımbəyin dürüst yazdığını görürük. Məsələn, birinci sözü, **üz+bə+üz** mürəkkəbləşdirilmiş, təkrarı eyni mənalı olduğunu sözün etimoloji təhlilindən də müəyyən etmək olar. Birinci, bu cür səpkili sözlər (**üzbəüz, anbaan, adbaan, adbaad, taybatay, qarabaqara, yanbayan, dalbadal, ilbəil, günbəgün** və s.) mürəkkəb zərflər vurğusuna görə də alınma söz olduğunu göstərir, ikinci də eyni ilə iran dillərində **rübərü** – sözü **üzbəüz** sözünün mənasındadır. Alimlərin bəziləri – **bə** – ünsürünü, şəkilçi və bəziləri birləşdirici adı ilə verirlər, ancaq əslində – **bə– <sonon r** səsinin düşməsi ilə, **–bər– qabaq** mənasında işlənən sözündən əmələ gəlmişdir. Azərbaycan dialekt və şivələrimizdə "**bura bax**" əvəzinə "**bəri bax**" ifadəsi daha çox iş-

lənilir. Bu sözün ilkin variantları **vər > < pər** – dir mənaları "**qabaq hissə**" deməkdir.

Burada qeyd etməliyəm ki, bu məqalədə mürəkkəb zərflərdən və ya başqa nitq hissələrindən yazmaq fikrində deyiləm, bunlar haqqında fikir başqa məqalələrdə öz əksini tapacaqdır. Amma bir az irəli gedərək, qabaqcadan deməliyəm ki, Azərbaycan dilində fellərin mürəkkəb olub – olmaması dilçiliyimizdə müba-hisəlidir. Azərbaycan dilində alınma fel yoxdur, belə olan halda felin üst – üstə düşməsi, birləşməsi yoxdur. İsmə və başqa nitq hissələrinə gəldikdə isə, mürəkkəb ifadələrə rast gəlmək olur. Müxtəlif mənalı sözlərin birləşməsindən əmələ gələrək bir vurğu altında tələffüz edilən sözləri mürəkkəb isimlər hesab etmək olar: - **kəklikotu, yerkökü, sacayaq, aşsüzən, ələzyuyan, günəbaxan, susəpən, sarıköynək, qaraquş, üçbucaq** və s. Mürəkkəb sözlərin sırasında mənsubiyyət şəkilçisi qəbul etmiş sözlərdə yer tutmuşdur. Bunlardan **meşəbəyi, çobanyastığı, ayaqqabı, quzuqulağı, dəvəquşu, dağkeçisi,** və şəxs adları: **Həsənoğlu, Azəroğlu, Koroğlu** və s. Burada akademik Məmmədağa Şirəliyevin qeyd etdiyi: "dialekt və şivələrimizdə ədəbi dildən fərqlənən bir çox mürəkkəb isimlərə təsadüf edilir ki, bunlar ya bitişik ya fasilə ilə, ya da ixtisar şəklində ifadə olunur."

Bu fikirdən yan keçmək olmaz, çünki ədəbi dildən fərqli olaraq, dialekt və şivələrimizdə Azərbaycan dilinin ən qədim ünsürləri, sözləri yaşayıb və yaşamaqdadır. Akademikin "Azərbaycan dialektologiya-siyasının əsasları" əsərində yer tutmuş mürəkkəb sözlərə müraciət edək. Bitişik deyilənlər: **Əlsön, Balemi, Ağopba, Ağamdaş, Murşirin, İçərşər, Bölbağ, Qırxəyağ, Qeynata, Qeynana, Bibgəlni, Daydosdu, yeralma, beşatılan, daşsaldı, atqulağı, qızılbırın** və s. (7,37). Bunların sırasında xüsusi isimlərin də bəziləri maraqlıdır. Bunlardan **Daşdəmir**, **Zərqələm, Gülüstan, Gülbahar, Gülbadam, Gülbəyim, Güldənə** və s. bu kimi mürəkkəb şəxs adları da qədimlikdən xəbər verir.

Mürəkkəb sözlərin öyrənilməsi Azərbaycan dilinin tarixi üçün çox vacibdir. F.Zeynalov yazıb ki, "hələ keçən əsrdə belə M.Qiqanov, M.A.Kazımbəy, O.Bötlinq, N.İ.İlminski, M.Terenyev, İ.Deni və başqaları mürəkkəb sözlərə toxunmuş, onlara xas olan bəzi xüsusiy-yətləri göstərmişlər." (5,33). Mürəkkəb sözlərə maraq Sovet dövründə də olmuşdur. Azərbaycan dilçilərindən M.Adilov "Müasir Azərbaycan dilində mürəkkəb sözlər" adlı dissertasiya yazmışdır. Eləcə də, bu problemlə Sovet türkoloqlarından V.A.Qordliyevskinin, N.K.Dmitriyevin, A.N.Kononovun, N.A.Baskakovun, V.V.Nasilovun, S.K.Kenesbayevin, C.Q.Sayfullinin, Y.İ.Ubryatovun, Ş.Ş.Şükürovun, A.F.Qulamovun, A.T.Kaydarovun, M.İ.Adilovun, S.N.Muratovun, B.O.Oruzbayevin, Y.Seyidovun, M.Adilovun və başqaların fikirləri tədqiqatçıları düşündürür. Belə bir fikirə gəlmək olur ki, Azərbaycan dilində mürəkkəb söz problemi məsələsi onda öz tam həllini tapacaqdır ki, dilimizin inkişaf dövürlərini dəqiq müəyyən edək.

Professor Məsud Məmmədovun fikrincə desək, birinci dövr ümumitürk dövrü olmalıdır. Bu dövr daha qədim və daha maraqlıdır. İkinci dövr islamiyyətə qədər dövr, üçüncü dövr Azərbaycan ədəbi dilinin formalaşan dövrü, dördüncü dövr Sovet dövrü və beşinci dövr isə müstəqillik dövrümüzdür. Bu dövrlərin hər birində sözün inkişaf mərhələlərini izləməklə yeni bir fikrə çatmaq olar.

Belə ki, dil, adətən, öz daxili qanunları əsasında dəyişir və inkişaf edir, səsləşir, təkmilləşir, köhnəlmiş qanunları yeniləri ilə əvəz edir. Burada xarici amillərin də az-çox təsiri olur. Buna görə də bəzi amillər ədəbi dilin formalaşmasında, inkişaf

dövrlərindən bəhs edərək din, dövlət quruluşu və başqa cəhətlər nəzərdə tutulmalı və əsas əlamətlərindən sayılmalıdır. Azərbaycanın tanınmış korifey alimi Ə.Dəmirçizadə doğru olaraq yazıb: "burada belə bir məsələni yada salmalıyıq ki, Azərbaycan dili türk dillərindən biridir və bu dil vahid xalq dili halında formalaşan zamanlarda və ondan əvvəl türk dilli tayfalarda runi və soğdi yazılar geniş dairədə işlənilmiş və bu yazılar əsasında Orxan-Yenisey, Uyqur adları ilə tanınan bir çox abidələr də yaradılmışdır." (N.Piqulevskiy, 1941, səh.166). Buna görə də, məhz Azərbaycanlıların bir xalq kimi təşəkkülü dövründə belə yazılardan geniş dairədə istifadə edən türk dilli tayfaların Azərbaycan dilinin formalaşmasında çox mühüm yer tutan **Oquz** və **qıpçaqlarla** sıx əlaqələri vardır (8,77).

Elə bu amillər də sözlə söz birləşməsinin fərqləndirilməsini bir qədər asanlaşdırsa da, mürəkkəb sözlərlə söz birləşməsinin münasibətini müəyyənləşdirmək, onları fərqləndirmək nisbətən çətindir. Bu haqda Y.Seyidov yazıb: "Mürəkkəb sözlər məsələsindəki mübahisəli cəhətlər, dilçilikdə gah mürəkkəb söz, gah da birləşmə adlanan ifadələr və sairə nəzərə alınarsa, bu məsələnin mürəkkəbliyi bir daha diqqəti cəlb edir. Mürəkkəb sözlərin bir çoxunun formalaşma prosesində olması və mürəkkəb söz kimi tam sabitləşməməsi də məsələni çətinləşdirir."(9,44).

Bunun üçün də, vaxtı ilə F.Zeynalov haqlı olaraq yazıb ki, "mürəkkəb sözlər haqqında yazılmış tədqiqat işlərinin çoxluğuna baxmayaraq, yenə bu problem həll olunmamış qalmış, mürəkkəb ad və mürəkkəb fellərin tərkibinə külli miqdarda mürəkkəb olmayan söz qrupları daxil edilmişdir. Məsələn, Azərbaycan dilçilik ədəbiyyatında mürəkkəb sözlərin içərisinə **qanlı bazar günü, çör-çöp, kargüzar, qiraətxana, kitabxana, rusca-Azərbaycanca (lüğət), dil-dodaq (səsi), dil-ədəbiyyat (fakültəsi), uşaq-muşaq, Bakı-Tbilisi-Batumi (istiqaməti), ağ saqqal (kişi), boş-boş danışan (adam), ikinci dərəcəli (iş), müxtəlif cinsli (bitki), insana bənzər (meymun), barmaq şəkilli damarlı (yarpaq), tünd qırmızı (alma), qəbul etmək, təşkil olunaraq, təhər-töhür, bir az, iki dəfə, on kərə, heç yerdə, hər yana, yaddan çıxmaq, qalib gəlmək, vəkil tutmaq, qiymətdən düşmək, qohum olmaq, zəng eləmək, ayrı düşmək, oruc tutmaq, ova çıxmaq, fərqli olaraq, və yaxud da ki, ondan ötrü ki, ağıl-mağıl, ağac-uğac, qaş-göz, ata-bala, təsdiq olunan (vəzifə), daşdan yumşaq, əsir tutmaq, səsə düşmək, gəlmiş idi, hazır ol, daxil et, gələ bilmək, qulaq asmaq, dilə tutmaq, dildən düşmək, o yana, az-çox, bir-az, onun üçündür ki, bir də ki, beləcə də, şuluq-zad, qələm-kağız, əlayağ, gələn-gedən, iki yaşlı (uşaq), getmiş imiş, yola çıxmaq, başa düşmək, qarnı-yoğun, Qız qalası, içəri şəhər, qulaq asmaq, yola düşmək, ağzı möhkəm, gözə girmək, yola salmaq, duz-muz, qapı-pəncərə, dil-dodaq, əlli beş** və s. sözlər daxil edilmişdir. (5,34). Göründüyü kimi, Azərbaycan dilində mürəkkəb sözlər müxtəlif şəkildə şərh olunur, yəni müxtəlif birləşmələr, qoşulmalar, təkrari sözlər, qoşa sözlər mürəkkəb söz kimi qəbul edilir. Bu problem XXI əsrin əvvəlində çap olunmuş əsərlərdə də bir problem olaraq qalmaqdadır. Son dərsliklərdə ümumiləşmə aparsaq, vəziyyət belədir: "Mürəkkəb sözlər bir neçə yolla yaranır deyə yazırlar. 1. İki müxtəlif mənalı sözün birləşməsi ilə: **qurultayqabağı, müxtəliftərəfli, bugünkü, əlüzyuyan, yarımada, hərgecəki, suiti, ayaqqabı** və s. 2. Yaxın mənalı sözlərin birləşməsi ilə: **səs-küy, qohum-qardaş, ab-hava, kafe-restoran, kilovat-saat, toyuq-cücə, oğul-uşaq, yorğan-döşək, qapı-baca, qoyun-quzu** və s. 3. **Antonim** sözlərin birləşməsi ilə: **ölüm-dirim, yer-göy, gedər-gəlməz, az-çox, gecə-gündüz,**

gec-tez, böyük-kiçik və s. 4.**Eyni sözün** təkrarı ilə: **səhər-səhər, yavaş-yavaş, tez-tez, bir-bir, asta-asta**, **qaça-qaça** və sairə yazaraq qeyd olunur ki, mürəkkəb sözlər üç cür yazıılır: **bitişik, defislə** və **ayrı**. (9,37).”

Bu gün bütün yuxarıda gətirdiyimiz fikirləri, misalları nəzərə aldıqca, yenə də professor F.Zeynalovun fikirlərinə qayıdıram, belə ki, indiki vaxtada da alimin yazmış olduğu müddəaları öz elmi əhəmiyyətini itirməmişdir. O yazıb: “Hər şeydən əvvəl onu qeyd etmək lazımdır ki, mürəkkəb sözləri sabit söz birləşmələrinə aid etmək doğru deyil. Bu birləşmələrə sabit vahidlər – frazeoloji birləşmələr aid edilməlidir. Artıq qrammatikləşmiş söz birləşmələrinin tərkibinə daxil etmək doğru olmazdı.” (Məsələn, **aid olmaq, səhərə doğru, söhbət etmək, iş görmək** və s.). Bizcə qoşa sözləri, eləcə də təkrarları da mürəkkəb sözlərin deyil, sabit söz birləşmələrinin tərkibində öyrənmək lazımdır. (5,35). Göründüyü kimi, necə atalar deyib: bu unun xəmiri çox su aparır. Belə halda, hamısını bu kiçik məqalədə geniş və hərtərəfli işiqlanmasına yer tapılmaz. Bu monoqrafik işin zəhmətidir və bu da yaxın gələcəkdə öz dəqiq həllini tapacaqdır.

Ədəbiyyat

1. Ramiz Əskər. Qutadğu Bilig. Bakı, 2003.
2. B.Əhmədov. Azərbaycan dili şivələrindən fono-semantik söz yaradıcılığı. Bakı, 1994.
3. H.Mirzəzadə. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, 1990.
4. M.Hüseynzadə. Müasir Azərbaycan dili. Bakı, 1963.
5. F.R.Zeynalov. Türk dilinin müqayisəli qrammatikası. I hissə (adlar). Bakı, 1974.
6. M.Şirəliyev. Azərbaycan dialektologiyasının əsasları. Bakı, 1967.
7. Ə.Dəmirçizadə. Azərbaycan ədəbi dilinin tarixi. I hissə. Bakı, 1979.
8. Y.Seyidov. Azərbaycan ədəbi dilində söz birləşmələri. Bakı, 1966.
9. Q.Ş.Kazımov. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, 2010.

Mirmahammad Agaev

Problems of compound words in Azerbaijani language

Summary

The article is devoted to complex words, which are still not fully developed in Azerbaijan linguistics. The article based on the views of scientists and linguists consider the matter in a new perspective and argues that the problem in Azerbaijan linguistics remains open.

Мирмагоммед Агаев

Проблемы сложных слов в Азербайджанском языке

Резюме

Статья посвящена сложным словам, которые до сих пор полностью не разработаны в Азербайджанском языкознании. Автор статьи опираясь на взгляды учёных-языковедов, рассматривает этот вопрос в новом аспекте и доказывает, что эта проблема в Азербайджанском языкознании остаётся открытой.

Rəyçi: Professor Məsud Məmmədov

ARİFƏ HÜSEYNOVA
ADU
arifa.h@mail.ru

DİLDƏ İMPERATİV VƏ DEONTİK MƏNTİQ

Açar sözlər : imperativ, deontik məntiq, normalar, məntiqi konsepsiya, mühakimə, qadağa, məcburiyyət, icazə.
Ключевые слова: повелительный, деонтическая логика, нормы, логические концепты, суждение, предпосылка, обязательство, запрет, разрешение
Key words : imperative, deontic logic , norms ,logical concepts, conclusion , premise, prohibition, obligation , permission.

Məntiq doğru əqli nəticənin meyar və prinsiplərini öyrənən və əsaslandıran bir elmdir. İmperativ məntiq isə əmr cümlələrindən ibarət arqumentlərdən bəhs edən məntiqin bir sahəsidir. Əmr cümlələri əsasən göstəriş ifadə edir. Göstəriş isə nitq aktlarının icarsının əmr, məsləhət, xahiş, təklif və s. formalarda ifadəsidir. Dildə ən sadə cümlələr danışanın istəyini bildirməyə xidmət edən bir sözdən ibarət əmr cümləleridir. Əmr cümlələrinin növlərinin araşdırılmasını nisbətən sadə formalardan başlamaq daha doğru olardı: **Hurry**! **Tələs**! **Stop**! **Dayan Scram**! **Çevik ol**.

Bir sözdən ibarət cümlələr onunla fərqlənir ki, onlar modallığa malik olur. Belə cümlələrin maddi təzahürü intonasiya hesab olunur.

Felin əmr formasında işlədilməsi əmr cümlə növlərinin əsas tələbidir. Əmr cümlələrində verilən fellər danışanın icrasını görmək istədiyi hərəkətləri bildirir. Nəqli cümlələrdən fərqli olaraq əmr cümləleri doğru, yaxud yanlış olmur. Başqa sözlə, əmr cümləleri hökm ifadə etmir, çünki onlar hansısa bir məlumat bildirmir. Cism və hadisələr arasında əlaqə və münasibətlər haqqında insan təfəkküründə formalaşmış məlumat və biliklər nəqli cümlələr ilə ifadə olunur. Buna görə də bütün nəqli cümlələr hökm ifadə edir, çünki onlar gerçəklik haqqında müəyyən fakt, məlumat bildirir. İstənilən formada hökmlər ya doğru, yada yalnış ola bilir. Hökmlərə xas bu xüsusiyyətlər onların gerçəkliyə uyğun olub-olmaması ilə xarakterizə olunur. Məsələn, **Ateshgah Temple is in the list of UNESCO heritage** "Atəşgah məbədi YUNESKO irsinin siyahısındadır". **Azerbaijan is non-permanent member of theUnited Nations Security Council** "Azərbaycan BMT-nin qeyri-daimi üzvüdür". Bunlar həqiqi hökmlərdir, çünki bu hökmlərdə gerçəklikdəki əlaqə və faktlar əks olunur. Reallıqda olmayan əlaqələr barədə verilmiş hökmlər yanlışdır. Məsələn: **20 Yanvar faciəsinə beynəlxalq səviyyədə hüquqi qiymət verilmişdir**. **Xocalı soyqırımını dünya dövlətləri tanımır**.

Nəqli cümlələrdən fərqli olaraq əmr cümlələrinin doğru və ya yalnışlıq, cism və hadisələr arasındakı münasibətlər haqqında hər hansı məlumat bildirməməsi qarşıya bir sıra dilemmalar, problemlər və paradokslar çıxarır. Məntiqin prinsiplərindən biri isə məntiqi mənanın doğru olmasının vacibliyinin qorunmasıdır. Müq. et: **Take all the books off the table**. **Foundations off the philosophy is on the table**. **Therefore, take Foundations of philosophy off the table**.

İmperativ arqumenti əqli nəticədən fərqləndirmək üçün arqumentin düzülüşünə diqqət yetirmək olduqca vacibdir, çünki arqumentin doğruluğu

mühakimələrdən alınmış nəticədən asılıdır. Başqa sözlə, mühakimələrin doğruluğu nəticəni müəyyənləşdirir. Verilmiş nümunələrdə əmr formasında olan arqumentlər (hökmlər) məntiqi doğruluğun heç bir standartlarına cavab vermir: **Stolun üstündən bütün kitabları götürün** (birinci mühakimə). **Fəlsəfənin əsasları stolun üstündədir** (ikinci mühakimə) [nəticə]. **Fəlsəfənin əsaslarını stolun üstündən götürün!**

məsələləri onun diqqət mərkəzində olmuşdur. Mirzə Balanın istənilən məqaləsində Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, milli varlığının bu və ya digər məsələsi milli məfkurənin işığında təhlil və qiymət almışdır.

Bu baxımdan milliyətçi ədibin 1938-ci ildə çap olunmuş "Milli Azərbaycan hərəkatı" kitabı milli düşüncə və siyasi hərəkatlarımızın, o cümlədən mühacirətmizin tarixi baxımından misilsiz bir xidməti sayıla bilər. Məmməd Əmin Rəsulzadə rəhbərliyi ilə Polşada çoxsaylı çətinliklər içində buraxılan "Milli Azərbaycan hərəkatı" kitabı əsl milliyətçilik dərsliyi adi və çağdaş elmi-tarixi tələblər əsasında yazılmışdır.

Mirzə Bala Məmmədzadənin ədəbiyyatşünaslıq, folklorşünaslıq və mətbuat tarixçiliyi sahəsində irsi yeni Azərbaycan ədəbiyyatı tarixi yaradılması üçün gözəl bir əsas və mənbəə rolu oynaya bilər.

Xüsusilə İkinci Dünya Müharibəsindən sonra Mirzə Bala Məmmədzadənin elmi fəaliyyəti böyük vüsət almışdır. Türkiyədə çıxan müxtəlif ensiklopedik nəşrlər üçün elmi məqalələr yazamağa dəvət alan Mirzə Bala Məmmədzadə bir neçə ilin ərzində yorulmaz bir türkoloq alimin işini görmüş, ələlxüsus Rusiya türklərinin mədəniyyəti, keçmişi, folkloru mövzusunda onlarla yüksək elmi-nəzəri səviyyəli məqalələr yazmışdır. Bu məqalə və tədqiqatları Azərbaycan türkologiya elminin açılmamış səhifələri saymaq olar.

Vətəndə yaşadığı illər kimi Mirzə Bala Məmmədzadənin mühacir həyatı da məhsuldar və dolğun olmuşdur. 1923-cü ildə mühacirət edən ədib bütün sonrakı ömrü boyu bir mövzuya xidmət etmişdir: Demokratik Respublikanın tarixi gedişatında ! Mirzə Bala Məmmədzadə bir ziyalı və alim olaraq özünü bu respublikanın övladı sayırdı. Tarixi faktlara müstəsna həssaslıq və vicdanlı yanaşan, demokratik respublikanın yaradılması haqda "İstiqlal bəyannaməsi"nə xüsusi kitabça həsr edən Mirzə Bala Məmmədzadə 23 ay yaşayan bu respublikanın ən xırda məsələlərini də öz əsərlərində işıqlandırmağı lazım bilmişdir. Elmi obyektivlik, faktlara tənqidi yanaşmaq bacarığı, siyasi hadisələri bütün mürəkkəbliyi ilə görmək bacarığı onun tarixi araşdırmalarının əsas məziyyətlərindəndir.

İnqilabçı ədib Milli hökümətin tarixi mövzusunda bir sıra bədii publisistik və memuar xarakterli məqalələr yazmışdır. Milli hərəkat tarixinin şanlı səhifələrini gənc nəslə çatdırmaq məqsədi güdən bu bədii nümunələr milli dövlətçilik şüurunun bədii təsviri və təbliği baxımından son dərəcə qiymətlidir.

Eyni istiqamətdəki fəaliyyətin bir qolu da sovet Azərbaycanında gedən ədəbi prosesi, mətbuatı izləmək, onu milli məfkurə və müsavat prinsipləri baxımından tənqid və ifşa etmək idi.

Lakin bu fəaliyyətində də Mirzə Bala Məmmədzadə son dərəcə obyektiv və ədalətli bir ədəbiyyat tənqidçisi idi. Ədəbi fikirdəki bolşevikləşmənin süniliyini tənqid edən və "məfkurəçiliyi" saxta sayan Mirzə Bala Məmmədzadə sovet illərində H. Cavid, C. Cabbarll, S. Vurğun kimi böyük sənətkarların qiymətli əsərlərini təqdir edir, onların milli mahiyyətini açıb göstərməyə çalışırdı.

Bolşevik həbsxanasından şıxıb 1923-cü ildə xaricə gedən Mirzə Bala Məmmədzadə öz müəllimi Məmməd Əmin Rəsulzadəyə qoşuldu və bütün qalan ömrünü 1959 –cu ildə vəfatına qədər müstəqil Demokratik respublikanın ideallarına xidmət etdi.

Bu xidmətin misilsiz tarixi əhəmiyyəti və dəyəri oldu.

Nəticə də çox vəzinli və sanballı idi. 70 il davam edən kommunist epoxasına paralel bir 70 illik müxalifət epoxası da yarandı, yaşandı və 1988 –ci ildə milli hərəkat yaranan kimi fikir və milli geyrət xəzinəsi olaraq vətənə gayıtdı. Kitablar, məqalələr, mübarizə ənənələri kimi və müstəqillik eşqi kimi qayıtdı.

Xüsusilə vurğulamaq lazımdir ki, Məmməd Əmin Rəsulzadənin və Mirzə Bala Məmmədzadənin başçılığı ilə Azərbaycan mühacirətinin vətəndən kanarda gördüyü işlər, yaratdıqları mətbuat, elm, milli ruhlu məfkurə xalqımızın milli şüurunun tərkib hissəsi oldu. Həmin tərkibsiz bu şüur bəlkə də bütöv görünməzdi.

Mirzə Bala Məmmədzadənin ictimai-siyasi, publisistik və ədəbi-bədii irsi xalqımızın milli süurunun zənginləşməsində, tarixi varisliyin əlaqəsinə və inkişafına layiqli nümunələr vermiş dəyərli bir örnək, parlaq bir yaradıcılıq nümunəsidir.

Ədəbiyyat

1.Baykara Hüseyn. Azərbaycan istiqlal mübarizəsinin tarixi. Bakı: Azərnəşr, 1992, 276 s.

2.Əliyev Mövsüm. Mirzə Bala Məhəmmədzadə kimdir? Son söz // Azərbaycan milli hərəkatı. Bakı, 1992, s.241-246.

3.Həsənova Ş. Mühacirət irsindən səhifələr. Bakı: Maarif, 1995, 152 s.

4.Qasımlı Məhərrəm. Aşıq sənəti: Qaynaqları, tarixi, yaranışı və mühitləri. Bakı: Ozan, 1996, 258 s.

5.Yaqublu Nəsiman. Böyük mütəfəkkir. Milli məfkurə adamı» Yeni müsavat» qəz., 1988, 28 fevral

6.Yaqublu Nəsiman. Məmməd Əmin Rəsulzadə. Bakı: Gənclik, 1991, 305 s.

7.Məhəmmədzadə Mirzə Bala. Azərbaycan türk mətbuatı /A.Bayramoğlunun ön sözü ilə.,. Bakı: ADU-nin nəşr-tı, 2004, 83 s.

8.Rüstəmli Asif. Milli mətbuatımızın cəfakeş tədqiqatçısı // Ədəbiyyat qəzeti, 2004, 10 dekabr.

T.Асланова

Мирза Бала Мамедзаде и Мамед Емин Расулзаде

Резюме

В этой статье рассматривается единства и крепкая дружба двух просветителей -Мирза Балы Мамедзаде и Мамед Емина Расулзаде, сыгравших огромную роль в развитии национального самосознания нашего народа. Также в ней подчеркивается глубокое и всестороннее отслеживание этими летописцами мусаватского центра, во время пребывание в иммиграции, событий, тенденций и направлений в области литературы в большевистском Азербайджане. Статья представляет социально-политическое, публицистическое и литературно-творческое наследие Мирза Балы Мамедзаде и Мамед Емина Расулзаде, являющихся достойным образцам и ярким примером обогащения национально-духовного развития нашего народа.

T.Aslanova

Mirza Bala Mamedzade and Mamed Emin Rasulzade

Summary

This article examines unity and strong friendship between two enlighteners Mirza Bala Mamedzade and Mamed Emin Rasulzade, who played huge role in development of national identity of our nation. The article also underlines deep and comprehensive tracking by these chroniclers of Musavat Centre in the period their immigration, events, trends and directions in the field of literature, which were emerged in the Bolshevik Azerbaijan. The article reveals social, political, publicist, literary and artistic heritage of Mirza Bala Mamedzade and Mamed Emin Rasulzade, that created commendable and a creditable examples through enriching national-spiritual development of our nation.

Rəyçi: Şirindil Alışanov
filologiya elmləri doktoru

ELŞAD SƏFƏRLİ

Filologiya üzrə fəlsəfə doktoru
camaro_93@inbox.ru

ABBAS ABDULLA SONETLƏRİNDƏ YENİLİK AXTARIŞLARI

Açar sözlər: sonet, oktava, sekstina, katren, terset, teza, kontaminasiya.
Ключевые слова: нет, октава, секстина, катрен, терсет,теза, контаминация
Key words: sonnet, octava, sextina, catren, terset, teza, contamination.

Sözün əsl mənasında Azərbaycan sonet tipinin müəyyənləşməsi istiqamətində özünün uğurlu poetik axtarışlarına başlayan və bu sahədə demək olar ki, ilk kamil şeir nümunəsinin yaradıcısının istedadlı şair Abbas Abdullanın olduğunu cəsarətlə deyə bilərik. Görkəmli ədəbiyyatşünas-alim S.Əsədullayev "Azərbaycan poeziyasında sonet janrı"[1] monoqrafiyasında dəfələrlə qeyd etmişdir ki, Avropa mənşəli sonetin Azərbaycan tipi, nümunəsi üçün model, poetik kanon, sxem sayıla biləcək variantı hələ yaradılmayıb. Alim bu fikirlərində bulunarkən başa düşürük ki, o, milli sonet şeirimiz dedikdə, klassik sonet janrının bütün ciddi qanun-qaydalarına, tələblərinə, mürəkkəb qafiyə, süjet-kompozisiya quruluşlarına, forma əlamətlərinə riyaət edən və qaydalar çərçivəsində poeziyamıza məxsus milli səciyyəli ənənələri, cizgiləri məharətlə bu şeir ölçüsündə sintez etmək yolu ilə mükəmməl poetik nümunənin, milli sonet tipinin yaradılmasını nəzərdə tutur. Alimin məsələyə bu cür yanaşmasını tamamilə halqı sayırıq. Çünki sonet janrı ciddi kanonik prinsiplərə malikdir və bunu gözləmək mütləq vacibdir. Əks halların mövcudluğu əksinə, janrın strukturunu, kompozisiya quruluşunu sındırır və onu sonetlikdən çıxarır. Bu mənada sonet konservativ, mühafizəkar quruluşa malikdir. Lakin bu heç də o demək deyildir ki, sonet öz çərçivəsində hansısa poetik təkmilləşmə hallarını, yaradıcılıq axtarışlarını inkar edir. Əksinə, digər şeir növlərində olduğu kimi bu janr da yeniliklərə, poetik fikirn ifadə tərzində müxtəliflikliyə, əlvanlığa, rəngarəngliyə, obrazlı düşüncə tərzinin çeşidli elementlərinə, bir sözlə, yaradıcı yanaşmalara özünəxas şəkildə meyillidir. Bir şərtlə ki, sonetin formal əlamətləri mütləq gözlənilsin.

Bu mənada S.Səlmasi, H.Cavid,Ə.Səbur,A.Səhhət, A.Şaiq, M.Müşfiq, S.Rustəm, S.Vurğun, Ə.Cəmil, Ə.Kürçaylı, A.Babayev, Abbasağa, Ş.Aslan, V.Hüseynov da daxil olmaqla tanınmış sonet yazanların yaradıcılığında tam mənasında əsl sonet sayıla biləcək, yəni klassik sonet tipində yazılan nümunələrə təsadüf etmirik. Düzdür, biz heç də bu sonetçilərin sonet yaradıcılığı üzərində xətt çəkməklə inkarçı mövqe nümayiş etdirmək fikrində deyilik. Sadəcə, onların sonet sahəsindəki yaradıcılıqlarına klassik sonet kanonikasının prinsipləri əsasında gələcəkdə əsl Azərbaycan sonet tipinin yaradılmasına təkan verə biləcək, onun təkamülü, formalaşması üçün münbit zəminə çevriləcək və bu prosesi zəruri edəcək vacib mərhələ kimi baxırıq.

A.Abdullanın sonetləri sırasında onun 1980-ci ildə «Gənclik» nəşriyyatı tərəfindən nəşr edilən «Ağlı-qaralı dünya» şeirlər kitabında «Sonet» adı altında gedən yeganə nümunəsində arzuladığımız Azərbaycan sonet şeirinin, tipinin, yaxud modelinin ilk dəfə olaraq mükəmməl elementlərinə təsadüf etdiymiz üçün bu bizi sevindirməyə bilməz. Çünki bu soneti biz A.Abdulla yaradıcılığında sonetin Azərbaycan

tipinin yaradılması yolunda atılan ilk addım, ilk uğurlu təşəbbüs hesab edirik. Fikrimizi ətraflı şəkildə əsaslandırmaq üçün soneti bütövlüklə diqqətə çatdırmağı məqsədəmüvafiq bilirik:

Kəndə qayıtmaqdan yaman qorxuram-
Dünənlə bu günüm orda görüşər,
Dünənlə bu günüm dəyişik düşər,
Oyanar, haylanar köhnə bir yaram.

Təzədən ayrılıq dəmi yetişər-
Təzədən atasız uşaq olaram,
Təzədən bir yurdda təkcə qalaram,
Gözümdən bağçaya-bağa şeh düşər.

Bir payız günündə oğul toyunda,
Anamı görərəm əli qoynunda,
Için-için yanıb külə dönərəm.

Sonra da qanadsız yelə dönərəm,
Anamı gəzərəm eldə-obada,
Onu itirmişəm ötən davada...

[2, s.17-18]

Bu nümunədə Azərbaycan soneti müstəvisində, həqiqətən də istər mövzu, ideya-məzmun baxımından, istər poetik fikirn həlli yönümündən, istərsə də sonetin formal əlamətlərinin, qafiyə quruluşunun, janrın strukturdaxili tələblərinin gözlənilməsi və obrazlılıq yaradan bədii təsvir və ifadə vasitələrindən istifadə məharətinə görə yeniliklərlə rastlaşırıq. Və bu yeniliklər özünəqədər yaradılan sonetlərlə müqayisədə tamamilə fərqli bir mənzərənin fonunda daha çox özünü büruzə verir.

Abbas Abdullanın «Kəndə qaytmaqdan yaman qorxuram» soneti **abba/baab/eef/fgg** qafiyə modelində yazılmışdır. Bu, şeirin yazıldığı və işıq üzü gördüyü 1978-ci ildə Azərbaycan soneti üçün tamamilə yeni bir qafiyə quruluşu idi. Çünki həmin dövrə qədər yazılan nümunələr sırasında belə qafiyə quruluşuna malik elə bir sonetə təsadüf etməmişik. Oktavada, həmçinin qafiyənin nisbətən yüngül, çarpaz şəklindən yox, klassik sonetlər üçün məqbul hesab edilən dairəvi (qapalı) sxemindən istiafdə edilmişdir. Oktavanın birinci katrenində lirik qəhrəmanın kəndə qayıtmaqdan ötrü yaman qorxu hissini keçirməsinin səbəbinin dünənli acılı, ağrılı xatirələrin baş qaldıracağı, atasızlığın, müharibədə hələ uşaq ikən atasını itirməsi və ata niskili, ata həsrətinin ona güc gələcəyi ilə bağlı olduğu aydınlaşır. Bu gününün yerini dünənin tutacağı və köhnə yarasının təzələncəyi haqqında düşüncələri poetik halın, vəziyyətin vəhdətini təşkil edən tezadır. Maraqlı cəhət burasındadır ki, bu katrenin 2-ci və 3-cü misraları bir-biri ilə antoqonist münasibətdə, yəni antiteza mövqeyindədir. Və bu misralarda «dünənlə bu günüm» ifadələrinin anafora qismiində necə də yerində, mükəmməl işləndiyinin, təzadlı psixoloji durumu məharətlə ifadə etdiyinin şahidi oluruq. Ikinci katrendə lirik qəhrəmanın kəndə qayıdacağı halda onda yaranacaq xatirələrə görə yenidən atasız uşaq olacağı, ayrılıq dəminin yetişəcəyi, yurdunda tənhalıq hissini keçiricəyi üçün onun bugünkü xoşbəxt günlərinin yerini

dünənlə bağlı atasızlıq həsrəti, niskili tutacağı haqqında düşüncələri birinci katrendə irəli sürülən teza ilə əkslik, antiteza təşkil edir. Bu da sonetdə teza+antiteza+sintez nəzəriyyəsinin prinsiplərinin gözləndiyini göstərir. Burada birinci katrendə 1-ci misra 4-cü misra ilə, 2-ci misra isə 3-cü misra ilə aralarında qafiyələnir. Ikinci katrenin 1 misrası 4-misra ilə qafiyələnməklə yanaşı, həm də birinci katrenin 2-ci və 3-cü misraları ilə həmqafiyədir. Birinci katrenin 1-ci və 4-cü misraları ikinci katrenin 2-ci və 3-cü misraları ilə qafiyələnmişdir. Göründüyü kimi, A.Abdulla klassik italyan sonetinin qafiyə prinsiplərindən məharətlə bəhrələnmiş, oktavada qafiyənin say məhdudluğuna poetik keyfiyyəti yüksəltmək naminə riayət etmişdir. Katrenlərdə cəmi 2 qafiyə mövcuddur və bunların hərəsi 4 dəfə təkrarlanır, qayıdır. Oktavada sonetin qafiyə prinsipinə tam riayət olunduğunun şahidi oluruq. Və bu qafiyə mükəmməlliyinin nəticəsində katrenlər arasında məna-məzmun bağlılığı çox qabarıq görünür.

Sekstinada 3 qafiyə mövcuddur. Bunların hərəsi 2 dəfə təkrarlanır. Bu da sonet poetikasının tersetlərdəki mükəmməl qafiyə prinsipinə tam uyğundur. Əgər ikinci tersetin 2 və 3-cü misraları birinci tersetin 1 və 2-ci misraları ilə həmqafiyə olsaydı bu, sonetə daha kamil bir qafiyə keyfiyyəti aşılamış olardı. Hərçənd ki, misra sonluqlarındakı sözlərin bir-birinə şəkilcə, səs tərkibi etibarı ilə «da» sonluqlarına görə oxşarlıqları var, lakin bu tersetlərarası qafiyələnmə üçün kifayət etmir. Tersetlərdə poetik fikrin inkişafı da ümumi bir süjet xətti üzrə öz dolğun ifadəsini tapır. Birinci tersetdə konkretləşən, ümumiləşən fikir sonuncu tersetdə sintez fazasında mükəmməl şair ideyasının, şair qayəsinin hasilə gəlməsilə yekunlaşır. Hasil olan poetik ideya sonetin fikir, ideya-məzmun bütövlüyünü mükəmməl qafiyə quruluşu ilə kamil şəkildə təmin edir.

Sonet sənətkarlıq xüsusiyyətlərinə görə də maraq kəsb edir. Şair təkrirdən, onun anafora növündən məharətlə istifadə edir. Katrenlərdə «dünənlə bu günüm», «təzədən» ifadələri təkrarlanmaqla, şeirin poetik təsir gücünü, misraların emosionallığını da artırır, aşılanan ideyanın effektivliyini təmin edir. «Dünənlə bu günüm» ifadəsində dünənlə bu gün arasında yaradılan bədii təzad da məfhumların qarşılaşmasında və poetik təsəvvürün, psixoloji təsvirin ifadəliliyində mühüm rol oynayır. Birinci katrenin 4-cü misrasında «oyanar, hoylanar» sözlərinin daxili qafiyələnməsi də ekspressivliyə xidmət edir. «Gözümdən bağçaya-bağa şeh düşər», «Için-için yanıb külə dönərəm» və «Sonra da qanadsız yelə dönərəm» mübaliğələri, həqiqətən də lirik qəhrəmanın psixoloji durumunu, atasızlıq niskilini, həsrətini, onun ruhi vəziyyətini çox qabarıq, dolğun əks etdirir. Çünki bu sonetdə, S.Rüstəmxanlının A.Abdullanın şeirləri haqqında yazdığı bir məqaləsində qeyd etdiyi kimi "epik ifadə tərzi ilə sözün hissiyata qul olduğu zərif lirika qovuşur" [4, 388].

Bütün, qeyd etdiyimiz sənətkarlıq keyfiyyətləri sonetin uğurlu alınmasını və A.Abdullanın sonet janrında poetik potensiala və məharətə malik olduğunu göstərir. Bu sonet şairin poetik axtarışlarının səmərəli nəticəsidir.

Abbas Abdulla ilk sonetindən sonra da vətən, yurd sevgisinə aid, ana dilinə məhəbbət ifadə edən, həmçinin ata itkisindən doğan həsrətli, niskilli misralarını özündə əks etdirən sonetlər yazmışdır. Və o, bu sonetləri «Azərbaycan sonetləri» adı altında birləşdirərək oxucuların ixtiyarına vermişdir. Və bu nümunələr daha çox Şərq ənənələri ilə Qərb ənənələrinin sintezi xarakterini daşıyır. A.Abdulla yaradıcılığının məhz bu cəhətini nəzərə alaraq onun ukraynalı şair dostu İvan Draç

yazır: "...Abbas Abdulla poeziyasında Şərq ənənələri və nazimləşmiş Qərb qoşa yaşayır " [4, 388]. Lakin təəssüflər olsun ki, biz bu sonetlərdə şairin ilk sonetindəki sənətkarlıq keyfiyyətlərinin, poetik axtarışlarının davamını görmürük. Şair «Azərbaycan sonetləri»ndə qoşma janrının prinsiplərinə daha çox üstünlük verməklə Avropa mənşəli şeirin çərçivəsində də özünün yenilikçi məharətini nümayiş etdirmək istəmiş, bir növ Şərq qoşması ilə Qərb sonetinin kontaminasiyasına çalışmışdır. Lakin onun bu cəhdi sonet janrının daxili strukturunun pozulması, formal əlamətlərinin itməsilə nəticələndiyi üçün heç də istənilən effekti verməmişdir. Onun silsilə sonetləri qoşma janrının qafiyə quruluşunda yazıldığı üçün eyni sxemə malikdir və «Kəndə qayıtmaqdan yaman qorxuram» sonetinin əlvan, dolğun qafiyə xüsusiyyətlərinə və digər keyfiyyət göstəricilərinə bu nümunələrdə təsadüf etmirik. Sonetdən çox bu nümunələr qoşmanın elementlərini özündə birləşdirdiyi üçün hibrid janr təsiri bağışlayır.

Ümumilikdə A.Abdullanın sonetləri yaradıcı, poetik axtarışlara meylli olduğu üçün janrın inkişafına xidmət edən xüsusiyyətləri təcəssüm edən örnəklər kimi təqdirəlayiqdir.

Ədəbiyyat

1.Əsədullayev S.Q. Azərbaycan poeziyasında sonet janrı. Bakı:Mütərcim,2002,68s.
2.Əsədullayev S.Q. Azərbaycan poeziyasında sonet janrı // Azərbaycan, 2003, №6, s. 172-184.
3. Abbas A. Ağlı-qaralı dünya. Bakı: Gənclik, 1980, 68 s.
4. Rüstəmxanlı S. Bu, sənin xalqındır. Bakı: Şərq-Qərb, 1995, 680 s.
5. Həşimli H. Azərbaycan poeziyasında sonet və terset. Bakı:Elm,2003,312s.
6. Həşimli H. Avropa lirik janrları və Azərbaycan ədəbiyyatı. Bakı: Elm və təhsil, 2009, 444 s.
7. Həşimli H. Azərbaycan ədəbiyyatında Avropa mənşəli lirik janrlar: Fil.elm.dok. dis.avtoref. Naxçıvan, 2011, 58 s.

Э.М.Сафарли

Поиски новшества в сонетах Аббаса Абдуллы

Резюме

В статье внимание уделяется сонетному творчеству одаренного поэта Аббаса Абдуллы,относящегося к литературному поколению азербайджанской поэзии 60-х годов.Его стихотворение «Сонет» оценивается как первая удачная попытка в направлении создания «азербайджанского типа» этого жанра.

Также,комментируется идейно-тематические, профессиональные и структурные особенности «Сонет»а и в других образцах такого типа затронуты попытки на контаминацию жанра «гошма» в рамках сонета.

.

M.Safarli

Search of novelty in Abbas Abdullah's sonnets

Sammary

The article deals with the sonnet creation of Abbas Abdulla who was one of the talented representatives of Azerbaijan poetry in the 1960 s,his poet "Sonnet" is considered to be the first initiative in the forming of "Azerbaijan type" of this genre.

The idea-content structure,mastership specifics of the "Sonnet" are explained and in the frame of sonnet the contamination of the genre goshma has been dealt with other examples of this type.

Rəyçi: Tərlan Novruzov
ADPU-nin Folklor və qədim ədəbiyyat kafedrasının müdiri, filologiya elmləri doktoru, professor

AYGÜN HÜSEYNOVA

1950-60-cı İLLƏR ROMANINDA MİLLİ XARAKTER

Açarsözlər: xarakter, roman, əsər, problem, xalq
Ключевая слова: характер, роман, произведение, проблема,
Key words: character, roman, work, problem, folk

1950-60-cı illər Azərbaycan ədəbiyyatına yeni mərhələnin başlanğıcı kimi daxil olmuşdur. Həmin dövrlərdə yaradılan əsərlərdə insanın insana real münasibəti,mənəvi-əxlaqi problemlər, istehsalat prosesində zəhmətlə çalışan insanların qarşılıqlı münasibətləri ilə yanaşı milli xarakter yaratma problemi də öz bədii həllini tapmışdır. Həmin əsrlərdə yazılmış nümunələrdə biz bu xüsusiyyətləri aydın şəkildə görə bilirik. Həmin romanlarımız daha çox müasirliyə,milli xarakter yaratma probleminə və mənəvi əxlaqi məsələlərin həllinə geniş yer vermişdir.

Xarakter problemi çağdaş Azərbaycan nəsrinin ən önəmli problemlərindəndir. Məşhur yazıçı Elçin"Tənqid və nəsr" monoqrafiyasında "roman öz klassik arxitektonikasına sadiq qalacaqmı?" başlığı altındakı mübahisələrə qoşulmuşdur. Yazıçı Elçin xarakter problemini "ədəbiyyatın bədii-estetik keyfiyət göstəricisi " hesab edir. Məlumdur ki, azərbaycan nəsrinin inkişafı da real bədii metodla sıx şəkildə bağlı olmuş, xalq həyatını təsvir etmək,ictimai-tarixi gerçəkliyi əks etdirmək baxımından Azərbaycan nəsri xarakterlər yaratmaq yoluna üstünlük vermişdir. Bu dövrdə yazılmış əsərlər içərisində M.Hüseynin "Səhər" romanında əsas problemi xalqın inqilabi şüurunun oyanması və azadlıq mübarizəsi təşkil etsə də əsərdəki Bayram oəzmliyi,mübarizliyi,qəhrəmanlığı ilə,xalqa sıx bağlılığı ilə odövr inqilab hərəkatı iştirakçılarının xar akterik xüsusiyyətlərini özündə cəmləşdirmişdir. Yəni romanın əsas qəhrəmanının yolu inqilaba və qalibiyyətə doğru olmuşdur. Bayram yaşadığı kənddə yaşayışın dözülməzliyin canlı şahidi olduğu üçün şəhərə gəlir və inqilabi hərəkata qoşulur. Romanda təsvir edilən Bayram obrazı ilə müəllif Azərbaycan kəndlisinin mübarizəsini,dəyanətini və kənd camaatının mənəvi arxasına çevrilən qəhrəman xarakterini yaratmışdır. Eləcə də Bayramın anası Pəri və əmisi İsgəndərin obrazları ilə müharibədən sonrakı Azərbayan kəndlisinin milli tarixi əxlaqa söykənən xarakterini yaratmışdır. Romanda milli gerçəkliklə əlaqələnən cəhətlərin kölədə qalmadığını vurğulayan tənqidçi Akif Hüseynov "Müxtəlifliyin birliyi" kitabında belə yazır ki, milli konkretliyi obrazların, xarakterlərin ailə-məişət səhnələrində, xüsusən kənd həyatının təsvirində belə cizgilərə nisbətən rast gəlirik!

Mehdi Hüseynin "Qara daşlar" romanında da kənddən şəhərə yenicə gəlmiş gənc qəhrəman təsvir edilmişdir. Ancaq bu gənc Bayramdan fərqli olaraq Tahir şəhərdə buruq ustası kimi fəaliyyt göstərir. Yazıçı Tahirin xarakterində milli mənəvi əxlaqa söykənən yeni vətəndaş tipini yaratmışdır. Bu yeni əxlaq tərzinin insanların düşüncə və hərəkətlərinə hopmasını yazıçı Tahirin xarakterində gerçəkləşdirmişdir. Tahirlə anası Gülsənəmin, kolxoz sədri İmran kişinin münasibətlərində yaranmış gərginlik, Tahir-Lətifə münasibətlərindəki dramatizm Tahirin xarakterinə yüklənən və milli əxlaqa uyğun olmayan davranış və düşüncədən qidalanır. Lətifənin namuslu davranışı,qarşısıalınmaz sevgi və ehtirasdan uzaq olması,eləcə də yaşadığı

mühitin milli adət-ənənəsinə daim hörmətlə yanaşması,saflığı,hər zaman təmiz sevgiyə üstünlük verməsi həmin dövr Azərbaycan qadınının əxlaqi davranışa xas xarakterini ümumiləşdirmişdir. Əsərdə mədəni davranışı, humanistliyi, işində həmişə məsuliyyətli olması,gözəl ailə başçısı,öz fəhlələrinə qarşı hər zaman mülayim davranışı, insana bir varlıq kimi yüksək dəyər verən buruq rəhbəri kimi təsvir edilən Qüdrət İsmayılzadə obrazı ilə müharibədən sonra ölkəmizdə buruğa rəhbərlik edən şəxslərin real xarakterini yaratmışdır. Müəllif Mollayev surətini Qüdrət İsmayılzadə qarşılaşdırmışdır. Mollayev siyasi rejimin və manq! urt xara kterli əlaltıların nümayəndəsi kimi tənbəllik və pintiliyi xalqın qanından gələn bir xüsusiyyət hesab edirdisə, Q.İsmayılzadə natəmizliyin nə xalqın qanında olduğunu, nə də milli xüsusiyyətindən doğduğunu söyləyir. Mollayev qəddar siyasəti, yaltaqlığı, ikiüzlülüyü, qəddar zorakılığı və riyakarlığı ilə həmin dovrdə xalq arasından çıxıb vəzifə sahibi olan və xalqa mənəvi əzab verən insanların güclü xarakterini yaratmışdır.(2.225)

1950-60-cı illərdə yazilan əsərlər içərisində öz mövqeyini tutan əsər İsa Hüseynovun "Yanar ürək" dir. Əsərdə raykom katibi kimi təsvir edilən Sultan Əmirli güclü despotdur,özündənrazıdır,insanları özünə itaətə məcbur edi r,o cümlədən əxlaq qanunlarını pozaraq qardaşı oğlunun sevdiyi qızı zorlan özünə arvad etmişdir. O, rayonda yaşayan insanlara ağalıq edərək onların arzu və istəklərinə biganə yanaşmışdır. Beləcə əxlaqsız davranışı ilə rayon rəhbərlərinin daxili xarakterini yaratmışdır. Ancaq Səməd Əmirli obrazı ilə xalqın səsinə səs verən ,onların istəklərinə biganə qalmayan,rayondakı hərc-mərcliyi aradan qaldırmağa çalışan və insanların zəhmətini qiymətləndirən sadə rayon nümayəndəsinin bədii xarakterini yaratmışdır. (4.445)

1950-60-cı illərdə yazılan romanlar içərisində Ə.Vəliyevin "Çiçəkli" romani da təqdirəlayiqdir. Belə ki aparıcı qəhrəman kimi təsviredilən Əziz obrazı öz xarakteri ilə yaşadığı cəmiyyətdə qarşılaşdığı mənfi halları işıqlandırmışdır. Əziz öz xarakteri ilə C.Cabbarlının Yaşar obrazını xatırladır.Çünki hər iki qəhrəma ali təhsillidir, kənddən şəhərə oxumağa gəliblər,! oxuyub qurtardıqdan sonra yenidən kəndə qayıdaraq kənd camaatını qarşılaşdıqları çətin vəziyyətdən çıxarmağa çalışmışlar.Əziz şəxsi rahatlığı üçün yox insanlar üçün bu cür çətinliklərə dözürdü,lakin köhnəlik qalıqları, kəndin mövcud keçmiş adət-ənənəsi Əzizə imkan vermirdi ki,camaata kömək etsin. Deməli, romandakı Əziz obrazı ilə kənddən şəhərə gəlib ali təhsil alaraq xalqı, cəmiyyəti, ailəsi üçün faydalı işlər görməyə çalışan,ağıllı,savadlı, öz vətənini,xalqını dərin məhəbbətlə sevən müasir Azərbaycanlı gənclərimizin ümumiləşmiş bədii xarakterini yaratmağa çalışmışdırsa, kənddə Əzizin fəaliyyətinə mane olan elm və təhsildən bixəbər, cahil və məhdud dünyagörüşünə malik insanların real xarakterini işıqlandırmışdır.

Çağdaş Azərbaycan ədəbiyyatında dəyərli əsərlərdən biri olan "Böyük dayaq romanındakı üstəm kişi obrazı mərdliyi,kişiliyi, namusu, çalışqanlığı, işində məsuliyyətliliyi, sözündə hər zaman düz olan, ailəsinə hər zaman diqqətli olan insanların xarakterini canlandırmışdır.Onun əksi olan Yastı Salman isə namussuz, əxlaqsız, yalançı,fırıldaqçı və insanları doğru yoldan uzaqlaşdıran insanların xarakterini yaratmışdır. Əsərdəki qadın obrazı Maya isə hərəkətlərində əxlaq normalarına zidd getdiyi təsvir edilsə də,əslində namusu, isməti, zəhmətsevərliyi, çalışqanlığı, saflığı və zahiri görkəmi ilə əsl Azərbaycan qadınının milli xarakterini yaratmışdır.

Məşhur roman ustadı İsmayıl Şıxlı öz əsərləri ilə ədəbiyyatımıza yeni-yeni obrazlar və müasir xarakterlər gətirən sənətkarlardan biridir.Beləcə o,"Ayrılan yollar " romanında müasir xarakterlər qalereyasını yaratmağa nail olmuşdur. Əsər şəxsiyyətə pərəstişin ilkin qamçılanmış, üarçılıqdan,boş hay-küydən uzaq ilk Azərbaycan romanı kimi qələmə verilmişdir.Bir kənddə,bir torpaq üstündəyaşayıb çalışanların yolları ayrılır.Bu ayrılığa səbəb insanın təbiətindəki naqislik,dünya malına tamahdır, halal əməyə,düzlük və doğruluğa olan münasibətdir. Buna görə də yazıçı bu romanda iki xarakteri və iki həyata baxışı qarşılaşdıraraq təsvir etmişdir. Eqoist, şöhrətpərəst, adamları qorxu ilə özünə tabe edən,zorakı Kosaoğlu surətində müharibə dövrü və müharibədən sonrakı illərdə kolxozlara rəhbərlik edən sədrlərin ümumiləşmiş xarakteri cəmləşmişdir. Yazışı onun simasında,şəxsində həmin dövrün kolxoz rəhbərlərinin düşüncələrini,həyata,insana münasibətini ustalıqla açа bilir. Müəllif sərt,rəhmsiz, hiyləgər, ikiüzlü, şəxsi mənsəb yolunda əlindən gələni əsirgməyən kolxoz rəhbərlərinin canlı bədii xarakterini yaratmışdır Əsərdəki İmran yaşadığı cəmiyyət, ldığı təhsil, qazandığı dünyagörüşü əqidəli, dönməz, ziddiyyətlə barışmayan insanların xarakterini canlandırır.

Romanda təsvir edilən qadın surətləri isə təmiz əxlaqa,davranışa,həyat tərzinə qayğıkeş və fədakar Azərbaycan qadını və anasının canlı bədii xarakterini yaratmışdır. Əsərdəki Nərgiz, Tükəzban və s.qadın obrazları yaşadıqları cəmiyyətin milli adət-ənənələrinə sadiq, qəlbində övladına sonsuz sevgi bəsləyən,bütün ömrünü övladlarına həsr etmiş anaların,təmiz sevgi ilə sevən,zəhmətsevər,sadə kənd müəllimlərin real bədii xarakterini ümumiləşdirmişlər. Buu romanda yazıçı milliliyi təkcə kəndin etnoqrafiq, adət-ənənə zəminində,dünənlə bağlı əlamətlərində təsvir etmir,başlıcası onu milli xarakterdə arayır,milli xarakterin bu günü kimi təsəvvür edir.

Yazıçı bu romanda cəmiyyətdə mövcud ola vəziyyəti təsvir etdiyi qəhrəmanların simasında üm! umiləşdirməyə çalışmışdır. Əsərdə Kosaoğlu ilə İmran arasındakı konflikt təkcə təsərrüfat sahəsində baş verdiyindən xəbər vermir,eləcə də cəmiyyətin öz daxilində də iki bir birinə zidd xarakterlər qarşılaşdırılır. Həqiqətən də yazıçı romandakı hər bir personajı öz milli xarakterik xüsusiyyətlərilə təsvir etmişdir. Dövrün istehsalat qəhrəmanlarına xas cüzi açıq, ritorik cəhətləri çıxmaqla İmran bir xarakter kimi milli, tipik və fərdi keyfiyyətləri baxımından yazıçının yaratdığı uğurlu obrazdır. Ümumiyyətlə, İsmayıl Şıxlı bu əsərdə mükəmməl milli xarakterlər yaratmağa nail olmuşdur.

Beləliklə bu əsər yazıçı üçün roman məktəbi və xarakterlər yaratmaq səriştəsi olmuşdur. Bu xarakterlər vasitəsilə yazıçı müasirliyin bütün problemlərinə toxunmuşdur. (3.181). Müasir dolğun obraz və xarakterlərə İ Əfəndiyevin 50-60-cı illərdə yazdığı əsərlərdə də rast gəlirik. Xalq, vətən, cəmiyyət. Insanlıq qarşısında mənəvi borca fəal münasibət onun qəhrəmanlarının daxili aləmini müəyyən edir. Onun roman qəhrəmanları ülvi məqsədləri,mübarizliyi, xarakterlərinin bütövlüyü. yaçadığı hiss və duyğuların təbiiliyi baxımından ədəbiyyatda oxucular arasında öz bədii vüsətini tapmışdır. Həmin əsərlərdən biri "Söyüdlü arx" romanıdır. Romanda geniş təsvirə malik obraz Nuriyyədir. Nuriyyə şəhərdən kəndə gələrək mədəni quruculuqla məşğul olan gənc aktrisadır. Ancaq kənddə kitabxana müdiri kimi fəaliyyət göstərir. Onun ən böyük uğuru kənddə unudulub qalmış,toz başmış kəndin kitabxanasını yenidən işlətmək idi. Onun əsas məqsədi kənd camaatını kitabxanaya və mü-

taliəyə cəlb etməkdir Doğrudur, başlanğıcda ona çox mane oldular. Yazıçı Nuriyyə obrazı ilə kənddə kitabxana və məktəb təhsili vasitəsilə insanlar aras! ında ma arifləndirmə aparan kənd müəllimlərinin və bir qrup şəxslərin canlı və dolğun xarakterini yaratmışdır. "Körpüsalanlar " romanında da müəllif Səriyyə və Adil surətləri ilə fərqli xarakterlər yaratmışdır. Səriyyə ali təhsilli gənc qadın olsa da davranışında səhvlərə yol vermiş,ailəsi olduğu halda buldozerçi Qəribcanı sevir. Səriyyənin zəif cəhəti onun həm ailədə,həm də cəmiyyətdə sərbəstliyidir.O, ailəsində özünə qarşı diqqət və qayğını,saf sevgini görmədiyindən ailəsindən uzaqlaşır və ailəsindən ayrılır. Yazıçı bu romanında Səriyyənin simasında ailə-məişətdə daxili boşluqların olduğunu və məcburən bu vəziyyətdən istifadə edib,düşünmədən ailəsini itirən və bədbəxt olan qadınların real xarakterini canlandırmışdır.

Əsərdəki Adil obrazı ilə eqoistliyi, vəzifəpərəstliyi, ailəsinə qarşı laqeydliyi,qadını Səriyyənin saf sevgi və məhəbbətinə soyuq münasibəti həmin dövrdə yaşayan ailə başçısının ,o cümlədən şəhərli gəncin daxili xarakterini yaratmışdır. Həmin xarakterlər vasitəsilə biz müharibədən sonra yaşayan insanların, kənd camaatının bədii xarakterini təsvir etmişdir.

Biz hazırki dövrümüzdə və cəmiyyətimizdə də yuxarıda qeyd etdiyim xarakterlərə tez-tez rast gəlirik. Düşünürəm ki ,bu xarakterlər vasitəsilə bizim daxili dünyamız, mənəvi-əxlaqi davranışımız, həyat tərzimiz, ailə-məişətdəki münasibətlərimiz işıqlandırılır.

Ədəbiyyat

1.Elçin, "Tənqid və nəsr"monoqrafiyası 1945-65
2.M.Hüseyn.Seçilmiş əsərləri. 10-cu cild.
3.Şıxlı İsmayıl.Namərd gülləsi.Bakı, "Yazıçı"1991
4.M.Arif. Seçilmiş əsərləri. I cild!
5.T.Əlişanoğlu. Mirzə İbrahimovun 100 illiyinə

A.Huseinova

In the novel 1950-60 s international character

Summary

In the novel 1950-60s international character Characters which are different from one another were created in Modern Azerbaijan Literature. The heroes of the novels written in 1950-60s helped to show a man's character. We meet perfect characters just in the novels of this period.Modern characters brought great success to every writer. The characters in the novels written in 1950-60s inclined to modernity much more. The characters in these novels differ with their complexity. The images described in the novels of 1950-60s revived separate national characters. Literary characters generalize our period, society and life conditions

А.А.Гусейнова

В 1950-60 годах национальные характеры

Резюме

В 1950-60 годах национальные характеры В современной Азербайджанской литературе созданы разнообразные характеры. Герои романов которые были написаны в 1950-60 годах, помогли открыть характеры человека. Именно в этих временах встречается превосходными характерами.Современные характеры приносит большой успех каждому писателю. В 1950-60 годах характеры больше похожи на характеры современных людей. Художественные характеры сбобщает наши времена, обшества и жизнедеятельности.

Rəyçi**:** Baba Babayev
f.e.d., dosent

А.ГАХРАМАНОВА
Бакинский славянский университет
ayka10_6@hotmail.com

НЕСООТВЕТСТВИЕ ЛЕКСИЧЕСКИХ СУБСТИТУТОВ В ПЕРЕВОДЕ НА СЕМАНТИЧЕСКОМ И ИДЕОЛОГИЧЕСКОМ УРОВНЕ КАК ФАКТОР ИЗМЕНЕНИЯ СМЫСЛА

Ключевые слова: вертикальный контекст, идеология, коннотация, интерпретация
Açar sözlər: şaquli kontekst, ideologiya, konnotasiya, yozum
Key words: upright context, ideology, connotation, interpretation

В настоящей статье предметом нашего исследования является характер влияния неточного выбора субститутов на трансформацию текста в процессе художественного перевода. Объектом исследования является русский перевод романа Дж. Ле Карре «Русский отдел».

“And she had that rare quality which Landau in his flowery way liked to call the Class That Only Nature Can Bestow” (1, 17).

«И у нее было то редкое качество, которое Ландау с присущей ему витиеватой манерой называл Достоинством, Коим Может Наградить Только Природа» (2, 34).

В данном фрагменте обнаруживаются неточности, носящие как концептуальный, так и стилистический характер. Сопоставительный анализ подлинника и перевода позволяет также предположить некоторое фоновое или культурологическое различие, которое вполне может быть обозначено и как когнитивное.

В оригинале, например, использовано слово *flowery*, однозначно подчеркивающее приверженность Ландау, или его пристрастие, к выспренному, торжественному, приподнятому тону. Иными словами, Ландау любил высокопарные выражения.

В переводе в качестве субститута *flowery* избрано прилагательное *витиеватый*. Прежде всего, в семантической структуре лексемы *витиеватый* выделяются такие семантические множители, как «замысловатый», «сложный», «не совсем понятный». На первый взгляд, это слово эквивалентно своему английскому предшественнику, однако, если *flowery* нейтрально, то *витиеватому* всё же присуща некоторая сниженность. Видимо, отрицательная коннотация этого слова связана с представлениями о напыщенности. Интересно, что словари не отмечают этот факт, хотя сама семантизация, представленная в статьях, обнаруживает сниженность. Например, в Словаре С.И.Ожегова слово *напыщенный* описывается следующим образом: «НАПЫЩЕННЫЙ 1. Преувеличенно важный, гордый. *Н. вид*. 2. О речи: чрезмерно торжественный, украшенный. *Н. стиль, слог*» (3, 388). На семном уровне отрицательная коннотация присутствует в конфигурациях «преувеличенно важный» и «чрезмерно украшенный». Что касается представления о напыщенности, то указание на него содержится в статье на лексему *витиеватый* в четырехтомном (малом)

академическом Словаре русского языка, хотя и отсутствует в Словаре С.И.Ожегова. Например: «ВИТИЕВАТЫЙ Лишенный простоты, напыщенный, цветистый» (4, 178).

Может возникнуть возражение такого рода, что указанное в данной статье слово *цветистый* как раз является эквивалентом английского *flowery*, причем, что особенно важно, на уровне внутренней формы. Однако подобное возражение было бы не совсем корректным, поскольку субститутом *flowery* является в тексте перевода не *цветистый*, а *витиеватый*. Кроме того, *цветистый* в статье на *витиеватый* представлено в качестве своеобразного семантического множителя. Дело в том, что семантизация в МАС (Малый академический словарь) состоит из трех элементов, которые, на наш взгляд, неравноправны. Так, конфигурация «лишенный простоты» соответствует по своему характеру дефиниции, в то время как «напыщенный» и «цветистый» сами по себе, т.е. вне дополнительной семантизации, ни о чем не говорят.

Подводя итоги проведенному семантическому анализу, можно еще раз отметить, что русское слово *витиеватый* обнаруживает некоторый негативный коннотативный элемент (хотя это и не отмечается словарями), в то время как английское *flowery* лишено подобного оттенка. Еще одно различие характера, на наш взгляд, заключается в том, что *витиеватый* очень часто означает и «не совсем понятный», «не удобопонятный». Английское *flowery* же просто сигнализирует об «украшениях речи».

Интересно, что слово *витиеватый* в русском переводе задает и соответствующую стратегию. Так, фраза, призванная послужить примером пристрастия Ландау к витиеватости, и действительно оказывается витиеватой: «Достоинством, Коим Может Наградить Только Природа». Эту витиеватость, т.е напыщенность и неоправданную торжественность, в тексте создают вполне конкретные элементы. С одной стороны, устаревшее и стилистически высокое (но совершенно здесь не уместное) местоимение *коим*. С другой стороны, слово *наградить*, поскольку, если речь идет о врожденных качествах, то, следовательно, не о награде, а о даре. Кстати, английское *bestow* и означает не столько «награду», сколько «дар» и именно «природный дар», «дарование».

Более существенным является несоответствие английского *class* русскому *достоинство*. Когда мы говорим о несоответствии, то вполне отдаем себе отчет в том, что переводчики старались подыскать эквивалент английского слова и, разумеется, при этом опирались на узуально существующие значения слов. Именно на фоне подобного соответствия и представляется выпукло несоответствие. Дело в том, что английское *class* в данном контексте скорее соответствует таким концептам, как «шарм», «порода». Обозначая указанное качество в русском переводе как *достоинство*, переводчики, конечно же, не ошибаются. Однако в этом случае имеет место конкретизация и тем самым своеобразное принижение самого указанного достоинства. В Словаре Ожегова слово *достоинство* зафиксировано в четырех значениях, ни одно из которых, на наш взгляд, не соответствует английскому *class*: «ДОСТОИНСТВО 1. Положительное качество. 2. Совокупность высоких моральных качеств, а также уважение этих качеств в самом себе. 3. Стоимость, ценность денежного знака (спец.). 4. То же, что титул (устар.). Графское д.» (3, 180).

Из представленных четырех значений три не подходят совершенно. Остается первое значение: «положительное качество». Но это значение настолько абстрактно, что только в случае ситуативной конкретизации может быть понятным. Следовательно, оно резко отличается от английского понятия, поскольку в подлиннике имеется в виду вполне конкретное явление.

Английское слово, во-первых, носит разговорный характер, во-вторых, означает «класс, высокое качество; шик, блеск». Например: There's not much class about her. — Ей не хватает шика. Real class your sister is. — Твоя сестра просто блеск. - no class. Syn: distinction , excellence , style (5).

Таким образом, *class* от *достоинства* отличается не просто конкретностью и определенностью, но также и экспрессией. Отмеченные признаки позволяют констатировать, что русский перевод является не совсем удачным. Он проигрывает в сравнении с подлинником как в концептуальном отношении, так и в коннотативном. Вообще такая, казалось бы, верная субституция совершенно смещает акценты, поскольку совершенно игнорирует культурный фон. Будучи максимально отвлеченным понятием, *достоинство* как раз в силу отвлеченности ни о чем не говорит. Английское *class* в свою очередь насыщено историко-культурным содержанием, характер которого и определяет уровень экспрессии. Следовательно, снижение уровня экспрессии в переводе плохо не само по себе, оно является результатом совсем другого явления, а именно неверной субституции.

Перевод можно интерпретировать и иначе. Так, в оппозиции *class* /*достоинство* первый член является маркированным. Он обнаруживает семантико-стилистический остаток, который носит концептуальный характер и непосредственно связан с представлениями англичан о людях, их внешности и духовности.

“The strength in her, he decided, came neither from bravado nor insanity but from conviction” (1, 17).

«Сила этой русской, решил он не в браваде, не в безумии, а в глубокой убежденности» (2, 34).

На наш взгляд, перевод неточен как информационно-семантически, так и идеологически. Первое обнаруживает себя, с одной стороны, в несоответствии арифметически выделяемых единиц оригинала единицам, непосредственно составляющим, перевода. С другой стороны, текст искажен в информационном отношении. Например, в переводе местоимение третьего лица женского рода заменяется прилагательным *русская*. Информационная неточность носит более глубокий характер. Так, в оригинале «сила» и ее источник четко разграничены. Сила – это нечто, определенное качество, причину и истоки которого следует искать и найти. В переводе сила и ее причина сливаются, отождествляются: сила=браваде или безумию, или не=равна браваде, безумию. В оригинале *strength came*, где именно *came* чрезвычайно нагружено семантически.

Идеологическое несоответствие, возможно, и не осознается переводчиками. Осознанно или неосознанно, заменяя местоимение на *русская*, переводчики значительно повышают уровень экспрессии текста. Причем эта экспрессия непосредственно носит идеологический характер. Почему мы утверждаем,

что это может быть и неосознанно. Потому что *русская* здесь не просто прилагательное, носящее стилистически нейтральный характер, а, напротив, чуть ли не эпитет, синонимичный таким словам, как *мужественный, стойкий, самоотверженный*. Слово *русский* в данном контексте актуализирует огромный пласт фоновой, историко-культурной информации, от Мальчиша-Кибальчиша до Зои Космодемьянской. Ее сила в убежденности, потому что она русская. Такое представление о русскости характеризует русское сознание и с позиций адресанта и с позиций адресата. Иными словами, *другой* думает о русских и их силе так же, как и русский. Вопрос в том, изменяя подобным образом текст, смеются переводчики над собственными национально-ментальными стереотипами, или делают это бессознательно?

Другая важная деталь, идеологически усиливающая перевод по сравнению с подлинником, связана с конфигурацией *глубокая убежденность*. Так, в подлиннике использована лексическая единица *conviction*, которая определяется как «убеждения, взгляды». Совершенно неоправданное усиление смысла за счет прилагательного *глубокая*, столь же оправдано с точки зрения языковых штампов. Причем важно помнить, что сами такого рода штампы также идеологически окрашены. Дискурс о русскости, несгибаемости, принципиальности, большевизме как одно из устойчивых словесных комплексов включает и словосочетание *глубокая убежденность*. Более того, штампом или языковым стереотипом в рассматриваемом контексте является конфигурация русская+глубокая+убежденность. Всего этого ни на концептуальном, ни на языковом уровне нет в подлиннике. Таким образом, переводчики делают текст русским не только на языковом уровне, но и на уровне идеологическом. Именно поэтому встает вопрос о степени осознанности перевода. Иными словами, если выбор романа Ле Карре для русского перевода квалифицировать как идеологически осознанный, то перевод данного фрагмента придется признать не соответствующим данной идеологической стратегии.

“In spite of glasnost and supposed liberalism of new guidelines, my friend’s novel cannot yet be published in the Soviet Union” (1, 18).

«Несмотря на на гласность и пресловутый либерализм новых установок, роман моего друга пока еще не может быть опубликован в Советском Союзе» (2, 35).

Не совсем ясно, насколько соответствует лексема *пресловутый* английскому слову *supposed*. Следует отметить, что эти два слова отличаются как по значению, так и по возможностям историко-культурной интерпретации. Именно поэтому необходимо было перевести *supposed* как *предполагаемый*.

В Словаре Ожегова слово *пресловутый* дается в следующем значении: «ПРЕСЛОВУТЫЙ (неодобр.). Широко известный, нашумевший» (3, 583).

В семантической структуре слова *пресловутый*, на наш взгляд, центральным элементом является именно отрицательная коннотация, обозначенная в Словаре как *неодобрительное*. Это слово как семантема структурируется не такими множителями, как «очень», «известный», «о котором много говорят» и т.п., а именно негативным, пренебрежительным отношением к тому,

что является «широко известным». Английское *supposed* является совершенно нейтральным.

Фоновая или историко-культурная интерпретация также резко разводит слова *supposed* и *пресловутый*. Более того, с точки зрения глобального вертикального контекста дифференцируются не только и не столько слова, сколько стоящие за ними понятия.

Английское слово и соответствующее понятие «предполагать» означает, что гласность являлась в те годы необходимостью. В контексте актуализируется такая сема, как «ожидать», т.е. «вопреки ожиданиям, несмотря на изменение политического климата в стране». Следовательно, не гласность является ложной и мнимой, а несмотря на существование этой гласности, роман не может быть опубликован.

Совершенно иную тональность и в конечном счете стратегию интерпретации задает русское слово *пресловутый* в переводе. Отрицательная коннотация, присущая этому слову, определяет и характер актуализируемой фоновой информации. Точнее, навязывает тексту отрицательную коннотацию. Текст приходится интерпретировать следующим образом: «никакой гласности не существует, существует только шумиха и ложь вокруг соответствующих лозунгов».

Таким образом, глубинное несоответствие слов *пресловутый* и *supposed* на столь же глубинном уровне смещает акценты и тем самым искажает текст.

Литература

1. 1. Le Carré J. The Russia House. London: Hodder & Stoughton Ltd, 2006.
2. Ле Карре Д. Русский отдел // Иностранная литература, 1990, № 5, 31-78.
3. Ожегов С.И. Словарь русского языка. М.: Русский язык, 1990.
4. Словарь русского языка в 4-х томах. Том 1.: М.: Русский язык, 1981.
5. ABBYY LINGVO×3.

A. Qəhrəmanova

Leksik substitutlarin semantik və ideoloji səviyyədə uyğunsuzluqlari məzmunun dəyişmə amili kimi

Xülasə

Məqalə bədii tərcümədə leksik substitutların uyğunsuzluğu probleminə həsr olunub. Təhlilə ingilis yazıçısı J. Le Karrenin “The Russia House” romanı cəlb olunub.

Təhlil göstərdi ki, tərcümə ideoloji baxımdan rus mədəni-tarixi mühitinə yaxınlaşdırılır. Əksər hallarda leksik substitutların yanlış seçimi mətnin konnotasiyasını dəyişir.

A. Qahramanova

Semantic and ideological disparity of lexical substitutes in translation as factor of change of meaning

Summary

The article deals with the disparities of lexical substitutes in fictional translation. The novel "The Russia House" by English writer J. Le Carre is drawn to the analysis.

The analysis revealed that the translation was brought closer to the Russian cultural and historical environment in terms of ideology. Often the false selection of lexical substitutes changes text's connotation.

Rəyçi: Nidə Məmmədxanova
professor

VƏFA İSMAYILOVA
AMEA Nizami adına
Ədəbiyyat İnstitutunun doktorantı

MİRZƏ FƏTƏLİ AXUNDZADƏNİN ƏDƏBİ GÖRÜŞLƏRİNDƏ TÜRK POEZİYASININ DƏYƏRLƏNDİRİLMƏSİ

Key words: M.F.Akhundzade's theoretical views, the West – Russia – Turkey – Azerbaijan, M.J.Rumi, on poetry and prose

Açar sözlər: M.F.Axundzadənin nəzəri görüşləri, Qərb-Rusiya-Türkiyə-Azərbaycan, M.C.Rumi, nəzm və nəsr haqqında

Ключевые слова: М.Ф.Ахундзаде, критическое отношение , тюркская поэзия, Низами, Руми, Фузули.

Cəmiyyət tarixinin müxtəlif tipli təkamüllərindən bəllidir ki, ömrü yüzilliklərlə ölçülən ictimai quruluşlar maddi və mənəvi güclərinin ehtiyatlarını istifadə edib tükətdikdən sonra qanunauyğun şəkildə öz yerlərini daha mükəmməl, təzə ruhlu mədəni başlanğıcların əsasına verməklə, bunların yaşamları üçün yeni zəmin yaradır. Həmin inkişaf qanunauyğunluqları qabarıq və eyni zamanda dərin səviyyədə, Qədim Şərq və Qərb (Avropa) dünyalarının mədəni həyatlarında ardıcıllıqla təkrarlanmışdır. Qədim Hind, Çin, Misir, Babil və s. mədəniyyətlərin qarşılıqlı təsiri və son olaraq da Avropa mədəniyyətinin başlanğıcı və beşiyi hesab edilən "Ellin-Yunan" dünyasına açıq nüfuzu vicdanlı elm dünyasında birmənalı şəkildə qəbul edilmiş gerçəklikdir. Həmin təsirlərin sonu olaraq Yaxın Şərqdə yaranıb genişlənmiş, dünyəvi deyilən dinlərin – xristianlıq və islamiyyətin tarix səhnəsinə çıxması ilə, bu ruh dünyalarının və yaratdıqları mədəni dəyişikliklərin Avropa ruhu üzərindəki izlərinin yeni eranın əvvəlindən başlayaraq müasir dövrədək davam etməsi də danılmaz həqiqətdir.

Təəssüflə qeyd edilməlidir ki, dünya mədəniyyətində hər nə qədər ənənələr alıb-verilməklə zənginləşmə getsə də XIX əsrdən başlayaraq istər Azərbaycan, istərsə də Türkiyə coğrafiyasında yaranan ədəbiyyat və mədəniyyət adətən Qərb tərzli bir hadisə kimi izah olunmuşdur. Tədqiqatçılar qərbdən gələn ənənənin yaşama mücadiləsində sintezləşmə prosesini bir o qədər də diqqət mərkəzində saxlamamışlar. Bu cür yanlış görüşlərə qarşı tənqidi münasibətlərlə də rastlaşırıq. (10,5-6)

İnsan və bəşəriyyətin təkamülünü səciyyələndirən dəyişilməz bir ölçü vahidi var ki, insansız cəmiyyət, cəmiyyətsiz də insan mümkün deyil. Yəni insanı daxil olduğu cəmiyyət, mühit yetişdirib kamilləşdirir, təkrar olaraq da həmin insan və insanlar üzvü olduğu cəmiyyətin daha mükəmməl gələcəyi üçün təsiredici gücə çevrilirlər. İstər tarixi-siyasi, istərsə də ədəbi-mədəni cəhətdən olsun, bəşəriyyət tarixinin mütərəqqi dərəcəli hər hansı dövrünün yaranmasını və ya hər hansı tarixi şəxsiyyətin yetişməsi səbəblərini yaradan cəhətləri dərk etmək üçün, sözsüz ki, həmin səviyyəni yetişdirib yaradan şərtləri incələyib dəyərləndirməliyik.

XIX əsrin ilk yarısında Azərbaycanda xanlıqların dağınıqlığı və İranın Rusiyadan zəifliyi bu bölgənin işğal zonasına çevrilməsi ilə nəticələndi. Belə bir ziddiyyətli şəraitdə Azərbaycanın vətənpərvər övladları, təbii ki, daha gərgin vəziyyətdə idilər. Rus çar hakimiyəti özü ilə bərabər üsul-idarədən başlamış

təhsil, mədəniyyət, məişətə qədər bir çox dəyişikliklər gətirmişdi. Onlar dəyişmələrin özlərinə yaxın olan erməni və gürcülərdən daha çox yerli türk-müsəlmanlar arasında yayılmasına maraqlı idilər. Çünki bu dəyişikliklər onların təsir altına alınmasına yardım edirdi. Yerli ruhanilərin və xan-bəy nəslindən olanların xalqa təsirini azaltmaq üçün bu sahədə xüsusi siyasət yürüdür, onları sıxışdırır, əvvəlcədən hakimiyyətləri olmayanlara müəyyən güzəştlər edərək onlardan saxta bəy və ruhanilər düzəldərək öz tərəflərinə çəkirdilər. Çar Rusiyasının bu siyasəti dövrün ədəbiyyatında, xüsusən də S.Ə.Şirvaninin satiralarında öz tənqidi ifadəsini çox gözəl tapmışdşır.

Azərbaycanda, eyni zamanda Osmanlı imperiyasında elm, təhsil, ədəbiyyatda köhnə ənənələr davam etməklə bərabər, qərb, rus düşüncə tərzinə uyğunlaşmış yeni təfəkkür tərzi formalaşırdı. XIX əsrdə klassik Şərq ədəbiyyatı, eləcə də xalq yaradıcılığının bütün sahələri hələ də öz təsirini və yaranışını qoruyub saxlamaqda idi. Maraqlı idi ki, cəmiyyətdə baş verən hadisələr fonunda klassik istiqamətdə və xalq ədəbiyyatında hətta irəliləyiş müşahidə olunmaqda idi. Bu o demək deyildi ki, işğalçı güclər klassik irsin və xalq yaradıcılığının inkişafına şərait yaradırdılar. Səbəb dövrün ziddiyyətləri ilə bağlı idi. Dövrün məşhur şairləri Nigari, Natəvan, S.Ə.Şirvani, Nəvvab, Q.Dərbəndi və bir çox başqaları yüksək səviyyədə klassik irsi yaşadır, Aşıq Musa, Aşıq Məhəmmədhüseyn, Aşıq Alı, Aşıq Məhəmməd, Aşıq Ələsgər kimi söz ustaları saz-söz sənətini daha da inkişaf etdirirdilər.

Artıq qərb baxış tərzi yönündə maarifçilik də cəmiyyətin yeni fikirli ziyalılarının yaradıcılığı ilə kök atmaqda idi. Abbasqulu ağa Bakıxanov, İsmayıl bəy Qutqaşınlı, Qasım bəy Zakir və məsləkdaşları tərəfindən ədəbiyyatımıza rüşeymləri gətirilən maarifçilik Mirzə Fətəli Axundov tərəfindən daha kəskin dönüşlə irəlilədi və H.B.Zərdabinin ətrafına topladığı yeni qüvvələr və onların tərəfdarları ilə hərəkat halını aldı. Bu hərəkatda XIX əsrdə klassik irsin müəzzəm davamçısı Seyid Əzim Şirvaninin də xüsusi xidmətlərinin olması o dövrdə yenilişmənin təbii proses kimi qaşılanmasının əsas göstəricilərindəndir. Lakin heç də bütün ziyalılar Seyid Əzim kimi keçmiş və yenini uzlaşdırmağa çalışmırdı. Bu cür uzlaşdırma cəhdləri İsmayılbəy Qasir, Məhəmməd Tağı Sidqi kimi ziyalıların da fəaliyyətlərində müşahidə olunmaqda idi. Lakin keçmiş və yeni arasında daha çox cəbhələşmə müşahidə olunmaqda idi. Sırf ədəbi yaradıcılıq ölçüləri ilə hər iki bölünməni qiymətləndirsək, hər biri öz ruhuna uyğun olaraq təkamül prosesi keçirməkdə idi, ancaq XIX əsrin sonlarında və XX əsrin əvvəllərində qədim ənənəvi sahənin bəzi qollarında durğunluq yaranır, maarifçi istiqamət isə möhkəm əsaslarla daha da inkişaf edir və yeni cərəyanların formalaşmasında zəmin rolu oynayır, sosializm dövrü ərəfəsində və sosializm dövründə tamamilə fərqli yeni ruh olaraq gerçək sənətdən uzaqlaşmağa xidmət edir. Necə ki realizmin və qərb yönümlü fərqli ədəbi cərəyanların təməli XIX əsrdə atılır, eləcə də sosialist realizmi metodunun yeni, fərqli insan yetişdirmək və keçmişi insanların beynindən yumaq kimi siyasi-metodoloji mahiyyətinin də rüşeymləri elə maarifçiliyin içərisindən cücərməyə başlayır. Bu mənada maarifçi realizmin ədəbi-mədəni fikir tariximizdə oynadığı rol çox mühümdür. Onu da nəzərə alsaq ki, maarifçi realizmin bütün parametrləri ilə ədəbiyyatımıza gəlişi Mirzə Fətəli Axundovun yaradıcılığı ilə təmsil olunur o zaman bu yaradıcılığın

hələ bir çox istiqamətdən təhlilə cəlb olunmasına elmi tələbat uzun müddət davam edəcəkdir.

Sosialist realizminin maarifçi realizmlə doğmalığındandır ki, sovet tədqiqatlarında onun bolşevizm ideologiyasına uyğunlaşdırılması problem törətməmiş və sosializm ondan ideoloji baza kimi faydalanmışdır.

Bolşevizm ideologiyasının ciddi təsiri altında olan sovet ədəbiyyatşünaslığında kökləşmiş düşüncələrdən biri budur ki, yenilikçilik ideyaları Qafqaz və Orta Asiyaya rus işğalının gətirdiyi mütərəqqi ruh halıdır. Bu yanlış fikir sovet dövrü tədqiqatlarından aparıcı xətt kimi keçir və realizmin də inkişafı birbaşa rus ədəbiyyatının təsiri kimi izah olunur. (17;18) Rus ədəbiyyatşünaslığının realizmə aid tədqiqatları isə heç də hər şeyin üst-üstə düşmədiyini göstərir. (19) Bunun yalnışlığını rus işğalı olmayan Şərq ölkələrində, bizə yaxın olan Osmanlı və İran dövlətlərində baş verən yeniləşmələr sübut edir. (9,16-26) Rusiya işğalı olmasaydı belə xalqın mütərəqqi fikirli ziyalıları dünyada gedən yeniləşmə, elm və texnologiyanın inkişafı məsələlərinə biganə qalmayacaqdı. İlk maarifçilər kimi tanıdığımız Abasqulu Ağa Bakıxanovun, İsmayıl Bəy Qutqaşınlının Qərbə çıxışı Rusiya vasitəsilə olsa da onların yaradıcılıqlarında hər hansı bir rus ədəbi-mədəni hadisəsinin təsiri duyulmur. Əgər işğalçılıq amili olmasaydı belə Abbasqulu Ağa Bakıxanov, İsmayıl Bəy Qutqaşınlı, M.Cəfər Topçubaşov, Mirzə Kazım bəy və s. kimi dövrün imkanlı ailələrinin övladları sözsüz Qərbi yenə də tanıyacaq və Şərqin geriləməsinin qarşısını almaq üçün dünyadakı yeniləşmələr fonunda yollar arayacaqdılar. Necə ki, Osmalı dövlətində İbrahim Şinasi, Namiq Kamal, Əbdülhəq Hamid, Recaizadə Əkrəm və bir çox başqaları hər hansı bir işğal olunmuş dövlətdə yaşamadan bunu etdilər. Yeniləşmədə Rusiya amilinin oynadığı rol milli mədəniyyətimizə müsbətdən bir çox baxımdan öz mənfi təsirini göstərdi. Bunu daha aydın şəkildə Axundovun yaradıcılığında izləyə bilərik. Ədəbiyyatımıza yeni mərhələnin memarı kimi daxil olan Mirzə Fətəli Axundov müasirləşmənin ədəbi hadisə kimi formalaşmasında böyük cəsarət və fəaliyyət göstərmişdir. Dünyada gedən elmi-texniki tərəqqi və ədəbi dəyişmələri zamanında həssaslıqla qarşılayan ədib zamanın mədəni sifarişini yüksək hazırlıqla cavablandırmışdır. Təəssüf ki bu sifarişlər içərisində Rusiyanın da maraqları var idi. Çarizmin məmuru olan Axundov bir sıra milli əhəmiyyətli hadisələrə yad baxışların təsiri ilə yanaşmışdır. Bu cür yanlışlıqların bir təzahürü də Axundovun ədəbi-tənqidi görüşlərində, türk ədəbiyyatına münasibətdə üzə çıxır. Onun bu haqda fikirləri öz ifadəsini əsasən "Nəzm və nəsr haqqında" və "Mollayi Ruminin və onun təsnifi babında" məqalələrində tapmışdır.

"Nəzm və nəsr haqqında" məqaləsində məqsəd şeirin, nəsrin nə olduğunu izah etmək və onun Şərq ədəbiyyatında yerini müəyyənləşdirməkdir. Daha doğrusu, Sərq ədəbiyyatında nəsrə az diqqət yetirilməsinə, şeirdə məzmundan artıq formaya önəm verilməsinə tənqidi yanaşmaqdır. Bu məsələni incələyərkən fikrindəki, ruhundakı haçalanma üzə çıxır. Bu, dövrün, içində olduğu mühitin belə böyük bir şəxsiyyətə bəxş etdiyi bir "töhfə" idi. Şeirin ədəbiyyatdakı yerini, özünəməxsus xüsusiyyətlərini, hardasa, düzgün müəyyənləşdirməyə yaxınlaşırsa da, onun əsas qayəsinin izahında bitərəfliyə yol verir. Dinləyicilərə zövq bəxş etmə, həzz vermə, yeri gələndə hüzn yaratma funksiyasını şeirin əsas cəhəti kimi daha qabarıq planda önə çəkir. Hiss olunur ki, müəllif həmin hissiyyatı

daha çox realist planda görməyi arzulamışdır. Bu prinsiplə də Şərq divan şeirinə yaxınlaşır. Elə ona görə də məqalədə şair kimi yüksək qiymətləndirdiklərində də qüsur görür." Tarixi-hicridən bu zamana qədər milləti-islam arasında bir kimsənə şeir ilə nəzmə fərq verməyib, hər nazimin adına bərxilafi-həqq şair deyiblər. Şeir əlahidə bir bəxşi-ilahidir və maddeyi-qabiliyyəti-şair xudadadədir və təhsil və tərbiyət o maddənin ancaq inbisatına və əşarın artıq zinətinə bais olar. Belə maddə sahibləri çox nadir vücuda gələrlər. Əhli-fürsdən ancaq Firdövsi və Nizami və Cami və Sədi və Mollayi-Rumi və Hafiz şairdirlər. Bunların da qüsuru budur ki, bir para məqamda izhari-fəzl üçün xilafi-təbiətü adət köftgü ediblər. Belə məqamlarda onların xəyalatına da şeir demək caiz deyil, ancaq mənzumati-məqbulə və pəsəndidə demək olar". (2,202) Axundov şair dediyi bu tanınmış şəxsiyyətlərə belə ikili münasibət bəsləyirsə, Şərqin bir çox digər nüfuzlu şairlərinin yaradıcılığını, ümumiyyətlə, dəyərsiz hesab edir.

"Nəzm və nəsr haqqında" məqaləsində Füzuliyə münasibətdə irəli sürdüyü fikir ədəbiyyatşünaslıqda, eləcə də oxucular arasında ciddi mübahisə və etiraz yaratmışdır. Bəlli məsələdir ki, bütünlükdə Şərq islam, eləcə də dünya ədəbiyyatı tarixində Tanrı sevgisi və dini təxəyyüllə insanın daxili dünyası və bütün varlıqlar aləmini bir dəyərdə, ölçüdə, uzlaşmada birləşdirən ən böyük dahilərdən biri Füzulidir. Füzulinin dünyəviliyi və ruhaniliyi eyni səviyyədə və tam vəhdətdədir. Elə buna görə də hər iki istiqamətdə böyük davamçıları var. Füzulinin xələfləri dünya səviyyəli şairlər olublarsa, onda dahini qiymətləndirməyə başqa bir dəlilə ehyiyac qalmır. Qərb ədəbiyyatında belə nüfuz dairəsinə görə onunla Dante müqayisə oluna bilər.

İslam öncəsi fars ədəbiyyatından kimsənin adı M.F.Axundov tərəfindən çəkilmir. Onun müsbət yöndən dəyərləndirdiyi Firdovsi, Nizami, Rumi (Axundov Nizami və Rumini fars şairi kimi təqdim edir - V.İ.), Cami, Sədi, Hafiz islam mühitində və təsirində yetişmiş şəxsiyyətlərdir. Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, Axundovun klassiklər içərisində ən yüksək münasibət bəslədiyi şəxs Firdovsidir. Ona qarşı rəğbəti yaradıcılığında ardıcıl izlənilir. Bunun ən aydın ifadəsi ilə M.F.Axundovun "Kəmalüddövlə məktubları" fəlsəfi traktatında rastlaşırıq. (3,37-38) Lakin ədəbiyyat tarixi, yaşanan poetik ənənə sübut edir ki, həmin mühitin səciyyəsində ən geniş əhatə dairəsi və uğur Füzuliyə aiddir. Füzulinin farscanı farsdan, ərəbcəni ərəbdən daha yaxşı bilərək yaratdığı şah əsərləri qiymətləndirməmək nə qədər əsassız və məntiqsiz görünür: "Bəhər surət türk arasında dəxi bu zamana qədər mütəqəddimindən şair olmayıbdır. Füzuli şair deyil və xəyalatında əsla təsir yoxdur; ancaq nazimi-ustaddır." (2,203)

Axundovun bu fikri ədəbiyyatşünaslıqda özünə ardıcıllar tapmadı. Ondan sonrakı ədəbiyyatşünaslıq mərhələsində - XX əsrin ilk onilliklərində Firudinbəy Köçərli, Abdulla Sur, Bəkir Çobanzadə kimi ciddi tədqiqatçılar birbaşa Axundova cavab verməsələr də onların Füzuli haqda yazdıqları Axundovun türk ədəbiyyatı və Füzuli haqda söylədiklərini təkzib edir. Firudinbəy Köçərli yazır: "Molla Məhəmməd Bağdadi (Füzuli – V.İ.) türk şairlərinin babası sayılır." (1,68) Abdulla Sur Füzulinin böyüklüyünü onun yaşadığı dövrdəki türk nailiyyətləri ilə əlaqələndirir: "Onuncu qəmi-hicridə, türk sətvətinin Hindistan dənizlərini dalğalandırdığı, Avropa qəlbgahlarını titrətdiyi bir dəmdə ərəblə əcəmin, Fəratla Dəclənin arasında zəmzəmi-ərəb ilə gülabi-varsın imtizacından hüznəngiz, riqqətəf-

şan bir fəvvareyi-qəramalud fışqırmağa başladı ki, "Şeyxüsşüəra" gənc Füzulu iştə o fəvvareyi-ədəbiyyət idi." (1,88) Bəkir Çobanzadə daha da irəli gedərək Füzulini böyük ənənələri və möhtəşəm tarixi olan türk ədəbiyyatının yeni bir çağının böyük nümayəndəsi kimi təqdim edir: "Füzulidən çox əvvəl gəlmiş, keçmiş türk şairləri, alim və həkimləri, filosofları vardır. Füzuliyə gəlincəyə qədər türklər bin yıldan ziyadə bir ömrə malik ədəbiyyat və olduqca böyük, şöhrətli, qüdrətli qələmlər doğurmuşlardır. Bunlardan Orxun, Turfan kitabələrinə, "Qudatqu-bilik", "Divani-lüğat-üt-türk", ümumiyyətlə, uyğur, cığatay namlarilə anılan dövrlərə işarə edərsək nə demək istədiyimiz anlaşılmış olur." (1,111)

Sovet ədəbiyyatşünaslığı inkişaf etdikcə Axundov kultlaşdırılmış və onun fikirlərinə, o cümlədən də Füzuli və Türk ədəbiyyatı haqqında səslənənlərə ehtiyatla yanaşılmış və müəllifə haqq qazandırmaq istəmişlər. İlk haqqazandırma Cəfər Cabbarlıya aiddir. O, öz fikirlərilə dolayı yolla Axundovla eyni mövqedən çıxış edir. Belə mülahizə yürüdür ki, Füzuli Azərbaycan ədəbiyyatını ərəb-fars girdabından dartıb çıxarmış, bir boşluqda yaratmışdır. Mühit, yəni zəif Azərbaycan (türk-V.İ.) ədəbi mühiti bu zirvəyə qalxa bilmədiyi üçün onun altında qalıb əzilmişdir. "Beləliklə, ədəbiyyat getdikcə həyatdan uzaqlaşır, ayağı həyat torpağından üzülür, bayağılaşır, düşgünləşir və çıxılmaz bir tilsim içərisində çırpınırdı. Birinci olaraq bu cadulanmış gedişə qarşı çıxan, bu saxlanmaz axını toxdadan, bu çıxılmaz yoldan çıxan və bu qırılmaz qəzəl və qəsidə tilsimini qıran Mirzə Fətəli Axundov olmuşdur." (12,103) Belə çıxır ki, Füzuli böyük şair olmaqla bərabər, həm də böyük günah sahibidir. Onun günahlarını təmizləmək isə Mirzə Fətəli Axundova nəsib olmuşdur. Bundan əlavə, Füzulinin bir boşluqda ədəbiyyat yaratmasından və onun altında qalıb əzilənlərdən söz açmaqla Cəfər Cabbarlı da Axundovun "Bəhər surət türk arasında dəxi bu zamana qədər mütəqəddimindən şair olmayıbdır", fikrini bir daha təkrarlamış olur.

Cəfər Cabbarlıdan sonra ədəbiyyatşünaslıqda Kamal Talıbzadə və Yaşar Qarayevin fikirləri maraqlıdır. Hər iki ədəbiyyatşünasın görüşləri bir-birini tamamlayır. Onlar M.F.Axundovun Füzuliyə baxışını maarifçi estetikanın romantik ədəbiyyata münasibəti ilə izah edirlər. (15,60-63; 8,72) Bununla da həm Füzulini, həm də Axundovu qorumağa cəhd göstərirlər. Füzuliyə münasibətdə maarifçi estetikanın da ilk başlanğıcda inkarçılığı mümkün idi. Lakin Axundovun münasibətini yalnız maarifçilik məsələsi ilə məhdudlaşdırmaq da doğru deyil.

Kamal Talıbzadə və Yaşar Qarayevdən fərqli olaraq Akad.Məmməd Cəfər Cəfərov Mirzə Fətəli Axundovun Füzuliyə verdiyi dəyərlə heç cür razılaşa bilmir. Mirzə Fətəli Axundovun ədəbi-tənqidi görüşlərinə həsr etdiyi əsərdə bu haqda yazır: "Mirzə Fətəli Axundovun Füzuliyə verdiyi qiymət büsbütün yanlışdır. O, Füzulini şair deyil, nəzm ustası adlandırır. Halbuki Axundovun həqiqi şairdən tələb etdiyi bütün xüsusiyyətlər Füzulidə vardır. Şübhə etmək olmaz ki, Mirzə Fətəli Azərbaycan poeziyasında Füzulidən sonra olan təqlidçiliyə, epiqonçuluğa qarşı bu fikri irəli sürmüşdür və ya Füzulidə olan müəyyən mücərrədlik ilə razılaşmadığına görə belə etmişdir. Hər necə olursa-olsun, Axundov böyük Füzuli haqqında doğru rəy söyləməmişdir." (4, 170) Məmməd Cəfər Cəfərov tədqiqatında Axundovu dolayı yolla təkzib etmək üçün maraqlı bir üsuldan da istifadə etmişdir. O, Axundovun şeirdən nələri gözlədiyini incələyər-

kən onlara cavab verəcək mükəmməl şeir nümunəsi kimi daha çox Füzulinin yaradıcılığına müraciət etmişdir.

Mirzə Fətəli Axundov haqqında yazan bir çox ədəbiyyatşünaslar isə bu məsələnin ümumiyyətlə dərinliklərinə getmək istəməmişlər. Məsələn, Cəfər Cəfərov M.F.Axundov haqda monoqrafiyasında heç bu problemə toxunmamışdır. (16)

Müstəqillik dövründə Axundov-Füzuli məsələsi yenidən gündəmə gəldi. Həm Füzulidən, həm də Axundovdan yazanları bu sual bir daha düşünməyə vadar etdi. Bu haqda son illərin ədəbiyyatşünaslığında aşağıda ifadə olunan fikirlər diqqəti daha çox cəlb edir.

Həm Mirzə Fətəli Axundovun, həm də Kamal Talıbzadə və Yaşar Qarayevin fikirlərinə tənqidi mövqedən yanaşan Gülşən Əliyeva "Azərbaycan Füzulişünaslığı" monoqrafiyasında Füzulini istər şair olmamaqda, istərsə də yaratdığı "Füzuli boyda kölgə, kabus" (ifadə Y.Qarayevə aiddir – V.İ.) yaratmaqda ittiham edənlərə qarşı çıxır. M.F.Axundov öz maarifçi fəaliyyəti ilə hər nə qədər faydalı xidmət göstəribsə də "türkün əzəldən şairi olmayıb və Füzuli şair deyil" kimi özünə yol açmaq üçün söylədiyi fikirlərilə ədəbiyyat tarixinin dəyərləndirilməsinə və ədəbiyyat tarixi elminin yaranmasına ciddi zərər də vurubdur. (6,76-78) Tədqiqatçı Axundovun türk ədəbiyyatı haqda söylədiyi fikrinin, türk ədəbiyyat tarixçiliyinin doğru konsepsiyasının müəyyənləşdirilməsinə maneə yaratdığını bildirmək istəyir.

Ali məktəblər üçün "XIX əsr Azərbaycan ədəbiyyatı" adlı dərsliyində professor Tahirə Məmməd Axundovun Füzulini şair saymamasını onun Füzulinin ən qüdrətli şair olmasını etiraf etməsi kimi qiymətləndirir. Çünki Axundov ən kəskin mübarizəsini ən güclü olanlara, sütunlara qarşı aparırdı, onları laxlatmağa çalışırdı. O, Füzulinin Axundov tərəfindən şair hesab etməməsini aşağıdakı sistem daxilində qiymətləndirir."XIX əsrin ən böyük müasirləşmə ideoloqu M.F.Axundov idi. O, müasirləşmə yolunda bütün əski sütunlara qarşı üsyana qalxdı. Peyğəmbərin, Qur`anın, ilk islam xəlifələrinin toxunulmazlığına qarşı çıxdı. Yenini gətirmək məqsədilə M.F.Axundov ənənəvinin əsas dayaqlarını ironiya və tənqid hədəfinə çevirdi. Füzuliyə münasibəti də bu məqsəddən qaynaqlanırdı. Füzulinin zirvə, sütun olduğunu qəbul etdiyi üçün "maarifçi taktika" ilə onu şair saymırdı. Cəlaləddin Rumini mahir ateist hesab etməklə sufizm təriqətlərinin mahiyyətini yanıltmaq istəyirdi. O, poeziyada Füzuli və Rumiyə şübhə yaratmaqla yeni ədəbi qüvvələri onların sehrlərindən uzaqlaşdıracağını düşünürdü.

Hətta Şərqdə islamın və Şərqin ən böyük dayağı sayılan Osmanlı imperatorluğu əleyhinə fikirlər irəli sürərək Rusiyanı mədh edirdi. Müasirlərini Osmanlı dövlətinə qarşı mübarizəyə çağırırdı." (9, 147-148) Həqiqətən də, M.F.Axundov ən kəskin mübarizəni daha güclü saydıqlarına qarşı aparırdı. Tahirə Məmmədin göstərdiyi hədəflərin əhatəsini M.F.Axundovun məktub və məqalələri ilə daha da genişləndirmək olar.

Professor Təyyar Salamoğlu M.F.Axundovun Füzuliyə münasibətini başqa bir kontekstə dəyərləndirir, qeyd edir ki, tədqiqatçılar məhz bu məqamı nəzərə almayıblar. O, Axundovun fikrinə istinad edərək onun mətndən gələn yozumunu verir: ""Bəhər surət, türk arasında dəxi bu zamana qədər mütəqəddimindən şair

olmayıbdır." (Cümlə M.F.Axundovun "Nəzm və nəsr" məqaləsindəndir – V.İ.) Məhz bu fikrin ardınca Füzulini inkar fikri gəlir. Axundovun mülahizələri bu kontekstdə analitik təhlildən keçirildikdə onun Füzulini türk (Azərbaycan) ədəbiyyatına məxsus sənətkar kontekstində inkar etdiyi aydın olur. ... Nədənsə, Y.Qarayev də, K.Talıbzadə də Axundovun təkcə Füzulini deyil, onunla bərabər türk şeirinin XIX əsrə qədərki tarixini inkar etməsi faktına münasibət bildirmirlər." (14, 18)

Yaşar Qarayev və Kamal Talıbzadənin əsərlərini yazdıqları dövrün siyasi şərtlərini nəzərə aldıqda onların nədən bu məsələnin üstündən keçdikləri aydınlaşır. Azərbaycan və türk paralelizmi aparmaq, onu bir müstəviyə çıxarmaq sovet dövründə hansı səviyyədə mümkün idisə, həmin problemə aydınlıq gətirmək də bir o qədər mümkün idi. Daha doğrusu, bu məsələdə obyektiv münasibət sərgiləmək imkansız idi. Bundan əlavə, sovet ədəbiyyatşünaslığında maarifçiliyə birtərəfli münasibət, yəni onun daha çox milliyətçi keyfiyyətlərini danma, rus inqilabçı-demokratlarının təsirilə formalaşan xalqçı ruhun ifadəsi kimi təqdim etmə cəhdləri də həmin problemin üstündən keçməyə şərait yaradırdı. Azərbaycan ədəbiyyatı tarixinin XIX əsrdən Rusiyanın işğalından sonra inkişaf etməyə başlaması görüşünü formalaşdırmaq Sovet ideologiyasının da maraqlarına xidmət edirdi. XIX əsrdən bu yana ədəbiyyatımızın bütün mütərəqqi hadisələrinin və görkəmli şəxsiyyətlərinin Rusiyanın təsiri ilə yetişdiyini göstərmək az qala ədəbiyyatşünaslığın norması halına gəlmişdi. Belə olduqda Axundovun fikri sovet ideologiyası üçün göydəndüşmə hazır mənbə idi.

Müstəqillik dövrünün tədqiqatlarından gətirdiyimiz yuxarıdakı üç fikir bir-birini tamamlayaraq Axundovun Füzuliyə və türk ədəbiyyatına münasibəti haqda vahid bir konsepsiya formalaşdırır. Yeri gəlmişkən, onu da qeyd etmək lazımdır ki, son illərin də tədqiqatlarında Axundovun yaradıcılığındakı ziddiyyətləri göstərmədən onu birtərəfli qaydada təqdim etmək ənənəsini yaşadan nümunələrlə də rastlaşırıq. Misal olaraq Xalid Əlimirzəyevin "Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları" adlı tədris vəsaitini göstərə bilərik. (5,104-120) Həmin əsərdə X.Əlimirzəyev Cəfər Cəfərovun metodundan istifadə edərək M.F.Axundovun ədəbiyyat tarixindəki rolunun yalnız müsbət tərəfləri üzərində durmuş, ziddiyyətli məqamları isə nəzərə almamışdır.

"Nəzm və nəsr" məqaləsində Axundovun yüksək dəyər verdiyi türk şairləri Molla Pənah Vaqif və Qasım Bəy Zakirdir. Bununla da müəllifin "Nəzm və nəsr" məqaləsində türk şeirindən bəhs edərkən Azərbaycan mədəni coğrafiyasını nəzərdə tutduğu anlaşılır. Bəllidir ki, Vaqif Axundovdan əvvəlki əsrdə türk-islam ədəbiyyatı ənənələri daxilində gerçəkçi-həyati dünyagörüşünün yaradıcılarındandır. Öz dünyagörüşünə çox yaxın və uyğun gəldiyinə görə Mirzə Fətəli Axundov Vaqifi şair hesab edir. Qasım bəy Zakirə də yüksək qiymət verməsinin bir səbəbi şairin divan ədəbiyyatı tərzi ilə bərabər ədəbiyyatımızda realizmin təşəkkülünə təkan verən şeirlər də yazması, digər tərəfdən isə aralarındakı dostluq münasibətləri idi. O, bu şairlərin yaradıcılığını yüksək qiymətləndirsə də onların yaradıcılığını xalqa yaxınlaşdıran səbəbin nədən ibarət olduğunu göstərmir. Axundov yazır: "Amma mən əyyami-səyahətimdə səfheyi-Qarabağda Molla PənahVaqifin bir sıra xəyalatını gördüm ki, zikr etdiyim şərt bir növ ilə onda göründü və dəxi Qasım bəy Sarucaluyi-Cavanşirdə düçar oldum ki, əgər türk

dilində onun mənzumatı mənim heyrətimə bais oldu. Ondan ötrü ki, dediyim şərt ziyada onun mənzumatında tapıldı. Mənim əqidəmə görə tarixi-hicridən indiyədək türk arasında şair münhəsirdir bu iki şəxsə. Bir də bir Məsiha var imiş, xəyalatı az tapılır...” (2,203)

Qasım bəy Zakir və Vaqif haqqında ədəbiyyatşünaslıqda geniş məlumat olduğundan Məsihanın kimliyini aydınlıq gətirmək üçün mənbələrə müraciət etməyi lazım bildik. Məsiha dedikdə Mirzə Fətəli Axundov Ağaməsih Şirvanini nəzərdə tutmuşdur. Ağaməsih Şirvanininin şeirlərinin Vaqif və Vidadiyə bənzədiyini, lakin yaradıcılığından az nümunənin ortada olmasını Firudinbəy Köçərli də qeyd etmişdir. Onun Sultan Məcid Qənizadənin dördüncü babası olduğunu qeyd edən Köçərli yazır: “Ağaməsih Molla Pənah Vaqifin və Molla Vəli Vidadinin müasiri olduğuna görə, əşar və tərzi-kəlamı onlarınkına artıq dərəcədə bənzəyir. Məşhur qövlə görə, Ağaməsih hicrətin onüçüncü əsrinin ibtidasında İranda vəfat etmişdir. Mirzə Yusif Qarabağinin məcmuəsində Ağaməsih Şirvaninin kəlamından bir müxəmməs və bir müəşşər təb olunmuşdur və bunlardan əlavə Zaqafqaziya müftisi Hüseyn Əfəndi Qayıbov həzrətlərinin “Məcmuə”sində Ağaməsihin bəzi kəlamı yazılıbdır.” (7,228)

Məsih Şirvani ilə Vaqifin yaxınlığını onun şeirindən misal gətirdiyimiz aşağıdakı bənddə də müşahidə etmək olar:

Basanda qədəm naz ilə seyr etməyə bağə,
Ruyin gülü səhrayə qovub, laləni dağə,
Gər bərgi-həna düşsə, əcəb yox, əl-əyağə,
Şayəstə deyil al vərəq al yanağə,
Gündüz günə bənzər, gecə məhtabü çirağə,
Dəxi nə bəzənmək? (7,228)

Təqdim olunan parçadan görünür ki, gözəlin təsviri məsələsində həqiqətən də Vaqiflə Ağaməsih Şirvani arasında bənzərlik var. Ümumiyyətlə, Axundovun Vaqif və Zakirdə bəyəndiyi həm də dil təbiiliyidir. Çünki Axundovun məqalələrindən və bədii yaradıcılığından da görünür ki, o dilin təbiiliyinə və sadəliyinə yüksək önəm vermişdir. Onun yaradıcılığını təqdir etdiyi şairlərin poeziyasındakı dil və təsvir reallığı isə daha çox xalq yaradıcılığından, xüsusən də aşıq poeziyasından qidalanırdı.

Məlumdur ki, aşıq yaradıcılığı təfəkkür tərzinə, əhatə dairəsinə, səlisliyinə, sadəliyinə görə xalq kütləsinə divan ədəbiyyatından daha təsirlidir. Molla Pənah Vaqif və Qasımbəy Zakir yaradıcılığını da xalqa yaxınlaşdıran əsas səbəb onların bir sıra şeirlərində divan ədəbiyyatından xalq yaradıcılıq tərzinə keçid etmələrində idi. Axundov bunu bilərəkdən və ya bilməyərəkdən qeyd etməyibdir. Halbuki türk ruhu üçün əsas təsiredici vasitə bütün yaradıcılıq sahələrindən daha artıq aşıq şeiri, dastanlar idi. Onun dövründə çoxsaylı tanınmış aşıqlar, aşıq şeiri tərzi təmsilçiləri yazıb yaradırdılar. Onlara münasibət bildirilməməsi sual doğurur.

Axundovun yaradıcılığı tədqiqatçılar tərəfindən qərbdən gələn forma, Şərqdən alınan məzmun kimi dəyərləndirilir. O, özü də yaradıcılığında əks olunan hadisələrin, Şərq, Azərbaycan həyatında baş verənlərin əks-sədası olduğunu

göstərir. Əgər əks olunan şərq insanı və onun həyatıdırsa, istər-istəməz burada ənənəvi əksetdirmə ilə əlaqələr də ortaya çıxır. Əks halda onun yaradıcılığı qərbin mənasız təqlidi ola bilərdi. Belə olduqda isə o geniş oxucu kütləsinə müraciət edə bilməzdi. Deməli, yeni mərhələyə başlanğıc verən Axundov özü də dəyişilmələrlə olsa da klassik irsdən bəhrələnmişdir. O, məqalələrində Şərqə daha çox Qərbin gözü ilə baxmağa çalışır. Bunu daha aydın surətdə Cəlaləddin Rumi yaradıcılığına həsr etdiyi məqaləsində görürük. Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, Axundov "Nəzm və nəsr" məqaləsində Ruminin adını fars şairləri sırasında çəkmiş və onun sənətini Nizami, Firdovsi, Hafiz, Ömər Xəyyam ilə birlikdə yüksək dəyərləndirmişdir. Lakin bütövlükdə yaradıcılığında isə daha çox sevdiyi şairlər həqiqi mənada fars əsilli olan Firdovsi və Hafizdir. Onlara ardıcıl şəkildə rəğbətini ifadə etmişdir.

Şeyxülislama məktub şəklində ünvanlanan "Mollayi Ruminin və onun təsnifi babında" məqaləsində Axundov yazır: "Lihaza Avropa ərbabi-qələmlərinin səyaqınca mollayi Ruminin və onun təsnifatının babında öz əqidəmi bəyana gətirirəm" (2,204) Axundov əqidəsinin Avropa qələm sahiblərinə uyğunluğunu göstərməklə Qərb baxışını yeni normalar sistemi kimi təbliğ edir. Müəllif bununla öz müasirlərinə yol göstərmək istəyirdi ki, hər hansı bir müəllifin yaradıcılığına avropalılar kimi yanaşılıb tənqidi münasibət bildirilməlidir. Ədəbiyyatşünaslıqda Axundovun Füzuliyə münasibəti mübahisə zəminində çevrilsə də nədənsə Rumiyə verdiyi şərhlərlə adətən razılaşma müşahidə olunmuşdur. Tədqiqatçılar Axundova tənqidi yanaşma yox, onun fikirlərini əsaslandırma yoluna üstünlük vermişlər. Bunun ən bariz nümunəsinə Həmid Məmmədzadənin əsərində rast gəlirik. (11,82-94)

Cəlaləddin Rumiyə münasibətdə o, həm özünün, həm də öz dünyagörüşünə uyğun gələn qərblililərin baxışını təqdim etmək istəyir. Ona görə öz dünyagörüşünə uyğun gələn qərblilər ifadəsini işlədirik ki, XIX əsrdə bir çox avropalı şərqşünasların istər Rumiyə, istərsə də Füzuliyə münasibətləri Axundovdan fərqli idi. Bu mənada Axundovun ümumən avropalılar adından danışması bir o qədər də özünü doğrultmur. Məqalə yalnız Rumiyə münasibət üzərində qurulmayıb. Burada həm də İslam sufizmi, vəhdəti-vücud haqqında görüşlər öz ifadəsini tapır. Qədim Çin, Hind, İslam fəlsəfəsində, bilindiyi kimi, bütün varlıqlar bir-biri ilə sıx əlaqədədir və bunların da ümumi yaradıcısı dərki mümkün olmayan Tanrıdır. İslama əsaslanan sufizmə görə gerçək varlıq kimi qəbul olunan Tanrı öz yaratdıqları ilə vəhdətdədir. Vəhdəti-vücud Ariflərin tövhididir. O, bu tövhidin ən yüksək məqamıdır. "Vəhdəti-vücud (varlıq birliyi) – sadəcə Allah vardır, ondan kənarda bir varlıq yoxdur, əsasına dayanan bir tövhid növüdür." (14, 319) Ruminin, eləcə də digər sufilərin qəbul etdiyi bu dünyagörüşü inkişafın hazırkı səviyyəsində də bir çox fikir adamları tərəfindın öz nüfuzunu qoruyub saxlamaqdadır. Axundov Ruminin "səhv"lərini sıralayarkən hər şeydən əvvəl Mövlanananın vücudi-küllü qəbul edərək ona iradə və ixtiyar verməsi məsələsi üzərində dayanır. O, həmin məsələyə ironik münasibət bəsləyərək yazır: "Pəs cüzlər gərək tələş etsinlər ki, özlərini bir müddət seyrdən sonra yenə haman küllə vasil eləsinlər və guya bu visalın ümdə vəsiləsi fənadır, yəni fani olmaqdır ki, bəqayicavidani fənadan hasil olacaqdır."(2,204-205) Elə onun ardınca da Ruminin ikinci başlıca səhvinin fənaya inanması olduğunu göstərir. Yaradılanların öz başlan-

ğıcına qayıdaraq onda yox olması, yəni fənaya uğraması düşüncəsinin qədim hindlilərdən başlandığını, sonradan islam fikir sahiblərinə keçməsini vurğulayaraq Axundov bu məsələyə də öz tənqidi münasibətini bildirir: "Amma fəna necə gərək olsun və nə qərar ilə olsun və aya mümkündür və nə halətdədir, heç kəs bu babda cəvabi-sərih verməyə qadir deyil". (2,205) Axundova görə nə Hind, nə də İslam alimləri fənadan bəhs etsələr də onun nə olduğunu anlamamışlar. Rumi də bu anlaşılmaz məsələdə səhvə yol vermişdir. "Bir də səhvi fənaya qail olmaqdır. Bu bir ləfzdir bilaməna ki, nə hükəmayi-hind və nə hükımayi-islam onun mənasına pey apara bilməyiblər. Amma hər kəs onu eşidibdir, fəhmini iddia edibdir" (2,205) Digər tərəfdən Şərqi tutduqca, istila etdikləri məkanların qədim fəlsəfəsini başa düşməyə Avropalıların cəhdini göstərir. Axundov burada bilərəkdən və bilməyərəkdən Qərblilərin məhz Şərqin ruh aləmini öyrənərək ona qarşı şübhə və inamsızlıq yaratma cəhdlərini də ortaya qoyur. Eyni zamanda yad ruhluların Şərq üçün ənənəvi olanı anlaya bilmədiklərini də məqaləsində qeyd edir. "İngilis Hindustanı alandan sonra hükəmayi-Yevropa da çox çalışıblar ki, fənanı anlasınlar; amma mümkün olmayıbdır. Ancaq bu əqidənin zikrini və ondan mənzur olan nəticəni kəmali-vüzuh ilə bəyan ediblər." (2,205) Göründüyü kimi, Axundov öz materialist düşüncəsi ilə ona yaxın olan qərblilərin tərəfindədir.

Mirzə Fətəli Axundov Ruminin növbəti səhvinin ruha inanması olduğunu göstərir. Tənqidçi burada yenə də məsələyə materialist nıqteyi-nəzərdən yanaşır."Bir dəxi səhvi budur ki, runa qaildir. Bu qərar ilə ki, guya ruh bədən müfariqətindən sonra baqidir və vücudi-küllə ruh vasil olacaqdır.

Amma hükəmayi-yevropa ruhu qaim binəfsihi-bilmirlər. Onların etiqadı budur ki, ruh cismin müqtəziyatındandır və cism ilə qaimdir." (2,205) Axundov ruhun cismə münasibətində materialist baxışı irəli sürdüyü halda, Şərqin ruha münasibətinin izahında səthiliyə yol verir.

Yuxarıdakı üç səhvi göstərdikdən sonra müəllif Ruminin yaradıcılığında üzə şıxan daha iki keyfiyyəti müəyyənləşdirir. Bunları səhv kimi yox, Ruminin xüsusi ustalığı kimi səciyyələndirir. O, Ruminin cənnət və cəhənnəmə münasibətində ikilik görür və bunu belə açıqlayır: "Cənnət və cəhənnəmə və həşrə dəxi Mollayi-Rumi qail deyil. Cənnətdən ibarət vücudi-küllün visalını bilir, cəhənnəmdən ibarət hicran aləmin fərz edir. Amma hər üçünün isbatında müvafiqişər o qədər çığır-bağır edir ki, adam mat qalıb, utanır desin: Kişi, sən kafir imişsən!... "(2,206) Axundov burada öz düşüncəsinə uyğun şəkildə Rumi yaradıcılığının şərhini verir. Ona qədər, istərsə də ondan sonra kimsə sufilərin cənnət və cəhənnəm məsələsinə münasibətini bu cür şərh etməmişdir. "O"ndan, gerçək var olandan ayrılığın özünün bir cəhənnəm olması görüşü, əslində, kafirlik yox, Tanrı sevgisinin böyüklüyü idi. Axundov nübüvvət və imamətə Ruminin inamsızlığından söz açarkən də bu mövqedən çıxış edir. Bu son iki inamsızlığı göstərdikdən sonra belə bir mülahizə irəli sürür: "Xülasə, təmamən əqaidi müxalifi-şəri-şərifdir. Amma əqaidini tülkü və çaqqal əfsanələrinin içində (alleqorik üsulla, alt mənalarla – V.İ.) bir tərz ilə gizləyibdir ki, duymaq çox çətindir..."(2,208) Əslində, tənqidçi məqalədə özü bu üsuldan faydalanır, yəni ideyalarını yerli oxucular üçün bir o qədər də tanış olmayanların fikri kimi təqdim edir."Bu səhvlər ki, mollayi-Rumiyə isnad edirəm, öz əqidəm deyil, hükəmayi-

Yevropanın əqidəsidir" (2,206) deyərkən, əleyninə yaranacaq fikirləri öz üzərindən uzaqlaşdırır. Axundovun məqsədi elmi məqalə yazmaq yox, özünün maarifçi görüşlərini yaymaq idi. Əgər Rumi yaradıcılığına elmi nöqtryi-nəzərdən yanaşmaq istəsəydi, o zaman ümumi şəkildə avropalılardan danışmazdı, münasibətini bildirdiklərinin adını çəkərdi. Eyni zamanda, Avropada elə Axundovun öz zamanında ruhun varlığa münasibəti haqda irəli sürülən məşhur nəzəriyyələrə öz münasibətini bildirmiş olardı. Əslində, Şərqin vəhdəti-vücud qavrayışı sonralar qərb filosoflarının özlərinin maddi və ruh aləmlərinin qarşılıqlı əlaqəsi haqda görüşlərinə ciddi təsir göstərmişdir. Axundovun məqsədi bütün bu aspektləri açmaq yox, ənənəvi baxış tərzindən insanları uzaqlaşdırmaq idi. O, Füzuliyə münasibətdə də həmin mövqeni nümayiş etdirirdi. Bir maarifçi kimi insanları əsrlərcə toxunulmaz hesab etdiklərindən ayırmaq istəyirdi.

Axundov Ruminin "səhvlərini" və təqdirolunası cəhətlərini (materialist dünyabaxışına yaxınlaşan tərəflərini və fikri ifadə etmə ustalığını) göstərməklə onun böyüklüyünü etiraf etmiş olur. Deməli, Rumi o qədər böyük şəxsiyyətdir ki, onu həm dindarlar, islam mədəniyyəti təmsilçiləri, həm də ateistlər, Axundovun ifadəsi ilə desək "kafirlər" özlərinə yaxın bilərlər. Məqalədə Ruminin yaradıcılıq və dünyagörüşünün "əsas xüsusiyyətlərinin" izahından sonra müəllif belə bir nəticəyə gəlir ki, "Mollayi-Ruminin ağlına və şüuruna və zövqünə heç söz yox, amma bir mərtəbədə cülük və yüngüldür ki, bizlər onun yanında bir vüqarlı və təmkinli adamıq. Cülüklükdə və cılfirlıqda bakələ mərhum Axund Molla Abdullaha çox-çox şəbahəti var..."(2,209)

Bu məqalədə Axundov tərcümə haqda da maraqlı mülahizələrlə çıxış edir. O, Ruminin bir çox yerlərdə uzunçuluq etdiyini və mənasız, məzmunsuz sözlər işlətdiyini qeyd edərək belə sözlərin tərcümədə çətinlik törətdiyini bildirir. Ümumiyyətlə, Ruminin tərcüməsinin mümkünsüz olduğunu göstərir. "Başqa dillərə tərcüməsi ədimül-imkandır; çünki mətləb müəyyən deyil, adda-budda sözlərdir, əlfazi-cədidə ilə çevirib-çevirib təkrar edir, hansı kəlam ki başqa dillərə tərcüməyə gəlməsə, şəksiz biməzmundur; məsələn: Ruhülqüdsün və Firdovsinin kəlamını Xəta dilində tərcümə edəsən vazeh məzmun çıxar." (2,209) Müəllifin Rumi haqda söylədiklərinin yanlışlığını müasir dünyada Mövlananın əsərlərinin yayılma dairəsi və ona bəslənən sevgi sübut edir. Ruhülqüds (erməni əsilli Mirzə Melküm xan nəzərdə tutulur – V.İ.) və Firdovsinin yaradıcılığının rahat tərcüməsi məsələsinə gəldikdə isə bu müəllifin öz dünyagörüşü və bu müəlliflərə bəslədiyi xüsusi münasibətdən irəli gəlirdi. "Nəzm və nəsr haqqında" məqaləsində o, şair hesab etdiklərinin siyahısında Firdövsi ilə bərabər Mollayi-Ruminin də adını çəkir. Qüsurlarının da eyni olduğunu göstərir: "Bunların da qüsuru budur ki, bir para məqamda izhari-fəzl üçün xilafi-təbiətü adət göftgu edib-lər."(2,202) Göründüyü kimi, əvvəl ikisinə də, daha döğrusu bəyəndiyi orta əsr şairlərinin hər birinə aid etdiyi qüsurdan Firdövsini burada kənara çəkir.

Məlumdur ki, Şərqdə təfsir, şərh yazmaq geniş yayılmışdır. Axundov da məqalənin sonunda yazdığının bir növü şərh olduğunu göstərir. "...əgər sizdə mövcud olan məsnəvi şərhlərinin başında, ya axırında bəyaz vərəqlər varsa, bu bəyanı da o vərəqlərə yazdırın, müruri-dühur ilə yadigar qalsın."(2,209) lakin biz bunu şərh kimi qəbul etmirik. Çünki burada Ruminin yaradıcılıq keyfiyyətlə-

rindən daha artıq Axundovun öz dünyagörüşü və mülahizələri aparıcı yer tutmaqdadır. Bu səbəbdən də o, şərh, təfsir yox, məqalədir.

İstifadə olunmuş ədəbiyyat:

1.Azərbaycan Füzulişünaslığının qaynaqları, Toplayanı, tərtib edəni və ön söz müəllifi Gülşən Əliyeva-Kəngərli. Bakı: 2009
2.Axundov Mirzə Fətəli. Əsərləri 3 cilddə, II c.,Bakı: Azərnəşr, 1961
3.Axundov Mirzə Fətəli. Kəmalüddövlə məktubları. Bakı: Azərbaycan Uşaq və Gənclər Nəşriyyatı, 1959
4.Cəfərov Məmməd Cəfər. Seçilmiş əsərləri, 2 cilddə, I c., 1973
5.Əlimirzəyev Xalid. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları. Bakı: Nurlan
6.Əliyeva Gülşən. Azərbaycan Füzulişünaslığı. Bakı: Çaşıoğlu, 2007, 312s.
7.Köçərli Firudinbəy. Azərbaycan ədəbiyyatı, Ic. Bakı: Elm, 1978
8.Qarayev Yaşar. Realizm: sənət və həqiqət. Bakı, 1980
9.Məmməd Tahirə. XIX əsr Azərbaycan ədəbiyyatı. Bakı, "Apostrof", 2010
10.Məmməd Tahirə. Azərbaycan dramaturgiyasının poetikası. Bakı, "Elm", 1999
11.Məmmədzadə Həmid. Mirzə Fətəli Axundov və Şərq. Bakı: Elm, 1971
12.Mirzə Fətəli Axundov. Məqalələr məcmuəsi. Bakı, 1962
13.Mustafa Kara.Tasavvuf Ve Tarikatlar Tarihi. İstanbul: Dergah yayınları, Beşinci baskı,1999
14.Salamoğlu Təyyar.Ədəbi tənqid tarixinə dair portret oçerklər. Bakı: 2011
15. Talıbzadə K. Azərbaycan ədəbi tənqidinin tarixi. Bakı, 1984
16.Джафаров Дж. М.Ф.Ахундов. Москва: Гос.Изд. ,1962
17.Проблемы становления реализма в литературах народов Советского Востока. Баку, 1972
18.Просветительство в литературах Востока. М., 1973
19.Сучков Б.Л. Исторические судьбы реализма. М., 1967

Вафа Исмаилова

Отношение в творчестве М.Ф.Ахундзаде
к тюркской поэзии
Резюме

В статье исследуется критическое отношение М.Ф.Ахундзаде к тюркской поэзии и причины такого взгляда. Признание с его стороны гениальных тюркских поэтов Низами и Руми как персидскими не действительно. С точки зрения М.Ф.Ахундзаде не признание Фузули как поэта, основательно критикуется.

Vafa İsmayılova

Evaluation of Turkish Poetry in M.F.Akhundzade's
Views on literature
Summary

The article has been dedicated to Akhundzade's views on literature, particularly on Turkish literature in the context of relations between the West – Russia – Turkey – Azerbaijan. His arguable views and the reasons of their formation have been the subject of the article.

Elmi redaktor: Tahirə Məmməd
fil.e.d.,prof.

AFƏT İSRAFİLOVA
ADNA
afat-israfilova@rambler.ru

İNGİLİS ƏDƏBİYYATINDA TARİXİ ROMANIN TƏŞƏKKÜLÜ

Açar sözlər: dünya ədəbiyyatı, tarixi roman çiçəklənmə, ədəbi cərəyanların, nöqteyi-nəzər təşəkkülü mərhələsi
Key words historical novel, world literature, the prosperity period, formation of the literary current, point of view.

XIX əsr ədəbiyyatı öz rəngarəngliyi, ziddiyyətləri və tarixi inkişaf sürəti ilə ingilis ədəbiyyyatı tarixində xüsusi sürəti ilə ingilis ədəbiyyatı tarixində xüsusi yer tutmuşdur. Dünya ədəbiyyatı xəzinəsinə ən qüdrətli sənətkarları da ingilis ədəbiyyatı bu dövrdə bəxş etmiş, ədəbiyyatın ictimai rolu, ayrı-ayrı janrların əhəmiyyəti, ümumiyyətlə, yazıçının cəmiyyətdə rolu məsələləri də daha çox bu əsrdə müzakirə və mübahisə predmeti olmuşdur. Bütün bunların nəticəsində XIX əsr ingilis ədəbiyyatı mürəkkəb və ziddiyyətli inkişaf yolu keçmiş, dünya ədəbiyyatı xəzinəsinin zənginləşməsinə öz böyük töhfəsini vermişdi. XIX əsr ingilis ədəbiyyatı həm də romantizm və tənqidi realizm kimi ədəbi cərəyanların təşəkkülü və inkişaf yolu keçdiyi əsr hesab olunur. Bununla belə bu əsr digər Avropa ölkələrində olduğu kimi İngiltərədə də romanın hegemonluq dövrü kimi xarakterizə edilir.Çünki XIXəsr ingilis ədəbiyyatı dünya ədəbiyyatına Valter Skott, Çarlz Dikkens, Uilyam Tekkerey, Bronte bacıları, Corc Eliot kimi böyük romançılar bəxş etmişdir. XIX əsr həm də realist ədəbiyyatın çiçəklənmə mərhələsi sayılır. Doğrudur, bəzi tədqiqatçılar bu dövrdə hələ romantizmin tamamilə sıradan çıxmadığını və realist ədəbiyyatla yanaşı addımladığını iddia edirlər, bununla belə XIX əsr bütövlükdə realist ənənələrin inkişafı və çiçəklənməsi mərhələsi kimi səciyyələnir. XIX əsr ingilis ədəbiyyatının bir başlıca xüsusiyyəti də var ki, bu məsələnin ayrıca tədqiq olunmasına ehtiyac duyulur. Sıhbət ingilis ədəbiyyatında tarixi roman təşəkkülü və inkişafından gedir və bu janrın təşəkkülü də məhz XIX əsrlə bağlı olmuşdur.

Tarixi roman janrına həsr olunmuş tədqiqatlarda çox vaxt tarixi romanın məzmunu ilə tarix elmi , yaxud tarixin fəlsəfəsi qarışdırılır; tarixi roman janrına real tarixi hadisələri əks etdirən, real tarixi şəxsiyyətlərin həyat və fəaliyyətini göstərən əsərləri aid edirlər. Tədqiqatçıların çoxu bu bölgü ilə razılaşmır, tarixi roman qarşısında duran vəzifələrin fərqli və bu janrın özünün sərhədlərinin başqa olduğu göstərilir. Tarixi həqiqət və uydurma, tarix elmi və yazıçı fantaziyası məsələləri tarixi roman janrına münasibətdə həmişə fikir ayrılığına səbəb olmuşdur.

Rus tədqiqatçısı B. Reizov tarixi roman janrına müxtəlif alimlərin münasibətini təhlil edərək, bu qənaətə gəlmişdir ki, tarixçi və romançı üçün ən başlıca məsələ keçmişi öz nöqteyi-nəzəri ilə qiymətləndirmək olmalıdır, onda tarixi həqiqətin təhrifi qaçılmaz olacaq,hər şey yerindən oynamış olacaq və hər şey anlaşılmaz məcaraya düşəcəkdir. Təsadüfi deyil ki, tarixi romanın təşəkkül tapdığı ilk dövrlərdən başlayaraq, bu janra münasibət birmənalı olmamışdır. Bəzi tədqiqatçılar tarixi faktlarla yazıçı fantaziyasını sintezini qəbul etməmiş, bunu tarix elminə və keçmişə hörmətsizlik kimi qiymətləndirmişlər. Başqa bir qrup tədqiqatçı isə tarixi faktların bədii

əsər vasitəsilə bərpasını yüksək qiymətləndirmiş, bunu insanların vətənpərvərlik ruhunun yüksəlməsi üçün vacib bədii vasitə hesab etmişlər. Bu fikrin tərəfdarları bir qayda olaraq tarixi romanların ölkənin həyatında mühüm sosial hadisələrin, məsələn, yadellilərlə döyüş ərəfəsində, yaxud belə döyüşlərin getdiyi dövrdə meydana gəldiyini əsas gətirərək, bu janrın cəmiyyətin həyatında mühüm rol oynadığını ön plana çəkmişlər. Bütün bunlar isə deməyə əsas verir ki, tarixi roman janrı yaşamaq hüququ qazanınca çox ziddiyyətli yol keçmiş, bəzi dövrlərdə sərt müqavimətlə qarşılamışdır. Ümumiyyətlə, tarixi roman mümkündürmü? Tarix elminin imkanları şübhəsizdir, çünki tarix sənədlərdə qorunub saxlanılan faktları öyrənir, lakin tarixi roman keçmişin əxlaqini əks etdirmək, keçmişin uğurlarını yaddaşlarda yaşatmaq məqsədi güdür. XVIII əsr fransız romani üslubunda çoxsaylı əsərlər müəllifi olan Madam de Janlis yazırdı ki, qədim dövrlərə aid əxlaqı gəqiqliyi ilə bilmək, deməli, həm də əks etdirmək olmaz, ən yaxşı halda yazıçı öz dövrünün əxlaqını əks etdirə bilər. Ədəbiyyatşünasların qənaətinə görə, bu, keçmişə müraciətə və tarixi intuisiyaya imkan verməyən tipik klassik baxışdır.

Valter Skottun xidmətini isə klassiklər onun qəhrəmanlarının "əxlaqı"nda yox, onun yaratdığı kəskin intriqada, macəralarla dolu maraqlı süjet yaratmaq qabiliyyətində görürdülər. Bəzi tənqidçilər, hətta onun əsərlərini tarixi hesab etmir, qeyd edirdilər ki, onun əsərlərində əxlaqi qiymətləndirmə yoxdur.

Fransız tədqiqatçısı Mişle də Valter Skottun əsərlərini həvəslə oxuduqdan sonra yazmışdır: "mən heç vaxt tarixi romanı başa düşə bilməmişəm. Hər şeydən əvvəl, belə romanları oxuyarkən, uydurmanın harada qurtardığını və həqiqətən haradan başlandığını heç vaxt bilmirsən. Sonra isə əsil tarixə marağı itirirsən. Əsil tarix isə düşüncəni əyləndirməməli, və müasir dövrü keçmişin köməyi ilə işıqlandırmalıdır". Skottun pərəstişkarı olan Stendal 20-ci əsrin əvvəllərində yazmışdır:" 25 il ərzində Parisdə tarixi roman janrını lağa qoymuşlar; Akademiya bu janrın əsaslığını elmi şəkildə sübut etmişdir, biz hamımız da Valter Skott öz "Ueverli" əsəri ilə meydana çıxana qədər buna inanmışıq; onun naşiri olmuş Ballantayn isə bu yaxınlarda milyonçu kimi vəfat etmişdir". Göründüyü kimi, tarixi roman mövzusu uzun illər boyu ciddi müzakirə və mübahisə predmeti olmuş, çoxsaylı məqalələr və manifestlər məsələyə müxtəlif istiqamətlərdən baxmaq imkanı yaratmışdır.Lakin bütün bu materiallar dəqiq və konkret tarixi roman nəzəriyyəsinin formalaşmasına kömək etməmişdir. Ümumiyyətlə, tarixi romanın ümumi, vahid və hamı tərəfindən qəbul olunan nəzəriyyəsi heş vaxt olmamışdır. Bununla belə romantik ədəbi dövr üçün xarakterik olan meyllər və maraqlar mövcud olmuşdur. Bu inkişaf və mübarizədə isə janrın ən yaxşı nümunələri yaranmışdır.

Tarixi roman janrı barədə müxtəlif illərdə söylənilən fikirlər də sübut edir ki, bu janra tənqidi münasibət ayrı-ayrı dövrlərdə sərt olsa da, əksər tədqiqatçılar və ədəbiyyatşünaslar tarixi romanın mənəviyyat və vətənpərvərlik, keçmişə və ənənələrə hörmət baxımından əhəmiyyətini həmişə vurğulamışlar. Nəticədə tarixi roman ədəbi janr kimi yaşamış, oxucuların diqqətini cəlb etmiş, dünyanın əksər ölkələrinin ədəbiyyatında gərəkli ədəbi nümunə kimi yaşamaq hüququ qazanmışdır.

İngiltərə ədəbiyyatında tarixi roman janrı dəyişiklik və yeniliklər fondunda meydana gəlmiş və ədəbiyyat tarixində yaşamaq hüququ qazanmışdır.

Bu janr demək olar ki, Avropanın əksər ölkələrində müxtəlif inkişaf mərhələsi keçmiş, ayrı-ayrı illərədə bu və ya digər ölkənin ədəbiyyatında aparıcı rol oynamış-

dır. İngilis ədəbiyyatında tarixi roman janrı XIX əsrin əvvəllərində formalaşmış və görkəmli romantik Valter Skottun adı ilə bağlı olmuşdur. Çünki tarixi roman janrının bizə məlum olan müasir formasının banisi məhz Valter Skot sayılır.

Valter Skott dünya ədəbiyyatı xəzinəsinə verdiyi tarixi romanlarla şöhrət qazanmış, onun əsərləri hələ sağlığında dünyanın bir çox ölkələrində populyarlıq qazanmışdır. Ona görə də dünya ədəbiyyatşünasları Valter Skottu tarixi roman janrının yaradıcısı hesab edirlər. Yazıçının dünya şöhrəti qazanmasında və oxucuların sevimlisinə çevrilməsində bu janrda yazdığı əsərlərin rolu danılmazdır. Təsadüfi deyil ki, görkəmli rus tənqidçisi V.Belinski özünün məktub və məqalələrində Valter Skottun adını iki yüz dəfə çəkmiş, A. S. Puşkin onu Şekspirlə müqayisə etmişdir.

Balzak Skottu özünün müəllimi adlandırmış, Göte onun haqqında demişdir: "Valter Skott tayı bərabəri olmayan böyük istedaddır.....".

Bütün bu fikirlər tarixi roman janrının əhəmiyyətinin qiymətləndirilməsi baxımından diqqətəlayiqdir.

Qeyd edək ki, gənclik illərində romantik poemalar ("Sonuncu menestrelin nəğməsi", "Marmion","Göl qızı", "Rokbi" və s.) və şerlər müəllifi kimi tanınan Valter Skott sonralar tarixi romanlar yazmağa başlamış və ingilis ədəbiyyatında bu janrın yaradıcısı kimi şöhrət qazanmışdır.

1814-cü ildə "Ueverli" yaxud "Altmış il bundan əvvəl" romanını imzasız nəşr etdirən bu əsərin gözlənilməz uğurundan ruhlanaraq dalbadal tarixi romanlar yaratmaqla məşğul olmuş, qısa zaman kəsiyində 28 roman yazmışdır. "Puritanlar", "Rob Roy", "Edinburq məhbəsi" romanları şotland xalqının milli azadlıq mübarizəsinə həsr olunmuşdur. "Arvenqo", "Abbat", "Kenilvord", "Vudstok" və s. romanları İngiltərə, "Kventin Dorvard", "Parisli qraf Robert" və s. romanları isə digər Avropa ölkələrinin tarixindən bəhs edir. Valter Skottun əsərləri Avropa və Amerika ədəbiyyatında tarixi roman janrının inkişafında mühüm rol oynamışdır. Onun roman, məqalə və ədəbi oçerkləri Avropa ölkələrində nəşr olunan jurnallarda dərc edilmişdir. Valter Skottun romanları hələ sağlığında ona dünya şöhrəti gətirmiş, böyük tirajla yayılmış, kitablarının nəşri ilə məşğul olanlar külli miqdarda gəlir gətirərək varlanmışlar. Qeyd etmək lazımdır ki, tarixi roman janrı ədəbi hadisə olaraq, İngiltərə çərçivəsində qalmamış, müxtəlif Avropa ölkələrində də geniş yayılmışdır. İngilis ədəbiyyatında tarixi roman janrının təşəkkülü və inkişafı Valter Skottun adı ilə bağlıdır. O, özünün ədəbiyaşar tarixi romanları ilə dünya ədəbiyyatı xəzinəsinə əvəzolunmaz töhfələr vermiş, hələ sağlığında adını dünya ədəbiyyatı karifeylərinin şərəfli siyahısına daxil etmişdir.

Ədəbiyyat

1) Ağayev Əkbər. Tarixi romanlar müəllifi (V. Skottun anadan olmasının 200 illiyinə)."Bakı" qəzeti, 14 avqust 1971-ci il
2) Azərbaycan Sovet Ensiklopediyası 10-cu cilddə.1984-cü il
3) Yelizarova M., Mixailskaya N. B. XIX əsr xarici ədəbiyyat tarixi.1964-cü il
4) Merriam Webster's Encyclopedia of Literature, 1995 by Merriam Webster/
5) An Anthology of English Literature XIX. 1978, Leningrad

А.Исрафилова

Проблема исторического романа в английской литературе

Резюме

В этот статье исследуется история появления исторического романа-как жанр литературы, необхадимость появление исторического романа в разных странах. В статье говорится о проблемах процветания исторического романа в английской литературе.

A.İsrafilova

Problem of historical novels in the English literature

Summary

The history of the novel as a literary genre studied the history of world literature, literature of different countries need to analyze the historical novel genre of the historical novel.The English literature has been devoted to the problems of development.

Rəyçi: dos. Xoşqədəm Əhmədova

SAKİBƏ ƏLƏSGƏROVA
Fil.f.d ADPU
traqimli@gmail.com
UOT: 821 (479. 24)

MİLLİLİK, AZADLIQ VƏ XƏLQİLİK POEZİYASI
(Bulud Qaraçurlu Səhəndin yaradıcılığı əsasında)

Açar sözlər: inqilab, fədai, işıq, mübarizə, şeiriyyat.
Ключевые слова: революция, свет, самоотверженный, борьба,
Keywords: revolution, the light, selfless, fight, poetic nature.

Cənubi Azərbaycan vətənpərvərlik poeziyasının inkişafında Səhənd yaradıcılığının böyük rolu vardır. Milli azadlıq hərəkatının parlaq simalarından olan Səhənd tarixlər boyunca yağılara əyilməyən Azərbaycan övladıdır. Yüzlərcə cənublu şairlər içərisindən sayılıb seçilən, qüdrətli Azərbaycan şairi adlandırılmaq səviyyəsində duran Səhəndin sonrakı həyatına da bu inqilabi hərəkatın çox böyük təsiri olduğunu görürük. Anadilli ədəbiyyatımızın inkişafında layiqli əməyi olan şair həyatı boyu onun təbliğatçısı olmuşdur. Şəhriyarın "Heydərbabaya salam" əsərindən sonra Səhənd və onun kimi vətənpərvər şair və yazıçılar ana dilində yazmağı sevgidən artıq bir namus məsələsinə çevirdilər. 1941-1946-cı illər İranda şah rejiminə qarşı mübarizə alovlanan vaxt Səhənd inqilabi hərəkatın öndərlərindən oldu. Həmin dövr və sonrakı illərdə fədailərin qəhrəmanlığı, əzmi əsas tərənnüm obyektinə çevrildi. Həyat yolunu müəyyənləşdirərkən özünü alovların ağuşunda görən mübariz şair əsərlərində də həmin dövrdə baş verən hadisələri, inqilabi hərəkatın qəddarcasına yatırılmasını, qanlı sonluğunu dəruni hisslərlə bədii lövhələrə əks etdirmişdir. Bir fədai kimi həbs olunan Səhənd xalqımızın milli varlığına hörmətlə yanaşaraq ziyalıların ön sıralarında dayanmış, düşüncəsi, duyğuları belə yasaq olan xalqımızın haqq səsini susduranlara uyğun cavabı verməyi bacarmışdır:

Keçmişdən söz açmağım yasaq
Gələcəyimdən danışmağım yasaq,
Ata-babamın adını çəkməyim yasaq
Anamdan ad aparmağım yasaq,
... Bilirsən?

Səhənd həmvətənlərini unutqan olmamağa səsləyir. Ana dilində danışmağın, təhsil almağın çətinliyinə boyun əyməməyi tövsiyə edən şair etiraz səsini ucaldaraq xalqını oyanışa səsləyir:

Anadan doğulandan belə,
Özüm də bilməyə-bilməyə,
Dil açıb danışdığım dildə
Danışmağım da yasaq imiş, yasaq!

Sonda qoyduğu nida işarəsi artıq susmağın zəiflik əlaməti olduğu anlamına gəlir. Vətəndaş qeyrəti olan, azərbaycanlı olmağı ilə fəxr edən hər kəsi cəsarətə, mübarizəyə çağırır. Adını çəkməmizi istəmədikləri ata-babalarımız zaman-zaman düşmənlərimizin qorxulu yuxusu olmuşdur. Dədə Qorqud, Oğuz bəyləri, Babək,

Cavanşir, Koroğlu, Qaçaq Nəbi və b. adları bizi şanlı keçmişimizə aparır. Babalarımızın yaşadıqları həyat tərzi bizə başınca yaşamaq haqqı verir.

Mənim də əlimdən bu gəlir ancaq,
Səni keçmişimlə eyləyim tanış,
Başuca yaşamaq istəsən əgər,
Bax gör babaların necə yaşarmış!

Səhənd 1949-1950-ci illərdə "Araz" və "Xatirə" mənzumələrini yazdı. Əsərlərdə inqilabi hərəkat dövrünün faciəli hadisələri öz əksini tapıb. İnqilabi fəaliyyətini yazılarında davam etdirən şair bu əsərlərini nəşr elətdirib. "Varlıq" jurnalının 1981-ci ildə nəşr olunan 1 sayında "Xatirə" və "Araz" əsərlərinin çap olunub yayılması haqqında məlumat var. Təbrizdə şeir məclislərində (xüsusən 1951 və sonrakı illər) Şəhriyarın "Heydərbabaya salam" poeması, digər şair və yazıçıların əsərləri ilə bərabər Səhəndin də əsərləri oxunurdu. Mənbələrdən məlum olur ki, şair "Sazımın sözü" əsərinin oxunub müzakirə olunmasına xüsusi diqqət göstərib. Şairin əsərlərindəki səmimilik, sadəlik göz önündədir.

"Araz" mənzuməsində illərlə qınaq yeri sayılan, Vətənimizin ikiyə bölünməsində günahkar hesab edilən "yaralı" Arazın adıyla ürək sözlərini deyən Səhənd insanların Arazdan, Xəzərdən də çox göz yaşı tökdüyünü göstərir. Şimaldan Cənuba keçənlər və əksinə yol alanların evlərində boğazı ağrıyanların ağrısını almaq üçün "Arazı keçmişəm", -deyə boğazını sığarmışlar. Bu, bir el adətinə çevrilibmiş. Anlamı da bu imiş: "Mən Araz boyda çayı keçdim, boğazım da ağrıdı, bir şey olmadı, sənə də bir şey olmaz". Araz çayı el arasında "ağırlığını" müxtəlif şəkillərdə qoyub. Gah "xan Araz", gah "yaralı Araz" adlandırılaraq yük altında qoyulan, ancaq öz beşiyində sakitcə yırğalanan Araz çox əsərlərin qəhrəmanı oldu, adına dönüşdü. Səhənd "Araz" poemasında onu vahid ürəyin damarı adlandırır. Müştərək şanlı keçmişimizin olmasından, odlar ölkəmizin Azər adlandırılmasından, Qafqaz ellərinin qəhrəmanlığından, dostluğundan danışan şair ikiyə bölünməzdən əvvəlki vətənimizin şan-şöhrətini, birliyini, gözəlliyini vəsf edir. Torpağımız ikiyə bölünəndən sonra Cənubun Qaçar əsarətindəki zülmündən, zillətindən söhbət salır. Qəlbi coşan şair el, Vətən deyə nəğmələr qoşur, müqəddəs yolumuzu, müsəlman olmağımızı tərənnüm edir. İki qardaşın birgə yaşamaq ümidinə sığınır:

Görəsən sonu varmı
Bu ağır nisgillərin?
Baharı-yazı yoxmu
Bu boranlı ellərin?
Görəsən bu ayrılıq
Çatacaqdırmı başa?
İki qardaş bir daha
Yaşayacaqmı qoşa?...

Güney Azərbaycanın məşhur yazıçısı Səməd Behrənginin (1939-1968) Arazın sularında boğulduğu faktını qəbul edə bilməyən Səhənd Araza müraciət edərək "Qurbanımı qəbul et, Araz", -deyə hayqırır. Səmədin ölümü şairin sinəsini alovlandırır, həsrət işindədir, heç kəs onun göz yaşına baxası deyil. Araz isə öz işindədir, hey axır. Səmədin gənc yaşında, bir o qədər yaradıcılıq imkanı varkən həyat

burulğanında məhv olmasına dözə bilməyən şair kinini, hikkəsini günahsızkən günahkar sayılan Arazın boynuna yıxır.

Söylə mənə, söylə Araz!
Nədən bizlə oldun belə, Araz?
Kəsdin iki qardaş arasın,
Aldın Muğanın Sarasın,
Boğdun elimin dəyərli balasın!
Bəsdir!
Bəs...dir!
Qurbanımı qəbul elə, Araz.

Tökülən günahsız qanların şahidi olan Səhəndin səbri tükənib. Səbirlə bağlı çox hikmətli fikirlər, dastanlar eşidən şairin səbir kasası dolub. Bu qədər hadisələrin yükünü xırdaca qəlb necə daşısın? Sayını-hesabını bilmədiyimiz nəsillər çox dözüb, "səbir daşı"na əfsanəvi don geyindirib. İllərlə dərdini qara daşa söyləyərək ondan yardım diləyən anasız qızlar, oğlu ölmüş analar, əri həbsdə olan gəlinlər haradan bilsinlər ki, onlar kimi çoxları qara bəxtinin, faciəli taleyinin ağırlığından qara daşa sığınıb. Şair artıq "Səbir daşı, mən deyim, sən səbr elə" söyləmi ilə razılaşa bilmir. Şair bir az dözmək üçün axırıncı yola əl atır: "Quran"ı oxuyur, düşüncələri nizamlanır. Əgər hər kəsin əməyi özünə verilsə, kimsənin haqqı alınmasa dünyada fəlakətdən nişanə qalmaz. Bu düşüncələrlə səsini ucaldan şairin başına özü kimi səbri tükənənlər toplanır. Onların da şüarı belə olur: "Səbrə səbir daşları". Şair köhnə yarasından qan axan Bakını, vəfalı Gəncəni, axmaq həsrətilə çağlayan göz yaşına dönmüş Göy gölü, dərdlərini əsərlərində dinləyən ölməz sənətkarları, gördüyü, görmədiyi ürək dostlarını arzulayır. Sonra onlara da, özünə də təskinlik verir:

Axıtdığımız Araz-Araz, Xəzər-Xəzər göz yaşları!
Ötəridir, ötəridir bu hal!
Bir daha səbrə "səbir daşı" olmayacaq Səhənd!

Səhəndin həyatı və yaradıcılığı "mübarizə" kəlməsi üstündə köklənib. Döyüşə, qələbəyə çağırış məzmunlu "Fədailər marşı" əsərini yazanda bəlkə də heç düşünmədi ki, bu, elə onun öz həyatının marşıdır. Fədai əsgər azadlıq və azad vətən istəyir. Bu azadlığı heç kəs onun ovcuna hazır qoymayacaq. Bir fədai bunun üçün ən azı öz canından keçməlidir. Şair-fədai bunun bilincindədir. Bunun üçün düşmən gülləsiylə qana batmağa, kəfənsiz basdırılmağa razıdır: təki Vətən azad olsun. Hər bir fədai özündən sonra gələnlərə nümunə olmalıdır. Evi səngər, məskəni dağlar başı olsa da yolundan dönməməlidir. Vətən bayquşlardan, quzğunlardan təmizlənsə, hamı azad nəfəs alar. Haqq işi uğrunda ölümü də haqq sayan şair yüksək mənəvi keyfiyyətlərə malik Azərbaycan oğludur.

Mən azadlıq cəbhəsində bir fədai əsgərəm,
Bir azadlıq istəyirəm, bir də azad bir vətən.

Şairin "Fədailər marşı" əsərini oxuyanda 20 Yanvar şəhidləri göz önünə gəlir. Canlarını haqq, ədalət uğrunda qurban verənlər unudulmur, yaddan çıxmır. Şair sonrakı əsərlərində keçmiş fədailəri yad edir, Səttarxan, Bağırxan, Xiyabani və s. kimi səadət sorağında nəfəsdən düşənləri xalq eşqiylə candan keçən el qurbanları adlandırır. Ruhları cənnət içərisində dolanan bu şəxslərə zaman-zaman salam göndərilir, azadlıq günəşi harada doğursa, onlara da pay düşür, mürtəceləri yatmağa qoymayan hürriyyətin alqış səslərində də haqqları var. Səhənd azadlıq fədailərinin

şücaətinə ayrıca olaraq "Alqış" söyləyir. Bu alqış həmin oğulları yetirən gözəl Azərbaycanın adınadır.

Bir zaman yetirən Babək tək nərlər,
Koroğlu adlanan aslanlar, şirlər,
Böyütdün düşməni məhv edən ərlər,
Adına yazılıb daim zəfərlər,
Qəhrəman yetirən elinə alqış!

M.Şəhriyarın "Heydərbabaya salam" poeması qədər hörmətlə qarşılanan və ondan sonra Cənubda ikinci ədəbi hadisə hesab edilən "Sazımın sözü" əsəri Səhəndin ən böyük mənəvi qələbəsidir. Şair əsərdə "Kitabi-Dədə Qorqud"dan seçdiyi beş boyu nəzmə çəkərək babalarımız olan Oğuz bəylərinin qəhrəmanlığına bir daha diqqət yönəltmişdir. Bununla sanki xalqını "kiçiltməyə" çalışan, Azərbaycan əvəzinə "məhəlli" sözünü işlədənlərə göz dağı verir. Azərbaycan xalqı istedadlı xalqdır. Şanlı tariximiz, gözəl adət-ənənəmiz, yüz illər boyu adı unudulmayan qəhrəmanlarımız var. Keçmişimizin təntənəsi, şərəfli adı gələcəyimizə yansımalı, bizə azad yaşamaq haqqı verilməlidir. Səhənd bunu əlimizdən alınan haqq kimi göstərir. Azadlıq mübarizəsinin davam etdiyi bir vaxtda bu əsərin yazılması ilə şair lazım olan məqamlara öz mesajını verir. Yüksək əxlaq və mənəviyyata malik olan Azərbaycan xalqının qəhrəman kişilərlə güləşən, düşmən qovan, ox atan, vəfalı qadınlarını da unutmayan Səhənd "Aslanın erkəyi, dişisi olmaz" atalar sözünə söykənir. Bu vaxt yadımıza Bərdə hökmdarı Nüşabə, Tomris anamız düşür. Azərbaycan xalqının gözəl adət-ənənələrini qoruyub saxlayan qadınlarımızı tərifləyən Səhənd yaradıcılığında şifahi xalq ədəbiyyatımızın zəngin çalarlarından istifadə edərək əsərini "bəzəkli gəlin"ə çevirmişdir.

Bu haqqı tanıyan, haqqı sevən el
Mərifətdə incə yerlərə çatmış,
"Ana haqqı - Tanrı haqqı"dır, -deyə
Belə bir bədii məsəl yaratmış.

Bilərəkdən milli mədəniyyətimizə xor baxanlar, keçmişimizi malalayanlar bizim ən qədim mədəni xalqlardan biri olduğumuzu qəbul etmək məcburiyyətindədirlər. "Sazımın sözü" əsərini 1965-ci ildə nəşr edərkən qeyri-leqal vəziyyətlə üzləşən Səhənd keçmiş həqiqətlə üzləşmək istəməyən fars şovinizmini sanki qovğaya çağırır:

Yadlar bizə kəc baxanda,
Axar su tək qan axanda,
Papağını əyri qoyan,
Bu sıldırım qayaların
Dalısında minlər aslan,
Pusqulara minib yatıb,
Ox sıçradıb, tüfəng atıb.

Şairin düşüncəsinə görə Azərbaycan deyilən bu torpağın ən uca yüksəkliklərində bir adı məhəbbət, digəri sevgi olan insanlıq hayqıraraq həqiqət axtarır. Sözümüz də, işimiz də, könüldən, ürəkdən, qəlbdən danışaraq kamala yetməyimiz də insanlığa aşinalığımızdandır. Vəsfə, tərənnümə sığmayan gücümüz, qüdrətimiz, mənəvi dəyərlərimiz var. Bunu görməyən göz kordur. Əvvəl torpağa, təbiətə, zaman-zaman elmə, qüdrətə söykənən Azərbaycan xalqı gücü çatana qədər kimsəyə

bac verməmiş, hörmət və şöhrətlə ömür sürmüşdür. Dədə Qorqud möhürlü qopuzumuzun simlərinə ürəyimizdən gələn, ağlımızdan kamal alan eşqin gözəlliyi toxunur, dilimizin gözəlliyindən dodaq danışarkən od tutub yanır, simlər titrəyir. Nəğmələrimiz oxunanda, dastanlarımız söylənəndə ən çətin günlərimizdə belə kədər ürəklərdən uzaqlaşmış, hər şey, hər kəs sədəfli sazımıza köklənmişdir.

Aşıq, sən də bizə istəkdən danış
Qoy məhəbbət doğsun söhbətin, sözün!
Könüldən, qəlbdən, ürəkdən danış,
Qoy sarsılan insan tanısın özün...

Azərbaycan şifahi xalq ədəbiyyatını dərindən bilən Səhənd söz sənətimizlə bağlı olduğunu "Sazımın sözü" əsəri ilə bir daha sübut etdi. Əsərində mif və əfsanələrimizi yada salmış, Dədə Qorqudu babalarımızın başbiləni adlandıraraq quru çay yanında, sovrulmuş oba yerində belə yurd-yuva sala biləcək bir gücə, qüvvəyə sahib olduğunu misralara köçürmüşdür. Xalqımızın yas mərasimlərinin təsvirində həyatiliyə, obyektivliyə yer verən şair qara örpəkli, yaslı gəlinlərin göz yaşlarını, tutulmuş səsini, qızarmış gözlərini, dırnaqlanmış al yanaqlarının təsvirini elə verir ki, qəlbində buna səbəb olanlara qarşı intiqam hissi yaranır. Hqqın verdiyini geri alması ilə razılaşırsan, ancaq düşmən tərəfindən zamansız alınan canlar çox ağrı verir.

Dəli Domrulun qəhrəmanı olduğu boy çox maraqlıdır, məzmunu eynən "Kitabi-Dədə Qorqud"dakı kimidir. Hadisələrin bədii təsviri isə daha cəlbedicidir. Heç kəsdən qorxmayan qəhrəman Əzrayılı qorxudur, onu gizlincə gəlmək əvəzinə kişi kimi döyüşə çağırır. Mifik obraz olan Əzrayılsa göyərçinə dönüb pəncərədən uçur. Dəli Domrul al-qırmızı şərabı içib, Qazlıq atın belinə qalxıb evə doğru qayıdarkən Əzrayıl atı hürküdür, at üstündəki igidi yerə çırpır və Əzrayıl onun sinəsinə oturur. Dəli Domrul onu oğurluqla can aldığı üçün suçlayır, igidlikdən doymadığı üçün ölmək istəmədiyini söyləyir, aman istəyir. Şair burada böyük Allahın varlığını yada salır və Əzrayılın dili ilə can verənin də, can alanın da o olduğunu söyləyir. Burada çox maraqlı polemika yaradan Səhənd oğuz igidi olan Dəli Domrulun açıqsözlülüyünə, görünməz Tanrının varlığına olan inamına diqqəti çəkir. Oğuz igidi Allahdan canının Əzrayıl vasitəsilə deyil, özünün almasını istəyir:

İnsanların qəlbindəsən,
Daim duran Cabbar tanrı
Baqi qalan Səttar tanrı,
Canımı da alar olsan
Əzrayıla qoymagilən!

Domrulun bu sözlərindən xoşu gələn İlahi birliyini bilən və şükr edən oğuz igidinin yerinə başqa can almasını Əzrayıla fərman verdi. Şair oğuz qadınının vəfalı adına da dastan qoşur, eyni zamanda insanlara ölümdən başqa bir həyatın doğmasını tələqin etməyə çalışır.

Kim deyir ölümdür candan əl çəkmək?
Bu ölümdən doğur başqa bir həyat.
İnsan öz canından keçməsə, demək,
Əbədi həyata çatarmı? Heyhat!

"Sönməz taleyim" şeirində şairin özünü xoşbəxt hesab etdiyinin şahidi oluruq. Səhənd bir o qədər qan-qadanın içərisindən sağ çıxdığına təəccüblənir. Ömrü vəfalı yoldaş kimi onu tərk etməyib. Artıq güllə səsi eşitmir, Təbrizdən Bakıya gəlib, 40

illik həsrətlər kimi qovuşub Bakıya. Bir payız çağı olmasına baxmayaraq, hər yer şairə güllük-gülüstanlıq görünür. Ana dilində danışmağın xoşbəxtliyini yaşayır.

Sözləri səslənir öz sözüm kimi,
Vətənə sevgidə lap özüm kimi.
Nə qədər doğmadır Təbrizim kimi,
Bu Şəki, Şamaxı, Şuşa, taleyim!

Ölmədən intizarına son verilməsindən məmnunluğunu bildirən şair təbinin coşmasını haqlı sayır, yeri var, çünki qış ikən ömrünün şən çağını yaşayır.

Sanıram Əhərdə, ya Muğandayam,
Gah dağı gəzirəm, gah arandayam,
Sanki Səhənddəyəm, Savalandayam,
Baxanda hər dağa, daşa, taleyim!

Sonradan şairin Tehranda yaşadığının sorağını alırıq. Orada da Bakını unutmur. Əlinə "Ədəbiyyat" qəzeti keçib. Əliağa Kürçaylının "Fillər də ağlayır" şeirini oxuyur, təsirlənir və ona "Qardaşım Əliağa Kürçaylıya" adlı şeir-məktubunu yazır. Şairə onun kimi "dərd əhli" olduğunu söyləyir. Göstərir ki, səni ağladanlar məni çoxdan ağladır. Həyatın üzü belədir, mənim güvəndiyim dağlara təkcə qar yox, dolu da yağıb. İnsanın başına nə gəlirsə, saflığından, düzgünlüyündən, qəlbinin təmizliyindən gəlir. Bu şeirdə şairin başqa bir "üzü" ilə qarşılaşırıq. O, inqilab fədaisindən ötə həyatın bütün qüsurlarına qarşı mübarizə aparan qeyrətli bir Vətən oğludur.

Alqış mərd yaşayıb, mərd ölənlərə!
Alqış qoçaqların dəliliyinə!
Qarğış qorxaqların rəzalətinə!
Qarğış ikiüzlünün doğan ilinə!

Tehrandan Ə.Kürçaylı bədxahlarının pis üzlərini qamçılayan şair onları "sürünənlər" sinfinə aid edir, gün çıxınca əriyən buz "heykəl"lərə bənzədir. Şairin sərhəd tanımayan həqiqəti dəstəkləməsi böyük alqışa layiqdir. Elə Səhəndin özünə, dilinə, şeiriyyatına, qeyrətinə alqış!

Səhəndi "söz xəzinəsi" adlandıran Şəhriyar "Səhəndiyyə" əsərini ona həsr etmişdir. Şəhriyar üçün Səhənd Şah dağı kimi el dayağı, şanlı həyatı olan, başı tufanlı bir fədaidir. "Azərbaycan", "Vətən yolunda", "Varlıq" kimi mətbu orqanlar inqilabçı şair və yazıçıların əsərlərini öz səhifələrində əks etdirərək xalqa çatdırır, bununla öz məqsəd və məramını ifadə edirdi. "Varlıq" jurnalının ilk sayının yalnız Səhəndə həsr olunması onun şəxsiyyət və yaradıcılığının xalq və ziyalılar tərəfindən qiymətləndirilməsinin əsas göstəricisidir.

Səhənd yaşadığı müddətdə həyatın qanununu dəyişə bilməsə də, həqiqətin ayaqlanmasına qarşı çıxa bildi, heç kəsdən çəkinmədən sözünü dedi. Mərd fədai, mərd insan, mərd kişi kimi ömür sürdü. Dünyaya gəlib-gedən milyonların qonub köçdüyünü də zamanında dərk etdi. Şair həyatını mənalandıranların, "Nəsimi"lərin yüz illər keçsə də, diri qalacağına inananlardandır. Kəndli "çırağ"ına, müqəddəs yerlərin "ocağ"ına belə inam gətirən inqilab şairi Səhənd əbədiyaşardır.

Ədəbiyyat

1. Səhənd. Seçilmiş əsərləri. Bakı, 2006.
2. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. III cild. Bakı, 1988.
3. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. IV cild.Bakı, 1994.
4. Banarlı N.S. Resimli türk edebiyatı tarihi. İstanbul, 1998.
5. Tərbiyət M. Danişməndani – Azərbaycan. Bakı, 1987.
6. Məmmədzadə H. Təbriz xatirələri. Bakı, 1978.

Сакиба Алескерова

Национальная, свободная и народо своеобразная поэзия
(по производении Булут Карачур Сехенда)
Резюме

Сехенд великий поэт Азербайджана, который был передовиком национально-демократической движении 1941-1946-х годах. Свобода своего народа, родины, обыск истины, борьба за растаптывание правы народа ведущий мотив его поэзии. Поэт-самоотверженный обогащаль значимость жизни с добротой и произведений. Он был известным поэтом Азербаджанской и персидской поэзии.

Shakiba Alasgarova

National, free and people unique poetry
(on poetry they Bulut Karachur of Sekhenda)
Summary

Sehend the great poet of Azerbaijan, which was the front-rank worker of national-democratic motion 1941-1946-s years. The freedom of their people, native land, the search of truth, fight for are right people the leading motive of its poetry. Poet selfless obogashchal the significance of life with the kindness also of works. It was well-known poet Azerbaycany and Persian poetry.

Rəyçi: Teymur Əhmədov
filologiya elmləri doktoru, professor

TƏRANƏ RƏHİMLİ
UOT: 821 (479. 24)
filologiya üzrə fəlsəfə doktoru, dosent
E-mail: t_raqimli@mail.ru ADPU

İSA HÜSEYNOVUN BƏDİİ NƏSRİ ƏDƏBİ-NƏZƏRİ FİKİRDƏ

Ачар сюзляр: *müasir ədəbiyyat, çağdaş nəsr, milli povest, roman*
Ключевые слова: *Современная литература, современная проза, национальное сочинение, повэсть, роман.*
Key words *Contemporary literature, contemporary prose, national composition, to novel.*

1960-sı illər nəsrində insana yenidən qayıdış, onu aparıcı faktor kimi təqdim etmək başlıca estetik prinsipə çevrildi. Bu illərin fəlsəfi-psixoloji, humanist, mili-mənəvi dəyərlərə sədaqət, eyni zamanda milli ruh zəminində yetişən qlobal, bəşəri ideyalarla zəngin nəsrini yaradan yeni ədəbi nəsil – «altmışıncılar» ədəbiyyatımızı möhtəşəm bədii yeniliklərlə zənginləşdirdilər. «Altmışıncılar»ın sıralarında sənət aləminə gələn İsa Hüseynovun yaradıcılığı öz bədii-estetik cazibəsi ilə dərhal ədəbi ictimaiyyətin diqqətini cəlb etdi, tənqidin ən fəal təhlil obyektlərindən birinə çevrildi. İlk hekayə və povestlərinin nəşrindən başlayaraq ədəbi tənqidin görkəmli nümayəndələrinin münasibət bildirdiyi İ.Hüseynov nəsri zaman-zaman ədəbi-nəzəri fikrin tədqiq-təhlil predmeti oldu.

Məmməd Cəfər Cəfərov yazıçının orijinal yaradıcılıq üslubunu yüksək dəyərləndirdiyi tədqiqatında İ.Hüseynovun hələ ilk qələm təcrübələrindən həqiqi yazıçı istedadına malik olduğunu göstərir, əsərlərində Azərbaycan nəsrinin ən yaxşı ənənələrinə yiyələnmək, onları davam etdirmək cəhdini təqdir edirdi. Tənqidçi yazırdı: «O, (İ.Hüseynov – T.R.) sözün həqiqi mənasında obrazlı təfəkkürə malikdir, əsərlərində sözçülük, ritorika yoxdur. Birinci növbədə imkanları daxilində bizə həyatı, onun xarakter hadisələrini, real münasibətlərini, iş və məqsədlərini göstərməyə çalışır. Onda hər bir hadisənin mahiyyətinə nüfuz edə bilən yazıçılıq müşahidəsi duyulmaqdadır... Nəsrdə ciddi əhəmiyyəti olan təsvir qabiliyyəti bu gənc nasirdə qüvvətlidir. O, lüzumsuz təfərrüata yol vermədən hərhansı bir həyat hadisəsini və insan xarakterlərini müvəffəqiyyətlə oxucunun nəzərinə çatdıra bilir.» (1, s.183) Yaradıcılıq yolunun başlanğıcında əsərlərinə verilən bu yüksək nəzəri qiymətdən sonra yazıçı bədii dəyəri ilə bir-birini üstələyən sənət örnəkləri – «Yanar ürək», «Doğma və yad adamlar», «Teleqram», «Kollu koxa», «Məhşər», «İdeal» və başqa əsərlərini yaratdı. İ.Hüseynov nəsrinin daim ədəbi tənqidin diqqət mərkəzində qalması, əsərlərinin ümumittifaq miqyasında müəllifinə xüsusi rəğbət qazandırması, böyük tirajlarla çap olunub yayılması isə heç də təsadüfi hal olmayıb, yazıçının aydın yaradıcılıq mövqeyi, həyat həqiqətlərinə son dərəcə həssas və obyektiv münasibəti, insan psixologiyasının ən dərin qatlarına nüfuz etmə məharəti, kəskin dramatik konfliktlər yaratmaq qabiliyyəti ilə bağlı idi. Yazıçının ilk irihəcmli əsərləri olan «Bizim qızlar» və «Dan ulduzu» povestlərindən başlayaraq mənəvi-əxlaqi problemlər yaradıcılığının aparıcı mövzusuna çevrilmişdir. Lakin ədəbi tənqid bir sıra mühüm məziyyətlərinə baxmayaraq bu povestlərin, xüsusilə onların qəhrəman-

larının «sxematizmdən, sünilikdən yaxasını qurtara bilmədiyini» (Məhərrəm Hüseynov) müşahidə edirdi.

İ.Hüseynov yaradıcılığının mühüm uğurlarından hesab olunan «Yanar ürək» romanı ədəbi tənqiddə xüsusilə böyük əks-səda doğurmuşdur. Tənqid əsəri birm-ənalı qarşılamamış, onun təhlilində ifrat sosiologizm mövqeyindən doğan yanlışlıqlara da yol vermişdir. Ədəbi tənqid İ.Hüseynovu Sultan Əmirli kimi «mənfi bir obraz yaratmaqda» təqsirləndirir, roman müəllifini «canlı həyatımızın bilavasitə özünü deyil,» ümumi (?) ideyaları və həqiqətlərini öyrənməyə çağırırdı. Cəfər Cəfərov «Yazıçı və həyat» məqaləsində yazıçıya həyat müşahidəsini və həyat həqiqətini mütəfəkkir sənətkar bacarığı ilə ümumiləşdirmək yolu ilə getməyi tövsiyə edirdi. Lakin əsər 1960-70-ci illər tənqidində öz obyektiv ədəbi qiymətini aldı. Tənqid əsərdə ideya istiqamətini, real təsviri, aydın və təbii təhkiyəni, güclü xarakterləri, dərin psixologizmi, orijinal surətləri yazıçının incə müşahidələrinin, həyatın mühüm cizgilərini, səciyyəvi xüsusiyyətlərini bütün dəqiqliyi ilə görüb-duya bilməsinin nəticəsi kimi yüksək dəyərləndirirdi. Romanda yazıçının xarakter yaratmaq ustalığı 60-80-ci illər tənqidində xüsusilə təqdirəlayiq məziyyətlərdən biri kimi vurğulanırdı. Məhərrəm Hüseynov bu cəhətə diqqət yetirərək yazır: «Romanda insan xarakterlərinin psixoloji boyaların əlvanlığı ilə təsviri olduqca uğurlu alınmışdır… Sosial konflikltin müasirliyi, müsbət qəhrəmanın mənəvi zənginləşmə prosesi, mənəviyyatca cılızlaşmış insanların böyüklük iddiası müəllif tərəfindən xüsusi diqqətlə, dəqiqlik və təfərrüatlarla canlandırılmışdır. Personajlar sosial-mənəvi və psixoloji dolğunluqlarda təsvir edilmişdir.» (2, s.27) Tənqid əsərdə zamanın təzadlarının, personaj-ların fərdi bədii portretinin, orijinal psixoloji aləminin mükəmməl təsvir olunduğunu göstərir, epik təhkiyənin dramatizmi ilə fərqləndiyini, təsvir obyektinə fərdi baxış, konkret bədii situasiya və ictimai şəraitin istiqamət verdiyi əhval-ruhiyyənin önə çəkildiyini müşahidə edirdi.

Yazıçının «Teleqram» povesti 60-cı illərdə ədəbi tənqidin daha «isti» qarşıladığı əsərlərdən biri kimi xüsusilə diqqəti çəkir. Povestdə insan və təbiət münasibətlərini önə çəkən müəllif xüsusi mülkiyyətçilik psixologiyasına, meşşanlığa qarşı mübarizə aparan güclü xarakter yaradır. Əsərdə təsvir olunan mürəkkəb vəziyyət, ziddiyyətli və dramatik situasiyalar, insanın mənəvi dəyərləri hifz etmək yolunda qatlandığı əziyyətlər, ruhi-mənəvi yaşantılar sənətkar tərəfindən böyük məharətlə canlandırılmışdı.

Ədəbi tənqid povestdə qəhrəman konsepsiyasının təhlilinə xüsusilə geniş yer verir, əsərin baş qəhrəmanı Zəlimxanı dövrün bədii nəsrinin ən kamil, müasir surətlərindən biri kimi dəyərləndirirdi. Ədəbi-nəzəri fikir «Teleqram» povestinin geniş əks-səda doğurmasını müxtəlif amillərlə əlaqələndirirdi. İnsan və təbiət münasibətlərinin geniş epik təsviri, onun doğurduğu mənəvi-psixoloji ovqatın həssaslıqla, yüksək vətəndaşlıq mövqeyindən bədii əksi, xarakterlərin qarşıdurması, toqquşması zəminində sosial və əxlaqi problemlərin dolğun, müfəssəl təhlili, cəmiyyət həyatındakı dəyişikliklərə, mənəvi proseslərə həssas və fəal müdaxilə əsərin uğurunu təmin edən başlıca məziyyətlər kimi qiymətləndirilirdi.

Yazıçının «Doğma və yad adamlar» povesti isə bir müddət tənqidin haqsız, qərəzli hücumlarına məruz qalsa da, yüksək bədii keyfiyyətləri hesabına haqq qazanmış, milli bədii nəsrimizin ən yaxşı nümunələri sırasında yer almışdır. Ədəbi-nəzəri fikir əsəri İ.Hüseynovun müasirlik axtarışlarının uğurlu nəticəsi kimi qiy-

mətləndirir, əsərin yüksək sənətkarlıq səviyyəsi, bədiiliyi, canlı dili, aydın üslubu ilə fərqləndiyini, epik formanın yeni imkanlarını üzə çıxardığını, psixoloji təsvirin, epik ümumiləşdirmənin daha mükəmməl vasitələrini əks etdirdiyini vurğulayırdı.

Yaradıcılıq örnəklərində rəngarəng mövzulara müraciət edən yazıçının müharibə mövzusunda yazdığı «Tütək səsi» və «Saz» povestləri də ədəbi-elmi ictimaiyyət tərəfindən xüsusi maraqla qarşılanmışdır. Tənqid novatorluğu hər iki əsərin başlıca məziyyəti kimi dəyərləndirirdi: «Müharibənin insan həyatında və psixologiyasında yaratdığı təbəddülatların bədii kəşfi povestlərin novatorluğunun göstəriciləridir. Burada həmçinin əvvəlki əsərlərdən fərqli süjet və kompozisiya özünəməxsusluğu var. Bədii strukturun, təsvir vasitələrinin təravəti daha cazibəlidir. Həyata, hadisə və insanlara müəllif münasibəti tamamilə yenidir.» (2, s.35) Yazıçının hər iki əsərdə milli xarakter yaratmaq ustalığı təqdir olunur, Cümrü («Tütək səsi»), İsfəndiyar kişi («Saz») obrazları daha geniş təhlil mərkəzinə çəkilirdi. Müharibə şəraitində milli xarakterin mahiyyətini bütünlükdə açmaq, hər iki povestin mündəricəsində bu faktoru diqqətdə saxlamaq müəllif qayəsinin məğzini təşkil edən əsas amil kimi izah edilirdi. Tənqid haqlı olaraq anasının qeyrətini çəkən Cümrünü, qayğıkeş, gücsüzlərin pənahı Mehbalı kişini, patriarxallığın bariz örnəyi, elin ən yaxşı keyfiyyətlərini, mənsub olduğu millətin mənəvi-əxlaqi xüsusiyyətlərini özündə cəmləşdirən İsfəndiyar kişini, əsgər ailələrinin təmiz adının keşikçisi Qılınc Qurbanı milli ruhun, mnəviyyatın timsalı – milli «yük»ün daşıyıcısı olan obrazlar kimi önə çəkir, əsərin əsas uğurunu da milli xarakter cəhəti ilə əlaqələndirir.

İsa Hüseynovun problematikasının müasirliyi, sənətkar mövqeyi, milli-mənəvi, əxlaqi dəyərlər konteksti ilə diqqəti çəkən digər bir əsəri «Kollu koxa» povestidir. «Müasir kənd və nəsrimiz» məqaləsində Isa Hüseynovun əsərlərinin müasir nəsrimizi bir sıra ideya-estetik keyfiyyətlərlə zənginləşdirdiyini qeyd edən Kamal Talıbzadə yazıçının «Kollu koxa» poevesti və «Şəppəli» hekayəsinin təhlili əsasında ümumiləşdirmələr aparır, maraqlı elmi nəticəyə gəlir. Tədqiqatçı yazırdı: «O, (İsa Hüseynov – T.R.) xarakter və portret yaradıcısıdır. Onun «Kollu koxa» povesti və «Şəppəli» hekayəsi nəsrimizin yeni gözəl nümunələrindən hesab edilə bilər. Bu əsərlərdə əsl sənətə aid keyfiyyətlər çoxdur: insan mənəviyyatına daxili aləminə nüfuz, surəti real danışdırmaq, təbiəti mükalimə, yığcamlıq, kiçik bir detal ilə geniş bir aləm yaratmaq istedadı, tipikləşdirmə, ümumiləşdirmə qüvvəsi, həyatı kənar müşahidəçi ,seyrçi kimi deyil, məhz vətəndaş yazıçı kimi dərk edə bilmək, onun dərinliklərinə cuma bilmək bacarığı, nəhayət, konkret həyat probleminin həllini vermək məharəti.» (4, s.63)

«Kollu koxa» povestində dinamikanı hadisədə yox, mükalimənin özündə görən tənqid bu cəhətin əsərin təsir gücünü artırdığını müşahidə edirdi. İ.Hüseynovun müasir kənd adamlarının psixologiyası, dünyagörüşü zəminində onların xarakterindəki lovğalıq, xalqdan uzaqlaşmaq meylləri, xudbinlik, şöhrətpərəstlik kimi sifətləri təbii, real cizgilərlə canlandırması, sağlam, əmək əhvali-ruhiyyəsi ilə əhatə olunmuş bir mühitdə yaranmış belə qeyri-təbii vəziyyəti kəskin tənqid hədəfinə çevirməsi milli ədəbi tənqiddə yüksək dəyərləndirilirdi.

«Şəppəli» hekayəsində kiçik adamların taleyi məsələsinə diqqət yetirən K.Talıbzadə müəllifin əsərdə kiçik əhvalatla maraqlı səhnə, bitkin, bütün mənəviyyatı ilə oxucuya aydın olan surət yaratmaq ustalığını təqdir edir, İ.Hüseynovun əsərdə qarşısına qoyduğu problemi bacarıqla həll etdiyini göstərirdi.

70-ci illərdə Azərbaycan tarixi romanının ən dəyərli nümunələrindən biri kimi İsa Hüseynovun «Məşhər» romanına ədəbi tənqidin münasibəti diqqətəlayiqdir. Tənqid XIV əsrin sonu – XV əsrin əvvəllərində Azərbaycan ictimai-siyasi gerçəkliklərindən bəhs edən əsəri tarixi mövzuda müasirliyin bədii həlli baxımından ən dəyərli nəsr nümunəsi kimi qiymətləndirir. Milli-tarixi keçmişin bütöv bir mərhələsinin bitkin obrazını təqdim edən əsərdə yazıçı həyəcanının müasir mətləb və məna ifadə etdiyi vurğulanır, romanda bədii əksini tapan məsələlərin müasir insanın mənəvi axtarışları ilə yaxından bağlılığı göstərilir. Tofiq Hüseynoğlu əsərdə sənətin müasirlik tələbinin hansı səviyyədə öz əksini tapdığını belə açıqlayırdı: «Müasirlik «Məhşər» romanında yazıçının seçib qələmə aldığı hadisələrdən, səciyyəviliklə canlandırdığı obrazlardan doğan assosiasiyalarda, bütövlükdə isə əsərin ideyasında ifadə olunub. Bu gün planetimizdə insan haqqında mübahisələrin, insanın beyni və qəlbi, düşüncəsi və hissi uğrunda mübarizənin kəskinləşdiyi, insan haqqında zidd dünyagörüşlərinin daha kəskin və daha müxtəlif formalardan istifadə ilə apardığı mübarizənin kəskinləşdiyi bir vaxtda İsa Hüseynovun roman üçün XIV-XV əsr hadisələrinə, böyük filosof şair Nəsiminin humanist şeirinə müraciəti təsadüfi deyil.» (3, s.137.) Tədqiqatçı yazıçının insan haqda çağdaş dövrün ehtiyacları və tələbləri səviyyəsindən söz demək zərurətini, bu zərurəti tarixi-fəlsəfi planda yerinə yetirmək bacarığını və nəticədə «insanda İnsana maraq və məhəbbət doğurması»nı əsərin müasirliyinin əsas əlaməti kimi mənalandırır.

Yavuz Axundlu da məsələyə öncə insan və zaman kontekstində yanaşır, sonra bu konteksti bir qədər də genişləndirərək sənətkar və zaman müstəvisinə yönəldir, əsərdə yazıçının tarixi hadisələrin təsvirindən daha çox Nəsiminin ideya-fəlsəfi axtarışlarına xüsusi önəm verdiyini əsaslandırır. Tədqiqatçı konkret tarixi dövrə sosial-fəlsəfi baxış ifadə edən romanın ana xəttinə – mənəvi həqiqət uğrunda mübarizə istiqamətinə diqqəti cəlb edir ki, bu da keçmişdəki qəhrəmanla müasir insanın əqidə, məslək amalını bir nöqtədə birləşdirən ideya əlaqəsi kimi maraq doğurur.

Tənqid romanda müasirliyi «milli və bəşəri kədəri ifadə edən» tarixi şəxsiyyətin müdrikliyə gedən yolda çarpışmasının – həqiqət axtarışının, bu məslək uğrunda mübarizəsinin bədii dərkinə imkan yaratması ilə əlaqələndirir. Bu baxımdan Himalay Ənvəroğlunun mülahizəsi diqqətəlayiqdir: «Tarixi mövzunu, uzaq keçmişin dramatik hadisələrini müasirliyə xidmət etdirmək, milli tale ilə bağlamaq, dünyanı «ənəlhəq»in ahəngində dərk etmək «Məşhər» romanının fəlsəfi konsepsiyasını təşkil edir.» (5, s.92).

Ümumiyyətlə, Azərbaycan ədəbi tənqidi İsa Hüseynovu qüdrətli bir sənətkar kimi insana, insan xarakterlərinə, onun milli-mənəvi keyfiyyətlərinə, daxili aləminin incəliklərinə, psixoloji mürəkkəbliyinə dərindən nüfuzetmə qabiliyyətinə, yaradıcılığının tənqidi pafosuna, yazıçı cəsarəti və məqsəd aydınlığına görə yüksək dəyərləndirir.

Ədəbiyyat:

1. Cəfərov M.C. «Dan ulduzu» povesti. «Azərbaycan» jurnalı, 1954, № 11.
2. Hüseynov M. Janr, zaman və ədəbi qəhrəman. Bakı, Elm və təhsil, 2012.
3. Hüseynoğlu T. Söz – tarixin yuvası. Bakı, «NEŞ», 2005.

4. Talıbzadə K. Seçilmiş əsərləri. İki cilddə. c.1., Bakı, Azərnəşr, 1991.
5. Qasımov H. Müasir Azərbaycan romanı. Janrın poetika və tipologiyası. Bakı, 1994.

Тарана Rагимли

Художественная проза Иса Гусейнова в
литературно-критической мысли
Резюме

В исследовании повествуется о художественной прозе Иса Гусейнова, рассмотрен сечинении, повесты и романы писателья, которые вызвал большой интерес в литературной критике. Художественная проза И.Гусейнова, оцененный в контексте прозаических произведений «шестидесятников» охарактеризован как произведение, отображающее социальную действительность современного периода, ясную картину правдивости, горькие переживания современной молодёжи и навечно воплотившимися в памяти живыми художественнымы полотнами. Романы и поветсти писателья оценивается как из значимых образцов посвященных национально-духовной тематике в азербайджанской прозе последние десятилетии. Статья имеет применительное значение на научных семинарах филологических факультетов высших школ, посвящённых вопросам спецкурсов и спецсеминаров.

Tarana Rahimli

Artistic prose of Isa Huseynov's in the literary
critical thought
Summary

In a study it is narrated about the artistic prose of Isa Huseynov's, it is examined *composition*, and novels of the writer, which the great interest in the literary criticism caused. Artistic prose Isa Huseynov, evaluated in the context of the prosaic works "of man of the sixtien" is described as the work, which reflects the social reality of contemporary period, the clear picture of truthfulness, the bitter experiences of contemporary young people and by the forever personified in the memory living of artistic by fabrics. Novels and to composition writer is evaluated as of the significant models of those dedicated to nation- spiritual thematics at Azerbaijan prose the latter decade. Article has applicable value at the scientific seminars of the philological departments of the higher schools, dedicated to questions of special courses and special seminars.

Rəyçi: Himalay Qasımov
filologiya elmləri doktoru, professor

ƏFSANƏ İSMAYILOVA
SDU
xalida29@hot.mail.com

MİLLİ AZADLIQ VƏ DUYĞULAR ŞAİRİ: BƏKİR ÇOBANZADƏ

Açar sözlər: azadlıq duyğuları, repressiya, milli özünüdərk, əzmkarlıq, milli yaddaş.
Key words: *feelings of freedom, national self cognition, repression, resolution.*
Ключевые слова: чувство свободы, национальное самосознание, репрессии, решительность

Görkəmli alim Bəkir Çobanzadə (1893-1937) bütün şüurlu həyatını türk dünyasının təbliğinə, onun tükənməz mənəvi xəzinəsinin tədqiqinə həsr etmişdi. Parlaq istedadlı bu cəfakeş alim türkün geniş coğrafi areallarında XX əsrdə yetişən ən böyük elmi şəxsiyyətlərdən və ədəbi simalardan biri olmuşdur. Çox təəssüf ki, bir çox görkəmli türk övladları kimi B.Çobanzadə də kommunist rejiminin günahsız qurbanlarından birinə çevrilmiş, 1937-ci ildə ağılasığmaz ittihamlarla mühakimə olunaraq güllələnmişdir.

Çox acınacaqlı haldır ki, cəmi 20 dəqiqə davam edən məhkəmə prosesində bu parlaq istedad SSRİ-ni parçalamaqda, o dövrdə müxtəlif türk respublikalarında terrorçuluq törətməkdə, beynəlxalq imperializmlə siyasi əlaqədə olduğuna və sair ittihamlarla günahkar sayılmış, dəlilsiz-sübutsuz həyatına son qoyulmuşdu.

Lakin tarix heç kimi və heç nəyi unutmur. Bəkir Çobanzadə kimi minlərlə insan haqqında Sovet hakimiyyətinin uydurduğu yalanlar aşkar olundu, gec də olsa, tarix öz əməllərindən utandı. H.Cavid, M.Müşfiq, Ö.F.Nemanzadə, V.Xuluflu və digər repressiya qurbanları kimi B.Çobanzadə də öz həqiqi qiymətini aldı.

Məlum olduğu kimi, B.Çobanzadə 1924-cü ilin sonunadək Krımda, həmin ildən ömrünün axırınadək Bakıda yaşayıb-yaratmışdır. Ümumtürk və Krım-tatar ədəbiyyatının bu görkəmli nümayəndəsinin elmi və ədəbi irsinin öyrənilməsi istiqamətində son dövrlərdə xeyli iş görülsə də, hələ də onun çoxşaxəli yaradıcılığının tədqiqində müəyyən boşluqlar mövcuddur. Bu baxımdan B.Çobanzadənin ədəbi-bədii irsinin araşdırılmasına böyük ehtiyac vardır.

Tanınmış türkoloq, bütün türk dünyasının nadir incilərini doğma dilimizə çevirən, bu yönümdə böyük uğurlar qazanan və fəaliyyətini ardıcıl şəkildə davam etdirən professor Ramiz Əskər Bəkir Çobanzadənin də yaradıcılığına ayrıca diqqət yetirmişdir. R.Əckər onun ədəbi irsini dilimizə uyğunlaşdıraraq iki kitab halında ("Seçilmiş şeirləri" (2011) və "Seçilmiş bədii əsərləri" (2012) çap etdirmişdir. Onu da qeyd edək ki, Azərbaycan oxucusu B.Çobanzadənin bədii yaradıcılığı ilə ilk dəfə olaraq geniş şəkildə bu kitablar vasitəsilə tanış olmuşdur. Hər iki kitaba dərin məzmunlu və dəyərli ön söz yazan R.Əskər Bəkir Çobanzadənin poetik yaradıcılığını yüksək qiymətləndirir. "Böyük alim və ədib Bəkir Çobanzadə" adlanan öz sözdə müəllif Bəkir Çobanzadənin ədəbi irsinin Azərbaycanda öyrənilməsi problemindən bəhs edərək yazır: "Bəkir Çobanzadə böyük bir alim olmaqla yanaşı, həm də istedadlı ədib, şair və yazıçı, publisist idi. Onun şeirləri və hekayələri, ədəbi düşün-

cələri Azərbaycanda çox da bilinmir. Ona görə də Çobanzadə şəxsiyyətinin bu yönündən ayrıca bəhs etmək lazımdır" (1, səh. 7).

B.Çobanzadə ədəbi fəaliyyətə "Anan harada" adlı şeiri ilə qədəm qoymuşdur. Şairin ilk mətbu əsəri olan bu şeir 1913-cü ildə İstanbulda "Yaş-tatar yazıları" toplusunda dərc olunmuşdur. B.Çobanzadə öz sağlığında 1928-ci ildə 55 səhifədən ibarət "Boran" adlı şeirlər kitabını çap etdirmişdir. Sonrakı dövrlərdə onun ədəbi irsindən müəyyən parçalar nəşr olunsa da, bunlar şairin poetik yaradıcılığını tam əhatə etməmişdir. 1999-cu ildə İstanbulda İsmayıl Otar tərəfindən tərtib edilərək çap olunan "Kırımlı türk şairi və bilgini Bəkir Çobanzadə" kitabı onun bədii yaradıcılığını əhatə edən ən mükəmməl nəşr hesab olunur. Prof. R.Əskər adlarını çəkdiyimiz kitablarda B.Çobanzadənin 72 şeirini, "Tandu" adlı poemasını, 6 hekayəsini, 3 məqaləsini və ədibin 1917-1918-ci illərdə yazdığı məktublardan bəzi parçaları çap etdirmişdir.

B.Çobanzadənin poeziyasının başlıca məzmun-ideya istiqamətlərini milli-azadlıq duyğuları, yurd sevgisi, həsrət motivləri, milli-dini birliyə çağırış və sair təşkil edir. Onun şeirlərinin hamısında doğma xalqının taleyi, mənəvi məhbusluqdan azad olunmaq istəyi, milli-dini yaddaşın poetik təzahürü qabarıq şəkildə özünü göstərir. Görkəmli sənətkarın şeirlərində çox vaxt adi təbiət varlıqları və predmetləri poetik məna qazanır, şair yurd nisgilini, həsrət duyğularını onların vasitəsilə ifadə edir:

Buludlar, buludlar!
Yedici buludlar,
Cunqara, Xataya,
Yarıcı buludlar!
Məni də götürün, könlüm açılsın,
Yurduma gözümdən yaşlar saçılsın! (2, səh. 42).

"Buludlar, buludlar" adlı bu şeirin poetik məzmunu doğma Vətənini bütün varlığı ilə sevən bir tatar gəncinin həsrət və kədər notları üzərində qurulmuşdur. Həm də bu, sırf şəxsi kədər deyil, azadlığını əldən verməк istəməyən, içdiyi su, sinəsinə aldığı hava kimi onu zəruri hesab edən bir insanın qəlb çırpıntılarıdır:

Buludlar, buludlar,
Hardan gəlirsiz?
Köyümdən, anamdan,
Xəbər verin siz. (2, səh. 42).

"Uzaq dağlar" şeirində də eyni hiss və duyğuların ifadəsini görürük. Şair dağları poetik vasitə kimi mənalandırır, doğma el-obaya sevgisini, kövrək hisslərini dilə gətirir:

Siz də məni anırsınızmı?
Tez-tez yada salırsınızmı?
Mənim üçün yanırsızmı?
Başı göyə yetən dağlar,
Ağlayan, zikr edən dağlar. (2, səh. 89).

B.Çobanzadənin poeziyasında, həsrət və kədər duyğuları bəzən bədbinliklə çulğaşsa da, azadlıq hissləri, müstəqillik və özgürlük onun şeirlərinin alt layında bədii-tarixi bir mərama çevrilir. Tatar xalqının azadlığının əlindən alınması şairi

olduqca kədərləndirir, lakin bu kədərin içində bir qəzəb və nifrət işartıları, azadlıq uğrunda mübarizəyə çağırış motivləri də boy verib özünü göstərir:

Dinc tatar çölündə ot da bitməyir,
yox meyvələri.
Çoxdandır bu yerdən igid ötməyir,
yolları əyri.
Dinc tatar çölünə ətalət yağır,
qan gərəkdir, qan!
Burda hamı qoyun, dovşan və sığır,
hanı, bir arslan? (2, səh. 30).

"Dinc tatar çölündə" (1916) adlı kiçik bir şeirdə köləliyə nifrət edən, mütilik zəncirini qırıb-parçalamaq istəyən bir insanın qan yaddaşının isti və doğma hənirtiləri oxucunu da milli öüzünüdərkə səsləyir. Fikrimizcə, B.Çobanzadənin zəngin poeziyasının nüvəsində milli özünüdərk o qədər dərin kök salmışdır ki, digər ideya və motivlər bu özünüdərkdən qaynaqlanır. Tarixi milli yaddaşdan süzülüb gələn duyğular onun vətəndaş mövqeyinin özünəməxsusluğunun, soykökünə qırılmaz tellərlə bağlılığın göstəricisinə çevrilir. Şairin "Tatar deyiləm" deyənlərə" (1919), "Min doqquz yüz on doqquz" (1919), "Dunay daşır-II" (1920) və digər şeirlərində qeyd etdiyimiz bu cəhəti yalnız poetik göstərici kimi deyil, milli özünüdərkin, fərdin ictimai şüurunun sosial-siyasi ifadəsi kimi səciyyələndirmək lazımdır. Şair vaxtilə tarixlərə hökm edən, azadlığı qanı və canı bahasına qoruyub saxlayan bir millətin kölə halına düşməsinə nifrət hissi ilə yanaşır, onu qəzəblə qamçılayıb öz keçmişindən ibrət dərsi almağa səsləyir:

Tatar ustasıdır savaşın, cəngin,
Tatar nəvəsidir, Çingizin, Ləngin.
Didik-didik oldu bayraqlar onda,
Neçəsi boğuldu sel kimi qanda. (2, səh. 82).

B.Çobanzadə kiçik bir yığcam epik ştrixlər vasitəsilə xalqının tarixi zəfərlərini poetikləşdirir, keçmişdən bu günə körpü salaraq mənəvi miskinliyə qarşı çıxır, milli mənlik şüurundan məhrum olanları "miskin", "kölə" adlandırır:

Bunlar tatar idi, savaşa bilən,
Ölümün üzünə tatar tək gülən.
Onlar tatar kimi yaşasa idi,
Bu gün tatarların olmazdı dərdi. (2, səh. 82.)

Ağır dərdlərlə yüklənmiş bu poetik misralarda şairin milli vətəndaşlıq düşüncələri sosial-fəlsəfi mahiyyət daşıyır, qorxudan öz mənliyini dananlar kəskin ittihamla damğalanır:

"Biz tatar deyilik" deyirlər bu gün,
Əlbəttə, deyilsən, ay kölə, miskin.
Sən bu gün kimsəsiz əkinçi, çoban,
"Tatarsan" desən də olmaz inanan. (2, səh. 82).

Sonuncu misranın sosial-bədii tutumu oxucunu düşünməyə, özünü dərketməyə səsləyir. Bu poetik məram, xalqına və soykökünə ehtiram, əqidə bütövlüyü B.Çobanzadənin "Sən dəyişmə" (1918) şeirində daha açıq və əzmkarlıqla ifadə olunmuşdur. Şair millətinə, vətəninə xidmət etmək istəyən oğullara müraciətlə

azadlığın çətin və şərəfli bir yol olduğunu göstərir. Bu yolda ölüm də, haqsızlıq da, mübarizə də var, lakin qələbəyə inam heç vaxt əsil mübarizləri, azadlıq eşqilə vuruşanları tərk etməməlidir. Çünki bu yol ən müqəddəs yoldur, müqəddəs tutulan amalı isə heç nəyə dəyişmək olmaz:

Dəyişmə, muradın millətsə sənin,
Vətənə, torpağa xidmətsə sənin.

Sən dönmə, qardaşım, haqqın yolundan,
Çəkinmə sağından, nə də solundan.

Sən sürün, yenə də dəyişmə ancaq,
Sonda qalibiyyət sənin olacaq! (2, səh. 131).

"Bəkir Çobanzadə sözün həqiqi mənasında istedadlı şair idi. Onun yaradıcılığı, bizə çatan şeirləri vətənpərvər bir türk oğlunun böyüklüyündən xəbər verir. Dövrün hadisələrinə, ictimai-siyasi mühitə münasibət, füsunkar vətən torpağının gözəllikləri, təmiz sevgi duyğuları bu misraların içinə hopur, Bəkir Çobanzadə istedadının imkanlarını aşkarlayır. Türk şeir tarixinə nəzər saldıqda çox əski zamanlarla bağlanan düşüncənin B.Çobanzadəyə qədər davamlılığını görürük" (3, 108).

B.Çobanzadənin doxsan beş il əvvəl yazılmış şeirləri onun uzaqgörənliyini bir daha təsdiq etdi. Bu görkəmli şəxsiyyətin mənalı həyatı həmin misraların əbəs yerə deyilmədiyini sübut edir, tarixi həqiqəti, əyani şəkildə nümayiş etdirən bir örnək kimi bugünkü nəsillərə və türk övladlarına kimliyini pıçıldayır, onu etno-milli özünüdərkə səsləyir.

Ədəbiyyat

1. Çobanzadə B. Seçilmiş əsərləri. Bakı, 2011
2. Çobanzadə B. Seçilmiş bədii əsərləri. Bakı, BXQR, 2012
3. Allahmanli M. Krım-tatar ədəbiyyatı (problemlər, mülahizələr). Bakı, ADPU nəşriyyatı, 2007
4. Şamil Ə. Uyğur, qaqauz, quzey Qafqaz türklərinin folkloru və ədəbiyyatı. Bakı, Nurlan, 2011
5. Müasir Azərbaycan ədəbiyyatı. 2 cilddə. I cild. Bakı, Bakı Dövlət Universiteti nəşriyyatı, 2007

А.Исмаилова

Бекир Чобанзадэ – поэт воспевающий национальную свободу и простые чувства

Резюме

Б. Чобанзадэ был не только видным ученым, но и талантливым поэтом. Основной темой произведений поэта, ставшего жертвой репрессий, является тема национальной независимости, любви к родине, тоски по свободе. Такие произведения поэта как «Облака, облака», «Где мать твоя», «Далекие горы»

написанные ещё 95 лет назад и сегодня захватывают душу читателя и зовут к пробуждению национального самосознания.

A Ismaylova

The poet of national freedom and feelings – Bakir Chobanzadeh

Summary

B.Chobanzadeh – a remarkable scientist at the same time was a talented poet. Being a victim of repression the main theme of his poetry was feelings of national freedom, love of motherland, motives of desires.

Although the poet's work such as "such as "Clouds, clouds", "Where is your mother","Far mountains" written before 95 years are sympathyc for readers and calls them to national self cognition.

Rəyçi: dos. A.İ Məmmədov

HÜSEYN HƏŞİMLİ
filologiya elmləri doktoru, əməkdar elm xadimi
(Naxçıvan Dövlət Universiteti)
e-mail : hashimli-h@rambler.ru

ƏLƏKBƏR QƏRİB NAXÇIVANLININ HEKAYƏLƏRİ

Açar sözlər: Azərbaycan ədəbiyyatı, naxçıvanlı yazıçılar, hekayə, Ələkbər Qərib Naxçıvanlı

Key words: Azerbaijan literature, Nakhchivan writers, story, Alekper Garib Nakhchivanli

Ключевые слова: Азербайджанская литература, нахчыванские писатели, рассказ, Алекпер Гариб Нахчыванлы

Ədəbi irsi elmi fikrin diqqətindən kənarda qalmış qələm sahiblərindən biri də Ələkbər Qərib Naxçıvanlıdır. Tədqiqatımız göstərir ki, Ələkbər Qərib Naxçıvanlı (Abbasov Ələkbər Tağı oğlu) 1910-30-cu illərdə ədəbi prosesdə yaxından iştirak etmiş, nəsr, publisistika, ədəbi tənqid və bədii tərcümə sahəsindəki səmərəli, məhsuldar fəaliyyəti ilə tanınmışdır. Onun "Ələkbər Qərib", "Əliəkbər Naxçıvanlı", "Ələkbər Abbasov", "Ə. Qərib" və digər imzalarla çap etdirdiyi roman, povest və hekayələr, publisistik və ədəbi-tənqidi məqalələr, bədii tərcümələr ciddi sənət axtarışlarının məhsuludur. Bu məqalədə biz yazıçının hekayələrindən söz açacağıq.

Öncə onu deyək ki, Ələkbər Qərib Naxçıvanlı bədii yaradıcılığa hələ Qori Müəllimlər Seminariyasında təhsil alarkən başlamışdır. Onun həmyerlisi və tələbə yoldaşı, yazıçı-publisist Əli Səbri Qasımov həmin illəri xatırlayarkən müəllimləri, məşhur pedaqoq və ədəbiyyatşünas Firudin bəy Köçərlinin bir çox tələbələri bədii yaradıcılığa həvəsləndirdiyini vurğulayaraq yazmışdı: "Firudin bəyin bizdə ədəbiyyata böyük maraq oyatdığının nəticəsi olaraq Rəcəb Əfəndiyev, Ələkbər Abbasov (Qərib), Zülfüqar Ağakişibəyov və mən rus ədiblərindən Azərbaycan dilinə bir sıra əsərlər tərcümə etməyə və əsər yazmağa başladıq" **(1, s. 269**). Gənc Ələkbər seminariya illərində əvvəlcə qələmini rus dilində sınamışdır. Bu baxımdan onun Tiflisdə "Zakafkazye" qəzetinin 8 aprel 1910-cu il tarixli 79-cu sayında "Alekper Abbasov" imzasıyla dərc olunmuş "Uçeniça" ("Məktəbli qız") hekayəsi qeyd oluna bilər. Prof. Şamil Qurbanov bu hekayənin adını ötən əsrin əvvəllərində azərbaycanlı müəlliflərin rusca yazdığı diqqətəlayiq əsərlər sırasında çəkmişdir **(2, s. 145).** Gənc yazarın ilk qələm təcrübələrindən olan bu kiçik hekayə özünün maarifçi ovqatı ilə səciyyələnir.

Az sonra Ələkbər Qərib artıq Bakı mətbuatında rəngarəng səpkili hekayələrlə çıxış etməyə başlamışdır. Bu baxımdan Bakıda çıxan "Məktəb" jurnalının 1913-cü ildəki 7-ci sayında "Əliəkbər Naxçıvanlı" imzasıyla dərc olunmuş "Bacı və qardaş" hekayəsini xatırlada bilərik. **(3, s. 107-110).** Gənc müəllifin uşaq məişətinə, psixologiyasına və dünyagörüşünə yaxından bələdliyi razılıq doğurur. Hekayənin əsas obrazları qardaş və bacı - Teymur ilə Fizzədir. Əsər böyük bacıları Zərəfşanın onları yuxudan oyatmasının təsviri ilə başlayır. Sonra onlar çoxdankı arzularının gerçəkləşdiyini eşidirlər. Belə ki, xidmətçi İsmayıl lələ xahişlərini nəzərə alıb uşaqlar üçün bir dovşan balası tutub gətirmişdir. Uşaqlar gah dovşana şirniyyat yedirtmək

istəyir, gah sərinləməsi üçün onu bağçaya aparır, gah atıb-tutur, gah qulaqlarını dartır, gah da tikdikləri yuvada yatırtmaq istəyirlər. Uşaqların son təşəbbüsü dovşanı təmizkarlığa yönəltməklə bağlı olur:

"Fizzə dovşanın ağzını ayırıb, diqqət ilə dişlərinə baxır və qardaşına deyir ki :

- Bura bax, Teymur! Gör bunun dişləri necə kirli və murdardır. Yadındadırmı, anam deyirdi ki, dişin çirkli olması çox zərərlidir. Bundan insan naxoş olar. Ona görə, gəl, bunun dişlərini qəşəngcə yuyub təmizləyək".

Belə də edirlər. Dişləri fırçalanan dovşan son nəticədə onların əlindən qaçır.

Hekayədə bir tərəfdən, uşaq məişətindən maraqlı səhnə sənət dili ilə canlandırılmış, digər tərəfdən də sağlam həyat tərzi üçün zəruri olan təmizkarlıq, səliqəli olmaq, vaxtında qida qəbul etmək kimi məsələlər bədii şəkildə ifadə olunmuşdur. Bu baxımdan əsərin əvvəlində analarının bacı və qardaşa nəsihətləri diqqəti çəkir. "Bacı və qardaş" hekayəsi ilə bağlı bir məsələyə də toxunmaq istəyirik. Mərhum, professor M.H. Təhmasib "Məktəb" jurnalında folklora münasibət məsələsi" adlı məqaləsində ötəri şəkildə bu əsərə də toxunmuş, uşaqların oxuduğu "Əkil-bəkil quş idi" mahnısının hekayə ilə lazımınca əlaqələndirilmədiyini yazmışdır **(4, s. 20).** Fikrimizcə, ustad alimin həmin iradı dəqiq deyil. Belə ki, hekayədə uşaqların oyun zamanı öz yaş səviyyələrinə, maraq dairələrinə, psixologiyalarına müvafiq olan mahnıları, o cümlədən adı çəkilən parçanı oxuması tamamilə təbiidir və burada uyğunsuzluq, əsərin ideya-bədii strukturu ilə bağlanmamaq əlaməti axtarmağa əsas yoxdur.

Yaradıcılıq axtarışlarını davam etdirən gənc yazıçı bir-birinin ardınca yeni hekayələr qələmə almış, onları 1914-cü ildə Bakıda "Haqq divanı" adlı kitabında toplayaraq oxuculara təqdim etmişdir. "Əliəkbər Naxçıvanlı" imzasıyla çap olunmuş həmin kitabda müəllifin üç hekayəsi verilmişdir: "Haqq divanı" **(5, s. 2-11),** "Faciə" **(5,s. 12-32),** "Uşaq divanı" **(5, s. 33-66).**

"Haqq divanı" hekayəsinin sonunda yazıldığı tarix və yer göstərilmişdir: avqust, Qori. Yəni bu hekayə Ə. Naxçıvanlının seminariyada təhsil aldığı illərin məhsuludur. Hekayənin adından əvvəl "Bəradərim Xəlil ağa Hacılarova hədiyyədir" qeydi var. Aydınlıq naminə deyək ki, Xəlil ağa Hacılarov (1895-1970) da əslən Naxçıvandan olmuş, Əliəkbər Abbasov (Naxçıvanlı) ilə birlikdə Qori Seminariyasında oxumuş, uzun illər Azərbaycanda və Gürcüstanda pedaqoji sahədə çalışmış, bir sıra pedaqoji-metodiki əsərlər də yazmış, dövri mətbuatda məqalələr dərc etdirmişdir.

Ə.Naxçıvanlının "Haqq divanı" hekayəsinin adından sonra "iqtibas olunub" qeydi və Məhəmməd Füzulinin: "Hər yerdə olsa, qanlını, əlbəttə, qan tutar" misrasının epiqraf kimi verilməsi ilə qarşılaşırıq. Müəllif hekayənin iqtibas olunduğu ilkin mənbə haqqında heç bir məlumat verməmişdir. Tədqiqat nəticəsində bu nəticəyə gəldik ki, Əliəkbər Naxçıvanlının "Haqq divanı" hekayəsi ideya, qayə, mahiyyət baxımından maarifçi yazıçı Sultan Məcid Qənizadənin rus ədibi A. F. Poqosskinin (1810-1874) "Allah divanı" hekayəsindən 1894-cü ildə təbdil edib 1896-cı ildə çap etdirdiyi eyni adlı hekayə ilə çox yaxından səsləşir. S. M. Qənizadə də "Allah divanı" hekayəsinin əvvəlində M. Füzulinin yuxarıda xatırlatdığımız misrasını epiqraf vermişdir. Sultan Məcid rus yazıçısının hekayəsindəki zaman və məkanı, obrazları, süjeti, bir sözlə, heç nəyi dəyişməmiş, hər şeyi olduğu kimi saxlamışdır. "Yalnız yeri gəldikcə bəzi təfərrüatları ixtisar etmiş, hadisələrin məzmununa müvafiq, Allah

divanı və məhşər qorxusunu qabarıq şəkildə ifadə etmək məqsədilə əsərə publisist mühakimələr artırmışdır" **(6, s. 155-156).** Burada hadisələr 19-cu əsrin əvvəllərində Belarusda baş verir. Əyalət şəhərlərindən birində evdəki qoca qadın və qızı öldürülür, onların qızılları aparılır. Cinayətkar tapılmasa da hamı quldur Trişkadan şübhələnir. İyirmi il keçir. Başqa bir şəhərdə qəssablıq edən İvan Filatov adlı birisi mal kəsərkən: "Kömək edin, məni öldürürlər" harayını eşidir, əlində bıçaq yola çıxarkən öldürülmüş çərçını görür. Bu dəmdə oradan keçən zabit mərhumu Filatovun öldürdüyünü zənn edərək onu həbsə aldırır. Qəssab öz günahsızlığını sübut edə bilmir. O, edam ərəfəsində gizli sirri açıqlayaraq vaxtilə qoca qadın ilə qızını öldürüb qızıllarını mənimsədiyinə görə əslində cəzaya layiq olduğunu etiraf edir.

Əliəkbər Naxçıvanlının "Haqq divanı" hekayəsində də oxşar ideya hakimdir. Yazıçının rus ədəbiyyatına yaxından bələdliyini nəzərə alıb deyə bilərik ki, o, bu əsəri yazarkən birbaşa A. F. Poqosskinin "Allah divanı" hekayəsindən təsirlənmişdir. Lakin epiqraf eyniliyi S. M. Qənizadənin hekayəsindən bəhrələnməni də mümkün saymağa əsas verir. Amma bu səsləşmə yalnız ruh, qayə, ideya səviyyəsindədir. Belə ki, Ə. Naxçıvanlının hekayəsinin məzmunu orijinal olduğu kimi, əsərdəki hadisələr də Azərbaycan mühitində cərəyan edir.

Hekayə bir xanın sarayında xidmətçilik edən Firidun adlı bir gəncin tanıtdırılması ilə başlayır. Bəlli olur ki, o, təmiz qəlbli, yüksək əxlaqlı, çalışqan bir oğlandır. Hər bir işi vicdanla yerinə yetirir. Buna görə də alicənab xasiyyətli xanım onun xətrini qardaş qədər çox istəyir. Xanın digər bir nökəri Firrax bunu qəbul edə bilmir, Firidunun paxıllığını çəkir. O, xanla birgə ovdan qayıdarkən Firidun barədə "qayət murdar və iblisanə bir şər və iftira" uydurub deyir. Avam və qəddar xan isə hiyləgər nökərin böhtanlarına inanaraq Firidunu aradan götürməyi qərarlaşdırır. Dərhal atını meşədəki dəmirçixanasına sürərək dəmirçilərə tapşırıq verir:

"Əvvəl buraya gəlib sizdən: "Xanın əmrini yetirmişsinizmi?" - deyə sual edən adamı haman saat tutub kürəyə atarsınız ki, daha onu heç vaxt bir də gözüm görməsin; ikinci məmuruma isə həmin fərmanı yerinə yetirmək xəbərini verərsiniz ki, gəlib mənə söyləsin".

Saraya qayıdan xan əvvəlcə Firidunu, bir müddət sonra isə Firraxı dəmirçixanaya göndərir, lakin Firidunu aradan götürmək planı baş tutmur. Belə ki, xandan dəmirçixanaya yollanmaq tapşırığı alan Firidunu xanım çağıraraq deyir ki, məscidə get, şam yandır və xəstə oğlum üçün dua et, dəmirçixanaya sonra gedərsən. Təmiz qəlbli nökər xanımın sözünü döndərə bilmir və beləcə, Firrax dəmirçixanaya ondan əvvəl çatır. Dəmirçilər onu kürəyə atır, nəticəni sonra gələn Firiduna bildirirlər. Hər şeydən xəbərsiz Firidun geri dönüb əhvalatı xana danışır. Xan sanki qəflət yuxusundan ayılır, Firidun haqqında Firraxın dediklərinin böhtan olduğunu anlayır və bütün bunları ilahi ədalətin bərpası, haqq divanı kimi qiymətləndirir:

"Xan məyus və mütəfəkkir səsini kəsib durmuşdu. Bədihi və aşkar idi ki, Firidun gecikdikdə əvvəlcə meşəyə Firrax çatdığı üçün tutub kürəyə salmışlar.

Bir azdan sonra xan bir ah çəkib dərdi-dil ilə:

- Get, Firidun, - dedi, - Allah-taala hasid və xainləri cəzasız qoymaz.

Sonra bir az sükut edib öz-özünə məhzun-məhzun:

- Bu özü də, doğrusu, haqq divanı deyilmi? – deyirdi".

Müəllifin önə çəkdiyi ideya aydındır: Xeyirxahlıq, saflıq tanrı himayəsindədir, bədxahlığı isə böyük yaradan qəbul etməz, gec-tez cəzalandırar. Yazıçı yığcam

detallar vasitəsi ilə Firidun və xanım surətlərini təmiz qəlbli, humanist, xeyirxah obrazlar kimi təqdim etmişdir. Xüsusən nökər Firidunun mənəvi aləmi, psixologiyası məharətlə açılmışdır. Sonluq onun insani ləyaqətinə tanrı mükafatı, Allah-taalaın ədalətin tərəfində olması kimi mənalanır. Xudpəsənd və xəbis Firraxın səhvən kürədə yandırılması onun öz namərdliyinin məntiqi nəticəsi kimi ümumiləşdirilmişdir. Xan obrazının təqdimində isə müəyyən dinamizm var, təkamül göz önündədir. Firraxın böhtanlarına dərhal inanıb Firidunu hiylə ilə aradan götürmək qərarına gəlmiş xan Firraxın ölümü ilə nəticələnən hadisələrdən sonra ayılır, onun qəlbində insani hisslər baş qaldırır, mənəvi təbəddülat prosesi başlayır, uca tanrının ədalətli hökmü xanı da haqqpərəst olmağa yönəldir. Hekayədə müəllifin izlədiyi mənəvi-psixoloji qayə, dinin tərbiyəvi, təsiredici gücünə, ilahi ədalətin möhtəşəmliyinə böyük inam, hisslərin saflığına istiqamətlənən təhkiyə bununla şərtlənir. Əsərdəki lirizm və psixologizm, oxunaqlı təhkiyə, maraqlı süjet gənc yazıçının ədəbi istedadından soraq verirdi.

Əliəkbər Naxçıvanlının "Haqq divanı" kitabındakı "Faciə" adlı hekayə isə nakam məhəbbət mövzusundadır. 1911-ci ildə Qoridə yazılmış bu əsər nisbətən irihəcmli olsa da süjet xətti çoxşaxəli deyil. Sentimental-melodramatik ovqatı ilə diqqəti çəkən həmin hekayə birinci şəxsin dilindən nəql olunur.

Belə ki, dəlixanada bir dəlinin: "Rəxşəndə, gəl", - deyərək ah-nalə çəkməsi təhkiyəçinin diqqətini cəlb edir. Onun xəstəxana müdiri ilə söhbətində bu bədbəxtin faciəsinin səbəbləri açıqlanır. Aydın olur ki, həmin gəncin adı Mikayıldır. O, kasıb ailədə doğulmuş, çətinliklə də olsa ali təhsil almış, ciddi səyi, böyük qabiliyyəti sayəsində Madridin ən məşhur həkimlərindən biri kimi şöhrətlənmişdir. Haşiyə çıxaraq deyək ki, hadisələr İspaniyada cərəyan edir. Əsərdəki bəzi ştrixlər hekayənin əsas qəhrəmanları sayılan iki gəncin (Mikayıl və Rəxşəndə) mənşəcə buradakı ərəblərdən olmasını ehtimal etməyə əsas verir. Çox keçmir ki, Mikayıl Rəxşəndə adlı gözəl bir qızı sevir. Varlı, kübar ailədən olan qızın valideynləri bu izdivaca əvvəlcə razı olmasalar da, möhtəşəm sevgi bütün maneələri dəf edir. Gənclər ailə qurur, toydan sonra səyahətə çıxır, şəhərlərdən çox uzaqlarda yerləşən bir qəsrdə istirahət edirlər. Bir axşam qəfil appendisit ağrısı Rəxşəndəni yaxalayır. Bəlli olur ki, Mikayıl özü ilə bu məqamda lazım olan dərmanlar və müvafiq cərrahiyyə alətləri götürməyib. Neçə-neçə xəstəyə şəfa verib onları ölümün pəncəsindən qurtaran Mikayıl dünyalar qədər sevdiyi Rəxşəndəyə heç bir kömək göstərə bilmir. Beləcə, Rəxşəndə Mikayılın qolları üstündə can verir. Bu ağır itkiyə, sarsıntıya dözməyən Mikayıl dəli olub xəstəxanaya düşür, gecə-gündüz "Rəxşəndə, gəl", - deyə ah-nalə edir.

Təhkiyədə ön planda Mikayılın taleyi dayanır. Müəllif onun həm zahirən yaraşıqlı, boy-buxunlu bir gənc olduğunu, həm də mənəvi cəhətdən mükəmməlliyini konkret detallar vasitəsi ilə nəzərə çatdırmışdır. Xəstəxana müdirinin dili ilə Mikayılın səciyyələndirilməsindən bir parçaya diqqət yetirək:

"Bunun bir vaxtı var idi ki, gözəllikdə misli və bərabəri tapılmazdı ... hamını heyran və məftun edir, hamı onu görənləri feyzləndirir, sevindirirdi ... Bu cismani hüsniyyətlərdən başqa, bu cənabın çox-çox əxlaqi və ruhani hüsnəti daha ziyadə idi ... Mikayıl hər bir müxlis, ya bədbəxt, zəngin, ya bikəs, xülasə, hər bir insan oğlu insan üçün böyük və yalovlu məhəbbətlər, üxvətpərvər hisslər bəsləyirdi. Uzaqda, ya yaxında olsun, bir kəsə köməyi lazım gəlirdisə, və ya o bilsə idi ki, o, bir kim-

səyə gərək müavinət göstərə, vaxt-bivaxt, gecə-gündüz özünü o adamın imdadına yetirib, xəlayiqi qurtarmağa daima var qüvvəsi və bacarığı ilə çalışar və aqibət özünün bu qədər səyi və zəhmətini fəxr və fərəh ilə sərəncam edərək özünü fəqət həqir bir mədədçi, fəqət bir vəzifeyi-insaniyyəsini ifadə etmiş, ufacıq bir insan hesab edirdi".

Göründüyü kimi, Mikayılın simasında yazıçı sentimentalist ədəbiyyat üçün səciyyəvi olan bir obraz yaratmışdır – elə bir obraz ki, insanlara ayrı-seçkilik mövqeyindən münasibət bəsləmir, hamıya eyni gözlə baxır, yüksək duyğulara, alicənab qəlbə, təmiz hissiyyata malikdir, sadə, sıravi adamlara xüsusi həssaslıqla yanaşır, onlara mümkün olan hər cür təmənnasız köməyi göstərir və s. Mikayılın məhəbbəti, özünə könül həmdəmi seçməsi ilə bağlı məqamlarda da o, məhz sentimental obraz kimi çıxış edir. Ürəyinin hökmü ilə hərəkət edərək ilk baxışdan vurulduğu Rəxşəndəni odlu məhəbbətlə sevir. Əgər Mikayıl reallıqlarının yaratdığı məntiq prizmasından yanaşsaydı, Rəxşəndədən uzaq durmalı idi, çünki gənc həkimdən fərqli olaraq həmin qız kübar təbəqəyə mənsubdur. Lakin Mikayıl ürəyinin səsinə qulaq asır. Müəllif Mikayılın Rəxşəndəyə aşiq olmasını təsirli bədii vasitələrlə canlandıra bilmişdir:

"Mikayıl bir ahu gözlü, vəcahət və məlahətdə müstəsna, gözəl xislət və qəlb sahibəsi bir vəcihə xanıma təsadüf edərək iki-üç görüşdən sonra ona məftun və aşiq olmuş, bütün mövcudiyyətini yalovlaya biləcək, höviyyətinə işləyəcək bir məhəbbət ilə o gənc qızı sevmişdi. İndi daha həmin çalışqan, heç yorulmaz və heç usanmaz insandan bir əsər qalmamışdı. Doktor indi gecələri əməlli yata bilməyib, gündüzləri lazımi qədər layiqli iştiğal etməyib, ancaq ruhpərvər və səfalı xəyallara, şirin və dilguşə istiğraq göllərinə qərq olaraq bağlarda, küçələrdə, otlaqlarda gəzinir, dolanırdı... Bəzən bircə saat yuxulayan kimi gözəl nazənin onun gözləri önündə qərar tutub ona baxaraq gah gülümsəyir, gah öz əllərini dodaqlarına götürərək öpür və barmaqlarına qoyduğu busələri sonra onu göndərirdi".

Rəxşəndənin təqdimi də dolğun səciyyəsi ilə diqqəti çəkir. Xüsusən yazıçının işlətdiyi bədii təsvir və ifadə vasitələri təbiiliyi, mükəmməlliyi ilə maraq doğurur. Yazıçı bu gənc qızın daxili və zahiri portretini məharətlə yaratmışdır. Aşağıdakı parça bu baxımdan xarakterikdir :

"Rəxşəndə xanımı bahar fəslində sübh günəşinin canladıcı təsiri ilə inkişaf edib də, şəfqətlənmiş bir zərif qızıl gülə bənzətməli idi. Onun qızıl gülə oxşayışı ipək kimi yumşaq, parlaq və müəttər zülf və saçlarından, iri, qara, pürriqqət gözlərindən, nəzif və al rəngilə bərq çalan yanaqlarından ibarət idi ... Rəxşəndə bütün ömründə zəm və riya və əxlaq ləkələyici şeylərin nə olduğunu bilməzdi. Gözəl tərbiyə bu gözəl qızı ruhən və qəlbən belə ali və təmiz etmişdi".

Gənclərin sevgisinə mane olmağa çalışan qüvvələrin, ilk növbədə, Rəxşəndənin valideynlərinin mövqeyi də hekayədə əsaslandırılmış şəkildə nəzərə çatdırılmışdır. Lakin sevgililərin qətiyyət və mətanəti həmin maneəni də dəf edir. Bu məqamda yazıçının lirik ricəti öz dövrünün cavanlarına müraciət və məsləhəti kimi də səslənir:

"İndi eşq xəstələri çox vaxtlar zərfində möhnət və ələm odları ilə yanmağa, mütəmadi iftiralar əzabına dözməyə məcbur olurlar. Bunlara çox səbr və istiqamət lazım idi ki, hər bir acı sözlərə, tənə və sərzənişlərə, mümaniətlərə müqavimət edib də, bilaaxir, hər bir şeyə qələbə vuraraq, öz arzu və əməllərinə nail olsunlar və qələbə vurub da, yekdigərlərinə dəsti-səadət uzadıb heç bir kəsin dığdığa və əfsanəsinə

daha etina etməsinlər. Təhqiqən, əzizim, məhəbbət və müvacinəti-ruhaniyyə həqiqi və səmimi olursa, heç bir sədlər qarşısında zəifanə dayanmaz!"

Qeyd etdiyimiz kimi, acı bir təsadüf yenicə ailə qurmuş gənclərin səadət dolu günlərinə əbədilik son qoyur. Mikayılın vəfat etmiş Rəxşəndəyə xitabən dediyi aşağıdakı sözlər də bu acı həqiqətin təəssüf və iztirab dolu təzahürüdür:

" - Rəfiqeyi-həyatım, sevdiyim, məni bağışla ... Bu zərbeyi-həyata mən davam gətirmərəm. İndi sən ... Sən ölürsən, mənim əlimdən gedirsən ... Bunun da baisi... Bais-biixtiyari kimdir, kim? – Ax, mən ... tək mən... Mən aşiqi-zəlil və bədbəxt... Ax, mən sənsiz necə qalacağam?.. Məgər səndən sonra həyat mənim üçün bir şirinlik, bir ləzzət gətirə bilirmi? Xeyr, xeyr. Minlərcə xeyr – belə zillət, belə zülm və əzab ola bilməz, bu zülmə heç kimsə tab gətirməz, mən buna dözmərəm ... "

Təsvir və düşüncələrdəki dərin emosionallıq, həzin sentimentallıq göz qabağındadır. Müəllif bir psixoloq kimi Mikayılın hissi-mənəvi aləmini, yaşadığı sarsıntıları, keçirdiyi iztirabları böyük həssaslıqla canlandıra bilmişdir. Hekayə Mikayılın faciəli taleyini danışan xəstəxana müdirinin və onunla həmsöhbət olan təhkiyəçinin kövrək duyğuları, təəssüf dolu sözləri ilə tamamlanır.

Ə. Naxçıvanlının 1914-cü ildə çap olunmuş "Haqq divanı" hekayələr kitabında ən irihəcmli nümunə "Uşaq divanı" adlanır. Müəllif mündəricatda əsəri "milli hekayə" kimi təqdim etmişdir. Əsərdə təsvir olunan hadisələr uzaq keçmişdə - xəlifə Harun ər-Rəşid zamanında baş verir. Məkkə ziyarətinə getmək qərarına gələn bağdadlı tacir Qasım bütün əmlakını sataraq yol xərcliyi götürdükdən sonra qalan min ədəd qızılı bir küpəyə yığır, üstünə isə bir neçə sıra zeytun düzərək ağzını bağlayır. Qonşuluqda yaşayan başqa bir tacirə verərək deyir ki, bu küpədəki zeytundur, xahiş edirəm, mən gələnədək saxlayasan. Tacir Qasım bir qədər də pal-paltar və parça alıb Məkkəyə yola düçür, ziyarətini icra etdikdən sonra gətirdiyi malların Misirdə, Qahirə bazarında yaxşı satılacağını eşidib, oraya yollanır. Mallarını satır, sonra Misiri gəzib dolanır. Səyahət ona o dərəcədə xoş gəlir ki, məmləkətə dönməyib İran, Hindistan və bəzi digər ölkələri də gəzməyə qərar verir. Artıq Qasımın Bağdaddan çıxmasından yeddi-səkkiz il ötür. Zeytun küpəsini əmanət etdiyi qonşu tacir isə onun başına bir iş gəldiyini, bir daha geri dönməyəcəyini düşünüb küpəni açır. Küpədən əvvəlcə çürüyüb xarab olmuş zeytunlar, sonra isə qızıllar tökülür. Tamahkar tacir qızılları götürür, küpəni təzə zeytunla doldurub əvvəlki yerinə qoyur.

Bir müddət sonra Qasım gəlib çıxır, küpəni alıb aparır. Evdə onu açdıqda başa düşür ki, qonşu tacir qızılları mənimsəyib. İş məhkəməyə qədər gedib çıxır. Alçaq tacir yalandan Qurana and içməklə xilas olur. Çarəsiz Qasım ərizə ilə xəlifə Harun ər-Rəşidə müraciət edir. Həmin günün axşamı vəziri Cəfərlə gəzintiyə çıxan xəlifə Qasımın şikayətinə necə baxılmasının yolunu uşaqlardan öyrənir. Belə ki, uşaqlar oyun zamanı Qasımın şikayətini araşdırırlar. "Xəlifə" seçilmiş uşaq "Qasımı" və "tamahkar taciri" dinləyir. Sonra isə çağırdığı "zeytunfüruşlar" bildirirlər ki, Qasımın getməyindən yeddi-səkkiz il ötüb, bu müddətdə küpədəki zeytunlar çürüməli idi, amma oradakı zeytunlar təzədir. Bu yolla "xəlifə" aydınlaşdırır ki, qonşu tacir qızılları götürüb, yerinə təzə zeytun doldurub. Harun ər-Rəşid ertəsi gün divan qurdurub Qasımı və xəyanətkar taciri, eləcə də axşam gördüyü uşağı gətirtdirir. Uşaq axşamkı qayda ilə şikayətə baxıb araşdırır. Namərd tacirin iç üzü açılır. Qasımın iddiası təmin olunur. Haqq-ədalət öz yerini tapır. Xəlifə ağıllı uşağa yüz qızıl bəxşiş verir.

Bu hekayədə bir tərəfdən, öz dərrakəsi ilə hətta böyüklərə yol göstərə bilən uşağın qabiliyyəti önə çəkilmiş, digər tərəfdən isə haqqın, həqiqətin gec-tez qalib gələcəyinə inam hissi ifadə olunmuş, əmanətə xəyanət edənlərin, mənəvi dəyərləri unudanların axırda öz cəzalarına çatacağı ideyası özünün bədii ifadəsini tapmışdır.

Əsərin əsas obrazı tacir Qasımdır. Müəllif onu təmiz qəlbli, pak niyyətli, mömin, həqiqətpərəst bir şəxs kimi təqdim etmişdir. Müraciət etdiyi məhkəmədə yalandan Qurana and içib xilas olan xəbis tacirin xəyanətkar əməlinin üstü açılmayanda da Qasım inamını itirmir, haqqın qələbəsinə ümid bəsləyir:

" - Ax, fasiq insan, ax, bidin kişi, bu münafiqliyin, bu ərzəliyin, bu murdar işinin layiqli cəzasını, inşallah, tezliklə çəkərsən ... Allah-taalanın adil divanı, hər bir asi və bidinləri layiqli cəzalara nail edər. Heç bir haqqı batilə tərcih verən kimsə Allah-taala hüzurunda cəzasız qalmayacaq, əminəm ... Lənət eləsin həmfikirlərinə".

Xain tacirin arvadı hekayədə epizodik bir surət olsa da, təmiz qəlbi, saf hissiyyatı, həqiqətpərəstliyi ilə diqqəti çəkir.O, ərinin tacir Qasımın əmanətinə xəyanət etməsini heç cür qəbul edə bilmir, hər vasitə ilə ona mane olmağa, var-dövlət hərisi olan ərini haqq yoluna qaytarmağa çalışır. Bu məqamda yazıçının emosional təsvirləri, obrazın daxili aləmini məharətlə açması öz dolğunluğu ilə razılıq doğurur:

" - A kişi, - dedi, - sən gəl, xaliqül-aləm eşqinə, bu nalayiq fikirdən biryolluq daşın!...Bircə insaf və mürüvvət elə... Belə şey olmaz, bir fikrini başına topla, bir dürüst düşün, gör, əmanətə xəyanət etməkdən də dünyada qəbih və murdar ... əməl daha varmı?... Belə bir qəbahətə mürtəkib olandan sonra ruzi-məhşərdə Rəsuli-xudanın hüzuruna necə gələcəksən? Heç utanıb qızarmayacaqmısan?... Belə eyib və bədnamlıq çirkabından bir daha qurtarmaq, təmizlənmək olurmu? Daha biz bir də camaatın üzünə görsənə bilərikmi?... Yox, yox! Haşa".

Ədalətin bərpasına öz ağıl və məntiqi ilə kömək edən dərrakəli uşaq, eləcə də həqiqətin üzə çıxması üçün müvafiq şərait yaradan xəlifə Harun ər-Rəşid də müsbət planda verilmişdir. Qasımın qızıllarını mənimsəyən xain tacir isə yaramaz, şərəfsiz bir şəxs kimi təsvir olmuşdur. "Uşaq divanı" hekayəsinin dili ümumən sadə və anlaşıqlıdır. Süjet və kompozisiyanın, bədii təsvir və ifadə vasitələrinin dolğunluğunu, obrazların psixoloji aləminin ustalıqla açıldığını da qeyd etməliyik.

Ələkbər Qərib Naxçıvanlı hekayə yaradıcılığını sovet dövründə də davam etdirmiş, bir sıra maraqlı bədii nümunələr qələmə almışdır. 1920-ci illərdə Tiflisdə nəşr olunan "Yeni fikir" qəzetində, həmçinin "Dan yıldızı" jurnalında Ələkbər Qəribin bir sıra əsərləri işıq üzü görmüşdür. Bu baxımdan onun "Əfi ilan" adlı irihəcmli hekayəsi xüsusilə diqqəti çəkir. Həmin əsər "Dan yıldızı" jurnalının 1926-cı ildəki 1-ci və 2-ci saylarında dərc olunmuşdur **(7, № 1, s. 4-13 ; № 2, s. 10-17).** Ədəbiyyatşünas Razim Məmmədli bu hekayəni təhlilə cəlb etməsə də, onun adını "ədəbiyyatımızın nəsr qolunun inkişafında mühüm rolu olan" əsərlər sırasında çəkmişdir **(8 , s. 47).**

"Əfi ilan" hekayəsi bir sıra xüsusiyyətlərinə (həcminə, obrazlar sisteminə, hadisələrin əhatəsinə, çoxplanlılığına və s.) görə hətta janrın hüdudlarını bir qədər aşaraq müəyyən mənada povestə də yaxınlaşır. Əsər sosial-siyasi mündəricəsi ilə də maraq doğurur. Sovet hakimiyyəti ərəfəsində və inqilabın ilk illərində baş verən mürəkkəb hadisələrə aydın, bəzək-düzəksiz münasibət ilk baxışdan oxucunun diqqətini çəkir.

Əsərdəki hadisələrin mərkəzində Mürsəl bəy surəti dayanır. O, Axısxa qəzasının tanınmış bəylərindəndir, külli miqdarda sərvətə malikdir. Bolluca torpaq və meşə sahələri, dəyirmanı, taxta zavodu, at ilxıları, inək sürüləri var. Mürsəl bəy zahirdə özünü kəndlilərin himayədarı, qayğıkeşi kimi göstərsə də, necə deyərlər, pambıqla baş kəsir, hər vasitə ilə kəndliləri istismar edir. Bu xasiyyətinə görə kəndlilər onu öz aralarında "Əfi ilan" adlandırırlar.Təhkiyənin növbəti səhifələrində 1917-ci ilin fevral inqilabından sonrakı şərait təsvir olunur:

"Nikalayın taxtdan dəvrildiyini eşidən vaxt Mürsəl bəyin yürəyi qırt düşdü, rəngi saraldı, dodaqları titrədi. O, öylə fikir etdi ki, bəylərin, mülkədar və kınyazların dövranı bu gündən qurtardı; o adamcıl inqilabçılar gəlib bunu da başqa bəylər kibi "dəmə" qoyacaqlar, var-yoxunu da talıyacaqlar".

O da nəzərdən qaçmır ki, yazıçı o illərin ictimai-siyasi mühitini, cəmiyyətdəki burulğanları, çaxnaşmaları böyük ustalıqla ədəbi müstəviyə gətirmiş, səciyyəvi detallar vasitəsi ilə oxucularda dolğun təəssürat oyada bilmişdir. Bəllidir ki, 1917-ci ilin fevral inqilabından sonra müəyyən hərc-mərclik, başıpozuqluq yaranmış, müxtəlif qüvvələr baş qaldırmış, hakimiyyət və nüfuz dairəsi uğrunda mübarizələr qüvvətlənmişdi. İctimai-siyasi mübarizələr kəskin xarakter almışdı. O illərdə Tiflisdə yaşayan Ələkbər Qərib bütün bu hadisələrin şahidi olmuş, "Əfi ilan" hekayəsində həmin müşahidələrini bədii sənət dili ilə canlandırmışdı. Məsələn, 1917-ci ilin fevral inqilabından sonrakı aylarda Tiflisdə keçirilən mitinqləri yazıçı belə təsvir etmişdir:

"Şəhərin bir çok ... yerlərində toplanan qələbəlik, hay-küylü mitinklərin heç birini Mürsəl bəy burakmırdı... Ha gözlüyürdü ki, bəylərin asılıb kəsilməsi haqqında bir şey eşidəcək, amma eşitmirdi. Natiklərin hamısı keçmiş zamanı ad edir, Nikalayı, onun vəzirlərini, pristavları, qaradavoyları və jandarmaları söyürdülər və axırda "Yaşasın inqilab!", "Yaşasın cümhuriyyət!", "Yaşasın azadəlik!" deyə ciddi tövr ilə ətrafa, insan dəryasının başı üzərinə baxmır və məğrur bir tərzdə kürsüdən düşürdülər. Haman sahat cəmaət sürükü alkışlar çalır, "Ura!" çığırırdı".

Həmin mitinklərin boş danışıqlardan ibarət olması, hər hansı bir konkret məqsədə xidmət etməməsi də mənalı detallarla təsvir olunmuşdur:

"Mitinklər çox vaxt sahatlarla uzanırdı. Üç-dörd sahat sonra sədr bir uzun kağız əlində kürsüyə çıxıb :

- Mitink çok uzandı, daha yetmiş adam danışmaq üçün siyahıya yazılıb, yığıncağa davam edəkmi, ya sabaha qalsın? – deyə sorur və simasından da son dərəcəyə varmış bir yorğunluq yağırdı. Cəmaət hərə bir söz deyir; hər deyilən sözü də cəmaət "Ura!", "Yaşasın!" sədası və alqışlar gurultusu içində boğurdu. Bir şey anlamaq mümkün olmurdu. Axırda sədr ümidsizcəsinə cəmaəti işarə ilə sükuta dəvət edərək, yenə natikləri kürsüyə çıkarırdı".

Müəllif əhalinin əslində ayrı-ayrı siyasi firqələrin mövqeyinin mahiyyətinə o qədər də varmadığını da vurğulamışdır:

"Bu günlər hər yerindən çıkan inqilabçı olmuşdu, danışmaq və cəmaətin avıclarını alqış vasitəsilə qıpqırmızı qızartmaq iştiyaqı hamıda güclü idi. Cəmaət seçmirdi ki, danışan kimdir və danışılan nədir: Federalistmi, Es-ermi, Daşnakmı, Menşevikmi, ya təsadüfən yoldan keçənmi, kim olursa, olsun – hamını alqışlayırdı".

Belə bir mürəkkəb şəraitdə Mürsəl bəy hadisələrin mərkəzinə düşməyi, nəzəri cəlb etməyi məqsədəuyğun saymır, Tiflis otellərində xəlvətə çəkilib öz eyş-işrətinə məşğul olur. Lakin Axısxa qəzasının naçalnikindən gələn teleqram onun geri qayıt-

ması ilə nəticələnir. Teleqramda bildirilir ki, Mürsəl bəy həmin qəzanın rayonlarından birinə komissar təyin edilib. Kefi kökəlmiş bəy Axısxa qəzasına dönərək vəzifəsinin icrasına başlayır, inqilab xofu da canından çıxır. Bəy yenə köhnə qayda ilə sərvət toplamağa, hər vəchlə sərvətini artırmağa davam edir. Hətta o dərəcəyə qədər ki, otlaq sahəsinə təsadüfən keçmiş inəyi, ya qoyunu bir müddət saxlatdırıb südünü sağdırır, sonra isə sahibindən cərimə də alaraq heyvanı yiyəsinə qaytarır. Kəndlilərə qışda baha qiymətlə satılan taxıl, kartof, yüksək faizlə verilən borc, qeyri-qanuni yollarla doğranıb satılan meşələr və s. də bəyin doymaq bilməyən tamahına xidmət edir.

Hekayənin növbəti səhifələrində Mürsəl bəyin əxlaqca düşkün olması barədə yeni informasiyalar da bədii müstəviyə gətirilir. Bəlli olur ki, bəy Rüxsarə xanım adlı çirkin bir qadınla ailə qurmuşdur - onun sərvətindən paya yiyələnmək məqsədi ilə. Lakin bəy Rüxsarə xanıma gün vermir, onu adam yerinə qoymur, eyni zamanda, öz kefindən də qalmır. Tiflisdə olduğu kimi, Axısxa qəzasında da bu cür şərəfsiz əməllərini davam etdirir.Bu məqsədlə hər cür hoqqalara əl atır.

Bəyin bir obraz olaraq iç üzünü açmaq məqsədilə müəllifin təsvir etdiyi müxtəlif epizod və detallar da bu baxımdan səciyyəvidir. Məsələn, bəy sarayında qurduğu məclisdən sonra ova çıxmağa hazırlaşarkən ona iki dəstə kəndlinin şikayətə gəldiyi bildirilir. Əlacsız qalan Mürsəl bəy tələsik də olsa , onların şikayətlərini dinləyir. Bəlli olur ki, Dursun kişi qardaşı qızı yetim Məkbuləni çoxlu para müqabilində Bəkir ağanın oğlu Məhəmmədə vermişdir. Qız isə qonşu kənddən Osmanla sevişir. Toy günü fürsət tapan qız Osmana qoşulub qaçır. Uzun axtarışdan sonra onları tapırlar. Lakin qız kəbininin kəsildiyi Məhəmmədin evinə getmək istəmir, Osmanla ailə quracağını, onunla yaşayacağını bildirir. Osmanın və Məhəmmədin adamları da məsələni həll etmək üçün şikayətə gəlmişlər. Bu məqamda Məkbulənin Mürsəl bəyə dediyi sözlər qanunsuzluğun hökm sürdüyü cəmiyyətə ittiham hökmü, qadın hüquqsuzluğuna kəskin etiraz kimi səslənir:

"Bir dəqiqə tərəddüddən sonra qız titrək səslə:

- Bəy əfəndi, - deyir və gözlərindən bilaixtiyar yaş tökülür, - bəy əfəndi, biz ədalətli məhakimə deyə qapuya gəldik, sən isə heç də ədalət ilə məhakimə etmədin. Bunu bilməlisən ki, əmucam olacaq bu kor şeytan bir dəfə məni Allah yolunda saxlıyıb böyütmədi, babam və anam vəfat etdikdən sonra mənim evimdə epeyicə sərvətim, malım, davarım var idi. Evim anbar yapıldı, ev əşyam, mal-davarım bu alçaq hərif tərəfindən yağma edildi. Ərazim (torpağım) bu günə qədər onun əlindədir : əkir, biçir, istifadə edir. Səkkiz yaşından haçana kimi bunun evində, tarlasında bir kölə kibi çalışdım, şimdi söylə, bakalım, babasının xeyrinəmi bu xayin hərif bəni sakladı, böyütdü? Kocaya verdiyi vakt bəndən bir kərrə sordumu? Kim ona çok para verəcək olursa idi, ona satacaq idi ; bu, məlumdur. İştə çok para verən Bəkir ağa oldu".

Lakin insani hisslərdən, ədalət duyğusundan uzaq olan Mürsəl bəy bütün bunları laqeydliklə qarşılayır, şikayətçiləri başından edərək qazinin yanına göndərir. Kəndlilər gedərkən Məkbulənn niqabı təsadüfən sürüşüb açılır, onun gözəlliyini görən bəy qızı ələ keçirmək üçün yollar arayır.

Təhkiyənin davamında dramatik hadisələr bir-birini əvəz edir. Oxucu süjeti maraqla izləyir. Bəlli olur ki, qazi şikayətçiləri dinləmiş, şəriətin hökmünə görə, Məkbulənin Məhəmmədin evinə dönməsinin vacibliyini bildirmişdir. Lakin qətiy-

yətli Məkbulə bununla heç cür razılaşmamış, nəticədə ağösaqqallar qan düşmənşiliyi olmasın deyə ortaya sülh qoymuşlar. Belə ki, Osman Məhəmmədin atası Bəkir ağaya iki yüz manat verərək Məkbulənin nigahını geri oxutdurmuş, kəbinini özünə kəsdirmişdir. Zahirən belə görünür ki, konflikt aradan qalxıb, lakin şərəfsiz Mürsəl bəyin hadisələrə növbəti müdaxiləsi aranı yenə qatır. O düşünür ki, Məkbuləyə sahiblənmək üçün əri Osmanı aradan götürmək gərəkdir. Bu məqsədlə o, Məhəmmədi qızışdırıb Osmanı öldürməyə təhrik edir.

Sonra Tiflisə gələn Mürsəl bəy burada yenə də firqələr davasının şahidi olur. Hər firqənin yerli təşkilatının sədri özünə tərəfdar yığmağa cəhd göstərir. Müəllif səciyyəvi epizod kimi Tiflisdə Kerenskinin təbliğatı ilə məşğul olan Bertanovun canfəşanlığını önə çəkmişdir. Belə bir şəraitdə hansı firqəyə üz tutacağını yəqinləşdirə bilməyən Mürsəl bəy rayona dönür. O artıq vəziyyətin qarışdığını görüb komissarlıqdan da istefa verir. Müəllifin təsvirləri göstərir ki, mənəviyyatsız bəyin səpdiyi fitnə toxumları cücərmiş, Məkbulənin əri Osman öldürülmüşdür. Bəyin niyyətindən xəbərsiz olan Məkbulə son ümid yeri kimi onun evinə şikayətə gələrək baş vermiş fəlakəti anladır. Bəy isə bu kimsəziz qadını ələ keçirməyin vaxtı çatdığını düşünür. Məkbulə onu qətiyyətlə rədd edir. Səs-küyə bəyin həyat yoldaşı Rüxsarə xanım gəlir, Məkbuləni təpikləyərək ona ciddi xəsarət yetirir. Mürsəl bəy isə onu möhkəm vurur. Beləliklə, hər iki qadın ciddi zədə alır. Bu əsnada xidmətçi Şərifoğlunun gətirdiyi təcili xəbər əslində Mürsəl bəyin cismani və mənəvi sonluğu kimi mənalanır :

" – Paşam, - Şərifoğlu kəkəliyir və bir dəqiqə dayanıb nəfəs alır, - paşam, çapuq ol. Qaçalım, şəhərdən şapar gəlmiş, səni görmək istiyir, deyir, geçən gecə qəza komissarı bəyi, Abastumandakı yaylasında həbs etmiş, Tiflisə götürmüşlər, bir azdan səni də həbs etməyə gələcəklərmiş... Atları əyərliyəyimmi?...

- Sus, çık dışarı, atları əyərlə, həm də çapık ol!"

Artıq canının hayında olan Mürsəl bəy huşsuz halda yerə yıxılmış Rüxsarə və Məkbuləni orada qoyaraq nökəri ilə birlikdə qaçır.

Göründüyü kimi, maraqlı bir süjet daxilində Ələkbər Qərib 1918-1920-ci illərin mürəkkəb ictimai-siyasi mühitinin dolğun mənzərəsini, bu burulğanlar fonunda müxtəlif təbəqə adamlarının talelərini məharətlə, bəzək-düzək vurmadan təsvir etmişdir. Xüsusilə qiymətlidir ki, 1920-ci illər Azərbaycan nəsrinin çoxsaylı nümunələrində sosializm, sovet hakimiyyəti uğrunda mübarizə, bolşevik inqilabının xilaskar gücü son dərəcə şişirdilmiş və reallıqdan uzaq formada mədh edilirdisə, Ə. Qəribin "Əfi ilan" hekayəsində bolşevik inqilabı, onun xilaskarlıq missiyası barədə xüsusi heç nə deyilmir. Yazıçı tarixi gerçəkliklərə uyğun olaraq 1918-1920-ci illərin mürəkkəb, qarma-qarışıq hadisələrini real şəkildə təsvir etmiş, nəticə çıxarmağı oxucuların öhdəsinə buraxmışdır. Nəticə isə aydındır: Hay-küylə, zorakılıqla baş verən xaotik inqilablar xalqa əsl səadət gətirə bilməz. Sonrakı illər yazıçının nə qədər uzaqgörən və müdrik olduğunu göstərdi. Başqa sözlə deyilsə, Ə. Qəribin bu hekayəsi vulqar sosioloji təsirlərdən uzaq olan, gerçəkliyə güzgü tutan bir nəsr əsəridir.

Hekayənin bədii məziyyətləri də, təhlil boyunca vurğuladığımız kimi, təqdirəlayiqdir. Yazıçı mükəmməl kompozisiya qurmuş, süjeti lüzumzuz əlavələrlə yükləməmiş, obrazların zahiri və daxili portretlərini vəhdətdə yaratmışdır. Əsərdə sosial-siyasi məsələlərlə insan taleləri bir-biri ilə qovuşuq şəkildə verilmiş, onların qarşılıqlı uzlaşması uğurla təmin olunmuşdur. Müəllifin yaratdığı peyzajlar,

işlətdiyi bədii təsvir və ifadə vasitələri də razılıq doğurur. Məsələn, Məkbulənin zahiri görünüşünü yazıçı belə canlandırmışdır:

"Mərmər kibi bəyaz və uzunsav çöhrəsi, uzun kirpiklərinin kölgəsi altında parıldayan, dəryalar kibi mavi, dərin və sehrkar gözləri, bahar səhəri açılmış olan qızılgülə bənzəyən tazə və qırmızı dodaq və yanaqları, alnına pərakəndə halda tökülmüş olan şahbalut rəngli tükləri qızın çöhrəsinə öylə bir məlahət və nəzakət bağışlayırdılar ki, onu valeh qalmadan görmək imkanı yok idi".

Yazıçının təsvir və təqdimlərində nəzərə çarpan yumor qatı da yerinə düşmüşdür. Müəllif ayrı-ayrı detalları müxtəlif epizodlarda müvəffəqiyyətlə bədii vasitə məqamına yüksəldərək işlətmişdir. Məsələn, Mürsəl bəyin əhvalından, durumundan asılı olaraq onun buğlarının da müvafiq formalarda və görünüşlərdə təsviri bu qəbildəndir. İnqilab baş verməsi barədə xəbərdən pəjmürdə olub kefi pozulan Mürsəl bəyin zahiri görkəmində buğların öz əzəmətli duruşunu itirməsini yazıçı belə təsvir edir:

"Mürsəl bəy inqilab xəbərin eşidən kimi tələsik Tiflisə gəldi, burada ta martın axırına kibi böyük qorxu içində yaşadı ... Bir ayın içində arıxladı, yüzü uzunladı, alt dodağı sallandı, buğları da daha əvvəlki kibi "Vilhelm" buğlarına bənzəmirdi, imdi bu buğlar döyülmüş köpək quyruğu kibi aşağı sallanır və dayima bəyin ağzına girirdilər".

Bir müddət keçir. Mürsəl bəy Axısxa qəzasının naçalnikindən teleqram alır. Teleqramda bildirilir ki, bəy qəzanın rayonlarından birinə komissar təyin olunduğundan gəlib işə başlamalıdır. Kefi kökəlmiş bəyin bu dəfəki durumunun, görünüşünün canlandırılmasında digər faktorlarla yanaşı, onun buğlarının təsviri də bədii detal kimi öz yerini tutur:

"İmdi buğlar yenə Vilhelmvari yuxarı dingələrək, bəyin simasına fövqəladə iyitlik süsü verirlər".

Ümumiyyətlə, hekayənin bəzi məqamlarında Mirzə Cəlil və Əbdürrəhim bəy Haqverdiyev nəsrinin möhtəşəm ənənələrindən yaradıcı şəkildə bəhrələnmə duyulur. Məsələn, hekayənin başlanğıcı Ə. Haqverdiyevin məşhur "Şeyx Şəban" əsərini xatırladır. Ə. Qərib də hekayəni, Ə. Haqverdiyev kimi, oxuculara xitabla başlayaraq onlardan əsas obrazı tanıyıb-tanımadıqlarını soruşur, sonra isə həmin surətin müxtəlif əməlləri barədə məlumat verməyə başlayır:

"Mürsəl bəyi tanıyırdınızmı? Yox, əşi, necə tanımırdınız? Gürcüstanın çox yerlərində və bilxassə Tiflisdə onu tanımayan yox idi. May ayını o, həmişə Tiflisdə keçirərdi ... Bu ayı Veradakı Fantaziya bağında, Qocur yolundakı "Pulermo" və "Verden" restoranlarında, Ortacala bağlarında, Misxetdə "Bədni Sandronun duxanı"nda eyş-işrət edən, qışda isə üç ay Tiflisdə "Noy" oteli yanındakı şantanda, "Nadkura" restoranının xüsusi kabinələrində, zerzəmilərdəki duxanlarda gürcü knyazları ilə bir yerdə qoz sındıran "duşka" Mürsəl bəyi necə tanımırsınız?.. İndi siz də deyirsiniz ki, onu tanımırık. Doğrusu, bu, insaf dəyil.

Yəqin unutmuşsunuz, öylə isə, qoyun, tərif edim ki, bəlkə, yadınıza düşsün".

Yaxud, yazıçı əzazil bəyə kəndlilərin öz aralarında "Əfi ilan" adı verməsini yumoristik şəkildə, adı çəkilən ustadlarının yaradıcılıq ənənələrinə uyğun tərzdə belə təqdim etmişdir:

"Mürsəl bəyi səvən bircə bəylər , qınyazlar dəyil idi. Axısxa kəntçiləri içində də onun şöhrəti böyük idi, hamı onu səvərdi. Əgər kəntçilər Mürsəl bəyin adını 2əfi

ilan" qoymuş idilərsə də, bu da onların qanmamazlığını göstərir. Boş, mənasız söz idi da, deyirdilər".

Aydındır ki, Mürsəl bəyə bəylərin, knyazların sevgisi ilə kəndlilərin " sevgisi" bir deyil. Yazıçının mənalı ironiyası göz qabağındadır.

Hekayədə canlı danışıq dilinə məxsus bir sıra söz və ifadələrdən də uğurla, yerli-yerində istifadə olunmuşdur. Həmçinin təsvir olunan hadisələrin Axısxa qəzasında baş verdiyini nəzərə alan müəllifin yeri gəldikcə, xüsusən şikayətçi kəndlilərin nitqində Osmanlı türkcəsinə məxsus bəzi leksik və qrammatik vahidlərdən istifadə etməsi (əmuca, koca, bakalım, şimdi, şenlik, kəndi və s.) də koloriti, təbiiliyi gücləndirən faktorlardandır. Həmçinin bəzi rusdilli obrazların dilində rusca sözlər işlənməsi də nəzərdən qaçmır. Məsələn, Es-er partiyasının Tiflis təşkilatının rəhbəri Bertanovun danışığında işlədilən "prasti", "vajnı", "reç", "arator", "meşat", "şutka" kimi sözlər bu qəbildəndir. Ümumiyyətlə, Ələkbər Qəribin "Əfi ilan" hekayəsi 19-20-ci illər Azərbaycan nəsrinin əhəmiyyətli, maraqlı, yaddaqalan nümunələrindən biridir.

Deyilənlər göstərir ki, unudulmuş yazıçı Ələkbər Qərib Naxçıvanlının hekayələri həm mövzu-ideya, həm də bədii-sənətkarlıq məziyyətləri ilə ədəbiyyatımızın maraqlı nümunələri sırasına daxildir.

Ədəbiyyat

1. Firidun bəy Köçərlinin şəxsi arxivi (tərtib edən və nəşrə hazırlayan Məmməd Adilov). Bakı: Nurlan, 2006, 280 s.
2. Qurbanov Ş.D. Ədəbi dostluq. Bakı: Yazıçı, 1980, 190 s.
3. Naxçıvanlı Ə. Bacı və qardaş. "Məktəb" jurnalı, 1913, № 7 , s. 107-110
4. Təhmasib M. "Məktəb" jurnalında folklora münasibət məsələsi. "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər", 5-ci kitab. Bakı: Elm, 1977, s. 3-27
5. Naxçıvanlı Ə. Haqq divanı. Bakı: Orucov qardaşlarının nəşriyyatı, 1914, 66 s.
6. Məmmədov X. Q. Sultan Məcid Qənizadə. Bakı: Yazıçı, 1983, 213 s.
7. Qərib Ə. Əfi ilan. "Dan yıldızı" jurnalı, 1926, № 1 , s. 4-13 ; № 2 , s. 10-17
8. Məmmədov R. Gürcüstanda Azərbaycan mətbuatı və ədəbi mühit. Bakı: Xəzər Universitəsi nəşriyyatı, 2000, 190 s.

Huseyn Hashimli

The stories of Alekper Garib Nakhchivanli

Summary

For the period of long years Alekper Garib Nakhchivanli literary activity remained beyond investigations.

The article has been dedicated to the stories of Alekper Garib Nakhchivanli. In this paper attention is directed to the various phase's of literary activities Alekper Garib Nakhchivanli. These stages are investigated on the basis of those examples, facing a poet and made appropriate conclusions.

There have been analysed charakteristic works, their idealogial-literary features have been clarified. It becomes clear from this work that the author who gives importance to the sinkerity in all his thougths tries to adhere to this situation all his life and not to change his point of wiev despite all the diffuculties he faces.

Гусейн Гашимли

Рассказы Алекпера Гариба Нахчыванлы

Резюме

Долгое время литературная деятельность писателя Алекпера Гариба Нахчыванлы оставалась вне исследования.

Статья посвящена прозе Алекпера Гариба Нахчыванлы**.** В статье рассматриваются разные этапы творчества Алекпера Гариба Нахчыванлы. Здесь на основе примеров исследуются темы, к которым обращался писатель на этих этапах, и сделаны некоторые вводы.

В ней анализириуются характерные рассказы писателя, выявляются их идейно-художественные особенности. Из произведений становится ясно, что отдавая предпочтение искренности во всех своих размышлениях, автор всю жизнь старается быть верным своей жизненной позиции и, несмотря на все трудности, не отрекается от своих убеждений.

Rəyçi: Seyfəddin Eyvazov
filologiya üzrə fəlsəfə doktoru, dosent

NADİR İSMAYILOV
Filologiya üzrə fəlsəfə doktoru
(Naxçıvan Dövlət Universiteti)

BALAŞ AZƏROĞLU VƏ UŞAQ ƏDƏBİYYATI

Açar sözlər: Azərbaycan ədəbiyyatı, uşaq ədəbiyyatı, Balaş Azəroğlu
Key words: Azerbaijan literature, children's literature, Balash Azeroglu
Ключевые слова: Азербайджанская литература, детская литература, Балаш Азероглу

Balaş Azəroğlu müasir Azərbaycan poeziyasının inkişafında, yeni mövzu və ideyalarla zənginləşməsində, sənətkarlıq axtarışlarının dolğunlaşmasında mühüm xidmətləri olan görkəmli şair kimi ədəbiyyatda öz sözünü layiqincə demişdir. Onun böyük istedad və ilhamla yazılmış çoxsaylı şeirləri və poemaları söz sənətimizin qiymətli nümunələri sırasına daxildir.

Şairin yaradıcılığından, əsrarəngiz söz dünyasından söz açan əksər tənqidçi və ədəbiyyatşünaslar onun sənətinə yüksək dəyər vermiş, xüsusən ədibin əsərlərindəki dərin vətənpərvərlik qayəsini, fəlsəfi mündəricəni və bədii kamilliyi ayrıca qeyd etmişlər. Akademik Bəkir Nəbiyev onun "Seçilmiş əsərləri"nə yazdığı "Vətəndaşlıqla sənətkarlığın vəhdəti" adlı ön sözdə bu cəhətlərə xüsusi diqqət yetirmişdir: "B. Azəroğlu dərin ağıl, intellekt şairi kimi fəlsəfi poeziyaya qüvvətli meyl göstərən sənətkarlardandır... Şairin poetik düşüncələrinin əsas predmetini bir qayda olaraq insan, onun azadlıq ideyası təşkil edir" **(1, s. 13).** Tənqidçi, professor Məsud Əlioğlu isə hələ 1971-ci ildə yazmışdı: "Azəroğlunun şeirlərində hikmət də var, bu hikmətin təsirli poetik ifadəsi də; rəngarəng və canlı insan duyğularının təzadlı-mürəkkəb hallar içərisində çırpıntısı da, həmin təlatümlü və qasırğalı hisslərin lakonik, yığcam ifadəsi də" **(2, s. 6).** Filologiya elmləri doktoru, tənqidçi Vaqif Yusifli isə şairin poeziyası barədə fikrini belə ümumiləşdirmişdir: "Balaş Azəroğlunun şeirlərində siyasi lirika həm tribunluq kəsb edir, həm də bu lirikada fəryad, çağırış, hətta göz yaşları da var" **(6, s. 175).** Belə diqqətəlayiq elmi fikirlər bir çox digər ədəbiyyatşünas və tənqidçilər tərəfindən də söylənilmişdir və onlar istedadlı sənətkar Balaş Azəroğlunun yaradıcılığının əsas tematika və problematikasını, aparıcı məziyyətlərini lazımınca səciyyələndirir.

Bununla belə, şairin yaradıcılığında bir sıra digər sahələr, özünəməxsus yer tutan mövzular da vardır ki, onlardan biri də istedadlı sənətkarın uşaq ədəbiyyatı sahəsindəki xidmətləridir. Araşdırma göstərir ki, şairin əsasən 1960-cı illərdə uşaqlar üçün yazdığı müxtəlif əsərlər ideya-bədii dolğunluğu, uşaqların yaş səviyyəsinə, psixologiyasına uyğunluğu, axıcılığı ilə diqqətəlayiqdir. Görkəmli ədib müxtəlif vaxtlarda uşaqlar üçün bir sıra maraqlı, oxunaqlı şeirlər yazmışdır. Bunların mühüm bir qismi təbiət mövzusundadır. Ümumiyyətlə, B. Azəroğlunun poeziyasında təbiət mövsusu geniş yer tutur. Ədəbiyyatşünaslıqda qeyd olunduğu kimi, "Balaş Azəroğlunun yaradıcılığının ən güclü sahələrindən birini təbiət lirikası təşkil edir. Təbiətin füsunkar mənzərəsi, əzəmətli dağlar, göz yaşı kimi duru, qaynar bulaqlar, laləli, nərgizli çöllər, quşqonmaz qayalar ilk gündən şairə zövq-səfa vermiş, təxəyyülündə silinməz izlər buraxmışdır ... Təbiətin saf, canlı təsviri Balaş Azəroğlunun

şeirlərinin əsas məziyyətidir" **(3, s. 469).** Bu deyilənləri onun uşaqlar üçün təbiət mövzusunda yazdığı şeirlərə də aid edə bilərik. Görkəmli ədibin yaradıcılığının tədqiqatçısı, ədəbiyyatşünas alim Sabir Əmirovun sözləri ilə desək: "Şair sayca o qədər də çox olmayan uşaq şeirlərində bir tərəfdən, təbiətin əsrarını balaca oxucuları üçün sirdən məlumluğa çevirməyi qarşısına məqsəd qoymuş, digər tərəfdən isə öz yaradıcılıq pafosuna sadiq qalaraq istər cəmiyyət və istər təbiət hadisələrini bir vətəndaş-şair mövqeyindən təsvir və tərənnüm etmişdir" **(4, s. 101).**

"Gəl, ay bahar!", "Yaz yağışı" kimi şeirlərdə təbiətin bahar fəslinin gəlişindən doğan sevinc hisslərini, bu fəslin əsrarəngiz gözəlliklərini şair axıcı, ahəngdar şəkildə ədəbi müstəviyə gətirmişdir. Bu nümunələrdə işlədilən bədii təsvir və ifadə vasitələri də diqqəti çəkir. Məsələn, müəllif ilk şeirdə baharın gəlişini arzulayan uşaqların coşqun duyğularını, sevinc dolu arzu-istəklərini aşağıdakı kimi canlandırmışdır:

Çaylar kimi coşaram,
Bahar, gəl, ay bahar, gəl!
Sənə nəğmə qoşaram,
Bahar, gəl, ay bahar, gəl!

Açıllam lalə kimi,
Qızıl piyalə kimi.
Çöldə, düzdə gəzərəm,
Yoluna gül düzərəm,
Bahar, gəl, ay, bahar, gəl!..

Qaranquş tək uçaram,
Göydə qanad açaram.
Sənin müjdəçin olub,
Oba-oba qaçaram,
Bahar, gəl, ay bahar, gəl!

(2, s.99)

"Yaz yağışı" şeirində şair çoxsaylı bədii təsvir və ifadə vasitələrinin, xüsusən dolğun təşbehlərin köməyi ilə bahar yağışının yaratdığı əlvan mənzərəni və xoş ovqatı məharətlə canlandıra bilmişdir. Burada müəllif dağı-daşı yuyan yaz yağışından sonra "lalənin dəcəl uşaq kimi gülə-gülə göyə baxması" ifadəsində həm metafora, həm də təşbeh işlətmişdir. Qərənfilin düşən yağış damlalarından qulağına sırğa taxması da həm metafora, həm də təşbehin poetik imkanlarını nümayiş etdirir. Bənövşə ləçəyindəki suyun almaza bənzədilməsi, yağış damlasının təsirindən bu gülün utancaq qız kimi boynunu bükməsi təbii, uğurlu təşbehlərdir. Bütün bunlar şeirin bədii təsir gücünü, ahəngdarlığını, dolğunluğunu təmin etmişdir:

Lalə dəcəl uşaq kimi
Baxır göyə gülə-gülə.
Yanağına yağış düşür
Muncuq-muncuq, gilə-gilə.
Qərənfil də qulağına
Damcılardan sırğa taxır.
Nərgiz xumar gözlərilə

Heyran-heyran durub baxır.
Bənövşənin ləçəyində
Su parlayır almaz kimi.
Tez boynunu əyir yana
O, utancaq bir qız kimi.

(2, s. 100)

"Yaylaqda" şeiri isə yay fəslinə həsr olunmaqla mükalimə əsasında qurulmuşdur**.** Yay fəslində havaların isti vaxtı anası balaca Gülbaharı yaylağa gətirir. Bu yerlərin havasının şəhərdən çox sərin olduğunu hiss edən körpə qızcığaz bunun səbəbləri barədə düşünərək anasından soruşur:

- Ana, ana, söylə bir
Şəhər elə istiydi,
Bura niyə sərindir?
Bəlkə, hələ bu yerə
Yay gəlməmiş, anacan?

(2, s. 101)

Göründüyü kimi, uşağın sualı tamamilə təbii və körpə psixologiyasına, düşüncəsinə uyğundur. Ana isə cavabında buranın yaylaq olduğunu, yaylağın xüsusiyyətlərini ona sadalayır və şəhərə qayıdanda bu barədə bağça yoldaşlarına da danışmasını məsləhət görür.

"Payız gəlir" şeiri də dolğunluğu ilə diqqəti çəkir. İlin bu fəslinin əsas əlamətlərini şair kiçik yaşlı oxucularına onların anlayıb qavraya biləcəyi tərzdə, sadə və təbii detallarla, sanki bir rəssam fırçasıyla təqdim etmişdir. Şeirdən bir parçaya diqqət yetirmək kifayətdir ki. təsəvvür yaransın:

Saralır göy yarpaqlar,
Soyunurlar budaqlar.
Sanki bağçalar, bağlar
Deyirlər: payız gəlir.

Solub əlvan çiçəklər,
Görünmür kəpənəklər.
Əsir soyuq küləklər
Deyir ki: payız gəlir.

(2, s. 103)

Balaş Azəroğlu uşaqlar üçün qış fəslinə də aid şeir yazmışdır. "Qış" adlanan həmin poetik parça da bədii təsvirləri, lövhələri, yozumları ilə maraq doğurur. Pəncərələrin şaxtanın təsiri ilə buz bağlaması, ayazın hər axşam pəncərələrə naxışlar salması, günəşin hər səhər ilıq nəfəsi ilə həmin buz naxışları silməsi, hər tərəfin ağ kürk geyinməsi, günəşin üzünü qara buludların örtməsi barədəki təsvirlər təbiiliyi, bədii siqləti ilə seçilir:

Qış gəldi, şaxta düşdü,
Buz bağladı şüşələr.
Ağ kürkünü geyindi
Dağlar, düzlər, meşələr.
Ayaz naxışlar saldı
Pəncərəyə hər axşam.

Səhər günəş hovxurub
Naxışı sildi tamam.

(2, s. 104)

B. Azəroğlunun "Qış" şeirində təbiətin qış fəslinin səciyyəvi mənzərələrinin konkret detallarla bədii təsviri ilə yanaşı, qışdan sonra gəlişi gözlənilən bahar barədə də xoş arzular uşaqların yaş səviyyəsinə uyğun tərzdə özünün poetik təcəssümünü tapmışdır:

Uşaqlar pəncərədən
Boylanaraq hər səhər,
Günəşin çıxmasına
Gözəl nəğmə dedilər:
"...Gün gedibdir dincəlsin-
İndi gələr, ay gələr.
Baharla birgə gəlsin,
İndi gələr, ay gələr"

(2, s. 104-105)

Uşaqlar üçün yazılmış "Qaranquş" şeiri də maraqlı bədii nümunədir. Şair bu əsərdə payızda köçüb getmiş qaranquşa xitab edərək onu geri dönməyə səsləyir, çünki artıq bahar fəsli yaxınlaşır, təbiət oyanır, uşaqlar da qaranquşun gəlişini intizarla gözləyirlər. Müəllifin yozumunda qaranquşun gəlməsi şadlıq, fərəh, yeniləşmə rəmzidir, baharın yurda qədəm qoymasının nişanəsidir:

Bizim eyvandakı yuvan qalıbdır,
Getmə başqa yerə qonaq, qaranquş.
Nə qar var, nə də ki, boran qalıbdır,
Gətir sən bahardan soraq, qaranquş...

Uşaqlar yolunu gözləyir hər gün,
Doğrusu, darıxır hamı sənincün.
Gəl ki, körpələrin üzü də gülsün,
Bəzənsin hər çəmən, hər dağ, qaranquş.

(2, s. 106)

Balaş Azəroğlu məktəbli dünyasından bəhs edən şeirlər də qələmə almışdır. Bu baxımdan onun "Mənə yeddi daş gətirərsən" adlı şeiri xarakterik nümunə sayıla bilər. Burada birinci sinifi bitirib ikinciyə keçən, yay tətili günlərində Qara dəniz sahillərinə istirahətə aparılan Leyla barədə atanış xoş arzuları, düşüncələri sadə bir dillə təqdim olunmuşdur:

Dünən birinci sinfi bitirdin,
məktəbdən evə
bir dünya sevinc,
bir aləm fərəh gətirdin...
Bir vaxt nə oxuya bilirdin,
nə yaza bilirdin.
Səhər bağçaya gedib,
Axşam evə gəlirdin.
Bir vaxt həyətdə oynayırdın

bütün yayı...
İndi qara dənizə gedirsən, Leyla.

(2, s. 107-108)

Ata bir də istəyir ki, qızı ona Qara dənizdən müxtəlif rənglərdə olan yeddi daş gətirsin. Bu yeddi daş günəşdə olan yeddi rəngi, qövsi-qüzehi, qarı nənənin hanasını xatırladacaq. Bütün bunlar isə həm də təbiət-insan vəhdəti və paralelliyini önə çəkən, təbiətin xoş varlıqlarının həyat rəmzi kimi mənalandırılmasını göstərən maraqlı detallardır:

Unutma ha!- Yeddi daş...
Yeddi rəngdə olsun ancaq...
Bir yerə yığanda
qövsi-qüzehə bənzəsin.
Qarı nənənin hanası kimi
Evimizi bəzəsin.

(2, s. 108)

Balaş Azəroğlunun uşaqlar üçün yazdığı şeirlərin bəzilərində təbiəti qorumağa çağırış ideyası qabarıq şəkildə ifadə olunmuşdur. Səciyyəvi nümunə kimi "Yaralı sərçə" adlı şeiri xatırlada bilərik. Əsərdə təsvir olunur ki, qış günlərinin birində dərsdən evə qayıdan məktəbli Etibar yol kənarında koldan-kola atılan, soyuqdan titrəyən yaralı bir sərçə görür. Uşaq düşünür ki, gecənin şaxtasına bu quş tab edə bilməyib öləcək. Ona görə də onu aparım evdə saxlayım, yarası sağalsın, baharda yenə bağlara uçuraram. Lakin o, sərçəyə yaxınlaşanda bu yaralı quşcuğaz çətinliklə də olsa, uçub bağa gedir. Etibar evə gələrək bu barədə anasına məlumat verir, sərçənin halına acıdığını bildirir. Anası isə ona məsləhgət görür ki, qar hər yeri tutub, sərçələrin yuvası qapanıb. Ona görə də sən yuva düzəldib ağacdan as, qoy sərçələr qışın şaxtasından həmin yuvalarda qorunsunlar. Həm də qoy digər məktəblilər də bu işə qoşulsun, axı sərçələr vəfalı quşdur, heç vaxt bu yerləri tərk edib başqa yerlərə köçmürlər:

İgid məktəblilər də
Özləri vaxt ayırıb,
Taxta yuva qayırıb,
Aparıb assın bağda.
Hərəsi bir budaqda.
Qoyun, bizim sərçələr
Rahat yatsın gecələr.
Axı onlar qışda da,
Qarda da, yağışda da
Bizim şəhərdə qalır,
Sərçələr vəfalıdır.

(2, s. 112)

Ədəbiyyatşünas Sabir Əmirovun qeyd etdiyi kimi: "Yaralı sərçə" şeirində... şairin məqsədi balalarda quşlara qayğıkeş münasibət tərbiyə etmək, hər bir kəsdə və hər şeydə sədaqəti, vəfadarlığı qiymətləndirməyi bacarmaq qabiliyyəti aşılamaqdan ibarətdir" **(4, s. 102).**

Görkəmli sənətkarın şeirləri yalnız lirik duyğu və düşüncələrin bədii təqdimindən ibarət deyil. "B. Azəroğlunun şeirləri forma cəhətdən də müxtəlifdir; bunla-

rın bəzilərində müəyyən hadisə, əhvalat üstünlük təşkil edir" **(5, s. 61).** Analoji mənzərə şairin uşaqlar üçün yazdığı əsərlərdə də qeydə alınır. Bu baxımdan onun folklor süjetləri, xüsusən nağıllar və əfsanələr əsasında qələmə aldığı poetik nümunələr ayrıca qeyd olunmağa layiqdir. "Qurd və quzu", "Hümmət və Qüdrət" kimi əsərlər bu qəbildəndir. Belə nümunələrdə "Şair Azəroğlu uşaqlar üçün xalqın keçmişindən, babaların hikmət dünyasından da söhbət açır. Bu əsərlərin başlıca qayəsi yetişməkdə olan nəsli düzlüyə, sədaqətə, sənət və hünərə hörmət etməyə dəvətdir" **(4, s. 102).**

1964-cü ildə yazılmış "Qurd və quzu" əsərini mənzum nağıl da saya bilərik. Alleqorik səpkidə olan bu əsər folklordakı nağıllarda olduğu kimi başlayır:

Oğlum, bir nağıl deyim,
Yaxşı-yaxşı qulaq as.
Babalar söyləyib ki,
Nağıl mənasız olmaz.
Biri vardı, biri yox,
Biri acdı, biri tox.
Bizdən uzaq bir eldə,
Gül-çiçəkli bir çöldə
Bir çoban yaşayırmış,
Böyük sürüsü varmış.

(2, s. 115)

Sonrakı təhkiyədən öyrənirik ki, yayı yaylaqda, qışı aranda keçirən bu çoban bir payız günü sürünü dağdan endirərkən qatı duman hər tərəfi bürüyür, bir quzu sürüdən ayrı düşüb dağda yolu itirir. Gecəni bir daşın oyuğunda qalan quzu səhər orabura vurnuxub yol axtarır. Lakin onun qarşısına bir qurd çıxır. O, cürbəcür bəhanələrlə quzunu günahlandırır, çəməndə otlamasını, gəzməsini, suyu bulandırmasını ona irad tutur. Günahsız quzu suyun aşağısında ola-ola bulağın gözünü necə bulandırdığını deyəndə canavar daha da sərtləşir:

Qurd dedi:- Ay yekəbaş,
Deyəsən, yavaş-yavaş
Həddini də aşırsan,
Qanundan danışırsan!
Bu suyun, bu torpağın,
Bu dərənin, bu dağın
Sahibi tək mənəm, mən.
Sən qurtara bilməzsən
Daha mənim əlimdən.

(2, s. 119)

Əsər xoş ovqatla başa çatır. Belə ki, arana enmiş çoban bir quzunun dağda qaldığını anlayır, onun ardınca geri qayıdır. O məqamda yetişir ki, canavar quzunu parçalamaq üzrədir. Çoban qurdun başını əzir, quzunu xilas edib arana gətirir. Göründüyü kimi. əsərdə haqqın qələbəsinə inam, zalımın öz cəzasına çatması ideyası önə çəkilmişdir.

Şairin 1964-cü ildə yazdığı başqa bir mənzum əsər - "Hümmət və Qüdrət" həcmcə daha böyükdür, bunu uşaqlar üçün yazılmış poema da saymaq olar. Maraqlı süjetə malik bu əsərdə təsvir olunan hadisələr qədim dövrdə Ərəbistanda baş verir.

Əsas obrazlar Hümmət və Qüdrət adlı iki oğlandır. Onlar uşaqlıqdan bir yerdə böyüyür, bir yerdə oxuyurlar. Qüdrətin atası qoşun sərkərdəsidir, Hümmətin atası isə parça toxuyub satmaqla məşğuldur. Günlərin bir günü iki dost geyinib ova çıxırlar. Meşədə bir-birindən ayrı düşən dostlar çətinliklərlə üzləşirlər, hətta Hümmətə pələng hücum edir. Bu anda onun harayına çatan Qüdrət dostunu xilas edir. İtmiş atlarını axtaran dostlar bir karvana rast gəlirlər. Atlarının karvanda olduğunu görüb istəsələr də nəticə hasil olmur. Karvandakılar onları əsir edib başqa bir şəhərə aparır, qul kimi satırlar. Onları satın almış sahibkarın əlindən xilas olmaq üçün yollar arayan Hümmət yaxşı toxucu olduğunu bildirir. Beləcə, o, parçalar toxuyur, Qüdrət isə tacirlərə satır, sahiblərinə xeyli pul qazandırırlar. Hümmət toxuduğu parçalardan birinin üzərinə öz adını da həkk edir. Bu gözəl parça xəlifəyə çatır. Son nəticədə onun izi ilə Hümmət və Qüdrət köləlikdən xilas edilir.

Göründüyü kimi, əsərdə fiziki qüvvətlə yanaşı, sənətin böyük gücü də tərənnüm olunmuşdur. Poemanın son misralarında müəllifin uşaqlara çatdırmaq istədiyi əsas ideya ümumiləşmiş şəkildə öz ifadəsini tapmışdır:

Hər dərdin, hər xətərin
Axı var öz dərmanı.
Qüdrətin ox atması
Dostunu qürtardısa
Meşədəki pələngdən,
Hümmətin sənəti də
Onu azad elədi
Ömürlük köləlikdən.
Sənət böyük nemətdir,
Sənətkar olsa insan,
Onun üçün dünyada
Çətinlik olmaz, inan.

(2, s. 135)

Göründüyü kimi, şairin uşaqlar üçün yazdığı irihəcmli əsərlər də diqqətəlayiq məziyyətlərə malikdir.

Ümumiyyətlə, görkəmli şairimiz Balaş Azəroğlunun uşaqlar üçün yazdığı əsərlər ideyaca mükəmməl olduğu kimi, sənətkarlıq baxımından da dolğundur. Şairin bu yöndəki əksər şeir və poemaları heca vəzninin axıcı ölçülərində yazılmışdır ki. bu da onların qavranılmasını, əzbərlənməsini daha da asanlaşdırır. Yalnız tək-tək nümunələr ("Mənə yeddi daş gətirərsən" və s.) sərbəst şeir şəklindədir. Süjetli əsərlərdə təhkiyənin axıcılığı, rəvanlığı, cəzbediciliyi uşaqlarda böyük maraq oyatmaq imkanlarına malikdir. Süjetin lüzumsuz əlavələrlə yüklənməməsi, təsvirlərdəki təbiilik də razılıq doğurur. Şairin uşaqlar üçün yazdığı şeir və poemalar bütövlükdə uşaq ədəbiyyatımızın layiqli örnəkləri sırasına daxildir.

Ədəbiyyat

1. Azəroğlu B. Seçilmiş əsərləri, iki cilddə, birinci cild. Bakı: Yazıçı, 1982, 261 s.
2. Azəroğlu B. İllərdən illərə.Bakı: Gənclik, 1971, 283 s.
3. Müasir Azərbaycan ədəbiyyatı, iki cilddə, birinci cild. Bakı: Bakı Universiteti nəşriyyatı, 2007, 504 s.

4. Əmirov S. N. Azəroğlu. Bakı: Yazıçı, 1986, 143 s.
5. Ədəbi proses- 77. Bakı: Elm, 1978, 160 s.
6. Yusifli V. Ə. Poeziyanın illəri və yolları (1960-2000-ci illər). Bakı: Mütərcim, 2009, 404 s.

Nadir Ismaılov

Balash Azeroglu and children's literature

Summary

Balash Azeroglu is one of the most prominent represantatives of the Azerbaijani literature of XX century. His poetry is rich with deer humanistic sences and qualities.

The article has been dedicated to the lyrics of Balash Azeroglu . In this paper attention is directed to the various phase's of literary activities Balash Azeroglu. These stages are investigated on the basis of those examples, facing a poet and made appropriate conclusions.

There have been analysed charakteristic works, their idealogial-literary features have been clarified. There are have been telis opinions about his poetic style and on the examples of verse are exposed main features of his poetry.

Надир Исмаилов

Балаш Азероглу и детская литература

Резюме

Балаш Азероглу является одним из выдающихся представителей азербайджанской литературы двадцатого века. Его поэзия пронизана гуманизмом, глубокими чувствами.

Статья посвящена лирике известного поэта Балаша Азероглу**.** В статье рассматриваются разные этапы творчества Балаша Азероглу. Здесь на основе примеров исследуются темы, к которым обращался поэт на этих этапах, и сделаны некоторые вводы.

В статье анализириуются характерные произведения, связанные с темой, выявляются их идейно-художественные особенности. Здесь высказываются мнения о поетическом стиле поэта, а также выявляются главные особенности его поэзии на стихотворных примерах.

Rəyçi : Hüseyn Həşimli
filologiya üzrə elmlər doktoru, əməkdar elm xadimi

SƏADƏT HÜSEYNOVA
AMİ
saadet1@box.az

İLK ROMANTİK DRAMLARIN ƏDƏBİYYATIMIZDA MÖVQEYİ

Açar sözlər: romantizm, dramaturgiya, gender, faciə, pyes.
Ключевые слова: романтизм, драматургия, гендер, трагедия, пъеса.
Key words: romanticism, drama, gender, tragedy, play

XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı tarixində mürəkkəb və zəngin bir tarixi dövrdür. Qısa bir zaman kəsiyini əhatə etsə də, bu dövrün ədəbiyyatı müxtəlif estetik prinsipləri ehtiva etmişdir. Məlumdur ki, XX əsrin əvvəllərində ədəbiyyatımızda maarifçi və tənqidi realizmlə bərabər, romantizm ədəbi cərəyanı da fəaliyyət göstərmiş, bu ədəbi cərəyanların ortaya qoyduğu fərqli estetik prinsiplər ədəbi prosesdə canlılıq yaratmış, ədəbi inkişafı şərtləndirmişdir.

XX əsrin romantizmi ədəbiyyatımızın tarixinə M.Hadi, H.Cavid, A.Şaiq, A.Səhhət kimi görkəmli sənətkarlar bəxş etmişdir. Keçən əsrin əvvəllərində fəaliyyət göstərən "Fiyuzat" jurnalı və onun baş reaktoru Ə.Hüseynzadə romantizmin ədəbi mühitdə geniş yayılmasına şərait yaratmış, bu cərəyanın estetik prinsiplərini şərh etmişdir.

Sovet rejimi romantizm ədəbi cərəyanına və romantik metoda ögey münasibət bəsləsə də, bu cərəyan C.Cabbarlının, Ə.Cavadın, M.Müşfiqin və başqa sənətkarların simasında 20-30-cu illərdə də davam etmişdir.

Azərbaycan romantizminin öyrənilməsi və bu barədə ilk sistemli tədqiqatlar görkəmli alim Məmməd Cəfər Cəfərovun adı ilə bağlıdır. Sonralar romantizmin tədqiqi istiqamətində mühüm işlər görülmüşdür. Onun estetik prinsiplərinin nəzəri əsasları və nümayəndələrinin yaradıcılığı araşdırılmışdır. Lakin sovet ədəbiyyatşünaslığı realizmin tədqiqinə və təbliğinə daha artıq üstünlük vermişdir. Bir çox hallarda romantik sənətkarların yaradıcılığına realist sənətin prinsipləri ilə yanaşılmış və onun məhdud cəhətlərindən danışmağa üstünlük verilmişdir.

Milli müstəqillik ərəfəsi və dövründə romantik sənətkarların yaradıcılığına onun öz estetikası əsasında qiymət vermək tendensiyası qüvvətlənmişdir. Bu sırada Y.Qarayev, V.Osmanlı, T.Əfəndiyev, K.Əliyev, H.Qasımov, A.Turan və başqa tədqiqatçılar xeyli iş görmüşlər.

Məlumdur ki, romantik sənətkarların yaradıcılığı çoxtərəfli olmuşdur. Onlar həm lirika, şeir, həm poema, həm də dramaturgiya sahəsində ardıcıl fəaliyyət göstərmişdir. Romantik sənətkarların yaradıcılığında dramaturgiyanın xüsusi mövqeyi vardır. Bu sırada H.Cavid, A.Şaiq və C.Cabbarlının yaradıcılığı daha artıq diqqəti cəlb edir. H.Cavid mənzum dramın əsasını qoymuşdur. Mənzum dram ənənəsini xüsusilə A.Şaiq müvəffəqiyyətlə davam etdirmişdir. Bütövlükdə H.Cavidin romantik dramaturgiyaya gətirdiyi yeniliklər A.Şaiqin və C.Cabbarlının yaradıcılığında daha da inkişaf etdirilmişdir.

Mirzə Fətəli Axundzadə Azərbaycan ədəbiyyatında dramaturgiyanın əsasını qoymuşdur. Onun dramaturgiya sahəsində yaratdığı realist məktəbin ənənələriniXIX əsrin sonu, XX əsrin əvvəllərində Nəcəf bəy Vəzirov, Nəriman Nərimanov, Əbdürrəhim bəy Haqverdiyev, Cəlil Məmmədquluzadə kimi görkəmli sənətkarlar müvəffəqiyyətlə davam etmişdir.

Milli dramaturgiyada yeni bir təmayülün əsasını isə, Hüseyn Cavid qoymuşdur. O, XX əsr Azərbaycan romantizminin ən parlaq nümayəndəsi olaraq dramaturgiyamızda mənzum dram janrının banisi olmuşdur. Hüseyn Cavidin əsas xidmətlərindən biri romantik dramaturgiya sahəsində güclü ənənə yaratmasıdır. Onun romantik dramları - istər şeirlə, istərsə də nəsrlə yazılan romantik əsərləri həm müasirlərinin, həm də sonrakı nəsillərin yaradıcılığına ciddi təkan vermişdir. Abdulla Şaiqin, Cəfər Cabbarlının, Səməd Vurğunun romantik dramaturgiyada, xüsusən mənzum dram janrında qazandığı uğurların Hüseyn Cavid ənənələri ilə bağlı olması şübhə doğurmayan bir həqiqətdir.

Odur ki, milli dramaturgiyamızın ən parlaq səhifələrini yaratmış, yaradıcılıq metodları, inikas üsulları və üslubları ilə bir-birini tamamlayan, yüksək ideyaları, sənətkarlıq tapıntıları, mövzu və problematikası obrazlar sistemi baxımından yaxın olan Hüseyn Cavid, Abdulla Şaiq və Cəfər Cabbarlı kimi sənətkarlar milli və bəşəri irsdən qidalanaraq müasirlik səviyyəsinə yüksəlmişlər. Bu dramaturqların hər üçü ədəbi aləmə şeirlə gəlmişdir. Nəzmlə yaxud nəsrlə yazılmasından asılı olmayaraq yüksək şeiriyyət, romantik vüsət hər üç sənətkarın dramaturgiyasını əvvəldən axıra qədər müşayiət etmişdir.

Ənənə və novatorluğun vəhdətində yaranan zəngin dramaturji janr və üslubları ustalıqla yaşadan Hüseyn Cavid, Abdulla Şaiq və Cəfər Cabbarlının ilk romantik dramlarından başlayaraq boy verməyə başlayan fəlsəfi-romantik konfiliktlər, fövqəladə ehtiraslı xarakterlər, fantastik, şərti-simvolik obrazlar romantik dramaturgiyamızı janr poetikası baxımından xeyli irəli aparmışdır.

H.Cavid, A.Şaiq və C.Cabbarlının dramaturji yaradıcılığı irs-varislik əlaqəsi ilə bir-birinə sıx bağlıdır. Bu əlaqələr xüsusən onların yaradıcılığının ilk mərhələlərində daha qabarıq şəkildə meydana çıxır. Bu sırada H.Cavidin "Ana", "Maral", "İblis", "Şeyda", "Uçurum"; A.Şaiqin "Qafqaz çiçəyi", "Şair və qadın", "İdeal və insanlıq"; C.Cabbarlının "Solğun çiçəklər", "Ulduz", "Ədirnə fəthi", "Nəsrəddin şah", "Aydın" əsərləri nəzəri daha çox cəlb edir.

H.Cavid, A.Şaiq və C.Cabbarlının ilk romantik dramları mövzu və problematika baxımından, ictimai və mənəvi-əxlaqi sferada baş verən hadisələrə romantik münasibətin səciyyəsi baxımından da bir-birini tamamlayan əsərlərdir.

T.Əlişanoğlu onu da qeyd edir ki, qadın mövzusunun emansipasion şəklində bədii həqiqətə çevrilməsi "qadın ürəyinin sirlərinə varmağı məqsəd seçir" [2, s.55].

Bu mövzunun bədii əksi baxımından H.Cavidin "Maral" və C.Cabbarlının "Solğun çiçəklər"i adlı romantik dramları geniş material verir.

Romantizmin faciə janrında öz qadirliyini, öz vüsətini daha qabarıq şəkildə təcəssüm etdirə bilməsi Cavid faciələrində əyani şəkildə sübuta yetir. Ədəbiyyatşünas Yaşar Qarayevin dili ilə desək, "Azərbaycan faciəsinin inkişafında yeni mərhələ romantizmin ədəbi bir metod və cərəyan kimi ədəbiyyatımızda yarandığı və yüksəldiyi dövrə təsadüf edir. Romantizm dramaturgiyada ən parlaq ifadəsini faciə əsərində tapır. Dramatik poeziyada romantik üslubun əsasları Cavid faciələri ilə yaranır. Hüseyn Cavid simasında ədəbiyyat tariximizdə ilk mənzum faciə də öz yaradıcısını və klassikini tapmış olur"[4, s.94].

"Ana" pyesi ilə H.Cavid romantik inikasda Ana obrazının yerini müəyyənləşdirmişdisə, C.Cabbarlı ("Ulduz") və A.Şaiq ("Qafqaz çiçəyi", "Şair və qadın") qadın emansipasiyasını önə çəkmişlər. Yaxud Hüseyn Cavid "Maral", Cəfər Cabbarlı "Solğun çiçəklər" əsərlərində qadının mənəvi-əxlaqi dünyası ilə sosial mühit arasındakı ziddiyyətləri romantik boyalarla əks etdirmişdir.

Hüseyn Cavidin "İblis", Cəfər Cabbarlının "Ədirnə fəthi", "Trablis müharibəsi, yaxud Ulduz" pyesləri dramaturgiyamızda müharibə və insan probleminin romantik bədii həllini verir. A.Şaiqin "İdeal və İnsanlıq" əsəri isə mənəvi-əxlaqi problematika çərçivəsində İnsanın humanist münasibət konsepsiyasını gerçəkləşdirir.

Gender problemi, geniş götürdükdə cinslərin qarşılıqlı əlaqəsini, onların sosial - siyasi, mənəvi - əxlaqi və hüquqi sahələrdə mono-sələflərini nəzərdə tutur. Bədii ədəbiyyatda bu problem çox vaxt qadın mövzusuna, qadın problemlərinə ayrılan diqqət mənasında başa düşülür. Gender problemi ilə bağlı tədqiqatlarda xüsusi şəkildə vurğulanır ki, bədii əsərdə gender aspektinin olmasının, yazıçının ideya-estetik baxışları, dünyagörüşü, müəllifin mövqeyi ilə bağlıdır. Yenə də tədqiqatlarda xüsusi şəkildə vurğulanır ki, bütün xalqların ədəbiyyatlarının müxtəlif mərhələlərində gender aspekti vardır.

Qadın mövzusu Azərbaycan ədəbiyyatında XIX əsrdən başlayaraq bədii tədqiqatın xüsusi bir istiqaməti kimi mövcud olmuşdur.

Qeyd etmək lazımdır ki, bu dövrdə Şərqdə qadın münasibətinə 2 müxtəlif baxış mövcud idi. İslamı ideallaşdıran cərəyanın nümayəndələri bildirirdilər ki, 13 əsr əvvəl Şərq qadınlarına verilən hüquqları Avropa qadınları hələ indi də ala bilmirlər. Avropa istiqamətli digər cərəyanın nümayəndələri isə qadının Avropa nümunəsi əsasında azad olunması uğrunda mübarizə aparırdılar. Bu işdə böyük Azərbaycan yazıçısı, filosofu və maarifçi M.F.Axundovun (1801-1878) xüsusi xidməti olub, o bütün şüurlu həyatını qadın məsələsinin nəzəri və praktiki həllinə həsr etmişdir.

Məşhur Azərbaycan dramaturqu C.Cabbarlı yaradıcılığında qadın mövzusuna həsr olunmuş bir sıra əsərlər var. Diqqətəlayiqdir ki, müəllif əsərlərində göstərdiyi zəmanə problemlərinin başına qadınların vəziyyəti problemini qoyurdu və əsərlərinə baş qəhrəman olan qadınların adını verirdi. Onu inqilabdan əvvəl yazdığı erkən pyeslərində "Vəfalı Səriyyə" (1915), "Solğun çiçəklər" (1917) müəllif sosial bərabərsizliyə, qadın hüquqsuzluğuna, geriliyə qarşı çıxır.

Romantik dramlarda qadının mənəvi-əxlaqi dünyası və sosial mühit konsepsiyası baxımından H.Cavidin "Maral" və C.Cabbarlının "Solğun çiçəklər"i adlı romantik dramları geniş material verir.

Romantizmin faciə janrında öz qadirliyini, öz vüsətini daha qabarıq şəkildə təcəssüm etdirə bilməsi Cavid faciələrində əyani şəkildə sübuta yetir. Ədəbiyyatşünas Yaşar Qarayevin dili ilə desək, "Azərbaycan faciəsinin inkişafında yeni mərhələ romantizmin ədəbi bir metod və cərəyan kimi ədəbiyyatımızda yarandığı və yüksəldiyi dövrə təsadüf edir. Romantizm dramaturgiyada ən parlaq ifadəsini faciə əsərində tapır. Dramatik poeziyada romantik üslubun əsasları Cavid faciələri ilə yaranır. Hüseyn Cavid simasında ədəbiyyat tariximizdə ilk mənzum faciə də öz yaradıcısını və klassikini tapmış olur"[4, s.94].

Görkəmli romantik sənətkarımız H.Cavid ailə-məişət və qadın faciəsindən bəhs edən, qadının mənəvi-əxlaqi dünyası ilə sosial mühit arasındakı ziddiyyətlərin romantik inikasını verən "Maral" əsəri ikinci faciəsidir. "Ana" pyesinə nisbətən burada surətlər və hadisələr nisbətən çoxdur. Əsər dörd pərdədən ibarətdir. Mövzusu Dağıstan həyatından alınmış bu əsərdə pulun, sərvətin cəmiyyətdə törədə biləcəyi bəlalar əks olunur. "Ana"ya nisbətən "Maral"da romantizm zəifdir. Bununla belə, "Maral" Azərbaycan dramaturgiyasında qadın hüquqsuzluğuna və faciəsinə toxunan ilk əsərlərdən biridir.

C.Cabbarlıya görə insanın qəlbi əsrlərlə əxz etdiyi saflığını romantik düşüncənin arzu etdiyi səviyyədə hifz edib qoruya bilmir. Qəlb saflığı hardasa gərdişin böhranına düçar olur. Bəzən onu qara kölgələr hədələyir. Bu etikanın böhranı-qəlb saflığının qara kölgələrin hədələməsi romantik Cabbarlının düşüncəsini çiçək, çiçəyin solması simvolunda kövrəldir. Çiçəyin solması kövrəkliyi - "Solğun çiçəklər" faciəsinə çevrilir.

Azərbaycan ədəbiyyatşünaslığında romantik sənətkarların yaradıcılığı birinci halda onların öz yaradıcılıq yollarının təkamülü kontekstində, ikinci halda romantizm ədəbi cərəyanın estetik prinsiplərinin tipologiyası istiqamətində araşdırılmışdır. Romantiklərin yaradıcılığını ayrı - ayrı janrların təkamül yolu istiqamətində araşdıran tədqiqatların sayı azdır. Bu sırada R.Əhmədovun "Azərbaycan dramaturgiyası: ideallıqla reallığın vəhdəti (H.Cavid, C.Cabbarlı, S.Vurğunun pyesləri əsasında)" adlı monoqrafiyasını xüsusi qeyd etmək olar.

Son qənaət olaraq deyə bilərik ki, bu dramaturqların yaradıcılığı ədəbi irsdə varislik nümunəsi kimi bu gün də örnəkdir. Hər üç sənətkar milli və bəşəri dəyərlərdən bəhrələndikləri kimi, bir-birindən öyrənmiş, mənəvi varisliyi layiqincə yaşatmışlar.

Ədəbiyyat

1. Cəfərov M.C. Azərbaycan ədəbiyyatında romantizm. Bakı: Azərb. SSR EA Nəşr, 1963, 217 s.

2. Əlişanoğlu T. Azərbaycan yeni nəsri. Bakı: Elm, 1999, 127 s.

3. Əliyev K. XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri. Bakı: Elm, 1985

4. Qarayev Y. Faciə və qəhrəman. Bakı: Azərb. SSR EA nəşr, 1965, 192 s.

Sadet Huseynova

The Place of romantic dramas in our literature

Resume

Drama occupies a special place in the activity of romanticism. Among them the works written by H.Javid, A.Shaig and J.Jabbarly attract more attention. The creative style used by these writers is closely connected with one another. H.Javid laid the foundation of the drama written in verse. It was successfully continued by A.Shaig. In the whole, the innovations H.Javid broug to the drama were especially developed in the literatury activity of Shaig and J.Jabbarly.

Садет Гусейнова

Место романтических драм в нашей литературе

Резюме

В творчестве мастеров романтизма особое место занимает драматургия. В их числе болъшее внимание привлекают произведения Г.Джавида, А.Шаика и Д.Джабарлы. Творческий стилъ этих литераторов тесно связан друг-с другом. Г.Джавид заложил основу драмы в стиках. Эту традицию стихотворной формы драмы особенно успешно продолжил А.Шаик. В целом, новшества привнесенные в драматургию Г.Джавидом были более развиты в творчестве А.Шаика и Д.Джабарлы.

Rəyçi: Baba Babayev

KÖNÜL HEYDƏROVA
Bakı Dövlət Universiteti
konul_qalib@mail.ru

AZƏRBAYCAN DRAMATURGİYASIDA OBRAZ MÜXTƏLİFLİYİ
(XIX əsrin sonu – XX əsrin əvvəlləri)

Açar sözlər: Azərbaycan dram,
Key words: Azerbaijan drama, image, research.
Ключевые слова: Азербайджанская драма, образ, исследования.

XIX əsrin sonu - XX əsrin əvvəllərində tələtümlü, mübarizəli bir mühitdə formalaşan, yeni ideyalar daşıyıcısı olan Azərbaycan ədəbiyyatı gülüş yaratmağa xidmət edirdi. Həmin dövr ədibləri cəmiyyətdəki eybəcərlikləri obrazların öz dili ilə gülüşə çevirərək aradan qaldırmağa çalışırdılar. Onlar burada təkcə ayrı – ayrı söz və ifadədən yox, yaradılan obrazların vəhdətindən istifadə etməklə buna nail olmaq istəyirdilər. Bu ədiblər müasirləri olduğu Azərbaycan cəmiyyətini incəliklərinə qədər bilən, mövcud şəraitdə bu cəmiyyətin irili-xırdalı problemlərini, onları doğuran səbəbləri, aradan qaldırılması yollarını göstərməyi bacaran şəxsiyyətlər idi.

C.Məmmədquluzadə yaradıcılığının əsas özünəməxsus xüsusiyyətləri milli qeyrətdə, həyatı obyektiv və realistcəsinə əks etdirməsində, yeniliklərlə zəngin, bəşəri, ən əsas da milli ideyalar daşıyıcısı olmasıdadır. Onun dramları cəmiyyət və insanın tale və müqəddəratı ilə bağlı olan, tərəqqi və kamilliyə çağıran böyük bəşəri problemləri əks etdirir. "Onun içində olduğu zamanı, varlığı və dünyanı modernist düşüncə və baxışla, milli-ümumbəşəri mövqedən, yüksək sənətkarlıqla əks etdirən pyesləri özünün ideya-bədii dəyəri, novatorluğu ilə dramaturgiyamızı yüksək səviyyəyə qaldıran, öz nümunəsində onun yeni bir tarixi inkişaf dövrünü müəyyən edən və bəşəriyyətin ölməz sərvətinə çevrilən ölməz sənət örnəkləridir". (6,3).

Öz yaradıcılığında "keflilər", "ölülər", "dəlilər" problemini qoymaqla bir növ öz xələfləri üçün yeni ideyalar, yaradıcılıq istiqamətləri müəyyənləşdirmişdir. "Anamın kitabı" (1919) dramı ilə azərbaycançılıq, istiqlalçılıq, müasirlik, milli birlik, milli mənlik, "Kitabi-Dədə Qorqud"dan gələn özünəqayıdış ideyalarını sistemləşdirən ədib tərbiyəvi, maarifpərvər, geriliyi və mövhumatı ifşaedici mövqe tutmuşdur. Onun yaradıcılığının əsas qayəsi ilk yaradıcılıq nümunələrində qoyduğu özünə qayıdan və azad olan bütöv xalq ideyasının sonrakı əsərlərində real nəticələr verməsidir. İlk dəfə C.Məmmədquluzadə Zəhrabəyim ana obrazında ("Anamın kitabı"1919) bir milləti obrazlaşdırmışdır. Bu millətin milli kimliyi, milli ruhu, əxlaqı, mənəviyyatı mövcuddur və bu ölmüş xüsusiyyətlərə malik millət artıq şeyx nəsrullahsız ("Ölülər"1909), özünü dərk etmə yolu ilə "dirilir" və gerçək ideoloji yöndə "imzalar içərisinə öz imzası"nı qoyur.

Böyük yazıçı və dramaturq əsərləri ilə o zamankı Azərbaycan həyatında hökm sürən feodal-patriarxal münasibətlərini, çar məmurları və riyakar din xadimlərinin özbaşınalıqlarını, şüurlarda və məişətdəki geriliyi durmadan tənqid etmişdir. "Onun "Ölülər" tragikomediyası Azərbaycan əsəbiyyatında realizm və satiranın yeni bir mərhələsinin başlanğıcını qoymuşdur. Onun bütün bədii yaradıcılığının nüvəsi satiradan ibarətdir." (5,183).

Azərbaycanın istiqlalı və mədəniyyəti uğrunda öz yaradıcılığı ilə bu günədək xidmət edən dahi ədiblərimizdən biri də Üzeyir bəy Hacıbəylidir. Onun yaradıcılığında "gülüşü ilə göz yaşları bir-birindən seçilmir". Üzeyir bəyin yaradıcılığında özünəməxsusluq ondadır ki, o məzhəkənəvisdir. O xəlqi ideyalardan bəhs edən yaradıcılığına görə daim xalqının diqqət mərkəzində olmuşdur. Ü.Hacıbəyli Azərbaycan milli musiqisinin inkişafında müstəsna xidmətləri olan insandır. O öz komediyalarında gerçək həyatda düşündürücü və ləğvi mütləq vacib olan məsələləri qabardırdı. Köhnə cəmiyyətin qalığı olan və tərəqqini əngəlləyən bir sıra adət-ənənələrin "kor çıxıntı"tək "kəsilib atılmasını" təbliğ edirdi. AXC-nin yaranması digər vətənpərvər ziyalılar kimi Ü.Hacıbəylinin də yaradıcılığına çox güclü təsir etmişdir. Lakin Cümhuriyyətin süqutu onu da məyus etdi. "1920-ci ildə Azərbaycan işğal ediləndən sonra böyük sarsıntı keçirən Üzeyir bəy çox götür-qoydan sonra ölkədə qalmağı qərara alır. Onun fikrincə, incəsənətin mənası xalqa xidmətdədir və o da öz musiqisi ilə xalqına xidmətə üstünlük verir." (5,198).

Onun yaradıcılığının səciyyəvi xüsusiyyətlərini milli zülmün, sosial ədalətsizliyə əsaslanan yaramaz ictimai quruluşun ifşası, xalqı soyub-talayanlara, ictimai tərəqqiyə mane olanlara, xurafat və mövhumata, köhnəlmiş adət-ənənələrə, həmçinin müstəbid çar, şah və sultan rejimlərinə qarşı mübarizə, milli məfkurə və özünəqayıdışın təbliği təşkil edir.

Yuxarıda adları sadalanan ədiblərin yaradıcılığına nəzər saldıqda diqqətçəkən bir məqam ortaya çıxır. M.F.Axundzadəyə qədər azərbaycanlı türk qadını "danışmırdı", kölə kimi öz taleyinə boyun əyərək qisməti ilə razılaşırdı. Amma Axundzadə onları danışmağa, öz dərdlərini, düşüncələrini özləri söyləməyə, öz haqlarını müdafiə etməyə "məcbur" etdi.

Süleyman Sani Axundovun yaratdığı dram əsərləri dramaturgiya məktəbinin ümumi qaydalarına əsasən yazılsa da, onun da özünəməxsus xüsusiyyətləri üzə çıxır. O öz əsərlərində realist nümunələri qabarıq şəkildə işlədərək gülüşün muxtəlif təsvir vasitələrindən təbii şəkildə istifadə edir. Oxucu və tamaşaçı ədibin dramlarında yazıçının real surətlər arasında onun müsbət idealını aydın görür. S.S.Axundov ictimai komizmin bir sıra orijinal nümunələrini yaratmışdır. Dramaturq əsərlərində realizminin qüvvətli cəhətlərindən istifadə edərək mənfi obrazların yadda qalan səciyyəvi xüsusiyyətlərini - xəsisliyi, tamahkarlığı, qorxaqlığı, ikiüzlülüyü, hiyləgərliyi və sair çirkin sifətlərini onun sözləri ilə hərəkətlərinin vəhdətində əks etdirməyə çalışmışdır.Yazıçı, satirik obrazının mənfi, eybəcər sifətlərini nümayiş etdirib ona gülməklə kifayətlənmir, xəsisin mənfiliyini, mənəvi boşluğunu, gülünclüyünü, onun mənsub olduğu zümrəyə də şamil edir. Müəllif bütün eybəcərliklərin günahını buna şərait yaradan cəmiyyətdə görür.

Amma bunlarla paralel olaraq S.S.Axundov yaratdığı müsbət qəhrəmanlarını ən ali insani keyfiyyətlərə malik olduqlarını göstərməyə çalışır. Bu qəhrəmanlar həqiqətpərəst, fədakar, haqsızlığa qarşı mübariz, "xalq mənafeyini hər şeydən üstün tutan", nikbin obrazlardır. Onun qəhrəmanları haqq bildikləri iş uğrunda hətta ölümə də razıdırlar. Buna misal olaraq "Tamahkar"(1899) dramında Gülzarın atası Hacı Murada cavabını göstərmək olar.

"Gülzar. İndi ki, belə oldu. Mən də and içirəm o məhəbbətə ki, daşı yumşaldıb rəhmə gətirərdi, səni gətirmədi, ya İmran, ya ölüm". (1,36). Hadisələrin davamında Gülzar öz andına sadiq qalaraq İmranla ailə qurur. Digər bir əsərdə ("Laçın yu-

vası"1921) Mehrəli bəyin dili ilə deyilən sözlər müəllifin həyat kredosunu təşkil edir.

"Mehrəlibəy. Xeyr, mən bu ana kimi şərəflə yaşamışam. İndi də lazım gələrsə, qeyrətlə ölərəm". (1,74).

Əsərin digər hissəsində Pəricahan xanımın Hadi lələyə bolşeviklər barədə söylədikləri zamanın məhvərində öz tarixi təsdiqini tapdı.

"Pəricahan xanım. Yox, yox, inanmıram. Sən məni imtahan edirsən. Sən elə qaniçici, dünyanı oda tutub viran edənlər tərəfinə keçməzsən. Sən istəməzsən ki, belə gözəl yurdumuz tarmar olub qızıl qana boyana". (1,77). S.S.Axundov ömrünün sonunadək xalqına, millətinə, şərəflə qulluq edərək heç bir siyasi baxışdan asılı olmadan gözəl əsərlər yaratmışdır.

Məhşur ictimai xadim, gözəl həkim, mütərəqqi ziyalı Nəriman Nərimanov "dövrün qabaqcıl ziyalıları kimi ... mövcud cəmiyyətin eybəcərliklərini, xalqın düçar olduğu ictimai bəlaları aydın əks etdirmək, "paslanmış beyinləri" oyatmaq, insanlarda tənqidi düşüncəni inkişaf etdirmək üçün bədii ədəbiyyata üstünlük verirdi."(4,11). N.Nərimanov görkəmli ədib kimi həm mövzu, həm də janr etibarilə maraqlı, orijinal yaradıcılığa malikdir. Əsərlərində Azərbaycanın tarixi keçmişini, dövrün ictimai eybəcərliklərini geniş təsvir etmişdir. Onun yaradıcılığının əsas ideyası feodal hayatının köhnə adət-ənənələrinə, cəhalətə və nadanlığa qarşı mübarizədir. Əsərlərində zülmət səltənətinə qarşı nur hökmranlığını, nadanlığa qarşı ziyalılığı, mövhumata qarşı mütərəqqiliyi qoyurdu. Ədib həll etmək istədiyi ictimai məsələləri qismən də olsa "Nadanlıq"da (1894) göstərməyə çalışmışdır. İnsanların avamlığının nəticəsi olaraq qardaş qanı axıdılır. Bu bir fərdin ölməsi, məhv olması deyil, bir cəmiyyətin nadanlıq burulğanında məhv olmasıdır. Öz doğma qardaşını öldürən kəs vəhşi təbiət canlısından fərqlənmir. Ömərin ömrünün son anında söylədikləri o dövürkü cəmiyyətin əsas probleminin bədii ifadəsidir.

"Məhəmməd ağa... Qardaş!... Ömər!... Səni mənə dediyin adammı güllələdi?

Ömər *(başını bulayır).* Xeyr!... Məni ... nadanlıq ... avamlıq ... bi ... mərifətlik güllələdi. Bunlar hamısı... *(Tərpənir.)* Ah!... Adamı... heyvan edərmiş! Ah! Nadanlıq!..." (8,60).

N.Nərimanov o dövr drramaturqlarını, ziyalılarını düşündürən bütün məsələləri qələmə alaraq xalqa çatdırmaqla yanaşı ilk tarixi faciəni də ədəbiyyatımıza gətirərək ədəbi irsimizi zənginləşdirmişdir ("Nadir şah"1899). Gökəmli yazıçı, ictimai xadim "doktor Nəriman" düşüncəsinin, yaradıcılığının, ictimai fəaliyyətinin əsasını "Nadir şah" faciəsində açır. Bu bir tarixi faciə olsa da həm N.Nərimanovun yaşadığı, həm də müasir dövrlə səsləşən dramdır. Burada S.Calalovanın fikirləri öz təsdiqini tapır. "Klassikin böyüklüyü ondadır ki, o hər gələn nəsillə birlikdə yenidən doğulur". (3,4). Dünya şöhrətli yazıçı adı çəkilən dramda dövlət və onun idarə olunması məsələlərini M.F.Axundzadədən də irəli gedərək daha da kolloziyalı qoyur. Nadir şaha yalançı sui-qəsd təşkil olunan səhnədə ədib öz ürək çırpıntılarını, ruhi halını belı ifadə edir.

"Nadir şah... Bəli ... hər bir padşah iki düşməndən xilas deyil: vətən, millət qeyrəti çəkməyən, gününü eyş-işrətdə keçirib milləti daima zülmlərə düçar edən padşah əcəlini millətdən gözləsin.... Millətin və dövlətin tərəqqisinə çalışan, bu yolda təzə qanunlar qoyan, vətənini zülmdən xilas etmək istəyən padşah əvvəlinci

gülləni öz müqərrib adamlarından gözləsin.... Mənim yəqinimdir ki, bu güllə millət gülləsi deyildir !..." (8,146).

Daha sonra bu fikri bir qədər də inkişaf etdirərək mirzənin dilindən belə səsləndirir. "**Mirzə Mehdi xan.** Şah bu gün-sabah ağlını itirər, dövlət düşəcəkdir biqeyrət xanların əllərinə.... Kim bilir, nə olacaqdır..." (8,149). Bu fikirlər hansısa obrazın dili ilə ifadə olunsa da N.Nərimanovun öz xalqının taleyi üçün necə qəlb yanğısı ilə narahat olduğunun sübutudur.

Həmin əsərin davamında sonuncu – Nadirin qətlə yetirilməsi səhnəsində müəllif bu fikirlərin kuliminasiya nöqtəsinə çatır. Nadir şah xanlar tərəfindən xəncərlə yaralandıqda ölüm ayağında son olaraq aşağıdakı sözləri deyir.

"**Nadir şah** *(yavaş-yavaş yıxılır)*. Pərvərdigara! Günahım çoxdur! Yaman dərdlə ölürəm, nahaq yerə. Heç kəsə pislik etməmişəm. Hər kəsə də yamanlıq etmişəm, ümumi xeyri nəzərdə tutmuşam. Vətən salamat qalsın fikrində olarkən canımı vətənin və millətin yolunda sərf ... etmişəm.... Oğlumun gözlərini vətənə qurban etmişəm. *(Ağlayır, yavaş-yavaş yıxılır.)* Biçarə anasını axirətədək gözü yaşlı qoymuşam.... Pərvərdigara! Özün kömək et bu başsız millətə!.." (8,154).

Budur dahi və əbədiyaşar yaradıcılıq. Budur N.Nərimanov ideyalarının bədii güzgüsü adlandıra biləcəyimiz milli məfkurə.

Cəfər Cabbarlı yaradıcılığı insanpərvərliyi və şəxsiyyət azadlığı tərənnüm və təbliğ etməsilə diqqəti cəlb edir. O bütün yaradıcılıq nümunələrində düşündürücü fikirlər, ideyalar daşıyıcısıdır. "C.Cabbarlı dramaturgiyasının əsas məziyyəti onun xalq həyatı ilə üzvi surətdə bağlı olmasıdır. Onun yaratdığı güclü xarakterlər, müsbət və mənfi obrazlar silsiləsi, personajların canlı, koloritli dili Cabbarlı dramaturgiyasına ümumxalq məhəbbəti qazandırmışdır. Yeniliyə doğru irəliləyən insanları alqışlayan ədib onların dolğun obrazlarını öz əsərlərində canlandırmağa çalışmışdır. Yaradıcılığı Azərbaycan sovet ədəbiyyatının inkişafına böyük təsir göstərmiş C.Cabbarlının əsərlərinin təsiri ilə Azərbaycanda yeni nəsil dramaturqlar yetişmişdir." (5,246).

C.Cabbarlı yaradıcılığı da digər ədiblər kimi cəmiyyətdəki nadanlığa, avamlığa, azğınlığa, zülmkarlara qarşı yönəlmişdi. Onun yaratdığı qəhrəmanlar paklığı, mehribanlığı, altun səltənətinin puçluğunu, xəyanətin bağışlanmadığını təbliğ edirlər. Və cəmiyyətin saflaşması üçün mübarizə aparırlar. "Nəsrəddin şah" (1916) dramında ilk dəfə olaraq istibdad və mütləqiyyətə qarşı geniş xalq kütlələrinin mübarizəsinin əks olunmuşdur. "Solğun çiçəklər" (1915) və "Aydın"da (1919) pulun, altunun əxlaqın, mədəni mühitin fəlakətinin baiskarı olması açılıb göstərilmişdir. Bu da C.Cabbarlı yaradıcılığını həmin dövrün digər yazıçılarından fərqləndirən özünəməxsusluğudur. O problemlərin və xarakterlərin ziddiyyətli məqamlarını üz-üzə qoyaraq oxucuları və tamaşaçıları təsir altına, gərgin həyəcanlı anlara sala biləcək aktuallıq kəsb edən dəyərli səhnə əsərləri yaratmışdır.

"Bədii əsərlərdə elə qəhrəmanlar var ki, onların əsas missiyası baş verənləri müşahidə edib dəyərləndirməkdən, mənfi obrazların əməllərini ifşa etməkdən və ya müəllifin mövqeyini açıqlamaqdan ibarətdir. Belə qəhhrəmanlara ... Cəfər Cabbarlının dram əsərlərində rast gəlmək mümkündür. " (7,15). O əsərlərində süjet qurmaq, fərdi psixoloji xarakterlər yaratmaq yolunda çox çalışmış, əsl peşəkar ustalığı, bədii texniki yetkinliyi, həyati konfliktlər, təbii monoloq və mükalimələr qurmaq məharəti göstərmişdir.

Bu fikirlərin yekununda M.F.Axundzadənin bir fikrini örnək gətirmək yerinə düşər: "İnsanın yeddi vəzifəsi vardır. Əgər insan bütün bu vəzifələri yerinə yetirərsə, bu halda kamil insan sayılar, əgər o bunların bir hissəsini yerinə yetirərsə, natamam insan sayılır, əgər o bu yeddi vəzifənin heç birinə əməl etmirsə, deməli insan qismindən çıxır və heyvan qisminə daxil olur. Birinci vəzifə bundan ibarətdir ki, insan pis əməldən uzaq olsun. İkinci vəzifə xeyir işlər görməkdir. Üçüncü vəzifə zülmə qarşı mübarizə aparmaqdır. Dördüncü vəzifə cəmiyyətdə öz yoldaşları ilə ittifaqda yaşamaqdır. Beşinci vəzifə elm yolu ilə getməkdir. Altıncı vəzifə elmi hər yanda yaymağa çalışmaqdır. Yeddinci vəzifə ondan ibarətdir ki, insan öz qüvvəsi, imkanı daxilində onunla ittifaqda olan cəmiyyətdə, öz həmvətənləri, həmfikirləri arasında qanuni hüquqlarının müdafiəsi üçün mübarizə aparsın." (2,21).

Bizim fikrimizcə XIX əsrlə XX əsrin qovşağında yaşayıb yaratmış bütün azərbaycanlı ziyalılar digər mütərəqqi ideyalar kimi bu işin öhdəsindən də bacarıqla gəlmişlər.

Ədəbiyyat

1. Süleyman Sani Axundov. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2005, 448 s.
2. M.F.Axundzadə - 200. Biblioqrafiya.Bakı, AMK, 2012, 360 səh.S21
3. Calalova Sevər Elxan qızı. "Əbrürrəhim bəy Haqverdiyevin yaradıcılığı rus dilində". Fil.üzrə f.e.d. alimlik dərəcəsi almaq üçün dissertasiya.Bakı,2010.124s.
4. Rəfayət Xalid qızı Əlmirzəyeva. "Nəriman Nərimanov yaradıcılığında maarifçi ziyalı problemi". Bakı,2011. Fil.üzrə f.e.d. alimlik dərəcəsi almaq üçün dissertasiyanın avtoreferatı. 30s.
5. Səbuhi Əhmədov. "Azərbaycan tarixindən yüz şəxsiyyət". "Ayna Mətbu Evi",2006, 268 s.
6. T.H.İsmayılov. "Cəlil Məmmədquluzadənin "Anamın kitabı" dramı. Bakı,2005, Fil.e.n. dissertasiyasının avtoreferatı".30s.
7. Əzizə Qurban qızı Məmmədova. "İngilis və Azərbaycan dramaturgiyasında sosial problemin qoyuluşu. (Bernard Şou və Cəfər Cabbarlının əsərləri əsasında)". Fil.e.n. alimilik dərəcəsi almaq üçün dissertasiya. Bakı – 2008,110s.
8. N.Nərimanov.Seçilmiş əsərləri. Bakı, "Lider nəşriyyat", 2004,398 s.

Кенул Гейдарова

Разнообразие образов в Азербайджанской драматургии
(Конец XIX века – начало XX века)

Резюме

В статье обсуждаются обобщенные образы, механизмы авторских подходов к этому, а также использование образов в драмах. В передним плане мнения исследователей. Исследуются образы из разных произведений. Анализируются подобные и различные особенности некоторых образов. Похожие образы одного автора и их использование также обсуждаются.

Khonul Heydarova

The typical features of Azerbaijan dramaturgy
(The end of XIX – the beginning of XX century)
Summary

The article deals with the generalized images, the machinery of approaching of authors as well as the usage of images in plays. The researchers' opinions are also being drawn into front section. The personages from different works are investigated. Different and diserepent features of some personages are analyzed. The personages of the some author are discussed, too.

Rəyçi: Fil.e.d. prof. Qara Namazov

NİGAR İBRAHİMOVA
e-mail. Nigar.ibragimova@hotmail.com

ABDULLA ŞAİQİN UŞAQ HEKAYƏLƏRİ

Açar sözlər: dərslik, hekayə, maarifçilik, nəsr, dramaturgiya, tərbiyə, mütaliə
Key words:textbook, story, enlightenment, prose, dramaturgy, education, reading
Ключеве слова: учебник, история, просветление, проза, драмтургия, воспитания, чтение.

A.Şaiq ədəbiyyatımızda dəyərli nəsr əsərlərinin müəllifi kimi məşhurdur. Onun istər kiçik hekayələrində, istərsə də iri həcmli romanlarında güclü realizm, yüksək bədii sənətkarlıq diqqəti cəlb edir.

Abdulla Şaiq bədii yaradıcılığında pedaqoji fəaliyyətində olduğu kimi, bədii yaradıcılığında da gənc nəslin təlim-tərbiyəsi ilə bağlı məsələlərə xüsusi diqqət yetirmiş, onların tərbiyəsinə xidmət edən, yüksək bədii dəyərə malik, bu gün də geniş oxucu kütləsi tərəfindən sevilə-sevilə oxunan əsərlər yazmışdır. O, gənc oxucularını vətənpərvər, əməksevər olmağa, təbiəti sevməyə səsləyir. Abdulla Şaiq öz əsərlərində vətən övladını ta çocuqluqdan başlayaraq tərəqqiyə, fəaliyyətə, layiqli vətəndaş olmağa səsləyir və bu ruhda da tərbiyələndirməyə çalışır.

Həmin məqsədə çatmağın yolunu A.Şaiqdə, əksər məsləkdaşları və yaradıcı dostları kimi, maarif və məktəblərin inkişaf etdirilməsində görür. Odur ki, vətən övladlarının zamanın inkişaf sürəti ilə ayaqlaşa bilən, yeni tipli proqram və dərsliklərlə təchiz edilmiş təhsil ocaqlarında oxumalarını təmin etmək uğrunda fəal və ardıcıl mübarizəyə qoşularaq, Azərbaycan müəllimlərinin 1906-cı və 1907-ci ildə Bakıda olan I və II qurultaylarının hazırlanması, keçirilməsi və onun qəbul etdiyi qərarların həyata keçirilməsində xüsusi fəallıq və pedaqoji ustalıq nümayiş etdirir. Daha doğrusu, o, əməli pedaqoji fəaliyyətini elmi-metodiki işlə – proqram və dərsliklər tərtibi, həm də paralel olaraq bədii yaradıcılıqla davam etdirib tamamlayır.

A.Şaiq zamanın tələbinə və maarifçilik hərəkatına uyğun olaraq, Azərbaycan müəllimlərinin I və II qurultaylarında Ana dili və əlifba dərsliklərinə (və dərslərinə) qoyulan tələblərə qurultaylardan az sonra bir-birinin ardınca çap etdirdiyi "Uşaq çeşməyi" (1907), "Uşaq gözlüyü" (1909), "Gülzar" (1912) dərsliklərində bir şair və pedaqoq kimi əməl etməyə çalışmışdır. O, dərslik yazmaq sahəsindəki işini sonrakı illərdə də davam etdirərək "Milli qiraət", "Ədəbiyyat dərsləri", "Türk çələngi" (1919), "Türk ədəbiyyatı" (1920) dərsliklərini və müntəxəbatını nəşr etdirmişdir.

Bu dərsliklərdən uzun illərAzərbaycan gəncliyinin bütöv bir nəsli istifadə etmiş, faydalanmışdır. Bu işi A.Şaiq təkcə müəllim və pedaqoq, metodist kimi yox, həm də klassik uşaq ədəbiyyatımızın poeziya, nəsr və dram janrında bir çox yaddaqalan nümunələrini yazmaqla görmüşdür. O, birtərəfdən məktəb şagirdləri üçün dərsliklər hazırlayır, digər tərəfdən də həm həmin dərsliklərdə, həm də "Dəbistan", "Rəhbər", "Məktəb" jurnallarında çap edilmək üçün orijinal əsərlər yazır, bədii tərcümələr edirdi.

Onun müəllimliyi, elmi-pedaqoji fəaliyyəti ilə bədii yaradıcılığının
vəhdət təşkil etməsi, bu yaradıcılıq sahəsinin birinin digərini tamamlamasını

nəzərdə tutan professor Yaşar Qarayev yazırdı: "Abdulla Şaiq şairi kəndə müəllim, müəllimi kəndə şairdir...Şeirdə də, tərbiyədə də məqsədi gəncliyin mənəvi çırağını alışdırmaq idi. Şaiq öz şeirlərini ilk əvvəl dərsliklər üçün yazır, pyes və hekayələrini ən əvvəl tərbiyəvi-əxlaqi bir niyyət və qayə naminə qələmə alırdı. Odur ki, "şaiqlik" sözünün ifadə etdiyi mənəvi-əxlaqi mənanı onun həm müəllimlik, həm də şairlik fəaliyyətində eyni səviyyədə görmək olar. Müəllim Şaiqdə, nasir və şair Şaiqdə ilk gündən bir ata qayğısı ilə "çocuqluğa" ana dili öyrədirdi. İndi bu nəcib xidmətin ən yaxşı yadigarı yaradılmasında və inkişafında Şaiqin canla-başla iştirak etdiyi böyük uşaq ədəbiyyatıdır".

A.Şaiq uşaq psixologiyasına, onun maraq dairəsi və anlaq səviyyəsinə bələd olan incə zövqlü, həssas duyğulu sənətkardır. Odur ki, uşaqların nağıl və əfsanə qanadlı fantaziyası, gördükləri, müşahidələri qarşısında duyduğu heyrət və təəccüb onun şeir və hekayələrində romantik bir vüsətlə əks etdirilmişdir. Bu əsərlərdə romantizmə xas zahiri sadəlövhlük, ilkinlikdən doğan saflıq, heyrət və varlığı dərk etmək cəhdləri sanki uşaq dünyasının sirli-sehrli aləmindən güc alır.

A.Şaiq XX əsr uşaq ədəbiyyatımızın yaradılması və inkişaf etdirilməsində ardıcıl və məqsədyönlü şəkildə çalışmış, öz fəaliyyəti ilə bu sahə də bir məktəb yaratmışdır. Görkəmli ədəbiyyatşünas Y.Qarayev yazır ki, o, müntəzəm və ardıcıl şəkildə həmişə uşaq ədəbiyyatı ilə yaşamış, nəfəs almışdır.Azərbaycan uşaq şeiri və nəsri, dramaturgiyası bütöv və müstəqil bir klassik məktəb səviyyəsində məhz onun yaradıcılığında kamala çatmışdır[1]

Akademik Məmməd Arif yazırdı: «Nəsrin ən yığcam forması olan hekayədə dilin vəzifəsi qat – qat artır, rolu ağırlaşır. Hər sözün, hər ifadənin, dialoqun estetik vəzni, təsir qüvvəsi xüsusi əhəmiyyət kəsb edir. Hekayənin dili kəsərli, cazibəli, şəffaf olmalıdır.[2]» Ədib uşaqlar üçün yazdığı şeir, təmsil, mənzum nağıl və pyeslərində, dərsliklərində, o cümlədən publisistik məqalə və memuarında olduğu kimi nəsr əsərlərində də millətinin, vətəninin və vətən övladlarının işıqlı sabahı üçün çalışdı. Onun "Məktub çatmadı", "Köç" əsərlərində, "İki müztərib, yaxud əzab və vicdan"dan real həyat həqiqətlərindən doğan yanğılı, sentimental təsvir və təhkiyə üsulu hakimdirsə, "Oyunçu bağalar", "Timsah ovu", "Lovğa ovçu", "Meşə gözətçisi" hekayələrində ətraf aləmin cazibədarlığı müqabilində oxucuda təbiətə məhəbbət və qayğı təbliğ olunur.

A.Şaiqin «Məktub yetişmədi», «Köç» hekayələri realist nəsrin kamil nümunələridir. Hər iki əsərdə həyat həqiqətləri və lirik məqamlar üzvi vəhdət təşkil edir. Cəmiyyətdəki kəskin ictimai konfliktləri əks etdirən «Məktub yetişmədi» hekayəsi 1908-ci ildə – Azərbaycanda kapitalist - fəhlə münasibətlərinin kəskinləşdyi, neft mədələrində insan əməyinin amansızcasına istismar edildiyi bir dövrdə yazılmışdır. Bir sıra görkəmli sənətkarlar, tədqiqatçılar tərəfindən Azərbaycan ədəbiyyatında hadisə kimi qiymətləndirilən bu əsər uzun illərdir ki, ümumtəhsil məktəblərində tədris olunur.

Əsərdəki təbiət təsviri dərin ictimai məna kəsb edir. Həyatın dibində yaşayan yoxsul bir insanın – cənublu fəhlə Qurbanın faciəsinin məhz qarlı, şaxtalı qış günündə təsviri əsərin oxucuya bədii təsirini daha da qüvvətləndirir. Əsərdə fəhlələrin

[1]Bax: Şaiq A. Seçilmiş əsərləri. I cild.Bakı:Avrasiya press.2005. s.8.
[2]Arif M. Hekayəni sevirik. «Ədəbiyyatvəincəsənət» qəzeti. 1967, 14 yanvar.

düşdüyü ağır maddi durum bir insanın taleyi timsalında təsvir edilmişdir. İstismara məruz qalan fəhlələri Qurban, istismarçı təbəqəni HacıQulu təmsil edir.

«Köç» hekayəsində (1910) ədibin dəqiq həyati müşahidələri, ana yurdun təbiətinə, saf mənəviyyatlı insanlarına məhəbbəti öz əksini tapmışdır. Kənd həyatından, təbiətin qucağında keçən günlərdən məhəbbətlə söz açan müəllif yazır: «Kənd həyatında, təbiətin o zəngin və geniş qucağında nə qədər canlı lövhələr, unudulmaz xatirələr vardır! Uşaqlıqdan qəlbimin dərinliklərində iz salmış o rəngarəng, o qiymətli və silinməz xatirələr!..»

Yazıçının bu mövzuya müracəti təsadüfi deyildir. Burada müəllif ilk növbədə uşaqların mütaliə marağından çıxış etmişdir. Məlumdur ki, uşaqlar təbiət aləmindən, heyvanlar, quşlardan bəhs edən əsərlərin mütaliəsinə böyük həvəs göstərirlər. A.Şaiqin "Köç» hekayəsi həm də uşaqları təbiətdəki müxtəlif canlılar, eyni zamanda təbiət hadisələri, müxtəlif çiçəklər, bitkilərlə yaxından tanış etmək, onların xüsusiyyətləri və ətraf aləmdəki yeri barədə məlumat və bilik, anlayış vermək məqsədi daşıyır.

Hekayədə təsvir edilən hadisələr, hiss və duyğular «Oba», «Alaçığımız», «Məşğələlərim», «Səhərlərim, axşamlarım», «Kərim baba», «Ayrım qızı», «Pələng ovu», «Qızıl it», «Can qorxusu», «Sümsü», «Yağış» kimi başlıqlar altında verilmişdir.

Yazıçının digər əsərlərində olduğu kimi, bu hekayədə də cazibədar, əsrarəngiz təbiət təsvirləri oxucunu valeh edir: «Azərbaycan!.. Doğma vətənimizin gözəl təbiəti vardır. Sahələrə məxsus olan nəsimdən arabir yarpaqlar qımıldanır, torpaqlara, təpələrə, çöllərə xalı kimi döşənmiş lətif yumşaq otlar, çiçəklər dəniz kimi dalğalanır, yaşıl yarpaqlar arasına sığınmış quşcuğazlar səs-səsə verib ötüşürdü.

Göz işlədikcə açıqlıq, yaşıllıq, dərəlik, təpəlik, irəlilədikcə qarşımızda bir-birindən daha gözəl təbiət, daha canlı lövhələr açılır. İri, kələ-kötür, ətəkləri qara tikan kolları ilə döşənmiş dağlar arasından yuxarı qalxdıqca təbiət və hava büsbütün başqalaşır. İnsan ürək dolusu nəfəs alır. Yumşaq otların, əlvan çiçəklərin, dağ nanələrinin gözəl qoxusudan insan bihuş olur.»[1]

Göründüyü kimi, müəllif ana dilinin zəngin bədii mkanlarından sənətkarlıqla istifadə edərək təbiətin zərif, əlvan boyalarla naxışlanmış bir lövhəsini göz önündə canlandıra bilmişdir. Yazıçının istifadə etdiyi dolğun obrazlar, bədii təsvir və ifadə vasitələri, əsərin dilinin aydınlığı, nikbin ruhu oxucu qəlbinin dərinliklərində əks – səda tapır, xoşovqat, təbiətə dərin heyranlıq hissi doğurur.

Əsərdə Kərim babanın timsalında sadə insanların xarakteri, mənəvi aləmi təsvir edilir. Əsərdə Qızıl it, canavar, qızıl quş haqqında verilən məlumatlarda oxucu üçün son dərəcə maraqlıdır. Yazıçı hər bir heyvanın, quşun təbiətini, özünəməxsus xüsusiyyətlərini səlis bir dillə, uşaqların yaş xüsusiyyətlərinə uyğun bir üslubda qələmə alır.

Nəticə etibarilə oxucular əsərdən estetik zövq almaqla yanaşı, dəqiq elmi biliklərə, məlumatlara da yiyələnmiş olurlar. Əsər şagirdlərdə təbiətə məhəbbət hissini inkişaf etdirir, onları təbiəti qorumağın zəruriliyinə inandırır.

«Usta Bəxtiyar», «Sözün qiyməti» hekayələri gənc nəslə xalqımıza xas olan mənəvi dəyərlərin mənimsədilməsi baxımından çox əhəmiyyətlidir. «Usta Bəxtiyar» hekayəsində usta Bəxtiyarın həyatda uğur qazanmasının, xoşbəxtliyinin səbəbi

[1]Şaiq A. Seçilmiş əsərləri. Icild. Bakı, 1957.s.27.

kimi onun öz ailəsinə məhəbbəti, peşəsinə sədaqəti göstərilir. Padşahın əmri ilə zindana salınan usta Bəxtiyar tutduğu doğru yoldan dönmür, əzm, dəyanət göstərərək qalib gəlir.

XX əsrin əvvəlində nəşr etdirdiyi şeir, hekayə və pyesləri, ədəbi publisist yazıları, müntəxəbat və dərslikləri bir yazıçı və pedaqoq kimi, romantik çalarla aşılanmış maarifçi-realist ədəbi hərəkatın görkəmli xadimikimi Abdulla Şaiqə geniş şöhrət qazandırmışdır. Ədib həm yaradıcılığı, həm də müəllimlik fəaliyyəti ilə Azərbaycan ədəbi dilinin büllurlaşmasına hərtərəfli xidmət etmişdir. Şaiqin mənsur dili XX əsr Azərbaycan nəsrinin, bu nəsrin bu günkü ifadə mükəmməlliyinə ən yaxın olan bədii ifadə və üslub nümunələrindən biridir.

Yaradıcılığının çox şaxəliliyi onun əsərlərinin məzmun və ideya-bədii keyfiyyətlərinə öz müsbət təsirini göstərmiş, bu əsərlərə ümumxalq məhəbbəti qazandırmışdır.

Ümumiyyətlə, Abdulla Şaiqin bədii irsi özünün alovlu vətəndaşlıq duyğusu, qanadlı və nikbin romantik vüsəti, işıqlı sabaha qəti inamı,soykökə möhkəm bağlılığı ilə milli və əxlaqi düşüncəmizə bu gün də işıq salır. Bu sənətin sirli, sehrli nuru hələ uzun müddət öz təravətini saxlayacaq.

Ədəbiyyat

1.Azərbaycan uşaq ədəbiyyatı müntəxəbatı. (XIX-XX əsrlər). I-II cild. Bakı: Nasir, 2001-2002.
2.Axundov S.S. Seçilmiş əsərləri. IIc., Bakı, 1968..
3. İsmayılov Y. Abdulla Şaiqin həyatı və bədii yaradıcılığı. Bakı, 1962.
4. Fərhadov F., Hacıyev A. Azərbaycan uşaq ədəbiyyatı tarixi. Bakı: APİ-nin nəşriyyatı, 1986.
5. Xəlil Z., Əsgərli F. Uşaq ədəbiyyatı. Bakı: ADPU-nun nəşriyyatı, 2007.
6. Hacıyev A., Fərhadov F. Azərbaycan uşaq ədəbiyyatı. Bakı, 1976.
7.Həsənli B.Azərbaycan uşaq ədəbiyyatı. Bakı:Müəllim, 2008
8. Həsənli B., Quliyev Ə. Ana sözü. IV sinif üçün dərs vəsaiti. Bakı: Çaşıoğlu, 2008.
9. Hüseynli S. «Dəbistan» və «Məktəb» jurnallarında xalq maarifi və təlim-tərbiyə məsələləri. Bakı, 1995.
10. Mir Cəlal. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı: Maarif, 1974.
11. Mirəhmədov Ə. Abdulla Şaiq. Bakı, 1956.
12. Məmmədov Ə. Abdulla Şaiq. Bakı: Gənclik, 1983.
13.Məmmədov Ə. Azərbaycan uşaq ədəbiyyatı. Bakı:1977.
14. Mümtaz S. Azərbaycan ədəbiyyatının qaynaqları, Bakı, 1986.
15. Namazov Q. Azərbaycan uşaq ədəbiyyatı. Bakı:Bakı Universiteti, 2007.
16. Nəbiyev B. Yeri ürəklərdədir. Abdulla Şaiqin «Qoçpolad» kitabına ön söz. Bakı, 1977.
17. Şaiq A. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1984.
18. Şaiq A. Xatirələrim. Bakı, 1961.
19. Yüzbaşev R. Abdulla Şaiqin uşaq əsərlərinin tərbiyəvi mahiyyəti. Azərbaycan məktəbi//, 1948 N 4, s.73.
20. Yusifoğlu R. Uşaq ədəbiyyatı, Bakı: Təhsil, 2002.
21. Zamanov A. Abdulla Şaiq. Bakı, 1956.

Ибрагимова Нигяр

Детские истории Абдулла Шаига
Резюме

Абдулла Шаиг в период преподавательской деятельности так же уделял особое внимание обучению и образованию молодого поколения. Служив их образованию и представляя высокую художественную ценность, его произведения до сих пор привлекают широкие массы читателей. Его творчество содержавшее уникальность а так же идейно-художественные качества оказывали положительное влияние и вызывали любовь всей страны. Он призывал молодое поколение к патриотизму, любви к труду и природе. Прозаический язык Шаига является одним из примеров художественного выражения и стиля в прозах и стихах двадцатого века Азербайджана. А. Шаиг последовательно и целенаправленно учавствовал в создании и развитии детской литературы двадцатого века и в результате своей деятельности в этой области им была создана школа.

Ibragimova Nigar

Kids stories by Abdulla Shaig
Summary

Abdullah Shaig paid particular attention to education of young generation through his literary works, along with teaching activities. He is an author of highly valued works serving for educating the youth with a wide audience of readers till nowadays. Creative diversity posed a positive impact on contents and ideological quality of his works and brought national recognition to him. He exhorted the youth to be patriotic, hardworking and love the nature. The language of Shaig is considered as an ideal sample of literary expression of Azerbaijani prose of XX century that is close to today's tendency. A. Shaig has served for creation and development of children's Literature in XX century and laid a foundation for a strong school in regard with this activity.

Rəyçi: Bilal Həsənli
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

MAYA YUSİFOVA
Qafqaz Universiteti
myusifli@box.az

ARAZDAN BAŞLAYAN DÜNYA

Açar sözlər: orijinallıq, üslub, reallıq, vətənpərvərlik,dünyagörüşü,səmimilik
Key words: eccentricity, style,reality,patriotism, autlook, sincerity.
Ключевые слова: оригинальность, стиль, реальность, патриотизм, перспективы, честность.

Qüdrətli rus tənqidçisi V.Q. Belniskini qeyd edirdi ki:“ Hər bir müəllifin əsərləri bir-birindən məzmun və formasına görə nə qədər fərqlənsədə,onları birləşdirən ümumi xüsusiyyətlər vardır,bu cəhət isə onunla bağlıdırki, onlar vahid bir təxəyyülün məhsuludur. Elə buna görədir ki. Hər hansı ədəbiyyat materialının qiymətləndirilməsində sənətkar şəxsiyyəti mütləq nəzərə alınmalıdır.” Lakin hər bir yaradıcı insanın ədəbi fəaliyyəti hər zaman onun mənəvi dünyası ilə səsləşmir.Şairin daxili dünyası ilə yaradıcılığı vəhdət təşkil etdikdə idel şeir doğulur.Şair özü dərindən yaşadığı duyğu və düşüncələri,fikir və hissləri qələmə alanda daha təbii alınır. Bu baxımdan unudulmaz şair Məmməd Arazın “lirik Mən”i onun “daxili Mən”indən ayrı deyil, əksinə hər ikisi qovuşub, bir olub böyük bir dünya yaratmışdır -Araz dünyası! Bu baglılıq onun bütün yaradıcılığı boyu diqqət çəkməkdədir. Şairin elə bir misrası tapılmaz ki, daxili yaşantıdan, qəlb çırpıntısından kənarda qələmə alınsın.Şair fərdi taleyini xalqının tarixi-taleyindən ayirmırdı. O, həm öz ömrünün həm də xalqının və Vətənin poetik tərcümanı olmuşdur.M.Arazın yaratdığı hər bir şeirin arxasında bəzən çox kövrək lirik bir aşiq, bəzən müdrik və mülayim el ağsaqqalı, bəzən odlu–alovlu vətəndaş,bəzən isə sərt və zəngin xəyal dünyasında yaşayan bir yeniyetmə gənc obrazı görünür. Bunlar hamısı çox zəngin və rəngarəng “Məmməd Araz dünyasından” gələn obrazlardır. Bütün bu obrazların köksündə vətənə yurda məhəbbətlə dolu qaynar bir ürək döyünür:

Azərbaycan–qayalarda bitən bir çiçək,
Azərbaycan – çiçəklərin içində qaya!
Mənim könlüm bu torpağı vəsf eyləyərək
Azərbaycan dünyasından baxar dünyaya

Məmməd Araz bədii sözdən rəssam dəqiqliyi ilə elə mahir tablolar yaradır ki, insan bu tablo qarşısında heyranlığını gizlədə bilmir.Elə yuxarıdakı misra gözlərimiz önündə Vətənin elə əsrarəngiz mənzərəsini sərgiləyirki,oxucu özünü bu mənzərə qarşısında sorğulamağa başlayır.Görəsən mən bu vətənə layiqəmmi? Məndə bu Şair qədər duymasamda adi bir vətəndas qədər duya bilmişəmmi Vətənin müqəddəsliyini? Bax beləcə Məmməd Araz şeiri təkcə vətən sevgisini vəsf etməklə kifayətlənmir, vətəndaşlar üçün əsil duyğu ölçüsünə,məhək daşına çevrilir. Heç tasadüfi deyildir ki, vətənpərvərlikdən, Vətən sevgisindən söz düşəndə bir aforizm yada düşür: “Vətən daşı olmayandan, Olmaz ölkə vətəndaşı” bu aforistik fikri söyləmək üçün mənəvi dünyasının meracı Vətənpərvərlik olan Məmməd Araz olmaq gərəkdir:

Bir qayaya söykənmişəm deyirəm kaş
Bax beləcə daşa dönəm yavaş-yavaş
Onda Vətən sanar məni bir balaca Vətən daşı
Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı...

Bu Vətənin adı, ünvanı bəlli, tutumu isə bütün Azərbaycan Dünyasını içinə almış Məmməd Araz Dünyasıdır! Bu elə həmdə Azərbaycan dünyasıdır,onu şairin özündən mənalı heç kim vəsf edə bilməz:

Azərbaycan- mayası nur, qayəsi nur ki...
Hər daşından alov dilli ox ola bilər.
"Azərbaycan" deyiləndə ayağa dur ki,
Füzulinin ürəyinə toxuna bilər.

Bu sadəcə gəlişi gözəl sözlər deyil, şairin istəyi, amalı, vətənə olan sevgisidir. Bu iki doğmalıq-Füzuli və Azərbaycan arasındakı vəhdət çox təbii görünür. Füzuliyə hörmət Azərbaycana hörmət, Azərbaycanı sevmək, Füzulini sevmək deməkdir. Bu şeir həmçinin böyük şairimizə sonsuz ehtiramın, Vətənə sədaqətin təcəssümüdür. Məmməd Araz poeziyasının mayası keçmişə ehtiram və sədaqətdən, Vətənə sonsuz məhəbbətdən tutulmuşdur. Məmməd Araz ürək şairi idi.

O, daxili yaşantıdan kənar, şair qəlbinə yad olan yaşanılmamış hisslərin şeirə gətirilməsinə qarşı çıxırdı. Şeirimizin taleyi üçün narahat olan şair yazırdı:

Söz gərək ox keçməz qayadan keçə
Yoxdursa sözünün kəsəri yazma
Özün sevməyincə-sevilməyincə,
Özgədən məhəbbət əsəri yazma.

Poeziya Məmməd Arazın bütün varlığı, taleyi, sevinci və kədəridir. Əsil şair gərək oxucusundan heç nəyi gizlətməsin. Çünki bir şair qələmilə aydınlanan həqiqət, yüksək mənəviyyatlı bir qəlbin həqiqətidir ki, bəzən bu həqiqət böyük bir xalq həqiqətinin timsalı olur. Qüdrətli şair öz doğmalarından saxladığı sirrləri belə öz ruhunun aynası olan şeirləri ilə oxucusuna duyurmuşdur:

Məni şeirimdə gəz bir insan kimi,
Qəlbimdə nə varsa ona demişəm,
Anadan- bacıdan gizlətdiyimi
Kağızdan, qələmdən gizlətməmişəm...

Məmməd Araz dünyasından, onun möhtəşəm təbiətindən bəzən hırçın, bəzən durğun ,bəzən isə şaqraq, qüdrətli Araz çayı axmaqdadır. Vətənpərvər şairin öz vətəninə münasibətindən söz düşəndə ilk növbədə onun Arazla bağlı şeirləri yada düşür. Şairin ən böyük dərdi Araz dərdi ,Araz kədəri idi:

Baxtıma bir yazı qurumu dəydi,
Taxtıma iki əl qırımı dəydi,
Gözümə bir Araz şırımı dəydi,
Yüz Araz töküldü gözümdən mənim.

Məmməd Araz dünyasına nəzər salan hər kəs Araz dərdini duydu, hiss etdi və kədərləndi. Arazsız Məmməd Araz dünyasını təsəvvür etmək qeyri-mümkündür.

Sudan çıxan balıq tək,
Ölərəm mən Arazsız.

Tayı itmiş ceyran tək,
Mələrəm mən Arazsız.
O, mənim mürəkkəbim,

Mən onun qələmiyəm.
O, mənim telli sazım,
Mən onun dilqəmiyəm.

Araz dərdi, Araz yanğısı sanki, şairin bütün misralarına hopub,elə bu misralarda Araz kimi axıcı və ürəyə yol tapandır. Arazın axışını bir nəğmə kimi varlığında hiss edən və oxucularına da hiss etdirən şair heç təsadüfi deyildirki, Araz adını özünə təxəllüs götürdü.Şair həm də Arazı xalqın mübariz keçmişi, nənə və babalarımızdan qalan müdriklik rəmzi kimi mənalandırır:

Yox, Araz deyəndə mən,
Yalnız çay düşünmürəm!
Mənim tək baxsan ona,
Deməzsən adi sudur.
O, bir gəlin hörüyü,
Bir uşaq yuxusudur.
O, Qiratın yalmanı,
Bozatın tərliyidir.
Nənəmin ipəkliyi
Babamın sərtliyidir.

Vətənin hər daşına hər qayasına bələd olan istedadlı şair elə bilöz qüdrətli qələmi ilə ölkəmizin xəritəsini çəkirdi.Yurdumuzun bütün gözəllikləri- dağların əzəməti, çayların nəğməsi, quşların vətənə məhəbbət dolu cəh-cəhi,düzlərin hamarlığı, ceyranların qaçışı, kəkliklərin uçuşu Məmməd Araz misralarında bir rəssam tablosunda olduğu qədər canlı və təbii görünür:

Dağlara qar düşdü, qar düşdü yenə
Məhzunluq ələndi oda - ocağa
Çaylar vida deyib gülüşlərinə
Başladı aramla gumuldamağa
Dağlara qar düşdü uyudu dağlar
Dağlar həm qocaldı həm ucaldılar
Mələyə- mələyə quzu bulaqlar
Daşların dibində yetim qaldılar.

"Dağlara qar düşərkən od-ocağa məəhzunluq ələndiyini" , "Dağların həm qocalıb həm də ucalmasını", "Quzu bulaqların daşların dibində yetim qalması" və.s kimi həqiqətləri yalnız təbiətin ulu kitabından əxz etmək olardı,bu qüdrətə və həssaslığa isə yalnız Məmməd Araz dünyası qadir oldu. Budur M.Araz fərdiliyi, orijinallığı, budur qəlbləri fəth etməyin başlıca səbəbi!Məmməd Araz yaradıcılığını diqqətlə araşdırdıqda məlum olur ki, şair tez-tez müxtəlif mövzulara müraciət edir.İnsan zəhmətinin tərənnümü,onun məişəti, məhəbbəti,arzu və istəyi,el-obaya bağlılıq, vətən sevgisi,təbiət gozəlliklərinin tərənnümü də şairin müntəzəm şəkildə müraciət etdiyi mövzulardandır.

Ədəbiyyatımız "Göy-göl" ün gözəlliyini vəsf edən şeirlərlə zəngindir. Bu mövzu Məmməd Araz yaradıcılığında fərdi üslubi xüsusiyyətləri ilə diqqət çəkir.

Məmməd Araz "Göy-göl"ünü fərqləndirən başlıca keyfiyyət fərdilik, təkrarsızlıq və orijinallıqdır." Göy-göl " şeirindəki təsvirlər elə Göy-gölün sehirli mənzərəsi tək qəlbimizi riqqətə gətirir:

Çiskinli bir gündə gəldim bu yerə,
Dumanda görünməz, dumandı Göy-göl.
Tənha qayalara, lal meşələrə
Zülmət gecələrdə hayandı Göy-göl.
Bir səhər gördüm ki, durulub yatır,
Kəpəzin dibində burulub yatır.
Bir bala ceyran tək yorulub yatır,
Daş atdım , diksinib oyandı Göy-göl.
Döşünü qayıqlar düymə tək bəzər,
Dedim bu görkəmlə Xəzərə bənzər.
Qızını yaylağa köçürüb Xəzər.
Baxdı, cilvələndi, nazlandı Göy-göl.

Yüksək vətəndaşlıq qayəsi, vətən sevgisinin əzabına,ağrısına qatlaşmaq, Şimallı, Cənublu Azərbaycan torpağının vətəndaşlıq yükünü çəkmək, ən əsası səmimilik və reallıq-Məmməd Araz poetik dünyasının əsas qüdrəti məhz bundadır.Bu poeziyanın özünəməxsus gözəl xüsusiyyətlərindən biri də yığcam süjet ətrafında canlı lövhələr, xarakterlər vermək bacarığıdır.Həm lirik şeirlərində, həm də poemalarında Məmməd Araz fikirlərini aydın, səmimi,dəqiq və obrazlı deməyə çalışır.

A.S.Puşkin romantikasının realizmindən söhbət açan V.Q.Belinski yazırdi: "Onun poeziyası hər cür fantastiklikdən, xəyalpərvərlikdən , yalandan,süni ideallıqdan uzaqdır; Bu poeziya başdan ayağa həyatidir: bu poeziya həyatın üzünə ənlik və kirşan vurmayaraq onu təbii, əsil gözəlliyi ilə göstərir; Puşkin poeziyasında səma vardır, lakin bu yüksəklikdə həmişə torpağın nəfəsi duyulur." Bu fikirləri sadəlikdə və reallıqla bağlılıq baxımından Puşkin poeziyası ilə müqaisə edilməyə layiq olan Məmməd Araz poeziyasına da şamil etmək olar.

Poetik mərhələ üçün son dərəcə vacib olan poema janırı həyatın epik lövhələrini vermək üçün Məmməd Arazın tez-tez müraciət etdiyi formalardan biridir. Onun yaradıcılığında poema bir janr kimi epik əsaslı olub, gerçəkliyə geniş hərtərəfli baxışın ədəbi təzahür formasıdır. Özünün şair qələmini poema janırında da sınayan Məmməd Araz şeirlərin də olduğu kimi burda da uğur qazana bilmişdir. İnsan mənəviyyatının ən dərin qatlarının poetik kəşfi, fəal vətəndaşlıq mövqei bu poemaların ana xəttidir. Məmməd Arazın "Üç oğul anası " poeması qanlı-qadalı müharibədə üç oğlunu itirmiş Gülsənəm qarının taleyindən bəhs edən lirik-psixoloji poemadır. "Araz axır" poemasında zamanın sözü özünün yüksək bədii fəlsəfi əksini tapmışdır professor Qulu Xəlilovun da qeyd etdiyi kimi, bu poema sözün geniş mənasında məhəbbət poemasıdır. İnsana, Vətənə, həyata məhəbbət,bütün bəşəriyyətə məhəbbət bu əsərin əsas mayası bundan yoğrulmuşdur.Şairin Məmməd İbrahim imzasından Məmməd Araz təxəllüsünə keçidi də elə bu əsərlə bağlıdır. Şairin öz atasına həsr etdiyi"Atamın kitabı " poeması milli birlik və mənəvi ucalıq mövzusunda yazılmış lirik-fəlsəfi poemadır.Məmməd Arazın "Qayalara yazılan səs "poeması xalq şairi Səməd Vurğuna həsr olunub. Bu poemada əsl, qüdrətli sənətin ölməzliyi, əbədiliyi məsələsi canlanır. Şairin digər bir poeması ədəbiyyatımızda inqilabi satiranın banisi, qüdrətli şair Mirzə Ələkbər Sabirə həsr olunmusdur. "Məndə insan

oldum" adlı bu poemada Sabir tərəfindən dərin məhəbbətlə tərənnüm olunan fəhlə həyatının geniş təsviri verilmişdir. Mövzusu kənd həyatından götürülmüş "Kəndim, balacasan çox balacasan" poeması müəllifin doğma yurd yerinə sevgisindən yaranmışdır.Süjeti çox sadə olan "Paslı qılınc " poeması ailə-məişət məsələlərindən bəhs edir.Şairin "Əsgər qəbri haqqında ballada" poeması müharibənin törətdiyi fəlakətlərə, xalqımızın qəhrəmanlığına həsr olunmuşdur. "Qoca arıçı ilə " söhbət poemasında təbiətlə insanlığın müqaisəsi verilir. Qüdrətli şair öz ibtidasından uzaq düşən ,korlanan insanın təbiətlə müqaisədə öz saflığını itirdiyini təsvir edir. Məmməd Araz güclü təfəkkürə malik , daim axtarışda olan şairlərimizdəndir. Onun həyatın mahiyyətindən doğan lirik şeirləri və poemaları geniş oxucu kütləsinin məhəbbətini qazanmış və ədəbiyyatımızı zənginləşdirməyə xidmət etmişdir.

Məmməd Arazın poetik dünyasında hər şey var; sevgi, həsrət, ayrılıq, dərd, kədər, iztirab, sevinc, şadlıq, ümid, inam, hıçqırıq, üsyan,qəhrəmanlıq, cəsarət, əmir, nəsihətdaha nələr ,nələr tapmaq olmaz ki, bu zəngin dünyada! Mayası səmimiyyət, qayəsi həqiqət olan" Bu dünya" milli-mənəvi varlığımıza ucaldılmış əbədiyyət abidəsidir. Azərbaycan təfəkkürünün" istiqlal çələngi" olan bu abidə tarix bizdən uzaqlaşdıqca ,bizə daha da yaxınlaşacaq, öz möhtəşəmliyi qarşısında hamını heyran qoyacaqdır!

Ədəbiyyat

1.Məmməd Araz seçilimiş əsərləri, Lider nəşriyyatı,Bakı-2004
2.Məmməd Araz seçilmiş əsərləri, Bakı,2010,656 səh.
3.Məmməd Araz, Dünya sənin,dünya mənim...,Bakı,1983,310 səh.
4.V.Yusifli, Məmməd Araz dünyası,Bakı,1994
5. Məmməd Araz, Daş harayı şeirlər kitabı, Bakı,1992
6.Həbibbəyli .İ, Xalq şairi Məmməd Araz, Bakı: Azərbaycan 1999,160 s.

Мая Юсифова

Мир начинающийся из Араза
(на основе творчества Мамеда Араза)
Резюме

Основная цель исследования заключалась в определении личного художественного стиля М. Араза, определить его основные различия от других поэтов и открыть его личные художественные и стилистические качества. Выявления индивидуальные стилистические особенности любой литератур очень важный вопрос.Идеальная глубина чувства и мыслей поэта составляет единство и зарождается идеальные стихи.Только тогда стихи становится более естественный. Лирическое «Я» Mameda Араза неразделимо от внутренного «Я». Мамед Араз создал мир, который начинается с Араза. Таким образом, внутренняя жизнь поэта, есть биения его сердца. Мехмет Арас был поэтом сердца. Он поэт глубокой духовности.Исследования доказывает, что творчество Мамеда Араза оригинальны и неповторимы.

Maya Yusifova

A World which is Beginning From Araz
(Based on M.Araz creativity)
Summary

The purpose of investigation is defining individual artistic phraseology of Memmed Araz and expocing different genres that he used and were not present in other poets ' writing styles'. The importance of describing any authors artistic style is very high in the literature for that reason this topic is quite actual. While the inner world of an author combines with his creativity then an ideal poem is born. An inner world of Memmed Araz was never apart from his poetic world, on the contrary, they both come together and end with a creation of new world which is called – A world which is Beginning From Araz! Memmed Araz was a heart of the poets, He was against to bring strange and unhappened feelings to poems. Analysis of Memmed Araz poets shows that these pieces of work were unique and non replaceable.

Rəyçi: Ağaverdi Xəlilov
filologiya üzrə fəlsəfə doktoru, dosent

QƏDİM QUBADOV
qedim.kerimoglu@gmail.com

XV-XVI ƏSRLƏR AZƏRBAYCANDA İCTİMAİ-SİYASİ MÜHİT VƏ SƏFƏVİ-QIZILBAŞ ŞAİRLƏRİ

Ключевые слова: Мистика, Секта, Сефевие, Литература.
Key words: Mystics, Sect, Safaviyya, Literature
Açar sözlər: Sufizm, təriqət, səfəviyyə, ədəbiyyat

XV-XVI əsrlər Azərbaycan taixində ictimai-siyasi və ədəbi baxımdan yüksəliş dövrü kimi xarakterizə edilə bilər. Həmin dövrdə mərkəziləşmiş dövlət uğrunda mübarizə ölkənin həyatında mühüm yer tutmuşdur. Bu mübarizədə ilk öncə, Qara Yusifin başçılığı altında mərkəzi Təbriz şəhəri olmaqla çox geniş əraziləri əhatə edən Qaraqoyunlular dövləti (1410-1467) qurulmuşdur. Az bir müddət keçdikdən sonra Qaraqoyunluların yerində Ağqoyunlular sülaləsi (1467-1501) qərarlaşmışdır. Həmin sülaləni də əvəz edərək Şah İsmayıl Xətainin başçılığı ilə təsis edilən Səfəvilər dövləti (1501-1736) həm öz hüdudlarının genişliyi, həm də bir dövlət olaraq sağlam təməllər üzərində qurulması baxımından özündən əvvəlki hər iki xanədandan fərqlənmiş və mövcud olduğu dövrdə şərqin ən qüdrətli dövlətlərindən biri kimi tarixdə öz yerini tutmuşdur. Hər üç sülalənin soy-kök etibarı ilə xalis oğuz türkü olması, türk dilinin inkişafına rəvac vermiş, xüsusən də Səfəvilər dövründə türkcənin rəsmi dövlət dili səviyyəsinə yüksəlməsi ilə nəticələnmişdir. Bu ciddi hadisə siyasi-ictimai həyatın bütün sahələrini əhatə etdiyi üçün o dövrdə yaranan ədəbiyyata da təsir etmiş, türkdilli ədəbiyyatın inkişafını sürətləndirmişdir. «Həmin vaxtda hökmdarlar öz sarayları ətrafında doğma dildə qələm çalan şairləri toplamağa üstünlük verirlər. Qaraqoyunlu hökmdarı Cahanşah "Həqiqi" təxəllüsü ilə ana dilində gözəl lirik əsərlər yaradır. Xətai, nəinki anadilli ədəbiyyatın klassik üslubda yazan şairlərini himayə edir, onun hakimiyyəti illərində ozan aşıq ədəbiyyatı da genişlənib vüsət tapır. Bu dövr Hidayət, Hamidi, Kişvəri, Şahi, Süsəni, Tüfeyli, Həbibi və daha başqa yüzlərlə doğma dildə yazıb-yaradan şairləri ilə tanınır. Azərbaycan türkcəsində şeirin tacidarı, dünya şöhrətli Məhəmməd Füzuli də bu dövrün yetirməsidir» [1, 86].

XV-XVI əsrlərin ədəbi hadisələri içərisində xarakterik xüsusiyyətlərdən biri də həmin vaxtlarda tərcümə ədəbiyyatının geniş vüsət almasıdır. Bu dövrdə ərsəyə gəlmiş çoxsaylı tərcümələr içərisində ən mükəmməli Hüseyn Vaiz Kaşifinin "Rövzətüş-şühəda" (Xöşbəxtlər bağı) adlı məqtəlinin böyük Füzuli tərəfindən edilmiş "Hədiqətüs-süəda" adlı tərcümə əsəridir. M. Füzulinin türkcəyə cevirdiyi digər bir əsər, Ə. Camininin "Hədisi-ərbəin"idir (Qırx hədis). "Rövzətüş-şühəda" məqtəli dövrünün digər şairi Məhəmməd Hüseyn Nişati tərəfindən də "Şühədnamə" adı ilə türk dilinə tərcümə olunmuşdur. Adı çəkilən şair, həmçinin "Şeyx Şəfi təzkirəsi"ni də türkcəyə çevirmişdir. Təbii ki, həmin vaxtda meydana gələn çoxsaylı tərcümə nümunələri və onlara yazılan şərhlər türk ədəbi dilinin inkişafına və cilalanmasına kömək etmişdir.

F. Köprülünün qeyd etdiyi kimi, «XV əsrin sonu və XVI əsrdə yetişən böyük şairlərin fəaliyyəti ilə türk ədəbiyyatının ən yüksək mərtəbəyə catması, digər yandan Cami ilə böyük dövrü qapanan İran ədəbiyyatının XVI əsrdə nüfuz və əhəmiyyəti türk klassik şairləri tərəfindən də təsdiq ediləcək böyük şairlər yetişdirməməsi nəticə-

sində şairlərimiz arasında artıq Iran ədəbiyyatının Türk ədəbiyyatından üstün olmadığı inamını yaratmışdır. Qədim tərcümələrin, iqtibasların yanında mövzularını daha çox yerli ədəbiyyatdan alan əsərlər xeyli çoxalmışdır. XVI əsrdə Osmanlı və Səfəvi mücadiləsi kimi İran və Anadolu türkləri arasına olan bir növ rəqabət də bunda təsirli rol oynamışdır» [2, 341].

XV-XVI əsrlər ədəbiyyatının özəlliklərindən ən mühümü şübhəsiz ki, dini-təsəvvüfi mövzuların və təriqət ədəbiyyatının həmin dövr ədiblərinin yaradıcılığında xüsusi yer tutmasıdır. Sufizmin və təriqətlərin yayılmasında ədəbiyyatın, xüsusən də poeziyanın ciddi şəkildə rol oynaması danılmaz həqiqətdir. Xalqın şeirə olan meyilindən yararlanmaq fikri, şeyxləri rəhbərlik etdikləri təriqət ətrafında bədii bir mühit yaradaraq daha cazibədar etmək üçün təşviq etmişdir. Beləliklə, sufilər öz ideyalarını xalq arasında yaymaq və onlardan tərəfdar qazanmaq üçün şeirin vasitəçiliyinə müraciət etməyi üstün tutmuşlar. Bu üzdən «Səfəviyyə» şairləri də mənsub olduqları təriqətin ideoloji əsaslarının yayılmasında şeirin imkanlarından uğurla istifadə etmişlər.

Qeyd etmək lazımdır ki, təsisçisi Şeyx Səfiəddinin adına uyğun olaraq «Səfəviyyə» adı ilə tarix səhnəsinə çıxan bu təriqət Şeyh Heydərdən başlayaraq başlarına taxdıqları 12 dilimli qırmızı başlığa görə, həm də «Qızılbaşiyyə» adlanmışdır. Həmin dövrdən sonra bu təriqətlə bağlı müxtəlif qeydlərdə «Səfəviyyə» və «Qızılbaşiyyə» adları paralel olaraq işlənmişdir. Ona görə də araşdırıcılar, bu təriqətə bağlı olan şairlərin yaradıcılığından bəhs edərkən "Qızılbaş ədəbiyyatı" ifadəsindən yararlanmış və həmin şairləri "qızılbaş şairləri" adlandırmışlar. Bizcə, haqqında danışılan təriqətə mənsub şairlərdən danışarkən "Səfəvi-qızılbaş şairləri" ifadəsi daha münasibdir və həmin şairlərin yaradıcılığına daxil olan bütün nümunələr də "Səfəvi-qızılbaş ədəbiyyatı" adlanmalıdır.

«Səfəviyyə» ocağına bağlı olan şairlərin yaradıcılığı ayrı-ayrılıqda az və ya çox dərəcədə tədqiq edilsə də, konkret bir təriqət ədəbiyyatı kimi küll halında tədqiq edilməmişdir. İlk dəfə bu təriqətlə əlaqəsi olan şairlər haqqında məlumat verən F. Köprülü qeydlərində; «Xətaiydən başlayaraq bir çox qızılbaş şairi yetişmişsə də bunlar haqqında tamamilə tarixi bir tədqiq yapmaq imkanı yoxdur. Yalnız əlimizdə müxtəlif qızılbaş şairlərinə aid çeşidli şeirlər olduğu üçün bu ədəbiyyatın da bəktaşi ədəbiyyatından fərqlənməməsi qənaətindəyik» fikrini bildirmişdir (3, 351). Ondan sonra bu sahədə araşdırma aparan türkiyəli tədqiqatçıların tam əksəriyyəti, müəyyən istisnalarla «Səfəviyyə» təriqətinə bağlılığı heç bir şübhə doğurmayan müxtəlif qızılbaş şairləri haqqında danışarkən, onları "Ələvi-bəktaşı ədəbiyyatı"nın nümayəndəsi kimi təqdim etməyə daha çox üstünlük vermişlər. Bunun da təbi səbəbləri var. İstər qızılbaşlıq, istərsə də bəktaşilk əksər xüsusiyyətlərinə görə bir-birinə çox yaxın olmuşdur. Hər iki təriqət tərəfdarlarının milli-etnik tərkib etibarı ilə, əsasən türklərdən təşkil olunması, həm qızılbaşlığın, həm də bəktaşiliyin dini-ideoloji baxımından heterodoksal mahiyyət daşıması və məhz buna görə də ortodoksal sünni osmanlılar tərəfindən təqib olunması həmin təriqətləri bir-birinə daha da yaxınlaşdırmışdır.

Orta əsr qaynaqlarında da bu təriqətlərin sıx əlaqədə olması ilə bağlı qeydlər öz əksini tapmışdır. Anonim müəllif tərəfindən yazıya alınmış "Aləmarayi Səfəvi"dəki qeydlərə görə, Hacı Bəktaş Vəlinin müridi olan Dədə Məhəmmədin tərəfdarları Məkkəyə ziyarətə getmək üçün ondan izn istəyərkən o, ilk öncə Şah İsmayıla baş çəkməyə və ondan sonra Məkkəyə getməyə icazə vermişdir [4, 45].

Göründüyü kimi, Bəktaşi təriqətinə bağlı olan müridlərin Ərdəbil darül-irşadını

müqəddəs hesab edərək hətta, həcc ziyarətindən əvvəl xüsusi olaraq səfəvi şeyxlərini ziyarət etmələri bu təriqətlərin çox ciddi şəkildə bağlılığından xəbər verir. Ən müxtəlif xüsusiyyətlərinə görə oxşar olan «Səfəviyyə» və «Bəktaşıyyə» təriqətlərinin ətrafında olan şairlərin poeziyası da forma və məzmun baxımdan çox yaxın olmuşdur. Ona görə də müəyyən cəhətləri üst-üstə düşən və oxşar taleləri yaşayan, amma birbirindən fərqli təriqətlər olan «Səfəviyyə» və «Bəktaşıyyə»yə bağlı şairlər türkiyəli tədqiqatçılar tərəfindən bir ad altında "Ələvi-bəktaşi şairləri" kimi elm aləminə təqdim edilmişdir. Bu kimi araşdırmalarda, hətta Şah İsmayıl Xətainin də adı ələvi-bəktaşi şairlərinin siyahısına salınmışdır. Bu fikrin bütünlüklə yanlış olduğu qətiyyən şübhə doğurmur. Şah İsmayıl Xətai səfəvi-qızılbaş ədəbiyyatının yaradıcısı olmaqla yanaşı, ən böyük nümayəndəsidir. Bir təriqətdən dövlət yaratmağa, şeyxliyi şahlığa çevirməyə çalışan [5, 11] Xətai, bir tərəfdən sərkərdəlik məharətindən, digər tərəfdən çox güclü təbliğat vasitəsi kimi, şeyxi olduğu təriqətin üsul və adabından bəhs edən şeirlərindən istifadə etmişdir. Xətai bir şair olaraq qüdrətli qələmi, yüksək poetik təxəyyülü ilə ədəbi məktəb səviyyəsinə qalxmış səfəvi-qızılbaş təriqət ədəbiyyatını sistemləşdirərək Pir Sultan Abdal, Qul Himmət, Qul Nəsimi, Dərdli və b. bu kimi xalq arasında çox sevilən ardıcıllar yetişdirmişdir.

Türk ədəbiyyatşünaslığında ələvi-bəktaşi şairi kimi təqdim olunan və hətta həmin təriqət ədəbiyyatının ən lirik şairi hesab edilən Pir Sultan Abdal da, həm daşıyıcısı olduğu məfkurə baxımından, həm yaradıcılığı etibarı ilə səfəvi təriqət mənsubudur. Belə ki, bir şeirində «Gidi Yezid bizə qızılbaş demiş, məgər şahı sevdi desə yeridir» deyərək özünü qızılbaş adlandıran və məhz bu ideologiya uğrunda apardığı mübarizəyə görə edam olunan Pir Sultan Abdalın da səfəvi-qızılbaş şairi adlanması daha məntiqə uyğundur. Haqqındakı əfsanələr də onun Sivas ərazisində səfəvi xanədanına bağlı olan qızılbaş tayfaları arasında yetişməsi fikrini doğurur [6, 634]. Pir Sultan Abdal öz şeirlərində mənsub olduğu təriqətin dünyagörüşünü, din anlayışını ifadə etməklə yanaşı, həmçinin, başına gələnləri, qarşılaşdığı hadisələri, çəkdiyi iztirablar və eləcə də həyatının ən müxtəlif tərəflərini ifadə etmişdir:

Məğribdən çıxar görünü-görünü,
Kimsə bilməz övliyanın sirrini,
Koca Heydər şahi-cihan torunu,
Əsli, nəsli gözəl imam gəlir [7, 168].

bu dördlüyünə əsasən Pir Sultan Abdalın XVI əsrdə yaşadığı təxmin edilir. Digər şeirlərinə də diqqət yetirərkən yuxarıdakı fikir təsdiqini tapır:

Gözəl şahım çox yerlərdən görünür,
Əsli nədir, nəyə verdin Bağdadı?
Şahım birdir, minbir dona bürünür,
Əsli nədir, nəyə verdin Bağdadı [7, 97].

Osmanlı hökmdarı Qanunî Sultan Süleymanın 1534-cü ildə səfəvilərin əlində olan Bagdadı Osmanlı ərazisinə birləşdirməsi, səfəvi tərəfdarı olması araşdırıcılar tərəfindən birmənalı olaraq qəbul edilən Pir Sultan Abdala ciddi şəkildə təsir etmiş və həmin tarixi hadisəni şair yuxarıdakı şeirində ifadə etmişdir.

Pir Sultanın yaşadığı XVI əsrdə doğulub boya başa çatdığı Anadoluda baş verən dini və ictimai-siyasi hadisələr heç şübhəsiz ki, onun həyatında və yaradıcılığında mühüm rol oynamışdır. XVI əsrdə Səfəvi və Osmanlı imperiyalarının Şərqi Anadolu uğrunda apardığı amansız rəqabət tarixdən məlumdur. Həmin vaxtda bu ərazidə söz sahibliyini əldə etmək istəyən səfəvilər öz dini ideologiyaları olan qızılbaşlıqdan məharətlə yararlanırdılar. Səfəvi hökmdarları Anadoludakı müridləri ilə daim əlaqə saxlayır, onları öz xəlifələri vasitəsi ilə mütəmadi olaraq təlimatlandırırdılar.

Osmanlı sultanı Səlim (1512-1520) imperiyasına çox ciddi şəkildə təhlükə törədən Səfəvi tərəfdarlarını zərərsizləşdirmək üçün amansız tədbirlərə əl atmışdır. Doğulub boya-başa çatdığı Şərqi Anadolu uğrunda Səfəvi və Osmanlı hökmdarlarının amansız rəqabət apardığı bir vaxtda, yalnız hökmdar deyil, həm də bağlı olduğu təriqətin mürşidi olan səfəvi şahlarının leyhinə, osmanlı idarəcilərinə qarşı Anadolu xalqını üsyana təşviq etməsi Pir Sultan Abdalın edam etdirilməsinin başlıca səbəbidir. Belə ki, həmin vaxtda Osmanlı din xadimlərinin qızılbaşlıq əleyhinə verdikləri fitvalara uyğun şəkildə məmurlar tərəfindən bu təriqətin Anadoludakı tərəfdarlarının kütləvi şəkildə təqib və qətliamına baxmayaraq mənsub olduğu təriqətin ciddi şəkildə təbliğ etməsi, çox təbii ki, şairin edamı ilə nəticələnmişdir.

Türkiyəli araşdırıcılar tərəfindən ələvi-bəktaşi şairi kimi təqdim edilən digər bir şair Qul Himmətdir. Soy şəcərəsinə görə səfəvilərlə eyni kökdən olan və bütün poeziyası ilə qızılbaşlığı təbliğ edən Qul Himmətin də adının səfəvi-qızılbaş şairləri ilə bir sırada çəkilməsi daha doğrudur. Qul Himmətin yaşadığı dövr, yetişdiyi mühit və şəxsiyyəti ilə bağlı fikirlərin istinad yeri şairin günümüzə qədər gəlib çatan şeirləridir. Səfəvi-qızılbaş ədəbiyyatının üçüncü böyük nümayəndəsi olan bu şairin məhz şeirlərinə istinadən soy etibarı ilə səfəvilərlə eyni kökdən gəldiyi məlum olur. Şairin dəfn edildiyi kənddə yaşayan Qul Himmətli dədələrdən toplanmış Qul Himmətə məxsus şeirdə, özü «Əslimiz Şahi-Ərdəbildən gəlir, babam Məhyəddin İrandan gəlir» kimi misralarla soy-kökünün Ərdəbildən Ruma köçdüyünü və Şeyx Səfiəddinin törəmələrindən olduğunu qeyd edir:

Əslimi sorarsiniz behey sofular,
Əslimiz on iki imamdan gəlir.
Əslimi-nəslimi deyəyim sizə,
Əslimiz Əhmədi-Muxtardan gəlir.
Şeyx Səfinin dədəsi Salehdən gəlir.
Salehin oğlu Əminəddin Cəbrayıl,
Şeyx Səfi kimi imamdan gəlir.
Bu dünyada pozulunca əslimiz,
Cəddi-pakim Ərdəbildən gəlir [9, 6-8].

"Səfvəttüs-səfa"da daxil olmaqla bütün səfəvi mənbələrində bu xanədanın soyu ilə bağlı qeydlərlə Qul Himmətin yuxarıdakı şeirində öz soykökünə aid verdiyi məlumat bəzi adların olmamasına rəğmən demək olar ki, üst-üstə düşür. Şairin bu şeirini ilk dəfə yazıya almış İrfan Çoban Qul Himmətin şəcərəsi ilə Şah İsmayılın şəcərəsini qarşılaşdıraraq onların əmioğlu olduğunu bildirir [8, 18]. Onun fikrincə, Qul Himmət Şah İsmayılın babası Şeyx Cüneydin (v.1460) Məhyəddin adlı oğlunun nəvəsidir. Amma, Şeyx Cüneydin Məhyəddin adlı oğlu olması ilə bağlı heç bir mənbədə məlu-

mat yoxdur. Səfəvi soyundan gələn bütün şeyxlər haqqında ən ciddi qaynaq hesab olunan H.Z.Gilaninin "Silsilətün-nəsəbi-Səfəviyyə", eləcə də digər mənbələrdə Şeyx Cüneydin Şeyx Heydər və Şeyx Məhəmməd adlı yalnız iki oğlu olduğu qeyd edilir. Ona görə də İrfan Çobanın yuxarıdakı fikirləri özünü doğrultmur. Şah İsmayılla Qul Himmətin qohumluq dərəcəsi ilə bağlı İ. Qayğusuzun fikirləri daha ağlabatandır; «Şair babasının adının Məhyəddin olduğunu və əslinin Ərdəbildən gəldiyini bildirir. Şah İsmayıl ilə təxminən müasir olan Qul Himmət Şeyx Səfiəddinin VI nəsildən törəməsidir. Bir neçə beyt içərisində verildiyi, ancaq günümüzə qədər gəlib çatmadığını düşündüyümüz Qul Himmətin babalarının adını öyrənmək olmur. Buna rəğmən, digər Ərdəbil şeyxlərinin adının keçməməsi, babasının adının Məhyəddin olması bizdə onun Şeyx Səfiəddinin beş oğlundan biri olan Məhyəddinin soyundan gəldiyi qənaətini oyandırmaqdadır. "Bu dünyada pozulunca əslimiz, cəddi-pakım Ərdəbildən gəlir" beytindən Ərdəbil dərgahı postuna oturmaq üçün haqq qazanmamış Məhyəddin, ya da oğlunun Ərdəbildən Anadoluya gəldiyi anlamı çıxa bilər» [10, 249]. Şeyx Səfiəddinin Məhyəddin adlı oğlunun olması mənbələrdən məlumdur. "Silsilətün-nəsəbi-Səfəviyyə" müəllifinin qeydlərinə görə, Şeyx Səfiəddinin beş övladının birincisi olan şeyx Məhyəddin hələ atası həyatda olarkən vəfat etmişdir [11, 36]. Qul Himmətin, məhz həmin Məhyəddinin törəmələrindən olması daha çox ehtimal olunur.

Səfəvi soyundan gələn bir çox şeyxlərin ayrı-ayrı vaxtlarda müxtəlif ərazilərə köçməsi və məskunlaşdığı ərazilərdə «Səfəviyyə» təriqətini təbliğ etməsi ilə bağlı qeydlərə mənbələrdə təsadüf edilir. Səfəvi əsilli şeyxlərin Şərqi Anadoluya köçməsinə və orada şiə-batini inanclı türkmənlər arasında təriqətçilik fəaliyyəti göstərməsinə daha çox təsadüf edilir. Bunun köklü səbəbləri var. Hələ, Şeyx Səfiəddinin (v.1334) təriqətə rəhbərlik etdiyi vaxtlarda Şərqi Anadoludan kütləvi şəkildə insanların Ərdəbilə gələrək «Səfəviyyə» təriqətinə mürid olmaları qaynaqlarda əks olunmuşdur. Onun oğlu Şeyx Sədrəddinin (v.1393) vaxtında həmin ərazilərdən Ərdəbilə gələn müridlərin sayı isə daha da çoxalmışdır. Şəfəvi şeyxlərinin şiə-batini türkmənlər arasında xüsusi rəğbət oyatması təsadüfi olmamışdır. "Səfvəttüs-səfa" müəllifinin qeydlərinə görə, Şeyx Sədrəddin 1308-ci ildə Həcc ziyarətinə getmiş, ziyarət əsnasında Mədinə hakimi Səlahəddin Əhməd bin Hüseynə VI babası Firuzşah Zərrinkülahın soy ardıcıllığını VIII imam Museyi Kazıma qədər çatdığını təsdiq etdirmişdir [12, 233]. Bundan sonra, səfəvilər özlərini Hz.Əli soyundan saymış və tərəfdarları da qəti olaraq bu fikri qəbul etmişdir. Hz.Əli və Əhli-beytə çox bağlı olan türkmənlər də seyid kimi tanınan səfəvi şeyxlərinə xüsusi ehtiram göstərmişlər. Ona görə də Ərdəbildə mövqe tuta bilməyən və yaxud da etibardan düşmüş Şeyx Səfiəddinin törəmələrindən bir çoxunun Anadoluya üz tutaraq peyğəmbər soyundan olan seyidlər kimi ələvi türkmənlər arasında dədəlik vəzifəsini icra etmişlər. Qul Himmətin də babalarının bu məqsədlə Anadoluya getməsi güman edilir.

Çox az istisnalarla əksər şeirlərini ana dilində yazan səfəvi-qızılbaş şairləri ənənəvi türk şeir vəzni olan hecaya və bu vəzndə olan janrlara üstünlük vermiş, demək olar ki, tamamilə milli bir ədəbiyyat yaratmışlar. Ədəbi-estetik ifadə tərzi, mövzu və janr əhatəsi, eləcə də terminologiyası və dünyagörüşü baxımdan tamamı ilə orijinal bir ədəbiyyat olan «Səfəviyyə» təriqət poeziyası ideya qaynaqları baxımından çox ciddi şəkildə milli köklərə bağlıdır. Şifahi xalq ədəbiyyatının zəngin ənənələrindən də böyük ölçüdə yararlanan bu təriqətə bağlı olan şairlərin yaradıcılığı özündən əvvəlki çoxəsrlik türk

təriqət poeziyasının uğurlu davamıdır. Belə ki, Əhməd Yəsəvi tərəfindən əsası qoyulan Yunus Əmrə, Abdal Musa və Qayğusuz Abdal tərəfindən ən yüksək səviyyəyə qaldırılan təsəvvüfi türk xalq ədəbiyyatı bu millətin yayıldığı bütün çoğrafiyalarda yaranan çeşidli təriqətlərin ətrafında formalaşan poeziyaya təsir etdiyi kimi «Səfəviyyə» şairləri üçün də əsas ideya qaynağı olmuşdur. Bütün parametrləri ilə milli bir xüsusiyyət daşıyan «Səfəviyyə» təriqətinə bağlı olan şairlər, təbi olaraq öz yaradıcılıqlarında daha çox doğma dilə və milli heca vəzninə üstünlük vermişlər. Səfəvi-qızılbaş şairləri həm klassik, həm də xalq şeir şəkillərində yaradıcılıqla məşğul olmuşlar. Daha çox heca vəznində ədəbi nümunələr ərsəyə gətirən bu şairlərin əksər hallarda müraciət etdikləri şeir janrları qoşma, gəraylı, varsağı, bayatı, ilahi, nəfəs və s. kimi xalq tərəfindən şox sevilən və əzbərlənərək qısa müddətdə mənimsənilən poetik nümunələrdir.

Ədəbiyyat

1. Rüstəmova A. Mənəvi dünənimiz bu günün işığında, Bakı: Elm, 2011
2. Köprülü F. Edebiyyat araşırmaları, Ankara: TTK Basımevi, 1986
3. Köprülü F. Tük edebiyatında ilk mütasavıflar, TTK Basımevi, 1991
4. Aləmarayi Şah İsmayıl, Tehran: Bünyadnəşr, 1349
5. Hikmət İ. Azərbaycan ədəbiyyatı tarixi, II c. Bakı:Azərnəşr, 1928
6. Banarlı N.S. Resimli Türk Edebiyyatı, İstanbul: Milli Egitim Basımevi, 2001
7. Arslanoğlu İ. Pir Sultan Abdallar, İstanbul: Erman Yayınları, 1984
8.Gölpinarlı A. Kayğusuz Abdal, Hatayi, Kul Himmet. İstanbul: Ekin Basımevi, 1962,
9. Turqut K. Bektaşi şairleri ve nefesleri, İstanbul: 1991
10. Kaygusuz İ. Alevilik, kültür, siyaset tarihi ve ululları, I c. İstanbul, Alev Yayınları, 1995
11. Gilani H. Z. Silsilətün-nəsəbi-Səfəviyyə, Berlin: İrannəşr, 1343
12. Gölpinarlı A. 100 Soruda Tasavvuf. İstanbul: Gerçek Yayınevi, 1969, 215 s.

Gadim Gubadov

Social-political atmosphere in Azerbaijan and safavid-qizilbash poets during xv-xvi centuries

Summary

One of features of XV-XVI centuries' literature undoubtedly is special importance of literary men activities for that period on religious-mystical subjects and sect literature. It is indisputable truth that literature, especially poetry has played serious importance role in spreading of Sufism and sects. Owing to it "Safaviyya" poets used poem opportunities successfully in spreading ideological basis of belonging sect.

Гадим Кубадов

Общественно-политическая среда и сефевидские поэты кызылбаши в Азербайджане XV-XVI веков

Резюме

Самым значительным из особенностей литературы XV-XVI столетий несомненно является особое место которое занимают религиозно-мистические темы и сектантская литература в творчестве литераторов того периода. То, что литература и в особенности поэзия занимают особую роль в распространении суфизма и сект является непреложной истиной. Поэтому поэты «Севевие» успешно воспользовались возможностями поэзии в распространении идеологических основ секты, к которой они принадлежат.

Rəyçi: Ə. Səfərli
AMEA-nın müxbir üzvü, f.e.d

BÖYÜKAĞA MOLLAYİ
BDU-nun Doktorantı
E.b.mollayi@gmail.com

QACAR AİLƏSİNDƏN İKİ ŞAİR

Açar sözlər: Cahansuz Mirzə, Cahansuz Darai.
Key words: Jahansuz Mirza, sons of Amirkhosro, poets of Ghajar, the poets of modern Zenjan, Jahansuz Darayi

Abdulla Mirzə Fətəli şahın oğlu, Xəmsə əyalətinin hakimi və Qacar dövrünün tanınmış şair və alimlərindən biridir. Təxəllüsü "Darai" olduğuna görə Zəncanda onun ailəsinə "Darai ailəsi" deyirlər. Abdulla Mirzənin 30 uşağı olub, beşinci oğlunun adı Xəlilullah Mirzədir. Xəlilullahın siyasətçi oğlunun adı Xosrov Mirzə, Xosrov Mirzənin oğlu Əmir Xosrov Darai, ləqəbi Bürhan o əssəltənə, təxəllüsü isə "Xosrov"dur (1, səh 4).

Xosrov məşhur alim olmaqla yanaşı, həm də Zəncan ədəbi mühitində xüsusi mövqeyi olan şairlərdən biridir. O, ədəbiyyat aləminə üç böyük töhfə vermişdir:

1. "Şekəristan" ("Kəlilə və Dimnə"nin farsca nəzmlə tərcüməsi);
2. "Ərməqane-Zendan" (Şair Azərbaycan Demokrat Firqəsinin uğursuzluğundan sonra həbs olunur, bu əsər onun həbsxanada yazdığı xatirələrdən ibarətdir);
3. "Divane Əmir Xosrov", 27000 beytdə (2,səh 23).

Aşağıda başlanqıcı və sonu dərc olan qəzəl şairin şeirlərindən nümunədir:

Qəmzə öyrənsin gərək səndən əgər cananələr,
Məndən öyrənsin gərək divanəlik divanələr,
Gər düşəm divanədək bazarə haqqım var mənim,
Mən sənin rüsvaye eşqin kam alan biganələr.
Sən gözəllik şöhrətində mən bəlayi- eşqidə
Qoy yazılsın qan ilə aləmdə bu əfsanələr
Məst olmaz badədən Xosrov əgər dərya içə
Etməsə məstanə gözlər, qəmzeye məstanələr (3,səh 68).

Bu məqalənin əsas məqsədi Bürhan o əssəltənənin oğlu və onun tərbiyəsi ilə təkamülə yetişən Cahansuz Mirzəni tanıtdırmaqdır.Cahansuz Mirzə Fətəli şahın nəvəsinin nəvəsi hesab olunur. Bürhan o əssəltənənin beş şair, alim və yazıçı övladı olmuşdur (üç oğlan və iki qız). Onların adları: Cahansuz, Cahangir, Mənüçöhr, Azadə və Behindoxtdur (4, səh 170).

Cahansuz Mirzə 1925 -ci ildə yuxarı Tarımın Bənarud kəndində anadan olmuşdur. 1028-ci ildə ailəsi ilə bərabər Zəncan şəhərinə köçmüşdür. 1942-ci ilə qədər bu şəhərin yeni məktəblərində təhsil almış, orta məktəbi burada bitirmişdir. Cahansuz gənclik çağında atasının təsiri ilə şeir, ədəbiyyat və siyasətlə tanış olaraq bu sahələrlə maraqlanmışdır (4, səh. 135).

Şair 21 yaşına olanda Güney Azərbaycanda Seyid Cəfər Pişəvəri qiyamı başlanır və Cahansuz 1946-cı ildə atası ilə bərabər Zəncan Demokrat Firqəsinə qoşulmuşdur. "Firqə" hərəkatı uğursuzluğundam sonra atası ilə birlikdə Şah rejimi tərəfindən həbs olunmuşdur. O, "Türmə xatirələri" adlı bir kitabında bu acı olayla bağlı belə yazır: "1947-cı ildə atam ilə bərabər Tarımda yaxalanandan sonra Zəncanın

polis məntəqəsinə gətirildik. Zəncan Hərbi Məhkəməsində sınaqdan keçdik, Zonanın xanlarının təklifi və təzyiqi ilə ilkin məhkəmə atama və mənə ölüm cəzası təyin etdi. Biz bu qəddar qərara etiraz etdik və ikinci məhkəmə atamın cəzasını ömürlük həbsə və mənim cəzamı isə 10 il həbsə çevirdi" (5, səh 13).

Cahansuz öz əlyazma xatirəsi əsasında, dörd aya yaxın Zəncan həbsxanasında qalır və sonra Tehrana aparılır. Paytaxtda əvvəlcə "müvəqqəti polis qazamatında", sonra isə "Qəsr" türməsində saxlanılır. Şair iki il çox çətin vəziyyətdə həbsdə dəhşətli işgəncələrə məruz qalır, iki ildən sonra ölkənin milli məclisinin qərarı ilə "Firqə" məhbusları bağışlanır. Şair atası ilə birlikdə Tarıma qayıdır. O, bu acı olayı belə xatırlayır: "Türmədən çıxandan sonra kəndə qayıtdım, hamı ilə əlaqəmi kəsdim və əkinçilik ilə məşğul oldum" (5, səh 27).

Şair türmə ilə bağlı öz düşüncələrini belə qələmə alır: "Türmə böyük bir universitetdir. Orada insanlara müqavimət, sabitlik, səbr, dözüm, cəsarət, coşqunluq, polis ilə davranış tərzi, məhkəmə qarşısına çıxma qaydası, antropologiya, psixologiya, hüquq, birlik, etimad və s. dərslər keçirilir, kimsə məhbus olmadan bu dərsləri öyrənə bilməz" (5, səh 11).

Şair bir neçə ildən sonra Zəncana köçür, ömrünün sonuna qədər bu şəhərdə yaşayır və 2002-ci ildə dünyasını dəyişir.

Cahansuz gənclik çağlarından şeir yazıb şairlər cərgəsinə qoşulmuşdur. O, başıbəlalı bir siyasətçi olsa da, heç zaman şeir və ədəbiyyatı unutmamış, bu sahədə çalışmaq onun əsas qayələrindən biri olmuşdur.Cahansuz azad düşüncəli, xalqı dərin məhəbbətlə sevən, zarafatcıl və müxtəlif mövzularda türkcə və farsca gözəl şeirlər yazan məharətli bir ədib olmuşdur.

Təəssüflə qeyd etməliyəm ki**,** Cahansuzun bütün əsərləri bu zamana qədər çap olunmaq fürsəti tapa bilməmiş, şairin dostu Zeynəlabidin Kələntəri tərəfindən əmanət kimi saxlanılmışdır. Onun şeirləri mənaca əngin, ədəbi bəzəklərlə zəngindir. Şair öz dilinin incəliklərini dərindən öyrənmiş, dünya ədəbiyyatının yenilikləri ilə tanış olmuş və milli ədəbiyyata gözəl yeniliklər gətirmişdir.

Şairin "Ariyamehr" (Məhəmməd Rza Şah Pəhləvinin ləqəbi) adlı 80 beytdən ibarət olan məsnəvisi həm siyasi, həm də ədəbi baxımdan şah əsərlərindən biri sayılır. Cahansuz bu məsnəvidə Şahın "İnqilabe sefid"adlı saxta reformunu tənqid edərək hökumətin cinayətlərini və qəddarlığını ifşa etmişdir. Fars dilində yazılan bu əsərin başlanğıcı belədir:

Şəbi Ariyamehr dər xab did
Ke mehman bovəd dər səraye Yəzid (6, səh. 86).

Beytin mənası: Bir gecə Ariyameh (Şahın ləqəbi) özünün Yezid sarayında qonaq olmağını yuxuda gördü.

Cahansuz bu şeirdə Şahın işlərini Yezidin işləri ilə müqayisə edərək onun yeziddən qəddar olduğunu, günahsız insanlara etdiyi zülmlərin Kərbəla zülmündən daha dəhşətli olduğunu göstərmişdir. O, Viktor Hüqonun "Binəvalar" kitabına "Qəriq" adlı 184 beytdən ibarət olan farsca bir şeir tərcüməsində ictimai fəlakətlərə və ədalətsizliklərə nifrətini bildirir. Bu şeirin başlanğıcı belədir:

Mərdi oftade əst dər dərya
Kəs nəbaşəd ze hale u cuya (6, səh. 35).

Beytin mənası: Bir kişi dənizdə boğulur, lakin kimsə köməyə gəlmir. Şair bu şeirdə insanların xarakterindəki çatışmazlıqları pisləyir və bu cür laqeydliklərin yaranmasında hökümətin mənfi rolunu vurğulayır.

Cahansuz Mirzə həm siyasət və ictimai sahələrdə, eyni zamanda Türk ədəbiyyatında, özəlliklə Azərbaycan folklorunda yaratdığı əsərlərlə xüsusi mövqeyi və zəngin xidmətləri olan bir bilim adamıdır. Bu müdrik ədibin "Türmə xətirələri"nin hər vərəqi müasir dövrümüzə, tariximizə, başımıza gətirilən müsibətlərə dair dəyərli bir sənəddir. Onun ədəbiyyat sahəsində sətir-sətir əlyazmaları, xüsusilə də, poeması müasir ədəbiyyatımız üçün önəmli kapitaldır.

Bizim arzumuz böyük ədibin şeirlərinin nəşr olunması və geniş miqyasda bütün şeir sevənlərin arasında yayılmasıdır. Məqalənin sonunda bu böyük şairin əlyazma şeir məcmuəsindən bir şeir seçib, ədəbiyyatı,şeiri sevən və incə ruhlu insanlara ərməğan edirəm. Şair bu əsərin hər bir beytində və misralarında, bir atalar sözünə, Zəncan zonasında məxsus ibarələrə və ya bayatıya işarə edərək, bəzən öz bacılarından , qardaşlarından və qohumlarından kiminsə adını çəkir və bir sıra Zəncan bölgəsinin müasir tarixində önəmli yer tutan insanları oxucuya tanıtdırır:

Qatdı fələk soyuq suyun, yaman bizim isti aşa,
Pozdu şirin çortumuzu, vurdu əcəb oyun başa.

"İsti aşa soyuq su qatma", yəni: bir insanın və ya bir cəmiyyətin şənliyini əlindən almaq və onların əsəblərini pozmaq anlamındadır. Beyt bu bayatının mənası ilə eynidir:

Bir donum var ipəkdən,
Ah çəkərəm ürəkdən,
Heç kəs razı qalmadı,
Çərxi dönmüş fələkdən (7, səh. 122).

Və ya bir başqa bayatıda belə deyilir:

Aman fələk, dad fələk,
Heç olmadım şad fələk,
İçirtdiyin şərbətdən
Özün də bir dad, fələk (7, səh. 86).

"Çort pozmaq" rahatçılığı və sevinci əldən almaq mənasında işlənir. "Oyunu əcəb başa vurma" işi pis qurtarma və istəmədən birinin ziyanına səbəb olma mənasında işlənən ədəbi metonimiyalardır.

Yumdu gözün pişik kimi, loxmanı çeyniyən zaman,
Ta görə, göz sataşmaya, üz utana, göz qamaşa.

Bu beytin birinci misrası Molla Nəsrəddinin bir hekayəsinə işarədir: "Bir gün molla piti yeyirdi. İstədi birinci loxmanı götürə, pişik dedi: "miyo". Molla o bir loxmanı ona verdi, istədi ikinci loxmanı götürə, yenə pişik dedi: "miyo". Onu da pişiyə verdi. Üçüncü loxmanı götürəndə yenə pişik dedi: "miyo". Molla əsəbiləşdi və pitini pişiyə tərəf qoyub dedi: indi buyurun siz yeyin, biz deyək: "miyo"; Sizdə bu anlayış hardadı ki, öz loxmanızı bizə verəsiniz? İkinci misra bu atalar sözünə işarədir: "Üz üzə baxanda utanar" və ya "göz görmür, üz utanmır".

Xalqın elə qatdı başın, gündüzünü etdi qara,
Fürsət edib göz açmamış, qırğı da Şirvanı aşa.

"Xalqın başın qatmaq" insanları məşğul etmək və çətinliyə salmaq, "günü qara etmək" xalqı qada-bəlaya salmaq, "göz açmaq" bir işdə fürsət tapmaq, "qırğı şirvanı aşdı" işi sürətlə görmək anlamındadır.

Bir nəfərin davarların yaymayıb axşama kimi
Rəsmi budur bu fələyin hər keçənə bir sataşa.

"Bir nəfərin davarın sübhədək yaymamaq" öz ilqarına sadiq qalmamaq deməkdir. Zəncanda vəfasız və işində sabit olmayan şəxsə deyilir: "Heç peyğəmbərin davarın sübhə qədər yaymayıbdır, yəni söz verib əməl etməyən bir insandır. "Hər gələnə-keçənə sataşır" bu el məsəlinə işarədir: "Yetənə yetir, yetməyənə daş atır".

Münhərif arvad kimidir, zəmanənin bu gön işi
Yavan verə öz ərinə, yağlı yedirdə oynaşa.

Şair bu beytlə fələyin ədalətsizliyinə işarə edir. Beyt bu bayatını xatırladır:

Zamana, ay zamana,
Oxu qoydun kamana.
Eşşəklər arpa yeyir,
Atlar həsrət samana (7, səh. 34).

Yəni zamananın əsas qaydası qaydasızlıq və prioritetləri pozmadır.

Üz enişə düşənlərin, ağzını yoxuşa verə,
Əldən ala gözlərini, vəsmə əgər yaxsa qaşa.

"Üz enişə düşmək" işin rast getməsi, düz gəlməsi mənasındadır. "Ağzın yoxuşa vermək" isə bu mənada işlənib: "Kimin işi düz gedirsə, fələk tezliklə onu çətinliyə salır". İkinci misra o deməkdir ki, istədi qaşın düzəldə, gözünü də çıxartdı. Və ya "istədi savab edə, kabab etdi". Bu cümlələr, bilmədən bir ziyanlı işi görəndə deyilir. Yəni fələyin tədbirləri insanın istəklərinin əksinədir. Həbib Sahir bu məqamla bağlı belə deyir:

Bir gün şirae ömrə müsaid yel əsmədi,
Bir gün muradımızla bu sərçeşmə axmadı (8,səh. 151).

Cahansuz isə belə yazır:

Təxtimizi etdi talan, yurdumuzu etdi yalan,
Ayrı salıb həsrət edib dostları yarə, yoldaşa.

"Təxti talan etmək" çapmaq və dağıtmaq, "yurdu yalan etmək" yurdu viran qoymaq, dostu dostdan ayırmaq, ayrılıq salmaq anlamındadır. Bayatıda deyildiyi kimi:

Qızılgül olmayaydı,
Saralıb solmayaydı,
Bir ayrılıq, bir ölüm,
Heç bir olmayaydı (8).
Mən sanadım saydığımı, saydı fələk bir ayrı cür
Qoydu ürəkdə dərdimi, qaynıya, coşlana, daşa.

İlk misra bu atalar sözünə işarədir: "Sən saydığın say, gör fələk nə sayır". İkinci misra isə bu ibarəyə işarədir: həsrətim ürəyimdə qaldı, yəni istəyimə yetişə bilmədim və "qaynıya coşlanıb daşa" bu mənaya işarədir: qaynayan qab daşacaqdır, yəni hər olay öz istiqamətində başa çatmalıdır.

Çəkib göyə, saldı yerə, sümüklərin çaldı daşa,
Saldı ələ tısbağanı, yoldaş ola yaşılbaşa.

Bu beytin məzmunu budur ki, fələk bir əliylə versə də, o biri ilə alandır. Elə buna görə dünyanın qüdrəti və sərvəti müvəqqətidir. "Sümükləri daşa çalmaq", bir şeyi kökündən məhv etmək mənasındadır. Tısbağa ilə yaşılbaşın dostluğu "Kəlilə və Dimnə"dən alınan bir hekayədir. Hekayənin məzmunu belədir: Bir gün bir tısbağa bir neçə yaşılbaş ilə dost olur. Yaşılbaşlar yaşadıqları yerin suyu və bitkisi qurtarandan sonra ordan köçmək istəyirlər. Tısbağa onlarla bərabər uzaq yerlərə getmək istəyir. Yaşılbaşlar bu köçün onunçün təhlükəli olmasını xatırladırlar. Tısbağa sözə baxmır, yaşılbaşlar məcbur olub onu aparmağa razı olurlar. Onlar bir uzun ağac hazırlayır və hərəsi ağacın bir başından yapışıb tısbağaya deyirlər ki, ağacın ortasından möhkəm tutsun və heç bir vəziyyətdə danışmasın. Yolda bir kəndin üstündən keçərkən uşaqlar tısbağanı görüb bağırırlar : Baxın bir tısbağa uçur! Tısbağa özünü öymək məqsədilə ağzın açanda yerə düşür və sümükləri daşa dəyərək dağılır (9).

Top görə bilmədi gözü, "sürəyya"dək cəmimizi
Qırdı, dağıtdı, top vurub, tay etdi "yeddi qardaşa".

Bu beytdə Sürəyya sözü iki mənada işlənmişdir: 1. Şairin gənc yaşında dünyasını dəyişən bacısının adı Sürəyya olub. 2. Sürəyya bürcü. Bu misrada bir bənzətmə vardır. Həmin bənzətmədə şair öz ailəsini nəzərdə tutur, bacısı Sürəyyanı sürəyya bürcünə, bacısı ölən zaman ailəsini yeddi qardaşlar bürcünə bənzədir. "top vurmaq" isə dağıtmaq mənasındadır. Top sözü iki mənada işlənir: 1. cəm; 2. hərbi vəsilə.

Döndü zaman dönərgəsi, olma ümid, gün görəsən,
Hər gecə ta sübhə kimi, yüz sürü çaqqal ulaşa.

"Dönərgə" fələk, orbit və zaman deməkdir. "dönərgəsi dönmək" yaşayış vəziyyəti pisləşmək anlamında işlənir. Şəhriyarın "Heydərbabaya salam" şeirində isə bu ifadəyə rast gəlirik:

Mənim dədəm dövlətli bir kişiydi,
Xalq əlindən tutmaq onun işiydi,
Gözəllərin axıra qalmışıydı,
Ondan sora dönərgələ dönüblər,
Məhəbbətin çıraqları sönüblər (9, səh. 44).

"Gün görmək" rahat yaşamaq mənasındadır. İkinci misrada simvoldan istifadə olunmuşdur. Çaqqal səviyyəsiz adamlara eyhamla deyilən addır, gecə sübhə kimi çaqqal ulaşması isə bütün mediaların alçaq adamların ixtiyarında olmasına işarədir.

Oğlum Xosrov, atam Xosrov, Cahangiri, Mənüçöhri,
Məhin, Rzai, Həbibi apardı, qalmadı Paşa.
Sitarənin, Mehrəngizin, Tələt, xanımın, Humanın,
Əziz Huşəngin, Cəmşidin adlarını qazdı daşa.

Xosrov şairin həm atasının, həm də İslam İnqilabında sonra öldürülən oğlunun adıdır, Cahangir ilə Mənüçöhr qardaşları, Məhin şairin bacısı, Rzai, Həbibi, Paşa, Sitarə, Mehrəngiz, Tələt, Huma, Əziz, Huşəng, Cəmşid isə şairin tez dünyasını dəyişənlər və yaxın qohumlarıdır. "Adını daşa qazımaq" isə ölmək deməkdir.

Saxladı yetmiş il məni, ta vura çox cigər dağı,
Saqqalıma gülmək üçün soyləyə ölmə, min yaşa.

"Cigər dağı vurma" əzizlərin, yaxın qohumların ölümünü görmək deməkdir. "Saqqala gülmək" lağ etmək mənasındadır. "min yaşamaq" çox yaşamaq deməkdir. Yaşa iki mənalı sözdür: 1.Yaşa(yaşamaqdan) 2.əhsən.Şəhriyar yazır:

Sən yerə qoydun başıvı mən başıma nə daş salım
Bəlkə mən artıq yaşadım, neynəməli dedim yaşa (9,səh. 130)

Cahansuz Mirzənin əsərlərini oxuduqca biz bir daha onun son dərəcə mübariz şair və dərin bilikli bir elm adamı olduğunu görürük. Onun ədəbiyyat sahəsində sətir-sətir əlyazmaları, xüsusilə də, poeması müasir ədəbiyyatımız üçün önəmli bir kapitaldır. Bizim arzumuz böyük ədibin şeirlərinin nəşr olunması və geniş miqyasda bütün şeir sevənlərin arasında yayılmasıdır.

Ədəbiyyat

1. Əbdi Cəfər.Zəncan şeirləri və şairləri. Zəncan "Mərdome no"qəzeti, No,-256,1386
2. Muradi Məhəmməd Rauf. Məcəlle Əncumən və Məfaxer Fərhəngi,Tehran,1383
3. Darai Əmir Xosrov. Divane Xosrov, Əlyazma (Zəncanlı Yazıcı Niruməndd Kərimdə əmanət)
4. Niruмən Kərim. "Şoəra və Soxənvərane Zəncan" , Zəncan Nəşre Sitarə, 1364
5. Darai Cahansuz Mirzə."Xatirate zindan", əlyazma (məqalə sahibinin kitabxanasında)
6. Darai Cahansuz Mirzə.Şeir məcmuəsi,əlyazma(Zəncanlı Şair Kələntəri Zeynəlabidinin şəxsi kitabxanasında)
7. Fərzənə Məmmədəli. Azərbaycan Xalq Ədəbiyyatı. "Bayatılar",Nəşre Fərzanə, Tehran 2007
8. Yunan Rəsul,Yanan Yaşıl."Həbib Sahirin seçilmiş şeirləri",Nəşre Əxtər,Təbriz,1384
9. Məhəmməd Hüseyn Şəhriyar. Türkcə divan, Zərrin nəşri, Tehran, 2004

М. Боюкага

Два поэта из семьи Гаджар

Резюме

В этом статье повествуется о Джахансуз Мирза, имеющеем выдающиеся заслуги в формировании литературно-художественной и национально-эстетической мысли в Занджане.

Оригинальность таланта Джахансуз Мирза, отличная манера написания, присущий его произведениям глубокий гуманизм, философичность, реализм и психологическая глубина привлекли к себе внимание широкой массы читателей и литературно-художественной общественности.

Он является автором глубоких по содержанию и заставляющих думать стихотварения посвященных Богу, любви, самопознанию человека и его духовному совершенствованию. Его произведения призывают людей к духовно-нравственному совершенствованию.

BioukAgha Mollaei

Two poets from the QACAR family

Summary

Darai family is a family that more influences to the modern literary and political environment of Zenjan. One of the leader personalities of the family is prominent poet and politician Jahansuz Mirza. This article that where you studied, introduces the creative man in brief. You will be introduces by superficial look with his centuries and spiritual life.

Rəyçi: prof. Vaqif Soltanlı

XƏYALƏ ƏFƏNDİYEVA
elshenxeyale@box.az

ŞƏRTİ-METAFORİK ÜSLUBUN BƏDİİ İMKANLARI

(Y.Səmədoğlunun "Qətl günü" və S.Səxavətin "Nekroloq" romanları əsasında)

Açar sözlər: nəsr, milli-estetik düşüncə, ümumbəşəri ideyalar, sosial problemlər, ironiya.

Key words: prose, national-esthetic sense, universal ideas, social problems, irony.

Ключевые слова: проза, национально-эстетическое мысли, универсальные идеи, ирония.

Şərtilik incəsənət və ədəbiyyatın əsasını təşkil edir,- deyirlər. Çünki incəsənət və ədəbiyyat həyatın birbaşa özü deyil, həyatın bədii obrazlarla inikasıdır. Əgər sənətdə şərtilikdən tamamilə imtina edilsəydi, bu, naturalizmin geniş ölçüdə yaradıcılığa daxil olmasına, həyat hadisələrinin mexaniki inikasına aparıb çıxarardı (2, səh.184). Bu mənada şərtilikdən, şərti-metaforik üslubda yaradılmış obrazlardan geniş istifadə əsərin bədii təsir gücünü və sanbalını artıran, məkan və zaman məhdudiyyətini aradan qaldıran amil kimi dəyərləndirilir.

Dünya ədəbi prosesində 70-80-ci illərdə şərtilik, şərti-metaforik üslub, bu üslubda yaradılmış obrazlar geniş yaranmağa başladı. Şərtilikdən uğurla istifadə edən Kolumbiya yazıçısı Qabriel Qarsia Markesin istedad və ədəbi nüfuzunun təsiri ilə bədii yaradıcılıqda bu üsluba meyil və müraciət gücləndi. Bütün Latın Amerikası ədəbiyyatında şərtilikdən istifadə edilməsinin səbəbini yazıçı Alexo Karpentyer belə izah edirdi: Latın Amerikasında reallıqla, gerçəkliklə əfsanə birlikdə, qovuşuq və qarışıq bir halda mövcuddur, bunu ədəbiyyatda əks etdirmək üçün şərti vasitə və üslubdan mütləq istifadə etməli olursan. Latın Amerikasında bu cür yaradılmış əsərlərin bədii metodunu "magik realizm" adlandırırlar. Müasir bolqar ədəbiyyatında da geniş yayılan şərti üslub Pavel Vejinovun psixoloji planda yazdığı "Maneə" əsərində öz bədii əksini tapmışdır. Bolqar ədəbiyyatşünasları belə əsərlərin bədii metodunu "fantastik realizm" adlandırırlar (4, səh.157). Rus ədəbiyyatında Mixail Afanasyeviç Bulqakovun "Master və Marqareta", qırğız ədəbiyyatında Çingiz Aytmatovun "Gün var əsrə bərabər" romanları, "Ağ gəmi", "Dəniz kənarıyla qaçan alabaş" povestləri şərti-metaforik planda yazılmış əsərlərdir.

Ümumiyyətlə, ədəbi-bədii prosesdə şərtiliyin, şərti-metaforik üslubun geniş yer alması, epik-analitik və lirik-romantik üslublarla müqayisədə daha çox işlənməsi və daha imkanlı görünüb ön plana keçməsi müşahidə edilməkdədir (4, səh.157)

Çağdaş Azərbaycan ədəbiyyatında da şərtilikdən, folklorizm, mif və əfsanə motivlərindən, şərti-metaforik obrazlardan geniş istifadə diqqəti çəkməkdədir. Yusif Vəzir Çəmənzəminlinin "Qızlar bulağı", Çingiz Hüseynovun "Fətəli fəthi", İsa Hüseynovun "Qəbiristan", Sabir Əhmədlinin "Yasaq edilmiş oyun", "Kütlə", Mövlud Süleymanlının "Köç", "Dəyirman", Elçinin "Mahmud və Məryəm", "Ağ dəvə",

Yusif Səmədoğlunun "Qətl günü", Seyran Səxavətin "Nekroloq", Kamal Abdullanın "Sehirbazlar dərəsi" romanlarında bu üslubdan istifadə edilmişdir.

Tənqidçi-ədəbiyyatşünas Vaqif Sultanlının fikrincə, şərtiliyə müraciət bir neçə mənada anlaşılır: a) bədii ümumiləşdirmə vasitəsi kimi; b) məkan məhdudiyyətindən uzaqlaşmaq vasitəsi kimi; c) obrazın daxili strukturunun müəyyənləşdirici amili kimi; d) hadisələrin retrospektiv təsviri kimi. Həmçinin, professor qeyd edir ki, şərtilik yazıçıların təhkiyə tərzində də öz əksini tapmış olur.

Bu yazıda biz Yusif Səmədoğlunun şərti-metaforik üslubdan istifadə ilə yazılmış "Qətl günü" romanı ilə Seyran Səxavətin eyni ruhda olan "Nekroloq" romanı arasındakı fərqləri, oxşarlıqları, bağlılıqları, paralelləri təhlilə cəlb etmək istəyirik. Maraqlı burasıdır ki, Seyran Səxavətin haqqında bəhs edəcəyimiz "Nekroloq" romanı 2002-ci ildə AYB-nin "Yusif Səmədoğlu adına ilin ən yaxşı romanı" mükafatına layiq görülmüşdür.

Mövzu, dil, üslub, süjet, qoyulan problem və ona yanaşma tərzi baxımından, ümumi ruh etibarilə bu əsərlər arasında xeyli yaxınlıq müşahidə olunmaqdadır.

Yusif Səmədoğlunun "Qətl günü" çoxplanlı bir roman kimi qaldırdığı mühüm sosial-psixoloji məsələlərin, o cümlədən, mənəviyyat problemlərinin bədii-fəlsəfi üslubda həllini verən əsərlərdəndir. Roman həm problematika zənginliyi, həm də yüksək bədii keyfiyyətlərə malik olması ilə seçilir (4, səh.91).

Romanın başlıca ideyası, fəlsəfi qənaəti insanların münasibətinə və tragik talelərinə səbəb olan amilləri göstərməklə bərabər "tarixin bətninə güzgü tutmaqdır". Romanın ilk səhifəsində epiqraf kimi verilən: "-Yolun haradır, qardaş". – "Son mənzilədir, bacım"- (8, səh.11). fikirləri əsərin ideya-məzmunu ilə bilavasitə səsləşir. Həqiqətən də, romanda yolunu son mənzilə salanların taleyindən bəhs edilir. Eyni zamanda romanın süjet xətti və təhkiyə tərzi sanki "Bir xəstənin qulağına gələn səslərdən" yaranır (3, səh.283).

"Qətl günü" Yusif Səmədoğlunun, ümumən müasir Azərbaycan romanının sənətkarlıq imkanlarını meydana çıxaran çox dəyərli əsərdir. Əsərdə "Dərd də azar kimi, gələndə batmanla gəlir" ifadəsinin romanın müxtəlif yerlərində kompozisiya ünsürü kimi təkrarlanması təkcə ideyanı mücərrədləşdirmir, eyni zamanda onun folklor poetikası üstündə köklənməsinə zəmin yaradır.

Yusif Səmədoğlunun bu romanı dünya və insan haqqındadır. Dünya və insan problemi ədəbiyyatın inkişafının bütün mərhələrində mərkəzi problemlərdən biri olub. Yusif Səmədoğlu dünya və insan sözlərindən insan ömrünün həyat və ölüm arasındakı fəlsəfi məna və məzmununun bədii ifadəsi üçün istifadə etmişdir. Həyatla ölüm arasında uzanan bu ömür yolu adam kimi yaşadıqda xeyrə həsr olunur, adamlıq yoxa çıxanda isə şər hökm sürür (4, səh.92). Dünyada əsrlərdir ki, lokal və qlobal müharibələr, hakimiyyət, pul, sərvət uğrunda amansız çarpışmalar, ölüm-dirim savaşları baş verir. Tanrının yaratdığı insanlar bir-birinə qənim kəsilirlər. Elə bir zaman gəlib çatıb ki, vəhşilər belə insan xislətinə heyrət edirlər. Hüseyn Cavid demişkən: "Yalnız deyil insanlara, vəhşilərə sorsan, Onlar belə insandakı vəhşiliyə heyran" …Bəşəriyyət tərəqqiyə, sivilizasiyaya doğru irəliləyir, insan zəkasının yaratdığı nəsnələr çox şeyi dəyişdirir, ancaq insandakı naqis xasiyyətlərin bir çoxu dəyişilməz qalır. Roman son bir neçə yüzillik ərzində insanın mənəvi inkişafını və bu inkişaf prosesində insan əməllərinin "kamilləşən" bir çox mənfur cəhətlərini ustalıqla oxucuya çatdırır. İnsan həyatındakı ahəngdarlıq, ritm və harmoniya pozulan-

da o, nəfsin, tamahın və qəbahətin qulu olur. Və buna görədir ki, dünya hələ də gücün, zorun, mənən-mənəmliyin, işğalçı müharibələrin cəngində inləyir. "Qətl günü" romanı bu mənada adamları "adamlığ"a çağırış- haray təsiri bağışlayır. Roman insan ömrünün mənası, "adamda adamlığ"ın olması zərurəti, adamlığın yoxa çıxmasından törəyə biləcək dəhşətlər, qətl günləri barədə çox güclü ibrətamiz xəbərdarlıq verir (4, səh.93).

Romanın süjeti əbədi Xeyir-Şər mübarizəsi, konflikti üzərində qurulub. İctimai quruluşlar, cəmiyyətlər və saysız-hesabsız insan nəsilləri bir-birini əvəz edir, amma dünyanın yaranışından üzü bəri bu mübarizə bitmək bilmir. Romanda xeyirlə şərin, insanlıqla nadanlığın, namusluluqla əxlaqsızlığın, həqiqətlə riyakarlığın, ədalətlə haqsızlığın, insanpərvərliklə insana düşmənliyin, tərəqqi ilə mühafizəkarlığın çarpışması öz bədii əksini tapmışdır. Hər dövrün öz Hörmüzü və Əhriməni olmuşdur. Bu əbədi döyüşdə Şər həmişə güclü olmuş, amma bəşəriyyət Xeyirə, İşığa inam bəsləmişdir. Xeyirxah qüvvələr çox vaxt zorla qarşılaşmalı olsa da, insanların içində həmişə nikbin ruh, ümid işartıları olmuşdur. İnsanlar inanmışlar ki, şər, zorakılıq, riyakarlıq nə qədər güclü olsa da, axırı yoxdur, müvəqqəti, əlverişli şəraitdən istifadə edib gec-tez məhv olacaqdır.

İnsan öz ömrünü yalnız kamilləşməklə uzada bilər! – uzaq keçmişlə müasir həyatı böyük ustalıqla əlaqələndirən, yüzilliklər ərzində xeyirlə şərin mübarizəsindən doğan bir çox həqiqətlərin davam etməkdə olduğunu göstərən müəllif qənaəti belədir. Roman bütövlükdə insan problemi, insanın mənəvi inkişafı, daha çox kamilləşmək ehtiyacı ilə bağlı məsələlərə həsr olunduğundan mahiyyət etibarilə ümumbəşəri problemləri əhatə edir.

Romanda işıqlı qüvvələrin timsalı, qətlə yetirilən və özü özünü qətlə yetirən sənət adamları xeyirxah qüvvələrin rəmzi kimi çıxış edir. Hökmdarlar, xacə Ənvərlər, Salahovlar zülmətin simvoludur, əhrimənlərin davamı, min cür sifətə malik, min cür hiylə və fırıldaq işlədən şər qüvvələrin nümayəndələridir.

Yusif Səmədoğlunun hekayələrindəki rəmzlər böyüyə-böyüyə romanda Baba kahaya, Kirlikirə — dünyanı idarə edən, insana bu aləmi daha yaxşı tanıdan simvolik qüvvələrə çevrilir.

Baba kaha haqsızlığın, ədalətsizliyin düşmənidir. Üfləmə Qasımın qoca nənəsinin — dünyanın ən yanıqlı ağıçısının, məmləkətin ən qoca ağbirçəyinin dedikləri Baba kahaya çatır. Baba kahanın oyuğundan gələn səs dünyanı lərzəyə salır: "Sizin kökünüz kəsilsin, ay ikiayaqlı bəndələr". Baba kahanın dərinliyindən qalxan külək burula-burula yüksələrək ulduzlara qarışır, nəhəng buz parçalarına dönüb aşağı şığıyır, məmləkəti buz altında qoyur, üzü heyva çürüyündən də qırış-qırış olan əzazil hökmdarı, onun sadiq nökəri xacə Ənvəri buza döndərir, onların cinayətlərinin üstünə pərdə çəkir...(8, səh.64).

Baba kaha bir növ insanların günahlarını ölçən mizan-tərəzidir. "Ölümün xeyir – Ölümə qənşər" – deyə bu dünyanı tərk edənlərin yolu Baba kahayadır.

Kirlikir tarix boyu insanın yol yoldaşı, həqiqəti öyrənmək, dərk etmək vasitəsidir. O, insanın xəbəri olmadan ona həqiqəti, gizli sirləri pıçıldamaq imkanına malikdir. İnsan çox vaxt onun varlığını görməsə belə, şüalarla, işıqla, duyğu və düşüncələrlə, məntiqlə, ağlının və qəlbinin dedikləri ilə daim onu eşidir, dinləyir, ictimai bədbəxtliklərin, bəlaların, yetişməkdə olan təhlükənin, insan qəlbindəki xəbisliyin, riyakarlığın simptomlarını onun vasitəsilə qəbul edir. "Qətl günü"ndə Kirlikir məhz

belə bir qüvvədir, qızdırmalı adamın yuxululuqla ayıqlıq arasında həqiqətləri dərk etmə vasitəsidir. Səməndərov, Salahov kimilərin xalqa düşmən mövqeyi ilə bağlı bir çox faktlar onun vasitəsilə açılır. Onun hər dəqiqə gözlərinin birini yumub qarnını qaşıması cəmiyyətdəki yaramaz işlərə kinayədir.

Əslində, Kirlikir elə Xalqın ümumiləşmiş obrazıdır. Əsəri oxuduqca Kirlikirin əliqabarlı, zəhmətkeş, lakin qədir-qiyməti bilinməyən Xalq olduğu tamamilə anlaşılır. Yazıçının bədii priyomunun orijinallığı da məhz bundadır.

1980-1984-cü illərdə imperiyanın kəsərli vaxtında bu romanı başqa cür yazmaq mümkün deyildi və Yusif Səmədoğlu simvollardan, sətiraltı mənalardan istifadə etməklə öz düşüncələrini oxucusuna çatdırmış, xalqın taleyüklü problemlərini yüksək bədiiliklə əks etdirmişdir.

Əsərdəki Baba kaha, Canavar və Kirlikir Azərbaycan ədəbiyyatında öz orijinallığı ilə yadda qalan güclü rəmzi obrazlardır.

"Qətl günü" ənənəvi nəsr nümunələrindən fərqli olaraq, quruluş etibarilə mürəkkəb əsərdir. "Qətl günü" üç dövrü – qeyri-müəyyənbir keçmişi, bizə yaxın dövrü və cəmiyyətin bu gününü əhatə edir. Eyni zamanda, roman daxilində hər dövrün öz romanı var. Birinci dövrlə bizi Sədi Əfəndinin romanı, ikinci dövrlə Sədi Əfəndinin gündəlikləri tanış edir; üçüncü dövrə aid məlumatı Xəstənin – şərti müəllif obrazının, yazıçı-tənqidçinin nitqindən, daxili monoloq və dialoqlarından alırıq və beləliklə, bir romanda üç romanla tanış oluruq: başı qızıl teştdə satqın şairlərə təqdim edilən şairin romanı, Sədi Əfəndinin romanı və xəstə yazıçı-tənqidçinin romanı. Hər üç roman pillə-pillə bir-birini tamamlayır və əsas fikir hər üç dövrə aid nümunə-paralellərlə təsvir edilir. Hər üç dövrün – hər üç romanın əsas qəhrəmanları xalq kütləsi və görkəmli sənət adamlarıdır. Əks qütbdə hakim təbəqə nümayəndələri – hökmdar, onun vəziri, Salahov və Muxtar Kərimli kimilər durur (6, səh.184).

"Qətl günü" həm Y. Səmədoğlunun romanının, həm də roman daxilində Sədi Əfəndinin romanının adıdır. Sədi Əfəndinin romanını Xəstənin romanı ilə bağlayan paralellər çox güclüdür.

Sədi Əfəndinin "Qətl günü" romanı hökmdarın əzazilliyi və vəzir-vəkil, xacə mütiliyi, sərbaz meyitləri, qan qoxusu və canavar ulartısı ilə tarixi — qanlı feodal müharibələrini yada salır. Hökmdarın kütlüyü və qətiliyi, fiziki qüsurlarından doğan iztirabları, xacə Ənvərin "bir olan ulu hökmdara" sədaqəti, qətl mərasimləri və saray müşavirələri bu tarixin ümumi mənzərəsini yaradır. Mifik hökmdar, ümumən, insana və işıqlı sənət adamlarına son dərəcə əzazildir, ölü qoyun gözlərinə bənzər gözlərini qırpmadan insanların əvvəl dilini, sonra da başını kəsdirir. Romanda təsvir edilən sonrakı dövrlər üçün belə bir əzazilliyi Salahov təmsil edir. Salahov daha qorxulu adamdır. Onun əməlləri riyakarlıqla birləşmişdir: Zülfüqar kişini o məcbur edir ki, günahsız uryadnikin körpələrini yetim qoysun və son nəticədə onların məhvinə səbəb olsun; Sədi Əfəndi kimi bir yazıçının edamına səbəb olur. Hökmdarın əmrləri sözsüz və dərhal yerinə yetirildiyi kimi, Salahovun da bir sözü iki ola bilməz — "Budet sdelano, tovariş Salaxov!" İblis xislətli Salahovla cəllad hökmdar arasında irsi yaxınlıq və qohumluq da vardır.

Hökmdar xətti Salahov xətti ilə birləşdiyi kimi, istilaçı hökmdarın böyük töhfələri əvəzinə, öz şəhərlərindəki ən böyük şairin başını istəyən satqın şairlərin işini də Muxtar Kərimli davam etdirir. Meşədə düşərgə salıb, dəmir və qan qoxusu içərisində qonşu qalanı almağa, dağıtmağa, əhalisini qırmağa hazırlaşan hökmdar həmin

qaladan gəlmiş satqın şairlərə "məğrib ulduzu boyda daş-qaşlar", "hind firuzələri" vəd edir, lakin qalanın tez və asan alınması üçün bir sıra mühüm sirləri xəbər verməyə gəlmiş bu xainlər həmin töhfələrdən imtina edir, əvəzində qaladakı böyük şairin başını istəyirlər. Bu xəbəri eşidən hökmdar haqlı olaraq deyir: "Belə məmləkətin bir qalasını yox, cəmi qalalarını almaq olar.

Belə məmləkəti yerlə yeksan etmək olar" (8, səh.62) və edir də. Xain şairlər arzularına çatırlar: böyük şairin əvvəl dili, sonra da başı kəsilir və qızıl teştdə onlara təqdim edilir.

Bu cür rəzil şairlərin sonrakı varisi Muxtar Kərimlidir. El məhəbbəti qazanmış Sədi Əfəndini, onun dostu yazıçı A.Q.-ni və bir çox başqalarını Salahova nişan verib, hiylə və riyakarlıqla məhv etdirir. Növbəti qurbanı — xəstə yazıçı onun ucbatından yorğan-döşəyə düşmüşdür və bu xəstə bir balaca dirçələn kimi, Muxtar Kərimli yeni mənəvi zərbə ilə onu birdəfəlik məhv edir: onun son iclasından çıxan Xəstə, əslində, təhqir və riyakarlıqla dolu mühitə dözməyib özünü məhv edir (6, səh.86).

Böyük şairin başı kəsilərkən bir nəfər belə səsini çıxarmır. Muxtar Kərimli böyük yazıçı ordusunun gözü qabağında bir vaxtlar Sədi Əfəndini məsxərəyə qoyarkən və xeyli sonralar xəstə yazıçını təhqir edərkən də bir kəs dillənmir. Muxtar Kərimlinin və Salahovun üzünə ağ olan olmur. Hamı görür və susur. Bütün bunlar bir daha sübut edir ki, kütlənin şüuru- ictimai şüur məsələsi mühüm məsələdir.

Seyran Səxavətin "Nekroloq" romanında da ictimai şüur, milli şüur məsələsi geniş planda öz bədii həllini tapmış , yazıçı öz işıqlı düşüncələri ilə millətin oyanışına və tərəqqisinə mane olan hər cür qüsurları aradan qaldırmağa, insanları maariflənməyə, özünün və sözünün sahibi olmağa çağırmışdır.

Orijinal, özünəməxsus yazı manerası olan Seyran Səxavətin digər əsərlərində olduğu kimi, "Nekroloq" romanı da problem ciddiliyi, tarixiliklə səsləşən müasirliyi, həyati materialların zənginliyi, müəllif mövqeyinin fəallığı ilə diqqəti cəlb edir.

Mənəviyyatın çökdüyü, adət-ənənələrin tapdalandığı, xalqın kütləyə çevrildiyi bir məqamda yazıçı cəmiyyətdə baş verən hadisələri olduğu kimi bütün canlılığı ilə emosional şəkildə təsvir etmişdir. O, yeri gəldikcə obrazları dilləndirərək həm tipi öz dili ilə ifşa etmiş, həm də dövrün bütün görünüşünü canlandırmışdır.

Əsərdə insanların pula satılması, mənəviyyatın aşınması, milli dəyərlərin yox olması kimi bütün dövrlərdə özünü göstərən insani naqisliklər fəal yazıçı mövqeyindən güclü tənqid olunmuşdur.

Roman problemlərin yüksək sənət dili ilə ifadəsi və müəllifin ustalıqla ümumiləşdirə bilmək bacarığı ilə seçilir. Bu əsəri şərtləndirən mühüm keyfiyyətlərdən biri də fikrin məcazlarla, rəmzi-bədii ümumiləşdirmələrlə ifadəsidir.

Əsərdə milli şüurla bağlı maraqlı bir məqam var ki, Seyran Səxavət öz düşüncələrini M.F.Axundzadənin, M.Ə.Sabirin, H.Z.Tağıyevin nitqi ilə oxucuya çatdırır. Nizaminin, Nəsiminin, Natəvanın, Axundzadənin, Sabirin, Tağıyevin heykəlləri Füzulinin heykəli qarşısında mitinqə toplaşıb. Bütün heykəllər bir-bir xalqa müraciət edərək birliyə çağırır. Şərti-metaforik planda işlənmiş bu səhnədə heykəllərin nitqində tarixi gerçəkliyin və bugünün həqiqətləri öz əksini tapmışdır. Bunun özündə də yazıçı mövqeyini aydın əks etdirən xüsusiyyətlər duyulmaqdadır. Bütün heykəllər xalqa müraciət etdikdən sonra söz Hacı Zeynalabdin Tağıyevə verilir. Hacı: "Nöyüt quyuları fontan vuranda otuz-qırx metr göyə qalxır, vurur, vurur, yorulur.

Amma söz fontan vurandan sonra min illərlə yaşayır",-deyərək söz dahilərinin önündə baº əydi. İzdiham-məmləkət boyda nəhəng bir orqanizm lərzəyə gəldi. Hacı baş əyən kimi izdiham da heykəllərin qarşısında diz çökdü, baş əydi. Adama elə gəldi ki, əyiləndə də millət məhz bu cür əyilməlidi. Bir Allahın, bir də sözün böyüklüyü qarşısında...Bu cür əyilən millətin başı həmişə uca olar, başqa cür əyilən millətin başı həmişə bəlalar çəkər.

Hacını qəhər boğsa da, sözünə ara vermədi: Bütün bunları ona görə deyirəm ki, bir az ağıllı olun, maarifə yetişin, sahibi-şüur olun. Sahibi-şüur olmayan millət sahibi-məmləkət də ola bilməz. Sahibi-məmləkət olmayan da ya əcnəbilərin əlinə baxa-baxa qalar, ya da öz doğma haramzadalarının- hansı ki, ikisi də bir bezin qırağıdı" (9, səh.147).

Hacının sözlərində dərin bir müasirlik duyulur. Hacının amalı, məqsədi millətin şüurunu oyatmaq, onu öz məmləkətinin, torpağının, sözünün sahibi etmək idi. Əslində, bütün Azərbaycan maarifçiləri, o cümlədən, bu əsərin müəllifi də bu işin peşində, bu müqəddəs amalın uğrunda mücadilə edirdilər.

Fəlsəfi ədəbiyyatlarda da göstərilir ki, millət kimi formalaşmaq üçün milli-mənəvi birlik, milli-ideoloji təfəkkür, milli şüurun formalaşması əsas şərtdir. Millətin bütün obyektiv əlamətləri milli özünüdərk kimi subyektiv əlamətlə tamamlandıqda millətin mövcudluğundan, onun fəaliyyətindən danışmaq olar (5, səh.381).

Bu mənada milli şüurun hələ də " kal olduğu", "yetişmədiyi", formalaşmadığı cəmiyyətdə hər cür naqisliklərin olması mümkündür və qarşısıalınmazdır.

Müasirliyə xidmət edən tarixi fakt və hadisələrdən yerində istifadə edən yazıçı yaxın və uzaq keçmişə ekskurs etmiş, bunları müasir dövrlə, zamanla, həyatla əlaqələndirmiş, tarixi gerçəkliklə müasir həyatın harmoniyasını yaratmışdır.

"Qətl günü" əsərində eybəcər, rəzil, alçaq xislətli hökmdar, Salahov kimi başçılar olduğu kimi "Nekroloq" romanında da "yetənə yetən, yetməyənə bir daş atan", "Allahını tanımaya-tanımaya Həccə gedib Şeytana daş atan", "nəfsi rus çarı Yekaterinanın dünyaya məlum quduz tamahından iti olan, özünü əsrin və xalqının müdrik oğlu kimi qələmə verən, xalqın adından danışa-danışa xalqın anasını ağladan, məmləkətinə çaxnaşma salan, vətən satan, xalqın mərd oğullarını dustaqxanalarda çürüdən, ömrü boyu guya rüşvətxorluqla mübarizə aparıb məmləkəti rüşvətxorluq-korrupsiya akademiyasına çevirən, azad sözü boğduqca Allahlıq eşqinə düşən, Allahlıq eşqinə düşdükcə bəndə olduğunu unudan, özünü "Allahın bacısı oğlu" adlandıran hökmdar obrazı var.

Allahın bacısı oğlu "belinə mindiyi" Xalqdan soruşur: - Cənab Xalq, ayaqlarımın altında özünü necə hiss edirsən?

-Ləzzət verir...Allah sənin ayaqlarını mənim üstümdən əskik eləməsin...

Daha sonra Xalq deyir: -Yediyindən bir tikə mənə də ver.

-Boğazında qalar, həm də bu sənin xörəyin deyil axı.

-Bəs mənim xörəyim nədi?

-Yonca.

-Onda bir çəngə yonca ver yeyim.

-Yonca ehtiyatımız qurtarıb, qaldı yaza.

-Bəs yaz gəlməsə...

-Arxayın ol, yaz gəlməsə səni yerdə qoymaram. Ölməmişəm ki... Səni təmtəraqlı götürərik, urvatlı. Dünya xalqlarını da çağırarıq...

"Vaşinqton post" qəzetində sənə öz əlimlə elə bir nekroloq yazaram ki, bəşəriyyət gözünün yaşını sel kimi axıdar; yazaram ki, dünya xalqlarına ağır itki üz verib. Bu xalq çox zəhmətkeş, istedadlı olmasına baxmayaraq, acından-susundan qırılıb batdı. Bu xalq dünya xalqlarının gözü baxa-baxa dünyasını dəyişdi. Bu xalq ona görə öldü ki, nə torpağının, nə özünün, nə də sözünün sahibi ola bildi. Başı tarix boyu bəlalar çəkən, onun-bunun qapazaltısı olan bu xalq haqlı olaraq tarix boyu ilk dəfə ağıllı hərəkət etdi:-belə yaşamaqdansa, ölməyi üstün tutdu...(9,86).

İfşaedici və öldürücü satirası, dramatizmi, ironik və tragik məqamları ilə diqqəti cəlb edən bu roman dünya ədəbiyyatında diri olan xalqa yazılan ilk nekroloqdur.

Həm Yusif Səmədoğlunun "Qətl günü", həm Seyran Səxavətin "Nekroloq" romanı insanı mənəvi-ruhi cəhətdən öldürən, ləyaqətini tapdalayanları kəskin satira ilə tənqid edir, milyonlarla insanın faciəsinə səbəb olan qaniçən hökmdarları və onların yaramaz ideologiyasını lənətləyir.

"Nekroloq" romanda ölkənin hüdudlarından kənarda mühacir həyatı yaşayan, torpağa, yurda həsrət qərib soydaşlarına "böyük yaxşılıq edən", vətən torpağını qaşıq-qaşıq satan və bundan xeyli varlanan Keçəl kişi obrazı diqqəti cəlb edir. Bu obrazı yaratmaqla Seyran Səxavət millətin düşüncəsindəki naqisliyi, bütün məsələlərə şəxsi mənafe baxımından yanaşmaq tendensiyasından əl çəkə bilməməyini, milli tale ilə bağlı düşünmək imkanlarından məhrumluğunu bədii təhlilin predmetinə çevirir.

Yazıçını narahat edən məqamlardan biri də budur ki, həyat səviyyəsinə görə ölkədə bir-birindən kəskin şəkildə fərqlənən iki təbəqə mövcuddur. Ailələrin birində beş yaşlı körpə qızcığaz müharibə veteranı, əlil atasının qucağında aclıqdan və soyuqdan dünyasını dəyişir. Başqa bir ailədə isə onun həmyaşıdı olan qızın doğum günü olduqca yüksək səviyyədə qeyd olunur, ona brilyantlar bağışlanır. Belə təzadlı məqamlar sadalamaqla bitməyəcək qədər çoxdur.

Məmləkət elə bir vəziyyətdədir ki, ziyalılar ölkədən çıxıb getmək, özlərinə başqa vətən seçmək barədə düşünür, qazilər "qul bazarında" özünü satır, millət aclıq və səfalət içərisində məhvə sürüklənir. Gündəlik çörək, su ehtiyaclarından başqa heç bir şey düşünə bilməyən xalqı ehtiyac içində süründürmək, dilənçi vəziyyətinə salmaq Allahın bacısı oğlunun başlıca məqsədidir. Çünki el arasında belə bir məsəl var ki, sırtıq dilənçi Allahın düşmənidi. Allahın bacısı oğlu deyir: "Xalq sırtıq dilənçidi, deməli, Allahın düşmənidi. Biz xalqı əzməklə, tapdalamaqla Allahın düşməni-ni məhv etmiş oluruq və bununla da Yaradan qarşısında öz bəndə borcumuzu yerinə yetirmiş oluruq" (9, səh.186).

Bu tragik məqamları böyük ürək ağrısı ilə qələmə alan yazıçı dövrün həyatını, mənzərəsini analitik bədii təhlildən keçirir.

"Nekroloq" romanı millətin düşüncəsini, mənəviyyatını, tarixini, vətənini, milli varlığını, bütövlüyünü xəncərləyənlərə, yüksək dövlət postlarında oturub millətə yuxarıdan aşağı baxanlara, qaziləri bir qarın çörək ucbatından "qul bazarına" salanlara, haramla, rüşvətlə yaşayan alçaqlara, "dövlətin malı dəniz, yeməyən donuz" təfəkkürlülərə, vicdanına güvə düşmüşlərə, məmləkətin düşünən beyinlərini tərki-vətən edənlərə qarşı yazılmış protestodur.

Əsarətdə olan insanları getdikcə manqurtlaşmaq təhlükəsi gözlədiyini, manqurtlaşan insanın isə tamamən Vətən, millət, dil, mənəviyyat duyğusundan uzaqlaşdığını, milli düşüncəsi olmayan millətin ölü millət olduğunu vurğulayan yazıçı insanları birləşməyə və bütövləşməyə çağırır. Seyran Səxavət inamla düşünür ki, milli birliyə milli şüuru oyatmaqla nail olmaq mümkündür.

Sələfi böyük mütəfəkkir Axundzadə kimi Seyran Səxavət də "istehza və məsxərə yolu ilə" yazılan əsərlərin tərbiyəvi-idraki gücünə inanır. Buna görə də əsərlərində öldürücü satira ilə yanaşı islahedici yumora da müraciət edir.

Həm Yusif Səmədoğlu, həm də Seyran Səxavət əsərlərində yumor və satira vasitələrindən məharətlə istifadə edərək sosial-ictimai qüsurların komik yolla islahına çalışır, tipi öz dili ilə ifşa edərək hadisə və xarakterlərin təbiətindəki komizmi, gülünclüyü açıb göstərir.

Satirik və ironik ifadə tərzinin dərinliyi, dramatizmin qüvvətli yumorla birləşməsi, bədii formanın kamilliyi və rəngarəngliyi Yusif Səmədoğlunun və Seyran Səxavətin əsərlərinin əsas keyfiyyətidir.

Həm "Qətl günü", həm də "Nekroloq" romanında fikrin rəmzi-bədii ümumiləşdirmələrlə ifadəsi, hadisə və xarakterlərin bədii-psixoloji təhlili, sosial problemlərin güclü bədii inikası, ictimai nöqsanların fəal yazıçı mövqeyindən tənqidi, lirik-epik təsvirin komik və tragik hallarla ustalıqla əlaqələndirilməsi kimi xüsusiyyətlər diqqəti cəlb edir.

Azadlığı əlindən alınan, torpağından didərgin salınan, öz vətənində köçkün həyatı sürən, mümkünsüz qayıdışın əzabını yaşayan, məğlub edilən və hələ də məğlubiyyətini dərk edə bilməyən, dərk edə bilmədiyi üçün də yeni bəlalara sürüklənən millətin faciəsini özündə əks etdirən bu əsərlər insanı öz tarixi kimliyini, milli mahiyyətini dərk etməyə çağırır, düşündürür və düşdüyü bəlalardan xilas olmağın yollarını göstərir.

Həyat və ölüm, dünya və insan, xeyir və şər, əxlaq və mənəviyyatsızlıq problemi, fərdin və bütövlükdə cəmiyyətin faciəsi hər iki əsərdə son dərəcə yüksək psixoloji səviyyədə, konkret hissi formalarda öz bədii təcəssümünü tapmışdır.

Aristotel Katarsisi antik faciələrin təsiri ilə tamaşaçıların ruhən təmizlənməsi prosesi kimi səciyyələndirmişdir. Daha geniş mənada, katarsis real həyatda istər ayrı-ayrı insanların, istərsə də cəmiyyətin milli əzablardan, sarsıntılardan keçib öz günahlarını – tarixi səhvlərini dərk edib ruhən saflanması, təmizlənməsi, durulması prosesidir. əslində, hər bir şəxsin mənəvi yüksəlişində və ya milli intibahın kökündə bir katarsis vardır. Böyük elmi kəşflər, böyük sənət əsərləri, əslində, katarsisin məhsulu olan böyük ehtirasların təzahürləridir.

Hər hansı bir şəxs və ya millət əzablı yollar keçib səbəb və nəticələri dərindən dərk etmirsə, günahları və səhvləri səmimi etiraf etmirsə, o, katarsisiə yetişmir və nəticədə yeni-yeni sarsıntılara, faciələrə məruz qalır.

Ədəbiyyat

1. Abbasov Abdulla. Həyat və bədii həqiqət, Bakı, "Nurlan" nəşriyyatı, 2006
2. Ədəbiyyatşünaslıq. Ensiklopedik lüğət, Tərtib edəni: Əziz Mirəhmədov, Bakı, "Azərbaycan Ensiklopediyası" Nəşriyyatı Poliqrafiya Birliyi, 1998

3. Ənvəroğlu Himalay. Azərbaycan romanının inkişaf problemləri, Bakı, "Nurlan", 2008
4. Hüseynoğlu Tofiq. Söz-tarixin yuvası, Bakı, Azərnəşr, 2000
5. İmanov Həmid. Fəlsəfənin əsasları, Bakı, Azərnəşr, 2007
6. Kazımov Qəzənfər. Sənət düşüncələri, Bakı Dövlət Palatası, 1997
7. Müasir Azərbaycan ədəbiyyatı. İki cilddə, II cild, Bakı, Bakı Universiteti nəşriyyatı, 2007
8. Səmədoğlu Yusif. Seçilmiş əsərləri, Bakı, "Şərq-Qərb" nəşriyyatı, 2005
9. Səxavət Seyran. Nekroloq, Bakı, 2002
10. Sultanlı Vaqif. Azərbaycan ədəbi tənqidi, Bakı, "Elm və təhsil" nəşriyyatı, 2012

Hayala Efendiyeva

The artistic possibilities of
metaphorical style
Summary

This article speaks about Yusif Samadoglu and Seyran Sakhavat who has important services in the formation of literary-artistic and national-aesthetical sense in Azerbaijan.

The originality of the talent of these writers, their different style of writing, deep humanism in their works, philosophical way, realism and psychological depth, drew the attention of large mass of readers and literary-scientific public.

Yusif Samadoglu and Seyran Sakhavat is the author of novels, tales and stories of deep meaning dedicated to the love for the God, self-actualization and moral perfection which make the people think deeply.

In this article we compared Yusif Samadoglu's "Qətl günü" ("Judgement day") and Seyran Sakhavat's " Nekroloq" ("Obituary").

There is a significant relationship between these works for their scenarios, theme, topic, style and problems. These works are about life and death, the world and human, good and evil, etics and immorality and call the people for moral ethical.

Хаяла Эфендиева

Художественные возможности
метафорического стиля
Резюме

В настоящей статье повествуется о писателе Юсиф Самедоглу и Сейран Сахават, кто имеет важные заслуги в формировании литературно-художественной и национально-эстетический смысл в Азербайджане.

Оригинальность таланта этих писателей, их различные стиль письма, глубоко гуманизма в своих произведениях, философских образом, реализм и психологическая глубина, обратил внимание большой массы читателей и литературно-научную общественность.

Юсиф Самедоглу и Сейран Сахават является автором романов, повестей и рассказов глубокий смысл, посвященный любви к Богу, самореализации и

нравственного совершенства, которые делают людей глубоко задуматься. В этой статье мы сравнили Юсиф Самедоглу с “Судный день” и Сейран Сахават с “Некролог”.

Существует значительная взаимосвязь между этими работ по их сценариям, темы, темы, стиля и проблемы. Эти работы о жизни и смерти, мира и человека, добра и зла, этики и безнравственность и называть людей, для моральной этический.

Rəyçi: professor Tofiq Hüseynoğlu

SİMA İSMAYILOVA
sima_adass @ mail.ru

F.KƏRİMZADƏNİN "ÇALDIRAN DÖYÜŞÜ" ROMANINDA TARİXİLİK VƏ BƏDİİLİK

Açar sözlər: ideologiya, millətçilik, dövlətçilik, kolorit, təriqət
Ключевые слова:идеология,национализм,государственность,колорит,секта
Key words: ideology,nationalism,mercenariness,vivacity,sect

Tarixi öyrənmək və unutmamaq baxımından tarixi romanların əhəmiyyəti böyükdür. Tarixi həqiqətlə yazıçı təxəyyülünün nisbəti, əlaqəsi tarixi romanda mühüm estetik şərtlərdən biridir. Lakin biz tam yəqinliklə bilmirik ki, ədəbiyyatımıza tarixi roman adı altında təqdim olunan əsərlərin hansı həqiqətən tarixi romandır, hansı xronologiyadır? bunu dəqiqləşdirməyə doğurdan da ciddi ehtiyac vardır.

Əslində tarixi roman xronoloji ardıcıllığa tam tabe olmadan keçmişi daha dolğun təsvir etməklə, tarixin koloriti və ruhu düzgün müəyyənləşdirilməlidir. Burada tarix məqsədə deyil, vasitəyə çevrilməlidir. Hər bir yazıçı tarixə müraciət edərkən qarşısına təkcə bəhs etdiyi dövrün hadisələrini açıb göstərmək məqsədini qoymur, bununla yanaşı məsələlərə müasirlik nöqteyi-nəzərindən baxmağa, tarixiliklə müasirliyin vəhdəti prinsipinə əməl etməyə çalışır. Müasir tarixi romandan danışarkən onun müəyyən yaradıcılıq çətinliklərindən də söhbət açmaq lazımdır.

Mühüm çətinlik-tarixi romanda xalq həyatının ,xalqın milli xarakterinin epik dolğunluqla təcəssümünü tapa bilməməsidir. Tarixi romanlarda yazıçı diqqəti daha çox tarixi şəxsiyyətin üzərində cəmlənmişdir.

Digər çətinlik-romanlarımızda mövzu darlığının, tarixi dövrün ancaq müəyyən hadisələri ilə məhdudlaşmağın aradan qaldırılmamasıdır.

Tarixi roman yaradan yazıçı üçün digər janrları yaradan yazıçılardan daha çətin olan şərtlər var. Müasir mövzuda yazan yazıçı bizim müasirimiz olmaqla kifayətlənə bilər, amma tarixi roman yazmış yazıçı həm bizim – XXI əsr oxucusunun, həm də yaratdığı tarixi şəxsiyyətin müasiri olmalıdır.Başqa şərtlər də vacibdir.

1. Tarixi romanda hər kiçik detal etnoqrafik təfərrüat ,dövrün ruhunu düzgün verməyə xidmət etməlidir.
2. Tarixi roman muəllifi,kecmisə muraciət edən yaziçi dövrün ve insanlarin psixologiyasini canlandırmağa xüsusi diqqət yetirməlidir.
3. Tarixi həqiqətlə yazıçı uydurmasi vəhdəti gozlənilməlidir.
4. Bədillik və tarixiliyin vəhdəti munasibəti mühüm şərtdir
5. Tarixi romanda qəhramanın gücü xalqla bağliliginda xalqin arzularının ifadəsində olmasındadir.
6. Real tarixi səxsiyyət bədii surət kimi belə islendikdə onun simasında həm tarixi qəhraman, həm də insan birləsmiş olmalidir.
7. Tarixi romanda qələmə alinan dövrün ruhunu canlandirmaq üçün dil koloritini saxlamaq da mühüm şərtdir.

8. Tarixi dövrün ziddiyyətlərini göstərmək ,tarixi hadisələrin məzmununu açmaq tarixi roman üçün mühüm sənətkarliq məsələsidir.Əsas şərt –tarix məqsəd deyil vasitə olmalidir.

9. Tarixi dövrun umumi atmosfərində, muəllifin təsvirində, movqeyində, obrazlarin nitqində, sujet strukturunda , tarixi şəxsiyyətin fəaliyyətinin məhz onun yasadığı tarixi dövr kontekstində tarixi kolorit təsvir edilməlidir.

10.Tarixi roman mühum tərbiyə vasitəsidir. Gənc nəsil belə əsərlər vasitəsilə oz xalqinin keçmisi ,mubarəzisi ,gorkəmli səxsiyyətlərinin həyati ile yaxindan tanis olur,onlarda vətənpərvərlik ve milli iftixar hissləri guclənir.Buna gore de tarixi mövzuya müraciət edən hər bir muəllif bu isin məsuliyyətli ve şərəfli oldugunu nəzərdən qacırmamalıdır

F.Kərimzadə "Çaldıran döyüşü "romanında çalışmışdır ki, yaratdığı Şah İsmayıl surətində öz bədii təxəyyülündən istifadə edərək dolğun və tarixi sənədlərə əsaslanmış şəkildə şəxsiyyətin bədii obrazını yaratmış olsun. Buna görə də tarixi romanda hadisələr daha geniş bədii axarda daha əhatəli ictimai-siyasi və tarixi-psixoloji zəmində cərəyan edir. Romanda tarixə aydın və konkret münasibət hiss olunur,bundan irəli gəlir ki, təxminən yarıməsrə yaxın bir dövrdə Azərbaycanı və Yaxın Şərqin bir sıra ölkələrini əhatə edən çox geniş ərazidə baş verən əhvalatlar qələmə alınmışdır. Romanda tarixi dəqiqlik ön plana çəkilmişdir.Bu romanda yazıçı tarixi hadisələri geniş epik təhkiyənin predmetinə çevirmişdir.Səfəvilər dövlətinin təşəkkülü uğrunda uzunillik mübarizənin səhnələri romanın əsas epik məğzini təşkil etməkdədir. Hiss olunur ki, müəllif öz qarşısına məsul yaradıcılıq vəzifəsi-Sah ismayıl dövrünü epik miqyasda əhatə etmək, bu görkəmli dövlət xadimini yetişdirən,onun dünya görüşünü ,vətəndaşlıq amallarını formalaşdıran ictimai amilləri və hadisələri göstərmək vəzifəsini qoymuşdur.

Burada zamanın özüdə bir obraz kimi diqqətdədir. Bu romanda Şah İsmayılın hakimiyyətə gəlməmişdən öncə ailəsinə və başına gələn hadisələr müxtəlif saray intriqaları, digər dövlətlərin siyasi məqsədləri bir sözlə tarixi xronologiyanı açırsa, onun fonunda obrazların dünyagörüşünün təsvirində Şah İsmayıl və qardaşlarının həyatı ilə bağlı səhnələrdə, şairlər, aşıqlar, rəssamlarla bağlı epizodlarda isə şairin bədii təxəyyülünün və qələminin gücünü görmək mümkündür.Tənqidçi Akif Hüseynov milli səciyyəyə və sosial siqlətə malik olan tarixi şəxsiyyətlərin böyüklüyündən danışarkən deyir: "Yalnız parlaq fərdiyyətlər özlərində xalq ruhunu qovuşdurur,dövrün sosial qayğılarına biganə qalmırlar, el yaddaşinda iz salacaq fiziki, zehni yaxud mənəvi şücaətə qadir olurlar." Bu fikirnən razılaşmaq mümkündür. Doğurdan da Şah İsmayılın tarixi şəxsiyyət kimi obrazı çox real və inandırıcı təsir bağışlayır. Bunun da başlıca səbəbi yazıçının tarixi hadisələri ,Şah İsmayılın həyat və yaradıcılığı ilə bağlı rəsmi sənədləri diqqətlə nəzərdən keçirməsi və onlara əsaslanmsıdır. Romanda xronologiya verilmir, bəddi sözün qüdrətilə dövrün ədəbi-tarixi səlnaməsi yaradılır. Bu salnamədə Ağqoyunlu Uzun Həsənin hakimiyyətindən başlamış Şah İsmayılın hakimiyyətə gəlməsi və dünya şöhrəti qazanmış hökmdar, sərkərdə, şair," zamanın sahibi"olması göstərilir. Romanda çox da hiss olunmayan müasirlik ruhu da var.Belə ki,bu prinsipə sadiq qalmaq üçün Şah İsmayılın şiə-qızılbaş bayrağı altında apardığı tarixi mübarizənin bədii həllini müasirlik məsələlərilə vəhdətdə verməyə çalışır.

Tarixi romanda qeyd etdiyimiz kimi tarixilik vacib şərtdir. F.Kərimzadə də dövrün geniş epik mənzərəsini canlandırarkən tarixi mənbələrdə öz əksini tapmış mühüm faktları yaradıcılıq süzgəcindən keçirmiş, onlardan səmərəli şəkildə faydalanmışdır. Ona görə də İsmayılın hakimiyyətə gəlməsini təkcə təsvir etməklə kifayətlənmir, o bir tarixçi kimi hadisələrin mahiyyətinə nüfuz edir, İsmayılın hakimiyyətə gəlməsinin köklərini açıb göstərir. Romanda tarixi hadisələrə səyahət etmək əsərin tarixilik və bədiilik baxımından şərhini aydınlaşdırır.

"Bu çinarı yüksək babam qüdrətli Uzun Həsən əkdirib. Bu ağ gövdəli ağac Ağqoyunlulardır... Bəli sülalədir. Amma dövranını sürmüş sülalə... Bu çinarla qohumluğum olsa da mən onun budaqlarında bitmədim. Mən yeni bir sülalənin başlanğıcıyam {2; 9}

Deyilən fikir tarixi mənbələrdə əksini tapmış faktdır. Şah İsmayıl ata tərəfdən özünü Seyid Əli nəsli sayır və bu nəsil şəcərəsi ilə fəxr edirdi. Ana tərəfdən isə o Türkman Həsən bəy Ağqoyunlunun nəvəsi idi və haqlı olaraq da özünü bu sülalənin qanuni varisi hesab edirdi. {1;34}. Çaldıran döyüşü romanında işlədilmiş tarixi sözdür ki, romanda da səslənmişdir. "İndi mən sizdən soruşuram bizə hara lazımdır. Gülüstan ya Azərbaycan" oxucu görür ki, qılınc çalıb ad çıxaran Şah İsmayıl əsl tarixi şəxsiyyət kimi nəinki cürətlidir, həm də ordunu cəsarətləndirib ardınca aparmağa qadirdir. Buna bənzər dioloq və monoloqları çox göstərmək mümkündür ki, tarixiliyi mühafizə edib saxlamaqla tarixi keçmişimizə onun ziddiyyətləri təsvirinə diqqəti çoxaldır. Romanda Şah İsmayılın mənəvi-əxlaqi ləyaqəti də ölkənin tərəqqisi, dövlətin qüdrətinin artması üçün mühüm şərt kimi mənalandırılır. Əgər əxlaq pozulubsa, o cəmiyyət məhvə məhkumdur. Romanda əqidəsizlik, rüşvətxorluq kimi mənfi hallara qarşı mübarizə də məhz bu baxımdan əhəmiyyətlidir. Ölkənin qazisi Məhəmməd Kaşi rüşvətxorluğa, Xorasan qazisi isə əqidəsizliyinə görə edam olunur. Qeyd etdiyimiz tarixi faktlar və sonrada hələ qeyd edəcəyimiz etnonimlər, toponimlər, tarixi əhvalatlar keçmişi əks etdirməkdə yazıçının vasitəsinə çevrilmişlər. Bundan irəli gəlir ki, dövrün mühüm ictimai-siyasi mənzərəsi ilə mədəni-ədəbi mühitin hərtərəfli təsviri paralel işlədilir. Əbdülqadir Marağayinin yaratdığı Azərbaycan muğamı, Sultan Məhəmməd Təbrizinin "Şeyx Səfi" xalısı, Qurbanın mahnıları, Kəmaləddin Behzadın rəsmləri, Həbibinin şeirləri sənətin müxtəlif sahələrinin inkişafını göstərdiyi kimi, xalqın mənəvi simasını açmağa da xidmət edir. Başqa bir məqsəd də var. İsmayılın öz mədəniyyətinə və incəsənətinə olan sevgini əks etdirməkdir.

Romanda hadisələrin coğrafiyasının genişliyi də qeyd olunmalıdır. Xətayinin portretinin avropalı rəssam tərəfindən çəkilməsi bəhs olunan dövrdə Səfəvilər dövlətinin əlaqələrinin genişliyini təsdiq edir. Yeri gəlmişkən qeyd etdiyimiz kimi Şərq miniatur sənətinin ən parlaq çağlarından biri Səfəvilər dövrü olmuş, neçə-neçə istedadlı nəqqaş, xəttat, musiqiçi, şair Xətai sarayında yaşayıb-yaratmışlar. Çaldıran döyüşü zamanı Şah İsmayıl ilk növbədə istedadlı sənətkarların qeydinə qalır, onların xüsusi yerlərdə gizlədilib, qorunmalarını əmr edir.

Romanda Qurbanın obrazının yaradılması, onun həyatı və ölümü, lakin unudulmayan sazının ahəngi nəinki İsmayılın yaddaşından silinmir, həm də mürşidi-kamilim deyərək ədəbiyyatımızda iz qoyan Qurbani yaradıcılığına bir daha nəzər salınır.

Balaca İsmayılı ədəbiyyata, şeirə, sənətə həvəsləndirməkdə sazı ona sevdirən, acı taleli Səkinə obrazı sazın ağrı-acılı simlərində xalq yaradıcılığımızın xəzinə dolu musiqisini yaradır. Balaca İsmayılı ədəbiyyata, şeirə, sənətə həvəsləndirən də məhz Səkinə obrazıdır. Beləliklə F.Kərimzadə təsvir etdii mürəkkəb hadisələr, canlandırdığı müxtəlif taleli sürətlər fonunda dövr haqqında dolğun təəssürat yaratmağa çalışmışdır. Səkinə kimi obrazların simasında xalqımızın ruhu, gözəl mənəvi-əxlaq keyfiyyətləri ümumiləşdirilmişdir.

Bildimiz kim xalqın özünü hərəkətə gətirən başlıca qüvvə dini hisslərdir. Aydın məsələdir ki, dinin son dərəcə mühüm məqsədi din vasitəsilə xalqın diqqətini müəyyən siyasi ideya ətrafında mərkəzləşdirmək olardı. Tarixdən də məlumdur ki, İsmayıla qədər Şeyx Səfiəddin yaratmış olduğu Səfəviyyə təriqətinin bəzi məqsədləri var idi. Bu təriqətin məqsədləri İsmayılı hakimiyyətə gətirməklə əhalini şiəlik əqidəsi adı ilə birləşdirmək, vahid din yaratmaq idi. Bu vasitə idi. Başqa sözlə desək, dini ideologiya siyasi ideologiya funksiyası daşıyırdı. Bu baxımdan Şah İsmayılın vahid Azərbaycan dövləti yaratmaq yolunda gördüyü tədbirlər, öz hakimiyyətini möhkəmləndirmək məqsədilə etdiyi təşəbbüslər bu roman üçün bir tarixi fakt, zəngin materialdır.(burdan basla) Şah İsmayılın ömür yolu – İnsanin Tarixdə yeri haqqinda ,Tarixin və Taleyin çarpazlaşması haqqinda müxtəlif düşünceler oyadir. Axı Şah İsmayil yalniz konkret bir varliq – insan, hökmdar, şair deyil-o, həm də müəyyən tarixi məqsədin və məsləkin dasiyicisidir.Bu məqsəd və məslək isə onun dunyaya gəlməsindən cox cox əvvəllər meydana çixmiş ,cücermeye ,boy atmağa başlamisdi.Bu məsləkin ilk rüseyimi-mövcud olan siyasi ,ictimai,mühitdən naraziliqdir,barişmazliqdir.Eynilə dövlətin xarakteri onu idarə edən sülalənin və hakim elitanin aparici numayəndələrinin etnik mənsubiyyəti ilə deyil,birbaşa onun ideologiyasi ile müəyyən olunur.Bizim tarixdə bu Azərbaycançılıq ideologiyasidir.

Azerbaycançılıq ideologiyasi-azərbaycan mədəniyyəti ,sivilizasiyasinin təməlini təşkil edən eynilə bir basa tarixi ilə yaddaşinda qorunub saxlanmiş mənəvi qururdur.Onu da qeyd edək ki idelogiya səfərbəredici xarakter daşiyan,ictimai fəalliği idarə eden dəyər yönümləri sistemidir.Buna gorə də ideologiyada milli şüurla bağlı olan dəyərlər təcəssümünü tapir.Ideologiyanin eyni ilə Ismayil kimi şexsiyyətlərin siyasi sosialasmasinda böyük əhəmiyyəti ve rolu olub .Bu mənada Ismayilda ideologiya sosial – siyasi dünyagörüşü kimi də çixiş edir.Çünki ideologiya insana bir ictimai varliq kimi baxmaqla səfərbərədici potensial yaradir.Milli mənəvi dəyərlər milli ideologiyanin - fonunda Şah Ismayil Xetai şəxsiyyətində cəmləsir. Milli mənəvi dəyərleri xalq ,cəmiyyət yaradir,şexsiyyət ise onu mənimseyerək formalaşir.Şah Ismayil da bütün fəalliyyəti boyu milli-mənəvi dəyərləri mənimsəyən insan kimi onu da özününkiləşdirir. Bu mənimsəmə isə onun şair –şah simasinda cəmlənir.Şah İsmayilin şeyirləri ilə Azərbaycan amili orta əsrlərdə siyasi elitanin və müsəlman şərqinde Azərbaycanin ziyali təbəqəsinin simasinda öz siyasi təşəkkülünü tapmişdir.Artiq o vaxt bu amil müasir dövrdə bizim "azərbaycançılıq " ideyasi kimi qavradiğımız fenomeni formalaşdirdi.Şah Ismayil fəlsəfəsində Azərbaycan amili xüsusi ideoloji konstruksiya kimi xalqın daxili tələbatının odənilməsinə ,onun spesifik maraqlarinin təmin edilməsinə yönəlmişdi.Mes . İndi"azərbaycançılıq" ideyasinin məzmunu həm ölkə daxilində dövlətçilik məsələlərinin həllinə həm də onun hüdudlarından kənarda maraqların qorunmasına yönəlmiş.Həmin illərdə olduğu kimi azərbaycançılıq ideyasi dövlət müstəqilliyinin güc-

lənməsinə və dövlət süverenliyinin möhkəmlənməsinə xidmət edir.O zaman da Şah İsmayıl bu strateji məqsədlərə nail olmaq üçün birləşdirici ideya lazim idi.Şiəlik təriqəti də (ereb dilindən şiə – tərəfdarlar,partiya mənasini verir) Azərbaycan qızılbaşlarının doktrinası olaraq bu rolu öz üzərinə götürmüşdü.

Yazıçı düzdü şiəlik ideologiyasının təkcə Azərbaycanda deyil, şərq ölkələrində geniş yayıldığını, on minlərlə insanın həmin əqidəni qəbul etməsi, bu yolda vuruşması və həlak olması Şah İsmayılın bir təriqət başçısı kimi böyük nüfuza sahib olduğunu göstərir. Lakin romanda təsvir olunan ayrı-ayrı surətlərin xarakterini açmaq, xüsusən Şah İsmayılın zəngin aləmini işıqlandırmaq məqsədilə qızılbaş ideologiyasının kökləri və qayəsi haqqında bəhs etmək, bəzi zəruri məlumatları süjet xəttindəki hadisələrlə əlaqələndirmək müasir oxucu üçün faydalı olardı. Lakin yazıçı bunu etmir.Əsərdə minlərlə insanın həmin ideologiyaya münasibəti, bu əqidəyə inamı ötəri, həm də bədii inandırıcılıq baxımından zəif verilmişdir. İsmayıl başa düşürdü ki, minlərlə insanı öz ətrafında birləşdirmək üçün onlarda öz ideallarına dərin inam oyatmaq lazımdır. Yoxsul xalq kütlələri də onu xilaskar sayır, təbliq etdiyi ideyalara ümidlə baxirdilar,bu inam yolunda ölümə mərdliklə gedirdilər.Lakin bu mühüm tarixi məsələlər bəzən bədii cəhətdən öz həllini lazımınca tapmir, zahiri təsvirçilik,inandırıcılıq zəif alınır.(1;264)İsmayılın yaratdığı dövlətin Təbrizdən Dərbəndə kimi ərazi əhatə etməsi, bütün hadisələrin baş verdiyi zamanın, məkanın özü də bir tarixi obrazlar kimi diqqəti cəlb edir, bu zaman kəsiyində baş vermiş təzadlar, yüksəliş və enişlər təcəssüm etdirilir.

Əsərin dolğun surətlərindən olan Aləmşahbəyim və Sara xatunun simasında Azərbaycan qadınlarına xas olan ismət, pak məhəbbət, namus və dəyanət kimi mənəvi keyfiyyətlər sənətkarlıqla ümumiləşdirilmişdir. Şah İsmayılın nənəsi Uzun Həsənin anası Sara xatun tarixi mənbələrdə də tədbirli, uzaqgörən bir qadın kimi qeyd olunur. Sara xatuna romanda az yer verilsə də tutarlı bədii təfərrüatlarla canlandırıldığından yaddan çıxmır. Əsərdə və tarixdə də eyni epizodla yaddaşlardadır. O bacarıqlı bir diplomat kimi Əbu Səidlə danışıq aparır və Uzun Həsənin qoşunun Qarabağda, müvəqqəti də olsa, qalmasına razılıq əldə edib, vaxt qazanır.

Uzun Həsənin özü də romanda ağıllı dövlət xadimi kimi təqdim olunur. Tarixdən tanıdığımız Uzun Həsən həm fiziki qüvvəsi ilə, həm cəsarət və igidliyi ilə burda da əksini tapmış olur.

Aləmşahbəyimlə yanaşı Taclıbəyimin də Çaldıran döyüşü zamanı əsir düşməsi ilə bağlı epizodlar və başqalarını da sadalaya bilərik ki, namuslu, məğrur qadınlarımızın ümumiləşdirilmiş obrazları yaradılmışdır.Fərman Kərimzadənin tarixi gerçəkliyə sədaqətindən irəli gəlir ki,gerçəkliyi daha itkisiz və zədəsiz verməyə çalışır. Gerçəkliyi nə qədər bədiiləşdirsə də ,onu nə qədər dəyişsə də təhrif tarixi gerçəkliyi üstələmir.Şah İsmayılın obrazında milli xarakterin özünəməxsusluğu dövrün ruhu ilə bərabər açılır. Şah Xətai ilə şair Xətainin eyni şəxsin simasında təzahürünü canlandırarkən tarixi həqiqətə sadiq qalır. Xətainin fəaliyyətində qılıncla qələmin müəyyən mənada vəhdəti tarixən də belə olmuşdu.

Amma Şah İsmayıl Xətai haqqında yazilmiş digər romanların heç birində elə bu romanda da onun bədii yaradıcılığına sənətkar təxəyyülünə, şairlik qüdrətinə, bir sözlə sənət dünyasına demək olar ki, toxunulmaması surətin xarakterinin tam açılmasına mənfi təsir göstərmişdir. Amma F.Kərimzadə onun təqdimində qismən ideallaşdırmaya meyl edir. Bu da səbəbsiz deyil. Onun həmdə söz sənətkarı

olmasıyla bağlı idi. Bu heyranlıq da, şübhəsiz, vətənpərvərlik duyğusundan irəli gəlirdi. Bütün bunlarla yanaşı əsərin özündə bir koloritliy, xalq yaradıcılığından gələn ruh, zəngin xalqın zəngin dünyasının təsiri aydın hiss olunur. Bunun üçün də yazıçı tarixi inandırıcı vermək məqsədilə konkret dövrün ədəbi dil koloritini müəyyən qədər saxlamağa çalışmışdır. Bu roman yüksək ideya-estetik keyfiyyətləri, güclü ictimai məziyyətləri ilə yanaşı, forma, quruluş, dil xüsusiyyətləri ilə diqqəti cəlb edir.

Obrazların dünyagörüşü, hadisələri dərketmə və mənalandırma bacarığı, sənətin, şerin dili ilə təzələnən tarixi hadisə və faktlar, zəngin bədiilik vasitələr oxucunu ruhən və mənən keçmişə aparır, təsvir edilən dövrün təbii mühitinə, havasına daxil edir. Məs. Çaldıran döyüşündə işlənmiş "Ey bu axşamın sahibi, sən onun ağlını qılıncı, qılıncını ağlı kimi iti, baxtını atı kimi yüyrək et", " Bu dostluğa dönük çıxsam qılıncuna doğranım, oxuma sancılım" və s. tipli cümlələrin çoxunda Dədə Qorqud ifadə tərzi, kökü daha qədimlərə bağlı ifadə formaları ululuq koloriti yaradır.

Ədəbiyyat:

1.Axundlu Yavuz"Azərbaycan Tarixi Romani:Məsələlər,problemlər"Baki,2005
2.Kərimzadə Fərman"Çaldıran Döyüşü"Bakı 1987

С. Исмайылова

Чалдыранская война
Резюме

Эта статья была посвящена исследованию F. Керимзаде «Чалдыранская война». В романе создан образ великого Шах Исмаила с исторической и художественной точки зрения.

В романе ощущается четкое и опрделённое отношение к истории .В романе чуствуются дух колорита и народное творчество.

Роман уделяет особое внимание высоко идеологическим и **эстетическим** качествам. Он привлекает внимание к форме, структуре и особенности родного языка .

S. İsmayılova

Chaldiran war
Summary

This article has been devoted to historical and artistic research of the image of Shah Ismayil Xetai who is created in the novel by F.Kerimzade "Chaldiran war". In the roman we see to the history clear and specific attitude. In the masterpiece are felt vivacity and the spirit which is coming from nation.

This roman attracts attention with the qualities of the high-in addition, at the same time the specific language, shape and structure.

Rəyçi: Sərxan Xavəri

CƏMİLƏ QULİYEVA
Sumqayıt Dövlət Universiteti
Ismayilzade_l@mail.ru

İLYAS ƏFƏNDİYEVİN ƏSƏRLƏRİNDƏ FOLKLOR ELEMENTLƏRİ

Açar sözlər: folklor, İ.Əfəndiyev, milli ruh, əfsanə, nağıl
Key words: folk-lore, I.Efendiyev, national spirit, legend, tale
Ключевые слова: фольклор, И.Ефендиев, национальный дух, легенда, сказка

Hər bir xalqın folklorunun özünəməxsus bənzərsizliyi vardır. Onların həyat şəraiti, dünya haqqında təsəvvürləri burada bütünlüklə öz əksini tapmışdır. İstedadlı sənətkar, qüdrətli sənət ustası öz zəngin folkloruna söykənməklə, dünya xalqlarının yaratdığı ədəbiyyatı, sənəti bilməklə samballı əsərlər yarada bilər.

İ.Əfəndiyev də folklora dərin köklərlə bağlı olan bir sənətkar olmuşdur. Nənə-babalarının söylədikləri nağıllar, əfsanələr, rəvayətlər, mövzusu xalqın həyatıyla sıx bağlı olan bayatılar onu körpəlikdən xalq yaradıcılığı ilə qovuşdurmuşdu. İ.Əfəndiyev yaradıcılığında xalq yaradıcılığı üçün ənənəvi olan süjet, motiv və obrazlar vardır.

Xalq ədəbiyyatının ən qədim növü olan əfsanələrin süjetlərindən yararlanma sənətkarın yaradıcılığında daha xarakterik səciyyə daşıyır. Sənətkarın qələmə aldığı "Apardı sellər Saranı" xalq ədəbiyyatının tarixi kökləri üstündə pöhrələnmiş yeni realist bir əsər kimi oxuculara təqdim olunmuşdur.

İ.Əfəndiyev xalq içərsində geniş yayılmış bu əfsanənin süjetindən istifadə etməklə, obraz və motivlərdən bəhrələnməklə yeni bir sənət nümunəsi yaratmışdır.

Əsərin əsas mövzusu haqq-ədalət, azadlıq və səadət uğrunda mübarizə, əsas ideya bəşəri ideyadır; məhəbbət, vəfa, sədaqət, etibar. Bu xalqımızın milli-mənəvi dəyərlərinin tərkib hissəsidir.

Sara "Apardı sellər Saranı" əfsanəsinin qəhrəmanı olub yazıçının yaradıcı surətdə işlədiyi yeni obrazdır. Sara və Xançoban bir-birini dərin məhəbbətlə sevir. Lakin qəddar şah onların səadətinə qılınc çalır. Şah Saranı ələ keçirmək üçün atasına var-dövlət təklif edir. Şahın təkliflərini qəbul etməyən ata qızının Xançobanla nışanlı olduğunu bildirir.

Xalq yaradıcılığında əsas yer tutan namus, qeyrət, əhdə vəfa, sədaqət prinsipləri bu əsərin sujetində əsasdır. Ata Saranı yadelli xana təslim etməyərək onu coşqun sellərin qoynuna atır. İ.Əfəndiyev əsərdə Saranın atasını etibar, sədaqət mücəssiməsi kimi göstərmişdir.

Xalq arasında məcazi mənada Divanə Bəhlul kimi tanınan Bəhlul Danəndəylə bağlı lətifələr geniş yayılmışdır.

İ.Əfəndiyevin "Vəzir Allahverdi xan və Bəhlul Danəndə" əsərini bu lətifələrdən birinin sujeti əsasında yazmışdır. Əsərin qəhrəmanı vəzir və Bəhlul Danəndədir.

Bəhlul Danəndəylə bağlı lətifələrdən birində deyilir ki, padşah vəziri ilə səyahətə çıxır. Yol kənarında qabağına üç topa torpaq yığmış Bəhlul Danəndəni gö-

rürlər. Bəhlul Danəndənin bu torpağı satdığını eşidən vəzir maraqlanaraq pul verib həmin torpaq topalarını alır və hər birinin mənasını ondan soruşur. Bəhlul Danəndə torpağı ona satarkən deyir ki, aparıb bu torpağı varlı, zalım adamlara etibar edənlərin, nanəcibdən borc alanın, hər yetənə sirr verənin başına tökərsən.

Vəzir onun bu sözlərini sınamaq üçün padşahın qoçunu oğurlayıb gizlədir və arvadına bu sirri danışır, bir nanəcib varlıdan yüz tümən borc alır. Bir gün vəzir arvadıyla savaşır və arvad acıq edib onun şahın qoçunu oğurladığını camaata danışır. Xəbər şaha çatan kimi vəzirin dar ağacından asılmasını əmr edir, nanəcib varlı da ölüm ayağında ondan borcunu tələb edir.

Nəhayət, Bəhlul Danəndənin dedikləri sözlərdəki həqiqəti başa düşən vəzir padşahdan ölümqabağı söz alıb əsil həqiqəti ona danışır və şahın qoçunu gətizdirir. Vəzir padşaha deyir:"- Mən sənə qırx il qulluq eləmişəm. Demə, bir qoç qədər də qiymətim yox imiş. Bəhlul dediyi söz doğru çıxdı. Məni azad elə.

Padşah çox yalvardı, vəzir razı olmadı. Vəzirlikdən çıxıb öz evinə getdi. O gündən arvadına sirr vermədi, heç bir varlıdan borc almadı....."

Yazıçının "Vəzir Allah verdi xan və Bəhlul Danəndə" hekayəsində əsərin qəhrəmanı da Bəhlul Danəndənin üç sözündən şübhəyə düşüb onun sözlərindəki həqiqəti yoxlamaq qərarına gəlir. Üç kül təpəciyini Bəhlul Danəndədən alan ağıllı vəzir burada nə isə bir məna olduğunu anlayır. Üç qızıl verib kül təpəciklərin mənasını soruşur: "Bəhlul Danəndə birinci təpəciyi göstərib dedi:

-Bu kül təpəsi o adamın başına ki, padşaha inanır.
İkincisini göstərib dedi:
-Bu o adamın başına ki, arvadına inanır.
Üçüncüsünü göstərib dedi:
-Bu o adamın başına ki, dostlarına inanır (5, s 52).

Əsərdə Bəhlul Danəndənin sözlərindəki həqiqətə inam hissi əsas götürülür. Onun sözlərindəki mənanı aşkara çıxarandan sonra vəzir hökmdara deyir: "Bəhlul Danəndə o üç kül təpəsilə bizi fənalığa qarşı sayıq olmağa çağırır. Əlahəzrət, mən yenə də bu əqidəyə gəlmişəm ki, hər halda biz hökm edənlərin borcu daha doğrusu, çarəsi yaxşı insanlara inanmaq və bu inama istinad edərək cəmiyyəti ədalətlə idarə etməyə çalışmaqdır" (5, s 56).

Əsərdən çıxan nəticə, ideya bu sözlərdə öz əksini tapır: Ağıllı nəsihətlərdən yararlanmaqla, ağıllı şəxsiyyətlərin müdrik ideyalarından bəhrələnməklə hakimiyyəti idarə edən şəxsin hakimiyyəti də uzun ömürlü olar, bu nəsihətləri unutmayan dövlət başçısı da xalqın rəğbətini qazana bilir.

Çünki ağıllı nəsihətlərdən yararlanmaqla əldə edilən müvəffəqiyyətlər daha uzun ömürlü, xeyirli, faydalı ola bilər və ondan istifadə edən hər kəsə ancaq xeyir dəyə bilər. Nağıl, rəvayət janrından bəhrələnməklə yazılan əsərlərində təsirlilik, səmimilik ön plana çəkilir.

O, nağıl motivlərindən təkcə bəhrələnmir, eyni zamanda özü də hadisələrin, nağıl qəhrəmanlarının xarakterinə münasibətini bildirməklə yaratdığı əsərin ideya və məzmun orijinallığını, əsərinin bədii dəyərini, emosional təsir gücünü artırmağa çalışır.

"Geriyə baxma, qoca" əsərində biz tez-tez nağıl dünyamızın qəhrəmanı Məlikməmməd obrazına, qardaşlar arasındakı düşmənçilik süjetinə də rast gəlirik.

Ümumiyyətlə, xalq yaradıcılığında rast gəldiyimiz sujetlərdən biri qardaşlardır. Məlikiməmməd nağılı bunun bariz nümunələrindən biridir.

Yazıçı əsərində qəhrəmanların daxili aləmini açmaq üçün tez-tez Məlikməmmədin kəndirini kəsib onu qaranlıq dünyada qoyan nağıl dünyasının qəhrəmanları olan xain qardaşları xatırladır. Muradın atasının qardaşı Qubadın əməllərini açıqlayır. Bütün varını bir sandıqda qardaşına etibar edib onun yanına gətirməsi, Qubadın sandığı sındırıb içindəkiləri oğurlaması, Abdullanın qardaşından varidatı gətirib verməsini tələb etdikdə onları tutdurmaqla hədələməsi, Muradın əmrləri ilə atası arasındakı münasibətlər onun qəlbini göynədir və o, tez-tez Məlikməmmədin ipini kəsib onu qaranlıq dünyada qoyan qardaşları nifrətlə xatırlayır.

Çünki yazıçının kiçik qəhrəmanı atasının Məlikməmməd kimi qardaşları tərəfindən aldığı zərbənin acısını özü də yaşamalı olmuşdur. Atası Abdullanın bütün varını bir sandığa yığıb qardaşına etibar etməsi və qardaşı Qubadla arvadının bu varidatın arxasına keçməsi onları aclıq, səfalət içərsində yaşamağa məcbur edir və o bacısıyla birlikdə əsgərlərin verdiyi yağsız, dadsız, ətsiz supla günlərini keçirir, acından ölməmək üçün əzablara qatlaşmalı olur.

"Qəhrəman və bülbülün nağılı" əsərində xalq ədəbiyyatından gələn motivlər güclüdür. Bu hekayədə yazıçı qanlı döyüşlərdə düşmənlə vuruşmuş və bu döyüşdə ağır yaralanmış igid bir qəhrəmanın ömrünün son anlarını təsvir edir. Qəhrəman yeddi düşməni öldürüb yaralanandan sonra huşunu itirib yerə yıxılır. Bu qəhrəman igid, cəsur döyüşçü olmaqla bərabər sevən aşiqdir.

Ömrünün son anlarını yaşayan yaralı igid məhəbbət, sədaqət rəmzi olan bülbüllə qarşılaşdırılır. Yazıçı əfsanələrimizdə olduğu kimi öz əsərində də dilsiz-ağızsız bülbülə dil verir. Bülbül al-qan içərsində yıxılıb qalmış oğlanı görüb fəryad qoparır. Bülbülün səsi igidin gözlərini yaşardır.

Qəhrəmanın gözlərini yaşardan sevgilisinidən uzaq düşməsi, ona qovuşa bilməyəcəyidir. Yazıçı qəhrəmanın taleyinə acıyır, onun ülvü arzularını ürəyində qoymaq istəmədiyi üçün yuxularında öz sevgilisiylə əbədi birləşdirir.

Yazıçının qəlbinin ifadəçisi olan bülbül, onun sonsuz məhəbbətini ifadə edir və burada yazıçının bədii təxayülü, onun xalq ədəbiyyatından seçmələrlə necə zənginləşdirdiyini sübut edir.

İ.Əfəndiyev yaradıcılığında folklorla bağlı əsas cəhətlərindən biri də məhz xalqımızın zəngin adət-ənənələrinin, mərasimlərinin öz sənət əsərlərində canlı verə bilməsidir. Sənətkar xalqımızın məişətini, adət-ənənələri ilə bağlı xüsusiyyətləri öz bədii təfəkküründən keçirərək onlardan yaradıcı surətdə bəhrələnmişdir.

Qədim eposlarımızda dastanlarımızda yaşayan qonağa hörmət və ehtiram kimi adətimizə İ.Əfəndiyevin də əsərlərində şahid oluruq.

Yazıçının əsərlərində qonağa kimliyindən asılı olmayaraq hörmətlə yanaşılır, ən əziz adam kimi qəbul edilir.

İ.Əfəndiyevin "Tufandan sonra " əsərində bir yol azmış gənc geoloqu və ovçunu qonaq edən çoban surəti ilə tanış oluruq. Hətta gecə qonaqların yerini öz komasında salan, özü isə sürünün içində gecələyən nəcib çobanın da qonağa hörmətində adət-ənənələrinə bağlı olduğunu görürük.

"Dağlar arxasında üç dost" əsərində də qonağa hörmətlə bağlı gözəl adətlərimiz təsvir edilmişdir.

İ.Əfəndiyevin əsərlərində yaşayan ən gözəl adətlərdən biri ağsaqqal sözünə, ağsaqqal yaşına, bir sözlə, böyüklərə bəslənən hörmətdir. Yazıçı əsərlərində yaratdığı Alxan surətində, Kərbalayı İbi xan, Möhnət qoca kimi obrazlarda ağsaqqallara məxsus gözəl keyfiyyətləri əks etdirmişdir. Yazıçının yaradıcılığında qədim adətlərimizlə səsləşən ən yaxşı keyfiyyətlərdən biri də ata-anaya, ağsaqqala, qadına hörmətdir.

Azərbaycanın görkəmli yazıçısı İ.Əfəndiyev bütün yaradıcılığı boyu əsərlərində həyat həqiqətlərini əks etdirmiş və qiymətli əsərlər yaratmışdır.

Yaratdığı bu əsərlərdə şifahi xalq ədəbiyyatı nümunələrindən, xalq sənətinin dəyərli incilərindən faydalanmışdır.

O, xalqın yaratdığı zəngin xəzinədən məharətlə istifadə etmiş, xalq təfəkküründən bədii təxayülündən öz yaradıcılıq imkanları dairəsində bəhrələnmişdir.

İ.Əfəndiyev yaşadığı elin, obanın və ümumtürk folklorunun bədii qaynaqlarından yararlanmaqla özünəməxsus psixoloji sənət duyumları yaratmış, özündən əvvəlki böyük klassiklərimizin ənənələrini davam etdirmişdir. Folklor nümunələrindən faydalanması yazıçının əsərlərində milli ruhu, xəlqiliyi daha da qüvvətləndirir.

Ədəbiyyat

1.Azərbaycan nağılları. 5 cilddə, Bakı, Azərnəşr, 1961-1965
2.Azərbaycan folkloru antologiyası, 2 kitab, I kitab, Bakı, 1968
3.Əfəndiyev İ. Seçilmiş əsərlər. 6 cilddə, II cild, Bakı, 1984
4.Əfsanələr. Bakı, Gənclik, 1986
5.Təhmasib M.H. Nəsimi və xalq poeziyası. "Ədəbiyyat və incəsənət" qəzeti, 11 avqust, 1973

Д.Кулиева

Элементы фольклора в произведениях
Ильяс Ефендиева
Резюме

В статье говорится о произведениях И.Ефендиева написанных им с использованием образов взятых из жемчужин устного народного творчества.

Также отмечается, что И. Ефендиев возпользовавишсь неиссякаемым источником художественного творчества своего радного края и общетюркского фольклора создал своё непавторимое образно-психологическое творческое восприятие.

J.Qulıyeva

Mythological elements in
I.Efendiyev's works
Summary

The article is about I.Efendiyev's works based on oral folk literature. Using all – Turkish folk's artistic sources I.Efendiyev created indivitual psychological artistic feelings. ilyas afandiyev was closly in connection folk-lore with deep roots. we can see our old traditions as respect to the guests and etc. which comes from our old epos in Afandiyev's works.

There is creation of a traditional folk art, characters, motive in Afandiyev' s creative.

Rəyçi: Sevinc Həmzəyeva

LEYLA MƏMMƏDƏLİYEVA
AU-nun doktorantı
e-mail: raminrovsan@ mail.ru

MÜSTƏQILLIK ILLƏRINDƏ ELÇIN PUBLISISTIKASINDA HEYDƏR ƏLIYEV OBRAZI

Açar sözlər: müstəqillik, siyasət, publisitika, ümummilli lider
Ключевые слова: независимость, политика, публицистика, общенациональный лидер.
Key words: independence, policy, publicism, great leader

Elçin müasir nəsrimizin parlaq nümayəndələrindən biri- ədəbiyyatşünas, tənqidçi, fəal ictimai xadimdir. O, 60-cı illər ədəbi nəslinin yetirməsi olub istedadı, bacarığı ilə sanballı nəsr əsərlərinə uğurla imza atmış, həmçinin dövrün reallıqlarını olduğu kimi əks etdirməyə çalışan müxtəlif səpgili publisistik əsərlər müəllifi kimi də tanınmışdır. "Yeni Azərbaycan nəsri"nin ən istedadlı yaradıcı simalarından biri olaraq həmçinin oxunaqlı, düşündürücü publisistik əsərləri ilə bir daha bizə onu deməyə əsas verir ki, o peşəkarlıq zirvəsini artıq çoxdan fəth etmişdir. 60-cı illərdən ədəbi mühitə qadəm qoymuş yazıçı Elçin artıq 80-90-cı illərdən başlayaraq ölkədə baş verən ictimai-siyasi ab-havaya uyğun olaraq ədəbi istiqamətini bir qədər dəyişməyə məcbur olmuşdur. Mühit onu həm də ictimai xadim kimi yetişdirir. O, 1987-ci il dekabrın 28-dən başlayaraq "Vətən" cəmiyyətinin sədri kimi olduqca məsul bir vəzifənin daşıyıcısı olur. Elə o vaxtdan başlayaraq cəmiyyət xaricdə yaşayan neçə-neçə dəyərli həmyerlimizin ümid çırağı, pənah yeri oldu. Bu cəmiyyətini fəaliyyətinə qədər hələ heç kəsin mühacir həmvətənlərimizin taleyi barədə düşünmək iqtidarında olmadığı bir vaxtda Elçin qürbətdə vətən həsrəti ilə yaşayan nə qədər sanballı, dəyərli azəri övladlarını öz ölkəsinə -Azərbaycanına qovuşması yolunda həmin illər heç kəsın görə bilmədiyi çox işlər görmüşdür. Yazıçı-publisist "Vətən" qarşılıqlı anlaşma və etimad körpüləri" adlı müsahibəsində Azərinformun müxbirinin suallarına belə cavab verir: "-Bu ictimai təşkilat xaricdəki həmvətənlərlə əlaqələri möhkəmləndirmək üçün təsis edilmişdir. Cəmiyyətin məqsədi xaricdəki həmvə**tənlərlə** Azərbaycan arasında mədəni əlaqələri möhkəmləndirmək niyyətini həyata keçirmək, onların yaşadığı ölkələrlə əməkdaşlığın və dostluğun genişləndirilməsinə kömək göstərməkdir. "Vətən" cəmiyyəti həmvətənlərimizin Azərbaycan dilini öyrənməsinə də böyük əhəmiyyət verir."(3;29)

1993-cü ildən Baş nazirin müavini vəzifəsinə irəli çəkiləndə Elçinin məqsədi yalnız vətənə layiqincə xidmət etmək, yenicə müstəqilliyə qovuşmuş ölkəsinin çiçəklənməsi, vüqarla ayağa durması, qüdrətli dövlətlər sırasında məxsusi yeri olması üçün əlindən gələni etmək olur.

Müstəqillik illərində yazıçı publisistikasının məziyyətlərindən danışarkən heç şübhəsiz ki, bu müstəqilliyi bizə nəsib etmiş, dövlətimizin qurucusu, yaradıcısı olan ulu öndər Heydər Əliyevin xidmətləri hamımız üçün danılmazdır. Elə bu baxımdan müstəqil dövlətin qurucusu ilə əl-ələ, çiyin-çiyinə cəsarətlə addımladığını publisistik əsərlərində böyük iftixar hissi ilə qələmə alan Elçin artıq bu dəfə onu bir

ictimai xadim olaraq daim, diqqətlə izləyə bilmək imkanına malik olmasını da qürur hissi ilə dilə gətirir. Dahi rəhbərlə bağlı gördüyü, eşitdiyi, yaxından isti-isti müşahidə etdiyi hər bir məqama yerindəcə qiymət vermə bacarığını məhz publisistik janr vasitəsi ilə oxucusuna daha tez çatdırmaqla yaradıcı imkanlarından məharətlə istifadə edə bilmişdir. Publisistik janrın bütün növlərində-oçerk, məqalə, müsahibə və çıxışlarında qələmini sınayan yazıçı-publisist dahi rəhbərlə bağlı bütün hisslərini daha dolğun, mükəmməl, tarixi-siyasi faktları olduğu kimi əks etdirərək nəticədə uğurlu sənət əsərləri ortaya qoymağa nail olmuşdur. Bütün çıxış, müsahibə, məqalələrində bunu daim, dönə-dönə qürur və fəxarət hissi ilə vurğulayan müəllif dahı rəhbərlə məhrəm olduğunu belə yazır: "... Təskinliyi onda tapıram ki,Azərbaycan öz müstəqilliyi uğrunda mübarizənin bu tarixi çağında hadisələri də, vəzifə adamlarını da şəxsən prezidentin özünü də kənardan yox bilavasitə içəridən, "mətbəx"dən müşahidə etmək imkanına malikəm."(2;248)

Elçinin dahi rəhbərin xatirəsinə həsr etmiş olduğu "Dünya axirət əkini..."(1992), "Tarixlə üz-üzə dayanmış adam"(1995) adlı geniş həcmli, sanballı publisistik əsərlərinin adını çəkə bilərik. Hər iki əsər haqqında çox söz demək olar: istər əsərin həm elmi, bədii tutumu, həm janrin tələblərinə uyğun olaraq hadisələri təhrif etmədən doğru-düzgün təqdim etmə bacarığı və bir də ki, dövrün siyasi icmalını yetərli baxış bucağından işıqlandırmaq səriştəsindən. "Dünya axirət əkini..." adlandırdığı publisist yazısını müəllif oçerk adlandırır. Oçerk publisistik janrın daha geniş həcm imkanlarına malik bir növü olduğu üşün burada hadisələr həyatdakı kimi təqdim edildiyindəndir ki, publisist burada həyat hadisələrinə sadiq qalmış, ancaq ulu öndərlə bağlı saf, təmiz hisslərini işıqlandırmağa çalışmışdır. Əsərdə həm elmi, həm siyasi və həm də bədii publisistikanın bütün imkanlarından yerli-yerində, yetərincə bəhrələnən müəllif hər üç növün vəhdətinə, sintezinə məharətlə nail olmuşdur.

Haqqında bəhs olunan məqalədə müstəqillik dövrü Elçin publisistikasında Heydər Əliyev obrazı təsvir və təhlil olunur. Müstəqillik adlı çox əvəzolunmaz bir neməti bizə bəxş etmiş ümumilli liderimiz Heydər Əliyevin üzdə olan və pərdəarxası xidmətləri zaman-zaman çözülərək, öz layiqli dəyərini alacaqdır. Şübhə yoxdu ki, qədirbilən xalqımız onun misilsiz xidmətlərini hələ illər sonra da unutmayacaqlar. Məqalədə müstəqillik illərində Elçin publisistikasında H.Əliyevin mükəmməl obrazının həm yazıçı-publisist, həm də bilavasitə dahi rəhbərlə əl-ələ, çiyin-çiyinə çalışmış fəal ictimai xadim rakursu nöqtey-nəzərindən təhlil etməyə çalışmışıq. Məqalədə əsasən Elçinin "Dünya axirət əkini . . . , "Tarixlə üz-üzə dayanmış adam" adlı publisistik əsərlər, o cümlədən yazıçı-publisistin respublikamızın müxtəlif qəzet və jurnallarında dərc olunmuş müsahibələri və çıxışları nəzərdən keçirilərək tədqiq edilmişdir. Elçin müstəqil dövlətin qurucusu kimi dahi rəhbərə az da olsa, yardımçı olduğu üçün daim qürur hissi duyur, publisistik əsərlərində onun danılmaz xidmətlərini yeri gəldikcə qədirbilənliklə xatırlamaqla millət və tarix qarşısında öz ziyalı borcunu yerinə yetirməyə çalışmışdır. **Heydər Əliyev öz dərin zəkası, iti hafizəsi, qeyri-adi, intuitiv dərketmə bacarığı, uzaqgörən siyasəti, öz "şah əsəri" müstəqil Azərbaycanı ilə tarix durduqca yaşayacaq və tədqiq ediləcəkdir.**

Dünya axirət əkini . . . " əsərində Elçin H. Əliyevin Moskvadakı fəaliyyətindən, onun böyük nüfuza malik olmasından, xususilə burada 1985-ci ildə

keçirilən Beynəlxalq Kitab Yarmarkasından söhbət açır. Publisist o dövr imperiyanın qılıncının kəskin bir vaxtında vəzifəli məmurların toplaşdığı həmin tarixi günləri belə xatırlayır: "Məlum oldu ki, hamı, o cümlədən, Sov. İKP MK-nın yüksək vəzifəli çinovnikləri, nazirlər Heydər Əliyevin gəlişini gözləyir, o isə gəlib çıxmır. ...nəhayət H. Əliyevin maşını gəldi və indiki kimi mənim gözlərimin qabağındadır ki, Aleksandr Nikolayeviç Yakovlev –gələcək Siyasi Büro üzvü və bu gün köhnə üsul idarəni ifşa eləyən adam, o zaman isə Sov. İKP MK-nın yeni təyin olunmuş şöbə müdiri o yağışın altında axsaya-axsaya necə maşının qabağına yüyürdü, Heydər Əliyevi necə yaltaqcasına qarşıladı." (2; 233)

H.Əliyev daim sənət adamlarına, ədəbiyyatçılara xüsusilə mədəniyyət işçilərinə diqqət və qayğısı ilə hamımızın yaxşı xatirindədir. O, müxtəlif peşə sahələrinin mütəxəssisləri ilə peşəkar səviyyəsində söhbət etmək məharətinə malik, unikal şəxsiyyət olmuşdur. Fenomenal yaddaşa, qeyri-adi hafizəyə malik bu nadir şəxsiyyət XX əsrdə Azərbaycan tarixinə ulu tanrı tərəfindən bəxş edilmiş nadir şəxsiyyət idi. Onun bu analoqu olmayan, təkrarolunmaz xüsusiyyətlərini daim yüksək heyranlıqla müşahidə edən Elçin dahi rəhbərə həsr etdiyi publisistik əsərlərində onu belə xarakterizə edir: " Həmişə öz-özümə fikirləşəndə, təccüb, bəzən, hətta heyrət etmişəm ki, Heydər Əliyev kimi ucqar bir yerdə boya-başa çatıb təhsil alasan, uzun illər boyu DTK kimi sənətdən yaradıcılıq mühitindən uzaq bir yerdə işləyəsən və bu dərəcə də də ədəbi-estetik təfəkkür tərzinə malik olasan" (2 ;235).

Heydər Əliyev həyatın enişli-yoxuşlu hər üzünü görmüş, gələcəkdə dahi bir insan kimi yetişəcəyinə özündə böyük güc-qüvvə hiss etmişdir. 1969-cu ildən siyasət meydanında parıldayan bu nadir insan tezliklə hadisələrə yerindəcə qiymətvermə bacarığı, bir çox həlli müşkül siyasi vəziyyətlərdə çevik, ayıq manevretmə qabiliyyəti, tükənməz enerjisi ilə çox keçmədən mərkəzi dairələrə səs salır. Uzun müddət vəzifədə olarkən əlindən tutub çörək verdiyi insanların o, vəzifədən ayrılarkən üzüdönüklük etməsi şübhə yox ki, dahi rəhbəri mənən sıxmamış deyildi. Bu hissləri publisist belə nəql edir: "...adamlar, o iqtidardan düşdükdən sonra necə bəd üz göstərmələri hamıdan əvvəl H.Əliyevin özünə təsir etməli idi və emosional adam olduğu üçün yəqin ki, də etdi.(2;237)

Məclislərin birində "Ulu öndəri bir sözlə necə səciyyələndirərdiniz? sualına Elçin gözlənilmədən "Tənha adam" cavabını verməsini özü də heç cürə anlamadığını bildirir və belə yazır: "Bu yaxınlarda yaxın adamlarla xudmani bir söhbət zamanı bir dost məndən soruşdu: " –Heydər Əliyevi bir sözlə necə səciyyələndirərdin?" Özüm üçün də gözlənilməz bir cavab verdim: " Tənha adam." Bilmirəm nə üçün belə dedim? Nəyə görə? Hansı əsasla? Bəlkə ona görə ki, istedadlı şəxsiyyət həmişə tənha olur? Bilmirəm...Amma belə dedim və indi də belə düşünürəm." (2; 238**).**

Elçin bu fikirlərini 1992-ci ildə qələmə almışdır. Bu elə bir zəmanə idi ki, bəzi adamlar bəlkə də H. Əliyevi doğurdan da tənha adam hesab edə bilərdilər. Lakin uzaqgörən ziyalılar, o cümlədən də Elçin H. Əliyevin dünyada bənzəri olmayan siyasi məktəb yaratmasını, heç kəsin ağlına gəlməyən diplomatik gedişlər etməsini həssalıqla duyurdu. "Tənha adam" ifadəsi bu mətndə sanki sehrlənir, yeni məna çalarları ilə zənginləşir, Ümummilli liderimizin əlçatmazlığının sinoniminə çevrilir. Dahi şəxsiyyətlər həyatın yeniləşməsi, insanların düşdüyü və həlli müşkül olan məsələləri istənilən məqamda həyata keçirməyə qadirdir. H. Əliyev də Elçinin bu əsəri

yazdığı dönəmdə vəzifəsindən ayrılsa da, xalqının zülmətə qərq olmuş azadlıq yoluna nur çiləməkdən yorulmamamışdır. Bütün dünyadakı siyasi xadimlərdən onu fərqləndirən bir xüsusiyyət də öz ideyalarını həyata keçirərkən tənha bir guşəyə çəkilməsi, xalqın köməyindən yetərincə istifadə etməməsidir. O, bütün ağrı- acıları öz çiyinlərində daşımağa üstünlük verdi. Bu qədər ağır yükü daşımaq ona görə mümkün oldu ki, o sonsuz el məhəbbətindən, xalq sevgisindən böyük güc və qüvvət alırdı. Elçin burada "bilmirəm nə üçün belə dedim?" ifadəsini ona görə işlədirdi ki, böyük şəxsiyyət haqqında hamıdan çox bilirdi və yaranmış siyasi vəziyyəti, müharibə şəraitini nəzərə alaraq fikirlərini, bir növ, yarımçıq ifadə etməyə üstünlük verirdi. Bu gün də müharibə şəraiti davam edir. Dahi şəxsiyyətin siyasi kursu uğurla davam etdirilir. Belə demək mümkündürsə, "tənha adam"ın yenə də "tənha davamçı"sı xalqımızı, ölkəmizi inamla irəlilədir, zirvələr fəth etməyə istiqamətləndirir və qələbələrimizin parlaq və labüdlüyünə zərrə də olsa şübhə etmir. Yəqin ki, Elçin yaxın gələcəkdə işğaldan azad olmasına əmin olduğu Azərbaycan mətbuatında yuxarıda yarımçıq qoyduğu fikirlərini böyük bir ilhamla bəyan edəcəkdir.

Elçinin bu fikirlərinə xalq yazıçısı S. Əhmədlinin əsərlərində də rast gəlmək olar. O, "Kef" romanıda öz fikirlərini metaforik tərzdə belə ifadə edir: "Cəmiyyətin havası hər bir kəsin gətirdiyi ovqatdan törəyir. Sən də öz işin köməkkeşliyin, xeyirxahlığınla cəmiyyətə... fayda verirsən. Mənim hətta belə bir fikrim var: Anonim xeyirxahlıq! Dində, şəriətdə də var: elədiyin yaxşılığı bildirmə, gözə soxma. Sağ əlin verdiyini sol əl bilməsin. Bu sayaq, yiyəsiz, anonim yaxşılıq. Özü görünməyən, biliməyən bir insan xeyirxahlıq edir...Biz alışmışıq anonim əməllərə: Bir nadürüst pislik törətdiyindən özünü, adını gizlədir. Bir də var insanlar adını bilmədikləri, tanımadıqları bir insandan faydalanır. Minnətsiz, ödəncsiz **(4;50-51)**

"Tarixlə üz-üzə dayanmış adam" adlı publisistik yazısında müəllif dahi rəhbərin hakimiyyətdə olduğu illəri birər-birər yaddaşının süzgəcindən keçirir. H.Əliyevlə bağlı hələ gələcəkdə cild-cild, qalaq-qalaq tədqiqatların yazılacağını əminliklə vurğulayan publisist onun qeyri-adi keyfiyyətlərini belə xarakterizə edir: "Elə bilirəm ki, təəssüratım məni aldatmır, belə də var, çünki söhbət daxilən zəngin və emosional, amma impulsivlikdən uzaq, ən gərgin çağlarda belə, özünü səfərbərliyə almağı bacaran, iradəli və qorxmayan, çəkinməyən, özünə inanan və öz böyük imkanlarını qiymətləndirməyi bacaran unikal bir şəxsiyyətdən gedir-müstəqil Azərbaycanı bugünün kəşməkəşli yolları arasından magistral müəyyən edib bir dövlət kimi gələcəyə doğru aparan şəxsiyyətdən." (2; 240)

Publisist onu təqlid etmək istəyənlərin imkan və iddiaları arasında böyük bir təzad yarandığına da heç şübhə etmir, çünki "fitri keyfiyyətlərə görə onu yamsılayanlar, onun ayyaqqabısını geyib, yerişini " yeriyə bilməzlər.

H. Əliyev fiziki cəhətdən də güclü və sağlam idi. Elçin bu xüsusiyyətlərin böyük əhəmiyyət kəsb etdiyini yaxşı ki, unutmamış, nadir keyfiyyətlərindən bəhs edərkən onun "ağır, üzücü səfərdən qayıdanda hansısa ölkənin dövlət bayramını təbrik etmək üçün dərhal, dincəlmədən səfirliyə yollanıb parlaq nitq söyləməsi", gözlənimədən bir neçə tədbirdə fərqli mövzularda çıxışları yazıçı-publisisti lap matməəttəl qoyurdu. O yazır: "O bu çıxışlara necə hazırlaşır, bir-birindən tamamilə fərqli sahələri dalbadal necə ehtiva edir, axı, bir dəqiqə də boş vaxt qalmır ki, heç olmasa, özünü psixoloji cəhətdən kökləsin...Bu, həqiqətən, mənim üçün bir sirr-xudadır." (2;.240)

Dahi rəhbərin unikal yaddaşı, qeyri-adi hafizəsindən daha çox bəhs edilmişdir. Lakin onu bir həmməslək kimi eyni zalda, eyni iclas salonlarında çox yaxın məsafədən müşahidə etmək imkanına malik olan Elçin onun həm də qulaq asmaq bacarığı, dinləmə mədəniyyətinə də heyranlığını gizlədə bilmir. Bəzən çox "səviyyəsiz, cansıxıcı çıxışları belə sonacan dinləmək" qabiliyyətni də dahi rəhbərin ali keyfiyyətləri hesab edən publisist belə xarakterizə edir: "...danışanın sözünü kəsmir, söylənən fikirləri, gətirilən arqumentləri axıracan dinləyir. Bu da bir vergidir və elə bilirəm dövlət başçısı üçün çox vacib vergidir: adamlara öz sözünü axıra qədər deməyə münbit zəmin yaratmaq..." (2; 241).

Yenidən 1993-cü illərə qayıdan publisist həmin dövrdə dahi rəhbərin əleyhinə hədyanlar yazaraq xalqı ayağa qaldırmaq istəyənlərə yenə də ən tutarlı cavabı məhz o özü verdiyini belə nəql edir: "Milli Məclisin canlı yayımla bütün ölkəyə göstərilən iclasında həmin vərəqələrdə yazılanları kamera qarşısında ucadan oxutdurdu, bununla da o vərəqələri yazanların və yayanların istədiklərinə tamamilə əks bir effekt, həm də çox güclü bir effekt alındı. Bu çox şey deyən və mənim fikrimcə unudulmaz bir dərs idi." (2; 242)

Hamımıza yaxşı məlumdur ki, H.Əliyev vəzifədə nə qədər sərt, zəhmli, sözü üzə şax deməyi bacaran ötkəm bir xarakterə malik idisə, həyatda sadə adamlar arasında bir o qədər səmimi, xoşrəftar, incə yumor hissinə malik olması ilə də seçilirdi. O, ailəcanlı, ailəsinə sonaqədər sadiq bir insan olmuşdur. Bütün bunları həssaslıq və incəliklə, böyük yazıçı məharəti ilə müşahidə edən publisist onun millətə, xalqa bağlılığının kökünü də, məhz ailəsinə bağlılığından qaynaqlandığını düşünərək belə yazır: "...bu adam bütün varlığı ilə rəhmətlik həyat yoldaşına, övladlarına, nəvələrinə bağlıdır və belə bir həyat yoldaşı, ata, baba bağlılığı çox mühümdür, ona görə ki, millətə, vətənə bağlılığın da kökü oradan başlayır." (2;242)

1982-ci ilin sonlarında Brejnevin vəfatından sonra Andropovun fərmanı ilə H.Əliyev SSRİ Nazirlər Soveti sədrinin I müavını vəzifəsinə təyin edilir. Sov. İKP MK-nın plenumunda isə Siyasi Büronun üzvü seçilmişdir. O artıq Bakıdan Moskvaya köçmək məcburiyyətində idi. Həmin illərdə H.Əliyevlə xudahafizləşməyə gələnlər arasında olduğunu qürurla dilə gətirən publisist onun necə çətinliklə Azərbaycandan ayrılmasının şahidi olduğunu bildirir. Yazıçı-publisist həmin səhnəni belə nəql edir: " O zaman bir dəstə yazıçı, o cümlədən mən də daxil olmaqla bir neçə cavan yazıçı onunla xudahafizləşmək üçün onun yanına getmişdik və onda onun hansı bir çətinliklə Azərbaycandan ayrılmasının, necə deyərlər Azərbaycandan qopa bilməməsinin şahidi olduq. Orasını da yaxşı xatırlayıram ki, həmin görüşdə H.Əliyev Azərbaycanın gələcək vahidliyi haqqında danışdı və elə danışdı ki, elə bil söhbət müstəqil bir dövlətdən gedir. Bunun həmin dövrün kontekstində və H.Əliyevin tutduğu vəzifənin səviyyəsində nə demək olduğunu, elə bilirəm ki, izah etməyə ehtiyac yoxdur." (2;244).

Qəribə isə burasıdır ki, H.Əliyevə ən çox dönük çıxanlar vaxtilə onunla ələlə, çiyin-çiyinə çalışmış, onun əl tutub çörək verdiyi insanlar olmuşdur. Bütün bu cür dönük insanların əməllərindən nifrət hissi ilə söz açan müəllif yazır: " Təəssüflər olsun ki, başqa bir eybəcər siyasi əxlaq da bizim üçün səciyyəvidir; nə qədər ki, vəzifədəyik iqtidarı dəstəkləyirik, şəxsən Prezident haqqında da ən yaxşı sözləri deyirik, elə ki, vəzifədən azad edilirik, oluruq müxalif, toyda da, yasda da ağzımıza gələni danışırıq... Bundan misgin və ləyaqətsiz nə ola bilər?" (2; 248)

Elçinin H.Əliyevlə bağlı bir çox publisistik əsərləri arasında respublikamızın dövri nəşrlərində dərc olunmuş müsahibələri xüsusi yer tutur. Onlardan aşağıdakıların adlarını çəkə bilərik: "Azərbaycan həqiqətlərini dünyaya çatdıra bilsək," " Mən o tərbiyənin, o əxlaqın yiyəsi deyiləm," "Mən vəzifədən yapışan adam deyiləm," və. s siyahını bir qədər də uzatmağa elə bilirəm lüzum yoxdur.

Dahi rəhbər Heydər Əliyevlə bağlı yazıçı Anar 1998-ci ildə yazmış olduğu "Şəxsiyyətin miqyası" adlı geniş həcmli məqaləsində yazırdı " ...bizim nəslin,- 60-cilar nəslinin də- ədəbiyyata, kinoya, teatra sənətimizin başqa sahələrinə gəlib öz sözünü demək imkanı yaranmışdı. Bu imkanı bizə Heydər Əliyev yaratmışdı və onun dəstəyini başqa nəsildaşlarım kimi mən də hiss etmişəm."(1;298)

Ulu öndərin daim ədəbiyyata, ədəbiyyatçılara, millətin mənəviyyatı keşiyində duran hər bir sənət insanına verdiyi dəyəri yüksək qiymətləndirən yazıçı Elçin bu dəstəyi bir çox müasirləri kimi öz üzərində də daim hiss etmiş müsahibələrində bu barədə bir çox sualları əminliklə cavablandırmışdır. O bir çox rəhbərlərin hakimiyyəti dövründə (İ. Mustafayev, K.Bağırov, Ə.Elçibəy, A.Mütəllibov və s) yaşamış, yazıb-yaratmışdır. Lakin H.Əliyevin hakimiyyəti illərində ölkədə mədəniyyət, təhsil sahəsində böyük bir çevriliş olduğunu da dəfələrlə, qədirbilənliklə qeyd etmişdir. Müsahibələrinin birində onun karyerasına vaxtilə "Aydınlıq" qəzetində dərc olunmuş H.Əliyevlə bağlı məqalənin nə dərəcədə rol oynadığı sual edilir (2; 209). Lakin Elçin bu fikirlə əsla razı olmadığını bildirir. Çünki o nə yazırsa yazsın, kimdən yazırsa yazsın heç vaxt təmənna xatirinə boğazdan yuxarı kəlmələri ağlına belə gətirə bilməzdi. Publisist hətta bəzi "üzdəniraq"ların şirnikləndirici təklifləri müqabilində əqidəsinə dönük çıxanlardan da olmamışdır. O, yazır: " Müəyyən vaxtlarda çox güclü təsirlər, hətta şirnikləndirici təkliflər olub ki, mən öz mövqeyimi dəyişim, əks mövqedən çıxış edim, amma mənim xasiyyətimdə bu mümkün olan şey deyil. Mən indiki vəzifəmə qədər kim idimsə, vəzifədən gedəndən sonra da həmin adam olacağam",-- (2; 209) deyə dahi rəhbərə sonsuz ehtiramını bildirmişdir. Ümumiyyətlə Elçinin müsahibəllərini nəzərdən keçirdikdə bir daha onun heç vaxt vəzifə iddiasında olmadığının şahidi olursan, yəni özünün də etiraf etdiyi kimi o heç vaxt vəzifədən ikiəlli yapışan adam deyil. Vəzifənin əbədi olmadığını haqlı düşünən yazıçı-publisist bu vəzifənin onun əqidəsinə, düşüncəsinə, xarakterinə zərrə qədər də təsir etmədiyini dönə-dönə bildirmişdir. O, yazır: " Mən vəzifəyə qədər H.Əliyev haqqında nə düşünmüşəm, Allah qoysa, sabah da, vəzifədən sonra da o fikirdə qalacağam",- deyə dahi rəhbərinə tükənməz sevgi və sayğılarını bildirmişdir.

İstifadə olunmuş ədəbiyyat:

1.Anar. Əsrin əsiri.Bakı, Azərnəşr,2010, 712s.
2.Elçin. " Seçilmiş əsərləri"(10cilddə) 6-cı cild. Bakı, "Çinar-Çap" nəşriyyatı, 2005,-583.
3.Elçin. "Seçilmiş əsərləri"(10cilddə) 10-cu cild.Bakı, "Çinar-Çap"nəşriyyatı,2005,546.
4.Əhmədli S. Kef. "Azərbaycan" 1999,N%4, səh 50-51

Лейла Мамедалиева

Образ Гейдара Алиева в публицистике Эльчина Эфендиева
в период независимости
Резюме

В статье изучается образ общенационального лидера Гейдара Алиева. Освящены яркие характерные особенности великого человека, как дальновидность, необыкновенная память, блестящий ум. В статье старались изучать портрет великого лидера.

Leyla Mammadalıyeva

Heydar Aliyev's character in Elchin Afandiyev's
publicism in the independence period
Sammary

The article is devoted to the analysis and investigation of the H.Aliyev's character in E. Afandiyev's publicism in the independence intelligence, extraordinary memory and other qualities have been elucidated from the publicist direction. In the article H. Aliyev's artistic portrait has been revived.

Rəyçi: Nizami Cəfərov
fil.elm. doktoru, AMEA-nın müxbir üzvü

LƏMAN İSMAYILZADƏ
Sumqayıt Dövlət Universiteti
Ismayilzade_l@mail.ru

XIX ƏSRİN BİRİNCİ YARISINDA QARABAĞ ƏDƏBİ MÜHTİ: QASIM BƏY ZAKİR

Açar sözlər: Ədəbi mühit, Qasım bey Zakir, qoşma, qəzəl, satira
Key words: literary surroundings, Gasim bey Zakir, qhoshma, qhazal, satire.
Ключевые слова: литературное обшество, Гасым бек Закир, гошма, газель, сатира.

Bədii yaradıcılıq elə bir sahədir ki, onun müəllifləri, sadəcə olaraq, öz qınlarına çəkilib həyat keçirən adamlar deyillər. Onlar dövrün ədəbi və mədəni mühiti ilə daim əlaqədə yazıb yaradırlar. Belə olduqda bu, onların həyat və yaradıcılığında yeni meyllər, yeni münasibətlər meydana çıxarır. Ədəbi və mədəni mühit sənətkarı yaşadığı dövrün başqa yaradıcı ziyalıları ilə ünsiyyətdə olmağa, fikir mübadiləsi aparmağa sövq edir. Beləliklə, bəzən ədəbi-mədəni mühitin təsiri ilə ədəbi cəbhə, ədəbi məktəb yaranır.

Ədəbi mühit yalnız ayrı-ayrı sənətkarın hansı ədəb şəraitdə yaşayıb yaratdığına deyil, eyni zamanda, bu və ya digər bir dövrün ədəbi mənzərəsini, ədəbi prosesi, şairlər məclisini, ədəbi mühiti məşğul edən yaradıcılıq problemlərni və s. öyrənməyə imkan verir. Belə olduqda oxucular konkret sənətkarlar haqqında mükəmməl ədəbi bilik alır, həm də onun bu mühtdəki ədəb mövqeyi, ədəbi nüfuzunu aydın təsəvvür edirlər. Ədəbi mühit məfkurə mübarizəsində, əqidə birliyində, xalqa, cəmiyyətə xidmətdə klassiklərimizin mövqeyini başa düşmək işindədə düzgün istiqamət verir.

XIX əsrin birinci yarısının ədəbi mühitində tarixilik və ənənələr gözlənilməklə geniş miqyasda bədii yaradıcılıq prosesi gedirdi. Qarabağ ədəbi mühiti bu dövrün ədəbi mühitinin tərkib hissəsi idi. Qarabağda əsasən poeziya yaranırdı. Lakin bir fərqli cəhət bu idi ki, həmin poeziya həm də satirik nümunələrlə seçilirdi. Bu dövr Qarabağ ədəb mühitndə ən seçilən yaradıcı şəxsiyyət Qasım bəy Zakir olmuşdur.

Qasım bəy Əli bəy oğlu Zakir 1784-cü ldə Şuşa şəhərində anadan olmuşdur. O, dərin elm qazana bilməsə də "türk və fars dillərini layiqincə təhsil" etmşdir. (3, 359)

Bədxahların fitva və araqarışdırması nətcəsində Zakirin kəndi Xındırıstan dağıdılmış, özü Bayıla salınmış, oğlu Nəcəfqulu bəy və qardaşı oğlu, kürəkəni İsgəndər bəy Sibirə sürgün edilmişdir. Sonralar M.F.Axundzadə, İ.Qutqaşınlı, M.İ.Kolyubakin, R.Uğurlubəyov və b. köməyi ilə onlar həbsdən və sürgündən xilas olmuşlar.

"Qasım bəy Zakir həqiqi bir mlli şair imiş. Öz əsərinin aynası olubdur və məişəti-milliyəsini –necə ki, var imiş, - eyni ilə yazıb, bizim üçün böyük bir yadigar qoyubdur. Öz əsərində şuyani-diqqət olmuş hər şey qoymayıbdır ki, ona əl aparmamış olsun. O vaxtın adamlarının adabü əxlaqını və dolanacaqlarının övzavü əsasını mahir nəqqaş kimi özlərinə məxsus rənglərlə çəkib bizə göstərir. Məişətin hər bir

sinif və təbəqatına ətraflı nəzər yetirib, sairlərin gözlərinə görsənməyən şeyləri görüb, təftiş və tənqd edibdir" (3, 377)

Qasım bəy Zakirin ədəbi irsi qəzəllərdən, mürəbbe, müxəmməs, müstəzad, tərkibbənd, tərcibənd, gəraylı, qoşma, mənzum hekayə, satirk şeylər, təmsil və məktublardan ibarətdir. O, həm də həcvlər yaratmışdır. F.Köçərli onun bəzi həcvlərini "naməğrub sözlər"inə görə heç kitabına salmamış, lakin bir neçəsinin onun keyfyyəti-halını bəyan etdiyini vurğulamışdır.

"Qövsidən sonra Zaqafqaziya şüərası arasında Zakirdən gözəl və xoşməzmun qəzəl yazanı olmayıbdır" (3, 408) deyən F.Köçərli onun qəzəllərindən bir neçə nümunəni ktabına daxil etmşdir.

Bu qəzəllərdə bülbülün baqi hesabı olduğu, şux kərgsi-məxtin xərabı olan aşiqin duyğuları, qaməti-mövzunu görən canın cilvələndiyi...sadə, yığcam və obrazlı bir dillə ifadə olunmuşdur. Qəzəllərin bəziləri özünün dil-üslub xüsusiyyətləri, poetikası ilə M.Füzuli incilərini xatırladır:

Cavan içrə mənim bir səng dil, bimehr mahım var,
Büti-peymanşikən, bir şuxçeşmi-kəcnigahım var.
...Mənə mehrabu mənbər vəsfini təkrar edən vaiz
Utanmazmı, baxıb görsə bu surət qibləgahım var?
Könül şəhrin çapıb yığmaladı qəm ləşkəri Zakir,
Neçün imdad qılmaz, bəs deyirdin padşahım var?

Zakirin qəzəllərində elə beytlər vardır ki, bunlar həm müstəqim, həm də məcazi mənada ifadə edilmşdir:

Gəh tülü eylər üfüqdən könlümüz rövşən qılır,
Gəh səhabi-zülf ilə örtər, biz olluq tirədil.

Şair göstərir ki, günəş üfüqdə doğan zaman bütün kainatı işıqlandırır, bununla əlaqədar olaraq, insanların qəlbi şən və nikbin əhval-ruhiyyədə olur. Günəş buluda girdikdə isə hava tutqun olduğundan insanların da qəlbi tutqun olur. Bu beytdəki müstəqim məna odur ki, insan əhvali-ruhiyyəsilə təbiət mənzərəsi bir vəhdətdə verilir. Yəni təbiət kədərli, dumanlıdırsa, insan bədbin, təbiət xoş və şəndirsə insan da şad və nikbindir.

Sosial istiqaməti, məna və mündəricəsinin müxtəlifliyi, oyatdığı təsirin davamlılığı baxımından Zakir qoşmalarını iki qismə bölmək olar.

Birinci qismə daxil olan qoşmalarda şair gözələ həyatsevər münasibətini bildrir və onun bütün dünyəvi nemətlərdən uca tutur. Gözəldə tələb-sadəlik və təbiilik, əlavə boyalardan uzaqlıq, demək, əxlaqi-mənəvi kamllikdir. Çünk şair daxili yetkinliyi sürmə, vəsmə, ənlik və kirşanla eyniləşdirməyə dözə bilmir:

Məşşatə gözünə sürmə çəkəndə,
Sanasan gözümə bıçağı çəkər.
Üzülür sərasər rişteyi-canım,
Elə ki, zülfünə darağı çəkər.

Zakirin ikinci qismə daxil olanqoşmalarında romantik aşiq qəhrəmanın daxili aləminin tərənnümü aparıcı xətt təşkil edir. Lakin romantik qəhrəmanın dəruni duyğularını ifadə edən belə qoşmalarda da "çərxin sitəmindən", "dövrün zülmündən" gileyli əhvali-ruhiyyələrə rast gəlirik:

Dərdbilməzlər qınar məni, heç deməz.
Dərd ilə doludur döşüm, ağlaram.

Çərxin sitəmindən, dövrün zülmündən,
Tökülür dəmbədəm yaşım, ağlaram. (5, 23-24)

Zakirin M.F.Axundova, İ.Qutqaşınlıya, qubernator M.İ.Kolyubakinə, Zəngilanlı Məhəmməd bəy Aşiqə və b.ünvanlanmış mənzum məktubları ədəbi-bədii və tarixi-mədəni dəyərə malik olmuşdur. Fürudin bəy Köçərli həmin məktublar barədə yazmışdır: Məktubların "cümləsi nəzm ilə açıq və sadə dildə yazılmışdır. Bu məktubatda dürlü məsələlər, zərif kinayələr və müəmmalı kəlmələr vardır ki, azdan çox və nazikdən yoğun mənalar anlamaq gərəkdir" (3, 366).

Doğrudan da, bu məktublar sadə, xalq danışıq üslubuna yaxın bədii üslubda yazılmış, bir fərdin faciə-problemləri konteksində Qarabağ mühitinin ağri-acılarını əks etdirən tarixi-ictimai dəyəri olan qələm məhsullarıdır.

Knyaz Kolyubakinə yazdığı 16 bəndlik məktub qoşma janrında olub, qafiyə və təqitləri, bəndlərin fikir tutumu ilə diqqəti çəkir:

Səndən sonra, ey taci-sər, başıma,
Gərdimi-zəmanə nələr gətirdi!
Iki bimürüvvət ittifaq edib,
Vilayətə yüz şurü şər gətirdi.

Qasım bəy Zakirin ədəbi irsində mənzum məktublar xeyli yer tutur. Belə ki, o, təkcə M.F.Axundzadəyə , İ.Qutqaşınlıya deyil, Baharlı Mirzə İsmayıla, Zəngilanlı Məhəmməd bəyə, Sarıcalı Mirzə Mehdiyə, Böyük bəyə, həm də Baba bəy Şakirə mənzum məktublar yazmışdır.

Zakirin şeirlərinin bir qismini təşkil edən müxəmməsləri özünün ctimai dəyəri, tarixi-bədii mahiyəti ilə diqqəti çəkən əsərlərdir. Onun "Eylər" rədfli müxəmməsi M.P.Vaqifin "Görmədim" müxəmməsi ilə səsləşən bir şeir kimi ədəbiyyatşünaslıqda dəyərləndrilmişdir. 11 bəndlik müxəmməs şairin dövrü və həyat haqqında müşahidə və mülahizələrinin bədii inikası kimi əhəmiyyətlidir:

...Həzər qılsın görən kəslər, bu nə məxşuş dövrandır,
Bu dövranda onunçün kim, gədavü şah yeksandır.
Əgər küncü-fəraqət istəsən, bir gənci-pünhandır,
Şikəstə Zakirəm, könlüm mərizi-dərdi-hicrandır,
Əlaci-dərdimi axır mənim ol həştü car eylər.

Zakir həm satira, həm də lirik poeziya sahəsində misilsiz əsərlər yaratmışdır. Burada onun məharəti özünü iki şeydə göstərmişdir: əvvələn, şair hər iki növ şeirlərində yüksək ideyalılığa xüsusi fikir vermiş; ikincisi, öz fikir və ideyasını çılpaq şəkildə deyil, sənətkarlıqla ifadə etməyə, hər fikir üçün münasib bədii təsvr vasitələri tapmağa nail olmuşdur.

Zakirin ədəbi irsi XIX əsr ədəbiyyatında yeni keyfiyyətli bir poeziya idi. Dramaturgiyamız M.F.Axundova başladığı kimi, Zakirin yaradıcılığı ilə də Vaqif-dən sonra yeni keyfiyyətli poeziyamızın inkişaf və tərəqqisi dövrü olmuşdur.

Lakonklik, emosional təsir qüvvəsinə malik olmaq, lirik qəhrəmanı hərtərəfli tərənnüm etmək, bəşəri hisslərin yüksək poetik ifadəsini vermək və s. gözəl keyfiy-yətlərlə səciyyələnən bu poeziya öz poetik xüsusiyyətləri etibarilə sonrakı poeziyamıza, satiramıza dərin təsir göstərmişdir. Zakir bu cəhətdən Seyid Əzim Şirvaninin və Mirzə Ələkbər Sabirin sələfidir(5, 195).

Ədəbiyyat:

1. F.Qasımzadə. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: "Maarf";1966, 486s.
2. Azərbaycan tarixi. II cild. Azərb. SSR Elmlər Akademiyası nəşriyyatı, 1964
3. F.Köçərli. Azərbaycan ədəbyyatı. I cild. Bakı: "Elm", 1978, 596 s.
4. F.Köçərli. Azərbaycan ədəbiyyatı. II cild, Bakı:"Elm", 1981, 459 s.
5. M.Mustafayev. Q.B.Zakirin poetik dünyası. Bakı: 2004, 198 s.

Л.Исмайылзаде

Литературная среда первой половины XIX века:
Гасым бек Закир
Резюме

Статья посвящена литературному обществу первой половины XIX века и ролы творчество Гасым бек Закира в этой среде. Деятельность поэта отразила новые течения и явилась развитием поэзии. Закир создал великие произведения искусства и в области сатиры, и в области лирики. Литературное наследие Закира стал новый уровень поэзии литературы девятнадцатого века. Закир считается предшественником Сайед Азима Ширвани и Мирза Алекпер Сабира.

L.İsmayılzade

Garabakh literary surroundings in the I half of the XIX century
Summary

Garabakh literary surroundings an Gasim bey Zakir's ncreation are talked about in this article. Zakir's creation was the development and progress ages of the new qualified poetry. zakir was a great satirist.he wrote great satirical and lyrical works. Zakir's litrerary creation was qualitative poetry of the XIX century. as our dramaturgy begins feom Akhundov,after Vaqif Zakir's activity has been development and progressive ages of our new poetry. He is an ancestor of Seyid Azim Shirvani and Mirza Alakbar Sabir.

Rəyçi: Sevinc Həmzəyeva

AYTƏN QULİYEVA
AMİ
aytən@ mail.ru

ANARIN İLK HEKAYƏLƏRİNDƏ MƏNƏVİ-ƏXLAQI PROBLEMLƏR

Açar sözlər: hekayə, ədəbiyyat, ədəbiyyat, nəsr,
Key words: story, literature, problem, prose
Ключевые слова: рассказ, литература, problem, проблема, проза.

Xalq yazıçısı, Əməkdar incəsənət xadimi, İstiqlal ordenli yazıçımız Anar zəngin bədii yaradıcılığı, elm, mədəniyyət sahəsində göstərdiyi çoxşaxəli fəaliyyəti ilə ədəbiyyat tariximizdə özünəməxsus iz qoymağı bacaran sənətkarlardandır. O, ədəbiyyata gəlidiyi ilk dövrlərdən əsərləri ilə oxucuların qəlbində özünə yer tapan, getdikcə püxtələşən qələmi ilə bu yeri möhkəmlədə bilən istedaddır. Əsl istedad sahibi olduğunu lirikasında, nəsrində, dramaturgiyasında, publisistikasında, kinodramaturgiyasında, elmi məqalələrində dönə-dönə isbatlamış, ədəbiyyatımızda Anar imzasının, Anar möhrünün xüsusi yeri, mövqeyi olduğunu təsdiqləmişdir. Yeni tipli ədəbiiyyatın yaranmasında Anarın böyük rolu, əhəmiyyəti və mövqeyi olmuşdur. Onun əsərlərində, xüsusən, hekayələrində insan psixologiyasına, onun daxili dünyasına, düşüncələrinə nüfuz etmək qabilliyyəti hər bir zövqlü oxucunu heyran qoyur. Anarın hekayələrindən həyatın ətri duyulur, ayrı-ayrı fərdlərin, qrupların, zümrələrin cəmiyyətdəki yeri, mövqeyi görünür. Mövzu rəngarəngliyinə baxmayaraq Anarın, demək olar ki, bütün əsərlərində insanın daxili aləmi əsas diqqət mərkəzindədir. O, ilk əsərlərindən mənəvi-əxlaqi problemlərə toxunur.

Anar ədəbi fəaliyyətə hekayə ilə başlamış, ilk hekayələrini 1958-ci ildə qələmə almışdır. Lakin yazıçı bu hekayələrini yazdığı dövrdə yox, bundan düz 30 il sonra "58-ci ilin üç sandıq hekayəsi" adı altında "Azərbaycan" jurnalına çapa vermişdir. Buraya "Ürəyim ağrıyır", "İztirabın vicdanı", "Nisbət nəzəriyyəsi" daxildir. Qeyd etdiyimiz kimi ədəbiyyat gəldiyi ilk zamanlardan mənəvi-əxlaqi mövzular Anar yaradıcılığının, xüsusi ilə də onun hekayələrinin əsasını təşkil etmişdir. Hələ özü gənc ikən üzvü olduğu ziyalı mühitində gördüyü bəzi çatışmazlıqlar onun düşündürmüş, bu eybəcərlikləri göstərən əsərlər yaratmağa vadar etmişdir. Anarın 1958-ci ildə, cəmi 20 yaşında ikən Mirzə Cəlil üslubunda yazdığı "Ürəyim ağrıyır" hekayəsi bu fikirlərin bariz nümunəsidir. Bu kiçik hekayə böyük mətləblərdən xəbər verir.

Əsərin əsas qəhrəmanı öz bircə oğlunu çox sevən atadır. Həyat yoldaşı hələ oğulları körpə ikən dünyası dəyişdiyində o, oğlunu tək böyütmək məcburiyyətində qalmışdır. Ata bütün ömrünü öz balasına həsr etmiş, ona təhsil vermişdir. Artıq institutu bitirib mühəndis olan oğul evələnmək fikrinə düşür. Görüşdüyü qız və onun ailəsi ilə atasını tanış etmək istəyir. İlk baxışda normal axarla davam edən hadisələr ailələrin ilk tanışlıq mərasmindən dəyişir:

"Sözümü qurtarmamışdım ki, qapı açıldı, kök bir arvad, deyəsən qızın anası idi, qapıya çıxdı və bizi görcək çığırdı:

– Oho, Farik, pirvet. Skolko let, skolko zima. Eta tvoya ates?

Mən əvvəl duruxub qaldım. Gördüm ki, arvadın qaşı-gözü qapqaradır. Dedim, bəlkə məni ayrı millət bilib. Azərbaycanlı olduğumu bildirməkçün dedim:

– Xoş gördük.

Dedi:

– Pirvet! Pirvet! Zaxadi!

İçəri girdik. O biri otaqdan bir kişi gəldi. Deyəsən, kök arvadın əri idi."(4).

Yazıçı özünü "ziyalı" hesab edən ailənin timsalaında bu qəbildən olan digər "mədəni ailə"ləri, özünü savadlı göstərmək üçün ilk növbədə öz dilini unudan, ona xor baxan, bu dildə danışmaqdan utanan ayrı-ayrı insanları səciyyələndirən xüsusiyyətləri göstərir: "Yəni ki, bu mə-nimçün təzə bir məsələ deyildi. Mən çox gözəl bilirdim ki, bir çox mədəni ailələrdə başqa dildə danışmaq dəbdir, ələlxüsus da belə ailələrin gəncləri üçün öz dillərini bilmək mandır. Bilirdim ki, bəzi ailələrdə cavan oğlanlar öz ana dillərində yeddimərtəbə küçə söyüşündən qeyri heç bir söz bilmirlər və cavan qızlara isə söyüş söymək eyib və yaraşmayan bir iş olduğundan öz dillərini öyrənməyə də heç bir ehtiyac qalmır..." (6).

Əsərin süjetini tamalayan, mənəvi-əxlaqi qayəni oxucu üçün daha da aydınlaşdıran epizodlardan biri dilənçi ilə bağlı olan hadisədir. Hələ oğlunun sevdiyi qız və onun ailəsi ilə tanış ol-mayan ata yolada dilənçi bir qadın görür. Ona yardım üçün pul vermək istəyir, lakin görür ki, cibində təzə qohumlarına hədiyyə almaq üçün ayırdığı 50 manatdan başqa pulu yoxdur. O, bir anlıq düşünür: "Heç insafdı ki, mən indi qonaq getdiyim adamlara, yəni ki, canım-ciyərim bircə oğlumun canı-ciyəri olan adamlara əlli manatlıq hədiyyə almaq istədiyim bir halda heç tanı-madığım bir dilənçini də layiq görüm həmin məbləğə? Yox, əlbəttə, yox!" (5). Lakin atanın qona-ğı olduğu aildə qarşılaşdığı hadisələr, adət-ənənəmizə, dilimizə, mənəvi sərvətimiz olan muğama biganə münasibət fikrini dəyişir. Sonda o, bu insanları özünə hətta küçədə gördüyü dilənçidən də uzaq hesab edərək hədiyyə üçün ayırdığı pulu tənha bir küçədə dilənən qadına verir.

Bu əsəri ilə yazıçı öz milli mənsubiyyətini undub, ona xor baxan, özünü başqalarına oxşatmaq fikrində olan insanlara ibrət dərsi verir. Göstərir ki, xarici dili, mədəniyyəti bilmək hər bir insana ucalıq gətirir, lakin bu dili və mədəniyyəti öz ana dilindən, mədəniyyətindən üstün tutmaq əsl satqınlıqdır.

"Nisbət nəzəriyyəsi" öz fəlsəfi məzmunu ilə seçilir. Əsərdəki hadisələr ziyalı bir ailədə baş verir. Əsərin baş qəhrəmanı Hikmət və onun həyat yoldaşı Nəimə elmi işlə məşğuldurlar. Hikmət bir roman haqqında yazılmış tənqidi bir məqaləni oxuyur. Məqalədə romanın qəhrəmanı sonda qısqanclıq üstündə intihar edir. Bir tənqidçi bu romana müsbət yanaşsa da, digəri əsərin yarıt-mazlığını göstərir. Hikmət hər iki tənqidçini müəyyən mənada haqlı sayır. Digər bir situasiyada o, bacısı Zəhra ilə qarşılaşdırılır. Bacısı Hikməti daima tənqid edir, danlayır. Buna baxmayaraq Hik-mət özündən çıxmır, bir baxımdan Zəhraya haqq verir. "Hikmət Zəhranın niyə gəldiyini, nədən danışacağını yaxşı bilirdi. Onun bu barədə danışmağa heç bir həvəsi yox idi. Amma o bilirdi ki, Zəhra bu barədə söhbət açmaqda haqlıdır. Hikmət onun qardaşı idi. Zəhra qardaşının taleyinə biganə baxa bilməzdi"(7). Hikmət hər bir fikri, şərhi qəbul edən, onunla razılaşan bir insandır. Hekayədəki bütün situasiyalarda bu özünü aydın göstərir. Baş verən hər bir hadisədə, fərqli yanaşmalarda Hikmət hər iki tərəfə haqq verir. Qarşılaşan tərəflərini hər birinin öz həqiqəti, nəzəriyyəsi olduğunu duyur, dərk edir: "Hikmət bilirdi: Ələsgərovla Nəi-

mənin Zəhra deyən əlaqələrdə olduğunu aydın-aşkar bilsə, öz gözüylə görsə belə namusu tapdalanmış ərin iztirab və intiqamı haqlı olduğu kimi, həyatının son bayramından imtina etmək istəməyən sinli professor da haqlıdır. Və nəhayət, Nəimə də haqlıdır. Yəqin onun da müəyyən səbəbləri, dəlilləri, əsasları, bəraəti var. Hikmət bilirdi: Bu dünyada haqsız yoxdur. Hərə bir səbəbdən, hərə bir cürə haqlıdır"(8).

Hekayə gözlənilməz bir sonluqla bitir. Sonda Hikmətin intihar etməsi onun zahiri təmkinin və sakitliyinin altında, daxili aləmində fırtınalar qopduğundan xəbər verir. O xaricən bütün insanların düşüncələri ilə razılaşsa da, daxilən özü ilə barışa, razılaşa bilmir, intihar yolunu seçir. Bütün bu həqiqətlə içərisində o, öz həqiqətini itirir. Həyatı boyu hər kəsi haqlı sayan Hikmətə yazıçı onun ölümündən sonra sanki haqq qazandırır. "Gecə Hikmət özünü asdı. Arvadı, uşaqları, dost-aşna, qohum – qardaş yasa batdı. Hamı təəccüblənirdi.

– Axı nəyi çatmırdı. Xoşbəxt ailə. Ev-eşik. Cəmiyyətdə yüksək mövqe. Sağlamlıq. Şöhrət. Pul.

Onlar haqlı idilər.

Amma Hikmət də haqlı idi"(9).

Cəmi iyirmi yaşlı gənc bir yazıçının həyatın fəlsəfi yönümü barədə düşünmək bacarığı, in-san psixologiyasının dərin qatlarının incəliklərini bu qədər aydın, sərrast dərk etməsi çox müsbət və təqdirə layiq bir hadisədir.

Anarın ilk mətbu əsərilərində biri "Asılqanda işləyə qadının söhbəti" adlanır. Həcmcə çox kiçik olan bu hekayə öz emosional təsir qüvvəsi, orijinal üslub xüsusiyyətləri ilə diqqəti cəlb edir. Əsər qəribə təhkiyə üsuluna, formasına malikdir. Adından göründüyü kimi hadisələr asılqanda işləyən bir qadının dili ilə nəql edilir.

Əsər boyu asılqanda işləyən qadının daxili dünyasının zənginliyini, yüksək psixoloji duyumunu, mənəvi-əxlaqi aləminin saflığını şahidi oluruq. R.Ulusel yazır: "Sən demə, heç nəyi ilə diqqəti cəb etməyən, cəmiyyəti kənardan izləyən bu qadın bu qadın insan münasibətlərinin kardioqrammasını hamıdan yaxşı çıxarırmış" (11). A. Axundov isə hekayəni belə qiymətləndirir: " "Asılqanda işləyən qadının söhbətində" müəllif ümumxalq danışıq dilinə böyük məhəbbəti və ondan bacardıqca geniş sutərdə istifadə etməyə səmimi səyi hiss olunur. "Heç vaxt" əvəzinə "heç vədə", "nədənsə" əvəzinə "niyə görəsən", "qəhvəyi" əvəzinə "mixəyi" işlədilməsi məhz bu səyin nəticəsidir"(1).

Anarın ilk hekayələrindən olan "Keçən ilin son gecəsi" üç janr mərhələsindən keçmişdir. Hekayə Anarın oxucular arasında ən çox yayılmış əsərlərindəndir. Hadisələr yeni il axşamı cərəyan edir. Süjetin mərkəzində övladlarınını, ailəsini dərin məhəbbətlə sevən, qayğıkeş bir ana obrazı dayanır. Həmidə xala artıq yeddi ildi ki, həyat yoldaşını itirmiş və bundan sonra heç vaxt yeni il axşamı övladlarını bir süfrə arxasına toplayıb bayramı onlarla birlikdə qeyd edə bilməmişdir. Biz bunu Həmidə xalanın tez-tez xəyalında canlandırdığı xatirələdən, yazıçının verdiyi məlumatlardan görürük.

Bu bayram isə digərlərindən fərqlənir. İlin son gecəsidir. Həmidə xala mətbəxdə plov hazırlayır. Ailənin bütün üzvləri, demək olar ki, evdədir. Ana yeni il axşamı övladları ilə birlikdə olduğu üçün seviclidir. Əri Qəzənfərin ölümündən sonra ailə ilk dəfə idi ki, yeni ili bir yerdə keçirəcəkdi. Ana stol açmışdı. Tofiqin yoldaşları da onlarla birlikdə olacaqdı. Amma axşamdan ailə üzvlərinin hərəsi bir yerə

dəvət alır. Məlum olur ki, Rüstəm nişanlısından incidiyi, Leyla isə məktəbdə təşkil olunacaq tədbirin proqramına salınmadığı üçün evdədi.

Ürəyi bütün övladlarını bayram axşamı birlikdə görmək görmək arsusu ilə çırpınana ana düşünür: "Əgər Gülarəgil onca dəqiqə əvvəl gəlsəydi, o elə xəyal edə bilərdi ki, bu yeni il gecəsi bütün ailə evdə olacaqdır. Nə yaxşı olardı! Hətta, sonra Tofiq getsəydi də, onun gedəcəyi məlum olmamışdan bir neçə dəqiqə əvvəl, Həmidə xala nə sevinərdi! Hayıf ki, Gülarəgil Tofiq gedəndən sonra gəldi"(2). Lakin ananın ümidləri boşa çıxır Gülarə Vaqif ona tapşırıb həyat yoldaşı ilə dəvət aldığı qonaqlığa gedir.

Həmidə xala bu dəfə Rüstəmin kefsiz olduğunu görür, mətləbi anlayır, oğlunu nişanlısa zəng vurmağa təhrik edir. Telefon danışığından aydın olur ki, nişanlısı onu evələrinə dəvət edir. Rüstəmin anasını evdə tək qoymağa ürəyi gəlmir, bunu başa düşən ana oğlunu cəsarətləndirir, getməsini istəyir. Bu davranışları ilə biz Həmidə xalanın necə həssas qəlbli bir qadın, övladlarının səadətini hər şeydən üstün tutan bir ana olduğunu görürük. Rüstəm də getdikdən sonra Həmidə xala yeni ilin son gecəsini tənha keçirməli olur. Anar tənhalığın faciəsini açmaq, onu yox etmək eləmək, özündən qovmaq üçün Həmidə xalanın mənəvi aləmini işıqlandırır. Psixoloji vəziyyətinin ən son, gərgin məqamında Həmidə xala həyat yoldaşı Qəzənfərin səs yazısına qulaq asması olur. O, ilk əvvəl bu addımı atmaqdan qorxur. Lakin cəsarəti toplamağı bacarır, siyirməni açıb lenti çıxarır, maqnitafonu işə salıb dinləməyə başlayır. "Bir gün olacaq mən olmayacağam. Bax sənə bircə əmanətim bu uşaqlardır. Həmidə, bir gün gələcək, hamısı böyüyəcək, boya– başa çatacaq və yuvasından qanadlanan quşlar kimi bir-bir uçub gedəcəklər. Bax, onda onlara vəfasız demə ha! Onu bil ki, hara getsələr, hansı ailəyə düşsələr, hansı mühitə düşsələr, səndən və məndən nə isə aparacaqlar..." (3)

Bu epizod bizə C.Məmmmədquluzadənin məşhur "Anamın kitabı" dramından bir hissəni xatırladır. Bu əsrədə də yalnızlığa qapılan, övladları tərəfindən tərk edildiyini düşünən Zəhrabəyim ananın təsəllisi vəfat etmiş ərinin yazdığı bir parça kağız olur. Kağız, demək olar ki, Qəzənfərin lent yazısı ilə eyni mahiyyətdədir: "Yer, göy, aylar və ulduzlar göylərdə seyr edib gəzə-gəzə genə əvvəl axır günün başına dolanırlar; çünki bunlar hamısı qədim əzəldə gündən qopub ayrılmış parçalardır. Mən etiqad edirəm ki, mənim də balalarım dünyada hər yanı gəzib dolansalar da, genə əvvəl-axır anaları Zəhranın ətrafına gərək dolanalar"(10). Hər iki əsər öz əxlaqi məzmunu ilə zirvədə dayanır. Həmidə xala ərinin səs yazısını eşidərək, elə bil ki, hər şeyi yenidən öz axarında qəbul edir, mənən rahatlıq tapır, tənhalıq vahiməsindən qurtulub adi həyta qayıdır. Övladları ayrı-ayrı məclislərdə olsalar da aldıqları düzgün tərbiyə nəticəsində zəng vuraraq analarını təbrik edirlər. Bütün bu situasiyalarda oxucu mənən təmiz, zəngin əxlaqi düşüncəyə malik bir Azəri ailəsi görür. Hekayə daşıdığı tərbiyəvi səciyyə etibari ilə oxucu qəlbinə yol tapır. Onun "Könlümüzün gecəsi","Bayram həsrətində", "Dödr cahar", "Yağışlı gecə", " Yağış kəsdi", "Taksi və vaxt", "Mən, sən,o və telefon", "Gürcü familiyası", "Molla Nəsrəddin-66", "Yaxşı Padşahın Nağılı", "Dağ dağa rast gəlməz" və s. hekayələri ədəbiyyatımızda iz qoymuş qoymuş, ədəbi tənqidin geniş müzakirə mövzusuna çevrilmişdir. Yüksək əxlaqi keyfiyyətlər aşılayan əsərləri oxucuların, xüsusilə gənclərin mənəvi cəhətdən zənginləşməsinə səbəb olmuşdur. Anar öz zəngin ədəbi fəaliiyəti ilə nəinki Azərbaycanda, hətta Vətənimiz hüdüdlarından kənar-

dada məşhurlaşmış, sevilmişdir. Onun dünyanın otuz dilində altımışa yaxın kitabı işıq üzü görmüşdür. Və bütün bunlar sübut edir ki, bu əsərlər həqiqi istedad sahibi olan insanın bəddi təfəkkürünün məhsuludur.

Ədəbiyyat:

1.Axundov. A "Ədibin dil qayğıları". "Ədəbiyyat" qəz., 1998, 3 iyul
2.Anar "Seçilmiş əsərləri" B., "Azərbaycan Dövlət Nəşriyyatı" 1988 s16
3.Yenə orada s23
4. Anar "Şəhidlər dağı" B., "Gənclik" 1995 s8
5.Yenə orada s7
6.Yenə orada s9
7.Yenə orada s55
8.Yenə orada s56
9.Yenə orada s56
10.Məmmədquluzadə. C "Əsərləri" Ic B., "Öndər nəşriyyatı" 2004 s 475
11.Ulusel. R "Qlobal düşüncə məkanında Anar öz yaradıcılığı ilə" B., "Elm" 2005 s26

A. Кулиева

Духовные моральные проблемы в первых рассказах Анара

Резюме

В статье рассказывается о первых шагах ведушего писателя Анара в литературе. Внимание обращено на особенности его периода. Рассказкии как "В ожидании праздника", "Такси и время", "Рассказ гардеробщицы", "Дождь перестал", "Я, ты, он и телефон", "Грузинская фамилия", "Молла Насреддин-66», "Сказка доброго падишаха", "Горы не могут столкнуться" подчеркнуты вообще. Рассказка "Последняя ночь уходящего год" по сравнению с известной драмой Джалил Мамедкулизаде "Книга матери". Там показаны множество духовных, моральных проблем в рассказах.

A. Guliyeva

Spiritual moral problems in Anar's first Stories

Sammary

Our notable writer,. Attention is paid to the characteristics of his period. Stories like "Longing for the holiday", "Taxi and time", "Cloak room", "The rain stopped,", "Me, you, him and the telephone", "Georgian Last Name", "Molla Nasraddin-66", "The tale of a good Padishah", "Mountains cannot come across..." are emphasized generally. The story "The last night of the old year" is compared with the Jalil Mammadquluzadeh's famous drama "Mother's book". There are shown a variety of spiritual, moral problems in the stories.

Rəyçi. R.Əliyev
f.ü.e.d..dosent

PƏRİXANIM SOLTANQIZI
Filologiya elmləri üzrə fəlsəfə doktoru

NİZAMİ VƏ ABAY YARADICILIĞINDA FOLKLORDAN QAYNAQLANAN HÖKMDAR VƏ XALQ PROBLEMİNİN QOYULUŞU

Açar sözlər Nizami, Abay, xalq, hakimiyyət, problem.
Key words: Nizami, Abay, People, Governor, Problem
Ключевые слово: Низами, Абай, Народ, Провитель, Проблема

Nizami yardıcılığından təsirlənən Abay "İsgəndər" (tərcümə edən Novruz Gəncəli) poemasında Nizami ənənəsini sona qədər izləmişdir. Sənətkar incəliyilə "İsgəndərnamə"nin hər iki hissəsindən faydalanmışdır. Abay Kunanbayev də tarixiliyi gözləmişdir. Onun da qəhrəmanı Makedoniya hökmdarı Fillipin oğludur. Lakin Nizamidən qaynaqlanan şair onu olduğu kimi təqlid etməmişdir. "İsgəndər"orijinaldır. Mühitindən, zamanından çıxış edən şairin özünəməxsus fəlsəfi mülahizələri, mühakimələri və hadisələrə məntiqi yanaşma münasibəti var.

Böyük Nizami "İsgəndərnamə"də ədalətli hökmdar, cəmiyyət problemini qoymuş,öz istək və arzularının təcəssümünü bu problemin həllində göstərmişdir. Abay Kunanbayev isə poemasını XIX əsrin böyük demokratik şairi olaraq qələmə almasına, bu məsələyə demokratik nöqteyi-nəzərdən yanaşmasına baxmayaraq öz fikirlərini fəlsəfi-əxlaqi baxımdan təcəssüm etdirmişdir. Poemada Nizami əsərində olduğu kimi insan, sərvət, qanlı müharibələr, fani dünya məsələləri qarşı-qarşıya qoyulmuş və bunlar insanın kamilləşməsinə, dünyanın dərk olunmasına yönəlmişdir. Abay bu mövzuya müraciət edərkən ictimai, siyasi- fəlsəfi mərama cavab verə bilən bədii təxəyyülünün gücü ilə İsgəndəri Qazax ədəbiyyatına gətirmişdir. Poema ictimai-siyasi çəkisinə, fəlsəfi idraki-əxlaqi, tərbiyəvi səviyyəsinə görə şairin digər poemalarının, İsgəndər isə obrazlarının fövqündə dayanır.

Nizamidə olduğu şəkildə Abay da İsgəndərin uşaqlıq illərini, necə böyüməsini təsvir etməmişdir. Hər iki əsərdə İsgəndər şahlıq taxtına 21 yaşında oturur.

Ömründən keçərkən tam iyirmi il,
Şahlığa ucadan vurdurdu təbil.
(1, səh 55)
Şah öləndə, oğlunun yaşı iyirmi birdi,
Gəncliyin çiçəklənən bir dövrünə girirdi.
(3, səh 171)

"Qurani-Kərim"də dünyanın böyük Nəbiləri ilə İsgəndərin adının bir sırada çəkilməsindən Nizami xəbərdar olduğundan İsgəndəri peyğəmbər səviyyəsinə qaldırmışdır. Bundan istifadə edən Abay İsgəndəri Allaha inanan, ona pənah aparan, çətinə düşəndə dualar edən müqəddəs din adamı kimi təsvir etmişdir.

Bir yerdə İsgəndərin qüdrəti çatmayanda,
Deyirlər qəzəblənər, hirslə edərmiş dua.

Burada da hücum çəkdi qapıya, qışqırdı "hey"--
Açın qapını, sizi and verirəm Allaha!"
(3, səh 174)

Nizami İsgəndərin həyatını üç mərhələdə təqdim etmişdir. "Özünə qədərki hərb dünyasında əvəzi olmayan dahi sərkərdə, qoşun başçısı, nadir diplomat, strategiya və taktika ustası, dövrünün elmi-fəlsəfi biliklərinə, kainatın və insanlığın sirlərinə dərindən hərtərəfli yiyələnmiş, böyük alim, mütəfəkkir filosof, köhnə dünyanın simasını dəyişdirmək, onu yenidən qurmaq, yer üzündə zülmü, cəhaləti, nadanlığı silib atmaq, insanları dinə, imana, mənəvi birliyə, Allaha qovuşdurmaq, bütünlüklə bəşəri nicat uğrunda mübarizəyə qalxmış ulu peyğəmbər" (4, səh 127).

Abay da bütün bunlardan sənətkarlıqla istifadə etmiş öz "İsgəndər"ini yaratmış, ona yeni məzmun və forma vermişdir. O, İsgəndəri sərkərdə, qoşun başçısı,strategiya, taktika ustası kimi qələmə alır. İsgəndər fatehdir. Şah oğlu, şahdır. Var-dövlət hərisidir. Bu hərislik onu başqalarının torpağını, xəzinəsini ələ keçirməyə, soyğunçuluğa sövq edir. Onun keçdiyi yerdən qan iyi gəlir. Şəhərləri, kəndləri işğal edir, xalqı soyur, talan edir, heç kimə aman vermir. Düşmənə diz çökdürür. Hətta qan tökən cəlladların --- şahların, xaqanların, sultanların gününü qara edir. Şahları taxtdan salır. Döyüş meydanlarında tökdüyü qanlardan nəhəng çaylar, dənizlər yaranır. Bütün bunlardan İsgəndər yorulmur, etdiyi qarətlərdən gözü doymur. Onun şanı-şöhrəti bütün aləmi bürüyür. Yer üzü hələ belə qaniçən görməyib. İllər, əsirlər ötəcək onun törətdiyi dəhşətləri insanlar unutmayacaq, tarix yaddan çıxarmayacaq.

Öz baba torpağını böyütdükcə böyütdü,
Ömründə baş əyməyən ona səcdəyə getdi.
Xanların, xaqanların, sultanların, şahların,
Qan tökən cəlladların gününü qara etdi.

Tutduqca ölkələri artdı nəfsi, tamahı
Qələbəylə, zəfərlə o açdı hər sabahı.
Yaltaqlar onun haqda hər tərəfə yaydılar
"İsgəndər"– şahlar şahı yer üzünün Allahı
(3, səh 171-172)

Etdiyi müharibələrdə, işğallarda bütün maneələri vurub dağıdan, qalib İsgəndər qızıl dəmir qapı qarşısında aciz qalır. Bir gün İsgəndər qoşunu ilə sonsuz susuz səhrada qalır. Susuzluqdan qoşunu da özü də əziyyət çəkir. Buna tab gətirə bilməyən kəhəri ölür. Qoşunundan da ölənlər olur. Bir tərəfdən susuzluqdan əziyyət çəkməsi, digər tərəfdən sevimli kəhərini itirməsi, qoşunundan ölənlər onu qəm dəryasına qərq edir. Qüssədən üzülür, kəhərinin boynunu qucaqlayıb xiffət edir. Bu zaman qəribə və maraqlı bir hadisə baş verir. Ona elə gəlir ki, ulduzlar işıq saçır. Bu işıqdan onun gözlərində "işıq seli" yaranır. Isgəndər işığa doğru getməyə başlayır. Bu sel duru, şəffaf, ləpəli bir çaya dönür. İsgəndər həmin çaydan doyunca içir, suyun saflığı, şəffaflığı onu heyrətləndirir. Qoşununu səsləyir.

Onlar da, kəhərləri də sudan doyunca içir, yanan dodaqları, ciyərləri sərinləyir.Təfəkkürünə əsaslanan İsgəndərə görə bu çay hansısa bir mənbədən axır. Həmin mənbənində yerləşdiyi məkan onun tanımadığı, işğal etmədiyi bir ölkədir.

Mənbəyində bulağın yəqin varlı ölkə var,
Ellərini soyarıq, bizə təslim olarlar,
Sərvətini çaparıq, dönərik evimizə,
Qılınclı şöhrətimiz bir də ərşə səs salar.
("İsgəndər" səh 173)

Həmin ölkəni işğal etmək, var-dövlətini daha da artırmaq, qan tökmək, soymaq, talamaq, niyyətilə suyun axdığı mənbəyə doğru üz tutan sərkərdə qoşununu da arxasınca aparır:

Günlərlə yol gedən qoşunun zirehli geyimləri, şeypurların səsi aləmi bürüyür. Nəhayət İsgəndər uca, qorxunc bir dağa çatır ki, dağın mağarasından şəffaf bulaq axır. Mağaranın qızıldan olan qapısı o qədər hündürdür ki, göy qurşağına dəyir. İsgəndərin "dəmir əli" nəyə toxunurdusa uçulub dağılardı. Bu dəfə isə əksinə qapını döyən "dəmir əlilə" sanki xəmir-mayaya toxunur. Qızıldan par-par yanan qapı önündə İsgəndər aciz qalmasından, gücsüzlüyündən utanır. Qüruru əzilir. Ona elə gəlir ki, onu tanımadılar. Qəzəblənən İsgəndər deyir:

--"Mən şahların şahıyam—məşhur İsgəndərəm mən
Yoxdur elə bir ölkə çıxsın itaətimdən
Hakimlər hakiminə yaraşmaz dilənçi tək
Bağlı qapı dalında dura izn ala səndən".
(3, səh 174)

İsgəndərin qapıçı ilə söhbəti ona verilmiş "hədiyəyə" münasibət bildirməsi, alimin ona aydınlıq gətirməsi poemanın ən gərgin, dramatik və ibrətamiz səhnələridir. Bu səhnələrdə Nüşabə İsgəndər qarşılaşmasına oxşar motivlər var. İsgəndər özünü Nüşabəyə taxta doğru getməsi, təkəbbürlü davranışı ilə tanıdırsa, (1, səh 210-211) "İsgəndər" də qapıçıya şahların şahı olduğunu söyləyir. (3, səh 174). Qızıldan olan dəmir qapının təsviri ilə Nüşabə sarayının təsvirində də bir oxşarlıq var:

"Elçiyə daş-qaşın parıltısından, Bir alov göründü durduğu məkan".
(1, səh 207)

"Mağaranın qapısı,Qızıldan, par-par yanır,"
(3, səh 174)

"Göylərə baş vuran bir saray gördü,Onu yerlər öpür, göylər opürdü".
(1, səh 207)

"Qapı elə hündürdür, Dəyir göydə qurşağa".
(3, səh 175)

Elçi sifətilə onun sarayına gələn İsgəndərə Nüşabə cəsarətlə, deyir.

Söz açma İsgəndər qılıncından sən,
Özünə çarə tap İsgəndər sənsən.
Məni çağırarkən toruma düşdün,
Gözünü yaxşı aç, çiysən bir düşün,
Elçidə olurmu belə cəsarət?

Hüzurda göstərsin bu qədər hiddət?
Qəhr ilə buyruqdan nə əl çəkirsən,
Nə qarşımızda boyun əyirsən,

Bizimlə hökm ilə edirsən rəftar,
Belə rəftar yalnız padşahda olar.
(1, səh 209-211)

Qapıçı da İsgəndərin hökmlə qılıncının qüdrətilə qürurlandığını gördükdə ona kəskin, qəti cavab verir.

Çox güvənmə ağlına, lovğalıq eləmə, şah!
Yer sənə azlıq edir, nə qədər olar tamah?
Paxıllığından əl çək, bəsindir tutduqların,
Axır səni məhv edər bu acgözlük, bu iştah.
(3, səh 175)

Hər iki səhnədə hökmdarın çətin vəziyyətə düşməsi təsvir olunur ki, indiyədək heç kəs Nüşabə kimi, qapıçı kimi onunla belə cəsarət edib danışa bilməmişdir.

Nüşabə İsgəndərin şərəfinə ziyafət verir. Süfrəyə düzülmüş nemətlər şahı heyrətləndirir. Ölkələr gəzən, ziyafətlərdə olan İsgəndər belə nemətli süfrə mədəniyyəti heç yerdə görməmişdir. Çeşid-çeşid quzudan, quşlardan, öküzdən, balıqdan, yağdan, şəkərdən hazırlanmış yeməklər kökələr, mürəbbələr bir sözlə qarşısında heç yerdə görmədiyi yeməklər şahı olan süfrə açılmışdı. Süfrəyə həmçinin qaş-daşla bəzədilmiş xonça qoyulmuş və şah öncə ondan yemək dəvətini alır, Nüşabə Ey, böyük hökümdar, yeyin ən dadlı bu xuruşlardan"deyir İsgəndər heyrətlənir və bu məsələdə bir məna gizləndiyini dərk edir: İsgəndər –söyləyir "Ey sadə dilbər, ölçüsüz söyləmə tökməyəsən tər? Düzmüsən süfrəmə almaz, yaqut, dürr".

Daşı da yeyərmi ağıllı insan?
Daş-qaş yeyilərmi, bu nə deməkdir?
Bu rəngi təbiət həzm etməz inan?
Eylə bir yemək ver, mədəmiz dolsun,
Rəğbətlə ona əl uzatmaq olsun?

Nüşabə gülərək cavab verir:

Daşın ki, boğaza yolu yox daha,
Faydasız, yaramaz belə daş üçün
Bu qədər vuruşmaq, çarpışmaq neçin?
İndi ki, yeməyə yaramaz bu daş,
Dünyada onunla ucalarmı baş?
Dəyərsiz bir daş ki, olmayır yemək,
Onunçün bu qədər zəhmət nə gərək?
Yollardan daşları almaq lazımkən,
Daşı, daş üstünə qoyursan nədən?
Bu daşdan doyunca hər kəs ki, aldı,
Yemədi, daş yenə yerində qaldı.
Deyilsənsə daşa pərəstiş edən,
Daşını yüngül et yerində qal sən.
(1, səh 215)

Əsil həqiqəti dərk edən İsgəndər Nüşabəyə daş-qaş hərisi olmasından əl çəkdiyini söyləyir.

Süfrəyə cəvahir saçmaq nə gərək?
Gövhərdən qaçmağı mənə öyrətmək?
Bununla bərəbər diqqət edincə

Sözlərin yeridir, doğrudur məncə
Qızıl sikkəsini nəsihətinlə
Atıram bir kərə torpaqlara mən,
Qızıla torpaqdır təbii mədən
(1, səh 218)

Sözlərilə hökmdar qadın İsgəndərin mübarizə yollarını şübhə altına alır, onu mənəvi-əxlaqi cəhətdən inkar edirdisə, qapıçının sözləri də İsgəndərə törətdiklərini düşünməyə vadar edir. Onun üçün nə qədər ağır olsa da həqiqəti qəbul etmək məcburiyyətində qalır. Çünki başqa çıxış yolu qalmır.

Nüşabənin təsirinin nəticəsidir ki, İsgəndər qoşunu ilə Ruma səfər edərkən götürdükləri cəvahiratları yolda torpağa basdırıb, nişanlayırlar ki, qayıdanda götürsünlər. Başqa yolla geri qayıdırlar. Basdırdıqları o sərvətin ardınca getmirlər.

"Çoxlarını qul etdin, yenə doymadı gözün, İndiki istəyirsən götür töhfəni özün" – deyib, Mağara gözətçisi qapıdan hakimə içərisində göz çanağı olan əl boyda "nə qısa, nə də uzun" bir bağlama atır. Təəccüblənən İsgəndər bunun səbəbini alimdən soruşur. Aristotel onda bir hikmət olduğunu bilir. Və tərəzinin bir gözünə göz çanağının, bir gözünə də qızılı qoyub çəkməyi məsləhət görür. Göz çanağı qızıldan ağır gələndə İsgəndər bu tərs mütanasiblikdən qəzəblənir. Qızılı artırmağı əmr edir. Yenə də sümük qızıldan ağır gəlir. Hakim alimə sual verir. "Görünür çox az qızıl keçirmişəm əlimə, sümük ağırlığında sərvətim yoxdur mənim. Nəylə çəkək sümüyü? Bu sirri deyək kimə?" (3, səh 176)

Müdrik yunan filosofu Aristotel əyilib yerdən bir ovuc torpaq götürüb göz çanağına tökür. Gözlərin yeri dolur. Qızıl sümüyü çəkir. Gözünə bir ovuc torpaq tökülmüş kəllə sümüyü havaya qalxanda bu sirrə heyran qalan İsgəndər xəyala dalır. Burada bir hikmətli sirr gizləndiyini anlayır. Aristoteldən bunun səbəbini soruşur.

Necə başa düşüm mən? "Danış məni başa sal"
Söylə, bu möcüzədə hansı hikmət gizlənir?
Alim bu sirrin hikmətini belə açıqlayır.
Sümük göz çanağıdır, bir ovuc torpaq tutur
Mənası aydan ayrı, sudan da lap durudur--
Yer üzündə tapılmaz elə qiymətli sərvət
Acgözləri doydura, ancaq torpaq doydurur.
Bu dünya malını top kimi əllərində tutsa da,
Tamahkar gözlər üçün yenə azdır dünyada
Öləndən sonra torpaq ən əziz, qiymətlidir.
Tamah qalmaz almaza, tamah qalmaz yaquta.
(3, səh 177)

Bu epizodda Abay İsgəndərin yeddi alimlə söhbətindən faydalanmışdır. Aristotelin İsgəndərə dedikləri Bilici filosof Bəlinasın İsgəndərə dediklərini xatırladır.

Bilici Bəlinas təzim elədi,
Torpağı öpərək hörmətlə dedi:
Şah gizli sirləri soruşdu bizdən,
Fikrimi hüzura ərz eyləyim mən:

İlkin tilsim kimi yaranmış torpaq,
Qalan tərkiblər də ondandır ancaq.
Hərəkət qüvvəsi ona etdi kar,
Atəşi söndükcə yarandı buxar.
Onun da ən parlaq zərrələrindən
Ulduzlar yaranmış,--- fikrindəyəm mən.
Buxarda vəzncə ağır olanlar
Hərə bir mərkəzdə tuturdu qərar.
Onlardan birinci--- işıqlı oddur,
Dünyanın ən yüksək tağı da oddur.
İkinci--- havadır, hərəkətdədir,
Hərəkət etməzsə, bilinməz nədir.
Üçüncü—sudur ki, təravət verər.
Hər şeyə təzəlik, lətafət verər.
Dördüncü--- torpaqdır, tapdayır əyyam,
Tapdanan köksündən toz qalxır müdam.
(2, səh 102)

Yunan filosofu qızıldan ötrü vuruşmağın, müharibələr, qarətlər törətməyin mənasız, torpağın isə insan üçün ən əziz, qiymətli olduğuna İsgəndəri inanındırır. Alimi sükutla dinləyən fateh qızıl sümüyü çəkə bilməyəndə bir sümük ağrılığında sərvət toplamadığına təəssüflənmişdir. İndi isə onun mənasız olduğunu dərk edir. Bu dəfə keçirdiyi peşmançılıq hissi başqadır, "zəhmətim heçə getdi, əməyim heçə getdi. Allah bilən yaxşıdır. Üz qoydu, qərbə doğru, arxasıncada da ordu getdi və gözdən itdi". (3,səh 177)

Dünyanı dərk edən fateh etdiyi əməllərə, müharibələrə görə peşiman olur. Poemanın sonunda müəllif İsgəndərin sonrakı taleyini təsvir etməsdə Nizami ənənəsini gözləyir. İsgəndərin əqli-mənəvi cəhətdən qərbə doğru üz tutması onun sonrakı şəxsi həyatının hökmranlığının bir sonudur. Nədir bu sonluq? İsgəndər dünyanın sirlərini, mahiyyətini, faniliyini anlamış, heç kəsin bu dünyadan özü ilə ağ kəfəndən başqa heç nə aparmadığını dərk etmiş, çox taxtların boş qaldığını mənəm-mənəm deyənlərin son aqibətinin torpaq olduğunu bilmiş, müharibələrə son vermiş, çəkdiyi zəhmətlərin heç bir dəyəri olmadığına vaqif olmuşdur. Müharibələrə vida dediyi gündən dinc rahat yaşamağın hökmünü vermişdir.

Nizami Nüşabənin, Abay da Aristotelin vasitəsilə İsgəndəri islah edib, dünyanı dərk etməyə, sərvət toplamaqdan ötrü mənasız müharibələrdən əl çəkməyə, gördüklərindən nəticə çıxarmaq yollarını başa salır.

"İsgəndərnamə"nin İqbalnamə hissəsindən də Abay istifadə etmişdir. İsgəndər ətrafına yeddi alimi cəlb edir. Onlara qulaq asır. Dediklərini qəbul edir. Abayın İsgəndəri isə yeddi alimdən birini Aristoteli yanında saxlayır. Çətinə düşəndə ona müraciət edir. Nizaminin İsgəndəri aciz qalanda (məsələlər müxtəlif olsada) ona Valis, Sokrat, Bəlinas, Hürmüz, Əflatun, Fərfuryus, Ərəstun kömək edə bilmir. Ancaq Aristotel İsgəndəri düşdüyü vəziyyətdən xilas edir.

Bu oxşar motivlər Abayın yaradıcılığına heç bir xələl gətirmir. Əksinə ideya-məzmun cəhətdən onu daha da zənginləşdirir. İdeya-bədii məzmun, hisslərin doğruluğu, konkretliyi, milli kolorit onun yaradıcılığını şərtləndirən dəlillərdəndir. Orijinaldır. Sənətkarın həyat müşahidələrinin məcmusudur. Yaşadığı tarixin canlı

aynasıdır. Görkəmli alim, prof. Pənah Xəlilovun qeyd etdiyi kimi bəlkə də bəzi oxşar fikir və motivlərdə ədəbi təsir tapmaq olar. Lakin bunlar Abay poeziyasının tam orijinallığına, onun dərin ictimai-fəlsəfi məzmununa, yüksək estetik dəyərinə, milli koloritinə, şairin canlı, həyati müşahidəsindən gələn nəcib və yüksək qənaətə, Abay yaradıcılığının müasirliyinə xələl gətirmir. Əksinə, oxşar motivlər klassiklərin toxunduğu mövzuları Abayın necə müasirləşdirdiyini, müasir fikri ifadə etmək üçün həmin mövzulardan necə orijinal qidalandığını, eyni həyat probleminə münasibətdə tanıdığı və tanımadığı mütərəqqi müasirləri ilə onun bir mövqedə dayandığını göstərir.

Poemanın sonunda şair ürək ağrısı ilə aforizimlərində, şeirlərində, satiralarında etdiyi hikmətli nəsihətlərinə yenidən qayıdır. Dünyanı dərk etməyi, faydalı yaşamağı təlqin edir:

Sən ey şöhrətə uyan, canfəşanlıq eləmə!
Tamahkar öz gözünü doydura bilməz, əlbətt
Ömür elə qısadır, sanki əl edib gedir,
Səadət ildirm tək gəlib yanından ötür,
Vicdanını, namusunu mal kimi satmısansa,
Sənin işin, şöhrətin nifrət gölündə itir,
Axmaqların tərifi məğrur eyləyir səni.
Yaltaq tülkülər ilə doldurursan dövrəni,
Başını yan tutanda, qəh-qəh çəkib deyirlər:
"Belə vicdansız adam olub dünyada yəni"
Sevər- özünü öysün o kəs ki heç nə qanmaz.
Pul ilə heç bir zaman mərifət almaq olmaz.
Öz qədir qiymətindən nə lazım danışarsan?
Varsa münəvvərliyin, işıq zülmətdə qalmaz!"
(3, səh 179)

Nizami "İsgəndərnamə"nin sonunda İsgəndərin taleyindən, həyatından bəhs edən dastan yazdığını söyləyir. Abay isə nağıl, hekayət

"Bu dəri dastanım yetişdi sona.
Yaxşı fal, xoş tale yar oldu ona"
(1, Səh 220)

"Bitdi burda bu nağıl, bitdi burda hekayət".
(3,Səh 177)

İsgəndərin həyatından bəhs edən bu əsər janrına görə nəzmlə yazılmış nağıl hekayətdir.

Ədəbiyyat

1. Nizami Gəncəvi. İsgəndərnamə Şərəfnamə Bakı, Lider 2004
2. Nizami Gəncəvi. İsgəndərnamə İqbalnamə Bakı, Lider 2004
3. Abay kunanbayev Şerlər və poemalar ADN 1970
4. Xalid Əlimirzəyev Klassiklərimizin ideal və poetik sənət dünyası

I cild. Elm və Təhsil 2009
5. Pənah. Xəlilov Şərqi Slavyan və Türkdilli xalqların ədəbiyatı IV cild Bakı 1988
6. Firuzə. Ağayeva Abay və Azərbaycan Bakı Elm 2011

П.Солтанкызы

Постановка проблемы провителя и народа в творчество Низами и Абая

Резюме

В статье говорится о влиянии Низами на творчество Абая. С этот точки зрения исследуется процведение Абая Кунанбаева «Искендер.» Здесь проводятся параллели между «Искендернаме» Низами и «Искендер» он Абая. В обоих процведениях, в научном аспекте, комментируются проблемы провителя и народа.

P. Soltanqızı

The using problems of governor and people in the creation of Nizami and Abay

Summary

In this article it is spoken about the affect of Nizami to Abay's creation. In this point of view it is analysed the work "Iskender" by Abay Kunanbayev. It is explained the poetic similarity in comprative from between "Iskendername" by Nizami with "Iskender" by Abay. In both works it is analysed widely the problem of governor and people in scientific aspect.

Rəyçi: prof. Ramazan Qafarlı

YÜCƏL KARAVUZ
azarbaycan.yk1985@hotmail.com

AZƏRBAYCAN MƏTBUATINDA TÜRK ƏSİRLƏRİ

Açar sözlər: Türklər, əsirlər, Nargin, qəzet, məqalə
Ключевые словы: Турецкие, заключенные, Наргин, газета, статья
Key words: Turk, captive , Nargin , newspaper , publish

Birinci Dünya müharibəsinin gedişi Azərbaycanın ictimai-siyasi vəziyyətinə əsaslı surətdə təsir etmiş, ümumtürk həmrəyliyi fonunda milli qüvvələrin fəallığı artmışdı. Qafqaz cəbhəsindəki hərbi əməliyyatların başlanılmasından çox da vaxt ötməmiş, ilk türk əsirlərinin Tiflisə və Bakıya gətirilməsi də hadisələrin gedişinə, istiqamətinə təsir edirdi.

1915-ci ilin yanvar ayından etibarən təxminən hər gün Azərbaycan türk qəzetləri Qars, Ərdahan, Batum və.s. yerlərdəki müsəlmanların başına gələn fəlakətləri xalqa bildirməyə və onları qardaşlarına köməyə dəvət etdilər (1).

"Kaspi" qəzeti müharibə xəbərlərini "Tiflisdən", "Türkiyə cəbhəsi", "Müsəlmanlar və muharibə", "Teleqram", "Bakı və muharibə" rubrikası altında nəşr ətdirir, informasiyaları Tiflisdə olan müxbirin verdiyi məlumatlar əsasında hazırlayırdı. Bu əsirlərin içərisində mülki vətəndaşlar, qocalar, uşaqlar da var idi. Türk əsirlərinin içərisində ölüm faktları artmış, yoluxucu xəstəliklər baş alıb gedirdi.Əsirlər içərisində xeyli yaralı vardı.

Qeyd edək ki, mövzu ilə bağlı dövrün qəzetlərində maraqlı məlumatlar vardır.Buradan məlum olurki, Azərbaycan mətbuatında bu mövzuya ciddi diqqət yetirilmişdir.

"İqbal" qəzetinin 22 dekabır 1914 -ci il tarixli sayında Məmməd Əmin Rəsulzadə yazdığı bir məqalədə, Azərbaycan xalqının çox köməksevər bir xalq olduğunu, köməyə möhtac hər kəsə indiyə qədər əlindən gələn hər cür köməyi etməkdən qaçınmadığını, möhtac insanlara kömək göstərməyin onsuz da bir vətəndaşlıq vəzifəsi olduğunu ifadə etdikdən sonra, müsəlman qaçqınlara kömək etmənin vətəndaşlıq vəzifəsi olmasının yanında, ırqdaşlıq və dindaşlıq vəzifəsi olduğunu da vurğulamışdır.

M. Ə. Rəsulzadə bu məqaləsində, müsəlmanların yaşadıqları fəlakətlər üzərində də dayanaraq, Bakı Müsəlman Cəmiyyəti Xeyriyəsi'nin müsəlman qaçqınlarına kömək etmək üçün bir şöbə meydana gətirməsini və digər cəmiyyət və komitələrin də ona köməkçi olmasının lazım olduğunu ifadə edərək, belə yazırdı:

... Əlbəttə əvvəlcə sözü gedən müsəlman mühacirlərin mövcudu və haralarda olduğu və nə kimi yerlərdən qaçdıqları haqqında kafi məlumat yığıb, təhqiqat icra etmək və dərhal lazım gələn ianələrin toplanıp da mahalına sərf olunmasına baxmaqdır. Ehtiyac gündən günə artır. Müavinəti bir an olsun gecikdirmək olmaz. Bu barədə kimsə müsəlmanları ayrılıq, seçkiliklə də ittiham edə bilməz. Müsəlmanlar digər vətəndaşlarla birlikdə, öhdələrinə düşən vətən vəzifəsini zərrə qədər laqeyd yanaşmadılar və etməyəcəklər. Erbab-ı vukuf bilir ki, hər millətin zavallısına, ancaq o millətdən olanlar necəki lazımdır. Yaxınlaşıp həqiqi və mənəvi muavinəti icra edə bilərlər. Bu cərh olunmaz bir həqiqətdir. Bu barədə iki rəy ola bilməz" (2).

“İqdam” Qəzeti 25 dekabır 1914 -ci il tarixli sayında Bakıdakı zənginlərin də, bunlara hər hansı bir kömək etmək üçün hərəkətə keçməməsini ağır bir dillə tənqid edən Hacı İbrahim Qasımov, Azərbaycanın “avam müsəlmanlarına "səslənərək, belə yazırdı: "Qardaşlar! Millətin xeyr, şərinə sizlər yarıyorsunuz. Qars fərarilərinin əhvalı çox pisdir. Nə qədər qüvvəyi o biçarələrin muavinət edib, heç olmasa onları bu yoxsulluq dərdindən xilas edin" (3).

I Dünya Müharibəsinin xronologiyasını bütünlüklə özündə ehtiva edən rusca nəşr olunan "Kaspi" qəzeti türk əsirlərinin ilk sayı 1914-cü ilin dekabr ayı **və** 1915-ci ilin yanvar, fevral aylarında məlumatlar çap edir, rus ordusunun uğurlu hərbi əməliyyatlarını oxuculara çatdırırdı.Qəzetin "Tiflisdən" rubrikası altında əksini tapan məlumatda qeyd olunurdu ki, Qars ətrafında yanvarın ilk günlərində 523 nəfər əsgər və 4 zabit əsir alınıb Nargin adasına yola salınmışdı (4).

“İqdam” Qəzeti 12 yanvar 1915 -ci il tarixli sayında qeyd edirdi ki\, bu hadisələr üzərində Qızıl Xaç təşkilatları əsirlərin vəziyyətini görmüş və Rus orqanlarına şikayət edərək, vəziyyətin dərhal düzəldilməsini istəmişlər. (5).

“Kaspi” Qəzetinin 14 Yanvar 1915 -ci il tarixli sayında "*Bakı və müharibə* " sərlövhəsi altında çap olunan informasiyada 1915-ci ilin yanvarın 13-də cəbhədən Bakıya 750 yaralı əsir gətirildiyi faktı əksini tapir. Bu yaralı əsirlərin 400 nəfəri Bakının müxtəlif hospitallarında, o cümlədən Nargin adasına yerləşdirilmiş, 350 nəfər isə Vladiqafqaz dəmir yolu vasitəsilə Rusiyanın müxtəlif əsir düşərgələrinə göndərilmişdir (6).

“Bəsirət” qəzeti 17 yanvar 1915 -ci il tarixli sayında yazırdı: “Bundan başqa, Oldenburg Şahzadəsi Türk əsirlərinin vəziyyətlərinin düzeltilmesiyle, əlaqədar olaraq bəzi cəhdlər olduğu aydın olmaqdadır. Belə ki, O, xəstə və yaralı Türk əsirlərinin hərbi xəstəxanadan başqa xüsusi xəstəxanaya də müalicələrinin edilməsi, Türk əsirləri arasında olan həkimlərin öz yaralı və xəstə əsgərlərinə baxmaqlarına icazə verilməsi və Türk əsirlərə verilən yeməklərin iyileştirilerek sıyıq və şorba yerinə plov və qoyun əti verilməsi kimi, Türk əsirlərinin vəziyyətlərini yaxşılaşdırmağa istiqamətli əmr və təlimatlar verdiyi görülməkdədir" (7).

“İqdam” qəzetinin 4 fevral 1915 -ci il tarixli sayında isə bu məlumatlar vardır: "Müsəlman harpzedelerin Qars və ətrafındakı şəhər və qəsəbələrin küləyi hər tərəfdən və hər menbadan alınan xəbərlərə nəzərən, dəhşətli bir ehtiyac və fəlakət içindədir. Rəsmi və qeyri-rəsmi xəbərlərin təsdiq etdiyinə nəzərən oradakı müsəlmanların bir çoxu arpa kavurması yeyirlər və soyuğa qarşı heç bir çarələri olmayıb , donub qalırlar" (8).

Həmin dövrün qəzetlərindəki digər məlumatlara da diqqət edək:

“Kaspi” qəzeti 12 Mayıs 1915 -ci il: “Tiflisdən Bakıya əsirlər müxtəlif qatarlar vasitəsilə göndərilirdi. 1915-ci ilin mayın 11-də 4 nömrəli poçt qatarında Tiflisdən Bakıya 27 zabit və 190 müxtəlif cinsli zabit heyəti gətirildi. Zabitlərdən ikisi avstriyalı idi” (9).

“Açıq Söz” qəzeti 02 oktyabr 1915 -ci il: ‘’….müharibənin gedişindən vaxt aşırışı məlumatlar çap edir,xalqı yurd yuvasından didərgin düşən Anadolu Türklərinə dayaq olmağa,səfalət içərisində boğulanlara, əsirlərə yardım əli uzatmağa çağırır, bu məqsədlə xeyriyyə tədbirləri təşkil edirdi” (10).

“Açıq Söz” qəzeti 25 oktyabr 1915 -ci il : “Keçən il Oktyabr və Noyabr aylarında Qafqaz xətti müharibəsində Bakuya gətirilən Türk əsirləri arasında mərhum olanların dəfn və kefi əməliyyatlarına baxmaq üzrə Cəmiyyət-i Hayriye adına İsmayıl bəy Səfər Aliyof cenabları vəzifələndirilmiş və namazı verilməsini və kefi biçilmek surətiylə 290 ölü dəfn edilmişdir” (11).

“Açıq Söz” qəzeti 26 noyabr 1915 -ci il: “İşdə İnqilabından birlikdə Bakı "da yaradılan" əməl və saldat Vəkilləri Şurası "nın Xüsusi Komitəsinin" əsirlərin olduğu Nargin Adasındakı vəziyyəti araşdırmaq üzrə bir heyəti namizədə göndermişdir. Bu heyətin araşdırmaları sonunda, adada əsirlərdən gündə 30 adamın öldüyü, bunlardan çoxunun ishal və "kızdırmadan" ötəri öldüyünü, adada 1300 xəstə və yaralı olduğunu, lakin Nargin'deki xəstəxananın 400 nəfərlik olmasından ötəri xəstələrin çoxunun barakalarda yatmaq məcburiyyətində qaldıqlarını, yemək və içkilərinin olmadığı bildirilmişdi” (12).

Qeyd edək ki, Həbs düşərgəsində əsirlərin vəziyyətinin dözülməz olduğu haqda ilk dəfə rəsmi şəkildə Azərbaycanın böyük dövlət və ictimai xadimi Nəriman Nərimanov "Hümmət" qəzetinin 28 noyabr 1917-ci il sayında "*Göz yaşı tökdürən Cəzirə*" məqaləsi ilə çıxış etmişdir. İstedadlı publisist olan N. Nərimanov bu məqalədə həbs düşərgəsindəki vəziyyəti açıq və kəskin şəkildə göstərərək yazırdı: "Kaş bu Cəzirəyə getməzdim. Kaş bir dəri, bir sümük bədənləri, sifətsiz gözləri, ahzar edən insanları görməzdim. Kaş "Efendim su", "Efendim yemək", "Efendim paltar" sözlərini eşitməzdim. Kaş çılpaq, dodaqları soyuqdan titrəyən, üzləri bozarmış atasız-anasız balalarla sözləşməyəydim. Kaş xəstəxanada başları kərpiç üstdə can vərən igidlərə rast gəlməyəydim". Nərimanov 1200 əsir türkün hazır ölüm növbəsində durduğunu, 6 min nəfərin bu növbəyə hazırlaşdığını, tifo, vəba kimi yoluxucu xəstəliyin yayıldığını xəbər vərir. Belə çətin, ağır duruma tab gətirə bilməyən, psixoloji sarsıntı keçirdiyini dilə gətirən Nərimanov yazır: "Mən ağladım... Mən gündə məzarlar arasında gün kəçirən, gündə dürlü-dürlü xəstələrin vəziyyətini eşidən, onların axır dəqiqələrinə öyrənmiş, tab gətirə bilməyib ağladım" (13). Nərimanovun qəzetdəki bu məqaləsi ictimaiyyətin, milli qüvvələrin, yerli özünü idarə orqanlarının diqqətini çəkdi və təcili olaraq Bakı Səhər Dumasının nəzdində əsir işlərinə dair komitə yaradıldı, qurumun ilk iclası keçirildi.

“Hümmət" qəzetinin 5 dekabr 1917-ci il sayındakı məqaləsində yazılırdı: ‘’Göz yaşı tökdürən Cəzirə ‘’. Kaş mən bu cəzirəyə gəlməyəydim. Kaş bir dəri, bir sümük bədənləri, sifətsiz gözləri, ah-zar edən insanları görməyəydim. Kaş "Efendim su!", "Efendim yemək!", "Efendim paltar!" sözlərini eşitməyəydim. Kaş çılpaq, dodaqları soyuqdan titrəyən, üzləri bozarmış atasız-anasız balaca balalarla sözləşməyəydim. Kaş xəstəxanada başları kərpiç üstə can verən igidlərə rast gəlməyəydim! Min iki yüz insan balası hazır ölüm növbəsində durubdur. Altı min də bu növbəyə hazırlaşır. Tifmi, vəbamı və ya bir qeyri-sirayətedici marəzmi bunları cəzirəyə qurban edəcəkdir? Yox, yox! Aclıq! Susuzluq və soyuq! Müsəlmanlar: fendim su! Deyib gözlərinizə baxdıqda guya dəmək istəyirlər: Siz insanmısınız? İnsaniyyətə dair qanunlarınız varmı? Siz millət balasısınızmı? Zavallı millət balalarına cavabınız nədir? Sizə baxan, sizi mühakiməyə çağıran bu gözlərdə siz bu sözləri oxuyursunuz? Oxuyub da ürəyiniz sıxılır, gözləriniz ixtiyarsız yaşarır.

Mən ağladım mən gündə məzarlar arasında gün keçirən, gündə dürlü-dürlü xəstələrin ağlamasını eşidən, onların axır dəqiqələrinə öyrənmiş, tab gətirə bilməyib ixtiyarsız ağladım.(14)

"Açıq Söz" qəzetinin 7 dekabr 1917-ci il tarixli məlumatından: "Təhqiqat komissiyası" üzvlərinin Nargin cəzirəsində gördüklərini Belə şərh ədir: "Cəzirədə yaşayan dəhşətli vəziyyətin izlərini görən komitə üzvləri hönkür-hönkür ağlamaqdan özlərini saxlaya bilmirdilər. 400 adam yerləşəcək xəstəxanada 1200 xəstə balıq kimi bir birinin üstünə tökülmüşdü, bəzisi can verirdi, bəzisi "Efendim su", "Efendim yemək" deyə qışqırırdı. Bir tərəfdən isə o gün ölmüş 40 əsir birbirinin üstünə yığılıb dururdu. Gündə 40-a qədər əsir acından susuzluqdan soyuqdan ölür. Əyinlərinə geyinməyə, bir də yandırmağa yanacaqları yox idi. Bir çoxları başlarının altına kərpic qoymuşdular. Quru taxta üstündə yatmaqdan bir çoxlarının yanlarında böyük yaralar əmələ gəlmişdi. Mülki əsirlər arasında 80 yaşında qocalarla yanaşı, 2 yaşından 15 yaşına qədər körpə uşaqlar da var idi (15).

"Hümmət" qəzetinin 11 dekabr 1917-ci il tarixli sayında yazılırdı: "Nargin cəzirəsi barəsində yoldaşımız N.Nərimanovun Dumada dediyi sözlər "Cəzirənin halı hər tərəfdan fənadır. Buradaki evlər adamlar üçün tikilməyibdir. Bu evlar qaranlıq, üfunətli, soyuq daxmalardan ibarətdir. Bunların soyuqluğuna səbəb nəinki yanacaqsızlıqdır Xeyr! Burada həç vaxt pəç yandırmazlar. Çünki odun yoxdur, bu daxmaların soyuqluğuna səbəb taxtaların, aralarında olan deşiklar va damların şüşəsiz pəncərələridir"

Mən sağlamlar üçün bişən şorbanı gördüm: itini sevən insan heç bunu itinə də verməz .Su da burada çox vaxt tapılmır. Burada insanlar susuzluqdan can verirlər.Bu zavallı əsirlərin nallarını daha aşkar nəzərə gətirmək üçün burada bir necə sifralar söyləmək istərdim.Hazır hər gün 40-45 adam ölməkdədir.

Nə isə bu cəzirə bir məzardır. Bu məzarın kənarında hazır min adam növbədə durubdur və 7 min sağlam adam da bu növbəyə hazırlaşır. Gərəkdir daş ürəkli olasan da bu vicdansızlığa davam edəsən: acıqlı, hirsli halında insan insan barəsində bu dərəcə vicdansızlığa meydan versə bəlkə də təbii ola. Fəqət qürur ilə hər saat, hər gün, həftələr, aylar, illərlə bu hərəkətdə bulunmaq insanlıq hərəkəti deyildir. İnsan balası ilə bu cür rəftar nəinki azad Rusiyada gərək görünməsin, hətta vəhşilər arasında görünməyibdir" (16).

Qeyd edək ki, "Möhtaclara kömək" qəzetinin ilk sayı 1918-ci ilin yanvarın 18-də çap olundu. "Əsirlərin və ümummöhtacların məişət və ehtiyacından bəhs edilən" ayda iki dəfə nəşr olunması nəzərdə tutulan qəzetin baş muharriri, Azərbaycan jurnalistikasında öz dəsti-xətti olan və böyük qələm üstadı kimi dövrün seçilən publisti Xəlil İbrahim idi.Cəmi 4 sayı işıq üzü görən Qəzet bütövlükdə türk əsirlərinə, onların problemlərinin həllinə həsr olunmuşdur. Qəzet "Möhtaclara kömək" Cəmiyyətinin orqanı olduğundan, cəmiyyətin rəsmi məlumatlarını oxuculara çatdırır, görülən tədbirlər, toplanan vəsait və xərclər barədə yazılar dərə ədirdi. Məqalələrin əksə-riyyəti "Möhtaclara kömək" Cəmiyyətinin sədn Oruç Orucova və Xəlil İbrahimə məxsusdur.

İlk sayda X.İbrahimin "Yarın", O.Orucovun "Möhtaclara kömək" məqaləsi ilə yanaşı, cəmiyyət rəhbərlərinin "İanə və əşya toplamaq haqda qərardad"ı da çap olunub. Qərardaddan bəlli olur ki, cəmiyyət rəhbərlərinin 1918-ci il yanvarın 11-i tarixli qəran ilə əsirlərə para və əşya toplamaq üçün cəmiyyətin sədri O.Orucov müəy-

yən etdikləri qaydalar hərəsində cəmiyyət üzvlərinə məlumat vermiş, Bakının müxtəlif məhəllələrində bu işi həyata keçirəcək şəxslər müəyyənləşdirilmişdir. Səhər müəyyən dairələrə bölünmüş, hər bir dairədə fəaliyyət göstərəcək şəxslər artıq fəaliyyətə başlamışlar. Məsələn, Hacı Hacıbabəyov məscidi məhəlləsinə Hacı Kərim və Hacı Muxtar təyin olunmuş, onlara bu işdə Hacı 91i 9mircanov və Məlik Məhəm mədoğlu yardım etməli idi. Şəhərin Çəmbərəkənd və diğər məhəllərində də bu sayaq siyahılar tərtib olunmuşdu.

X.İbrahim türk əsirlərinə yardımın Azərbaycan türkləri üçün qardaşlıq borcu olduğunu vurğulayaraq yazırdı: "Öz yurdundan, əziz vətənindən uzaq düşmüş, qərib vilayətlərdə aclıq, susuzluq və bunların nəticəsi olaraq fəlakətə məruz qalmış insan balalarını, adəm övladlanı ölümdən xilas ədəlim! " (17).

Qəzetin ikinci sayında "Əsirlərin şikayəti" məqaləsi Nargində ölüm həyatı yaşayan insanların dilindən qələmə alınıb, onlara baş çəkməyə getməyən imkanlı adamlar məzəmmət olunur. "Əsirlər günü" sərlövhəli yazıda yanvarın 19-da cəmiyyətin təşkil etdiyi ianə və əşya toplama kampaniyası harəsində məlumat əksini tapıb.

Üçüncü sayda Oruç Orucovun "Möhtaclıq" adlı gəniş yazısı çap olunmuşdur. Müəllif insanları mərhəmətə, ölüm ayağında olan kimsəsizlərə köməyə çağırır və bunu miüsəlman həmrəyliyinin tələbi olduğunu qeyd edir.

"Açıq Söz" qəzetinin 18 yanvar 1918-ci il tarixli sayında isə "Möhtaclara Kömək" qəzetinin nəşri barəsində məlumat verilir. Bakıda təsis edilmiş cəmiyyətin eyni adlı qəzet nəşr edəcəyini, bu qəzetdə əsir türklərə, həmçinin ehtiyacı olanlara kömək edənlərin siyahisinin çap olunması qəzetin əsas məqsədi kimi təqdim edilirdi.

Eyni günkü "İanə" başlıqlı yazıda dəyilir: "Nargin ölüm adasında kömoksiz, dərmansız, ölüm pəncəsinə buraxılmış türk əsirlarinə və Anadolu hərbzadələrinə bir qardaş hədiyyəsi olaraq Səmərqənd "Ərbab" Cəmiyyəti tərafından göndərilən 1500 manat ianə Bakıdaki "Möhtaclara kömək" adrəsinə vaqəə olunubdur. İanənin ikinci hissəsi də yaxınlarda göndəriləcəkdir" (18).

N. Nərimanovun cəsarətlə ortaya qoyduğu faktlar Bakı Şəhər Dumasında da müzakirəyə çıxarıldı və ciddi təbirlər görülməsi istiqamətində addımlar atıldı. Müzakirələrdə N.Nərimanov həbsxanaya etdiyi səfərdə gördüklərini söylədi: "Cəziranin halı bir tarəfdən fənadır. Buradaki əvlər adamlar üçün tikilməyibdir. Bu əvlər qaranlıq, üfunətli, soyuq daxmalardan ibarətdir. Bunların soyuqluğuna səbəb nəinki yandırılmaqdır. Xeyr. Burada həç vaxt peç yandırmazlar. Çünki odun yoxdur, bu daxmaların soyuqluğuna səbəb taxtaların aralarında olan deşiklər və damların üstəki şüşəsiz pəncərələrdir". Həbsxananı məzarlıqla eyniləşdirən N.Nərimanov burada hər gün 40-45 məhbusdan öldüyünü, 7 min sağlam insanın da ömürlərinin sonların gözlədiklərini Dumanın deputatları qarşısında söyləyirdi.

Yazıcı Sultan Məcid Qənizadə türk balalarının çəkdikləri əzabdan kədərləndiyini bildirir, müharibənin dəhşətlərindən bəhs ədir və bütün tərəqqipərvər ziyalıların diqqətini Narginə yönəldirdi.

Ziyalılar Nargində uşaqlar üçün məktəb açılması təşəbbüsü ilə çıxış ətdilər və bu tələb yərinə yetirildi.Mustafa Bəy Əlibəyov "Hümmət" qəzetinə göndərdiyi məktubda yazırdı: *"Adada uşaqlar üçün məktəb açımalıdır. Lakin bu məktəbə nə dərslik vərilir, nə də yazı ləvazimatı. öt yəməzlikdən uşaqların gözləri zəijləyib" (19).*

"Qardaş köməyi","Türk əsirlərinə yardım komitəsi",'Möhtaclara kömək'və Bakı İslam Xəyriyyə Cəmiyyətləri Müsəlman Qadınlarının Xeyriyyə Təşkilatının əsas məqsədləri əsirlərə yardım ətmək, onların vətənlərinə dönüşünü gərçəkləşdirmək, kimsəsiz uşaqlara, ahıllara, xəstələrə kömək əlini uzatmaq idi. Bu yöndə fəaliyyət göstərən "Qardaş köməyi" cəbhə bölgələrində sahibsiz qalmış və əsir edilmiş türk övladlarını toplayıb uşaq evlərinə göndərir, xəstə və ahıllara kömək ədir, imkan düşdükcə əsirlərin qaçışını təşkil ədirdi. Azərbaycanın əksər bölgolərində yerli sobələri olan bu cəmiyyətin ən güçlü qolu Bakıda fəaliyyət göstərirdi. Türk əsirlərin qaçışını hələ 1915-ci ildən təşkil ədən cəmiyyətin fəalları ianə toplanışını da həyata keçirirdilər. Bu məqsədlə də "Qardaş köməyi" adlı yalnız bir sayı işıq üzü görən qəzet və daha sonra dərgi nəşr etdirərək, toplanılan vəsaiti Qars çevrəsində baş vərən hadisələrdən zərər görənlərə verirdilər

Bu dərgidə Anadoluya edilən köməklikləri koordinasiya edən Bakı Müsəlman Xəyriyye Cəmiyyətinin "Baş köməkçi" təyinatı ilə məşgul olan Xosrov Paşa Sultunovun və Rusıya Dövlət Dumasının üzvü Məmməd Yusif Cəfərovun da məqalələri işıq üzü görmüşdü. Həsabat mahiyyəti daşıyan bu məqalələr ədilən yardımlar harəsində yətərincə məlumat almaq imkanı vərir.

Qəzetin 2 yanvar sayında "Qardaş köməyi"nin Bakıda 1 manat 30 qəpiyə ayrı şəhərlərdə isə 1 manat 70 qəpiyə satıldığı haqqında vərilən elandan bəlli olur ki, bu işi lntyala keçirənlərin əsas məqsədləri əsirlərə, köçkünlərə daha əsaslı kömək üçün dərginin daha çox satılmasıdır.

“Hümmət” qəzeti yazısında bildirirdi ki, Bakının Nargin adasında 1800-ə qədər Osmanlı əsiri vardır. İki aydan bəri qarınlarına əkmək getməyib və bunca bir qaşıq yağsız və duzsuz şorba ilə idarə edilib. Bütün xəstəxanalara düşün din qardaşlarımızın bu halipərişanlarına mərhəmətən Ərzurum vilayətinin Təzəgül qəriyyəsindən Abdulla oğlu Rasim Cavid böylə səfalətlə yaşayan din qardaşlarının həyatini qazanmag üçün rus komandirini yol üzərində yaxalayıb xitabən cəvab ədiyor ki, bizi bu din qardaşlarımızı bu kimi aclıq səfalətdən xilas ətmak üçün bu halipərişanımızı siz qospadin komandirə ərz ediyorum deyə, bir 5 saat qədər uğraşaraq güc ilə bir məşək un alıb əcələ kuxnalarda şorba yapdırıb kəndi əli ilə ümum bari qələrə təvəccüh ətdikdən sonra təkrar məzkur komandir yanına əzimət əyləyib cəvab ediyor ki, biz əsirlərin təmaman əkməkimizi və ərzağımızı hər gün üçün təmin ədəsiniz. Yoxsa bizi bu Nargindən çıxartmağın icabına baxarsınız dəyə təkrar bir saət uğraşıb. Əkmək qətiyyən yoxdur və bundan sonra şorbalarınız abi olacaqdır deyə cavabını alıb bariqəsinə gəlmişdir.” (20).

Qeyd edək ki, Azərbaycan mətbuatı türk əsirləri ilə əlaqədar həm Azərbaycan və digər türk cəmiyyətlərini bilgiləndirmiş, ictimaiyyəti məlumatlandırmışdır. Bu vəziyyət isə bizə mətbuatın öz vəzifəsini yaxşı yerinə yetirdiyi təqdirdə necə təsirli olacağını bir daha daha sübut etmişdir.

Ədəbiyyat siyahısı:

1. Betül Aslan. “Qardaş köməyi və Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi. Ankara,
2000-ci il, s. 81.
2. “İqbal” qəzeti, 1914-cü il, 22 dekabr.

3. “İqdam” qəzeti, 1914-cü il, 25 dekabr.
4. “Kaspi” qəzeti, 1915-ci il, 10 yanvar.
5. “İqdam” qəzeti, 1915-ci il, 12 yanvar.
6. “Kaspi” qəzeti, 1915-ci il, 14 yanvar.
7. “Bəsirət” qəzeti, 1915-ci il, 17 yanvar.
8. “İqdam” qəzeti, 1915-ci il, 4 fevral.
9. “Kaspi” qəzeti, 1915-ci il, 12 may.
10. “Açıq Söz” qəzeti, 1915-ci il, 2 oktyabr.
11. “Açıq Söz” qəzeti, 1915-ci il, 25 oktyabr.
12. “Açıq Söz” qəzeti, 1915-ci il, 26 noyabr.
13. “Hümmət” qəzeti, 1917-ci il, 28 noyabr.
14. “Hümmət” qəzeti, 1917-ci il, 5 dekabr.
15. “Açıq Söz” qəzeti, 1917-ci il, 7 dekabr.
16. “Hümmət” qəzeti, 1917-ci il, 11 dekabr.
17. “Möhtaclara kömək” qəzeti, 1918-ci il, 18 yanvar.
18. “Açıq Söz” qəzeti, 1918-ci il, 18 yanvar.
19. “Hümmət” qəzeti, 1918-ci il, 8 may.
20. “Açıq Söz” qəzeti, 1918-ci il, 19 yanvar.

Йуджел Каравуз

Турецкие заключенные в Азербайджанской печати
Резюме

Статья посвящена турецким заключенным побывавшие в Наргине.Во время Первой мировой войны турецкие заключенные в тяжелом состоянии держались в острове Наргин. В тот период в Азербайджанской прессе-газетах, журналах стали печататься много записей по поводу этих заключенных.Те самые записи были рассмотрены в статье.

Yucel Karavuz

Turkish captives in Azerbaijani press
Summary

This article is about turkish captives who were in the Nargin Island. During the First World War, the Turkish captives were brought to Nargin Island. Azerbaijanian newspapers have given much information and published many articles about that.

Rəyçi: Nəsiman Yaqublu
tarix elmləri namizədi

NƏRMİN AZADGİL
AMEA
narmin.azadgil@gmail.com

MİFOLOJİ İNAM MƏNƏVİ-ƏXLAQİ DƏYİŞİKLİYİN GÖSTƏRİCİSİ KİMİ (O.BUKEYEVİN "İLDIRIM İZİ" ƏSƏRİ ƏSASINDA)

Açar sözlər: Qazax ədəbiyyatı, Oralxan Bukeev, "İldırım izi", Mifoloji inam mənəvi-əxlaqi dəyişikliyin göztəricisi kimi.

Ключевые слова: Казахская литература, Оралхан Бокеев, «След молнии», мифологическая вера и морально-этические проблемы.

Keywords: Kazakh literature,Oralkhan Bokeev,Trail of lightning,the problem of mythological faith,moral and ethical issues

Söz sənəti özünün inkişafının bütün mərhələlərində folklora, xüsusən də mifologiyaya maraq göstəribdir. Lakin XX əsrin əvvəllərindən mifologiyaya müraciət daha sistematik və ardıcıl xarakter almağa başlayıbdır. Dünya ədəbiyyatında gedən bu proses XX əsrin 60-cı illərindən keçmiş SSRİ tərkibində yaşayan xalqların, o cümlədən qazax xalqının ədəbiyyatından da yan keçməyibdir.

Dünya miqyasında gedən bu prosesin sovet dövrü ədəbiyyatında özünü nisbətən gec göstərməsinin əsas səbəblərindən biri mövcud sistemin qapalı olması və bədii ədəbiyyatı öz siyasi-ideoloji maraqlarına tabe etdirməsi olmuşdur. Burada iki cəhəti nəzərə almaq lazımdır. Birincisi, sistemin bu prosesə şərait yaratmaması, bədii ədəbiyyatda mifologiyanın iştirak etməməsi daimi deyildi. Sonradan da qeyd edəcəyimiz kimi mifologiyadan istifadənin bütün mümkün variantlarının qarşısını almada rejim də, onun məmurları da aciz idi. İkincisi, bədii-estetik dəyərini anlamasalar da, partiya məmurları çox gözəl başa düşürdülər ki, mifologiyaya müraciət onların əsarətdə saxladıqları etnosların assimlyasiyası prosesini zəiflədəcəkdir. Mifoloji mövzulu və motivli yazılmış əsərləri buna görə təqdir etmirdilər. Etnosu etnos edən əsas xüsusiyyətlərin, etnik-milli özünütanımanın və stereotip davranış normalarının əsasında məhz mifoloji inam durur. "Vahid etnosun dünyagörüşü, düşüncə tərzi, inancları, etiqadları, dili eynidir və onu qorumaq etnosun var olmasını şərtləndirən ən önəmli faktordur. Hər bir etnos özünün bütün mövcudluğu dövründə öz varlığını qoruyub saxlamaq uğrunda yad etnoslarla mübarizə mövqeyində olmuşlar"(3,69).

70 - 80 ci illərdə daha da güclənən mifologizmə müraciət meylləri, mifoloji motivlərin ədəbiyyata gətirilmə intensivliyi bütünlüklə sovet, o cümlədən də qazax nəsrində gözə çarpan hadisə idi. Yazıçı tərəfindən əsərə gətirilən, bəzi hallarda zahirən əsərin süjeti ilə bilavasitə bağlılığı qabarıq görünməyən bu cür yerləşdirmələr əsərin bədii strukturuna heç bir mənfi təsir göstərmir, əksinə, onu daha da zənginləşdirirdi. Bu dövrdə Qazax ədəbiyyatında da mifologiyaya meyl geniş vüsət aldı, bununla da qazax ədəbiyyatı yeni keyfiyyət qazanmağa başladı. Bir çox sənətkarlar kimi qazax qələm ustalarının mifə maraqlarının artmasının səbəblərindən biri mifoloji motivin daha geniş ümumiləşdirmələr aparmağa imkan verməsi idi. Sənətkar bəşəriyyət üçün çox əhəmiyyətli olanlara müraciət edir, işıqlandırdığı problemləri

danışmır, onları mifoloji motivdən yararlanmaqla, bütün dövrlərin, zamanların problemləri kimi mənalandırmağa başladılar.

Mif dünyanı, kainatı dərk etməyə, adını verməyə çalışan və bütün bunları elmi əsaslarla yox, inamı əsas götürməklə şərh verən insanı anlamaq vasitəsidir. Hansı əsrdə yaşamasından asılı olmayaraq hər bir insan həyatda bu və ya digər dərəcədə ulu əcdadının taleyini yaşayır. Mif insanların yaşadığı həyatdakı, onların talelərindəki oxşarlıqları (bütün fərqli təzahürü ilə birlikdə) nəzərə almaqla ümumiləşdirmələr aparır. Müasir insan əcdadının bir çox inamlarına inanmır, əsasında arxetiplərin dayandığının fərqinə varmır. Bədii ədəbiyyat mifdən istifadə hesabına bu cəhətləri əsaslandırmağa meyl göstərir.

Qədim insanlar mifi özləri yaradır və yaratdıqlarının qanunlarına tabe olur, onun şərtlərini yerinə yetirirdilər. "Mif özündə ibtidai insanın yaşam şəklini, etiqadlarını, inancını, şəxsiyyətini, varlığını, mövcudluğunu ifadə edir"(4,4). Mif cəmiyyətin uşaqlıq dövrünün məhsuludur, ibtidai insanın düşünülmüş, məqsədyönlü yaradıcılıq ehtirası, yaratmaq hikkəsinin nəticəsi yox, sadəcə olaraq, yaşadığı daha doğrusu yaşamağa çalışdığı, hələ heç dərk edə bilmədiyi və dərk etməyə çalışdığı həyatla mübarizəsi və ibtidai insanın kortəbii şəkildə yaşadığı ömrüdür. İnsanlar onu ehtiyacdan, nə yaratdıqlarının fərqinə belə varmadan yaratmışlar. "Amma cəmiyyət nə uşaqlıq, nə də yetkinlik dövründə mifsiz yaşaya bilmir. Mif insanın özü, varlığı kimi universal hadisədir"(1,17).

Qazax ədəbiyyatının görkəmli nümayəndəsi O. Bukeev nəsri də məhz mifologiyaya marağın artdığı bu dövrün məhsuludur. Onun povest və hekayələrində simvolik ümumiləşmələr nəzərə çarpır və bu yazıçının özünəməxsusluğunu müəyyənləşdirir, mifoloji motiv və obrazlar struktur yaradan komponentlər olur. Yazıçı mifin müraciət etdiyi problemlərin ifadəsinə yardım göstərməyə qadir potensialına müraciət edir, mifin konkret epizod və ideyasının açılması üçün zəruri olan əsas elementlərinin saxlanmasına diqqət yetirir. O. Bukeyev özünün yazdığı kimi: "Mənim povest və hekayələrimin bütün süjetləri doğma yerlər haqqında xatirələr, gənclik illərinin həqiqi hadisələrindən ibarətdir. Mənim həmyerlilərim qazaxlar-dürüst və təmiz ürəkli, bitkin insan xarakterləridir" (6). Tanıdığı, bildiyi, bələd olduğu insanların həyatına müraciət onun bütün yaradıcılığının ana xəttini təşkil edir. Eyni zamanda yazıçı müəyyən bir problemin qoyuluşunda və onun həllində etnik - milli xüsusiyyətləri ön plana çıxarır. Əslində yazıçı şahidi olduğu gündəlik həyatdan yazır, özünün çox yaxın tanıdığı, müntəzəm ünsiyyət saxladığı müasirlərindən söhbət açır. "O. Bukeyevin "İldırım izi" əsərində mifologizm artıq dünyagörüş, həyatın özü, gerçəklik kimi çıxış edir" (3,38).

Əsərin əsas qəhrəmanı Kiyalxan uşaqlıqdan öz doğma kəndindən-aulundan ayrı düşmüş, müəyyən həyat və düşüncə tərzinə malik fərqli bir şəxsiyyət kimi formalaşıbdır. Onu dünya, insanlar, onların taleyi, xarakterlərindəki qeyri-insani keyfiyyətlər, adət-ənənələrini, inanclarını və s. itirmələri çox düşündürür. İllər sonra aula gələn Kiyalxan yuxuda bütün insanlığı fəlakətdən qurtaracaq irreal bir dünya və bu dünyada yaşayan qızı görür və ondan insanları fəlakətdən qurtarmağın yolu kimi ildırım yayını tapıb ən uca dağ zirvəsinə qaldırmaq gərəkdiyini öyrənir. Kiyalxan insanlar üçün artıq həmişəlik itirilmiş bəşəri ideyalar təbliğ etməyə başlayır. İnsanları insanlığın sonunu gətirdiklərinə və bu sonu elə özlərinin dayandıra bilmək qüdrətinə sahib olduqlarına inandırmağa çalışır.

Mifopoetik düşüncədə ümumiyyətlə yuxu motivindən, onun rolundan olduqca çox danışılır. Yuxu əslində inanc mənbəyidir, gerçək həyat əsasında formalaşan və əksər hallarda insanın real həyatı ilə deyil, daha çox yaşamaq istədiyi həyatla bağlıdır, bəlkə də gerçək olmayan və haqqında düşünülməyən gerçəkliklərdir. Deməli, bu mənada yuxu başqa dünyadır. İnsanla birlikdə, həm insanda, həm də ondan kənarda var olandır. Yuxu və onun yozumu əslində bütün bədii əsərlərdə yazıçının məqsədi, düşüncə tərzi, yaşantılarının təzahürüdür. Yuxu mətn içərisində mətn kimi çıxış edir. Lakin görülən hər yuxu mifoloji motiv ifadə etmir. "Mifoloji motiv ifadə edən yuxu hadisələrin axarında əhəmiyyətli rol oynamalı, gedişata əsaslı təsir göstərməli, funksional xüsusiyyətə malik olmalıdır" (1,58).

Yuxu "İldırım izi" əsərində əlavə, bədii bir ornament deyil, obrazı taleyi, əsərin ümumi ideyası ilə birbaşa bağlı vasitədir. Çünki yazıçı öz məqsədini məhz Kiyalxanın yuxusu ilə həyata keçirməyə çalışır və əsər məhz elə bu yuxugörmə simvolikası üzərində qurulur. Bunun üçün yazıçı qəhrəmanını şəhərdən aula gətirir və o, yuxusunu burda görür. Qəhrəman yuxuda gördüyü məkanı həyatda görəndə bu əsrarəngiz eyniliyə və fərqə heyrət edir. "Kiyalxanın baxışı çayın qarşı sahilində olan tənha şam ağacına sataşdı. Oxşarlıq, qəribə oxşarlıq onu heyran etdi. Kiyalxan gözlərini yumaraq, yuxuda gördüyünü indi ayıqlıqda xatırlamaq istəyirdi. Amma əbəs yerə! Onun təsəvvüründə yalnız parıldayan çay, qırmızı-qonur pullu, qollu-budaqlı şam ağacı, yelləncəkdə yellənən qırmızı geyimli qızın əvəzində isə paltar yuyan bibisivardı." (5,241-242).

Hekayədə hadisələr bütünlüklə kənddə - aulda baş verir. Müəyyən mənəvi - əxlaqi dəyərlər sisteminə malik, bəzi dəyərlərini isə itirmiş bu insanları Kiyalxanın yuxusundan, möcüzələrdən, bəşəriyyətin taleyi kimi onlar üçün mücərrəd fikirlərdən uzaqlaşdırır və oları daha çox var-dözlət, qızıl - gümüş düşündürür. Bəzi mənəvi - əxlaqi dəyərlərin itməsi isə onların həyatının müəyyən sahələrində - ailə, qonşuluq, yoldaşlıq münasibətlərində də özünü göstərir. Artıq bu insanlar möcüzələrə və təbii ki, Kiyalxanın yuxusuna da inanmırlar. Kiyalxan yuxuda çox fərqli bir məkan görür.." Çayın kənarında, digər ağaclardan aralı, tənha bir şam ağacını gördü və bu ona öz yuxusunu xatırlatdı. O da bu şam ağacı kimi tənha idi, baxmayaraq ki, arxada öz növündən olan ağaclardan ibarət bir meşə var idi. O, ağaca yaxınlaşdığı zaman qəfildən onun qarşısında alov kimi qırmızı paltarlı qız peyda oldu. Qız ondan yuxular dünyasından ona nəyin lazım olduğunu soruşduqda - Kiyalxan sən - deyə cavab verir və qız ölümlülər üçün əlçatmaz olduğunu bildirir. Bu dəfə Kiyalxan qızdan kainatın bütün sirlərinin açarını istəyir və özünün xoşbəxtliyi üçün bir şey edə bilmirsə heç olmasa insanlara xoşbəxtlik bəxş etmək istədiyini və bu açarın ölümsüzlük olduğuna inamını ifadə etdikdə, qız onun yanıldığını və ona kainatın açarını verə bilməyəcəyini deyir. Bu dəfə Kiyalxan qızdan elə etməsini istəyir ki, dünyada silahlar açılmasın, heç bir insan güllədən ölməsin.. insanlar öz əcəlləri ilə ölsün. Qız bunu onun özünün necə etməli olduğunu, ildırımın yerə düşmüş oxunu tapmalı və bu oxu ən uca dağın zirvəsində saxlamalı olduğunu və nə qədər ki, bu ox insan əlindədir dünyada heç vaxt heç bir qəfil güllə açılmayacağını deyir (5,249). Lakin Kiyalxanın bu möcüzəyə inanması və jasın - ildırım oxunun axtarışı, onun müharibələrə, insan fəlakətlərinə müharibə açmasını heç kəs ciddiyə almır və ona bu işdə kömək etmək əvəzinə onu dəli adlandırırlar. Qəhrəman çıxış yolunu bir anlıq da olsa bu insanlar kimi düşünməklə tapır və onu

ildırım oxu axtardığı üçün dəli adlandıran insanlar indi qızıl - gümüş axtarmaq üçün bütün qüvvələriylə çalışırlar.

Kiyalxan şəhərdən aula gəlir və burada qalır. Əcdadların bəzi xüsusiyyətləri yuxu vasitəsilə qəhrəmanın ruhuna gəlir və o, əcdadları kimi düşünməyə, fakt və hadisələrə münasibət bildirməyə başlayır. Kiyalxanın aula gəlməsi onun öz ilkinə-əcdadına qayıdışıdır. Yazıçının Kiyalxanın 50 yaşlı əmisinin qəzet elanıyla onu axtarıb tapmasında, aula gətirməkdə məqsədi də labüd soykök, doğmalıq, qohumluq axtarışıdır. Doğmalıq yazıçının mifoloji təfəkkür strukturunun əsas tərkib hissəsidir. Kiyalxan şəhərdə yaddır, kirayə qalır, deməli, onun bir gün burdan getməsi labüddür, amma aul da onu doğma qəbul edə bilmir, Kiyalxan onlar üçün həm özününkü, həm özgədir. Burada mifoloji oppozisiya özünü göstərir. Lakin bunun əsas səbəbi Kiyalxanın aula sonradan gəlməsi deyil, onun özü ilə birlikdə fərqli düşüncə, mənəvi - əxlaqi dəyərlər, stereotip davranış normaları gətirməsidir.

Kiyalxan aula gəldiyi gündən görür, dərk edir və dərk etdiyi nə qədər acı olsa da qəbul edə bilir ki, insanlar onun kimi düşünmür, insanlar ümumiyyətlə düşünmür. Kiyalxan düşünür.. : ”kaş günəş batmazdı. Lakin hər şey hədər idi -həyatın narahat axarı kəsintisiz davam edirdi. Həyəcanverici həqiqət onun əbəs yerə uzaqlaşdırmağa çalışdığı şüuruna daxil oldu,qəlbində sevincin ən kiçik zərrəsindən əsər-əlamət qalmırdı. O dünyadan heç bir yenilik gözləmirdi: işıq və qaranlığın həminki şəfəq döyüşü, xeyir və şərin, qara və ağın mübarizəsi hər yerdədir: dünyanın bilinməyən uzaqlıqlarında və Kiyalxanın çox yaxınlığında. Bəlkə də bu həyəcan öz sürətlə keçən, acımasız dünyada başqa həyatlar yığınının arasında itirilmiş, anlaşılmaq və eşidilmək ümidi olmayan ömrünə sadə bir təəsüf idi”(5,239).

O mədəni mühitdən - şəhərdən təbii mühitə - aula gəlibdir. Onun aulda görmək istədikləri ilə gördükləri üst - üstə düşmür. Kiyalxan aula gələrkən əslində öz ilkinə, təbiiliyini, saflığını, təmizliyini qoruyub saxlamış başlanğıcına dönür, lakin axtardıqlarını tapa bilmir. Çünki qəhrəman ancaq şəhərdə bu mənəvi-əxlaqi dəyərlərin itirildiyini, unudulduğunu düşündüyü halda, aulda da bu təmizlikdən əsər - əlamət qalmayıb. Qəhrəmanın bu cür düşünməsinə səbəb odur ki, aul - adi bir məkan deyil, mənəvi - əxlaqi dəyərlərin daha həssaslıqla qorunduğu bir yerdir. Eyni zamanda Kiyalxan aulun - kütlə düşüncəsinə qarşı durduğu, bu düşüncəni qəbul etmək əvəzinə onunla mübarizəni seçdiyi üçün onunla aul insanları arasında qarşıdurma yaranır. Bu, mədəniyyət və təbiətin qarşıdurmasıdır və labüd mübarizəni doğurur.

Kiyalxan və kəndliləri qarşı - qarşıya gətirən simvolik, mifik amil - ildırım oxudur. Kiyalxanın onu yuxuda görməsi, bu möcüzəyə inanması və onu axtarması, aul insanını da buna inandırmağa çalışması Kiyalxan və kəndliləri qarşı - qarşıya gətirir. Lakin əslində Kiyalxanın mübarizəsi onun qarşı - qarşıya gəldiyi insanlarla deyil, bu insanların və ümumilikdə bütün insanlığın gələcəyi üçündür. Deməli, qəhrəmanın mübarizəsi əslində insanların mənəvi - əxlaqi davranış normaları ilə bağlıdır. İlk mərhələdə Kiyalxan sadəcə olaraq başqalarından fərqli düşünürsə, daha sonra isə artıq onlardan fərqli davranır - ildırım oxunu axtarmağa başlayır. O öz inandığı uğrunda mübarizəyə qalxdığı kimi, aul insanları da çalışır ki, öz inandıqları kimi yaşamağa davam etsinlər. Elə buna görə də öz həyatlarındakı kənar müdaxiləni - Kiyalxanı dərk və qəbul edə bilmirlər. Çünki bu insanların özünəməxsus mənəvi dəyərləri var. Onlar özlərinin şüuraltı qatında olan müəyyən tənzimləyici normalar -

inamlarla yaşayırlar. Kiyalxanın birdən – birə aula gəlməsi, onun filosofluğu təsadüfi deyil. O fərqli düşünür. Aul insanları sadəcə olaraq yaşayırlarsa, Kiyalxan düşünərək yaşayır. Kiyalxandan fərqli olaraq mifoloji motiv bu insanların şüurunda ancaq onların günlük həyatını tənzimləyəcək səviyyədədir, bəşəriyyəti düşünəcək səviyyədə deyil. Məhz bu dəyərlərin qarşıdurması, Kiyalxanın yuxusu - ildırım oxu ilə üzə çıxır.

O. Bukeyevin "İldırım izi" əsərində mifologizm yazıçının məqsədli şəkildə qoyduğu problemin həlli üçün bədii vasitə kimi çıxış edir. Jasın - təbii ki, insan üçün əlçatmazdır, çünki insanlar onu əldə etmək üçün heç çalışmırlar. İnsanları artıq insanlıq, bəşəriyyətin taleyi, dünyanın düzəni, müharibəsiz həyat heç düşündürmür. Onlar ancaq var - dövlət haqqında düşünürlər. Kiyalxan cəmiyyətin bu dəyişmiş mənəvi - əxlaqi davranış normalarını hər nə qədər qəbul edə bilmirsə də, onu dəyişə bilməyəcəyini də anlayır və çətinliklə də olsa qəbul edir.

Amma bütün bu insanlardan daha bədbəxt, faciəvi taleyi olan Kiyalxandır. Onun bədbəxtliyi sadəcə bəşəriyyətin bu gününü, sabahını düşünməsi, nə qədər ki, mümkündür bunun üçün bir şey etməyə çalışması, lakin tək olmasıdır. Kiyalxanın faciəsinə səbəb olan amil dünyagörüş, düşüncə, əxlaqi - mənəvi dəyərlər baxımından auldakı insanlarla olan uyğunsuzluqdur. O. Bukeevin bu əsərində ildırım oxu fərqli insan xarakterlərini, müxtəlif taleli insanların hamısını mifoloji amil kimi eyni dərəcədə ehtiva edir. İldırım oxu hər nə qədər insanlara inanılması mümkün olmayan möcüzə kimi görünsə də onun əsas funksiyası insanlığa xidmət etməkdir. Aul insanları üçün ildırım oxu - jasın axtarışı nəinki reallıq, hətta möcüzə kimi də dəlilikdir. Necə ki, insanlar Kiyalxan haqqında bu cür düşünür, Kiyalxan da var - dövlət, şəxsi nəfslərinin əsiri olmuş, ildırım oxunu axtaran zaman Kiyalxana yaxın gələməsələr də, indi onun başladığı işi öz məqsədlərinə uyğun olduğunu düşündükləri üçün hətta davam etdirən bu insanlar haqqında eynisini düşünür: "Yazıq insanlar ağıllarını itiriblər" (5,256). Kiyalxandan fərqli olaraq hələ də insanlıq üçün nə isə etmək mümkün olduğu halda bunu dərk edə bilməyən insanlar yazıqdırlar. Müəyyən mənada Kiyalxan da yazıqdır, həm kəndlilərin nəzərində, həm də əsərdəki sonu olmayan çarə axtarışına görə.

O. Bukeyevin yaradıcılıq prioritetini müəyyənləşdirən əsas amillərdən biri olan mifologizmə müraciət və bunun fonunda mənəvi - əxlaqi dəyərlərin işıqlandırılması onun bütün yaradıcılığı boyu davam etdirilmişdir. "İldırım izi" əsərində də məhz mifoloji simvoldan - ildırım oxundan istifadə etməklə bir aulun insanlarının mənəvi - əxlaqi dəyərləri orijinal bir şəklidə öz əksini tapmışdır.

Nəticə:

O. Bukeyevin yaradıcılıq prioritetini müəyyənləşdirən əsas amillərdən biri olan mifologizmə müraciət və bunun fonunda mənəvi - əxlaqi dəyərlərin işıqlandırılması onun bütün yaradıcılığı boyu davam etdirilmişdir. "İldırım izi" əsərində də məhz mifoloji simvoldan - ildırım oxundan istifadə etməklə bir aulun insanlarının mənəvi - əxlaqi dəyərləri orijinal bir şəklidə öz əksini tapmışdır.

Elmi yenilik:

Qazax yazıçısı Oralxan Bukeyevin həyat və yaradıcılığı Azərbaycanda kifayət qədər tədqiq olunmamışdır. Onun "İldırım izi" əsəri, eləcə də bu əsərdə mifoloji inam mənəvi-əxlaqi dəyişikliyin göstəricisi kimi təhlil olunması problemi Azərbaycan ədəbiyyatı üçün bir yenilikdir.

Tətbiqi əhəmiyyət:

Məqalədən Oralxan Bukeyev yaradıcılığı ilə məşğul olan mütəxəssislər, ali məktəb tələbələri istifadə edə bilərlər. Ədəbiyyat tarixlərinə aid dərs vəsaitlərinin, tədris planlarının hazırlanmasında da elmi mənbə kimi faydalanmaq mümkündür.

Ədəbiyyat:

1. Kamal Rüstəm. Kamal Abdulla: Yazıdan Mifə. Bakı,"Mütərcim", 2011. 115 s.
2. Kamal Rüstəm. Ömür-inanc mətni. Bakı, "Şirvannəşr", 2010. 70 s.
3. Məmmədov A.Ə. Türk xalqları ədəbiyyatı. Bakı, "Elm və təhsil", 2009. 147 s.
4. Məmmədov A.Ə. Türk mifologiyası və türk xalqları ədəbiyyatı. Bakı, "Nurlan", 2011.
5. Бокеев О. След молнии. М., «Молодая гвардия», 1978. с. 320
6. Бокеев О. www.literature.kz. 2009.

Нармин Азадгил

Мифологическая вера и морально-этические проблемы
(на основе рассказа О.Бокеева «След молнии»).

Резюме

В статье на основе рассказа казахского писателя О.Букеева «След молнии» анализируется проблема мифологических верований отдельных образов, особенно Кийалхана. Исследуется роль мифологических верований в процессе изображения внутренних миров и нравственно-этических портретов героев.

Narmin Azadgil

Mythological faith, moral and ethical issues (Based on the story of the "Trail of lightning" O.Bokeeva.).

Summary

In the article, based on the story of a Kazakh writer O. Bukeeva "sign of lighting" analyses problem of mythological belief of individual images, especially Kijalhana. The Role of mythological belief in the process of image of internal worlds and ethical portraits of heroes are researched.

Rəyçi: Arif Məmmədoğlu
filologiya üzrə fəlsəfə doktoru

GÜLARA QƏNİYEVA
ganievagyulara@yandex.ru

İSMAYIL HİKMƏTİN AZƏRBAYCAN-TÜRK TƏRİQƏTLƏRİ HAQQINDAKI DÜŞÜNCƏLƏRİ

Açar sözlər: Azərbaycan, təsəvvüf, təriqət.
Ключевые слова: Азербайджан, мистика, секта.
Keywords: Azerbaijan, mystique, sect.

Təsəvvüf fəlsəfi-dini düşüncə tərzi olaraq, insanın nəfsi ilə mübarizə edərək onu tərbiyə etməsi, öz varlığından, dünya malından, maddiyyata bağlı bütün maraqlardan keçərək Allaha qovuşması məqsədi güdür.(2,69) Təsəvvüf haqqında müxtəlif tərifl ər deyilib. Kelebaziyə görə içləri saf, çölləri pak olan kəslərə sufilər deyilir. Onlar Allahla olan münasibəti saf hala gətirən kəslərdir.(5) Cüneyd Bağdadiyə görə "Təsəvvüf tərki-dünyalığı qəbul edib Allah ilə birlikdə olmaqdır". (4,8) Təsəvvüf haqqında verilən tərifl ərin mini keçdiyini söyləyən Əbdülqadir Sührəverdiyə görə, "təsəvvüfün əvvəli elmdir, ortası elmdir, axırı məhəbbətdir".(4,25) Əbul Hüseyin Nurinin dediyi fikrə gəldikdə isə: "Təsəvvüf nə şəkil, nə də elmdir. O, gözəl əxlaqdan ibarətdir". (4,7)

Türküstanda Əhməd Yəsəvi ilə başlayan geniş yayılmış fəlsəfi-dini təlim olan "Təsəvvüf" Azərbaycanda X əsrdə yaranmış, XVI əsrdən inkişaf etməyə başlamışdır.

Orta əsrlərin mötəbər qaynaqlarında həmin dövrdə yaşamış bir çox azərbaycanlı sufilər haqqında məlumat verilir. Onlardan Hüseyin Cibril oğlu Mərəndi, Əbubəkr Zəncani, İbrahim Yəhya oğlu Təbrizi, Əbülfərəc Əbdülvahid Vərsani, Səid Qasım oğlu Bərdəi, Əli İbrahim oğlu Urməvi, Əbubəkr Məhəmməd Abdulla oğlu Əbhəri, Əbülhüseyin Zəncani, Əbuzürə Ərdəbili və başqalarını göstərmək olar.

Qadirilik (Əbdülqadir Geylani), sührəverdilik (Şəhabəddin Sührəverdi), səfəvilik (Şeyx Səfiəddin Ərdəbili), xəlvətilik (Ömər Xəlvəti) təriqətlərinin qurucuları azərbaycanlıdır. Ona görə də, bəzi tədqiqatçılar bu təriqətlərin vətəni kimi Azərbaycanı göstərirlər. (6) Burada yaşayan sufi qadınlar arasında bildiyimiz tək şəxsiyyət Ərdəbildə yaşamış, həcvlər, təziyənamələr söyləyən, arifə bir xanım olan Bərdəli Fatimədir. (7)

Azərbaycan müəllifl əri təsəvvüf haqqında bir çox tədqiqatlar apararaq öz fikirlərini söyləmişlər. Bu məqalədə XX əsrdə yaşayan görkəmli tədqiqatçı İsmayıl Hikmətin fikirləri üzərində dayanmaq istərdim. O, özünün ən dolğun əsərlərindən biri olan "Azərbaycan ədəbiyyatı tarixi" adlı kitabında Azərbaycanda dini-fəlsəfi fikrin inkişafı üçün yaranmış münbit siyasi durum, zamanın tələbinə uyğun olaraq yaranan təriqətlər və onların yaradıcıları haqqında fərqli fikirlər yürüdür.

Təsəvvüf və təriqətlərin bütün türk ədəbiyyatlarına olduğu kimi, Azərbaycan ədəbiyyatına da təsiri olmuşdur. O zamankı təsəvvüflə əlaqəli şairlərdən Babakuhi Şirvani, Mahmud Şəbüstəri, Həsənoğlu, Qazi Bürhanəddin, Fəzlullah Nəimi, İmadəddin Nəsimi, Dədə Ömər Rövşəni, Şah İsmayıl Xətai, Əbülqasim Nəbati, Mir Həmzə Nigari və s. kimi bir çoxlarının adlarını çəkə bilərik. Onların şeirləri təsəvvüflə bağlı fəlsəfi fikirlərlə zəngindir.

İ.Hikmətin mülahizələrinə görə, təsəvvüfün Azərbaycan ədəbiyyatına mənfi təsiri olmuşdur. Bu ədəbiyyata fars, ərəb düşüncəsinin, fikrinin daxil olması, onun fikrincə, zərərsiz ötüşməmişdir. Tədqiqatçı bu yönümdən çıxış edərək bildirir: "Şeirdə bir ilham mənbəyi olmaqla bərabər, təsəvvüfün ədəbiyyata, bilaxassə türk ədəbiyyatına girməsi faydadan ziyadə zərər vermişdir. Türk hiss və fikrindəki, türk zövq və xəyalındakı saflıq, sadəlik, sağlamlıq orijinallığı öldürdüyü kimi, yaradıcılıq, canlılıq və həyəcanlılığı da boğmuşdur. Həyata təsir edən təsəvvüf canlı insanı cansız bir heykəl halına gətirdiyi kimi, ədəbiyyata soxulan təsəvvüf də onu əsassız və batil fikirlər halına salmışdır". (1,134)

Tədqiqatçı öz yazılarında xalqı cəhalətə sürükləyən, təriqət yoluna sövq edən bəzi yalançı dərvişlərdən, şeyxlərdən də bəhs edərək: "Xalqı bu yollara çəkən şeyxlər, dərvişlər bu təlqinləriylə onları həyatdan uzaqlaşdırmışlar. İnsanları, həqiqətən, ölmədən öldür-müşlər, canlı belə cənazə halına gətirmişlər, dilənçi ruhu, tüfeyli zatı aşılamışlar. (1,133) Ovçuluğu, çobançı-lığı, qavğaçılığı ilə sərbaz və sər azad bir həyat keçirən türkləri sehirlərlə, əfsunlarla tuzağa düşürənlər tamamilə bu şeyxlər və dərvişlər olmuşdur" (1,134) söyləyir.

Bu fikirlərə yaxın mülahizələri Azərbaycan təsəvvüf məktəbində yetişən, XV əsrin mütəfəkkir alimi olan Seyid Yəhya Bakuvidə də rast gəlirik. Seyid Yəhya öz dövründə bir çox saxta sufi və şeyxin mövcud olduğunu bildirir. "Tələbəyə ustadi-haziq gərək, müridə

şeyxi-kamil gərək"- deyərək cahil şeyxin kamala çatdırmasının mümkün olmadığını, şeyx olunan mütləq

alim olması lazım olduğunu, mürid üçün də elmin şərt olduğunu bir çox yerdə ifadə etmişdir.(2,139)

Tədqiqatçı Mehmet Rıhtımın araşdırmaları əsasında Seyid Yəhya Bakuvinin həyatına dair yazdığı fikirlərə nəzər saldıqda xalqın sufilərə münasibətinin birmənalı olmadığını görürük. Seyid Yəhyanın atasının ona: "Oğlum sufilərlə və özünü bilməyənlərlə birlikdə ərbainə girdin. Buna görə də xalq, sufilər ilə birlikdə olur deyə dedi-qodu edir" (2,20) deməsi o dövrdə sufi-lərə qarşı buradakı insanların qənaətini göstərməsi baxımından önəmlidir. Deməli, xalqın o dövrdə sufilərə münasibəti birmənalı olmamışdır. Sufilərin həyat-larından bəhs edən monoqrafik kitablarda onların qarşılaşdıqları bu cür mənfi münasibətlər barədə qeydlərə də rast gəlinir.

Günümüzə kimi Azərbaycan tədqiqatçıları bu şeyxlərin, dərvişlərin, pirlərin haqqında çox ziddiyyətli fikirlər söyləyiblər. Onların xalq arasında xidmətlərə, tutduqları mövqeyə münasibətdə də rəy müxtəlifliyi müşahidə olunur. Tədqiqatçı alim Məşədixanım Nemət bildirir ki, mənbələrin bəzilərində onlar xalqa yaxın, xalqın mənafeyini müdafiə edən, onların qeydinə qalan kəslər kimi təqdim olunurlar.(3,12) Şeyxlərin xalq kütləsi arasındakı nüfuz və təsirlərinə görə tacir və məmurlar xanəgahların xeyrinə vəsait toplayır və bu toplanmış vəsaitdən də xalqın maddi rifahının yaxşılaşdırılması, iqtisadi-siyasi, mədəni həyatının inkişafı üçün istifadə edirdilər. Bəzən isə toplanmış bu vəsaitdən müridlərin burada yaşaması, qərib adamların gecələməsi üçün xanəgah kompleksində binalar tikilirdi. (3,12)

İ.Hikmət Azərbaycanda təsəvvüfün iki təsirinin olduğunu yazır. Biri elmi, təlimi və əxlaqi mahiyyətdə olub, fəlsəfə sistemi şəklində ziyalı kütləsinə xitabən bir elm olaraq etibarlı şəxsiyyətlər tərəfindən tədris olunmaqda, kitablar halında yazılıb paylanmaqda idi. Digəri isə bir təbliğat vasitəsi halında ictimai, iqtisadi və hətta çox

zaman siyasi bir amil kimi görünməkdə və bilavasitə xalqa çatdırılmaqda idi. Tədqiqatçı hər iki halda ədəbiyyatdan bir vasitə, bir alət kimi istifadə olunduğunu bildirir.

İ.Hikmət yabançı dillərin (əsasən, fars dilinin) türk dilinə qarışaraq ədəbiyyatımıza da yol tapması kimi halları pisləyir, bu dillərin dilimizə təsirini belə dəyərləndirirdi: "Bir elm, bir fəlsəfə surətində inkişaf edən təsəvvüfün yaratdığı ədəbiyyat şəklən, ruhən və bədahətən tamamilə farsi idi. Çox zaman dili belə farsca idi... Sultan Vələdin "Rübabnamə"si, Aşıq Paşanın "Qəribnamə"si, Sənan Paşanın "Təzriat"ı kimi. Lakin təlqini bir mahiyyətdə olan və bilaxassə xalq arasına soxulan, çox zaman siyasi, ictimai və iqtisadi bir amil olaraq kullanılan qismi daha çox qövmiləşmiş (folklorlaşmış), türkləşdirilmiş, xəlqiləşdirilmiş bir şəkildə idi. Vəzni, ahəngi, şəkli, zövqü, üslubu, dili tamamilə qövmi ədəbiyyatın (folklorun) çərçivəsi daxilində idi. Yunus Əmrə və bütün təkyə şairləri kimi". (1,135)

Bu təriqətlərə tarixin müxtəlif dönəmlərində insanların baxışları fərqli olsa da, Azərbaycan xalqı bu təlimlərin abidələri olan pir və xanəgahları göz bəbəyi kimi qoruyaraq günümüzə qədər saxlamışdır.

Təəssüf hissi ilə qeyd etməliyik ki, XIX əsrdə rusların işğalı ilə əsgəri məkan halına gətirilən Seyid Yəhyanın Bakıdakı xanəgah və məscidində "Allah", "Hayy", "Hu" səsləri əvəzinə, rus əsgərlərinin sərxoş nərələri yüksəlməyə başladı. 1918-ci ildə erməni təcavüzkarları tərəfindən təxribata məruz qalan xanəgah bu gün ruhu tamamilə çəkilmiş bir vəziyyətdə muzey olaraq fəaliyyət göstərir. XV əsrdə Azərbaycanın çox qiymətli mədəniyyət abidələrindən olan bu xanəgahın bu gün sadəcə divarları qalmışdır. Bu qalıqlar da xətalı bərpa işləri nəticəsində öz tarixi formasını itirir. (2,156)

Qədim Qobustan ərazisində və onun ətrafında sufi təriqəti ilə bağlı bir çox ziyarətgahlar mövcuddur. Bunlardan Sofi Həmid, Şeyx Baba, Diri Baba, Sofi Novruz, Görmə Baba, Yel Piri kimi insanların pənah gətirdikləri ocaqları göstərmək olar. Azərbaycandakı müqəddəs ocaqlar içərisində az bilinənləri və heç tədqiqata cəlb olunmayanları da az deyil. Burada, qısaca Nardarandakı qəbiristanlıqda rast gəldiyim çox illər öncə baxımsız halda olan məqbərədən ibarət Seyid Yusif adlı şeyxin qəbrini xatırlatmaq istərdim. Bu məqbərənin görünüşcə digər qəbirlərdən fərqlənməsi düşündürücüdür. Xalqa düzgün yolu, təmizlik, saflıq yolunu göstərən bu pir sahibinin qəbrini ziyarətgaha və pirə çevirən səbəblər araşdırmaya möhtacdır.

Əsrlər boyu bu müqəddəs yerlər bir çox hakimiyyətlər görməsinə baxmaya-raq, öz tarixi və mənəvi əhəmiyyətini itirməmişdir. Əhali inanc mənbəyi olan bu ocaqları ziyarət edib və etməkdədir. Son zamanlarda bu abidələrin öz tarixi görü-nüşünə uyğun bərpasına edilən cəhdlər təqdirəlayiqdir. Çünki bu ziyarətgah və pirlər bizə təriqət və onların davamçıları olan əcdadlarımızdan qalmış tarixi yadigarlardır. Azərbaycanın istənilən bölgəsində bu kimi abidələrə rast gəlinir. Bu tarixi abidələrin hər birinin ayrı-ayrılıqda öz gücü, öz yaranma tarixi var və onlar ciddi araşdırma və elmi dəyərləndirməyə möhtacdır.

Ədəbiyyat:

1. İ.Hikmət. Azərbaycan ədəbiyyatı tarixi.- Bakı: 1928
2. M.Rıhtım. Seyid Yəhya Bakuvi və Xəlvətilik.- Bakı: 2005

3. M.Nemət. Azərbaycan pirləri.- Bakı: 1992
4. Evliyalar Ansiklopedisi.- I cild, İstanbul: 1990
5. www.belgeler.com
6. az.wikipedia.org
7. www.milli.az

Резюме

В данной статье впервые обьектом исследования являются взгляд на мистику Исмаила Хикмета с различных аспектов и оценка мистицизма.

Summary

A view on mystique of Islamyil Hikmet from different aspects and estimation of mysticism is a first object of the study in this article.

Rəyçi: Səadət Şıxıyeva
filologiya elmləri namizədi

MÜNDƏRİCAT

DİLÇİLİK

Sevindik Vəliyev
Bir daha sadə cümlənin semantik
strukturu haqqında 3
Ə.M.Rüstəmov
Zəngəzur bölgəsinin
Qubadlı rayonunun bəzi toponimləri 9
Firəngiz Eyvazova
Reading skills a writing approach to – reading
comprehension – schema theory in action 13
Böyükxanim Eminli
Xitabların semantikası 18
O.B.Cəlilbəyli
Yapon dilində baş üzvlərin cümlədə rolu haqqında 25
Günel Paşayeva
Dilin lüğət tərkibinin zənginləşməsində terminlərin rolu 33
Наиля Гаджиева
Развитие речи студентов на основе связного текста 39
Ranə Babayeva
О некоторых проблемах научно-технической литературы 45
İlahə Qurbanova
Анализ фонематических дистрибутивных единиц в пра-тюркском
языке в сравнительно-историческом аспекте 50
Елена Велиева
Портфолио как средство повышения эффективности формирования
профессионально ориентированной иноязычной коммуникативной
компетенции 57
Mətanət Quliyeva
Transformasiyanın təyin olunması və transformasiya hadisəsinin cümlə
kompleksləri ilə bağlılığı haqqında..... 62
Telman Quliyev
Müstəqillik illərində Avropa dillərindən sözalma 66
Vəfa Məhərrəmova
Leksik paralelizm faktlarinin meydana gəlməsində
etimoloji dubletlərin rolu haqqında..... 70
Afaq Arixova
The importance of teaching vocabulary 77
Üzeyir Həsənov
Müasir Azərbaycan dilində bəzi leksik şəkilçilərdə mürəkkəbləşmə 81
Çiçək Bədəlova
İngilis dilində bəzi qrammatik materialların tədrisi metodikası 85

Антига Ализаде
Коммуникативная направленность диалога в обучении разговорной речи студентов-медиков 90
Гюльнара Рзаева
Текст как единица речевой деятельности 96
Tamilla Cavadova
Metaforalar və onlarin Şekspir yaradıcılığında rolu 103
Tərənə Süleymanova
Dilçilikdə leksik alınmalar.
Leksik alinmalarin genealoji xüsusiyyətləri 107
Mirvari Qasimova
Semasioloji söz qruplarında sinonimlərin təyini kriteriyalarına dair 112
Nüşabə İsmayılova
İngilis və Azərbaycan dillərində mətndaxili cümlələr arasında əvəzliyin rolu..... 120
Dürdanə Qurbanova
Yarımçıq cümlənin mətndə funksional xüsusiyyətləri 126
Rəhilə Məmmədova
Methods of foreign language teaching and its relation to other sciences 132
Sevinc Məmmədova
Tea ching hearing and speaking 138
Sevda Xəlilova
Müxtəlif sistemli dillərdə antonimliyin ifadə vasitələri 145
Jalə Bəşirova
Nitq aktları arasında əlaqələrin xüsusiyyətləri 151
Х.Мусаева
Концептуализация языка и пословица 156
Yagut Aliyeva
Grammatical and lexical differences between british and American english 161
Gulbeniz Jahangirova
Linguistic aspects of black english (lexical peculiarities) 166
Лейла Сейидзаде
Ролевая игра и ее влияние в обучении английскому языку 171
Alik Hanifayev
Sevda Mammadova
Les textes litteraires et la lecture en contexte fle. 178
Nigar Əliyeva
Linqvokulturologiyada dünyanin dil xəritəsinin aspektləri 189
Elmira Əliyeva
Müasir İngilis dilində ismin kəmiyyət kateqoriyası 194
Mahnur Şirinova
Semantic aspects of english phraseological units with body parts 199

Pərvanə Xanızadə
L'analyse et la traduction des locutions phraseologiques français verbo-nominales a travers du contexte 205
Рейхан Сафаралиева
Внеаудиторная работа, из опыта работы, как один из видов активизации учебной деятельности 209
Sevinc Səlimova
İngilis dili frazeologiyasının zənginləşməsində şekspirizmlərin rolu 215
Ирада Гулиева
О переводе экзотизмов (на материале перевода исторического жанра) . 221
Рена Амрахова
К переводу фразеологических единиц 226
Jalə Abdullayeva
Alman dilində alınma sözlər 231
Gülrux Hüseynova
Heydər Əliyevin nitqində üslubi fiqurlar 238
Məhəmməd Vəliyev
Analitizm və onun türkologiyada araşdırılması vəziyyəti 243
Xumar Həsənova
İngilis və Azərbaycan dillərində inkarliq anlayişının morfoloji yolla ifadəsi 250
Ləman Əhmədova
Azərbaycan və İngilis dillərində peşə və sənət bildirən şəkilçilərin işlənməsinə qısa bir nəzər 255
Elnaz Aliyeva
The study of intercultural communication is a reality of everyday life 260
Mirməhəmməd Ağayev
Azərbaycan dilində mürəkkəb söz problemi 264
Arifə Hüseynova
Dildə imperativ və deontik məntiq 270
Ghaffar Khamahani
Structural ambiguity in azerbaijan and iran newspaper's headline news 275

ƏDƏBİYYATŞÜNASLIQ

Təranə Aslanova
Mirzə Bala Məmmədzadə və Məmmədəmin Rəsulzadə 292
Elşad Səfərli
Abbas Abdulla sonetlərində yenilik axtarışları 297
Aygün Hüseynova
1950-60-ci illər romanında milli xarakter 302
А.Гахраманова
Несоответствие лексических субститутов в переводе на семантическом и идеологическом уровне как фактор изменения смысла..... 307

Vəfa İsmayilova
Mirzə Fətəli Axundzadənin ədəbi görüşlərində türk poeziyasının
dəyərləndirilməsi 313
Afət İsrafilova
İngilis ədəbiyyatinda tarixi romanin təşəkkülü 326
Sakibə Ələsgərova
Millilik, azadlıq və xəlqilik poeziyası
(Bulud Qaraçurlu Səhəndin yaradıcılığı əsasında) *330*
Təranə Rəhimli
İsa **H**üseynovun bədii nəsri ədəbi-nəzəri fikirdə 337
Əfsanə İsmayilova
Milli azadlıq və duyğular şairi: Bəkir Çobanzadə 342
Hüseyn Həşimli
Ələkbər Qərib Naxçıvanlının hekayələri 347
Nadir İsmayılov
Balaş Azəroğlu və uşaq ədəbiyyatı 360
Səadət Hüseynova
İlk romantik dramların ədəbiyyatımızda mövqeyi 368
Könül Heydərova
Azərbaycan dramaturgiyasında obraz müxtəlifliyi
(XIX əsrin sonu – XX əsrin əvvəlləri) 373
Nigar İbrahimova
Abdulla Şaiqin uşaq hekayələri 379
Maya Yusifova
Arazdan başlayan dünya 384
Qədim Qubadov
XV-XVI əsrlər Azərbaycanda ictimai-siyasi
mühit və səfəvi-qizilbaş şairləri 390
Böyükağa Mollayi
Qacar ailəsindən iki şair 397
Xəyalə Əfəndiyeva
Şərti-metaforik üslubun bədii imkanları 404
Sima İsmayilova
F.Kərimzadənin "Çaldıran döyüşü" romanında tarixilik və bədiilik 414
Cəmilə Quliyeva
İlyas Əfəndiyevin əsərlərində folklor elementləri 420
Leyla Məmmədəliyeva
Müstəqillik illərində Elçin publisistikasında Heydər Əliyev obrazı 425
Ləman Ismayilzadə
XIX əsrin birinci yarısında Qarabağ ədəbi mühti: Qasim bəy Zakir 432
Aytən Quliyeva
Anarin ilk hekayələrində mənəvi-əxlaqi problemlər 436
Pərixanim Soltanqızı
Nizami və Abay yaradıcılığında folklordan qaynaqlanan
hökmdar və xalq probleminin qoyuluşu 441

Yücəl Karavuz
Azərbaycan mətbuatında türk əsirləri 449
Nərmin Azadgil
Mifoloji inam mənəvi-əxlaqi dəyişikliyin göstəricisi
kimi (O.Bukeyevin "İldırım izi" əsəri əsasında) 456
Gülara Qəniyeva
İsmayıl Hikmətin Azərbaycan-türk təriqətləri haqqındakı düşüncələri 462

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 2

«Elm və Təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

Yığılmağa verilmiş **2.03.2013.**
Çapa imzalanmış **22.03.2013.**
Şərti çap vərəqi 29**.5** Sifariş **№ 21.**
Kağız formatı **70x100 1/16.** Tiraj **500.**

Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
E-mail: elm_ve_tehsil@box.az
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.